Redaktoru: **Fazilə Qafarqızı**

Ə.Hacızadə. Əsərləri, X cilddə, VII cild, Bakı, «Nafta-Press», 2005, 476 səh.

Yazıçı Əlibala Hacızadənin bütün əsərlərini əhatə edən X cildliyinin VII cildinə müəllifin «Xoş gəlmisən Nərgizim», «Ölüm yoxdur», «Möcüzə» və «Yandırılmış adam» romanları daxil edilmişdir.

H $\frac{4702060000-7}{071(2005)}$ **Qrifli nəşr.**

© «Nafta-Press» nəşriyyatı, 2005

ROMANLAR



XOŞ GƏLMİSƏN, NƏRGİZİM

(Dramatik roman)



MƏN – İş saatı yenicə qurtarmışdı. Evə – ailəsinin, uşaqlarının yanına, dükana-bazara tələsən şöbə əməkdaşları beş-altı stol, iki şkaf qoyulmuş, iri lay pəncərələri şəhərin ən gözəl, axar-baxarlı küçələrindən birinə açılan otağı tərk edib getmişdilər. İdarədə təkcə Toğrul qalmışdı. Buna o, uzun illərdən bəri adət eləmişdi. Hamı çıxıb gedəndən, gəl-get azalandan sonra o, redaktə etdiyi əsərin əlyazmasını təzədən qabağına çəkər, səbrlə, təmkinlə, düşünə-düşünə oxuyar və düzəlişlərini edərdi. Yorulanda qələmini yerə qoyub siqaret yandırar, qızarmış, yorğun gözlərini qənşərində qoyulmuş stola — Nərgizin stoluna dikər, hər səhər hamıdan qabaq gəlib suladığı dibçəkdəki «aşdım-daşdım» gülünə baxar-baxar, xəyalında Nərgizi öz yerinə gətirib oturdar və ürəyində, səssiz-səmirsiz onunla dərdləşərdi.

Bu balaca otaq Toğrulun ən çox sevdiyi, demək olar ki, müqəddəs sandığı yer idi. Ruhən, qəlbən və fikrən o, on iki il idi ki, burada yaşayırdı. Bu otaqda Nərgizin nəfəsi vardı, özü kimi zərif və incə gülü vardı, ağ, ətli qollarını üstünə qoyduğu qırmızı müşəmbəli stolu, oturduğu stulu qalırdı, ilıq, mehriban və isti səsi qalırdı. İstirahət günlərini çıxmaq şərtilə hər gün səkkiz saat o gözəl qadın burada oturardı, bu səkkiz saat Toğrul üçün o qədər mənalı, o qədər şairanə və hiss olunmadan keçərdi ki, ürəyində öz taleyindən çox razılıq eləyərdi. Yorulub əldən düşəndən, şəhərin ucqarındakı tək otaqlı mənzilinə çıxıb gedəndən sonra da o, xəyalən burada qalardı. Sanardı ki, onu buradan uzaqlaşdırsalar, əsla yaşaya bilməz: sudan çıxarılmış balıq kimi çırpınıb-çırpınıb ölər. Bəli, bura Toğrul üçün şirin xatirələr otağı idi, ata-ana, bacı-qardaş nəfəsilə isinməyən mənzilindən doğma idi, əziz idi.

Toğrul Nərgizin boş qalmış stoluna baxıb düşündüyü zaman şöbənin meşin qapısı ehtiyatla açıldı və bayaq qızlara qoşulub otaqdan çıxan Nərgiz ürkək-ürkək içəri girdi. Yaşı otuz beşi çoxdan adlasa da, hələ də ilk gənclik təravətini əsla itir-

məmiş, qaraya çalan qonur gözlərində cavanlıq nuru bərq vuran, zərif və mütənasib vücudu ilə qızdan seçilməyən, şux və şirin gülüşlü Nərgiz bu gün nədənsə daha gözəl idi: Toğrulun çox sevdiyi yeri qara güllü qırmızı donunu geymişdi. Həmişəkinə nisbətən şad və xoşbəxt görünürdü, deyib gülür, qızlarla zarafat edirdi. Səbəbini isə kimsə bilmirdi. Nərgizin bu qeyri-adi şadlığı Toğrula da sirayət etmişdi: o da şən olmuşdu, həmişə fikirli, qayğılı görünən sifətinə sevinc qonmuşdu. Dəniz suyu kimi göy-mavi və daima daxili bir kədər ifadə edən gözləri gülmüşdü.

Şöbə tünlük olduğundan bu gün demək olar ki, bircə kəlmə də kəsə bilməmişdilər. Nərgiz qızlarla çıxıb gedəndə də nə işarə ilə, nə də açıq-aşkar ona heç nə deməmişdi. Toğrul da fürsət tapıb ondan bir söz soruşa bilməmiş və nigaran qalmışdı. Nərgiz təzədən otağa qayıdıb gələndə Toğrul sevindi. Qələmi yerə qoyub nəzərlərini Nərgizə zilləyərək soruşdu:

— Nə əcəb qayıtdın, Nərgiz?

Nərgiz həyəcanlı bir səslə cavab verdi:

— Sənə sözüm var, Toğrul.

Nərgiz bayaq çıxıb gedəndən sonra Toğrulun bütün günü ürəyini çulğamış qəm-kədər bir andaca uçub getdi.

— Bu gün səninlə heç danışa bilməmişəm, Toğrul – deyə Nərgiz onun mizinə yaxınlaşdı. – Amma bu gün səninlə üzbəüz oturub danışmaq istəyirdim. Təəssüf ki, mümkün olmadı. Sonra isə bu, heç mümkün olmayacaq. İndi nəşriyyatın qapısından çıxanda qızlara dedim ki, siz gedin, əlyazması yadımdan çıxıb şkafımda qalıb, gedib onu gətirim. – Bunu deyib Nərgiz balaca, qəhvəyi rəngli redikülünü açdı, içindən qəzetə bükülmüş nəsə çıxartdı və demək olar ki, bir nəfəsə söylədi:

— Bu gün sənin qırx yaşın tamam olur, Toğrul. Səni təbrik edirəm, sənə can sağlığı, yaradıcılıq müvəffəqiyyətləri və hər şeydən çox, könül rahatlığı arzulayıram, Toğrulum. – Toğrulun sifəti gül kimi açıldı. Bu neçə ildə ilk dəfə idi ki, Nərgiz ona «Toğrulum» deyirdi. Bu bir kəlmə sözdə nə qədər mehribanlıq və doğmalıq vardı?!

Nərgiz necə də diqqətcil imiş, aman allah. Onun ürəyində yəqin ki, nə Bünyadın, nə də hələ Toğrulun özünün kəşf edə bildiyi nə qədər gözəl, şairanə və insani duyğular varmış. Toğrulun nəzərində Nərgiz qadınlığın da, insanlığın da ən kamil, ən ülvi mücəssəməsi kimi həmişə yüksəkdə durmuşdu. Onun yolunda çəkdiyi əzablar, keçirdiyi yuxusuz gecələr, sarsıntılar üçün heç vaxt peşmançılıq hissi keçirməmişdi: əksinə, həmişə ona elə gəlmişdi ki, bütün bunlar ona – dünyalar qədər sevimli, şirin, ən incə xatirələr kimi unudulmaz Nərgizə qovuşmaq üçün çox azdı və o, məhz buna görə qovuşa bilməyib, qovuşmayacaq da!

Bax, budur, qayğıkeşliyin, diqqətin ən bariz təcəssümü. Anadan olduğu gün özünün yadından çıxıb, ancaq Nərgiz onu unutmayıb. Onu – Toğrulu anadan olduğu gün münasibətilə təbrik edir. Bunu düşünüb Toğrul mütəəssir halda gülümsündü:

— Çox sağ ol, Nərgiz. Mənim özümün heç yadımda deyildi. Bu boyda şəhərdə məni yada salan, anadan olduğum gün münasibətilə təbrik eləyən bir nəfər varsa, o da sənsən, Nərgizim. Əvvəllər, uşaq evində olarkən müəllimlərim, yoldaşlarım bu günü qeyd edərdilər. Sonralar… yavaş-yavaş hər şey unudulub getdi. Minnətdaram sənə, Nərgiz.

Toğrulun səsi titrədi.

— Yaxşı-yaxşı, kövrəlmə, uşaq deyilsən ki.

— Sənin həssaslığın, qayğıkeşliyin məni çox mütəəssir elədi, Nərgiz.

Nərgiz bükülünü Toğrulun qənşərinə qoydu:

— Bu, qırx yaşın münasibətilə mənim sənə hədiyyəmdir, Toğrul. Bu, sənin və mənim gizli, deyərdim ki, qeyri-adi məhəbbətimizin şirin tarixçəsidir. Sənlə qırılmaz tellərlə bağlı olan bu ötən on iki ildə bəxş etdiyin sevincləri, unudulmaz əzabları bax, bu lentə yazmışam – maqnitafon lentinə. Bünyad dənizdə olanda yazmışam. Mən bütün varlığımla buradayam – bu lentdəyəm: ürəyim də, məhəbbətim də buradadır. Mən heç vaxt öz hisslərimi sənə belə yerli-yataqlı danışmamışam, danışa da bilməzdim, bəlkə də ömrüm boyu heç danışa da bilməyəcəyəm. Ancaq mən

istəyirəm ki, sən mənim ürəyimdəkiləri bütün incəliklərinə qədər biləsən, Toğrul. Oxudarsan, qulaq asarsan. Nə vaxt könlünə düşsəm, məni yanında görmək istəsən, mənsizləsən, maqnitafonu qurarsan, səsimi eşidərsən: mən sənə məhəbbətimizin nağıl kimi şirin əfsanəsini danışacağam, Toğrul.

— Nərgizim, - deyə Toğrul həyəcanla ayağa qalxmaq, ömründə ilk dəfə, heç olmasa bu gün onu qucaqlayıb bağrına basmaq və işıqlı gözlərindən, nazik və təravətli dodaqlarından öpmək, duz kimi yalamaq istədi, ancaq Nərgiz buna imkan verməyərək ehmalca çiynindən basıb onu yerində oturtdu, özü əyilib Toğrulun vaxtından əvvəl qar kimi ağarmış saçlarından, sevincdənmi, həyəcandanmı yaşarmış gözlərindən hərarətlə öpdü və:

— Bu da mənim sənə hədiyyəmdir. – dedi. – İlk və son hədiyyəm, Toğrulum.

Sonra çəkilib kənardan Toğrula baxdı və işıqlı gözlərini qırpıb gülümsündü: - Görürsən, bəzən belə də olur. – Susdu, Toğrul ona nəsə demək istəyirdi ki, Nərgiz imkan vermədi: - Heç nə lazım deyil, demə. Ancaq belə xoş gündə mən sənə ağır bir xəbər də verəcəyəm. Mən gedirəm.

— Hara, Nərgiz?!

— Sibirə.

— Sibirə?

— Hə. Bünyadla gedirəm. Sibir nefti onu maqnit kimi özünə çoxdan cəzb eləyirdi. Deyir, Sibir indi – işıq deməkdir. Sibir indi – ölkəmizin nur çeşməsidir. Azərbaycan neftçiləri gərək Sibir neftinin ilk kəşfiyyatçıları olsun. Saxlaya bilmədim, gedirəm – deyir. Mən də onunla getməliyəm. «Ər harda, arvad da orda olmalı!» – deyir. Bilirsən, Bünyad bu fəlsəfə ilə yaşayanlardandır. Gedirəm, kim bilir, bir də görüşəcəyikmi?

Bu xəbər Toğrul üçün doğrudan da ağır və dözülməz idi. O, yatsaydı, heç yuxusuna da girməzdi ki, günlərin bir günü həyatı qədər, bəlkə də daha çox sevdiyi Nərgiz buradan Sibirə gedəcək və o, tək qalacaq. Onsuz da Toğrul tək idi, ancaq belə yox. Nərgizsiz o, necə yaşayacaqdı, necə?

Eşitdiyi onu yamanca sarsıtmışdı. Yalvarmaq istəyirdi: «Getmə, heç yerə getmə. Mən yaşaya bilmərəm. Sənsizliyinə dözə bilmərəm». Ancaq o, bunların heç birini deməyə imkan tapmamış Nərgiz yüngül bir hərəkətlə, quş kimi uçub qapıdan çıxdı. Toğrul elə bil, yuxu görürdü.

… Nərgiz xəyala dönüb gedəndən sonra Toğrul bir yerdə qərar tuta bilmədiyindən kağız-kuğuzunu yığışdıraraq siyirtməsinə qoydu, pencəyinin döş cibindən gün eynəyini çıxararaq gözünə taxıb küçəyə yendi.

Avqustun sonu idi, səhərdən yerə-yurda od ələyən günəş uca binaların arxasında gizləndiyindən hava xeyli sərinləşmişdi. Dənizdən yüngül meh də əsirdi, elə bil, küçələr boyu əkilmiş çinarların yarpaqları asta-asta pıçıldayırdı, sanki hardasa, kimsə musiqi çalırdı. Bir az kədərli, bir az sevinclə süslənmiş, gərilmiş əsəblərə sığal çəkən musiqi… Bəlkə bu, həmişə belə olub: bəlkə indi də heç belə deyil. Amma Toğrulun ürəyində meh əsirdi, musiqi çalınırdı…

Bu gün Toğrul sanki Nərgizi həmişəlik tapmışdı da, həmişəlik itirmişdi də. «Oxudarsan, qulaq asarsan. Nə vaxt könlünə düşsəm, məni yanında görmək istəsən, mənsizləsən, maqnitafonu qurarsan, səsimi eşidərsən: mən sənə məhəbbətimizin nağıl kimi şirin əfsanəsini danışacağam, Toğrul». Bu sözləri Nərgiz bu gün demişdi.

«Gedirəm. Kim bilir bir də görüşəcəyikmi?» – bunu da o demişdi. Bu gün demişdi.

Nərgizin bayaqkı qeyri-adi və gözlənilməz hərəkəti nisgilli ürəyini, ruhunu təzələmiş, onu dünyanın ən xoşbəxt adamı eləmişdi. O, yerə-göyə sığışmırdı. Toğrul, evə hansı yolla, necə gəlib çıxdığını xatırlamırdı. Çörək yemədən, rahatlanmadan çoxdan işlətmədiyi maqnitafonu gətirib stolun üstünə qoydu, qurdu. Ürəyi çırpına-çırpına düyməni basdı. Çarx fırlanmağa başladı; Nərgizin ona dünyada hər şeydən əziz və doğma olan səsi eşidildi.

NƏRGİZİN SƏSİ: - Salam, Toğrulum. Mənə yaxın otur, əzizim. Qismətimiz belə imiş: bizə bir yerdə yaşamaq, bir-

birimizi əzizləyə-əzizləyə ömür sürmək qismət deyilmiş. Neynək, bəlkə bu, daha yaxşıdır, daha mənalıdır, Toğrul. Birbirimizdən doyub usanmadan yaşamaq, usandırmadan yaşamaq daha gözəl deyildimi? Yaxın otur, canım-ciyərim, bu gecə ilk dəfə sənlə dərd-dil eləmək, sənin həssas ürəyinin əzablarını yüngülləşdirmək, sənə xoş və şirin sözlər demək istəyirəm, Toğrulum.

Bu hekayət sənə tanışdır, onu sən özün başlamısan, böyük çətinlikdən sonra məni də özünə qoşmusan, ikimiz bir yerdə davam etdirmişik, səssiz-səmirsiz… sonuna isə ancaq ölüm nöqtə qoyacaq…

Bu məhəbbət dastanını sən yazmadın, sənin kitablarında bu qəribə və gizli sevginin əsrarəngiz əfsanəsinə rast gəlməmişəm. Bəlkə də yazıbsan, ancaq mən onun ayrı-ayrı qığılcımlarını sənin yazılarında görmüşəm. Bəlkə də fikirləşibsən ki, heç kəs inanmaz belə məhəbbətin olduğuna? Belə düşünməyə təkcə sənin yox, çoxunun haqqı var. Çünki çoxları bu gözəl, insanı yaşatmağa qadir olan duyğunu, hissi bayağılaşdırıblar, söndürüblər, hətta mən deyərdim, öldürüblər. Görəndə ki, məhəbbət adiləşib, cılızlaşıb, mənim ürəyim ağrıyır. Görəndə ki, Leylinin, Məcnunun, Fərhadın, Şirinin ülvi sevgisinə bizim bəzi cavanlar gülürlər, mənim ürəyim ağrıyır. Belə adamların təmiz ürəklə sevə biləcəyinə mən əsla inana bilmirəm.

Mən bu məhəbbətimizlə fəxr edirəm, Toğrul. O, kimsənin məhəbbətinə bənzəmir. Onu bənzəməz, təkrarolunmaz eləyən sənsən, əzizim. Hamı deyir sən arıqsan, vücudun zəifdir. Yox, Toğrul, sən mənim tanıdığım adamların ən güclüsü, ən iradəlisi imişsən. Sənin nə böyük ürəyin varmış. Sən xoşbəxtsən ki, belə sevə bilirsən. Hərdən səni ərimlə, tanıdığım, bildiyim adamlarla müqayisə edirəm. Sən xasiyyətinlə də, əxlaqınla da, məhəbbətinlə də heç kəsə bənzəmirsən, Toğrul. Fədakarsan, sevgilisinin yolunda hər əzaba, məhrumiyyətlərə dözən adam məsləkinin, əqidəsinin yolunda da bütün çətinliklərə dözər, deyirəm. Təkcə bunu fikirləşəndə ki, sən on iki il ərzində hər gecə məni görmək üçün bizim evin yanına gəlirsən,

məni balkonda, pəncərə ağzında görməmiş getmirsən – sənin məhəbbətinin böyüklüyünə təzədən inanıram. Adətmi eləmisən? Qəribədir ki, mən də buna adət etmişəm. Səni axşamlar görməyəndə pərişan oluram, o gecəni narahat yatıram, deyirəm, görəsən başında nə iş var? Xəstələnməmisən ki?

Sən mənə öz məhəbbətindən çox danışıbsan. Danışmayan vaxtlarda da özüm görmüşəm, hiss eləmişəm. Sənin əzablarını görmüşəm, sinə dolusu çəkdiyin ahları eşitmişəm, bəzən dünyadan, insanlardan küsdüyünü görmüşəm. Vaxt olub, sənə yazığım gəlib, vaxt olub sənə ağır söz demişəm, beləliklə özümdən uzaqlaşdırmaq istəmişəm. Amma mümkün olmayıb. Sən sözümdən inciməyibsən də. Əvvəllər bu məhəbbət mənə yersiz və gülünc görünürdü – ona görə susurdum. Sonralar bunun ciddi bir sevgi olduğunu anlayıb qorxdum. Səndən qaçmağa çalışdım. Amma bütün ciddi-cəhdimə baxmayaraq bacarmadım. Səndə nəsə bir sehir vardı, əfsun vardı: məni hər gün, hər saat özünə cəzb edirdin, fikrimi, düşüncəmi məşğul etməyə başlayırdın.

Yenə ürəyimdə bir ümid vardı: deyirdim keçib gedəcək sənin bu hisslərin, öləcək, bu yersiz, vaxtsız-vədəsiz başlayan məhəbbət sönüb gedəcək. Özünə də neçə dəfə demişdim, çıxart bu fikirləri başından, özünə də, mənə də nahaq yerə əzabəziyyət vermə. Sən kədərli-kədərli başını bulayıb: «Kaş bacaraydım» – demişdin.

İllər keçdi, sən məni unuda bilmədin. Mən də çox çalışdım, özümü sənə unutdura bilmədim. Amma sən məni öz məhəbbətinə inandırdın. Elə inandırdın ki, indi mən nə qədər qəribə olsa da, bu məhəbbətlə fəxr eləyirəm, öyünürəm. Düşünəndə ki, sən gecə də, gündüz də mənim haqqımda fikirləşirsən, sənin ən böyük arzun mənəm, - nə danım – fərəhimdən yerə-göyə sığışmıram, Toğrul. Ürəyimdə gözəl, işıqlı duyğular oyanır, dünyanı, həyatı gözlərimdə gözəlləşdirir: mən yaşamaq, dünyadan zövq almaq istəyirəm. Sənin məhəbbətin hərdən məni elə məst eləyir ki, dönüb öz səadətimdən, bəxtiyarlığımdan qorxuram: sanıram ki, kimsə bu səadəti bizim əlimizdən

almaq istəyir. Sonra arxayın-arxayın düşünürəm ki, sən qoymazsan kimsə sənin və mənim əllərimlə qurulmuş bu növrağı poza. Qoymazsan, deyilmi?

İndi, bu bürkülü yay axşamında bağda tək-tənha oturub ötən illəri nəzərimdə canlandırıram: aradan uzun illər keçdiyinə baxmayaraq elə bil, hər şey dünən olub. Sənin adınla bağlı heç nə yadımdan çıxmayıb, Toğrul.

… Onda bahar idi, Bakıya bahar gəlmişdi. Onda bizim ömrümüzün də bahar çağı idi, gənclik illəri idi o illər. Şən, qayğısız…

Sən o zaman iyirmi səkkiz yaşında cavan, səliqəli geyinməyi xoşlayan, qıvrım saçlı, qaynar gözlü bir oğlan idin. Sakit və təmkinli görkəmində bir görüb-götürmüşlük, nəcabət və qürur vardı ki, mənən saflığının, təmizliyinin nişanəsi təsirini bağışlayırdı. Tərcümeyi-halına, keçdiyin həyat yoluna bələd olmayan adamlar sənin əsilli-nəsilli bir ailədən çıxdığını zənn edərdilər. Halbuki, sən yetim olmuşdun, uşaq evindən çıxmışdın. Böyüklük və sadəlik, daxili ucalıq və özünəməxsusluq səndə elə qəribə şəkildə birləşmişdi ki, mən bütün qohum-əqrəbamızın, dost-tanışlarımın, iş yoldaşlarımın arasında sənə bənzər bir adamı çox axtarmışdım, ancaq tapa bilməmişdim. Nə üçün axtarmışdım, səbəbini o zamanlar özüm də anlamırdım.

Universiteti bitirəndən sonra dörd-beş il Akademiyada çalışdın: eşitdiyimə görə, əsərini də yazıb qurtarmışdın. Ancaq nə üçünsə hər şeyi yarımçıq qoyub bizim nəşriyyata işləmək üçün gəlmişdin. Mən səni bir il olardı ki, tanıyırdım. Hələ onda Akademiyada çalışırdın, beşinci kursda olanda mənim diplom işimə kənar rəy vermək üçün sənin yanına göndərmişdilər və biz ilk dəfə orada, Akademiyanın çil-çıraqlı zalının qabağında tanış olmuşduq. Sənin bu görüş yadındadımı, Toğrul?

Səni bilmirəm, mənim yadımda qalıb o görüş. Ona görə qalıb ki, deyilənə görə, o zamanlar çox qəşəng olan qız qürurumа toxunmuşdun. Yox, yox, ürəyinə başqa şey gəlməsin. Fikirləşmə ki, bəlkə mənim xətrimə dəyən bir söz demisən, ya bir hərəkət eləmisən. Yox, Toğrul, əksinə, sən onda mənə heç

məhəl də qoymadın. Hərəkətlərində, danışığında bir mehribanlıq vardı. Mənə elə gəlirdi ki, bu mehribanlıq ancaq nəzakət xatirinədir. Halbuki mən o zamanlar ürəyini titrətmədiyim (uşaqlıq imiş), sarsıtmadığım bir oğlan təsəvvür etmək istəmirdim!

Mən – o vaxt elə düşünürdüm – gərək öz gözəlliyimlə tanıdığım, yanımdan keçən bütün oğlanların ürəyində nəsə bir iz, bir əsər qoyub gedəm.

Sən ilk adam idin ki, mənə tam biganəlik göstərmişdin və bununla da məni bir növ «sındırmışdın».

Diplom işimi alıb varaqlamış, sonra sadəcə olaraq demişdin:

«Yaxşı, sabah gəlib rəyini apararsan». Vəssalam. Ertəsi gün mən də gəlib diplom işimi və sənin yazdığın bir səhifəlik gözəl rəyi götürüb getmişdim. O vaxtdan mənim ürəyimdə sənninlə bağlı, adını indinin özündə də tapıb deyə bilmədiyim bir hiss düyünlənib qalmışdı. Əgər sən mənim işlədiyim şöbəyə işə gəlməsəydin, bəlkə də bu naməlum hiss unudulub gedəcəkdi və sonralar heç yada da düşməyəcəkdi. Ancaq səni nəşriyyatın direktoru Nəriman müəllimin kabinetindən çıxarkən görəndə köhnə bir tanış kimi, mənə hörmət eləmiş bir yoldaş kimi salam verməyi, hal-əhval tutmağı özümə borc bildim.

— Bizim tərəflərə xoş gəlmisiniz, Toğrul müəllim! – dedim. Mən o zaman, sonralar da uzun müddət sənə müəllim deyə müraciət edirdim. Sən dəhlizdə, meşin qapının ağzında ayaq saxlayıb mənə baxdın və bircə anlığa nə üçünsə özünü itirdin. Uzun illər həsrətlə axtardığı, yolunu gözlədiyi bir adamla qəfildən görüşəndə insan necə şaşırırsa, sən də elə oldun. Rəngin də ağardı. Yaraşıqlı, uzun kirpikli gözlərin sanki bir az böyüdü və sən, utancaq bir tərzdə gülümsünərək:

— Oh… Nərgiz xanım?! Sənsən? – dedin.

Sənin bu çaşqınlığının səbəbini anlamadığım üçün və bu, mənə həddən artıq qəribə təsir bağışladığına görə ərköyün bir qız uşağı tək güldüm:

— Bəli, mənəm, Toğrul müəllim!

Sonra kənara çəkilib ikimiz də qəribə halda gülümsünə-gülümsünə bir-birimizə baxdıq. Anlar keçdi, sən özünü ələ aldın, mən isə dəcəlliyimi bir kənara qoyub ciddiləşdim.

— Sizdən nə əcəb? Yəqin təzə kitabınızı gətirmişdiniz?

— Yox, Nərgiz xanım, özüm gəlmişəm. İşləməyə gəlmişəm.

— Hə? Akademiyanın daşını atdınız?

— Bəli. Bura yaxşıdır.

— Demək, alim olmaq istəmirsiniz?!

— Yox. Bir əldə iki qarpız tutmaq indiki zəmanədə çox çətin məsələdir.

Mən zarafat elədim:

— Qorxdunuz qarpızın birini salıb sındırarsınız?!

— Hə. Ona görə, bəri başdan ağıllı tərpənib qarpızın birini ehmalca yerə qoydum ki, sınmasın. O xatirə ki, qoltuğumda tutduğum o birini mənzil başına salamat aparım. Mənim üçün bədii yaradıcılıq hər şeydən doğmadır.

Sən mənim işimlə maraqlandın. Şöbəmi soruşdun. Mən şöbənin adını deyəndə yenə nə üçünsə uşaq kimi sevindin:

— Nə yaxşı oldu. Bir şöbədə işləyəcəyik ki! – dedin.

O vaxt şöbə müdiri işləyən Musa səni yaxşı qarşıladı. Pəncərənin ağzında, mənim stolumla qabaq-qənşərdə qoyulmuş boş stolu sənə göstərib:

— Bu sənin yerin, Toğrul! – dedi. Səni bizə səmimiyyətlə təqdim etdi – Tanıyırsınız – dedi – əsərlərini oxumuşsunuz, yaxud redaktə etmişsiniz. Bu qəşəng oğlan – Musa gülə-gülə əlavə elədi – çoxunuzun oxuduğunuz «Unutma məni» kitabının müəllifidir. Toğrul Əlizadə.

Sən tərləmişdin. Onda bildim ki, tərifdən xoşlanmırsan. Hamı sənə baxırdı. Xüsusilə qızlarımız. Gombul, ətli-canlı şəkili qızı Solmaz üzünü Musaya tutub şirin bir ləhcə ilə:

— Musa müəllim, ha indi şərti bu başdan kəsirik ki, xırmanda yabalaşmayaq. Bizə öz kitabının üstünü yazıb verməsə, cijimin canına, onu kollektivimizə qəbul eləməyəcəyik.

— Verərəm – dedin.

Səhərisi bizə kitab gətirib verdin. Mən sənin necə də sevindiyini görürdüm, duyurdum, elə sanırdım ki, kitabın çap olunduğuna görə sevinirsən. Bu da vardı. Ancaq əsil sevincin bizim şöbədə işə düzəlməyinlə bağlı imiş. Mən bunu sonralar anladım.

Sən o gün mənə də «Unutma məni»dən bir nüsxə bağışladın. Şəklinin altına bu sözləri yazmışdın:

«Ağıllı və qəşəng Nərgiz xanıma xoş arzularla təqdim edirəm».

O kitabı indi də saxlayıram. O, sənin mənə ilk hədiyyəndir, Toğrul.

Çox çəkmədi ki, mətbuatda haqqında tərifə dolu məqalələr çıxmağa başladı: tanıdığım bəzi yazanlar kimi, bu təriflərdən sonra özünü dartmadın, lovğalanmadın. Bunlara adi, çox adi bir şey kimi baxır, yerişini, oturuşunu, duruşunu dəyişmirdin. Sadəliyin, təvazökarlığın tək mənim yox, bütün yoldaşlarımızın xoşuna gəlirdi. Təzə gəldiyin vaxtlar sən otaqda olmayanda bir dəfə Musa bizə demişdi:

— Toğrulu mən hələ Universitetdə oxuyandan tanıyıram, istedadlı oğlandır. Yolundan azmasa, öldürməsələr, gələcəyi çox parlaqdır.

Solmaz təəccüblə xəbər almışdı:

— Ha necə yəni öldürməsələr? Onu öldürə də bilərlər?

— Mən cismən öldürməyi nəzərdə tutmuram, Solmaz xanım. Çox yazanlar olub ki, əvvəl məşəl kimi yanıb, işığı göylərə bülənd olub, nuru göz qamaşdırıb, sonra… sonra birdən-birə sönüb gedib. Qəfil yel vurmuş çıraq kimi. Bəzən tamam sönüb, bəzən də korun-korun yanıb. İşığı nə özünü isindirib, nə də başqalarını.

— Yox, Toğrul sönən məşələ bənzəmir – demişdim onda mən. Onun ürəyində nəsə sehirli bir sənət odu yanır ki, çətin sönə bilər.

Musa mənim sözümü təsdiq etmişdi:

— Düz deyirsən, Nərgiz. Bunu mən onun yazısından hiss etmişəm. Şəxsən bir oxucu kimi, Toğrulun əsərlərini çox xoşlayıram. Həmişə yeni fikir söyləməyə çalışır. Hər hansı yazısını əlimə alanda irəlicədən bilirəm ki, nəsə təzə bir şey deyəcəkdir. Qələm sahibi üçün bu, böyük məziyyətdir.

Sənin haqqında belə söhbətlər tez-tez olurdu. Az bir zaman içində hamının hörmətini qazandın. Ağır, təmkinli danışığınla, mehribanlığınla, qayğıkeşliyinlə. Elə qaynayıb-qarışdıq ki, sanki bir idarədə çoxdan işləyirdik: sanki bir ailənin üzvləri idik. Dərd-sərimiz bir idi. Şöbəmizə öz əsərlərini gətirən cavan müəlliflər, Musadan çox, sənə müraciət edir, sənə «pənah» gətirirdilər. Çünki Musa onları hiss olunacaq dərəcədə soyuq qarşılayır, ümidverici çox az söz deyirdi: bütün bunlar bir yana, bəzən hələ ona qətiyyən yaraşmayan bir şəkildə lağ da eləyir, sarıyırdı. Əsərlərini çap etdirmək arzusu ilə yanan bu cavanlar, çox vaxt, bu etinasızlıqlara dözür, Musaya heç bir kobud cavab vermədən çıxıb gedirdilər. Bu, mənim yaman acığıma gəlirdi. Neçə dəfə sözarası Musaya qandırmışdım ki, belə eləmək yaxşı deyil. Ancaq o, qulaqardına vurub bildiyindən əl çəkməmişdi.

Sən isə Musadakı bu xasiyyəti çox tez müşahidə edərək bir dəfə ona irad tutdun:

— Yaxşı deyil, Musa. Cavan oğlandı, onu elə sındırma. Musa boz-boz sənin üzünə baxdı:

— Bunları sən tanımırsan, Toğrul. Üz verəndə astarını da istəyirlər; barmağının ucunu göstərsən biləyindən yapışarlar. Bunların üzünə xoş baxsan, görək yorğan-döşəyini yığışdırıb nəşriyyatdan köçəsən. Çox həyasız tayfadır, qapıdan qovsan, pəncərədən girərlər. – Sən siqaret yandırıb əsəbiləşdiyini biruzə verməmək üçün durub gəzinə-gəzinə dedin:

— Bura nə sənin, nə mənim şəxsi idarəmiz deyil. Bunu dövlət elə ona görə yaradıb ki, bax, belə gənclərin, istedad sahiblərinin əsərlərini çap edək, oxucuya çatdıraq. Çox vaxt Musa, bilmək olmur ki, bu kasıb geyinmiş cılız oğlandan sabah nə olacaq. Bəlkə ondan sabah xalqımızın adını, şöhrətini göylərə qaldıracaq bir sənətkar çıxacaq? Nə bilmək olar? Hansı sahədə

olur-olsun, texnika, elm və ya sənət sahəsində – ürəyində yaratmaq eşqi yanan hər kəsi qorumaq, tərbiyə etmək, qayğısına qalmaq hamımızın borcudur. Çünki belə adamların yetişməsi xalqın, vətənin mədəni, milli iftixarının artmasına səbəb olur. İstedadların yetişməsinə mane olmaq cinayətdir, cinayətkarlıqdır.

Sən bu sözləri ucadan, yüksək, amiranə tonla demirdin, sanki adi söhbət edirmiş təki söyləyirdin Musaya. Bəlkə ona görə də, o, bu sözlərin müqabilində sənə heç nə demədi. Amma bildim ki, üzə vurmasa da acığına gəldi. Musada bu adət vardı: qabağından qaçdın, qovacaq, divara söykəyib nəfəsin kəsilincə sıxacaq, öz üstünlüyünü nümayişkaranə şəkildə biruzə verəcək və bununla öyünəcək; cavabını qaytardın, ağzından vurdun, güzəştə getmədin, onda sənə zahirən ehtiram bəsləyəcək, kinini-küdurətini ürəyinə salıb sənlə razılaşacaq, ta yıxılana qədər fürsət gözləyəcək. Axı mən Musanı səndən də, başqalarından da yaxşı tanıyıram, Toğrul. O, sənin haqqında ümumən yaxşı fikirdə idi: ancaq həmin söhbətdən sonra, başa düşdüm ki, o, daha səndən ehtiyat edəcək, çəkinəcək, lakin səni əvvəlki kimi sevməyəcək. Bu, mənə gün kimi aşkar idi. Həmin gün sən gedəndən sonra bu barədə söz düşəndə mən sənin haqlı olduğunu söylədim. Musanın acığına gəldi:

— İndi siz mənə necə işləmək lazım gəldiyini öyrədəcəksiniz?! Mənim işimə qarışmayın, xahiş edirəm – dedi və bizim evin tuşuna çatana qədər daha mənimlə danışmadı. Soyuq-soyuq xudahafizləşdi və getdi. Mən pilləkənləri qalxa-qalxa fikirləşirdim ki, Musa məni Toğrulla həmfikir hesab edir. Bəs «siz mənə?» ifadəsi nə demək idi? Yəni Toğrulla mən ona – Musaya necə işləmək lazım gəldiyini öyrətmək istəyirmişik? Toğrulla mən! Bu, elə incə və həssas nöqtə imiş ki, onu o zaman nə Musa, nə mən hiss edə bilməzdik. Ancaq əslində o özü, anlamadan, bilmədən sənlə mənim aramda gələcəkdə ola biləcək mənəvi yaxınlığın, doğmalığın əsasını qoymuş oldu. O sözlə Musa məni öz «cəbhəsindən» uzaqlaşdırıb sənə, sənin «cəbhənə» yaxınlaşdırdı. Mənimlə səni, kiçik də olsa, bir nöqtədə birləşdirdi.

Musa ilə bu cür, Solmaz demişkən, kəllə-kəlləyə gəlməyin qızlarımız arasında sənin hörmətini bir az da artırdı. «Arvadlar səltənətinin yeganə başı papaqlısı olan Musa»ya belə, yeri gəlmişkən təpinmək sən demə, qızların hamısının ürəyindən imiş. Kişilər – yəni Musa ilə sən çıxan kimi, Solmaz dedi:

— Cijimin canı üçün, bu Toğrul qiyamət oğlandır. Xoşum gəldi mərdanəliyindən. Görəsən hansı bəxtəvərin qisməti olacaq belə oğlan?! Cijimin canı üçün, subay olsaydım, əldən buraxmazdım onu.

— Hə, neyniyərdin? – mən gülə-gülə soruşdum.

— Ha neyniyərəm, cijimin canı üçün, elə eləyərdim ki, bir də gözünü açıb görərdi ki, mən Solmaz onun arvadıyam, hələ bir uşağımız da var.

— Yox, ağəz. O, ağır oğlandı. Yoldan çıxara bilməzdin – deyə Səyyarə başını qaldırıb eynəyini çıxardaraq etirazını bildirdikdə Solmaz əlini havada yellədi.

— Get işüvə. Çörək yeyənin fağırı olmaz. Kişidi, vəssəlam.

Hamımızdan cavan olan Rəhilə sözə qarışdı:

— İndiyə qız tapmamış olmaz. Belə oğlanı indiyə qapazlamış olarlar.

Sən içəri girdiyin üçün söhbətimiz yarımçıq qalmışdı.

Yadındadımı, Toğrul, bir dəfə otaqda ikimiz tək olanda, dilim dinc durmadı, səndən xəbər aldım.

— Bəs niyə evlənmirsən, Toğrul?

Sən başını qaldırıb nüfuzlu baxışlarını gözlərimin içinə elə zillədin ki, nə gizlədim, ürəyim nanə yarpağı kimi əsdi: heç kəs nə tələbəlik illərində, nə də sonra, mənə o cür baxmamışdı. O baxışların altında bədənimin birdən-birə isindiyini, başımın fırlandığını hiss edib sanki ani, şirin, heç vaxt təkrar olunmayacaq bir yuxuya getdim. Bu elə yuxu idi ki, onu görən bir daha görə bilməz. Nələr yox idi o bir anlıq yuxuda, ilahi? Sənin kimi zahirən quru, ciddi bir adamın elə şairanə, elə mənalı baxa biləcəyini mənə irəlicədən desəydilər, qətiyyən inanmazdım. Çünki o an sən tamam başqa bir adama çevrilmişdin, başqa insan olmuşdun. Mən səni sanki indicə gördüm. Nəhayət, əslində

ayılmaq istəmədiyim o şirin röyadan iradəmin gücünə zorla ayıldım və qeyri-iradi gülümsünərək dedim:

— Niyə elə baxırsan, Toğrul?

Sanki sən də yatmışdın: səsimdən səksənib ayılan kimi oldun və utancaq bir tərzdə:

— Heç, - dedin – Bağışla. – Sonra sualımı cavabsız qoyduğunu xatırlayıb günahkar təki: - Evlənəcəyəm, Nərgiz – dedin.

Gərək burda mən susaydım, gərək səndən əlavə sorğu-sual etməyəydim. Ancaq uşaqlıqdan təbiətimə xas olan hər şeylə maraqlanmaq, hər şeyin axırına çıxmaq adətim burada da özünü göstərdi:

— Qızın var?

Utana-utana:

— Var – söylədin.

— Çox sevirsən onu?

— Nə qədər sevdiyimi mən heç vaxt ifadə edə bilməyəcəyəm.

— Sən ki, qələm sahibisən.

— Əsil sevgini nə qələm, nə dil olduğu kimi heç vaxt söyləyə bilməyib.

— Gözəldi?

Ani sükutdan sonra:

— Sənin kimi gözəldi, Nərgiz – dedin – Sənin kimi qara qaşı, uzun kirpikləri, qumral saçları var. Sifəti də sənin kimi ağappaq qar kimidir. Dodaqları da sənin kimi zərif və gözəldir, Nərgiz.

— Deyirsən eynilə mənə oxşayır?..

— Hə, lap elə bil sənsən, Nərgiz!

— Boy-buxunu da?

— Boy-buxunu da.

— Mən onu tanıyıram?

— Tanıyırsan.

Mən fikrə getdim: qız tanışlarımı, rəfiqələrimi bir-bir yada saldım. Yox, onların arasında elə adam yox idi ki, sən deyən

sayaq, eynən mənə oxşamış olsun. Birdən ürəyimə nagahani bir hiss axıb doldu: sən məni deyirsən. Ancaq bu fikri özümdən tez uzaqlaşdırmağa çalışdım. Bu, ağlasığan şeyə oxşamırdı. Düşünürdüm ki, sən mənim Bünyadla nişanlandığımı bilməmiş olmazsan. Ürəyimə axıb dolan bu şübhəni həmişəlik özümdən uzaqlaşdırmaq üçün sənə belə bir sual da verdim:

— Onun da gözünün altında xalı var?

Sən mənə yox, stolun üstündə hərəkətsiz qalmış əllərinə baxa-baxa:

— Hə – dedin – Onun da gözünün altında yaraşıqlı bir xalı var, Nərgiz.

Mənə indi hər şey aydın idi; sən məni deyirdin, sən…

Dodaqlarıma istehzalı bir təbəssüm qondu.

Sən pörtmüşdün, qızarmışdın. Tutqun halda:

— Aydın olmağı yaxşıdır. Biz daha uşaq deyilik ki… - dedin.

Sən bilməmiş deyildin ki, mən kimin qızıyam. Nədənsə o zaman elə düşünürdüm ki, böyük adamın qızı olduğum üçün çox adam mənə ürəyini açа bilməyib, hələ də açа bilməyəcək. Sən bilməmiş deyilsən ki, mən Bünyadın…

Mən nazir qızı idim. Sən atamı yaxşı tanıyırdın. Adsanını, şan-şöhrətini eşitmişdin. Uzun müddət mən elə bilirdim ki, böyük adamın qızı olduğum üçün hamı mənə hörmət və hətta pərəstiş eləməli idi. Atamın vəzifə sahibi olması məndə özümü başqalarından ayırmaq kimi pis bir qürur doğurmuşdu. Sonralar, ağlım kəsəndə bu hisslərlə bir zamanlar yaşadığıma görə özüm-özümdən utanmağa başladım və bacardıqca sadə, yoldaşlarımla, tanışlarımla qaynayıb-qarışmağa, mehriban olmağa çalışdım və buna tez bir zamanda müvəffəq oldum. Hamı mənim sadəliyimə və istiqanlılığıma görə mənim xətrimi istəməyə başladı.

Ancaq mən bir şeyi ürək ağrısı ilə ilk gənclik çağlarımda hiss edirdim: o da bu idi ki, çox cavanlar – bəlkə də mənə elə gəlirdi – mənə yaxınlaşmağa, ürəklərini açmağa cürət etmirdilər.

Sənin ürəyindəki o hissi anlayanda çoxdan unutduğum bir hiss – mən böyük adamın qızıyam, hər yetən cürət edib mənə söz deyə bilməz – hissi ürəyimdə baş qaldırdı və mən qürurla dedim:

— Sən qurd ürəyi yemisən, Toğrul.

Sən son dərəcə həssas adamsan, nəyə işarə elədiyimi başa düşdün və dedin:

— Mən heç kəsdən qorxmuram.

— Heç kəsə ehtiram da eləmirsən?

— Məhəbbət gələn yerdə ehtiram ehtiramla ayağa durur, Nərgiz.

Mən də susdum, sən də. Sifətinə baxırdım; həyəcanlı idin. Qələm tutduğun əlin əsirdi. Sanırdım ki, təkcə əlin yox, bütün vücudun titrəyir.

Kədərlənmişdin: ölüm hökmü gözləyən adama oxşayırdın. Sanki sənin taleyin bu hökmdən asılı idi, ya məhv olmaq, ya da yaşamaq. Sən ikincini gözləyirdin, mən isə birinci hökmü verməli idim. Bunu mənim vəziyyətim tələb edirdi, ayrı çarəm yox idi. Ona görə bacardığım qədər mülayim, xoş bir ahənglə:

— On gündən sonra səni toyuma dəvət eləyirəm, Toğrul, - dedim – yəqin Bünyad özü də sənə deyəcək.

— Necəə?

Artıq sən heç nə demədin, daha doğrusu, deyə bilmədin. Başını əllərinin arasına alıb alnını stolun şüşəsinə dayadın. Mənim ürəyim sənin halına yandı. Birdən-birə elə dediyimə, sənin ümidlərini puça çıxardığıma peşman oldum. Ancaq gec idi, sözümü demişdim. Və belə də etməli idim. Sən bu həqiqəti bilməli idin. Gec-tez bilməli idin.

Neçə dəqiqədən sonra sən başını qaldıranda elə bil gözlərinə qan sağılmışdı. Rəngin ağappaq ağarmışdı. Mənə baxırdın, ancaq sanki məni görmürdün, elə bil, otaqda hər şey ərimişdi, yox olmuşdu, hətta mən də. Mən səsimi çıxardıb soruşanda ki:

— Sənə nə oldu, Toğrul? – Sən səksəndin və kirpiklərini qırpıb üzümə baxdın, ancaq dinmədin.

— Sənə nə oldu, Toğrul? – deyə təkrar xəbər alanda sən gözlərini yumub astaca:

— Heç nə… - deyə bildin. Araya ağır, ürəküzən bir sükut çökdü.

Haçandan-haçana dilləndin:

— Bünyad kimdir?

— Bünyad? Tanımırsan? – mən gülümsündüm və bununla da aradakı gərginliyi azaltmağa çalışdım. — Bünyad sənin qəhrəmanındır. Haqqında keçən il oçerk də yazmışdın ki.

— Hə. Hə. O… Bünyad İslamov…

— Bəli. Özüdür ki, var… O mənim nişanlımdır. Özü də sənin xətrini bilirsən necə istəyir? Sənin yazdığın oçerk yaman xoşuna gəlib. Elə hey deyir Toğrul canlara dəyən oğlandır. Yaxşı qələmi var – deyir. Yəqin bilirsən, oçerk «Kommunist» qəzetində çıxandan az sonra onu Bakı Sovetinə deputat da seçdilər. Deyir, Toğrul mənim haqqımda yazmasaydı, çətin məni deputat seçərdilər.

Sən ah çəkdin.

— Bəs belə… Demək o, sənin nişanlındır…

— Bəli…

— Bəs bunu indiyəcən niyə mənə demirdin, Nərgiz?

— Nə münasibətlə deyəydim. Elə belə, lapdan-şapdan deyəydim ki, Bünyad mənim nişanlımdır?!

Sən mənə baxırdın, ancaq məncə, dediklərimi eşitmirdin, ya da başa düşmürdün. Sən fikrində nəsə arayırdın. Taqətsiz halda, demək olar ki, zorla ayağa durdun və yuxusuz, yaxud sərxoş adamlar kimi ayağa qalxdın və səssiz-səmirsiz otaqdan çıxdın… Və o gün həmişəlik yadımda qaldı, Toğrul.

MƏN: Nərgizin söhbəti bura çatanda, Toğrul düyməni basıb maqnitafonu söndürdü. Gözlərini maqnitafonun lentinə zilləyib fikrə getdi. Xəyal onu Nərgizin xatırladığı o günə – o unudulmaz, sarsıntılı günə çəkib apardı.

TOĞRULUN DÜŞÜNCƏLƏRİ: — Elə bilirdim o məşum günü təkcə mən unutmamışam. O gün sənin də yadında qalıb, Nərgizim. Onda sənin sözlərin başıma çəkic kimi dəydi: gicəlləndim, gözlərimdən od çıxdı. Ruhum sanki bədənimdən uçub getdi, quru gövdəm, taqətsiz, sümük yığınından ibarət olan quru canım stolun arxasında qaldı. Başım uğuldayırdı, elə bil, təyyarədə uçurdum.

Mən bu dəmdə dünyada hər şeyini-ümidini, inamını, varyoxunu itirmiş adama bənzəyirdim. Sənin mənim ürəyimdən xəbərin yox idi ona qədər, Nərgizim. Sən bilmirdin ki, mən çoxdan, lap çoxdan sənə vurulmuşam. Mənim yanıma, Akademiyaya gələn gündən vurulmuşam. Əvvəllər anlamırdım sənə vurulduğumu. İdarədə otura bilmirdim. Gecələr yaxşı yata bilmirdim. Səbəbini arayırdım, tapılmırdı. Bircə bunu anlayırdım ki, həyatımda nəsə çatışmır. Amma nə? Tez-tez yadıma düşürdün, ancaq bu nigarançılığımın səbəbinin sən olduğunu dərk etmirdim.

Bir dəfə səni küçədə gördüm. Qabaqda gedirdin. Arxayın-arxayın. Səni görən təki nədənsə ürəyim içəridə elə bərk çırpındı ki, düzü, özüm də qorxdum. Təpədən dırnağa bədənimi bir titrətmə-sarsıntı bürüdü və mən, elə o anda, həyatımda məhz sənin çatışmadığını anladım.

Anladım və nə üçünsə uşaq kimi sevindim. Addımlarımı yeyinlədib sənə çatmaq, söhbət etmək, bu sevincimi sənlə bölmək istədim. Yaxınlaşdım da. Lakin… lakin cəsarət edib sənə özümü göstərə bilmədim: qorxdummu, utandımmı? Bilmirəm.

Elə belə, səssiz-səmirsiz dalınca düz evinizə qədər gəldim. Qapınızı da tanıdım, küçəyə açılan pəncərələrinizi də… Sənin xəbərin yox idi, Nərgizim, mən nəşriyyatda işə başlayan günə qədər hər gün səhər idarəyə gələndə, axşam evə gedəndə kölgən kimi dalınca sürünürdüm. Bu zaman heç nəyi, heç kəsi görmürdüm. Səndən başqa. Evinizə girəndən sonra da bəzən saatlarla ordan çəkilib gedə bilmirdim. Sanki məni yerə mıxlayırdılar. Gözlərimi sizin pəncərənizdən çəkə bilmirdim. Çox

vaxt işığınız sönənə qədər, səni heç olmasa pəncərə önündə görə bilmək arzusu ilə oradan çəkilib getməzdim.

Nəhayət, sənin lə bir yerdə işləyirdim. Səni hər gün görürdüm və xoşbəxt idim…

Lakin… Sənin lə son söhbətimdən sonra necə yerimdən qalxdığımı, küçəyə çıxdığımı indi də xatırlaya bilmirəm. Gedirdim. Hara? Niyə? Sərxoş adamlar kimi heç nə düşünmür, heç nə dərk etmirdim. Tək bircə şey məlum idi: səni, nə vaxt vurulduğumu, nə vaxt ömrümün idealına çevirdiyimi bilmədiyim səni həmişəlik itirdiyimi anlayırdım. Vəssalam. Bu isə mənim üçün təsəvvür edilməyəcək dərəcədə ağır idi. Həyatımı bir heçə qurban versəydim, bu qədər yanmaz, kövrəlməz, dolmazdım. Amma səni itirmişdim, tapmamış, əzizləməmiş, doymamış itirmişdim. On gündən sonra sənin toyun olacaqdı. On gündən sonra sən Bünyadın arvadı olacaqdın. Arvadı?

Arxadan mənə dəyən ağır zərbə və bir də tükürpərdici səs – asfalt üzərində sürünən təkərlərin səsi yadımda qalıb. Gözümü açanda özümü xəstəxanada gördüm. Sol qıçım yaman ağrıyırdı. Tərpənmək istədim, sızıldadı. Üzüm də sarıqlı idi. Gözlərimi dolandırıb yan-yörəmə baxdım. Tanımadığım arıq, uzun bir kişi bunu gözləyirmiş kimi başını irəli uzatdı:

— Necəsən indi?

— Qıçım bərk incidir.

Kişi ah çəkib:

— Özünü də bədbəxt elədin, məni də. Adam yol yeriyəndə fikir verməz ki, necə gedir? İçmişdin?

— Yox.

Başa düşdüm ki, kişi sürücüdür. Ağlamsına-ağlamsına dedi:

— Məni tutacaqlar, bir çətən külfətim var.

Yazığım gəldi ona.

— Günah məndə olub, dayı. Qorxma, ölməsəm, səni tutulmağa qoymayacağam. Kişinin üstündən elə bil, dağ götürüldü.

— Ömrün uzun olsun, bala. Nə lazımsa, həkimlərə tapşırmışam, eləyəcəklər. Qorxulu bir şey yoxdur: qıçın balaca

əzilib. Şükür ki, sınığı-zadı yoxdur. Evinin yerini de, ailənə xəbər verim, yəqin indi səndən nigarandırlar.

Mən soyuq bir ah çəkdim: kimsəsiz və tək olmağım ömrümdə birinci dəfə indi mənə yer elədi. Nisgilli-nisgilli dedim:

— Narahat olma, dayı. Mənim heç kəsim yoxdur. Tək oğlanam, itirib axtaranım yoxdur.

Yanımda bir az oturandan sonra kişi tez-tez dəyməyə gələcəyini bildirib getdi. Mən üzümü divara çevirərək gözlərimi yumub olub-keçənləri unutmağa çalışdım, amma bacarmadım: ürəyim sıxılırdı, ürəyim qıçımdan bərk incidirdi.

MƏN: — Toğrul oturduğu yerdə çevrilib şfanerin bədənnüma güzgüsündə özünə fikir verdi, sağ yanağındakı çapığa baxdı, əziz bir şeyə təmas edirmiş kimi, əlini üstündə gəzdirdi, «o günün yadigarıdır» deyə düşündü və maqnitafonun düyməsini təzədən basdı.

NƏRGİZİN SƏSİ: — İçəri qayıdanda səni görmədim, ürəyim düşdü. Kağız-kuğuzun stolun üstündə qalmışdı. Otaqda ölü bir sükut hökm sürürdü. Musa da, Solmaz, Rəfiqə, Səadət də başlarını aşağı salıb səssiz-səmirsiz işləyirdilər. Keçib yerimdə oturdum. Redaktə etdiyim əsərin cümlələrini dönə-dönə oxuyurdum, amma mənasını başa düşə bilmirdim. Ha çalışırdımsa, diqqətimi cəmləyə bilmirdim. Dəhlizə çıxdım, ora-bura baş çəkdim, qonşu şöbələrə nəzər yetirdim: yox idin.

Səni niyə axtarırdım? Bütün vücudumu qəribə bir maraq sarmışdı: bu dəqiqə sənə baxmaq, düşdüyün vəziyyəti gözlərimlə görmək və sənin mənə bəslədiyin hisslərin doğru olub-olmadığını yoxlamaq istəyirdim. Bu, əlbəttə, heç nəyi dəyişməyəcəkdi, ancaq mənim üçün maraqlı idi.

Sən isə yox idin, Toğrul. Mən süst, peşman halda təzədən gəlib yerimdə oturdum. Yenə oxuya bilmirdim, sətirlər, sözlər bir-birinə qarışırdı, cümlələr mənə dolaşıq və mənasız görünürdü. «Hara getsə indi gələcək» — deyə özümə təskinlik verməyə çalışırdım. Peşimançılıq çəkirdim: niyə sənə elə öldürücü cavab verdim? Ayrı cür demək olmazdımı? Axı niyə də başqa təhər deməli idim? Həqiqəti demişdim mən. Ancaq mənim ca-

vabımı eşidəndə sənin dəhşətlə «Necəə?» — söylədiyini yadıma salanda indi də tüküm ürpəşir. Sanki sənin canın o bir kəlməni tələffüz eləyəndə bədənini tərk elədi. Sən sanki elə onda — iraq candan — öldün.

İki dəfə səni telefona istədilər. Musa:

— Yoxdur, bir azdan zəng vurun — dedi və dəstəyi yerinə qoyandan sonra: — Bəs bu hara gedib? — deyə bizdən xəbər aldı. Mən günahkar bir tərzdə:

— Bayaq burda idi, harasa çıxdı – dedim – indi gələr. Ancaq sən işin axırınacan gəlmədin. Yoldaşlar getməyə hazırlaşanda mən azca ləngiyib sənin kağızlarını, siqaretini yığışdırıb siyirmənin gözünə yığanda əlyazmasının üst səhifəsinin qırağında xırda hərflərlə «Nərgizim» yazdığını görüb özümü itirdim və oğurluq eləyən adamsayağı o yan-bu yana baxaraq səhifənin o hissəsini cırdım, bürmələyib cibimdə gizlədim. Aşağı düşdüm. Cibimdə elə bil, barıt vardı. Partlayacağından, məni də, bütün dünyanı da yandıracağından qorxurdum. Atmaq istədim, ancaq ürəyim gəlmədi. Adicə söz idi, adicə kağız qırığı idi. Sehirmi vardı onda, sənmi yazmışdın onu — deyə tullamaq istəmirdim.

O gün Bünyadın istirahət günü idi: məni evimizə ötürməyə gəlmişdi. Qoluma girmişdi. Nə barədə isə danışırdı, lakin mən anlamırdım, eşitmirdim. Niyə gizlədim, küçədə, min adamın içində gözlərim səni axtarırdı. Kaş səni o dəqiqə görə biləydim, kaş görə biləydim.

— Sən heç deyəsən mənə qulaq asmırsan? — deyən Bünyadın səsi məni fikrimdən ayırdı.

— Yox, eşidirəm. — Yalandan söylədim.

— Kefsiz deyilsən ki?

— Azca başım ağrıyır.

— Yəqin bu gün çox işləmisən.

— Əksinə, az işləmişəm. Günortadan sonra demək olar ki, heç nə eləməmişəm.

— Evə çatan kimi baş ağrı dərmanı at, sonra da yat. İndi nə sənə, nə də mənə xəstələnmək olmaz.

Sadəlövhlüklə soruşdum.

— Niyə ki?

— Ona görə ki, toyumuza lap az az qalır. — deyə qolumu ehmalca özünə tərəf çəkdi.

Mən dillənmədim.

Evimizin tinində ayrıldıq. Mən ondan qaçırmışam təki, tələsik uzaqlaşdım, pilləkənləri bir nəfəsə çıxıb özümü içəri saldım.

Mən bu evdə dünyaya göz açmışam, bu evdə böyümüşəm. Nazir işləyən atam, həkim anam mənim nazımı burda çəkiblər. Ailənin böyük uşağı olduğumdan bir az ərköyün böyüdüblər məni. Nə desəm o olub. Ancaq mən bundan sui-istifadə eləməmişəm. Həmişə ağılnan, insafnan iş görmüşəm. Buna görə də atam da, anam da mənim xətrimi çox istəyiblər. Ev mənə qəribə göründü. Sanki tanımadığım, yad yerə gəlmişdim.

Anam mətbəxdə idi. İşdən qayıtdığımı bilib qarşıma çıxdı. Həmişəki adətimiz üzrə öpüşdük. Tövşüyürdüm, həyəcanlı idim. Bu, həssas anamın nəzərindən qaçmadı. Sınayıcı nəzərlərlə mənə baxıb soruşdu:

— Nə olub, ay qız? Yoxsa qovan var səni?

— Yox — dedim — elə belə, pilləkənləri tələsik çıxmışam.

— Nə xəbərdi? Ürəyin ağrıyar, bala.

— Heç nə olmaz.

Anam mətbəxə keçəndən sonra cibimdən kağızı bir də çıxartdım, bir də oxudum. «Nərgizim». Bu bircə kəlməni yazan o arıq və tüklü əli xatırladım. Hərflər səsə çevrildi və mən sənin səsini eşitdim. Sən həzin və yanıqlı bir səslə deyirdin; «Nərgizim». O səs mənim beynimə, ürəyimə işləyirdi: o səs məni burada, evimizdə təzədən sarsıdırdı. Nədənsə mənə elə gəlirdi ki, haradasa bu yaxınlarda dayanıb qorxmadan, çəkinmədən «Nərgizim» – deyə haray çəkirsən. Səsin əks-səda verir, dərdivara dəyib çoxalır, gurlaşır. Mənə elə gəldi ki, indi anam da o səsi eşidəcək və məndən xəbər alacaq: «Səni çağıran kimdi?»

Kağızı cibimdə gizlətdim, səs yavaş-yavaş uzaqlaşıb eşidilməz oldu.

Anam yemək gətirdi. Dilimə heç nə vura bilmədim, elə bil, boğazım kilidlənmişdi. Düzü, fikrim sənin yanında idi. Evinə üç-dörd dəfə zəng çaldım, cavab vermədin. «Bu hara gedə bilər, aman allah?» – deyə dəhşətlə öz-özümə fikirləşirdim. Heç yerdə qərar tuta bilmirdim. Naməlum, əsrarəngiz bir narahatlıq bütün vücudumu sarmışdı. Bayaqdan hərəkətlərimə göz qoyan anam Anaqız xanım dedi:

— Bu gün sənə nəsə olub, qızım. Məndən gizləyirsən.

— Heç nə olmayıb, səndən də heç nə gizləmirəm, ana.

— Yoxsa Bünyad ilə söz-söhbətin olub, qızım?

— Yox.

Qızardığımı hiss eləyib anamın nüfuzlu baxışlarından yayınmaq üçün öz otağıma keçdim, pəncərənin qabağında dayanıb küçəyə baxmağa başladım. Qəribə idi ki, küçədən keçən adamların arasında da gözlərim səni axtarırdı. Sənsə yox idin. Saat on ikiyə qalmış, yatağıma girməyə hazırlaşanda bir də zəng elədim sənə.Cavab gəlmədi.

Mən telefonda sənlə onsuz da danışmayacaqdım. Sadəcə, istədiyim evdə olub-olmadığını bilmək idi. Sadəcə deyəydin: «Alo, mənəm». Vəssalam. Mən heç nə demədən dəstəyi asacaqdım və rahat yatacaqdım. Amma bu, olmadı.

Səhərəcən yerimin içində çalıxıb-çabaladım. Belə hala düşdüyüm yadıma gəlmirdi. Hətta Bünyad mənə ürəyini açanda, nişanlananda da belə olmamışdım.

Sevinmişdim, şadlanmışdım, bir az xəyalpərvər olmuşdum, vəssalam. Səhər işə gələndə yol boyu allaha yalvarırdım ki, sən idarədə olasan. Şöbəyə girməyə qorxurdum. Ürəyimdə qapının ağzındaca damdı ki, sən yoxsan və başına nəsə gəlib. İçəri girəndə yerini boş görüb sarsıldım. Başım gicəlləndi, gözlərim qaraldı. Bu halımı kimsəyə sezdirməmək üçün keçib yerimdə əyləşdim. İki gün beləcə dəhşətli nigarançılıq içində keçdi. Mən sənlə aramda olan söhbəti də heç kəsə demirdim. Nədənsə mənə elə gəldi ki, bu, bizim aramızda sirr olaraq qa-

lacaq. Hamı səndən nigaran qalmışdı. Bu günlər ərzində nələr çəkdiyimi dillə deyə bilmirəm, Toğrul. Üçüncü gün günortaya yaxın sən Musaya zəng eləyib başına gələn qəzavü qədəri söyləyəndə hamımız sarsıldıq, mən isə ayaq üstə öldüm. Özümü danlayırdım, «bu işdə günahkar mənəm» – deyirdim. Amma səsimi çıxartmır, əhvalatı açıb ağarda bilmirdim. Musanın təklifi ilə işdən sonra xəstəxanaya, sənə dəyməyə gəldik. Sən böyük bir palatada yatırdın. Nömrəsi indi də yadımdadır: on altıncı palata. Bizi görən kimi dikəlmək istədin, ancaq Musa çiynindən basıb durmağa qoymadı. Arxası üstə uzanmışdın, üzünün yarısı sarıqlı idi. Rəngin avazımışdı. Qanmı itirmişdin, qorxmuşdunmu? Gözlərində, bəbəklərində bir ağrı həkk olunmuşdu. Sənə baxırdım, ürəyimin başı soyulurdu. Qıçım, başım ağrıyırdı, elə bil mən də yaralanmışdım. Sən hadisəni təfsilatı ilə danışırdın. Nədənsə Musadan başqa heç kəsin üzünə baxmırdın. Amma mən istəyirdim ki, sən mənə də baxasan, mənim doluxsunmuş, kədərli gözlərimi görəsən. Amma baxmırdın. Bu isə məni yaman sıxırdı. Mənə nifrətmi edirdin onda? Ona görə üzümə baxmırdın, eləmi?

MƏN: - Toğrul maqnitafonu söndürdü, başını aşağı əyib maqnitafonun üstünə qoydu.

TOĞRULUN DÜŞÜNCƏLƏRİ: — Yox, Nərgizim, mən sənə heç vaxt nifrət etməmişəm, ömrüm boyu etməyəcəyəm də. Bütün varlığı ilə sənə bağlı olan bir ürəkdə sənə qarşı nifrətmi olar, əzizim? Məni incidibsən də, əzab da veribsən. Hərdən mənə elə gəlib ki, daha dözmək mümkün deyil. Ancaq dözmüşəm. Sənə olan məhəbbətim azalmayıb, əksinə, daha da alovlanıb, şöləsi göylərə büləndolub. O müqəddəs hisslər məni bəxtiyar edib, yaşadıb-yaratmağa sövq edib.

Siz yanıma gələndə mən ona görə sənə baxmırdım ki, qorxurdum. Qorxurdum ki, nəzərlərimiz sataşan kimi gözlərim dola. Ürəyim yağmağa hazır bulud kimi dolmuşdu.

MƏN: — Toğrul dikəlib maqnitafonu işə saldı və Nərgizlə üzbəüzə dayanıbmüş kimi ucadan söylədi: «Danış, Nərgizim, danış. Sənin söhbətin nağıl kimi şirin, əfsanə qədər gözəldir».

NƏRGİZİN SƏSİ: — Bütün görkəmin kimi, səsin də kədərli idi. Nə üçünsə o dəqiqələrdə elə istəyirdim ki, gülümsünəsən. Çünki nəmli anlarında gülümsünməyini çox görmüşdüm: onda baxışların, üzünün ifadəsi elə mənalı və şairanə olur ki…

Ancaq sən indi gülümsünəsi halda deyildin. Solmaz sənin könlünü açmaq məqsədilə dedi:

— Cijimin canı üçün, yəqin yenə təzə əsər barədə düşünürmüşsən. Elədirmi?

Ah çəkdin, ani sükutdan sonra cavab verdin:

— Yox, əsər-zad fikirləşmirdim, elə-belə, fikirli idim. Heç özümdə deyildim.

— Nə olmuşdu ki? — deyə Səadət ciddi şəkildə soruşanda sən yenə köks ötürüb dedin:

— Heç nə.

Yanında oturanlardan təkcə mən bilirdim ki, sən düz demirsən. Bu, «heç nə» deyildi sənin üçün. Sənin ürəyində, xəyalında qurduğun məhəbbət xanimanın gözləmədiyin halda, qəflətən uçub dağılmışdı. Sən bundan sarsılmışdın. «Fikirli idim» – deyirdin. Mən, təkcə mən başa düşürdüm ki, bu nə deməkdir. Ürəyim sıxılırdı: istəməsəm də, yanından tez çıxıb getməyə can atırdım. Çünki sənin bu hala düşməyində özümü günahkar sayırdım.

Musa sürüşüb aşağı düşmüş yorğanının ucunu qaldırıb düzəltdi və soruşdu:

— Heç gəzə bilmirsən?

— İndi yox. Sabahdan yerimdən durmağa icazə verəcəklər. Bu da çəliyim.

Mən sarı rəngli çəliyə baxdım, ürəyimin başı göynədi. İlahi, yoxsa sən şikəst olmuşdun, həmişə çəliklə gəzəcəkdin?

Musa dedi:

— Onda bir həftəyə buraxarlar.

— Hə, hər şey yaxşı olsa…

— Ayın onuna səni toyumuza dəvət edirik, Toğrul. Nərgiz xanımla bir yerdə. Xəstəxanadan çıxan kimi toya düşmək yaxşı əlamətdir.

Gözlərin bir anlığa qıyıldı, fikrin harasa uçdu, ancaq özünü tez ələ alıb:

— Mübarəkdir – dedin. – Sizə xoşbəxtlik arzulayıram. Sağalsam, gələrəm.

Mən heç istəmirdim bu toy məsələsi ortalığa gəlsin. Yaralarının qaysağını təzədən qopartmaq idi bu. Parçalanmış ürəyinə təzədən, yara üstündən yara vurulurdu indi.

Vaxtımız qurtarırdı, getməli idik. Musa əlini birinci sıxıb xudahafizləşdi, sonra qızlar… Lap axırda mən əlini əlimə aldım: əlin od tutub yanırdı.

— Hərarətin var ki, - dedim. Oturduğumuz müddət ərzində ilk dəfə kirpiklərini qaldırıb gözlərimin içinə baxdın və zəif səslə:

— Deyəsən var — söylədin

— Darıxma, Toğrul, yenə yanına gələcəyəm.

— Əziyyət çəkmə, Nərgiz – dedin və gözlərin yaşardı.

Axşam Bünyadla görüşməli idik; sözləşmişdik ki, şəhər kino-teatrlarında göstərilən fransız filminə baxaq. Mən vədələşdiyimiz yerə gəldikdə o, artıq məni gözləyirdi. Üzümə baxan kimi halsız və pərişan olduğumu görüb təşvişə düşdü.

— Xəstələnmisən nədir?

— Kefsizəm — dedim. — Heç kinoya gedəsi halım yoxdur.

— Haran ağrıyır?

— Heç yerim. Elə belə, halsızam. Gəldim sənə deyəm ki, kinoya gedə bilməyəcəyəm.

Bünyad tutuldu.

— Axı nə olub?

— Vallah, heç nə. Elə-belə həvəsim yoxdur. Yatmaq istəyirəm. Kinoya ayrı bir vaxt gedərik. Sən də get, dincəl.

Onun qara, qalın qaşları çatıldı. İri gözləri kölgələndi.

Mən onun fikrini kino məsələsindən yayındırmaq üçün dedim:

— Bünyad, bilirsən, sənin dostun maşın qəzasına düşüb.

Bünyadın qaşları yuxarı dartıldı:

— Hansı dostum?

— Toğrul Əlizadə, yazıçı.

— Nə danışırsan, Nərgiz?

— Hə. Fikirli gedirmiş, maşın vurub. İndi xəstəxanadadır.

— Baho. Bərk əzilib?

— Əzilib də. Biz bu gün getmişdik. Musa, mən, qızlarımız… Halı o qədər də yaxşı deyildi. Qızdırması vardı.

— Gərək gedəm dəyəm. Yanına buraxırlar, hə?

— Hə. İndi də getsən, çatarsan. Saat yeddiyə qədər yanına adam buraxırlar.

Bünyad dostcanlı, yoldaşcanlı deyildi. Hər dostluqdan, yoldaşlıqdan nəsə bir xeyir güdən adamdı. İstəyərdi ki, hamı ona hörmət etsin, yaxşılıq eləsin, ancaq çox vaxt özü hörmət və yaxşılıq eləməyi bacarmırdı. Onun dünyası iş və evdən ibarət idi. Bünyadı sən oçerkində çox tərifləmişdin və bu onun çox xoşuna gəlmişdi. Ona görə sənə xüsusi bir hüsn-rəğbət bəsləyirdi. Bədii ədəbiyyatı demək olar ki, sevməyən Bünyad, oçerkdən sonra sənin yazılarını oxumağa başlamışdı. Tərifləyiyi yeganə yazıçı sən idin. Əvvəllər mən buna əhəmiyyət vermirdim. Sonralar bu, nədənsə mənə xoş gəlirdi. Elə istəyirdim o səndən danışsın. Belə hallarda mən də ona qoşulub səndən söhbət açırdım. Elə də həvəslə danışırdım ki…

Nə isə, mən o gün onunla kinoya getmədim, onu sənin yanına göndərdim. Özü də tapşırdım ki, qayıdıb gələndən sonra mənə zəng eləyərsən. Əsas məqsədim bu idi ki, sənin necə olduğundan bir xəbər tutum.

Zəng çaldı. Kefimi soruşdu. Dedim babatam. Səni xəbər aldım. Dedi ki, qızdırman düşüb. Sonra, o dəstəyi asandan sonra özüm də təəccüb elədim — bu sözü eşidən kimi mənim də kefim duruldu. Elə bil qızdırması düşən mən idim. Əlbəttə,

Bünyad bunu duya bilməzdi. Neçə gün yuxusuzluqdan və narahatlıqdan sonra o gecə rahat yatdım.

Toyumuza iki gün qalmış, nə anama, nə də Bünyada bir söz deməmiş sənin yanına gəldim. Bazardan bir dəstə qızıl gül almışdım. Nə zamansa söhbət əsnasında güllərin içərisində ən çox qızıl gülü sevdiyini söyləmişdin. Bu, mənim yadımda qalmışdı. Sən xəstəxananın dəhlizində, pəncərənin qabağında durub yaraşıqlı, şümşad boylu şam ağaclarına tamaşa eləyirdin. Dirsəklərini pəncərənin taxtasına, çəliyini divara söykəmişdin. Mən asta addımlarla sənə yanaşdım və sağ əlimi uzadıb ehmal bir hərəkətlə gözlərinin qabağını tutdum. Səsimi çıxartmırdım. Əlini əlimə sürtdün, fikirləşmədən, sevinclə, - «Nərgiz!» – dedin. Məni gülmək tutdu, əlimi gözlərindən çəkib:

— Nədən bildin mənəm? – deyə soruşdum.

— Sənin əlini min əlin içində tanıyaram, Nərgiz. Gözlərim bağlı olsa da…

Sənə fikir verirdim: uşaq kimi sevinirdin. Elə bil, ən əziz adamın gəlmişdi, həsrətini çəkdiyin illərlə görmədiyin əzizin gəlmişdi.

— Necəsən, Toğrul?

— Yaxşıyam, Nərgiz.

— Şükür ki, gəzirsən.

— Hə, asta-asta…

— Hələ bir gəz görüm? – Mən sənin gəzə biləcəyinə inanmaq istəyirdim. Tutğun halda gülümsündün. Sonra qıçını çəkə-çəkə, çəliyə söykənə-söykənə yeridin. Fırlanıb yenə mənim yanıma gəldin. Yüngülcə axsayırdın: «Keçib gedəcək» – deyə sevindim.

— Yaxşı gəzirsən, maşallah.

— Nigaran olma, Nərgiz – dedin. Səsin nədənsə titrədi. Ani olaraq susduqdan sonra əlavə elədin: - Amma ölsəydim, bundan yaxşı olardı.

— İraq candan, niyə elə deyirsən, Toğrul?

— Elə yaxşı olardı.

— Çox pis olardı, Toğrul. Sən təsəvvür eləmirsən ki, necə pis olardı.

— Niyə?

— Mən ömrüm boyu əzab çəkərdim. Mən sənin qatilin olmaq istəməzdim. Yanımızdan xəstə apardılar: zarıyırdı, dalınca gedən qadın ağlayırdı. Söhbəti dəyişmək üçün dedim:

— Sənə qızıl gül gətirmişəm, Toğrul. Bilirəm, qızıl gülü çox sevirsən.

— Çox sağ ol, Nərgiz. Gəlişin hər şeydən qiymətlidir mənim üçün.

Mən gül dəstəsini sənə verdim: alıb burnuna yaxınlaşdırdın, acgözlüklə qoxladın.

— Oxqay, nə yaxşı güllərdi, Nərgiz. Haradan bildin ki, mən qızıl gülü çox sevirəm?

— Bir dəfə özün demişdin şöbədə.

— Sağ ol ki, yadında qalıb, Nərgiz, sağ ol ki, mənə gül gətirmisən, sağ ol ki, zəhmət çəkib gəlmisən, Nərgiz. Bunu ömrüm boyu unutmayacağam. — Sən gülün ləçəklərindən öpə-öpə davam etdin: — Ancaq heyf ki, ömrü az olur gülün, tez solacaq. Solsa da, saralsa da sənin yadigarın kimi onun ləçəklərini nə qədər ömrüm var saxlayacağam. Sənin ətrini ondan alacağam, Nərgiz. Qoy bu gül solub saralsın, eybi yox. Mənim solmaz, həmişə təravətli bircə gülüm var: o, sənsən, Nərgiz.

Mən güldüm:

— Mən də solub saralacağam, Toğrul. Elə bilirsən mən həmişə cavan qalacağam?

— Səni zaman qocaltsa da, saçların ağarsa da sən mənim hafizəmdə, ürəyimdə bax beləcə — cavan, gözəl, solmaz-saralmaz qalacaqsan, Nərgiz. Çünki sən…

Daha nə isə demək istəyirdin. Mən əlimi dodağının üstünə qoyub:

— Sus, Toğrul – dedim – Sən allah, sus. Mənə belə sözlər demə, yoxsa səndən küsərəm, danışdırmaram səni.

Ayaq üstə durmaqdan yorula biləcəyini düşünüb səni dibçəkdəki limon ağacının dibindəki boş stulda oturtdum.

— Haçan çıxırsan?

Fikirli-fikirli:

— Bilmirəm – söylədin.

— Bəs mənim toyuma gəlməyəcəksənmi?

— O gün Bünyad gəlmişdi. O da dəvət elədi. Sağ olun.

— Onu mən göndərmişdim. Dedim get, dəy…

— Hə. Elə hiss elədim. Gəlmişdi.

— Mənim sualıma cavab vermədin. Toyuma gəlməyəcəksən?

— Xoşbəxt olun, Nərgiz. Mən xoşbəxt olmağını istəyirəm. Bu mənim yeganə arzumdur.

— Gəlməyəcəksən?

Kədərli gözlərini gözlərimə zilləyib xeyli baxandan sonra:

— Yox, - dedin – Gəlməyəcəyəm.

Bu cavabı gözləmədiyimə görə tutulan kimi oldum, ancaq sənin dərdini anladığım üçün özümü tez ələ aldım və qəribə bir sadəlövhlüklə:

— Niyə, Toğrul? – deyə xəbər aldım.

— Mənə əzab verməkmi istəyirsən, Nərgiz? Çəkdiyim ağrı-əzabları gözlərinlə görməkmi istəyirsən, nədir?

Bu sözləri elə yazıq-yazıq, elə dərdli-dərdli dedin ki, sənə rəhmim gəldi. Peşman oldum.

— Bağışla məni, Toğrul. Nəsə ürəyim istəyirdi ki, sən toyumda iştirak eləyəsən. Qabaqlar bu barədə heç düşünməmişdim. Nədənsə iki gündü beynimə düşüb ki, çağırdığımız qonaqların, yoldaşlarımızın arasında sən də olasan.

Dedin:

— Dəvət üçün çox sağ ol, Nərgiz. Amma məni bağışla, gələ bilməyəcəyəm. Bilirsən, mənim üçün ağır olar, çox ağır olar. Söz tapıb deyə bilmirəm ki, necə çətin olar mənim üçün. Bağışla ki… - Səsin qırıldı, susdun. Mən başımı aşağı salıb fikrə getdim. O an nə düşünürdüm? Çox şey, bəlkə də heç nə? –

İndi deyə bilmərəm. Aradakı sükut da çoxmu çəkdi, azmı çəkdi? – İndi bunu da bilmərəm. Ancaq onu deyə bilərəm ki, sənin kədərinin böyüklüyünə, məni itirməyin sənin üçün necə ağır olduğuna o sıxıntılı anlarda inandım, Toğrul. Nəhayət, sən ağır-ağır dindin:

— Sənə həyatda xoşbəxtlik arzulayıram, Nərgiz. Bünyad yaxşı oğlandır, ağıllıdır. Səni xoşbəxt edə bilsə, mən də rahat yaşayaram. Əgər aranızda möhkəm məhəbbət varsa, əlbəttə.

Onda sənə deyə bilmədim, utandım, amma indi deyirəm. Mən onu sevmişdim, o da məni. Onunla əlaqədar olduğu üçün təfərrüatı ilə danışmıram, çünki sənin buna ixtiyarın olmasa da necə qısqandığını yaxşı bilirəm. Təkcə bunu deyirəm ki, mən onda istədiyim hər şeyi tapmışdım: təmiz ürək, mehribanlıq, mənə qarşı diqqət və qayğı… Təkcə bir şeydən başqa: yeniyetmə olarkən arzulayırdım ki, sevəcəyim, seçəcəyim oğlanın ya yaxşı səsi olsun, ya da musiqi alətlərinin birində çala bilsin. Mən musiqini, nəğməni, şeri çox sevirdim. Onlarsız mən həyatımı heç cür təsəvvür eləyə bilmirəm, Toğrul. Yaxşı səsim var, gözəl mahnılar bilirəm. Ürək oxşayan, insan hisslərinin, bəzən dillə ifadəsi mümkün olmayan duyğuların tərcümanı olan gözəl şer üçün, nəğmə üçün ölürəm desəm, inan.

Təəssüf ki, Bünyad nə oxuyan idi, nə çalmağı bacarırdı, nə də şer, nəğmə dəlisi idi. Amma sevmişdim.

… Biz ayrılanda sən yenə dedin:

— Xoşbəxt ol, Nərgiz.

— Mən xoşbəxt olacağam, Toğrul – dedim. – Ancaq istəyirəm ki, sən də xoşbəxt olasan. Bunu ürəkdən arzulayıram, lap ürəkdən, Toğrul, inanırsan?

Üzünə qəmli bir təbəssüm qondu:

— İnanıram, Nərgiz – dedin.

… «Səadət sarayı»nın böyük salonu ağzına qədər adamla dolu idi. İki ailənin qohum-əqrəbası, Bünyadın adamları, mənim rəfiqələrim məclisdə idilər. Nəşriyyatdan işçi yoldaşlarımız gəlmişdilər. Təkcə sən yox idin, Toğrul. Nə qədər qəribə olsa da, adamların arasında gözüm səni axtarırdı. Gəlməyəcəy-

ini söyləsən də, anlaşılmaz bir istəklə sənin yolunu gözləyirdim. Elə bilirdim toyda nəsə çox qiymətli bir şey çatmır və bunu heç nə ilə əvəz etmək olmaz.

Məclis başlanmışdı. Masabəyi seçilmiş dazbaş şair təzə ailə həyatı quran bizim – Bünyadın və mənim sağlığımıza badə qaldırırkən birdən salonun aşağı başından sənin gəldiyini gördüm. Sağ əlində çəlik, sol əlində iri, uzaqdan alışıb-yanan qızıl gül dəstəsi vardı. Onu sinənə sıxmışdın. Ürəyinin üstünə. Gözlərimə elə bil işıq gəldi. Çil-çiraqban zal sanki daha da nurlandı. Sandım ki, toy bax indicə, sən salona daxil olan dəqiqə başlandı. Bütün vücudumu qeyri-adi bir sevinc hissi bürüdü. Bünyadın böyrünə toxundum və ona da, mənim özümə də qəribə görünən bir şadlıq içində:

— Toğrul gəldi – dedim.

Bünyad təəccüblə üzümə baxdı:

— Kim gəldi? – deyə dönüb salona göz gəzdirdi.

— Toğrul – dedim.

Bünyad salonun aşağı başına göz gəzdirdi, səni görüb gümrahlıqla:

— Afərin – dedi. – Özünü çatdırdı.

Sən axsaya-axsaya bizə sarı gəlirdin: zal uzun idi – elə bildim ki, sən dünyanın o başından, uzun, yorucu bir yol keçib bizə tərəf gəlirsən. Nəhayət, gəlib çatdın. Əvvəl Bünyada, sonra mənə nəzər saldın, gülümsünə-gülümsünə bizi salamladın. Əlindəki gül dəmətini gizli bir hərəkətlə iylədin və əyilib stolun üstünə, düz mənim qabağıma qoydun. Hər şey yadımdan çıxmışdı, sənə fikir verirdim. Sol yanağında çapığın yeri qızarırdı. Özünü şad göstərməyə çalışsan da gözlərində pünhani bir kədər duyurdum. Çox istərdim ki, baxışlarını dolandırıb mənə baxasan, ancaq elə bil, mənə baxmaqdan çəkinirdin, ya da baxmaq istəmirdin.

Asta addımlarla geri çəkildin. Bizim qənşərimizdəki uzun stolun hər iki tərəfində əyləşmiş yoldaşlarımız sənə öz yanlarında yer verdilər, oturdun.

Gəlişin məni çox sevindirmişdi, Toğrul. Gəlməsəydin, toy gecəsi duyacağım, xatirimdə saxlaya biləcəyim səadət bəlkə də naqis olacaqdı. Mən hərdən oturub keçdiyim ömür yoluma nəzər salanda xatirəyə dönmüş acılı-şirinli günlərimin içində o toy gecəsini də xatırlayıram və mənə elə gəlir ki: toyum ona görə yadımda qalıb ki, sən orda olubsan. O zaman keçirdiyim hissləri saf-çürük eləyəndə qəlbim sənə qarşı minnətdarlıq hissi ilə dolur.

Mən lap uşaqlıq illərindən nəsə qeyri-adi şeyləri çox xoşlamışam: insanın qeyri-adisi, məhəbbətin qeyri-adisi, lap toyun da qeyri-adisi, Toğrul. Adilik mənim ən acığım gələn şeydir. Sən adisənsə, demək, sən heç kəsdən seçilmirsən. Sənin sevgin adidirsə, demək o, minlərlə başqa məhəbbətlərə oxşayır. Gözəlliyin də qeyri-adisi, ürəyin də qeyri-adisi yaxşıdır, Toğrul. Hətta ölümün də qeyri-adisi gözəldir. İstəyirəm ki, öləndə də, başqaları kimi, qolunu-qıçını uzadıb rahatca ölməyəsən, nəsə qeyri-adi bir ölümlə dünyadan köçəsən. Onda insanların yadında daha çox, bəlkə həmişəlik qalırsan

Sənin qeyri-adi gəlişin mənim toyumu da qeyri-adi elədi, Toğrul. Ümumiyyətlə, sənin mənim həyatıma qeyri-adi gəlişin mənim həyatımı da qeyri-adi eləmişdi. İndi mənim həyatım, yəqin, elə sənin də həyatın qeyri-adidir, Toğrul. Biz başqaları kimi yaşamırıq — elə olsaydı, onda nə sənin mənə, nə də mənim sənə deyiləsi sözümüz olmazdı. Sən məni bütün varlığımla nifrət etdiyim adiliyin, rahatlığın, yeknəsəkliyin əlindən almısan, qeyri-adi, narahat, rəngarəng hisslər, duyğular aləminə aparmısan, Toğrul. Və bununla da heç təsəvvür eləmirsən ki, məni necə xoşbəxt eləmisən. Elə xoşbəxt ki, Bünyad ömrü boyu edə bilməzdi.

Mənim bir gözüm səndə idi. Nə deyilən tostları eşidirdim, nə çalınan musiqini, nə məlahətlə oxuyan xanəndənin səsini. Yaxşı yemirdin də. Ancaq içirdin. Gəlin olmasaydım, elə burdan, öz yerimdən qışqırardım: «Toğrul, az iç, çox ye». Amma bunu eləməyə mənim ixtiyarım yox idi. Kəsilə-kəsilə qalmışdım. Sən yoldaşların zarafatına, deyib-gülməyinə fikir vermə-

dən hər sağlığa badə qaldırıb içirdin. Mən sənin üçün qorxurdum: qorxurdum ki, keflənəcəksən, dərdini yada salıb artıq-əskik danışacaqsan. Lakin sən içdikcə susur, qaradinməz olurdun. Arıqlamışdın. Qarabuğdayı çöhrən ağarmışdı. Baxırdım, halına yanırdım. Hərdən məni xəyal qanadlarına alıb aparırdı. Böyrümdə şad, xürrəm oturmuş Bünyad gün altında qalmış qaradamı kimi yavaş-yavaş əriyir, yox olurdu, yerində sən peyda olurdun. Bu zaman sən xoşbəxtcəsinə gülümsünürdün. Məclisdəkilərdən kimsə mənim, ya Bünyadın adını çəkəndə sən hiss olunmadan yenə öz yerinə gedirdin.

Sevdiyinə ərə gedən cavan bir qızın toy gecəsi belə çalpaşıq hisslərlə yaşaması başqalarına bəlkə də qəribə görünə bilər. Olsun. Mənim toyumun gözəlliyi, unudulmazlığı da elə bunda idi. Bir də sənin gətirdiyin o gül dəmətində…

… Toy məclisi sona yetirdi, camaat dağılışırdı. Bizi-bəylə gəlini oynatmışdılar. Hamı ayaq üstə durmuşdu. Bayaqdan bəri ilk dəfə nəhayət, sən gözlərini dolandırıb mənə baxdın: Mən kirpiklərimi astaca endirməklə sənə «çox sağ ol» – söylədim. Səssiz-səmirsiz, ürəyimdəcə.

Yavaşca Bünyadın qulağına pıçıldadım:

— Bu güllərdən mənim xoşum gəlir, onları götür, aparaq evə – deyə sən gətirdiyin buketə işarə elədim.

— Baş üstə, mənim əzizim – dedi Bünyad.

O, gülü götürəndə mən əyilib qoxuladım. Sən baxırdın. Görüncə bir anlığa gözlərini yumdun, yuxumu görürdün? Xoşbəxtmi idin, bədbəxtmi idin?

… O gülləri mən yataq otağına, güldanın içinə qoymuşdum. Axşam yatanda da, səhər duranda da, yanından keçəndə də əyilib onları iyləyir, xoş, məstedici ətrini ciyərlərimə çəkib səni düşünürdüm. O güllərə sənin nəfəsin dəymişdi, onları sən sinən üstə – ürəyinin başına sıxmışdın. Onları qoxulamaq mənə ləzzət verirdi. Fikirləşirdim ki, necə eləyim o güllər solub-saralmasın, ölməsin. Onların ömrünü uzatmaq olmazdımı görəsən?

Bünyad qızıl gülün başına xüsusi bir şövqlə fırlandığımı görüb bir dəfə söylədi:

— Sənin qızıl gülü bu qədər çox xoşladığını bilmirdim, Nərgiz.

— Gərək biləydin, Bünyad.

Səhərisi Bünyad haradansa üç-dörd dənə yaxşı qızıl gül alıb gətirdi:

— Sənin üçün almışam, Nərgiz – dedi – Bunlar daha soluxublar, at getsin.

O gülləri atmaq istəmirdim nədənsə. Onlar mənə doğma idilər, ürəyimdə xoş xatirələr oyadırdı o güllər, Toğrul.

— Bunlar bizim toy gecəmizdən yadigardı, Bünyad, qoy qalsın.

— Həmişə ki, saxlaya bilməyəcəksən, ölüşgəyiblər daha.

— Solmuşunu, ləçəklərinin qurumuşunu saxlaram, xatirə kimi.

— Özün bilərsən.

Mən sənin güllərinin yerinə onun gətirdiklərini qoydum. Onları isə başqa vazaya qoydum. İki həftə saxladım. Ləçəkləri tökülməyə başlayanda onları yığıb pəncərənin ağzına, qəzetin üstünə sərdim. Ləçəklər ovulublar, toza dönüblər, amma indi də saxlayıram, Toğrul. Bünyad evi o vaxtdan gülsüz qoymur. Amma onun gülləri sənin güllərinə bənzəmir, Toğrul. O vaxtdan harda, nə zaman gül görürəm, sənin güllərin yadıma düşür, səni xatırlayıram, toy gecəsini xatırlayıram, Toğrul.

TOĞRULUN DÜŞÜNCƏLƏRİ: — O toy gecəsini mən də unuda bilmirəm, Nərgizim. Mən o gecə birdən-birə ən azı on il qocaldım. Bəlkə saçıma ilk dən də o gecə düşdü.

Onsuz da gözəl olan sən o axşam xüsusilə gözəlləşmişdin. Ağ, əsmər üzündə məsum və xoşbəxt bir ifadə vardı. «Səadət sarayı»nı Bünyad ilə birgə, musiqi səsləri altında, qonaqların, qohum-əqrəbanın müşayəti ilə tərk eləyəndə sənə diqqətlə baxdım: sən ağ gəlinlik paltarında ağ göyərçinə bənzəyirdin. Səni ağ maşna mindirdilər, ağ günlərə apardılar. Sənin ağ günlərin başlayırdı, mənim qara günlərim. Sən ağ atlı idin, mən piyada. O gecə mənə elə gəlirdi ki, səni harasa çox uzaqlara, başqa bir planetə aparırlar və mən bu axsaq ayağımla

ömrüm boyu yol getsəm də sənə çata bilmirdim, əsla çata bilmərəm.

Halbuki, sən şəhərdən kənara çıxmırdın, yenə bizim şöbənin işçisi idin. Amma dumanlı, tutqun beynimdə, hövlündən az qala partlamaq dərəcəsinə gəlmiş ürəyimdə səni məndən ayıran uzun, uzaq, keçilməz yollar haqqında həzin və kövrək bir xülya dolaşırdı. Maşınlar siqnal verir, çalğı səsi ürəyimi titrədirdi.

«Səadət sarayı»nın qabağındakı ağaca söykənib durmuşdum. Maşınlar tini burulub gözdən itincə beləcə hərəkətsiz dayanaraq arxanca baxdım. Çox içmişdimsə də çölə çıxana qədər özümü yaxşı hiss eləyirdim. Sən gedəndən sonra… birdənbirə sərxoş oldum. Evə nə cür gəldiyimi heç cür yadıma sala bilmirəm. Səhər ayılanda çarpayımda pallı-paltarlı yatdığımı gördüm. Xeyli tərpənmədim. Heç nə ifadə eləməyən, ölü qoyun gözlərinə oxşayan gözlərimi tavana zilləyib hərəkətsiz halda qaldım. Qalxmağa taqətim yox idi. Düşünə də bilmirdim. Sanki məni bu dünya ilə bağlayan bütün tellər qırılmışdı. Bu vəziyyətdə nə qədər qaldığımı bilmirəm.

İdarəyə gələndə saat on ikiyə işləyirdi. Bura nə üçün gəlmişdim? Mənim ki, hələ üç gün bülletenim var idi. Şöbədə hamı yerində idi, səndən başqa.Yoldaşlar sənin toyundan danışırdılar. Mən heç nə eşitmirdim: oturanların arasında səni axtarırdım. Sən yox idin, hələ bir ay da olmayacaqdın. Pəncərələr açıq olsa da, otaqda hava çatışmır, boş qalmış yerinə, sənsiz qalmış, «aşdım-daşdım» gülünə baxırdım. Sənsiz o da solğun görünürdü gözümə. O da solacaqdımı mənim arzularım kimi? Yox, onu solub-saralmağa qoymayacaqdım, göz yaşımla sulayacaqdım onu, Nərgizim. Öpəcəkdim, oxşayacaqdım onu, sənin ətrini alacaqdım. Amma sənsiz bu otaqda oturub işləmək mənim üçün zülm olacaqdı, bunu irəlicədən bilirdim, Nərgizim.

Sənə çoxdan vurulmuşdum. Onda sən tələbə idin, beşinci kursda oxuyurdun. Səni o zaman bir bahar günü gördüm ilk dəfə. Nazik, incə bir qızdın. Xurmayı saçların ipək kimi yumşaq idi: mən o saçlara əl vurmamışdım, ancaq bilirdim ki, onlar ipək təki

yumşaq olmalıdı. Yerişin elə yüngül idi ki, sanki yerimirdin, süzürdün: ağ dumana bürünmüş şirin yuxularımda süzən ağ qanadlı qu quşu kimi ehmalca qanad çala-çala uçurdun. Uzun kirpikli qara-qonur gözlərindən adamın üstünə işıq seli axırdı. Üzündə əbədi, silinməz təsiri bağışlayan məsum bir təbəssüm vardı. Onda saçlarını kəsdirməmişdin: yoğun hörüyünün biri azca qabarmış sinənin üstündən üzü aşağı sallanmışdı. Səndən qəribə, o vaxtacan heç kəsdə, heç yerdə hiss etmədiyim, duymadığım ətir gəlirdi. Sonralar bildim ki, o ətir sənin öz ətrindi. Sənlə üzbəüz oturub diplom işini varaqlayanda burnuna bihuşdarı verilmiş adam kimi məst idim. Özünün də xəbərin yox idi ki, gözəlliyinlə, şairanəliyinlə məni necə valeh eləmisən, Nərgiz.

Ürəyim içəridə ilk dəfə qeyri-adi bir çırpınışla titrədi: vücudumda nəsə uçulub dağıldı. Yeri qəfildən titrədən güclü zəlzələ görübsənmi? Bax, eləcə.

Əsərini həmin gecə sevinə-sevinə oxudum, elə o gecə də yaxşı bir rəy yazdım. Əsərinə və sənin özünə layiq bir rəy.

Ertəsi gün səni görəcəyim anı, dəqiqəni səbirsizliklə gözləyirdim. Lakin sən o gün gəlib çıxmadın, o biri gün də gəlmədin.

Ertəsi gün səni institutun uzun dəhlizinin o başında görəndə uşaq kimi necə sevindiyimi indi də unuda bilmirəm, Nərgiz. Sən ərköyün, məğrur bir ədayla yaxın gəlib salam verdin.

— Bəs nə gec gəldin? – deyə soruşdum. – Rəyinizi elə o gün yazıb hazırlamışam.

— Azca kefsiz idim. Çox sağ olun ki, yubandırmayıbsınız.

— Nə olmuşdu ki?

— Zökəm olmuşdum. Keçib getdi, indi yaxşıyam.

Rəyi oxuyub işıqlı gözlərini minnətdarlıq hissilə mənə zillədin və – Nə yaxşı rəy yazmısınız, Toğrul müəllim – söylədin.

— Çünki əsəriniz yaxşı əsərdir, Nərgiz xanım. Sizdən yaxşı alim çıxar.

Nazla gülümsündün:

— Nə danışırsınız, Toğrul müəllim. Mən elmi işi sevmirəm.

Sonra sən təşəkkür edib getdin. Getdin və ürəyimi də özünlə apardın. Bunu bilmədin. Hardan biləydin axı? Mənim əzablı günlərim o vaxtdan başlandı. İlk günlər itiyi itmiş adam kimi gəzirdim, bir yerdə otura bilmirdim, evə-eşiyə sığışmırdım. Gecələr yata bilmirdim. Səsin, sözün, ayaq səslərin qulaqlarımda idi. Yuxuda da gözlərin mənə baxıb gülümsəyirdi.

Sonralar dərk etdim ki, sənsiz mənim rahatlığım olmayacaq. Sənsiz həyatım boş və mənasızdı. Uzun-uzadı götür-qoy eləyəndən sonra sən işləyən idarəyə – nəşriyyata dəyişilməyi qərara aldım. Səni tez-tez görüm deyə. Sənə doyunca baxım deyə.

Nəşriyyata işə girəndə arzuma çatmışdım. Sənə yaxınlaşmışdım. Yaxınlaşmışdım və… Uzaqlaşdım. Elə uzaqlaşdım ki, bir daha sənə çatacağıma zərrəcə ümidim qalmadı. Toy gecəsi isə səni həmişəlik itirdim, Nərgizim. Sənin həyatım üçün nə demək olduğunu o gecə anladım və büsbütün sarsıldım. Sən əlimdən uçmuşdun, həmişəlik uçmuşdun. Sən yenə bura qayıdacaqdın. Ancaq mənim üçün yox, Nərgizim.

NƏRGİZİN SƏSİ: — Sentyabrın 3-də işə çıxdım. Yaxşı istirahət etmişdim, bal ayımız əla keçmişdi. Moskvada, Riqada, qayıdan baş isə Yaltada olduq. Ailə həyatımızın ilk günləri məndə unudulmaz və xoş təəssürat buraxmışdı. Bünyad da bu günləri tam bəxtiyarlıq içində yaşamışdı. Mən də. Ata-ana öz körpəsinə qarşı necə qayğıkeş və diqqətli olursa, o da mənə elə münasibət bəsləmişdi. Bir sözümü iki eləməzdi. Ürəyimdən nə keçsə idi, dilimdən nə çıxsa idi, o da olmalı idi. Bu mənə ləzzət verirdi. Mən evdə də belə böyümüşdüm. Ata-anam məni uşaqlarının hamısından çox istəyirdi.

Nə danım, toy gecəsi yadımdan çıxmırdı. Sənin oturuşun, baxışın, dalbadal içməyin yadımdan çıxmırdı. Xəstəxanadan çıxıb axsaya-axsaya, çəliyini yerə döyə-döyə mənim toyuma gül gətirməyini unuda bilmirdim. Doğma Bakımızdan uzaqlarda da elə sanırdım ki, sən əlində bir dəstə qızıl gül, yenə axsaya-axsaya, çəliyini asfalt döşəmələrə vura-vura kölgəm kimi dalımca gəlirsən. Olub ki, neçə dəfə dönüb geri baxmışam, olub

ki, burnuma qızıl gül ətri gəlib. Sonra özüm-özümə gülmüşəm. Danlamışam özümü. Sənin haqqında düşünməyəcəyimə söz vermişəm. Azca keçmiş hiss etmişəm ki, Bakıdan sarı darıxıram, şöbəmizi, iş yoldaşlarımızı görmək istəyirəm. Onların arasında əlbəttə, səni də. Dərk etmişəm ki, əslində səndən ötrü darıxmışam. Niyə? Özüm də bilmirdim. Mən başqasının qadını idim artıq. Sənin haqqında belə tələşla, canfəşanlıqla düşünməyə haqqım yox idi. Qətiyyən yox idi. Amma o qəribə baxışların, dəniz suyu kimi mavi gözlərin həmişə məni təqib edirdi. Hər yerdə. Mən o baxışlardan qaçmaq, uzaqlaşmaq istəyirdim, amma bacarmırdım. Hərəkətlərində azad və sərbəst olan mən indi sehirlənmişdim sanki. Mən o adam idim ki, ailəmiz məni Bünyada vermək istəməyəndə atamla, anamla üz-üzə gəlmişdim, onları inandırmışdım, mübarizə aparmışdım və dediyimi yeritmişdim. Bəli, mən o adam idim. Lakin indi mənə nə olmuşdu? Dəyişmişdimmi? Bünyadı daha sevmirdimmi? Yox, belə demək olmazdı. Özümə təskinlik verirdim ki, bu, sənə qarşı olan adicə maraqdı. Onda elə sanırdım ki, sənin mənə bəslədiyin münasibət də sevgi deyil, adicə maraqdı. Hər ikisi ötüb keçəcək. O zaman mən də nə isə bu maraqla oynamaq, əylənmək, səni yoxlamaq, sənə əzab vermək istəyirdim. Və mən qayğısız bir uşaq kimi sənin hisslərinlə bir növ əylənmək arzusunda idim. Çünki mən özümə arxayın idim, məni heç kəs öz yolumdan döndərə bilməz, kimsə mənim dəmir iradəmi qıra bilməz – zənnində idim. Bünyadı mən incitməmişdim. O, heç bir fövqəladə səy və inad göstərmədən məni özünə ram edə bilmişdi. Yenə deyirəm, çünki onu sevmişdim.

… Mən içəri girəndə hamınız oturub işləyirdiniz. Gəldiyimi görən kimi sevindiniz. Sən də. Ancaq sən qızlar kimi ayağa qalxıb mənimlə görüşmədin. Adicə salamlaşdın. Qızlar məni dövrəyə alıb öpürdülər, kənara çəkilib baxırdılar.

— Maşallah, nə qəşəngləşmisən, ay Nərgiz – Solmaz dedi.

Rəfiqə cavab qaytardı:

— O elə əvvəldən də qəşəng idi, ağəz. Deginən kökəlib, deyim hə.

Səyyarə məftunluqla məni təpədən-dırnağa süzdü:

— Kuklaya oxşayırsan, maşallah. Bünyadın neftçi olmağına baxmayın, zövqü yaxşı imiş, evlənmədi, evlənmədi, axırda su sonası kimi qızımızı çırpışdırdı.

Səyyarə dedi:

— Niyə, Bünyad özü də pis oğlan deyil. Ağıllı, səliqəli, təmizkar…

Rəfiqə dilləndi:

— Hər halda Nərgizin tayı deyil.

Solmaz onun çiynindən vurdu:

— Səni istəsəydi getməzdin?

— Kim? Mən?

— Hə, sən.

— Yox.

— Niyə?

Rəfiqə mənə göz vurub gülə-gülə cavab verdi:

— Çünki mənim kök kişilərdən zəhləm gedir. Kök kişi görəndə elə bil, yumurtlamamış toyuq görürəm.

Solmaz söylədi:

— Arıqladardın də.

Rəfiqə söz altında qalmadı.

— Arıqlatsın onu görək Nərgiz necə arıqladır.

Mən şəhadət barmağımı gülə-gülə qızlara silkələdim və:

— Ey, mənim ərimə sataşmayın ha, - dedim. – Tükünüzü bircə-bircə yolaram. – İlk dəfə idi ki, mən Bünyada ərim deyirdim: nədənsə çimçəşən kimi oldum və utandım.

Musa bu sözü eşidib dedi:

— Görürsən, Nərgiz Bünyadı necə müdafiə eləyir? Amma sən eləməzdin.

Rəfiqə güldü:

— Əlbəttə, eləməzdim.

Xeyli danışıb güldük: ordan-burdan söhbət elədik, idarədə olan yeniliklərdən danışdılar.

Sən bu müddət ərzində danışmadın: başını aşağı salıb nəsə oxuyurdun. Ancaq mənə elə gəlirdi ki, o dəqiqə heç nə oxumurdun, sadəcə, səhifəyə baxıb ayrı-ayrı şey haqqında fikirləşirdin. Nigaran idim: görəsən çəliyi atıbsan, ya yox? Yoldaşların yanında soruşmaq istəmirdim. Sən isə ayağa durmurdun. Bu dəm ürəyimdən keçəni duymuş kimi, qalxdın, siqaret götürüb bayıra çıxdın. Axsamadığını, çəliksiz gəzdiyini görüb bilsən nə qədər sevindim. Rahat oldu ürəyim, Toğrul. Buna baxmayaraq, soruşdum:

— Qıçın necədir, Toğrul?

Ortalıqda dayanıb mənə sarı döndün və asta, sanki könülsüz bir tərzdə:

— Çox sağ ol, Nərgiz, yaxşıdı – söylədin.

— Çəliyi atmısan deyəsən?

— Hə, beş-on gün olar.

Qeyri-iradi olaraq sevincimi gizləyə bilmədim və:

— Şükür – dedim.

Qapıdan çıxanda Musa səni saxladı:

— Yazı-pozu aləmində təzə nə var, nə yox, Toğrul?

Yaralı yerinə toxunmuş kimi kədərlə gülümsündün:

— Heç nə. Elə bir yenilik yoxdur.

Musa sənin yazılarını çox sevirdi, elə indi də çox sevir.

— Gözümə bikef dəyirsən, nə olub sənə?

— Heç nə.

— Yenə?

— Vallah, heç nə.

— Sınıqsan, əzginsən. Elə bil, illərdi ki, yatmırsan. Nəyin fikrini çəkirsən? Subay oğlansan, ye, iç, kefini çək. Evlənəndən sonra əlin-ayağın bağlanacaq.

Barmaqların arasında tutduğun siqareti yumşalda-yumşalda baxışlarını dolandırıb mənə baxaraq hamı eşitsin deyə ucadan söylədin:

— Əl-qolumu bağlamasınlar deyə mən heç vaxt evlənməyəcəyəm. Bilirdim: bu sözləri mənə eşitdirirdin. Onda ürəyim

sıxıldı, Toğrul. Çünki sən o sözləri adi tərzdə yox, and içirmiş kimi qətiyyətlə dedin.

Səyyarə ağzını büzüb gözlərini süzə-süzə söylədi:

— Sözdü də deyir, o dedi, siz də inandınız. Arvad ərsiz yaşaya bilər, kişi arvadsız çətin.

— Mən yaşayaram. Sağlıq olar, görərsiniz.

Sağlıq oldu, gördük. Sən evlənmədin. İndi mən sənin qarşında özümü günahkar hesab eləyirəm, Toğrul. Sən yaxşı həyat qura bilərdin, gözəl ailə başçısı, oğul-uşaq sahibi ola bilərdin. Amma olmadın, inadından dönmədin. İstəmədin. Mənəm günahkar və buna görə həmişə, ömrümün axırına qədər əzab çəkəcəyəm. İndi saçların ağarıb. Yaşın iki-üç gündən sonra qırxı adlayacaq. Sən bir də on iki il bundan qabaqkı Toğrul olmayacaqsan, saçların bir də qaralmayacaq, gəncliyin geri qayıtmayacaq. Sən indi təksən. Mənimləsən, amma mənsizsən. Səninləyəm, amma sənsizəm. Sən çıxandan sonra qızlardan soruşdum:

— O niyə belə kədərli görünür, qızlar?

— Qəzaya uğrayandan sonra dəyişdi. Dinib-danışmır. Həmişə fikirlidir. Kölgəyə dönüb. Elə bil, bu dünyada yaşamır, özü burda, fikri, düşüncəsi başqa aləmdədi – deyə Solmaz mənə təfsilatı ilə məlumat verdi. «Qəzaya uğrayandan sonra»… Onlar sənin dəyişməyinin səbəbini belə yozurdular. Əsl məsələdən, sənin ürəyindən onların xəbəri yox idi. Bunu bir sən, bir də mən bilirdim.

O gün sənlə təklikdə danışmağa fürsət olmadı. Heç kəs otaqdan çıxmadı. O biri gün şöbədə ikimiz qalanda sənin kədərini dağıtmaq üçün:

— Mənim qayıdıb gəlməyimə sevinmirsən, Toğrul? – deyə soruşdum.

Başını ağır-ağır qaldırdın, qəmli gözlərini mənə zilləyib həsrətlə baxa-baxa dilləndin:

— Çox sevinirəm, Nərgiz.

— Bəs niyə sevincini gizləyirsən, Toğrul?

— Mənimki belə yazılıbmış, görünür. Mən məhəbbətimi də gizli saxlamalı imişəm, sevincimi də.

— Ona görə çıxart bu fikirləri başından. Özünü də üzmə, məni də öldürmə, Toğrul. Biz yaxşı dost ola bilərik. Sənin bu münasibətin məni qorxudur, sənin kimi yoldaşı itirməkdən qorxuram…

— Mən səndən heç nə istəmirəm, Nərgiz. Mən səni görmək, sənինlə bir otaqda oturmaq istəyirəm, çünki bu özü böyük səadətdir. Səni görməyən gün mən yaşamıram, Nərgiz. Bu boyda şəhərdə özümə yer tapa bilmirəm. Yata bilmirəm, yeyə bilmirəm, işləyə bilmirəm.

— Bəlkə mən işimi, evimi-eşiyimi atım, gecə-gündüz sənin yanında oturum?

— Mənə gülürsən, Nərgiz?

— Gülməli şeylər danışırsan.

Sən yenə ah çəkib susdun. Tutuldun bulud kimi. Doldun göylər kimi. Xətrinə dəydiyimə peşman oldum. Könlünü almaq üçün dedim:

— Toy gecəsi səndən çox razı qaldım, Toğrul.

Məndən xoş söz eşitdiyinə görə təzədən özünə gəldin.

— Gülə görəmi?

— Hər şeyə görə, Toğrul. Gülə görə də, kədərli gözlərinə görə də. «Səadət sarayı»nın qabağında biz maşına minəndə ağladığına görə də.

— Sən mənim ağladığımı gördün?

— Gördüm, Toğrul. Sən irəlidə, ağacın yanında dayanmışdın. Maşının işığı düz üstünə düşmüşdü. Gözlərinin yaşardığını aydın görürdüm. Səndən azca aralı dayanmış anam da ağlayırdı. Onu mən başa düşürdüm: qızını ər evinə köçürən analar, deyirlər, həmişə ağlayırlar. Amma sənin göz yaşların mənə qəribə gəlirdi.

— Çünki mən səni əbədilik itirirdim. Bu, səssiz-səmirsiz bir vidalaşma idi. Nağıllarda deyilən kimi, iraq səndən, gedərgəlməz yola salırdım səni.

— Mən ki, o gedər-gəlməzdən qayıtmışam, Toğrul?

— Yox, Nərgiz, sən zahirən, cismən qayıdıbsan, ruhən, qəlbən uzaqda, əl çatmaz, ünyetməz dağlar arxasındasan.

— Düz deyirsən, Toğrul. Sən heç vaxt daha mənə çata bilməzsən.

Sən nəsə demək istəyirdin ki, qızlar gülə-gülə içəri girdilər. Yaxşı ki, gəldilər. Çünki sən danışacaqdın, ürəklə danışacaqdın. Bunu mən hiss edirdim. Neçə dəfə belə danışmışdın. Səsində, gözlərində, sözlərində nəsə sirli-sehirli bir qüvvə vardı. Elə indi də var. Sən danışanda mən əriyirdim. Elə kədərlə danışırdın ki, sözlərinə inanmamaq mümkün deyildi. Əridirdi məni, ürəyimi çəkib çıxardırdı, inandırırdı. Sən danışanda nəyinsə içərimdə yavaş-yavaş uçulub-dağıldığını duyurdum. Sən danışanda mən sənə qədəm-qədəm yaxınlaşırdım. Sən danışanda ürəyimdə sənə qarşı özümə də məlum olmayan qəribə hisslər baş qaldırırdı və əl-ayağımı yerdən üzürdü. Mən sənin danışığından qorxurdum, çəkdiyin ahlardan qorxurdum. Bünyad nə subay vaxtı, nə də evlənəndən sonra mənə belə sözlər demişdi. Məncə deməyə də qadir deyildi.

Mən ona görə sən danışanda neçə dəfə sözünü kəsib: « — Sus, sən allah, belə sözlər demə» — söyləmişdim.

… Həftələr, aylar keçirdi. Mən sənə danışmaq imkanı vermirdim, sən də susurdun. Susurdun deyəndə düz çıxmır, sənin dilin susurdu, bunun əvəzində kədərli-həsrətli gözlərin danışırdı. Onlar mənə sənin dərdli ürəyinin dərdli hekayətini danışırdı. Onda tək dilin susmamışdı, qələmin də susmuşdu. Otaqda səsin eşidilmədiyi kimi, mətbuatda da səsin eşidilmirdi. Yeni əsərlərini oxumurdum. Aralıqda sənin susmağın, sönməyin barədə söz-söhbət gəzməyə başladı. Bəziləri deyirdilər ki, bir atım barıtı vardı, atdı qurtardı. Ədəbiyyat aləmində belə hallar çox olub, deyirdilər. Sənin haqqında danışanda elə bilirdim mənim barəmdə danışırdılar. Mənə elə təsir eləyirdi ki. Sanırdım ki, bunda da mənəm günahkar. Sənin ürəyini, ağlını mən işğal eləmişdim. Məndən başqa heç nə haqqında düşünə bilmirdin. Belə deyildimi?

MƏN: — Toğrul maqnitafonu söndürdü. Siqaret yandırıb çəkmək istədi: ancaq yadına düşdü ki, siqareti neçə ildi tərgidib. Durub otaqda var-gəl etməyə başladı. Nərgizin sualı onun yaralı yerinə toxunmuşdu. Heç nə yaza bilmədiyi o günlər, həftələr, aylar yadına düşmüşdü.

TOĞRULUN DÜŞÜNCƏLƏRİ: — Elə idi, Nərgizim, elə idi. Mən donmuşdum, mən həqiqətən ancaq sənin haqqında düşünürdüm. Oturub işləmək istəyəndə ağ kağıza gözəl adından başqa heç nə yaza bilmirdim. Saatlarla vaxt itirirdim, səhifəni qap-qara qaralayırdım, ancaq sənin adından başqa orada ayrı söz tapmaq mümkün deyildi. Vaxt keçirdi, mən isə yaza bilmirdim. Qəzet-jurnal redaksiyalarında işləyən dost-tanışla görüşəndə məndən yeni əsər istəyirdilər, mənim isə təzə yazım yox idi. «Yazıram» — deyə onları aldadırdım. Təkcə onlarımı aldadırdım? Yox, özümü də aldadırdım. Bu, mənim üçün dəhşət idi. Düşünəndə ki, daha yaza bilmirəm, özümü öldürmək dərəcəsinə gəlirdim. Mən qələm sahibi kimi, gözüm baxa-baxa məhv olurdum – ölürdüm, mənən ölürdüm. Ürəyimi qaplamış ümidsizlik və tənhalıq hər gün, hər saat məni vəhşi qurd kimi gəmirirdi. Deyirsən ki, mən sənin ağlını, ürəyini işğal eləmişdim. Bu, tamamilə düzdür və mən səni bir də bu həssaslığına görə sevirəm. Sözsüz-işarəsiz məni başa düşməyini çox qiymətləndirirəm. Bu, sənin gözəlliyini, mənəviyyatını tamamlayan ən gözəl cəhətlərdən biridir, Nərgizim.

Məhz o ağır günlərimdə — heç nə yaza bilmədiyimi dərk etdiyim o dəhşətli dəqiqələrimdə sənin üçün belə bir şer yazmışdım. Həmin şer o zamankı əhval-ruhiyyəmi məncə düzgün ifadə edir:

Həsrətin saçımı ağartdı mənim,
Həsrətin başıma kül də ələdi.
Məhəbbət insanı xoşbəxt eləyər,
Məni məhəbbətim bədbəxt elədi.

NƏRGİZİN SƏSİ: — Amma sənin bu sükutun çox çəkmədi. Görünür, bu müvəqqəti sükunət imiş. Mən səni iradəli, hər şeyə qadir, hətta öz ürəyinin səsini belə boğmağa qadir olan bir adam kimi tanıyırdım. Ancaq yanılırmışam. Sən öz hisslərinin əlində əsir olmuşdun: ürəyinin arzusuna qarşı çıxmaq qüdrətin yox imiş sənin. Hekayələrinin birində yazdığın kimi, «ürək sənin allahın imiş». Sən ürəklə yaşamağı ağılla yaşamaqdan üstün tutan adamlardan imişsən, Toğrul.

… Dekabrın əvvəlləri idi. Bakıya qalın qar yağmışdı. Üstəlik bərk küləklər əsir, qarı sovurub adamların üzünə, divarların dibinə çırpırdı, gediş-gəlişi çətinləşdirirdi. İçəri kim girirdisə qar adama oxşayırdı. Qapının ağzında üst-başını çırpır, paltosunu, papağını çıxardır, özünü qaz buxarısının yanına verib qızınandan sonra iş stolunun arxasına keçib otururdu.

Sən şöbədə təkdin. Mən qarımı çırpıb buxarının yanına gəldim: isti dəydikcə qaşlarımdakı, saçlarımdakı qar əriyib damcı-damcı üzü aşağı tökülür, canım qızır, yanaqlarım allanırdı. Sən əl saxlayıb mənə baxırdın. Birdən, gözləmədiyim halda adımı çağırdın:

— Nərgiz.

Səsin həmişəki kimi kədərli və tutqun idi. Soyuq dəymiş adamın səsinə oxşayırdı. Nədənsə ürəyim titrədi: hiss elədim ki, nəsə məni sarsıdacaq bir şey olacaq. Qorxa-qorxa soruşdum:

— Nədi?

Günahkar uşaq kimi üzümə baxdın və həyəcanla:

— Mən sənə qurban olum, Nərgiz. – dedin. Sonra yenə təkrar elədin: — Mən sənə qurban olum.

Ortalıqda donub qaldım: qulaqlarım guruldadı, qıçlarım əsməyə başladı. Sanki otaq başıma fırlanırdı. O sözlərin divarlara, pəncərələrə dəyib əks-səda verirdi, elə bil, hər tərəfdə yüzlərlə sən dayanıb eyni yanıqlı səslə «Mən sənə qurban olum». – deyirdi. Yıxılmamaq üçün əlimi stolun qırağına söykədim və qorxudanmı, heyrətdənmi, qəzəbdənmi böyümüş gözlərimi sənə, daha doğrusu, dodaqlarına zillədim: onlar daha

tərpənmirdi, amma o sözləri yenə eşidirdim, sən deyirdin. Ürəyin deyirdi o sözləri.

Bunu yaxşı xatırlayıram ki, çevrilib çölə qaçdım. Dalımca qışqırdın:

— Nərgiz, Nərgiz…

Mən cavab vermədim. Dəhlizin üçkünc bağa açılan pəncərəsinin qabağına gəldim. Bir layını açdım, başıma, əllərimə, sifətimə təmiz hava dəydi və xeyli sonra özümə gəldim. Amma qulaqlarımda sözlərin yenə aramsız səslənirdi: «Mən sənə qurban olum, mən sənə qurban olum». Elə bil, böyrümdə dayanmışdın, körpəsinə lay-lay çalan ana kimi qulağımın dibində o sözləri pıçıldayırdın, elə hey pıçıldayırdın…

Bu ara kimsə əlini çiynimə qoydu: səksəndim. Elə bildim, sənsən. Çevriləndə Musanı başımın üstündə gördüm.

— Qorxdun deyəsən.

Özümü ələ almağa çalışdım.

— Dedim görəsən kimdi?

— Burda niyə dayanmısan?

— Elə belə.

— Gedək içəri.

Ehtiyatla otağa daxil oldum. Mənə elə gəlirdi ki, sözlər havada qalıb, təkrar-təkrar səslənir. Musa indicə eşidəcək. Eşidəcək o sözləri, hər şey məhv olacaq. Ancaq xoşbəxtlikdən heç nə olmadı. Sən ürkək və qorxu dolu baxışlarla bizə nəzər salıb üzünü yana çevirdin. Rəngin ağarmışdı.

Musa mənə tapşırıq verəcəkdi. Qarşıdakı istehsalat müşavirəsində çıxış edərkən hansı məsələlərə toxunmaq barədə söhbət etmək istəyirdi. Mənsə indi onu dinləyəcək halda deyildim. Elə bil, məni döymüşdülər: süst və əzgin idim. Dedim:

— Özümü pis hiss eləyirəm. — Bu sözləri qəsdən bərkdən söylədim ki, sən də eşidəsən.

— Məgər xəstəsən?

— Nə üçünsə yatmaq istəyirəm. İcazə ver gedim evə. Onsuz da işləyə bilməyəcəyəm.

— Bəlkə doktora gedəsən?

— Yox, yatsam, keçib gedəcək.

— Yaxşı, get.

Asılqandan paltomu, papağımı götürüb geyindim, çıxanda sənə ötəri bir nəzər saldım. Sən peşman-peşman mənə baxırdın.

… Yerimdə uzanmışdım: həqiqətən yatmaq istəyirdim, ancaq yata bilmirdim. Sənin bayaqkı sözlərini unutmaq istəyirdim, unuda bilmirdim. Elə bil, dalımca evə də gəlmişdin: yenə o sözləri söyləyirdin. Eşitməyim deyə başımı balışın altına soxdum. Yox, mümkün deyildi.

Telefon səsləndi. Musadır yəqin – dedim – nigaran qalıb. Dəstəyi götürüb:

— Eşidirəm – dedim. Musanın əvəzinə sənin səsini eşitdim.

— Məni bağışla, Nərgiz.

— Bağışlamıram. Məni rahat burax.

— …

— Bir də mənə elə desən, səni ömürlük dindirməyəcəyəm.

— Sənə qurban olum, daha demərəm.

Hirslənib dəstəyi asdım. Yerimə uzandım: gözüm telefonda idi. İndi də telefondan gəlirdi səsin. Sənin əlindən ilk dəfə onda ağladım. Mənim rahat, xoşbəxt həyatıma hər gün bir damcı narahatlıq zəhəri qatırdın. Mən artıq canımı qoymağa yer tapmırdım. Səndən qaçmaq, uzaqlaşmaq istəyirdim, amma qorxu hissi məni qəti addım atmağa, qəti qərar qəbul etməyə qoymurdu. Mən sənin ilk sarsıntıdan sonra başına gələn müsibətin şahidi olmuşdum. Bunu heç kəs bilməsə də, mən bilirdim ki, xoşbəxt bir təsadüf nəticəsində sağ qalmısan. Mən sənin heç mənən məhvinin vicdan əzabından qurtara bilmirdim o ki, qalsın… Sənin hərəkətlərində, sözlərində, pıçıltılarında nəsə şirin, bəlkə də ehtiyac hiss etdiyim bir doğmalıq, yaxınlıq var idi. Xüsusən o «Mən sənə qurban olum» – sözlərində. Əvvəl onlar mənə şit və gülünc görünürdü. Söz verdiyinə baxmayaraq, yenə mənə «Qurban olum» – deyirdin. Səndən küsəcəyimi söyləmə-

yimə baxmayaraq, küsə bilmirdim. Günlər, həftələr keçdikcə mən onları eşitməyə adət edirdim. Daha həyacanlanmırdım, əsəbləşmirdim. Buna təəccüb eləyirdim ki, çox tez küsəyən olan mən, səndən heç küsə bilmirdim. Küssəydim, danışmasaydıq, bəlkə də rahat olardım. Amma küsə bilmirdim.

Çünki mən artıq dəqiq bilirdim ki, sən doğrudan mənə qurban olmaq istəyirsən, mən isə bunu istəmirdim və istəmirəm: əvvəllər ona görə ki, səni sevmirdim, indi isə səni çox sevdiyimə görə.

… Yeni il münasibəti ilə şöbəmizdə kiçik, xudmani bir məclis düzəltmişdik. Qapını bağlayaraq stolları ortalığa çəkib birləşdirmişdik. Şampan şərabı almışdıq. Yeyib-içir, deyib-gülürdük. Sən danışmırdın, ən gülməli, məzəli söhbətlərə belə təbəssümlə cavab verirdin.

Musiqimiz vardı: Səyyarə maqnitafon gətirmişdi. Təkcə şerimiz yox idi. Şersiz məclislər isə həmişə mənim nəzərimdə yarımçıq, naqis olub. Ona görə üzümü yoldaşlara tutub şer söyləmələrini xahiş etdim və aranı qızışdırmaq üçün birinci özüm başladım. Sonra qızlar bildikləri şerlərdən söylədilər.

— İndi də növbə kişilərindir. – dedim. Səyyarə birinci Musaya müraciət etdi. Musa yaxasını tezcə kənara çəkdi:

— Mənciyəz şer bilmirəm. Bir dənə də olsun şer bilmirəm.

Solmaz təəccübləndi:

— Elə şey olmaz, canım.

— Niyə olmur ki.

Səyyarə xəbər aldı:

— Heç özün də yazmayıbsan?

— Yox.

— Arvadına da şer yazmamısan?

— Yox!

— Ağəz, bu necə kişidi.

Burda ürəyimə bir xal düşdü. Doğrudan da bizim də sevgimiz şersiz, məhəbbət məktubları olmadan başlamışdı, bunlarsız da bir-birimizə qovuşmuşduq. Hicran nədir bilməyə qoy-

mamışdım Bünyadı. Özüm də onların ləzzətini görməmişdim, duymamışdım. Bünyad ilə mənim məhəbbətimdə on ildən, iyirmi ildən sonra həsrətlə xatırlanası, gözyaşardan epizodlar olmamışdı. Bunu düşünərkən mən yaman məyus oldum.

Səyyarə Musadan əl çəkib sənin üstünə düşdü.

— Əgər sən də şer deməsən, hamımız sizdən küsəcəyik. Qızlar, küsəcəyik? — Biz bir ağızdan cavab verdik:

— Küsəcəyik.

Sən donuxmuş halda bizim üzümüzə baxdın. Oxumaq istəmirdin. Gözümüz sataşanda kirpiklərimi aşağı endirməklə sənə «Söylə» işarəsi verdim. Sən oturduğun yerdəcə bir şer dedin. Yəqin o, sənin özünün yadından çıxıb: amma bircə dəfə eşitdiyimə baxmayaraq, mənim yadımda qalıb. Budur həmin şer:

Min fəğan qoparır bağçada bülbül,
O nələr söyləyir gülə, bilmirəm.
Sənsiz mehribanım, bu yer üzündə,
Necə yaşamışam hələ, bilmirəm.

Halıma yanmırsan, a gülyanağım,
Çətin ki, sağalar bu sinədağım.
Gülüşə həsrətdir gözüm, dodağım,
Gülmək istəyirəm, gülə bilmirəm.

Mənim necə böyük dərdim var aman,
Şirin vüsalındır dərdimə dərman.
Sudan çıxarılmış balığam, inan,
Sənsiz can verirəm, ölə bilmirəm.

Hamımız əl çaldıq. Şer yaxşı şer idi. Sevən bir qəlbin çırpıntıları vardı o şerdə. Bir böyük həsrət vardı o şerdə. Bilirdim özün yazıbsan, bilirdim mənə yazıbsan onu. Fikir məni apardı. Gözlərim yol çəkdi.

Səyyarə soruşdu:

— Kimin şeridir, Toğrul?

Dillənmədin.

— Özü yazıb – dedim.

— Əşi elə şey olmaz? Sənin şer yazmağın da varmış?

— Hərdən. Özümçün yazıram.

Musa zarafatla dedi:

— Ədəbiyyat aləmində şerdən nəsrə keçən şairlər çox olub, ancaq nəsrdən şerə keçən yazıçı eşitməmişəm.

Səyyarə yalvarıcı bir tonla söylədi:

— İndi bildim ki, Toğrul niyə mətbuatda az-az çıxış edir. Madam ki, şerə keçibsən, xahiş edirəm, birini də söylə, Toğrul.

Sən yenə oğrunca mənə baxdın: sanki icazə istəyirdin. Bu, mənə ləzzət elədi. Bizim aramızda özümüzün də xəbəri olmadan gizli bir anlaşma yaranırdı. Biz səssiz-səmirsiz, baxışlarımızla danışırdıq.

Mən yenə kipriklərimi endirdim. Sən başqa bir şer oxudun.

Sənin məhəbbətindən yorulub usanmaram,
Gecə-gündüz dalınca kölgən tək gəzənəm mən.
Eşqinin yollarında min ağrıya, əzaba,
İşgəncəyə, zülümə Fərhad tək dözənəm mən.

Hicranın ağır olur dünyanın dərd-sərindən,
Vüsalın şirin olur cahan şərbətlərindən.
Oxlasan da nazınla qəlbimi min yerindən,
Ay mənim mehribanım, heç səndən küsənəm mən?

Həyatımın mənası sənsən dünyada gülüm,
Sənsiz kor olsun gözüm, sənsiz lal olsun dilim.
Bilmək istəsən nəyəm, ağıllım, şirin dilim?
Qönçə dodaqlarından qopan bir busənəm mən.

O gün məclisimiz çox şən keçdi. Bayram əhval-ruhiyyəsi hamını nikbin və şad eləmişdi. Sənin şerlərin isə məni bədbinləşdirdi. Onları mənə yazdığını bilirdim; o şerlərin hər sözünün arxasında sənin həsrətlə çırpınan ürəyinin bir parçası dururdu. Xüsusilə birinci şerin son misraları məni yamanca sarsıtmışdı.

«Sudan çıxarılmış balığam, inan,

Sənsiz can verirəm, ölə bilmirəm» - deyən misralar. Çünki mən yay aylarında bağımızın yanında balıqçıların sudan çıxardığı və qumların üstünə atdığı balıqların necə böyük əzabla, çırpına-çırpına can verdiyini gözlərimlə çox görmüşdüm və buna o zamanlar təbiətin adi bir qanunu kimi baxmışdım. Amma indi… sən özünü sudan çıxarılmış balığa bənzədəndə — özü də can verən, ancaq ölə bilməyən balığa bənzədəndə mən sənin nələr çəkdiyini tam aydınlığı ilə təsəvvür edib sarsıldım. Sənə nə üçünsə yazığım gəldi.

Bu əhvalatdan bir həftə sonra bazarlığa gedən Bünyad evə dipdiri bir balıq alıb gətirmişdi. Yazıq məftildən hörülmüş tor zənbil içində çabalayır, ağzını açıb-yumurdu. Mən onu görərkən sənin şerini, səni xatırladım. Balığın necə əzabla öldüyünə baxdığıma görə çox peşman oldum.

Yataq otağına keçib çarpayıya uzandım. Bünyad mətbəxdən səsləndi:

— Nərgiz, dur balığı təmizlə, bişir, yeyək.

— Mən ona əlimi vura bilmərəm.

— Niyə?

— İstəmirəm.

— Bəs özün balıq istəməmişdin?

— Onda istəmişdim, indi istəmirəm.

Heç nə başa düşə bilməyən Bünyad balığı özü təmizlədi, özü bişirdi və… özü də yedi. Mən o balığın dadına da baxmadım.

Gör o vaxtdan neçə illər keçib? Mən hələ də dilimə balıq əti vura bilmirəm, Toğrul.

… Sən hamının — dostların, tanışların, oxucularının gözündə yüksəlməli ikən, birdən-birə enməyə, kiçilməyə başladın. Mən səni uzaq mənzilə uçmağa qadir olan qartala bənzədərkən, sən qanadı sınmış kimi yerlə sürünməyə başladın. Hərdən sənin parlaq istedadından söz düşəndə mən bu söhbətlərə ürək ağrısı ilə qulaq asır, dərin sarsıntı içində odunu qurtarmış ocaq kimi yavaş-yavaş öləziyib söndüyünü hiss edərək həyəcanlanırdım. Duyurdum ki, ürəyində nagahani doğulmuş və müruri-zamanla böyüyüb şölələnmiş bu uğursuz məhəbbət səni

heç də ucaltmır, ilhama gətirmir, qanadlandırmır, bəlkə, əksinə, qol-qanadını sındırıb səni kiçildir, balacalaşdırır, yerlə sürünməyə məcbur edir. Sən bu tilsimdən qurtarmasan şübhəsiz, məhv olacaqsan. Hərdən fikirləşirdim ki, sənin bu gözə görünməz, bəlkə heç özünün də duymadığın faciəndə mənim də günahım çoxdur. Məni sevməsəydin, bəlkə də bu hala düşməzdin. Sonra var gücümlə bu fikirləri özümdən uzaqlaşdırmağa çalışırdım, ürəyimi sakitləşdirmək üçün səni danlayırdım, zəif, iradəsiz olduğunu qət edib: «Öz cəzasıdır, qoy çəksin» – deyirdim. «Bunun mənə nə dəxli?»

Sən təkcə yaradıcılıq işindən yox, adi idarə işindən də, yeməyindən də, içməyindən də, bir sözlə adi yaşayışından da qalmışdın. Arıqlamışdın, yuxusuzluqdan gözlərin şişmişdi. Günü-gündən geri gedirdin.

Təəccüb eləyənlərin sayı getdikcə çoxalırdı. Kimi deyirdi: «Xəstələnib». Kimi deyirdi: «Toğrula nəsə olub».

Heç kəs əsl səbəbini bilmirdi, məndən başqa. Mənim isə əlimdən nə gəlirdi? Sənin dərdin məni də əridirdi. Yatanda, çörək yeyəndə səni düşünürdüm. Nə yatmağım yatmaq idi, nə yuxum yuxu idi. Sən bir sözlə, məhv olub gedirdin.

Onda direktorumuz Nəriman idi. Neçə il bizdə işlədi, bircə dəfə səmimi olduğunu, mehriban olduğunu görən olmadı. Bəzən mənə elə gəlir ki, o, kiçik bir xəta üstündə uf demədən adamın başını da kəsə bilər. Gözlərində ölü, üzündə donuq bir ifadə vardı.

Yadımdadı, Nəriman sənə necə toy tutdu? Çətin yadında qalar. Çünki sənin ürəyin elə təmizdi, kin-küdurət saxlamaqdan o qədər uzaqsan ki, bu əhvalatı unutmuş olarsan. Sənin kimsəyə pislik elədiyini, kiminsə dalınca bədxahlıqla danışdığını görməmişəm. Yaxşılıq eləmək, həyatda yaxşı olmaq sənin şüarın olub. Tənəzzülə uğradığın günlərdə belə, səni gözümdə ucaldan, mənə bəslədiyin o bakir hisslərdən başqa, bir də bu cəhətin olub, Toğrul. Hamının ürəyi sənin ürəyin kimi saf, təmiz olsaydı, dünyamız daha gözəl olardı, Toğrul.

Həmişəki kimi bu dəfə də Nəriman şöbəyə səssiz-səmirsiz girdi. Hamımız işimizlə məşğulduq. Musa yuxarı başda oturduğuna görə onu birinci gördü. Tez ayağa qalxıb o, salam verməmiş salam verdi.

Musa yerini ona verib özü ayaq üstə dayandı. Nəriman ağayana bir hərəkətlə keçib əyləşəndən sonra qızılı sağanaqlı eynəyinin arxasından bizi süzüb:

— İşləyirsiniz? – deyə xəbər aldı.

Hamımızın əvəzinə Musa cavab verdi:

— Bəli, Nəriman müəllim, işləyirik.

Sonra o, donuq gözlərini dolandırıb sənə zillədi:

— Sən də işləyirsən, Toğrul?

Onun bu sualı çox qəribə səsləndi.

— Bəli, Nəriman müəllim, gördüyünüz kimi işləyirəm. – deyə sən anlaşılmazlıq içində cavab verdin.

— Nəyi redaktə edirsən?

— «Gizli məhəbbət» povestini.

— Hm. Yaxşı əsərdi?

— Yaxşıdır, Nəriman müəllim.

— Çox qalırsan qurtarmağa?

— Hələ xeyli var.

— Qurtar, sonra ver mənə. Onu gərək təzədən başqa redaktora da verək.

Çaşıb qalmışdıq: bu nə demək idi? Musa nəsə demək istəyirdi ki, sən onu qabaqladın:

— Başa düşmədim, Nəriman müəllim, mən redaktə eləyəndən sonra…

O, sənin sözünü kəsdi və kobud bir tərzdə:

— Bəli, sənin redaktə etdiyin əsərləri gərək ya mən özüm işimi-gücümü atıb təzədən redaktə eləyəm, ya da başqasına verəm ki, redaktə eləsin. Başa düşdün? – dedi.

— Yox.

— Yox? – Eynəyin şüşələri altında Nərimanın gözləri böyüdü və o, əsəbi halda:

— Bu günkü qəzeti oxumusan? – deyə xəbər aldı.

— Hansı qəzeti?

— «Ədəbiyyat və incəsənət» qəzetini.

— Almışam, hələ baxmamışam.

O, Musaya sarı döndü:

— Sən də oxumamısan, Musa?

— Hələ yox, Nəriman müəllim.

Direktor özündən çıxdı:

— Siz necə mətbuat işçisisiniz ki, səhər-səhər qəzet oxumamış keçinə bilirsiniz? Mən təəccüb eləyirəm sizə.

Mənim ürəyim çəkilmişdi: axı bu günkü qəzetdə nə vardı ki, mütləq oxumalı imişik və onu – Nəriman müəllimi belə əsəbləşdirmişdir?

Soruşdum:

— Bu günkü ədəbiyyat qəzetində məqalə çıxıb məgər?

— Hə, Toğrulun üzü ağ olsun, bizi biabır elətdirib. Biz nəşriyyatı yenicə dikəldib ayaq üstə qoymağa çalışırıq, kitab mədəniyyəti uğrunda mübarizə aparırıq, bu yandan da belə «qoçaqlar» bizim işimizi əyir. Məhəmməd Hadinin əsərlərini sən redaktə etmisən? – deyə Nəriman müəllim yenə sənə sarı çevrildi.

— Bəli.

— Aslanzadənin məqaləsini oxu, gör nə biabırçılıqdır. İki yüzdən artıq imla-mətbəə xətası tapıb, oxuyanda adamın tükləri biz-biz olur.

Sənin «yaradıcı» redaktən sayəsində Hadinin gül kimi misralarının gül kimi gözəl və dərin mənası alt-üst olunub gülünc vəziyyətə salınıb. Kitab satışa çıxandan sonra biz neyləyə bilərik? Heç olmasa sən özün oxuyaydın, yoldaş Əlixanov? – deyə o, dönüb təzədən Musaya müraciət elədi. – Klassiklərə bu cür münasibət əsla yaramaz. Bunu sırğa eləyib bir dəfəlik qulağınızdan asın.

Musa dedi:

— Ərəb-fars tərkiblərini yaxşı bildiyi üçün biz Hadinin redaktəsini ona tapşırdıq.

— Bilir, bilir. Görünür necə bilir. – deyə o, rişxəndlə üz-gözünü turşutdu. Rəngin ağappaq olmuşdu. Qələm tutduğun əlinin əsim-əsim əsdiyini uzaqdan görürdüm.

— Siz lağ etməyin, Nəriman müəllim. Bilməyinə bilirəm.

— Bəs necə olub kitabda elə kobud səhvlər gedib?

— Görünür diqqətlə oxuya bilməmişəm. Fikrim dağınıq olub.

«Fikrim dağınıq olub»… Aman allah, anladım ki, səni mənim üstümdə danlayırdılar. O, kitabı mənim gözümün qabağında redaktə eləyirdin. Bir dəfə də demişdin: Oxuyuram, amma heç nə başa düşmürəm. Hərfləri görmürəm, hər misranı neçə dəfə oxuyuram, yenə çatmır mənə.

— Niyə, Toğrul?

— Heç özüm də anlamıram. Sanki bütün yaddaşımı, hafizəmi siliblər, beynimdəki, ürəyimdəki hər şeyi, hər şeyi çıxarıb atıblar, yerinə bircə söz — sənin adını yazıblar. Səndən başqa heç kəs haqqında, heç nə haqqında düşünə bilmirəm.

— Vallah, gülməli adamsan, Toğrul – demişdim onda və inanmamışdım. İndi isə…

— Niyə sənin fikrin dağınıq olsun axı? – deyə direktor ani sükutdan sonra təzədən xəbər alanda Musa səndən qabaq dilləndi:

— Yəqin qəzaya uğrayandan sonra…

— Nə qəza? – O, təəccüblə soruşduqda mən hamıdan əvvəl dilləndim:

— Axı o, avtomobil qəzasına düşmüşdü, Nəriman müəllim.

— Hə? Bəs niyə bilmirəm?

— Demişəm sizə, Nəriman müəllim.

— Hm. – O, arıq, uzun barmaqlarını stolun şüşəsinə döyə-döyə diqqətlə sənin üzünə baxıb fikrə getdi, nəsə xatırlamağa çalışdı. Qəza əhvalatını eşidəndən sonra bir az yumşaldısa da, çıxanda yenə özünə məxsus quru, sərt bir ahənglə dedi:

— Hər halda səhv, səhv olaraq qalır. Sənə ciddi surətdə tapşırıq verirəm; bir də işində belə səhlənkarlıq eləsən, səhvlərə yol versən, özündən küs. Onda səninlə xudahafizləşməli olacağıq. Sən isə, Musa, unutma ki, şöbə müdiri kimi buraxılan kitabların keyfiyyəti üçün tam məsuliyyət daşıyırsan.

— Aydındır, Nəriman müəllim – deyə Musa tutqun halda cavab verdi.

O getdi, hamımızın üzünə elə bil, su çilənmişdi. Heç kəs dinib danışmırdı. Kimsədən danlaq götürməyi xoşlamayan Musa yamanca pərt olmuşdu: sənin üstündə ona da söz gəlmişdi. Qızarmış, pərt olmuş halda sənə nə isə demək istəyirdi ki, işarə ilə susmasını xahiş etdim. Bu qədər qan qaraldan söhbətdən sonra istəmirdim ki, o da səni danlasın.

Sən bərk darıxmışdın, təntimişdin. Siqaretini götürüb bayıra çıxdın. Gedəndən sonra Musa soruşdu:

— Sən nə deyirdin, Nərgiz?

— Deyirdim onunla daha işin olmasın. Nərimanın dediyi tikanlı sözlər onun bəsidi. Olan olub, keçən keçib. Nahaq yerə sən də bu tərəfdən qılıncını götürüb yazığın üstünə düşmə.

Səyyarə məni müdafiə elədi:

— Nərgiz düz deyir.

Xeyli keçdi, ancaq sən qayıdıb otağa gəlmədin. Əlimi yumaq bəhanəsilə çölə çıxanda səni dəhlizin pəncərəsi qabağında dayanıb siqaretinin oduna təzə siqaret yandıran gördüm. Sənə təsəlli vermək istəyirdim.

— Ürəyini sıxma, Toğrul. Keçib gedər – dedim.

Siqaretin tüstüsünü, içərindəki yanğını söndürəcəkmiş kimi, acgözlüklə sümürdün və kədərli gözlərini mənə zilləyib:

— Eh, Nərgiz, Nərgiz – dedin. — Günahkaram. Nərimanın qarşısında yox, Hadinin qarşısında. Bu səhvimi özümə bağışlamayacağam!

— Yaxşı ki, tapşırıqla kifayətləndi. O, səni işdən çıxarda da bilərdi.

— Bu mənim üçün çox ağır cəza olardı.

— Niyə? İşsiz qalacağından qorxurdun?

— Yox. Sənsiz qalacağımdan qorxurdum, Nərgiz.

— Mənsiz?

— Hə, sənsiz. Sənsiz mən bu idarəni təsəvvür eləyə bilmirəm. Sən bu idarədən bu gün getsən, mən sabah gedərəm. Ömürlük burda işləsən, ömürlük burda qalaram. Bu idarə mənim üçün çox əzizdir: çünki onun qalın divarları arasında sən işləyirsən, nəfəs alırsan. Bura mənim üçün evimdən-eşiyimdən də doğmadır, istidir, Nərgiz.

— Sən nə qəribə adamsan, Toğrul.

— Bəlkə də.

— Amma belə işləsən, mənsiz qala bilərsən. İşdən çıxardarlar səni.

— Yox, buna heç cür imkan vermərəm. Sənsiz qalmamaq üçün gərək yaxşı işləyəm.

— Sən təkcə idarədə pis işləmirsən, evdə də pis işləyirsən. Son vaxtlar heç nə yazmırsan, bu məni çox narahat eləyir. Axı sənin yaxşı qələmin var, sən yaxşı əsərlər yaza bilərsən.

Mənim bu sözlərim səni mütəəssir elədi: kövrəldin. Deyəsən yaralı yerinə toxunmuşdum. Ani fikrə getdin və sonra ah çəkib söylədin:

— Düz deyirsən, Nərgiz.

— Sən ağıllı oğlansan. Özünü ələ al, işlə, yaz, yarat. – Bunu deyərək mən o yan-bu yana baxdım, dəhlizdə kimsənin olmadığını görərək dəcəl bir uşaq hərəkətilə sənin duz, biçimli burnunun ucuna bir çırtma vurub gülə-gülə şöbəyə qaçdım. Qapıdan içəri girəndə çevrilib sənə baxdım, xoşbəxtcəsinə gülümsündüyünü görərək mən də sevindim.

Az sonra otağa qayıdanda üzün-gözün gülürdü. Elə bil, yarımca saat bundan qabaq danlanıb-dansanan, pərtliyindən qızaran, gözlərini qaldırıb heç kəsin, xüsusilə mənim gözlərimə baxa bilməyən sən deyildin. Ürəyində kimsənin görə və duya bilməyəcəyi bir sevinc vardı ki, onu ancaq mən hiss eləyə bilirdim. Məhz o anlarda mənim sənin həyatın üçün nə demək ol-

duğumu dərindən-dərinə anladım. Anladım ki, məhəbbətinə sadəcə olaraq inansam, sənlə xoş danışsam sənin üçün böyük xoşbəxtlik olar, sən dünyada heç bir çətinlikdən qorxmazsan, ürəklə yaşayarsan, sevinə-sevinə, yarada-yarada yaşayarsan. Sən onda məhv olmazsan, özün də bəxtiyar olarsan, hamını sevindirə biləcək əsərlər də yaza bilərsən. Başının üstünü almış o qara bulud, fəaliyyətsizlik, süstlük buludu dağılıb gedə bilər, soyuduğun, ayrıldığın yazı masana təzədən, ürəklə qayıda bilərsən. Anladım ki, mən sənin üçün həyatam, sevincəm, nəşəyəm, sifətini, ömrünü, gözlərini bəzəyən gülüşəm. Bunu sən özün də hiss eləmişdin, çünki o zaman mənim dilimdən yazdığın bir şerdə də bunu söyləmişdin:

Səninçin gülüşəm, arzuyam, güləm,
Şirin bir röyayam, səadətəm mən.
Səninçin cahanam, şerəm, nəğməyəm,
Səninçin vəfayam, sədaqətəm mən.

Təşnə ürəyinçin sərin bulağam,
Sənin olacağam, nə qədər sağam.
Səninçin dünyada arxayam, dağam,
Səninçin ətirəm, təravətəm mən.

Sənin ürəyinəm, mavi gözünəm,
İsti nəfəsinəm, şirin sözünəm.
Sənin varlığınam, sənin özünəm,
Səninçin şərəfəm, şərafətəm mən.

Sənə arzu dolu şirin cahanam,
İstərəm tək sənin oduna yanam.
Kim deyər, səninçin adi insanam?
Təpədən dırnağa məhəbbətəm mən.

Anladım ki, mənsiz sən heçsən, əzablar içində yavaş-yavaş yanıb əriyən və nəhayət, günlərin birində zavala uğramalı olacaq bir zavallısan.

Yaxın adamın kimi, ərkyana, ağır dəqiqələrində burnuna vurduğum o çırtmanın səni necə dəyişdiyini gördükdə buna bir daha inandım. Mən onda cavandım, qayğısızdım, bəlkə də bunlara adi bir zarafat kimi baxırdım. Belə kiçik şeylərlə də bunlara adi bir zarafat kimi baxırdım. Belə kiçik şeylərlə sənin dəyişdiyini, nikbinləşdiyini görəndə qeyri- iradi düşünürdüm ki, sənə qarşı qəddar olmayacağam, zarafat eləyəcəyəm, qoy könlün xoş olsun, qoy ruhdan düşməyəsən, özünü tək, kimsəsiz hiss eləməyəsən.

Gecələr yerimin içində oyan-bu yana çalıxıb çabalayanda sənin haqqında düşünürdüm. Ürəyimdə mənasını özümün də o qədər yaxşı dərk etmədiyim bir tərəhhüm hissi baş qaldırırdı. Bu hiss bəzən elə güclü olurdu ki, gecənin yarıdan keçdiyinə baxmayaraq, qalxıb sənə zəng etmək, bir-iki xoş söz demək, kefini soruşmaq, ordan-burdan danışmaq, axırda da «Gecən xeyrə qalsın, Toğrul» – demək istəyirdim. Nədənsə mənə elə gəlirdi ki, uzun müddət rahat yatmağın nə demək olduğunu bilməyən sən, mənim zəngimdən sonra quzu kimi rahat yata bilərsən. Çox istəyirdim ki, sən rahat olasan, çox istəyirdim ki, ürəyində ümid işığı yandırım, səni sevindirim. Lakin yanımda yatan Bünyadın zəhlətökən xorultusunu eşidəndə sanki yuxudan ayılır, bunu heç vaxt edə bilməyəcəyimi anlayıb məyus olurdum.

Günlər, həftələr, aylar beləcə ötüb keçirdi. Sənin dərdli, kədərli görkəmin, qüssəli gözlərin mənə heç yerdə rahatlıq vermir, hətta yatanda da yadımdan çıxmırdı. Tez-tez yuxuma girirdin. Bu, əvvəl mənə əyləncə kimi gəlirdi. Ancaq sonralar başa düşdüm ki, bu, heç də əyləncəyə oxşamır: mənim beynimi, ürəyimi narahat edən bir məsələyə dönmüşdü bu. Və mən qorxmağa başlamışdım; sənin sözlərini, gözlərini, varlığını özümdən uzaqlaşdırmağa, qovmağa çalışırdım. Səndən qaçır, bəzən sözünə cavab vermir, özümü görməməzliyə vururdum. Ancaq yenə səndə heç bir soyuqluq hiss eləmirdim. Yenə necə

deyərlər, bir «Nərgiz» – deyəndə beşi də ağzından tökülürdü. Adımı belə həsrətlə, elə ürəklə deyirdin ki, sənlə belə rəftar elədiyimə görə özüm utanırdım.

Sonra hamilə oldum. Üzümü çil basmışdı, kifirləşmişdim. Bu vaxtlar da məndən zəhlən getmədi. Əksinə, mənə qarşı daha qayğıkeş oldun. Sonra ana oldum – doğum evində yatanda xəlvətcə yanıma gəldin. Onda da toyumuzdakı kimi, qızıl gül gətirmişdin. Pəncərənin qabağında danışdıq:

— Təbrik edirəm, - dedin. – Əlində –ovcunda qalsın.

— Çox sağ ol, Toğrul.

— Adını nə qoymusan bu şeytanın?

— Hələ qoymamışıq. Bir yaxşı ad axtarırıq.

Fikrə getdin, sonra dedin:

— Əfsanə yaxşı addı, Nərgiz.

Beləliklə, Bünyadın da xəbəri olmadan, bizim ilk övladımızın adını sən qoydun. Bu addan atasının da, mənim də xoşum gəldi: Əfsanə. Yaxşı addı, şairanə addı. Sənin xəyalını, özünü özümdən uzaqlaşdırmağa çalışarkən hiss edilmədən səni hər dəqiqə mənə xatırladan, nəsə gözəgörünməz tellərlə bağlayan bir addım da atmış oldum. Qızıma baxanda, adını çağıranda istər-istəməz sən yadıma düşürdün, Toğrul. İndi də düşürsən, həmişə də düşəcəksən.

Beləliklə, sənlə mənim aramda ilk böyük sirr yarandı: qızımın adını sən qoyduğunu heç kəs bilmədi, indi də bilmir, heç vaxt da bilməyəcək. Demək olar ki, hər gün soruşurdun:

— Mənim Əfsanə balam necədir?

— Yaxşıdır.

— Mənim əvəzimdən onu maç elə, Nərgiz.

Gülürdüm:

— Yaxşı.

… «Maç elə» - dedin, yadıma sənin ilk öpüşün düşdü, Toğrul. Yadındadımı bir dəfə, gərək ki, iyul ayı idi, sənin yanından keçəndə necə oldusa qəfildən qolumdan öpdün. Elə hirsləndim ki, sifətinə tərs bir şillə çəkdim. Sən ağappaq ağar-

dın. Heç nə demədin, əlini sifətinə qoyub lal-dinməz mənə baxıb susdun.

— Utanmaz. – dedim. – Sən necə cəsarət eləyirsən.

— Bağışla məni, Nərgiz.

Mən sənə acıqlı baxaraq heç nə demədən işdən çıxıb getdim. Dodaqlarının hərarəti qolumu yandırırdı: sanki dodaqların qolumun ağ dərisinə yapışmışdı. Mənə elə gəlirdi ki, öpüşünün yeri möhür kimi qolumda qalıb, yoldan keçənlər də görəcəklər ki, qolumdan öpüblər. Bünyad da evə gələndə görəcək ki, qolumda öpüş yeri var. Evdə, bədənnüma güzgünün qabağında qoluma diqqətlə baxdım: heç nə bilinmirdi. Mən hamamı yandırıb çimdim, qolumu xüsusi səylə yudum, yenə rahat olmadım: hamam daşı ilə sənin dodaqların dəyən yeri o ki, var sürtdüm: o qədər sürtdüm ki, dərisi soyuldu, qanadı. Sonra azca rahatlandım.

Axşam Bünyad, səhər isə atamgilə gedəndə anam soruşdu ki, qoluna nə olub? Dedim ki, nədənsə qaşındı, sürtdüm, sürtdüm, qan çıxdı.

İstirahət gününün səhəri işə gələndə qolumun yarasını görüb qorxa-qorxa soruşdun:

— Qoluna nə olub, Nərgiz?

Acıqla çımxırdım:

— Hələ bir soruşursan da? Sən eləmisən də.

Sən cürətsiz halda:

— Mən ancaq dodaqlarımı toxundurdum, Nərgiz. – söylədin.

— Mən də sənin dodaqlarının yerini qazıdım.

— Nəylə?

— Daşla, bıçaqla.

Ətini kəsirmişlər kimi, üz-gözünü qırışdırdın: hiss etdim ki, mənim canım ağrıyan kimi, sənin də canın ağrıdı.

— Məni bağışla, Nərgiz. – dedin. – Birdən ağlıma gəldi. Heç özüm də bilmədim.

İkinci gün tənəffüs qabağı qolumun hələ də qıp-qırmızı əti görünən yarasını süzüb ah çəkdin və həlim, mehriban bir səslə dedin:

— Nərgiz.

Soyuq cavab verdim:

— Nədi?

— Yaran yenə incidir?

— Sənə nə var?

— Soruşuram da. İncidir?

— Hə, incidir. Bu gecə ağrısından heç yatmamışam.

— O yaradan biri də mənim ürəyimdə əmələ gəlib, Nərgiz. O, məni daha çox incidir. Sənin yaran iki-üç günə sağalıb gedəcək, amma ürəyimdəki yaram çətin sağalacaq, Nərgiz.

— O sənin öz işindir.

Susub yazıq-yazıq üzümə baxdın və sonra ah çəkərək dedin:

— İcazə ver, sənin yaranı sağaldım, Nərgiz.

Qeyri-iradi gülümsündüm:

— Həkimsən məgər?

— Sənin nə işin var, qoy sağaldım.

— Necə axı? – Maraqlıdır.

Ayağa durdun, yanıma gəldin. Əyilib qolumun qızaran yerinə diqqətlə baxdın, baxdın: necə oldusa mavi gözlərin yaşardı, əlini göz yaşında isladıb üstünə çəkdin və sonra gözləmədiyim halda əyilib yaramdan astaca öpdün. Sən sehirkar idin, nə idin? Əfsunlamışdın məni, nə idi? Çünki dillənə bilmədim, etiraz eləyə bilmədim və nədənsə mənə elə gəldi ki, o an qolumun ağrısı, göynərtisi azaldı.

— Daha ağrımayacaq. Tez, lap tez sağalacaq. – Dərmanın kəsərinə inanan loğman kimi arxayınlıqla belə deyərək keçib yerində oturdun. Sənə baxdım. Yadıma gəlir ki, o anacan sənə heç vaxt elə baxmamışdım. Yaşarmış gözlərinin gözəlliyini mən onda gördüm. O gözlərə əzab həkk olunmuşdu. O gözlər-

də xoşbəxtliklə bədbəxtliyin qarışığından yaranmış qəribə, adamı mütəəssir eləyən bir ifadə vardı.

— Dəlisən, vallah. – dedim və sən başa düşdün ki, mən bu sözü əsl mənasında yox, başqa mənada söylədim. Sevən mənasında, aşiq mənasında. Yavaşca pıçıldadın:

«Dərdindən mən dəliyəm,

Heç xəbərin yoxdu sənin, yoxdu». – Oxumadın Zeynəbin bu məşhur mahnısının sözlərini, elə belə, pıçıldadın.

İstədim deyəm, xəbərim var, ancaq nə fikirləşdimsə, susdum.

… Bir axşam sənin son kitabını — iki il bundan qabaq çıxmış kitabını varaqlayırdım. Oxumuşdum, indi təzədən oxumaq istəyirdim. Çoxdan eşitdiyim unudulmaz bir nəğmə kimi şirin gəlirdi mənə o kitab, o yazılar. Sənin təzə nəğmələrini eşitmək istəyirdim. Ancaq sürmə verilmiş xoş səsli nəğməkar kimi sənin səsin batmışdı, nəğmələrin susmuşdu. Səni tərpətmək, silkələmək lazım idi, təsir eləmək lazım idi. Yadıma düşdü ki, sən mənim sözümdən çıxmazsan. Mənim dediyim hər şeyi sən qanun kimi qəbul eləməyə hazırsan. Xeyli götür-qoy elədim. Səni sevindirmək, könlünü rahat eləmək qərarına gəldim.

Səhərisi söhbətimiz oldu. Mən uzaqdan başladım:

— Axı mən eşitmişəm adam sevəndə yaxşı yazır, Toğrul.

Sınayıcı nəzərlərlə üzümə baxıb cavab verdin:

— Elədir, Nərgiz. Sevgisiz sənət əsəri yaratmaq mümkün deyil.

— Sən məni sevirsən, Toğrul?

— Guya bilmirsən?

— Nəsə inanmaq istəmirəm.

— Niyə?

— Ona görə ki, sən məni sevəndən heç nə yazmamısan. Məni sevsəydin, yazardın. Sən isə ağzına su alıb susursan. İki ildən çoxdur mən mətbuatda bir yazını da oxumamışam.

Sən məyus oldun, köksünü ötürüb qiymətli bir şey itirmiş adam sayağı təəssüflə dedin:

— Düz deyirsən, Nərgiz. – Ani sükutdan sonra soruşdun: - Demək, mənim məhəbbətimə inanmırsan…

— İnanıram, Toğrul. Ürəyindəkiləri bilirəm. Onları mənə demək lazım deyil. Görürsən ki, səni sözsüz də başa düşürəm. İndi səndən xahişim var: ona əməl eləsən, biləcəyəm ki, həqiqətən məni çox istəyirsən.

— Nə xahişdir o, Nərgiz?

— Özün bilirsən ki, mən sənin yazılarını çox xoşlayıram, sənin istedadına inanıram. Ruhdan düşmə, fikrini cəm elə, otur əsərlərini yaz. Tay-tuşlarından geri qalma. Sən elə et ki, mən də səni sevim, səninlə fəxr eləyim. Heç kəsə deyə bilməsəm də, özlüyümdə etiraf eləyim ki, bax, Toğrul bu əsəri mənim eşqimə yazıb, məni düşünə-düşünə yazıb. Sənin məhəbbətinin şirin, əzablı hekayələrini, göz yaşardan həsrətlərini, sevinclərini qoy kitablarında görüm, oxuyum. Sən məgər istəmirsən ki, məni sevindirəsən? İnan ki, bu, mənim üçün böyük sevinc, böyük səadət olardı, Toğrul. Söz verirsən?

— Söz verirəm, Nərgiz. Çox sağ ol ki, mənim qayğıma qalırsan. Bu, lap ana qayğısına oxşadı. Söz verirəm ki, sənin məhəbbətinə layiq yazılar yazacağam.

— Ağıllım.- dedim. — Mən sənə inanıram. Bu gün sənə bir sürpriz hazırlamışam.

— Nə sürpriz?

— Sabah sənin anadan olan günündür. Otuz yaşın tamam olur, Toğrul. Səni bir dost kimi təbrik eləyirəm, sənə can sağlığı və yaradıcılıq müvəffəqiyyətləri arzulayıram, Toğrul. Bu qələmi sənə bağışlayıram — arzulayıram ki, onunla məni də, özünü də, oxucularını da sevindirə biləcək gözəl əsərlər yazasan. — Mən ayağa qalxıb stoluna yaxın gəldim, qələmi sənə verdim. Sevincdən gözlərin yaşarmışdı.

— Yaxşı, dəlilik eləmə, hələ bir gör üstünə nə yazdırmışam?

Sən qutunu açdın, qələmi çıxartdın və titrək səslə üstündəki sözləri oxudun: «Toğrula ən xoş arzularla. 28 avqust, 193…-ci il».

— Çalış kimsənin əlinə düşməsin. Çünki adım var orda.

Sən diqqətlə baxdın, sonra:

— Hanı adın? –dedin. – Yoxdur ki…?

Güldüm:

— Bəs görmürsən «ən» sözünü böyük hərflərlə yazdırmışam? Yəni, «Toğrula Əlixanova Nərgizdən xoş arzularla». İndi başa düşdün?

Sanki nitqin batmışdı. Qələmi əlində tutub nə deyəcəyini, nə edəcəyini bilmirdin. Haçandan-haçana dilləndin:

— Çox sağ ol, Nərgiz. Minnətdaram. – dedin. – Bunu mən ömrüm boyu sənin yadigarın kimi saxlayacağam. Onunla səni sevindirəcək əsərlər yazacağam, həmişə ürəyimin başında gəzdirəcəyəm və öləndə də vəsiyyət eləyəcəyəm ki, bu qələmi mənim tabutuma qoysunlar, çünki dünyada mənim bundan böyük mükafatım, bundan böyük xatirəm olmayıb, ola da bilməz.

Sən o anlarda necə də xoşbəxt idin, Toğrul. Səni xoşbəxt edə bildiyimə görə mən də özümü xoşbəxt hiss edirdim.

MƏN: — Qələm söhbətini eşidəndə Toğrulun qulaqları guruldadı, heç nə eşidə bilmədi: maqnitafonu saxladı. Əlini uzadıb on il bundan qabaq Nərgizin ona bağışladığı qızılı başlıqlı qələmi götürdü, baxdı, baxdı. Toğrul o əziz günü bütün təfərrüatı ilə xatırladı. Xəyalında canlandırmaq istəyirdi ki, telefon səsləndi. O, könülsüz halda ayağa qalxıb dəstəyi götürdü:

— Alo. Eşidirəm.

— Salam, axşamın xeyir, Toğrul.

Səsindən tanıdı: zəng eləyən Nərgiz idi.Sevindiyindən özünü itirən Toğrul qeyri-iradi olaraq ehmalca dodaqlarını dəstəyə yapışdırdı və dəstəyi öpdü. Marçıltı səsini eşidən Nərgiz gülə-gülə xəbər aldı:

— Kimi öpürsən orda, Toğrul?

— Dəstəyi, Nərgizim. Sağ ol ki, zəng elədin. Oturub sənin şirin hekayətinə qulaq asıram. Necə gözəl danışırsan, Nərgiz! Sənin ürəyinə qurban olum: necə gözəl ürəyin varmış sənin, əzizim. Bu, özü elə gözəl məhəbbət dastanıdır, çap olunmağa layiqdir.

— Amma bu, bizim sirrimizdir, Toğrul, onu heç kəs bilməməlidir.

— Bilməyəcək, Nərgiz. Bunlar sənin qəlbinin elə incə və zərif hissləridir ki, ancaq mənə deyilə bilərdi və ancaq mən başa düşə bilərəm onları. Bunlar sevən, ancaq məhəbbətini var səsilə deməyə ixtiyarı olmayan, ona görə öz ürəyində səssiz-səmirsiz məhəbbət nəğməsini pıçıldayan bir qəlbin səmimi etiraflarıdır. Səsin elə gözəl, sözün elə şirindir ki, mənə ana laylasını xatırladır, Nərgiz. Hər kəlmən qəlbimdə min unudulmaz xatirə oyadır, əzizim. O əl çatmaz, o ötən günlərə qaytarır hər sözün məni.

— Yaxşı, hissiyyata qapılıb yenə məni kövrəltmə, Toğrul. Zəng elədim, görüm neyləyirsən?

— Bünyad evdə yoxdur?

— Evdədir. O biri otaqda atamla nərd oynayır. Deyəsən, qurtardılar, sağ ol, gecən xeyrə qalsın, Toğrul! – dedi və onun cavabını gözləməmiş dəstəyi yerə qoydu. Toğrul bir müddət durduğu yerdəcə donub qaldı. Ona elə gəlirdi ki, Nərgiz yenə nəsə deyir, lakin o, eşidə bilmir. Nəhayət, dəstəyi yerindən asdı, gəlib oturdu. Nərgizin verdiyi qələmə baxdı, fikrə getdi.

O, Nərgizə verdiyi sözün — vədənin üstündə durmuşdu, neçə-neçə hekayə, povest kitabları nəşr etdirmiş, hərəsində bir az öz böyük məhəbbətini də yazmış və əvvəlcə, kimsəyə oxumamış, Nərgizin özünə oxumuş, sonra çap etdirmişdi. Nərgiz onun ilk oxucusu, ilk tənqidçisi, ilk məsləhətçisi olmuşdu.

TOĞRULUN DÜŞÜNCƏLƏRİ: — Budur sənin yadigarın, Nərgizim, stolunun üstündədir. Mən ona sehirli bir qələm kimi baxıram. O, bu on ildə mənim əlimdən düşməyib. Yazmayanda sol cibimdə, ürəyimin başında gəzdirmişəm onu. İtirəcəyimdən qorxmuşam həmişə. Onu itirsəm, ömrümü, sənin

məhəbbətini itirmişəm elə bil. Son on ildə nə yazmışamsa, onunla yazmışam. Səni düşünə-düşünə yazmışam. Sənin şirin, əfsanəvi məhəbbətin əlimdən tutub. Məhəbbətinə görə, ölmüş inamım diriltdiyinə görə, ayrıldığım yazı masama məni təzədən qaytardığına görə sənə ömrüm boyu minnətdaram, Nərgizim.

MƏN: — Toğrul maqnitafonu təzədən işə saldı, Nərgizin şirin hekayətinə qulaq asmağa başladı.

NƏRGİZİN SƏSİ: — Həyatda qəribə möcüzələr olurmuş: qələm adi qələm idi. Nə fərqi varmış onu sənə kim verib? – deyə əvvəllər düşünürdüm. Amma tezliklə yanıldığımı anladım. Verdiyim qələmə görünür, sən adi bir qələm kimi baxmadın. Sən dirçəldin, yazıb-yaratmağa başladın: elə bil, tutulmuş bir bulağın gözü açılmışdı. Yazıların televizor ekranını, qəzet-jurnal səhifələrini bəzəməyə başlamışdı. Sən sevinirdin. Mənim isə şadlığımın həddi-hüdudu yox idi. Elə bilirdim ki, sən mənimsən, mənim üçün yazırsan, məni sevindirmək üçün yazırsan. Qanorarında, şöhrətində zərrəcə gözüm yox idi. Ancaq əsərin, kitabın çıxanda, tanış-biliş səni təbrik eləyəndə nədənsə hərdən təəccüb eləyirdim ki, nə üçün məni də təbrik eləmirlər? Sonra başa düşdüm ki, axı zahirən mən sənin heç nəyinəm, adicə iş yoldaşınam. Bizim münasibətimizi kimsə bilmir. Məni təbrik eləyən bircə nəfər vardı: o da sən idin, Toğrul. «Bunu mən yazmamışam, sən yazıbsan, sənin qələmin yazıb». – deyirdin və birinci olaraq əsərini mənə bağışlayırdın.

Evimizdə, kitab şkafında sənin kitablarını yanaşı düzmüşəm: hərəsini neçə dəfə oxumuşam, allah bilir. Elə yerləri var ki, əzbər bilirəm. Sənsizləyəndə, darıxanda yazılarını oxuyuram. Ürəyimdə gizlicə sevinirəm, fəxr eləyirəm.

Sədaqətinə, məhəbbətinə çoxdan inanmışam. Sən cavan idin, gözəl idin, istədiyin qızla, qadınla gəzib dolana bilərdin: lakin sən bunu etməmisən. Halbuki mənə vaxtilə sadiq qalacağına, başqasına gözünün ucu ilə baxmayacağına and içən Bünyad bildiyimə görə yeri düşəndə mənə xəyanət də eləyir. Amma sən… Mən sənin ola bilməsəm də, sən mənim olubsan, fikrən, xəyalən mənim olubsan. Bu da bizim məhəbbətimizin qeyri-adiliyidir,

Toğrul. Həyatımda qeyri-adilik sevən mən indi Bünyadın adicə arvadı olmuşam. O da mənim adicə ərimdir. Yanaşı yaşasaq da qəribədir ki, çox vaxt bir-birimizi görmürük, görə bilmirik. Çox vaxt bir-birimiz haqqında heç nə düşünmürük də. Lakin sən… sən həmişə fikrimdəsən, beynimdəsən. Boş vaxt tapan kimi yerimdə uzanıb sənin haqqında düşünməyi bilsən nə qədər xoşlayıram? Düzünü bilmək istəsən, mən ancaq bu zamanlar istirahət eləyirəm. Əfsanə, adını sən qoyduğun mənim yeganə qızım nağılı çox sevir. Ona nağıl danışanda özümdən asılı olmayaraq, bəzən sənin haqqında danışıram. Adını çəkmirəm, ancaq sənin həyatından, uşaqlıq illərindən bildiyim maraqlı əhvalatları qızıma nağıl kimi danışıram.

Bunların heç birini sənə indiyə qədər söyləməmişəm, lazım bilməmişəm. İndi də ona görə deyirəm ki, biləsən: əgər sən olmasaydın, mənim həyatım son dərəcə adi, sönük və yeknəsəq keçərdi. Sən mənə elə bir aləm bəxş etmişsən ki, saf, bakir hisslərin, ülvi məhəbbətin həmin dünyanın daimi sakinləridir. Sən mənim həyatımı gözəl etmisən, şairanə etmisən, mənalı etmisən. Mən də sənin həyatını…

Mən sənə heç vaxt «sevirəm» – deməmişəm. Sözlə deməmişəm. Ancaq özüm də bilmədən, hiss eləmədən bunu sənə anlatmışam. Anlatmışam ki, sənə biganə deyiləm, laqeyd deyiləm və bu, səni yaşadıb, yazmağa-yaratmağa həvəsləndirib. Yadındadı, beş-altı il bundan qabaq, bəlkə də daha çox qabaq, yayda bizim bağa gəlmişdiniz. Yoldaşlarınızla. Sənin maşınında. Bünyad sizi nə münasibətləsə qonaq çağırmışdı. Yediniz, içdiniz, nərd oynadınız. Hamının kefi kök, damağı çağ idi. Deyib-gülürdülər. Sən isə dalğın idin. Bunun səbəbini səndən və məndən başqa əlbəttə, heç kəs bilmirdi. Mən başa düşürdüm ki, sən həssas qəlbinlə mənim burda keçən günlərim, saatlarım barədə fikirləşirsən, xəyalında canlandırırsan, məni xəyalında ayaq yalın, başı açıq, narın, ağ-qızılı qumların üstündə gəzən təsəvvür eləyirsən. Bir sözlə, fikrin özündə deyildi. Onda gülməli bir hadisə də oldu: sən Bünyad ilə nərd oynayanda çaşıb onun qara daşlarını irəli çəkmişdin.

Bünyad demişdi:

— Ay camaat, görün bu nə yaxşı nərd oynayandı? Öz daşlarını qoyub mənim daşlarımla oynayır.

— Bay, bağışla. – demişdin və: - Mən təslim. – söyləyərək ayağa qalxmışdın. Sonra dənizə getdik. Mən nə üçünsə sənin yanında çimmək istəmirdim. Utanırdım. Bünyad dedi, amma çimmədim. Hamı dənizdə olanda sən çıxıb yanıma gəldin.

— Bəs niyə çimmirsən, Nərgiz? – deyə xəbər aldın.

— Mən gün batandan sonra çimməyi xoşlayıram.

Külək əsirdi: iri, ağ dalğalar bir-birinin üstünə minə-minə sahilə çırpılır, parçalanır, qumların içində əriyib yox olurdu. Növbəti dalğa çəkilib gedəndən, uğultu azalandan sonra sən mənə sarı dönüb soruşdun:

— Bu axşam çağı çiməcəksən?

— Hə, necə ki?

Kədərli-kədərli dedin:

— Mən sənin bu göy gözlü dənizinin, onun ağ köpüklü dalğalarının qulağına bir söz pıçıldamışam. Dəniz söz-sirr saxlayandı, ancaq o sözümü axşam çağı təkcə sənin qulağına pıçıldayacaq. O səsi sən mütləq eşidəcəksən, Nərgiz.

— Nə sözdü o, Toğrul? – deyə soruşdum.

— Dəniz sənə deyəcək. Axşam çağı dəniz öz ağ dalğaları ilə səni öpə-öpə mənim o sözümü sənə çatdıracaq. Utanırdınmı, çəkinirdinmi – demədin… Sən danışırdın. Mən sənə qulaq asa-asa əlimdəki çubuqla narın qumları qurdalayırdım. Bir vaxt ayıldım, gördüm ki, sənin adını qumların üstünə yazmışam. Qorxdum və tez pozmaq istəyəndə… artıq gec idi, sən görmüşdün.

Gözlərini dolandırıb mənə baxdın: mən pul kimi qızardığımı hiss elədim. Sifətim od tutub yanırdı. Baxışlarımız rastlaşdı: sənin gözlərində sevinc qığılcımları parlayırdı, bayaqkı tutqunluqdan, qüssədən az əsər-əlamət qalmışdı.

— Niyə pozdun, Nərgiz? – deyə çaşqın halda dilləndim.

Danışmadım. Ah çəkdin, yenə tutuldun.

— Onsuz da dalğalar pozacaqdı.

— Qoyaydın dalğalar pozaydı, amma sən pozmayaydın.

Heç özüm də bilmədim necə oldu, söylədim:

— Qorxma, pozulmayan yerə də yazmışam, Toğrul.

Üzün gül kimi açıldı, uşaq kimi sevindin:

— Nərgizim. – deyə pıçıldadın və qeyri-ixtiyari olaraq mənə sarı gəldin. Bildim ki, özünü, hər şeyi unudub öpmək istəyəcəksən məni. Ona görə qorxu içində geri çəkildim. Sən dayandın, adını yazdığım qumlara baxdın və bədahətən bu misraları dedin:

Adımı qumların üstünə yazdın,
Qumlar eşqimizin varaqlarıymış.
Baxdım gözlərinə, inandım, gülüm,
Gözlərin ömrümün çıraqlarıymış.

Sən bunu söyləyib dalğaların qoynuna atıldın. Mənim başım fırlanırdı, dənizdə çimənlərin heç birini, hətta Bünyadı da görmürdüm. Sanki sən o boyda dənizdə tək idin. Ürəyimi bir istək sardı: soyunub suların qucağına atılmaq, yanına gəlmək, qollarının arasına sığınmaq, sənin gözlərindən öpmək istəyirdim. Bunun özü də qeyri-adi bir vüsal olardı: dənizdə, dalğaların qoynunda vüsal.

Amma özümü ələ aldım, xəyalatdan ayıldım. «Bu, mümkün deyil, aman allah, heç vaxt da mümkün olmayacaq» – dedim öz-özümə.

Mən sədaqət tərəfdarıyam. Mən ailə müqəddəsliyini, təmizliyini hər şeydən üstün tuturam. Burada ötəri, keçib gedən hisslərə aldanmaq, yanlış addım atmaq məncə əsla düzgün deyil. Mən sənin məhəbbətini qiymətləndirirəm, uca tuturam, hələ dediyim kimi, sənինlə fəxr də eləyirəm. Sənsiz olmağın dəhşətlərini, əzablarını da görmüşəm. Bəlkə də bu əzablar mənim həyatımı şirin edib, maraqlı edib. Mən indi sənin sayəndə sevə-sevə, düşünə-düşünə, mənalar, yüksək, şairanə hisslər aləmində yaşayıram və qəlbim qadın qürurundan köksümə sığmır. Bütün bunlara baxmayaraq, Bünyad mənim üçün elə əvvəlki Bünyaddır. Onunla yaşamaq maraqsızdır, amma artıq öyrəşmi-

şəm. Nə qədər qəribə olsa da bəzən o, bir yerə gedəndə onun üçün darıxıram. Sən özün yaxşı bilirsən ki, mən Bünyadın gözünün içinə dik baxa bilərəm.

Bu düşüncələr içində məyus halda sizin dənizdən çıxmağınızı gözləməyərək evə qayıtdım.

Siz şəhərə gedəndən, gün əyiləndən sonra mən dənizə çimməyə getdim. Səninlə dayanıb söhbət elədiyim yerdə soyundum, qumların üstündə adını axtardım, ancaq tapa bilmədim: yenidən yazmağa imkanım yox idi, çünki Bünyad yanımda idi. Qumun üstünə uzanıb səni düşündüm, səsini, şerini təzədən eşitdim. Çimməndə isə dalğaların uğultusu, şırıltısı arasından sənin səsini eşidirdim, ancaq sözlərini ayırd edə bilmirdim. Mənə elə gəlirdi ki, dalğalar deyir... «Sənə qurban olum, sevirəm səni, sevirəm səni...» O vaxtdan yay aylarında dənizdə çimməndə o şeri xatırlayıram, o günü, səni xatırlayıram, Toğrul.

… Sən mənə vurulandan sonra bu şəhərdən heç yana çıxmamışdın: nə istirahətə getmişdin, nə ezamiyyətə. Hara göndərirdilər müxtəlif bəhanələrlə boyun qaçırır, getmək istəmirdin. Bunun səbəbini özün, bir də mən bilirdim: sən məndən ayrı düşmək istəmirdin.

— Gedə bilmirəm, Nərgiz.

— Niyə, Toğrul?

— Sənsiz dayana bilmirəm, Nərgiz.

— Burda da mənsizsən axı?

— Yox, burda sənsiz deyiləm. Səni görürəm, səsini eşidirəm: bununla təskinlik tapıram.

Mən istəyirdim gedəsən, dincələsən, bəlkə bir az özünə gələsən. Mən də dincəlmək istəyirdim, bir az sənsiz qalmaq istəyirdim — çünki mən çox gərgin həyat keçirirdim: mənim içərimdə iki bir-birinə zidd qüvvə çırpışırdı: mən uzun illər sənin hisslərinin ölüb gedəcəyinə inanmışdım, o günü səbirsizliklə gözləmişdim. Amma yanılırmışam, bu hisslər ölüb gedən hisslər deyilmiş. Biz getdikcə daha da yaxınlaşır, bir-birimizə isnişir, mehriban olurduq. Səni görməyəndə mən də darıxırdım, elə bilirdim, nəsə itirmişəm. Otaqda otura bilmirdim. Səninlə

qarşılaşanda ürəyim çırpınırdı, özümü itirirdim: səni görəndən sonra rahatlaşırdım. Bütün bunlar mənə çox qəribə gəlsə də maraqlı idi, sehirli idi. Mən bu isnişməyimizdən qorxurdum: lakin qorxa-qorxa da sənlə bir az da yaxın olurdum. Bünyaddan ehtiyat eləyirdim — şübhələnə bilərdi. Özümdən də qorxurdum — sənə təslim ola bilərdim. Ürəyimdə cücərən, getdikcə qol-budaq atan, pöhrələnən o qəribə hisslərimi bacardığım qədər səndən gizləməyə çalışırdım. Hətta bir dəfə özümə söz vermişdim ki, sənin dərdindən yorğan-döşəyə düşüb illər xəstəsi olsam belə, yenə bunu sənə bildirməyəcəyəm.

Nə isə, mən istəyirdim ki, sən müvəqqəti də olsa bir yerə gedəsən. Sənsə getmək istəmirdin. «Bilsəm ki, heç olmasa məktub yazacaqsan, gedərəm» – deyib dururdun. Düşündüm ki, deyim yazaram, - qoy getsin, yazıqdı. Heç olmasa bir az eyni açılar. Çünki sən çox əzab çəkirdin – dilinə gətirməsən də duyurdum. Məndən xoş söz eşitməyəndə, üzünə xoş baxmayanda, ya sənlə kobud rəftar eləyəndə diri gözlü ölürdün: elə tutulurdun ki, bu, heç kəsin gözündən yayınmırdı. Səndən soruşurdular:

— Ay Toğrul, nə olub, bikefsən?

— Gəmilərin dəryada batıb?

— Xəstə deyilsən ki?

— Yenə kim qanını qaraldıb?

Sən hamıya bircə kəlmə:

— Heç – deyib susurdun. Yadımdadı ki, bir gün belə tutqun olan vaxtı yoldaşlar səni sorğu-suala tutanda azca əsəbi, azca da yalvarıcı bir səslə:

— Xahiş edirəm, tutqun olanda, qəmli olanda məndən heç nə soruşmayın. – dedin. Yenə sənə yazığım gəldi. Yoldaşlar bir-birinin üzünə baxıb susdular.

Bir dəfə Musa şöbədə dedi:

— Bu Toğrul qəribə adamdır.

— Nəyə görə deyirsən?

— O gün Yazıçılar İttifaqına çağırıblar, deyirlər gəl bizim jurnalda şöbə müdiri işlə. Boyun qaçırıb. Maaşı da çoxdu, həm

də ağayana işdi. Deyirəm, niyə getmirsən? Deyir, istəmirəm, ömrümün axırına qədər burda işləyəcəyəm, elə pensiyaya da burdan gedəcəyəm. Başa düşmürəm burda nə görüb?

Bir mən başa düşürdüm ki, sən burda nə görübsən, sən mənə görə getmək istəmirdin. Fikir məni götürdü: o gecəni çox pis yatdım, səhər işə gedəndə fürsət tapıb bu barədə sənlə danışdım.

— Eşitdim, səni jurnala aparmaq istəyirlər?

— Hə, - könülsüz cavab verdin.

— Haçan gedirsən?

— Heç haçan!

— Nə danışırsan, Toğrul? Adam elə yaxşı işi əlindən buraxar?

— Məni hara aparsalar, getməyəcəyəm, Nərgiz.

— Niyə axı?

— İstəmirəm, Nərgiz, milyon da verələr, sən işləyən idarədən heç yana gedən deyiləm, Nərgiz. Bunu birdəfəlik yadında saxla. Mən bura sənə görə gəlmişəm, səni burada qoyub hara gedə bilərəm, əzizim.

İki həftə sonra sənin Moskvaya — redaktorları bir aylıq təkmilləşdirmə kursuna getmək məsələn qalxdı. Yenə israr etdin ki, getmirəm. Direktorumuz da sənin əlindən yanıqlı idi deyə: «Qoy Toğrul getsin, bir az savadını artırsın» – dedi və sənin adını siyahıya saldı.

Qiymətli bir şeyini əlindən almağa hazırlaşmışlar kimi dilxor idin. Buna görə sərt və qəti şəkildə Musaya söylədin:

— Getməyəcəyəm. Burda məndən başqa redaktor-zad yoxdur məgər?

— Nəriman müəllim səni məsləhət bilir.

— Mən istəmirəm.

Bu söhbəti eşidəndə mən tez ayağa qalxdım və sənə başımla bayıra çıxmaq işarəsi verdim. Sözə baxan uşaq kimi dərhal dalımca dəhlizə çıxdın. Əsəbi idin. Rəngin boğulub qaralmışdı. Əlində fırlayıb yumşaltdığın siqareti dodaqlarının arasına

qoyub yandırmaq istəyəndə mən özüm üçün də gözlənilməz olan bir hərəkətlə siqarı damağından çəkib əzdim.

— Siqaret çəkmə, Toğrul, xahiş edirəm. Mənim siqaret iyindən zənd-zəhləm gedir.

Sən təəccüblə üzümə baxdın. Ərk etməyimmi xoşuna gəldi, ya sənə qayğı göstərməyimmi könlünə yatdı, bayaqdan tutqun olan və qəribə bir qorxu ifadə eləyən gözlərin güldü.

— Tamam çəkməyim deyirsən?

— Bacarırsansa tamam, Toğrul. Çox xahiş edirəm. Ziyandı sənə, ürəyinə, ciyərinə ziyandı.

Ani bir sükutdan sonra vəcdlə:

— Qayğıkeşim mənim. – dedin və siqaret qutusunu cibindən çıxarıb gözümün qabağında xıncım-xıncım eləyib böyrümüzdəki zibil qutusuna atdın.

Mən qəribəliyimə bir də burda heyrət elədim: səni bayıra çağıranda siqaret barədə heç düşünməmişdim. Birdən ağlıma gəldi. Sən isə məni o dəqiqə başa düşdün: burda sənə qarşı bir qayğıkeşlik, canıyananlıq vardı. Mənə uzaq, yad adam olsaydın, heç sənə belə deyərdim? Bu hərəkətimin nə demək olduğunu, mənasını özüm də sonra anladım. Əvvəl sıxıldım, sonra sevindim. Bunun əsl mənasını yaxşı başa düşdüyün üçün idi ki, rəngin açıldı, şadlandın:

— Çox sağ ol, Nərgizim. — deyə minnətdarlıq dolu bir səslə söylədin. Bu mənim üçün də olduqca xoş idi, Toğrul. Sənin həssaslığın, dilə belə gətirilməyən hissləri sözsüz də anlamağın səni gözümdə bir az da ucaltdı.

Gülə-gülə soruşdun:

— Məni siqareti tərgitdirmək üçün bura çağırmışdın, Nərgiz?

— Tək buna görə yox.

Sual dolu nəzərlərlə gözlərimin içinə baxdın:

— Mən istəyirəm, - dedim, - sən Moskvaya getməkdən imtina etməyəsən, Toğrul.

Qaşların çatıldı.

— İmtina etməyəm?

— Hə, Toğrul. Get Moskvaya.

Fikrə getdin, açılmış çöhrənə yenə kədər kölgəsi qondu.

— Məni özündən uzaqlaşdırmaq istəyirsən?

— Yox, əksinə. Yaxınlaşdırmaq istəyirəm, Toğrul.

Təəccüblə soruşdun:

— Yaxınlaşdırmaq istəyirsən?

— Hə, Toğrul.

— Nə cür?

Dayandım, fikrə getdim. Sonra dedim:

— Get, gələrsən, deyərəm, Toğrul.

Yenə gözlərin par-par parladı, işıqlandı: bir ümid qığılcımı yandı o həsrət dolu gözlərində.

— Məktub yazacaqsan mənə?

— Sən yazacaqsan?

— Yazacağam, Nərgiz.

— Hara? Bizim evə, Bünyadın üstünə?

— Yox, poçta. Mərkəzi poçta yazaram, tələb edənə qədər.

— Yaxşı, Toğrul, yazaram. Ancaq sən get. Həm havan dəyişər, həm də özün bir az dincələrsən.

… Üç gündən sonra getdin. Səndən nə gizlədim, səni dilə tutub göndərdiyimə görə çox tez peşman oldum, Toğrul. Hər gün yanımdaymışsan, üz-üzə, göz-gözə gəlirikmiş, ona görə qədrini bilmirmişəm. Sən bu ötən illər ərzində doğma olmuşmuşsan, əziz olmuşmuşsan mənə. Heç özümün bundan xəbərim yoxmuş, Toğrul.

Stolun boş idi — yerin görünürdü. Qəribə idi — adını çəkdilər, çəkmədilər, mən sənin haqqında fikirləşirdim. Evdə də, işdə də, yolda da… Hərdən oturub düşünürdüm ki, görəsən Toğrul neyləyir? Yəqin əlini üzünə söykəyib müəllimə qulaq asır, ancaq heç nə başa düşmür, çünki fikri burdadı. Sonra özüm-özümə gülürdüm: bəlkə unudub məni?

Günləri sayırdım: sənsiz günlər nə ağır keçirmiş, Toğrul? Sənin zamanla gizli, sehirli əlaqən var idimi, nə idi? Sən burda

olanda mənim həyatım da, işim də maraqlı idi — hiss olunmadan günləri bir-bir yola salırdım, sabahkı günün intizarıyla yaşayırdım, bilirdim ki, sabah yenə səni görəcəyəm, səsini eşidəcəyəm, məftun gözlərinə baxacağam, səndən şirin, ürək açan bir söz eşidəcəyəm.

Sən burda olanda… özümdə bir qürur, bir ucalıq hiss eləyirdim. Yanımda oturub başı aşağı işləyən qızlara baxıb onların yox, məhz özümün sevildiyimi düşünəndə ürəyim dağa dönürdü.

Amma sən gedəndən sonra… sənsizliyim qəlbimi sıxdı. Sanki kiçildim, balacalaşdım, kimsəsizlədim. Hər şey mənə cansıxıcı görünməyə başladı. Elə bilirdim ki, şöbədə heç kəs yoxdu. Stolumun üstündəki «aşdım-daşdım» gülü də solmağa başlamışdı. Axı onu hər gün səhər hamıdan qabaq gəlib sən sulayırdın, Toğrul. O da sənsizləmişdi. Nəhayət, elə bir gün gəlib çatdı ki, sənin varlığın olmayan, səsin eşidilməyən, kədərli gözlərin yol çəkməyən şöbədə otura bilmədiyimi, ürəyimin məngənə arasındaymış kimi sıxıldığını hiss eləyib işə çıxmamağı qərara aldım. «Kefsizəm» — deyib icazə istədim, verdilər. Axşamacan evdə olurdum; Əfsanə ilə günümü keçirirdim, tez-tez anamgilə gedirdim.

Orda da qərar tuta bilmirdim: üzümdə bir nigarançılıq, gözlərimdə bir intizar vardı. Darıxırdım. Kiçicik arzumu, istəyimi gözümdən oxuyan anamın nəzərindən bu halətim yayınmadı: Süfrə arxasında məni başdan-ayağa süzüb soruşdu:

— Sənə nə olub, qızım?

Bu nagahani sualdan diksindim:

— Heç nə.

— Yox, qızım, narahatsan yaman. Neçə gündü sənə göz qoyuram, görürəm ki, çox fikirli gəzib dolanırsan. Yoxsa Bünyad ilə söz-söhbətin olub, balası.

— Yox, ana.

— Bəlkə bir şey itirmisən?

Artıq qızarmışdım. Sifətim od tutub yanırdı. Onun gözünün içinə şax baxa bilmirdim. O biri suallarına elə belə, avto-

matik cavab vermişdim. Amma son sualı… «Bəlkə bir şey itirmisən?»… Necə də düz tapmışdı. «İtirmisən». Bəli, itirmişdim. Səni itirmişdim, Toğrul. Buna görə rahatlığımı, səbri-qərarımı da itirmişdim. Bilirdim ki, səni yenə tapacağam, sən yenə qayıdıb gələcəksən, yenə yanımda olacaqsan, yenə şirin sözlərini eşidəcəyəm. Ancaq neyləyim ki, dözə bilmirdim. Sənin getməyinin ən pis cəhəti bu oldu ki, özüm-özümü, ürəyimi kəşf elədim. O gün, elə o an səssiz-küysüz, öz qarşımda qəribə bir etiraf elədim. Etiraf elədim ki, sənə vurulmuşam və səndən heç yana, heç vaxt qaça bilməyəcəyəm. Bunu kənar bir müşahidəçi mənə desəydi, lap sən özün söyləsəydin, boynuma almazdım. Amma insanın daxilində ikinci bir «mən» — onun sadiq məsləhətçisi, dostu, məhrəmi yaşayır ki, o, hər şeyi görür, ondan heç nə gizləmək olmaz. Hamıdan, ərindən, anandan gizlədiyin ən gizli sirrini ona açırsan, ona deyirsən və bilirsən ki, o, sənin ürəyindəkini kimsəyə açıb deməz.

Anama nə cavab verəcəyimi düşünürdüm ki, telefon uzun-uzadı zəng çaldı: əlimin altında olduğundan dəstəyi mən götürdüm. Təsadüfə bax. Sən idin. Səsini eşidən kimi ürəyim uçundu, itirdiyini tapmış adam kimi sevindim. Gördüm ki, tərəddüd eləyirsən. «Mənəm, Nərgiz» – deyəndən sonra arxayın danışmağa başladın. Evimizə, idarəyə zəng elədiyindən, heç yerdə məni tapa bilmədiyindən, axırda naəlac qalıb anamgilə zəng çalmaq məcburiyyəti qarşısında qaldığından danışırdın. Qulaqlarım elə guruldayırdı ki, sözlərini güclə başa düşürdüm, ancaq səsini, o ağlar səsini eşidirdim və bu mənə ləzzət eləyirdi. Anam tez-tez him-cimlə soruşurdu ki: «Kimdi?» Arada fürsət tapıb «Rəfiqəmdi» – deyə bildim. O, durub yan otağa keçəndə deyirdin:

— Məktubuma niyə cavab yazmırsan, Nərgiz?

— Almamışam.

— Poçtdadır, get al. Mənə cavab yazmasan, hər şeyi yarımçıq qoyub gələcəyəm.

Nədənsə şitliyim tutdu, dedim:

— Özün gələndə alıb verərsən, oxuyaram. Məktub yazmayacağam. Özün də axıra qədər qalacaqsan. Eşidirsən?

Susdun. Ahının səsini eşitdim. Bu uzaqlıqda yolu keçib gələn ahını eşidəndə azca əvvəl dediyimə peşman oldum, ancaq gec idi. Sözümü dəyişmək istəmədim. Anam qayıdıb gəldi.

— Yaxşı, sağ ol. – deyib dəstəyi asdım. Halım özümdə deyildi. Məst adama oxşayırdım. Sevinirdim, ona görə ki, səsini eşitmişdim. Kədərli idim, ona görə ki, sənin lə pis danışmışdım, nigaran qoymuşdum səni. Özümü danlayırdım ki, niyə sənə xoş bir söz demədim, niyə şadlığıma şitlik elədim. «Kaş təzədən zəng eləyəydin». – deyə düşünürdüm. Taqətsiz halda divana uzandım, gözlədim. Ancaq sən təzədən zəng çalmadın.

— Nə deyirdi? – deyə anam mənə diqqətlə baxa-baxa xəbər aldı.

Mən könülsüz halda:

— Şey tapşırmışdım, deyir, yoxdur. – dedim. Daha heç nə soruşmadı. Ayağa qalxdım, Əfsanəni anamın yanında qoyub şəhərə çıxdım. Bayırda gözəl payız havası vardı. Yüngül külək əsirdi. «Nahaq elə danışdım Toğrulla. Yazıqdı.Kursunu yarımçıq qoyub gələcək, biabırçılıq olacaq, yenə Nəriman qılıncını götürüb düşəcək üstünə, danla ki, danlayasan, yox, gəlməz. Sözdü deyirdi. Eybi yoxdur, bu da sınaqdır. Gəlsə, demək həqiqətən sevir. Məktub yazıb. Görəsən nə yazıb?»

Düşünə-düşünə nə zaman poçtun qabağına gəldiyimi xatırlamıram. Qorxa-qorxa, ətrafıma boylana-boylana içəri girdim, pasportumu pırpızbaş,sarışın qıza təqdim edib məktubunu aldım. Uçunurdum, əsməcə tutmuşdu məni. Oğurluq eləyən adama oxşayırdım. Məktubu çox mühüm və məxfi bir sənəd kimi rediküldə gizlədib evə gəldim. Bünyad neçə gündü dənizdə idi, hələ qayıtmamışdı. İlk sevgi məktubu alan qız kimi – doğrudan da bu, mənə gəlmiş ilk sevgi məktubu idi – əllərim əsə-əsə konverti açdım. İçinə iki dənə qızıl gül ləçəyi qoymuşdun. Solmuşdular, amma hələ ətri vardı. İncə ruhlum mənim, şair qəlblim mənim. O ləçəkləri öpdüm: bu payız günü soyuq

şimaldan mənə bahar göndərmişdin. Pallı-paltarlı divana uzanıb məktubunu oxumağa başladım.

O məktub necə gözəl məktub idi, Toğrul. Sən ürəyini çıxarıb qoymuşdun sanki o məktubun içinə, varlığını sözə çevirib ağ kağıza tökmüşdün elə bil, hissiyyatla, həsrətlə dolu idi o varaıqlar, Toğrul. Onu gərək ancaq oxuyasan. Onun gözəlliyini, məna və şeriyyətini danışmaqla başqasına çatdırmaq olmaz. Sözlə hissin, duyğunun bu qədər qaynayıb qarışa biləcəyini mən heç ağlıma da gətirə bilməzdim. Nə görmüşdüm, nə də oxumuşdum. O məktubla sən mənə o qədər yaxın və doğma oldun ki, sənlə bayaq telefonda elə sərt, kobud danışdığımı yadıma salıb xəcalət çəkdim və inanırsan, ağladım. Mən o gün səni bir daha Bünyad ilə müqayisə etdim: o, mənə heç vaxt nə belə məktublar yazmışdı, nə də belə sözlər demişdi. Bu dəfə müqayisə eləyəndə aman allah, dəhşətə gəldim: o, sənin yanında nə qədər quru imiş, Toğrul.

Məktubunu bir də oxudum, bir də, bir də… hər dəfə oxuyanda elə bilirdim, birinci dəfə oxuyuram: sözləri elə gözəl, elə təravətli və şairanə idi ki… Şer də yazmışdın — «Ayrılıq» şeri… Yadımdadır, yazmışdın:

Dünyada nə qədər dərd var, ay aman,
Onların içində təkdi ayrılıq..
Sıxıldı ürəyim, yaşardı gözüm,
Sinəmə neçə dağ çəkdi ayrılıq.

Adını deməkdən yorulmur dilim,
Neynim ki, əlinə çatmayır əlim.
Qəmli gözlərimdən inan, gözəlim,
Bahar yağışları tökdü ayrılıq.

Sənmişsən ömrümün şəkəri, qəndi:
Sənsiz üzüm gülməz, gülüm, nədəndi?
Qocaldım, başıma qar da ələndi,
Belimi gör necə bükdü ayrılıq.

Sənsiz bom-boş imiş ürəyim, beynim:
Sənsiz açılmadı bir dəfə eynim.
Ürək dözə bilmir, axı mən neynim?
Dünyada ən ağır yükdü ayrılıq.

Bu məktubun sənsizliyimi qismən azaltdı. Elə bil, özün gəlmişdin yanıma, yanımda oturub həzin, titrək səslə mənə öz məhəbbətindən, həsrətindən danışırdın. Mən bir əfsanəvi nağıl kimi söhbətini dinləyir, sənə daha çox valeh olurdum. Bəzən isti nəfəsini üzümdə duyurdum, məst olurdum. Çünki sən indiyə qədər heç vaxt mənə öz ürəyini beləcə mükəmməl açmamışdın. O gün mənim ən bəxtiyar günüm idi, Toğrul. Mən sanki təzədən dönüb yeniyetmə qız olmuşdum, mənə sənin kimi həssas, şair qəlbli bir oğlan məktub, özü də məhəbbət məktubu yazmışdı və mən o məktubu oxumaqdan doymurdum, doya bilmirdim, Toğrul. Ərli olduğum, uşaq anası olduğum yadımdan çıxmışdı elə bil, xəyalpərvər bir qız uşağı idim sanki, gah burda keçirdiyin günləri xatırlayırdım, gah orda, Moskvada mənsiz ötən günlərini xəyalımda canlandırmağa çalışırdım, quş olub yanına uçurdum, quş olub yanıma gəlirdin.

Anam zəng vuraraq uşağı gəlib aparmalı olacağımı deyəndə xəyallarım dağıldı: mən təzədən öz adi dünyamıza qayıtdım. Bütün bunlara ixtiyarım olmadığını düşünüb məyus oldum, Toğrul. Bilsən necə məyus oldum? Mən uşaq anasıyam, mən Bünyadın arvadıyam. – Bu fikirdən üşüyən kimi oldum. Ürəyimdə məktubunun ələ keçmək qorxusu baş qaldırdı, bizim bu gizli, sehirli dünyamızın kəşf olunmaq qorxusu məni sarsıtdı.

Son dəfə də oxudum məktubunu. Sonra bilirsən neyləddim, Toğrul? Yandırdım o məktubu. Onu saxlamağa mənim haqqım yox idi. Başqasının arvadı kimi, bir ana kimi. Ələ keçə bilərdi. Od vurdum ona. Alovun dilləri sətirləri bir-bir udur, öldürürdü. Elə bilirdim yanan adi kağız deyil, sənin ürəyindir yanır, Toğrul. Baxırdım, qeyri-ixtiyari gözlərimdən yaş axırdı. O anlarda ürəyinin səsini boğmağa çalışan bir qəddar adama

bənzəyirdim və sənin qarşında bu vəziyyətimdən utanırdım. «Bağışla məni, deyirdim, Toğrul, bağışla». Sən sonralar məni bağışlasan da mən özümü bağışlaya bilmirəm, əzizim. İnanırsan, illər keçsə də bağışlaya bilmirəm. Ürəyimdən bir daş olub asılıb o peşimançılıq, Toğrul. Bütün gecəni düşünüb-daşınandan sonra səhərisi Bünyadı işə yola salıb sənə bacardığım qədər səmimi, şirin və hərarətli bir məktub yazdım, ancaq göndərməyə fürsət tapmadım: sən mənimlə telefonda danışandan bir gün sonra dediyin kimi, qayıdıb gəldin.

… Səni şöbənin qapısı ağzında görəndə əvvəl gözlərimə inanmadım, Toğrul. Dedim, yəqin yuxu görürəm. Çünki otaqdan çıxarkən sənin haqqında düşünürdüm - ondan ikicə dəqiqə qabaq sənin boş stoluna baxıb köks ötürmüşdüm. Sənin üçün o anlarda olduğu kimi heç vaxt darıxmamışdım. Otaqda oturanlara — Musaya və qızlara baxıb fikirləşmişdim ki, onlar nə qədər də maraqsız adamlardılar, ilahi? Sən burda olanda iş də gözəl idi, idarə də. Yanımdakı adamlar da nəsə belə cılız və quru deyildilər. İndi isə… Darıxdım, çölə çıxmaq, bir az fırlanıb fikrimi dağıtmaq istədim və elə bu zaman sənlə üz-üzə gəldim. Bircə o yadımda qalıb ki, bu gözlənilməz görüşdən gözlərin böyüdü: bircə o yadımda qalıb ki, əsim-əsim əsdin.

— Gəldin?

— Gəldim, Nərgiz. — Bir də bu iki kəlmə yadımda qalıb, Toğrul, o həyəcanlı görüşümüzdən. Özümü itirdim. Nədənsə mənə elə gəldi ki, ürəyim sinəmdən qopub ayaqlarımın altına düşdü. Dolaşıq, çalpaşıq hisslər vücudumu sardı. Sevindim ki, gəlmisən, sevindim ki, həyatımda yaranmış boşluğu dolduracaqsan. Sevindim ki, məni sevirsən, bizim bu gizli məhəbbətimizdə necə də gözəl, ülvi və təkrarolunmaz bir şeriyyət və şirinlik var, Toğrul. Elə bil, ani olaraq gözlərim işıqlandı.

Sonra nədənsə sənə acığım tutdu. Niyə işini, gücünü yarımçıq qoyub qaçıb gəlmisən? Axı bunun üstündə səni danlayacaqlar. Və burda da özümü tutdum ki, bu da sənə olan məhəbbətdən irəli gəlirmiş. Mən istəmirmişəm səni danlasınlar, ağır söz desinlər. İstəmirmişəm.

Ona görə səni qapının ağzında qoyub getdim. On dəqiqədən sonra içəri qayıdanda səni otaqda görməyib yenə çaş-baş qaldım. İstədim qızlardan soruşam ki, Toğrul gəlmişdi? Susmağı məsləhət bildim: yəqin məni qara basıbmış? Yox, axı onu özüm gördüm, danışdım. Otaq sənsiz yenə mənə boş göründü. Bir yerdə qərar tuta bilməyib ayağa qalxdım və pəncərənin qabağına gəldim və səni trolleybus dayanacağında görüb bütün bunların yuxu deyil, həqiqət olduğuna inandım.

Sən mənə baxırdın, mən sənə… Sən sınıxmışdın. Rəngin azca ağarmışdı. Boyun da elə bil, bir az uzanmışdı. Nədənsə o an sənin yandırdığım məktubunun odun, alovun udduğu sətirləri qulaqlarımda səsləndi: «Mən sənə qurban olum» sözlərini eşidirdim o anlarda. Sənə baxa-baxa yanan səhifələr, kül olan sətirlər gözümün qabağında canlanırdı o anlarda.

Bu ara sən mənə «Bura gəl» işarəsi verdin. Sehirlənmiş kimi heç nə düşünmədən, kimsəyə bir söz demədən redikulumu götürüb otaqdan çıxdım. Çünki sənə yaxşı-yaxşı baxmaq, səsini eşitmək, kədərli gözlərini görmək istəyi ürəyimi sarımışdı.

Ağır addımlarla dayanacağa gəldim. İkimiz də birbirimizi sözsüz başa düşdük: yenicə dayanacağa çatmış avtobusa mən qabaqdan mindim, sən arxadan. Sanki məndən qorxurdun, yaxın gəlmək istəmirdin. Ətrafa boylandım, tanış-filan yox idi. Sən sonra ehtiyatla mənə sarı gəldin. Mən göy şüşəli eynəyimi çıxardıb sənə yaxından, təbəssüm dolu bir nəzər salandan sonra sən də günah işlətmiş uşaq kimi kədərlə gülümsündün.

— Xoş gəlmisən, Toğrul. – dedim.

— Sağ ol, Nərgiz. – titrək səslə cavab verdin. – Necəsən?

— Yaxşıyam. Sən necəsən?

— Gördüyün kimi.

— Pis deyilsən.

Araya sükut çökdü: sanki danışmağa sözüm yox idi. Avtobus demək olar ki, boş idi: qabaq tərəfdə bazardan gələn üçdörd qoca arvad oturmuşdu. Sən boş oturacağı mənə göstərib:

— Otur, Nərgiz. – dedin. Mən keçib əyləşdim, sən də çəkinə-çəkinə yanımda oturdun.

Həyatımızda ilk dəfə idi ki, yanaşı otururduq: qolun qoluma dəyirdi, nəfəsin nəfəsimə qarışırdı.

— Bəs niyə tez gəldin, Toğrul? Axı sən bir aylıq getmişdin?

— Düzdür, bir aylıq getmişdim, ancaq qala bilmədim. Səndən məktub gözləməkdən gözümün kökü saraldı. Hər gün iki-üç dəfə poçta gedirdim. Orada işləyən qızlar mənim familimi əzbər bilirdilər: uzaqdan görən kimi deyirdilər: «Yoxdur». Ümidlə səhəri gözləyirdim. Səhər yenə bir söz eşidirdim: «Yoxdur». Məyus olurdum, nə çörək yeyə bilirdim, nə oxuya bilirdim, nə də yata bilirdim, Nərgiz. O iyirmi gündə mən cəhənnəm əzabı çəkdim, inan. Sənin telefonda danışandan sonra mənə məktub yazmayacağını yəqin edib çıxıb gəldim. Çünki daha səbrim çatmadı.

— Səni yaxşıca danlayacaqlar.

— Qoy danlasınlar. Sənsiz keçən günlərin əzabına dözməkdənsə danlanmaq min dəfə yaxşıdır.

— Mən sənə məktub yazmışdım, Toğrul.

— Yazmışdın?

— Hə, məktubunu aldım, sonra sənə cavab yazdım.

Təəccüblə mənə baxdın.

— Bəs dedin almamışam?

— Sənin danışandan sonra getdim aldım. Çox sağ ol məktub üçün. Yaxşı məktub idi, Toğrul. Mənim üçün xoş idi o məktubu oxumaq.

Mənim bu sözlərimdən uşaq kimi sevindin: üzündən, gülən gözlərindən bunu hiss elədim.

— Ayın neçəsində göndərmisən?

Mən gülümsündüm:

— Bu gün alacaqsan o məktubu.

— Bu gün? Mən burda, o orda… Necə ala bilərəm, Nərgiz?

Mən redikülümün içində gizlədiyim məktubu çıxarıb sənə verdim və:

— Bax, belə. – dedim. Sən çaşdın, nə edəcəyini bilmədin. Sonra titrək əlinlə məktubu alıb dodaqlarına yaxınlaşdırdın və öpdün.

— Sağ ol, Nərgizim. – dedin.

— Evdə oxuyarsan. İndi isə xudahafiz. Yoldan gəlibsən, yorğunsan, get, dincəl. Səhər görüşərik, Toğrul.

MƏN: — Toğrul nə gördüyünə inanırdı, nə eşitdiyinə. Elə sehrlənmişdi ki, Nərgiz onunla vidalaşıb gedəndə heç nə deyə bilmədi: sanki dili tutulmuşdu, hər şey sanki yuxu aləmində baş verirdi. Bu avtobus hara gedirdi, Toğrul niyə düşmürdü, əlindəki məktubu doğrudanmı Nərgiz özü vermişdi ona? Bu sanki həqiqət deyildi, xəyal idi. Bir dayanacaqmı getdi, iki dayanacaqmı? – deyə bilməzdi. Dəniz qırağında düşdü, özünü sahilə verdi, kimsəyə rast gəlməsin deyə əldən-ayaqdan uzaq bir oturacaq tapıb əyləşdi. Sonra ətrafına boylanıb heç kəsin gəlmədiyini görərək Nərgizin məktubunu açdı, ürək çırpıntısı ilə oxumağa başladı. O gün Toğrulun həyatının ən unudulmaz günlərindən biri idi: çünki o, həmin gün sevdiyindən məktub almışdı. Özü də necə məktub?

İndi Nərgiz o görüş haqqında söhbət açanda bütün təfərrüat yadına düşdü, illərin xatirə kitabı varaqlanmağa başladı: o, maqnitafonu söndürdü, yazı masasının gözünü açıb ordan Nərgizin yadigar şeylərini – kiçik ipək dəsmalı, irili-xırdalı kağızlara yazılmış məktubları, limon qabığını çıxarıb stolun üstünə qoydu. Göy konvertin içindən dörd bükülmüş bir neçə varaq çıxartdı. Bir zaman Nərgizin ağ barmaqları arasında tutduğu qələmlə yazılmış doğma xəttə baxıb gülümsədi.

TOĞRULUN DÜŞÜNCƏLƏRİ: — Sənin məktubunu indi də saxlayıram, Nərgizim, yadigarın olduğu üçün. Varaqlar solub saralıb, mürəkkəb rəngini azca dəyişib, amma saxlayıram. Ömrüm boyu da saxlayacağam, sənin yadigarın olduğu üçün. Onu o qədər oxumuşam ki, hər sözünü əzbər bilirəm: gecənin nə vaxtı oyatsalar, başdan-ayağa əzbər deyə bilərəm, Nərgizim. Sənin yadındadı o sözlər? Yox? Gör nələr yazıbsan, Nərgizim.

«Toğrul, salam. Sənin üç gün ayrılıqdan sonra yazdığın məktubu mən on yeddi gün ayrılıqdan sonra aldım. Yəni ayın iyirmi səkkizində, sən anadan olduğun gün. Həyat qəribədir: sənin asudəliklə yazdığın məktubu mən asudəliklə oxuya bilmirdim. Hər şeydən qorxa-qorxa, oğrun-oğrun oxumalıymışam sənin məktubunu. Desəm ki, sənin məktubunu başdan ayağa birdəfəlik oxumaq mənim üçün çox çətin idi, inanmazsan. Vallah, imkanım yox idi, bacarmırdım. Sən bədbin də olsan, çox nikbin adamsan. Səndə bu hallar birləşib. Çünki sən məni bacarmadığım, ağlıma belə gətirmədiyim çox şeylərə adət etdirmisən. Bu namə isə növbəti inadındır. Sən yazırsan ki, son vaxtlar arıqlamısan və guya sən bundan çox əzab çəkmisən. Mən həmişə arıq olmuşam, intəhası sən bunu əvvəllər görmək iqtidarında olmamısan. Sən mənim arıqlığımdan qorxma, mənə heç nə olmaz. Sən məni sındırmaqdan qorx. Özü də bərk qorx. Məni istəmədiyim, arzusunda olmadığım şeylərə vadar etmə. – namə yazmaq kimi.

Sən gedəndən sonra, gecə saat on ikidə anamgildən evimizə gələrkən Elmiranın ifasında «Sən getdin» mahnısını eşitdim. Nədənsə səni xatırladım. Çünki bu çox yaxşı mahnıdır və sənin də onu çox sevdiyini bilirəm. Elə bildim yanıqlı səslə, inləyə-inləyə məni səsləyirsən. Mahnı səsi bizdən gəlirmiş, Bünyad maqnitafonu oxudurmuş. Qəribə bir kədərlə o mahnını iki dəfə dinləyib sonra yatdım.

Yadındamı, ayrılanda, Moskvaya gedəndə qəmli-qəmli dedin: «Məni unutma, Nərgiz». Mən güldüm. Sən onda məni başa düşmədin. Mən onda sənin sadəlövhlüyünə gülürdüm, Toğrul. Sən mənim həyatıma elə hopmusan ki, istəsəm də, arzulasam da unuda bilmərəm səni. Görürsənmi, mən də etiraf etməyi bacarıram; sən isə deyirdin mən etiraf etməyi xoşlamıram. Amma sən mənim sözümə baxsaydın, biz yaxşı dost ola bilərdik. Nə isə… Sən öz hisslərinin əsirisən: inadın başqasını dəyişdirə bildi, iradən isə qələbə çala bilmədi. Eybi yoxdur, hər halda qələbə də, məğlubiyyət də sənindir.

Mən səni unutmuram, Toğrul. Çünki balkonumuzun altında dibində hər axşam dayandığın ağac, iş yolumun üstündə, küçənin başlanğıcındakı dayanacaq, xiyabandan açıq-aydın görünən pəncərələrimiz, otaqda isə boş qalmış stolun səni mənə xatırladır. Mən sənin titrək, nəvaziş dolu səsini də eşidirəm. Lakin bir arxayınlıq, rahatlıq içində keçən günlərimdə də düşünürəm ki, bir azdan sonra mənim gərgin, çətin, qorxulu günlərim yenə başlanacaq. Çox xahiş edirəm, məni düzgün başa düş. Sənin hardasa sağ-salamat olmağın mənə çox lazımdır: sən mənim üçün çox qiymətlisən. Ona görə ki, həyatım sənինlə çox bağlıdır. Bunu sənə ona görə yazıram ki, tez gəlmək fikrindən daşın, nə olursa-olsun, axıra qədər qal. Qoy mən də özümə gəlim, mən də gərginlikdən qurtarım. Yaxşımı? İşdə hələ bir yenilik yoxdur. Hekayənin radioda veriləcəyi günü bilsəm, teleqram vuraram. Özüm də yavaş-yavaş işləyirəm. Gələnə qədər nəzərdə tutduğun əsərləri yaz qurtar. Bəlkə mənə yaradıcılıq hesabatı verməli oldun – əlbəttə, istəsən.

… Sənin gözlərinin rəngini yazmağa söz vermişdim. Bu, o gözlərdir ki, heç yerdə, hətta məndən uzaqda da olanda mənə rahatlıq vermir. Bu gözlərin rəngi deyilən kimi göy deyil. Bəlkə gözlərin dəniz rəngindədir: axı dəniz rənginin çalarları çoxdur. O rənglərdən birinə bənzətmək olar. Bunu bir başqası sənə desə, mübahisə etmədən inan. Çünki deyəsən özün də gözlərinin rəngini bilmirsən. Mənə isə elə gəlir ki, sənin gözlərin həsrət rəngindədir – gülməlidir, deyilmi? – Şəxsən mən o gözləri kədərlənəndə də, güləndə də, adi vəziyyətdə də görmüşəm: onlar mən bəbəkli, həsrət rəngli gözlərdir. Sən dünyadan köçəndə məni arzulama. Mən buna dözə bilmərəm. Bir də məlum deyil, kim kimdən qabaq cahanla vidalaşacaq. Ancaq səni əmin edə bilərəm ki, əgər mənə qarşı hisslərin dəyişməsə, mən ölmüş olsam da sənin gözlərində mənim şəklim olacaq. Hər halda sən məni buna inandırmısan. Hələlik inandırmısan. Ona görə hələlik deyirəm ki, daimi heç nəyə, heç kəsə inanmaq istəmirəm. Bu inamsızlığıma da bais sənsən: mən özümə çox inanırdım, sən məni dəyişdin. Sənin mənə təlqin etdirdiyin o

hisslərin sənin özündə dəyişdiyini görən gün mənim qələbəm olacaq. Mən o günü səbirsizliklə gözləyəcəyəm. Hətta bəzən mənə elə gəlir ki, o günü görməsəm ölə də bilmərəm.

Mənim üçün darıxma. Mənsiz günlərini mənalı yaşa. Mənə ürəyimi, zövqümü oxşayan əsərlər gətir. Göndərdiyin gül ləçəkləri kimi ətirli və təravətli əsərlər. Mənim üçün darıxanda otur, yaz. «Gülən arzular»ı yaz, «Gizli məhəbbət»i yaz,Toğrul. Elə istəyirəm ki, sən mənim nəzərdə tutduğum, arzuladığım, özünün layiq olduğun zirvəyə çatasan. Xırdalanma, cılızlaşma. Əvvəlki əsərlərindən qüvvətli əsərlər yazmasan, demək, məni inandırdığın qədər sevmirsən. Sən ağıllısan, istedadlısan. Hərdən sənə heyfim gəlir: elə bilirəm ki, sənin ağlını da, istedadını da mən xarab eləmişəm. Onda özümdən zəhləm gedir. Qurtar məni bu təzadlı fikirlərdən. Öz yazılarınla heç olmasa qismən rahatlığımı qaytar. Yaxşımı? Sağ ol, hələlik. Sənə heç kəsdən salam yazmıram; yaza bilmirəm. Çünki bu elə məktubdur ki, onun varlığından kimsə xəbər tutmamalıdır. Az qalmışdı unudum: sənə zərif yarpaqlı «Aşdım-daşdım» çiçəyin, ətrafına çəkdiyin sarmaşıqlar salam göndərir və öz dostlarına sifariş edirlər ki, darıxmasın: bu ayrılıq da bir gündür, xatirədir. Sağ ol, özündən muğayat ol, Sənə can sağlığı, könül rahatlığı arzulayıram. Siqaret çəkmə, xahiş edirəm».

MƏN: — Toğrul məktubu, illər boyu əzizləyib saxladığı, saysız-hesabsız dəfə oxuduğu məktubu nəzərdən keçirib kənara qoydu: sonra Nərgizin o biri yadigarlarına tamaşa elədi. Qurumuş, rəngini və iyini itirmiş portağal qabığına baxdı, götürüb iylədi. Nə zamansa Nərgiz ona bir portağal vermişdi: «Ye, Toğrul» – demişdi. Toğrul yeyəndən sonra qabığından bir parça götürmüş və saxlamışdı. Bu şeylərin hərəsi bir xatirə idi. Düşünəndə, xəyala dalanda ömrünün unudulmaz, şirin və kövrək bir günü yadına düşürdü, təzədən o günə qayıdırdı, o gündə yaşayırdı.

Toğrul köks ötürüb Nərgizin yadigarlarını səliqə ilə yazı masasının boş gözünə yığdı, maqnitafona baxıb xeyli fikirləşəndən sonra düyməsini burdu: Nərgiz həyəcanlı və titrək səsi

ilə yenə onun xəyalını çəkib o uzaq, lakin unudulmaz günə apardı.

NƏRGİZİN SƏSİ: — Sənlə iyirmi gün ayrılıqdan sonra görüşdüyüm o günün gecəsi mənə elə gəlirdi ki, dünyanın ən uzun və üzücü gecəsidi, Toğrul. Çox narahat idim — bilmirəm niyə? Özümü adi qaydada apara bilmirdim: hərəkətlərimdə bir əsəbilik vardı. Bünyadın sözlərinə, söhbətlərinə qulaq asası halda deyildim. Səndən nə gizlədim, elə bil, o uzaq və yad bir planetdən gəlmişdi və mənə anlaşılmaz görünən bir dildə danışırdı. Əfsanə nə üçünsə ağlayırdı — səsi başıma düşürdü. Tez-tez balkona çıxırdım, səni düşünürdüm: düşünürdüm ki, bu ayrılıqdan sonrakı görüşümüz niyə belə qısa və soyuq oldu? Axı gərək biz belə görüşməyəydik. İndi nə üçünsə səni görmək istəyirdim: sakit, əldən-ayaqdan uzaq bir guşədə sənlə danışmaq, sənin məhəbbət və nəvaziş dolu sözlərini eşitmək istəyirdim: axı sən danışanda mən yaşadığım mühitdən ayrılıb qanadlı quşa dönərək göylərdə uçurdum. Sən danışanda mən başını anasının dizi üstə qoyub əfsanəvi aləmlərdən əfsanəvi nağıllar dinləyən bir uşaq kimi şirin xəyallara dalırdım.

Sənsizləmişəm — heç özümün də xəbərim yoxmuş. Sən mənsiz qalanda şer yazmışdın. O gecə həmin şeri öz-özümə pıçıldayırdım:

Sənsizlik yamanmış, yandı ürəyim:
Sənsizlik yükünü daşımaq olmur.
Çörəksiz, havasız, susuz yaşaram,
Sənsiz bu dünyada yaşamaq olmur.

O aylı-ulduzlu bahar gecəsində buna mənəvi ixtiyarım çatmasa da, qərara gəldim ki, səni bir daha heç yerə getməyə qoymayacağam. Sadəcə olaraq, deyəcəyəm, getmə, sən də getməyəcəksən. Sənsizliyin hökmünə bax ki, hətta məzuniyyət günlərinin də fikrini indidən çəkməyə başlamışdım. Kim bilir, biz yayı harada keçirəcəkdik? Bağdamı, Kislovodskidəmi? Sən harada istirahət edəcəkdin?

Bütün bunların dərdini mən dünyanın ən uzun gecəsi olan həmin o gecə çəkdim, ancaq axırını bir yana çıxara bilmədim.

Sonralar sənə bu barədə heç nə demədim, sən özün heç yerə getmədin: çünki getməyin «ləzzətini» görmüşdün. Gör neçə ildi sən Bakıdan kənara çıxmırsan, Toğrul. Sənə çox vəzifələr təklif ediblər: heç birisinə getməyibsən. Hərdən oturub düşünürəm ki, Bünyad sənin yerinə olsaydı, çoxdan getmişdi: çünki onun təbiətində bir vəzifəpərəstlik var. Hərdən bu barədə fikirləşəndə ürəyimə elə gəlir ki, o, məni də vəzifəyə dəyişə bilər. Amma sən…

Həmin gecə səhərə qədər yata bilmədiyimə görə özümü əzgin və yorğun hiss eləyirdim. Gözlərim qızarmışdı. Bünyad vəziyyətimi görüb:

— İstəyirsən, yat dincəl, bu gün işə getmə – dedi.

— Yox, -dedim – mən işə getməliyəm. Hiss eləyirdim ki, getməyə bilmərəm. Evdə qalsam daha çox darıxaram. Səni yaxşı-yaxşı görmək üçün getməli idim.

Sənin kursu yarımçıq qoyub gəlməyin idarədə söz-söhbətə səbəb oldu: müdir danladı, Musa üzünə yaxşı baxmadı, qalan günlərin ezamiyyət pulunu da tutub səndən aldılar. Sən «xəstə idim» – deyə sakitcə onları dinlədin, heç halını da pozmadın. Mən onda sənin mətanətini gördüm: nə danlaq, nə pul – heç nə sənin gözündə deyildi. Sən gəlib məni görmüşdün: bu, sənin üçün hər şeydən qiymətli idi. Sənin bu hərəkətinin mənasını düşünəndə məhəbbətin gözümdə daha da böyüyür, ucalırdı. Sən özün də gözümdə daha çox qeyri-adi olurdun, Toğrul. Mənə elə gəlirdi ki, sən təyyarə, qatar olmasaydı da pay-piyada o uzaqlıqda yolu məni görmək üçün gələrdin. Mən düz fikirləşirmişəm. Bunu sən özün də düşünübsən və bu barədə şer də yazıbsanmış. Həmin şeri o gün stolumun yanından keçəndə mənə verdin: ürək çırpıntısı ilə oxudum:

Tapmışam ömrümün xoş gününü, bil,
Xumar gözlərinin qarasında mən.

Səni görmək üçün sürünüb gəlləm,
Olsam bu dünyanın harasında mən.

Eşqin varlığımda od qalayıbdır,
Dilim daim səni haraylayıbdır.
Bir nadan qəlbini yaralayıbdır,
Yaşaram qəlbinin yarasında mən.

Sənsiz yaman olur bilirsən, halım:
Gözüm qan ağlayır, dönür əhvalım.
Qoyma ki, dayanım, qıyma ki, qalım,
Ömür yollarının yarısında mən.

Bəli, məni görmək üçün sən dünyanın harasında olsaydın da gələrdin. Bu, mənim ürəyimi fərəh hissilə doldururdu. Mən var səsimlə, ucadan hamıya sənin məhəbbətindən danışmaq istəyirdim. Amma heyif ki, buna mənim ixtiyarım yox idi. Bizim məhəbbətimiz gizli məhəbbət idi, onu heç kəs bilmirdi. Bilməməli idi. Bu, elə zərif, elə güclü və şirin bir məhəbbət idi ki, kimsə bilərsə, öz gözəlliyini, gücünü, şirinliyini və qeyri-adiliyini itirə bilər, o biri məhəbbətlərə oxşar: oxşar və ölər. Çünki məhəbbət oxşamamağı və təkrarolunmazlığı ilə böyükdür, uludur, ölməzdir.

… O gündən sonra — günü dəqiq yadımda deyil — bizim aramızda tam bir anlaşma yarandı: bəzən idarədə dərdləşirdik, bəzən telefonda. Bəzən günlərlə heç nə danışmağa imkanımız olmurdu: sadəcə bir-birimizi görməklə kifayətlənirdik: onda ancaq baxışlarımız danışırdı. Dodaqlarımı səssiz-səmirsiz xüsusi tərzdə endirəndə anlayırdın ki, «öpürəm səni» deyirəm. Danışmağa, dərdləşməyə imkanımız olmayanda sənə məktublar yazırdım. Eyni idarədə işləsək də, bir şəhərdə yaşasaq da, sənə sözlərimi məktublar vasitəsilə çatdırırdım. Məncə bu da bizim məhəbbətimizin gözəlliyi və qeyri-adiliyi idi.

MƏN: — Maqnitafon yenə susdu, Nərgiz sözünə ara verdi. Toğrul yazı masasının arxasından qalxıb gəzinə-gəzinə düşünməyə başladı.

TOĞRULUN DÜŞÜNCƏLƏRİ: — Bax, budur o məktublarının hamısını saxlamışam, Nərgizim. Gah şöbədə asılqandakı paltonumun cibinə qoyurdun o məktubları, gah axşamlar işləyib yorulandan sonra, səni görmək üçün evinizin yanına gələndə balkondan aşağı atırdın.

Mən sənin məhəbbətinlə yaşayırdım: sənin kimi gözəl, məğrur və mehriban bir insanı sevdiyimə görə özümü xoşbəxt sayırdım. İndi də beləyəm. Hələ bir az da artıq, Nərgizim. Sənsiz, əslində isə səninlə keçən bu illər saçlarımı ağartsa da, məhəbbətimi soyuda bilmədi, Nərgizim. Mən səndən ayrı yaşayırdım — ruhən, qəlbən isə səninlə idim. Məktublarından qəlbinin hərarətini duyub xoşbəxt olurdum: çünki bu məktubda sənin ürəyin döyünürdü, məhəbbətin yaşayırdı. Sən öz körpəsinə qayğı, nəvaziş göstərən bir ana kimi, mənim qeydimə qalırdın, dərdimi çəkirdin. Mən ana nəvazişi görməmişdim — onun hərarətini mənə sən hiss elətdirdin. Ağır dəqiqələrimdə, gündəlik yaşayışımda sən mənim əlimdən tutmusan, məsləhət vermisən. Başım ağrıyanda isti əlini alnımda hiss eləmişəm. Səsini telefonda eşidəndə azar-bezar məndən uzaq düşüb. Sən məndən uzaqda olubsan, ancaq mənimlə olubsan, Nərgizim.

İndi budur, bu axşam, qırx yaşım tamam olan gecə sənin bütün yadigarlarını — qələmini, məktublarını, dəsmalını, quruyub ətrini və rəngini itirmiş portağal qabığını stolumun üstünə qoymuşam. Onların hərəsi bir şirin xatirədir, gülüm. Onların hərəsi əvəzsiz bir mahnıdır, məhəbbət mahnısı… Elə bir mahnı ki, ömür boyu eşitsəm yorulmaram, usanmaram, Nərgizim. Çünki onların hamısına sənin o ağ əllərin dəyib, ətirli nəfəsin toxunub. Qəlbimdə, zehnimdə səninlə bağlı o qədər şirin və unudulmaz xatirə var ki, Bünyadın belə xatirələri yoxdur, ola da bilməz.

Budur sənin məktubların: onları oxumaq istəyirəm: kim bilir, neçənci dəfə. Onlar köhnələn deyil: onlar həmişə təzədir, mənalıdır. Çünki məhəbbətimiz mənalıdır, Nərgizim.

Bu, sənin üçüncü məktubundur. Gecə balkondan aşağı atıbsan.

«Gəldiyin üçün çox sağ ol, əzizim. Səni görməsəydim, bu gecə də narahat fikirlər səhərə qədər məni izləyəcəkdi. Yorğunsan, get dincəl, gecən xeyrə qalsın, yuxun şirin olsun. Maşını ehtiyatla sür, tələsmə. Hələlik».

Doqquzuncu məktub.

Bunu da balkondan atmısan, Nərgizim.

«Axşamın xeyir, mənli-mənsiz şirin xatirələr dalınca gəzənim. Necəsən? Yəqin ki, həmişəki kimi. Yarı şən, yarı kədərli, yarı ciddi, yarı zarafatlı, yarı bu dünyada, yarı o dünyada… Nə vaxta qədər? Sonsuzluğa qədərmi? Məgər bu dünyaya bir də gələcəyikmi səhvlərimizi düzəldək? Yenidən yaşamalı olsaydım, indiki həyatımı intixab edərdim. Bilirsənmi niyə? Çünki tam xoşbəxtlik usandırıcı, darıxdırıcı olardı. Mən darıxmaqdan qorxuram; lap təklikdən qorxan kimi. Sən dünən mənimlə darıxırdın. Yox, elə düşünmə ki, mən sənin darıxmağının səbəbini başa düşmürəm: sən mənimlə mənsiz idin. Ancaq sən buna alışmalısan. Başqa çarən yoxdur. Sən o anlarda vəziyyətinə nisbi yanaşsan, elə olmazsan. Hələlik sağ ol. Yazmağa imkanım olmayanda, fikrim qırılanda, yazmasam ondan yaxşıdır. İndi bir azdan o, ardımca gələcək və birlikdə gedəcəyik».

Bu, on birinci məktubundur. Mən Bünyad ilə maşında gəzməyə çıxmışdım: sən getmədin. Axşam onu evə gətirəndə sən bu məktubu yağışlığımın cibinə qoymuşdun.

«Əzizim, salam. Məni görürsən, mən də səni görürəm ki, necəsən. Ona görə daha soruşmuram. Yaxşı ki, mən getmədim. Mənə ləzzət vermir, sənə isə daha çox.

Bilirsənmi, hərdən dəli bir istək çulğayır məni. Sanki daxilimdən bir səs: «qanunu poz, sədləri aş» – söyləyir. Lakin bacarmıram. İstəmirəm mənə qarşı çıxan bu «mən» — mənə qələbə çalsın. Bu hallarda mənə sənin köməyin lazımdır: çox xahiş edirəm, köməyini əsirgəmə. Əks-təqdirdə hər ikimiz məhv ola bilərik. Sən ki, bilirsən, mənim pessimizmim güclüdür, səni də bədbinləşdirir. Bu qədər. Hələlik hər şey yaxşıdır.

Əlbəttə, sənin üçün bilmirəm, mənim üçün «hə». Əgər biz biriksə, sənin üçün də pis olmamalıdır. Görürsən, mən sənlə getsəydim, heç nə danışa bilməyəcəkdim: indi isə sənlə «asudə» danışıram. Bu da yaxşıdır, deyilmi? Hərdən sənə baxıb düşünürəm: bizi nə doğmalaşdırıb, nə birləşdirib?

Fikrimizmi, təbiətimizmi, eyni sənətmi, ürəyimizmi? Bəlkə də eyniyyət təşkil edən ruhumuz? Bəlkə hər şey, bəlkə heç nə. Amma doğmayıq — bu özü də bir şeriyyətdir.

Nədənsə imkan olmadıqda mən sənə verdiyim əziyyətlər üçün ürəkdən acıyır, səni sevmək, əzizləmək istəyirəm. Sonra da tezcə öz fikrimdən belə utanıb qızarıram və bilmirəm niyə, imkan, şərait olanda vaxtı ilə arzuladığım, əzablarını yüngülləşdirəcək nəvazişlərimi səndən əsirgəyirəm. İstəyirəm səni ancaq dinləyim, məni yenidən, yenidən, yenidən sevdiyini eşidim. Çünki sənin sözlərin sonra, sənsizlik saatlarında — gün olmur — mənim qulağımda yenidən səslənir və mən yenə — «qiyabi» sənlə oluram. Buna görə də həmişə sənə: «otur, yerindən danış» — deyirəm. Hissiyyata qapılma. Bu da bizim məhəbbətimizin orijinallığıdır. Bizim o qədər elə təkrarolunmazlıqlarımız var ki…

Səni kədərli görmək mənim üçün çox ağırdır. Nə edim, neyləyim sənin gözlərinin dərinliyindən, dəniz kimi dərin gözlərindən o kədəri çıxarım? Mən ancaq o dənizdən çıxan bəzi «mirvari» damlalarını silə bilirəm. Bəlkə də məni sənə elə o kədər bağlayıb? Axı sənə gülmək də çox yaraşır!

Ay məni sözlərimdən çox, gözlərimdən başa düşənim, sənlə tək olanda məni qorxutma. Səni itirmək istəmədiyim üçün, mənimlə mən istədiyim kimi rəftar et…»

On altıncı məktub. Bunu may ayında yazıbsan. Bərk darıxmışdım, kimdənsə bir siqaret alıb çəkmək istəyirdim: bunu sən gördün. Bu məktubu həmin axşam yazıbsan.

«Sənin əzabına dözə bilmirəm. Sən isə mənə özün də istəmədən əzab verirsən. Heç bilirsən nə qədər xarab olmusan? Çəkmə də, sənin üçün məndən artıqdır məgər? Vaxtlı-vaxtında ye, özünə fikir ver. Dünən elə hirslənmişdim ki… Mən elə bilir-

dim ki, həmişə məni öz yanında hesab edirsən. Lakin səndən heç on addım da uzaqlaşmamışdım, elə bil, kimsə mənə dedi ki, dön geri bax. Baxdım və istədim ki, sən də görəsən gördüyümü. Bir də elə etmə, çox xahiş edirəm. Əks-təqdirdə mən yerə düşürəm göylərdən. Bu isə mənim üçün çox ağırdır. Hələlik sağ ol.

… Bir azdan əmimgilə gedəcəyəm onunla. Gəlmə axşam. Sabaha qədər. Kədərlənmə, həmişə bizim istədiyimiz kimi olmayacaq ki… Yaxşı ki, gəldin, hirsim soyudu. Lal-dinməz küsdüyüm kimi, lal-dinməz də barışdım».

Başqa bir məktub.

«İndicə sənin povestinin səhnələşdirilmiş verilişinə qulaq asırdıq. «Müharibə qurtarmır» a. Yaxşı əsərdir: ürəklə yazmısan. Aydın da, Fatma da çox yaxşı oxudu. Həsən Əbluc isə lap aləm yaradırdı. Dinlədikcə ürəyim dağa dönürdü. Sevincimi gizləyə bilmirdim. Bünyad buna deyəsən bir az təəccüb də elədi. Yanımda olsaydın, heç nəyə baxmazdım, səni bağrıma basıb öpərdim, Toğrul. Yadıma düşdü ki, bu əsəri mənim verdiyim qələmlə yazmısan; yerə-göyə sığmırdım. Sağ ol, Toğrul, mənim arzumu ürəyimdə qoymadın. Bu, mənim üçün ən böyük mükafat idi. Mən şöhrətpərəst deyiləm: bunu səninlə məndən başqa heç kəs bilməyəcək, amma buna baxmayaraq, ürəyimdə bir rahatlıq və yüngüllük duyurdum. Nə vaxtdı belə ürək dolusu sevinməmişdim.

O verilişi maqnitafona yazmışam, saxlayacağam, Toğrul.

MƏN: — Toğrul Nərgizin məktublarından gözünü çəkdi, maqnitafonu qurdu: Nərgiz söhbətinə davam etdi.

NƏRGİZİN SƏSİ: — Sən sadə adamsan, Toğrul. Sənin böyüklüyün də sadəliyindədir. Sənin adın-sanın başqa birisində, məsələn lap elə bizim Bünyadda olsaydı, təsəvvür edirəm ki, özünü necə dartar, oxley udmuş adam kimi, necə şax gəzər, yerə-göyə sığışmazdı. Amma sən... Elə bil, bu kitabları sən yazmayıbsan, elə bil, tez-tez tərifləndən, göylərə qaldırılan sən deyilsən.

Hər əsərini səbrsizliklə gözləyirlər. Mətbuat səhifələrində, kitabxanalarda müzakirə edirlər. Ədəbi gecə olanda sən mənə də dəvətnamə verirsən: lal-dinməz gəlib arxa cərgələrin birində otu-

ruram, çıxışlara qulaq asıram. Ünvanına deyilən xoş sözləri eşidir və sevincdən yerə-göyə sığışmıram. Sənin dediyin hər söz, hər cümlə mənə doğma adamımın sözü kimi unudulmaz təsir bağışlayır. Belə gecələrdə mənə elə gəlir ki, dolu zalda sən heç kəsi görmürsən, heç kəsə baxmırsan, ancaq mənə baxırsan.

Mən sənin yanında olanda sən bəxtiyar olursan. Mən də eləyəm, Toğrul. Sən bir dəfə demişdin ki, müruri-zamanla yaranan məhəbbət daha davamlı və sönməz olur. Bu, həqiqətən beləymiş, Toğrul. Sən uzaq görənmişsən, əzizim. Mən səni indi dünyada hamıdan çox, hətta özümdən də çox istəyirəm. Sən mənim həyatım olubsan, ömrüm-günüm olubsan, Toğrul. Mənə elə gəlir ki, daha sənsiz yaşaya bilmərəm. İş yerimiz bizim — sənin-lə mənim evimiz olub, Toğrul. Biz bura gələndə evimizə gəlirik, burdan gedəndə sanki doğma yurd-yuvamızdan ayrılırıq. Burdan çıxanda ikimiz də kədərlənirik. Çünki bir-birimizdən ayrılırıq, sabahın arzusu ilə yaşamağa başlayırıq. Neçə ildir biz beləcə, bir-birimizi duya-duya yaşayırıq, sevə-sevə yaşayırıq, Toğrul. İlahi məhəbbət haqqında eşitmişdim, amma görməmişdim. Gördüm. Kim deyirsə ki, indi məhəbbət yoxdur, yalan deyir. Bəs bizim bu məhəbbətimiz böyük, əzəmətli məhəbbət deyilmi, Toğrul? Sən məni zərif çiçək bilmisən, şüşə bilmisən, toxunarsansa sınacağımdan qorxmusan. Məhz buna görə deyirəm bizim məhəbbətimiz başqa məhəbbətlərə bənzəmir. Bənzəməməyi yaxşıdır, Toğrul. Özün bilirsən ki, mən həyatımda qeyri-adiliyi hər şeydən çox sevirəm. Belə yaxşıdır, deyilmi?

İndi sənin saçların ağarıb. Sənin o ağ saçlarının çoxunu bəlkə də mənim həsrətim ağardıb. Sevirəm o saçları, Toğrul. İlk dəfə gicgahlarına düşən o ağ tükləri mən gördüm, sənə dedim. Sən qəmli-qəmli gülümsündün. Sonra… saçların sürətlə ağardı. Eybi yoxdur, mən sənin titrək səsini də, mənalı sözlərini də, vaxtsız ağarmış saçlarını da, isti nəfəsini də, mənə qarşı sönməz bir məhəbbətlə dolu ürəyinin çırpıntılarını da, qəmli gözlərini də sevirəm, Toğrul.

Bir-iki gündən sonra biz — Bünyad, Əfsanə və mən gedirik. Uzağa gedirik, çox uzağa. Kim bilir, bir də haçan qayı-

dacağıq və ümumiyyətlə, qayıdacağıqmı, görüşəcəyikmi? Sənə deməmişəm ki, gedirik. Sən çox fikir edəcəkdin, mənim gözümün qabağında çox əzab çəkəcəkdin, ürəyim şan-şan olacaqdı. Qəlbim parça-parça olacaqdı. Çox götür-qoy elədim, lap axırıncı gün getməyimizi sənə demək qərarına gəldim.

Mənsiz, bilirəm darıxacaqsan, əzab çəkəcəksən, ancaq nə etmək olar, dözmək lazımdır, mətanətli, dəyanətli olmaq lazımdır. Aramızda min kilometrlərlə məsafə olsa da mən qəlbimin, fikrimin gözü ilə səni hər gün, hər saat, bəlkə hər an görəcəyəm, sənin haqqında düşünəcəyəm, səsini eşidəcəyəm, məni haraylayan qəlbinin döyüntülərini duyacağam. Mən səni heç vaxt, heç vaxt, ölüm ayağında da unutmayacağam, çünki sən mənim qəlbimi sevinc və qürur hissilə doldurmusan, çünki məni öz təmiz və müqəddəs duyğularınla, səmimi hisslərinlə xoşbəxt eləmisən, elə eləmisən ki, mən indi yerə-göyə sığışmayan bir insan olmuşam, özümü, öz mənliyimi, ürəyimi kəşf eləmişəm, maraqlı bir kitab kimi oxumuşam, həyat, insanlar, ən adi, ən kiçik şeylər belə gözümdə mənalar donuna bürünüb mənalı olub. Bütün bunlar üçün, bütün xoşbəxt duyğularım üçün mən sənə minnətdaram, sənə!

Səni xoşbəxt edə bilmədiyim üçün həmişə əzab çəkirəm, ömrüm boyu da çəkəcəyəm. Mən səni xoşbəxt edə bilmədim.

Mən cismən sənin ola bilmədim, amma qəlbən sənindəm. Mən sənin evinə gələ bilmədim, sənin otağını öz məhəbbətimlə isindirə bilmədim. Neynək, əlbət, bizimki belə yazılmışmış. Kim bilir, bəlkə bu, daha yaxşıdır, Toğrul. Amma mən sənin evinə başqa cür, heç kəsin görə bilmədiyi kimi, qeyri-adi şəkildə gəlmək istəyirəm. Bax, bu gün sənin anadan olduğun gün mən sənin qapını açıb içəri girirəm. Adi halda yox, mənim əzizim, qeyri-adi halda. Maqnitafon lentində. Ürəyimi, məhəbbətimi, sənin haqqında düşüncələrimi bax, bu maqnitafon lentinə köçürmüşəm.

Bundan sonra məni görmək istəsən, səsimi eşitmək istəsən, qur maqnitafonu, dinlə məni, Toğrul. Mən səninləyəm. Hər axşam yerinə uzanıb yatmaq istəyəndə maqnitafonu qur-

san, deyəcəyəm: «Gecən xeyrə qalsın, əzizim, yuxun şirin olsun». Hər səhər yuxudan ayılanda deyəcəyəm: «Sabahın xeyir, Toğrul». İşdir, əgər səfərə gedəsi olsan — yəni gedəcəksən? – söyləyəcəyəm: «Yolun uğurlu olsun, əzizim, sağ-salamat qayıdıb gələsən».

Mənim səndən yeganə təmənnam budur. Özünü qoru, Toğrulum. Səhhətinə fikir ver: sən hamıdan çox mənə lazımsan. Çünki sənsiz bu dünya mənə boş və mənasız görünər, əzizim. Qələmin əlindən düşməsin, ürəyinin hərarəti məhəbbətin kimi sönməz, soyumaz olsun.

Sənə əlvida demirəm. Məgər biz ayrılırıq?

MƏN: — Lent qurtardı, Nərgiz susdu. Toğrul düyməni basıb boş fırlanan çarxı saxladı. Heykəl kimi yerindən xeyli müddət tərpənə bilmədi. Nərgizin məhəbbətlə dolu mehriban səsi qulaqlarında səsləndi, hey səsləndi, hey səsləndi. Toğrul sehirlənmiş kimi gözlərini maqnitafondan çəkə bilmirdi. Elə bil, Nərgiz maqnitafonun içində gizlənib bura — onun evinə gəlmişdi, kimsənin olmadığını görüb indicə çıxacaqdı, qollarını Toğrulun boynuna dolayıb hərarətlə üz-gözündən öpəcəkdi.

Handan-hana o, özünə gəldi, otağa göz gəzdirdi, tək-tənha olduğunu görüb köksünü ötürərək qalxdı.

TOĞRULUN DÜŞÜNCƏLƏRİ: — Sağ ol, Nərgizim. Məni xoşbəxt elədin. Elə bil, özün gəldin evimə, əzizim. Qadın ayağı dəyməmiş, soyuq divarlarını isti qadın nəfəsi isindirməmiş bu evimə xoş gəlmisən, Nərgizim.

SON

Yalta – Bakı
1971-1973



ÖLÜM YOXDUR



BİRİNCİ HİSSƏ

BİRİNCİ FƏSİL

Sən demə, dünya möcüzələr dünyasıymış. Bəzən gözlərində həyat eşqi coşub-daşan, ürəyində şirin arzular pıçıldaşan, istəkləri yerə-göyə sığmayan, cahanın əzab-əziyyətindən bezməyən, oğul-qız toyu görməyən, ata-ana borcu verməyən bir insan, özünün də, dost-tanışının da, əzizlərinin də gözləmədiyi halda, birdən-birə, son sözünü deməyə belə fürsət tapmadan, bir göz qırpımında bu doyulmaz, bu şirindən şirin aləmdən gedir, hamını pərişan edir – Ceyhun kimi. Bəzən isə əksinə, ölümün ağ libasını geymiş, üzünə zəfəran rəngi dəymiş, gözləri axan, yaşadığı dünyaya, insanlara, göylərə, yaşıl yarpaqlara, övladlarına, evinə-eşiyinə sonsuz bir həsrətlə baxan, sağ qalacağından hamının əlini yuduğu, min ilin ölüsüylə yan-yanaşı qoyduğu bir insan, özünün də, dost-tanışının da, əzizlərinin də gözləmədiyi halda, birdən-birə, son sözünü deməyə hazırlaşdığı anda, zəif və taqətsiz vücudunun bütün gücünü, qüvvətini, ürəyinin bütün gizli-aşkar məhəbbətini, qüdrətini yarı ölmüş, yarı diri əzələlərində cəmləşdirib soyuq ölüm yatağından, ağappaq cərrahiyyə stolunun üstündə ağappaq həkim bıçağının altından, lap tabutun içindən qalxaraq: «Mən ölmək istəmirəm, mən yaşamaq istəyirəm, mən bütün əzab-əziyyətlərə dözə-dözə bu gözəl dünyaya baxmaq istəyirəm, həyat bu dünyadadı, o günəşdədi, bu torpaqdadı, bu gül-çiçəkdədi, bu ağrı-acıdadı, bu insanların arasında olmaqdadı.» – söyləyir, hamını sevincə qərq eləyir – Xəzangül kimi.

… Hər ikisi, bu ağla-idraka sığmaz möcüzədən özünü itirərək, gözləri yaşara-yaşara, əl-ayağını heç cürə yığıb-yığışdırmaq mümkün olmayan bir çaşqınlıq içində qışqırırdı: sarsıldığından, həyəcanından qəşəng üzü, azca əvvəl əyninə geydiyi o ağ don kimi ağarmış, yanaqları aşağı ağ mirvarilər süzülən Sahilə başqa söz bilmirmiş kimi, təkrar-təkrar: «Səsinə qurban

olum, ana, sən danışırsan?» – deyir, bayaq Xəzangülün çırpına-çırpına söylədiyi o bir kəlmə sözü eşidəndən qulaqları gur-gur guruldayan, çəkisizlik şəraitinə düşmüş adam kimi torpaqdan ayrılıb havada süzən Əsəd isə yalnız «Xəzangül, Xəzangül» – söyləyə bilirdi. İkisi də özünü itirmişdi. Qız gah kolyaskanın ağ dəstəyindən tutub silkələyir, gah qapıya sarı qaçır, gah geri qayıdır, anasının qabağında diz çöküb alacalanmış gözlərilə ona baxır, sonra yenə təzədən qalxıb başı kəsilmiş toyuq kimi qırmızı rəngi tapdaq altında bozarmış döşəmənin üstündə çırpınırdı. Əsəd Sahilənin bu halını görüb indicə ona nə isə olacağını düşünərək əl atıb qolundan yapışdı və uca səslə:

- Ay qız, bir toxta, nə civə kimi o yan-bu yana çovuyursan? Sənə nə olub? – deyəndə qız, çevrilib qollarını geniş açaraq Əsədin boynuna sarıldı, cod tüklü üzündən öpərək yenə qışqıra-qışqıra:

– Sənə qurban olum, Əsəd müəllim, anam danışır ey. Yox, sən eşitdin? Anamın səsini-sözünü sən eşitdin öz qulaqlarınla, Əsəd müəllim? Ya mənim qulağım səsə düşdü, Əsəd müəllim? – söylədi və daha hisslərini cilovlaya bilməyib hönkür-hönkür ağladı. Əsəd titrəyən, iri, tüklü əllərini Sahilənin atılıb-düşən zərif çiyinlərinə qoyub:

– Sahilə, özünü ələ al, qızım. Sən uşaq deyilsən ki. Hə, hə, danışdı, danışdı Xəzangül. Vallah, özüm eşitdim, danışdı, qızım – deyərək onu kənara çəkdi, köhnə, yayları cır-cır cırıldayan divanda oturtduqdan sonra geri dönüb uca qamətini Xəzangülün başı üstə əyib ona diqqətlə, lap həkimlər sayağı baxmağa başladı.

Xəzangül uzun kiprikli gözlərini yummuşdu, yanaqları aşağı yaş süzülürdü, sifəti qar təki ağ idi. Nəfəsinin hənirtisi, istisi Əsədin üzündə gəzirdi. O, sağ əlini ehmalca xırda tər damcıları ilə örtülmüş alnına qoydu – alnı isti idi. O nəfəs, o hərarət bir az əvvəl qəlbinə axıb dolmuş o müdhiş qorxunu pərən-pərən saldı: azca qabaq, Sahiləni gətirib divanda oturdan dəmdə hardansa ağlına gəlmişdi ki, Xəzangülün bu çırpıntısı, o bir kəlmə sözü – onun vücudundakı son həyat əlamətləri idi ki,

yanıb qurtardı. Əsəd bilirdi, eşitmişdi ki, varlıqla heçlik arasında hamıya görünən, eyni zamanda heç kəsin görə bilmədiyi bir körpü olan ölüm gələndə insanın sifətinə hardansa bir parça nur düşür, onu gözəlləşdirir, bircə anlığa huşu-şüuru özünə qayıdır, sehirli bir film kimi bütün həyatı gözünün qabağından gəlib keçir, çırpınır, ən mühüm, bəzən ən gizli sirrini-sözünü dilinə gətirmək istəyir: ya deyə bilir – qəribədi, bu, ölən üçün də, qalanlar üçün də bir yüngüllük gətirir; ya da o söz-sirr dodaqları arasında, bəzən isə lap içində, ürəyində qanadları sınmış quş kimi qalxıb havalanmaq arzusu ilə yanarkən tappıltı ilə torpağa düşür və yalnız bu zaman o, son anın yaxınlaşdığını – ölümün gəldiyini dumanlı-tutqun şəkildə hiss edib ağrıdan, əzabdan yox, ancaq qorxudan, məhz qorxudan ölür, ölümün qorxusundan ölür. Əsədə bayaq o qarmaqarışıq hisslər, çaşqınlıqlar içində belə gəlmişdi ki, bəli, bəli, bu, həmin dəhşətli andı, son sözdü, Xəzangülün illərlə beynində, şüurunda, ürəyində yatıb qalmış, indiyə qədər bəlkə milyon dəfə qəlbindən keçirdiyi son vida nidasıdı: təbiət imkan verdi ki, o, bu sözü indi, Əsədin hüzurunda deyə bilsin, yüngülləşsin, rahat getsin: o bir kəlməni deməmiş Xəzangül ölə bilməzdi.

Əsəd bu məşum hissin təsiri altında süstəlmişdi, ona elə gəlirdi ki, bax, indicə dizləri büküləcək və o, Xəzangülün qarşısında yerə çökəcək. Bədəninə soyuq tər gəlmişdi, daha heç nə düşünə bilmirdi. O qorxulu anın bu dəqiqə baş verəcəyini, Xəzangülün nəfəsinin şam kimi sönəcəyini əzablı bir vəhşət içində gözləyirdi və bu vahimədən dönüb Sahiləyə də baxa bilmirdi: qız, onun gözlərinə yazılmış qorxunu oxuya bilərdi, sarsılardı – bunu isə Əsəd istəmirdi. Bu gərgin məqamla Əsədin – əli hər yerdən üzülmüş Əsədin yeganə istəyi bu idi ki, nə olaydı, Xəzangül gözlərini açaydı, heç olmasa son dəfə o gözlərə baxa biləydi Əsəd. Bunun üçün onu çağırmaq, «Xəzangül» demək lazım idi, Əsədin isə sanki səsi batmışdı. Əli xəstənin alnında donub qalmışdı, elə bil yapışdırmışdılar. İstəyirdi onun başını astaca silkələsin, ancaq ona da taqəti yox idi Əsədin.

Otağa anlaşılmaz, vahiməli bir sakitlik çökmüşdü. Sahilə sanki indi nə isə qeyri-adi bir şey olacağını duyub səsini - hıçqırığını içinə salıb udmuşdu. Bilirdi ki, anası bu vaxt yatan deyildi. Hələ heç saat səkkiz olmamışdı, şamını eləməmişdi. Bu vaxtsız-vədəsiz gəlmiş yuxu yaxşı bir şey vəd eləyən yuxuya oxşamırdı. Doğrudan da Xəzangül yatmışdı. Əslində, bu, yuxu da deyildi, nə isə yuxu ilə ölüm arasında olan bir halsızlıq, huşsuzluq idi bəlkə. O bircə kəlmə sözü illər boyu kəlmə kəsmək səadətinə həsrət qalan dilinə – dodağına gətirəndən sonra, nə zamandan əsəbi bir gərginlik içində, nigaran-nigaran, yalnız öz qəlbi ilə danışmaq imkanına malik olduğunu dərk edərək yanıb yaxıla-yaxıla yaşayan Xəzangül sanki dünyada ən böyük arzusuna çatmışdı, ən ağır yükü – illərlə çiynini basıb sındıran, ürəyini parçalayıb qana döndərən yükünü indicə yerə qoymuşdu – elə rahatlanmışdı, elə xoşbəxt olmuşdu ki, bu səadət onu bihuş eləmişdi. Bu səadət sentyabrda, dəniz qırağında, kalyaskasında birdən gözünü açıb qarşısında iyirmi il görmədiyi, səsini-sorağını eşitmədiyi, amma elə hey xəyalında, qəlbində dolandırdığı Əsədi görərkən hiss elədiyi sevincdən, bəxtəvərlikdən böyük idi, şirin idi. Çünki onda Əsədi sadəcə görmüşdü, ağarmış saçlarına baxmışdı, xəcalət çəkmişdi, peşimanlığın odunda-alovunda yanıb qovrulmuşdu, ancaq təxminən on beş il səhv elədiyini anlayanda, əri Möhsünün alçaqlığını, xəbisliyini görəndən bəri Əsədin xatirəsi, xəyalı qarşısında hər gün bir neçə dəfə dediyi sözü o qəribə görüş zamanı dilinə gətirə bilməmişdi və bu, onu yaman yandırıb yaxmışdı. Amma indi taleyi üzünə gülmüşdü, öz dililə, öz qulağı eşidə-eşidə Əsədə, «Bağışla!» – demişdi və bunu, yəqin ki, Əsəd eşitmişdi. Bağışlayar, bağışlamaz – özü bilər. Əsl məsələ bu idi ki, Xəzangül bu sözü deyə bilmişdi, indi lap ölmək də olardı. Bax bu idi Xəzangülü yatırdan, məst, bihuş eləyən.

Beyqafil danışmağından özü də qorxmuşdu. Dodaqlarının tərpəndiyini hiss eləsə də, dediyini qulaqları ilə eşitsə də, qəribə idi ki, hələ də inanmaq istəmirdi, inana bilmirdi. Təzədən danışmaq, nə isə başqa bir söz deməklə bunu yoxlamaq da olar-

dı – ancaq o, bundan çox ehtiyat eləyirdi: birdən yenə danışa bilmədi, yaxud dediyini eşidə bilmədi? Bəs onda necə? Özünün də, qızının da, Əsədin də o böyük sevincinin, əvəzsiz fərəhinin üstünə su çilənməzdimi? Hər şey təzədən əvvəlki halına qayıtsaydı, aylarla, illərlə davam eləyən o müsibətlər təkrar olunmazdımı?

Gözləri yumulu idi, ancaq elə bil göz qapaqları yox idi. Qəribə idi ki, qızını da, Əsədi də, evdəki əşyaları da ap-aydın görürdü. Tərs kimi Əsəd də, Sahilə də susurdu. Heç olmasa danışsaydılar, səslərini eşitsəydi, Xəzangül lap yəqin bilərdi ki, qulaqları açılıb. Bayaq Əsəd Sahiləyə nəsə söyləmişdi, o qırıq-sökük cümlələri xatırlayırdı, lakin özünün söz dediyinə inana bilmədiyi kimi, eşitdiyinə də şübhə eləyirdi.

Əsədin əli nəhayət, xəstənin alnından qopdu, Xəzangülün dizinin üstəki sağ biləyindən tutdu. Nəbzini yoxlamaq istəyirdi. Baş barmağının altında çırpınan damar tez-tez atırdı. Xəzangülün biləyi əlində olduğu halda Əsəd baxışlarını dolandırıb Sahilənin gözlərinin içində saxladı. Sanki saat onun gözlərinin içinə qoyulmuşdu. Qız burnunu çəkib pıçıltı ilə xəbər aldı:

– Necədi, Əsəd müəllim?

Əsəd Xəzangülün biləyini buraxdı, dikəldi, alnında muncuqlanan tər damcılarını şəhadət barmağı ilə silib dərindən nəfəs alaraq:

– Yaxşıdı, qızım – söylədi. – Adi qaydadan bir az sürətlə döyünür, ancaq güman edirəm, bu, həyəcandandı. Keçib gedəcək. – Əsəd də pıçıltı ilə danışırdı, yatanın ayılacağından çəkinirdi.

– Demək, sağalır anam, eləmi, Əsəd müəllim?

Qəlbində bu işə şübhə ilə baxsa da, qızın ümidini qırmamaq üçün çox da sezilməyən qəmli bir təbəssümlə:

– Əlbəttə, sağalır, qızım. Mən sənə deməmişdimmi ki, sağalacaq? – dedi və uşaq kimi dönüb bu yalanına özü də inanaraq sevindi. Bayaqdan tarım çəkilmiş, boğulub bir az da qaralmış sifəti o fərəhin işığından açıldı, nurlandı. Xırda, qara gözlərində bir parıltı gəzib dolaşdı. Ağır, ləngərli addımlarla qapıya

sarı gəlib bir siqaret alışdırdı, ilk uzun qüllabın tüstüsünü acgözlüklə ciyərinə çəkib bir az sakitləşdi. Sonra qayıdıb Sahilənin yanına gəldi, eynən onun kimi, əlləri qoynunda dayanıb Xəzangülə tamaşa eləməyə başladı. Qadının sifəti elektrik işığı altında çəhrayı rəng almışdı, dodaqlarını anlaşılmaz bir təbəssüm bəzəmişdi. Ona görə anlaşılmazdı ki, nə Əsəd, nə Sahilə bunun əzabdanmı, sevincdənmi doğulduğunu bilmirdi. Ancaq təkcə Xəzangül anlayırdı ki, bu təbəssüm – bu da qəribə idi ki, həmin təbəssümü o özü yumulu gözləri ilə aydınca görürdü – sevincdən, fərəh bulağından su içib. Çünki o, qızı ilə Əsədin azca əvvəl bərkdən – amma ona elə gəlirdi ki, pıçıltı ilə – danışdıqlarını dumanlı, tutqun şəkildə eşitmişdi. Hətta bir qəribə çıqqıltı da eşitmişdi və başa düşmüşdü ki, Əsəd siqaret yandırdı.

Lakin böyük bir iradə və dəyanət hesabına o, həyəcanını boğub, «Mən eşidirəm, mən eşidirəm» - deyə qışqırmaqdan özünü güclə saxlamışdı. Ürəyindəcə demişdi bu sözləri və həmin andaca anlaşılmaz görünən o təbəssüm bu sözlərin işığı idi ki, onun qəşəng, nazik dodaqlarına qonmuşdu. Xəzangül təəccüb doğura biləcək bir şüur aydınlığı ilə, nə isə qiymətli bir şey itirəcəyindən qorxan adam kimi ehtiyatla, düşünə-düşünə hərəkət edir, hər şeyi fikrində ölçüb biçirdi. O yaxşı başa düşürdü ki, çılğın bir tərpəniş, hədsiz həyəcan onun möcüzə ilə tapdığı – özü də neçə illərdən sonra – tapdığı dilini də, qulağını da, bəlkə bütün həyatını da bircə anın içində əlindən ala bilər. Yox, yox, allah göstərməsin.

Düşüncələrini Əsədin qayğılı səsi qırıb dağıtdı:

– Qoy yatsın, qızım. Sən də özünü ələ al. Heç darıxma, sağalacaq demişdim sənə? Bax görürsən, sağalır, qızım.

– Onu siz sağaltdız, Əsəd müəllim, siz sağaltdız… - Sahilənin bu sözləri Əsədi uşaq kimi kövrəltdi. Və sentyabrdan bəri bütün bu aylar ərzində Xəzangül üçün çəkdiyi əziyyətlər (Əsəd bu qayğıları heç vaxt əziyyət saymamışdı) bir göz qırpımında unuduldu. Qəhər boğazını tutdu. Udqunub o qəhəri udandan sonra yavaşcadan:

– Sən burda qal, qızım. Mən qaçıb doktor Kamili gətirim. Bunu belə qoymaq olmaz. Bayaqdan sən də, mən də özümüzü itirmişik, həkimlik eləyirik. Amma unutmuşuq ki, həkim məsləhəti, həkim nəzarəti mütləq lazımdı. Sən səs-zad salma, qoy yatsın. Yaxşı? Başa düşdün?

– Hə, başa düşdüm.

Əsəd yerindən tərpənmək istərkən Xəzangülün üzünə bir də baxdı. Elə bu zaman Xəzangül yaş kipriklərini qaldırdı. Sanki otağa nur seli axdı. Əslində Sahilənin də, Əsədin də gözlərini qamaşdıran işıq yox, sevinc idi. Onlar özlərinə gəlib bir söz deməyə macal tapmamış, Xəzangülün qəşəng, azca quruyub qaysaqlanmış, hardasa çəhrayıya çalan nazik dodaqları tərpəndi:

– Dayan, Əsəd, qoy sənə doyunca baxım, sonra get.

Əsəd quruyub qaldı, tərpənmək macalı olmadı. Sahilə dişi ilə alt dodağını sıxa-sıxa, ağladığı, güldüyü bilinməyən bir tərzdə gah anasına, gah da Əsədə baxmağa başladı. Qəmli-qəmli gülümsünən Əsədin beynində ani bir fikir gəzib dolaşdı: «Bu nədi, yoxsa o mənimlə vidalaşır?» Qorxa-qorxa onun nəmli, ancaq bu nəm içində qəribə bir pıçıltı ilə alışıb-yanan gözlərinə nəzər saldı. Baxışları toqquşdu. İlahi, Xəzangülün gözlərini Əsəd heç vaxt – nə o zaman, o uzaq illərdə, nə də sonrlar, dəniz qırağında rast gələndən bəri – belə gözəl, belə mənalı və şairanə görməmişdi. Qadın kiprik çalmadan, qeyb olacağından, itirəcəyindən qorxurmuş kimi, aramsız və nigaran baxışlarla onu süzürdü. Və qəribə idi ki, heç nə demirdi. «Deməli, Xəzangül eşidir daha. Bizim danışıqlarımızı alıb qulağı. Yoxsa belə deməzdi Xəzangül»- deyə hər ikisi – Sahilə də, Əsəd də bir-birindən xəbərsiz ürəyindən keçirirdi.

Əsəd o dilsiz baxışlarda çox şey oxuyurdu: məhəbbət də, peşmançılıq da, minnətdarlıq da… Amma hamısından güclü bir hiss vardı o baxışlarda – bu, sevinc hissi idi. Bu isə Əsədin bəsi idi.

Anlar gərgin sükut içində hiss olunmadan əriyib gedirdi, heç kəs bu səssizliyi pozmağa cəsarət eləmirdi sanki. Handan-

hana – az qala bir əbədiyyət keçəndən sonra – Xəzangül zəif, asta bir səslə:

– Hə, indi gedə bilərsən, Əsəd – dedi. – Get həkimi gətir, Əsəd. Mən… ölmək istəmirəm…

– Sən nə danışırsan, Xəzan? Ölmək nədi, zad nədi? – deyə Əsəd dəhşətli bir şey eşidibmiş təki demək olar ki, qışqırdı. Səsindən Xəzangül səksəndi və sözünün yerinə düşmədiyini anlayıb təəssüfləndi, ani sükutdan sonra:

– Sən mənə iyirmi il əvvəlki kimi yenə Xəzan deyirsən? –deyə keçmiş günləri xatırlayaraq kədərli-kədərli köks ötürüb əlavə elədi: - Hə, indi mən doğrudan da əsil Xəzanam, Əsəd. Xəzangülün gülləri soldu getdi, təkcə xəzanı qalıb indi.

– Sən allah, elə demə, Xəzan – dedi Əsəd. Ancaq səsindəki hüzndən özü də diksindi: - Nə var səndə? Şükür, sağalırsan. Sən elə əvvəlki Xəzangülümsən mənim, Xəzan. Yaxın gəldi, başının üstünə əyildi və alnından öpdü. Dikəlib ağır addımlarla qapıdan çıxdı. Sahilə divandan qalxıb anasının yanına gəldi, dizlərini büküb kolyaskanın qabağında yerə çökdü və başını onun dizi üstə qoydu. Qızın çiyinləri titrəyirdi.

– Ağlama, qızım, ağlama – deyirdi Xəzangül. Birdən onun qəlbində qızının saçlarını tumarlamaq arzusu baş qaldırdı. Tamam-kamal sağaldığını güman edərək əlini qaldırıb Sahilənin əvvəllər, lap uşaq vaxtı ipək kimi yumşaq olan, indi isə vədəsində yuya bilmədiyindən codlaşıb bərkimiş saçlarını sığallamaq istədikdə əli sözünə baxmadı. Sonsuz bir məyusluq axıb ürəyinə doldu, duruxdu. Bir də dartındı. Yox, əli tərpənmirdi. Dodaqları tərpəndi, bədənində bir soyuq gizilti gəzib dolandı. Əlinin əvəzinə, kədər buludu çökmüş baxışları ilə qızının saçlarına sığal çəkdi, toxunmasa da, toxuna bilməsə də bilirdi ki, o tellər codlaşıb. Ana əllərinin yuyub hörmədiyi, sevə-sevə, oxşaya-oxşaya darayıb bant ya qırmızı lent bağlamadığı qızın saçları elə belə cod olar, - uzanmaz, ətir qoxumaz. Əlinin işləmədiyini görüb danışmağa da qorxan Xəzangül ürəyində söyləyirdi, «Yazıq balam, məndən başın açılıb ki, başını da vaxtında-vədəsində yuya biləsən? Sənin uşaqlığın da mənim

ucbatımdan bir uşaqlıq olmadı, can bala. Təki axırın xoşbəxt olsun, qızım». Dodaqlarının quruduğunu hiss eləyib astadan söylədi:

– Dur, mənə bir udum su ver, bala.

– Su? Bu dəqiqə, ana. – Sahilə cəld qalxdı və özü də qulaqlarına inanmırmış kimi dönüb bir də soruşdu: - Su istəyirsən?

– Hə. – Xəzangül dili ilə dodaqlarını yaladı.

– Bu dəqiqə. – Mətbəxə qaça-qaça fikirləşirdi ki, indi dünyada onun üçün bu sözləri anasının dilindən eşitməkdən böyük xoşbəxtlik yoxdur. Neçə illər idi ki, Sahilə anasına fəhmnən su vermişdi: «Yəqin susamış olar». Bəzən o, heç su içmək istəmədiyi vaxt, ona su gətirmişdi, o isə ya içmişdi, ya da geri qaytarmışdı. İndi isə… öz dili ilə su istəyirdi Xəzangül. Sahilə necə həyəcanlıydısa, iki otağın arasında, qapının ağzında dolu stəkanı əlində saxlaya bilmədi. Stəkan taxta döşəməyə düşüb çilik-çilik oldu, qız peşman-peşman «Oy!» – deyib içini çəkdi və günahkar kimi anasına baxdı. Xəzangül mehribanlıqla gülümsündü:

– Eybi yoxdur, qızım. Su aydınlıqdı. – dedi.

İKİNCİ FƏSİL

Saat yarımdan sonra Xəzangül artıq xəstəxanada idi. Sahilə də, Əsəd də elə təcili yardım maşınında onunla birgə gəlmişdilər. Əsədin köhnə dostlarından olan doktor Kamil, bu axşam xəstəxanada növbətçi olduğuna görə heç yerə tərpənə bilmədiyindən, əhvalatı eşidən kimi, Əsədi iki şəfqət bacısı ilə tibb maşınına mindirib naxoşun dalınca göndərmiş və iyirmi dəqiqə keçməmiş Xəzangülü gətirtmişdi. Kamil Xəzangülün xəstəliyini də, qəzavü qədəri də, Əsədlə olan tarixçəsini də çoxdan və çox gözəl bilirdi. Əsəd Xəzangülün taleyini həkimə elə o vaxt rayondan qayıdıb dəniz qırağında ona rast gələndən az sonra danışmışdı, hələ bir dəfə də Kamili yanına salıb Xəzangülün üstünə gətirmişdi. Onda Kamil Xəzangülü ətraflı

müayinə eləyib evdən çıxandan sonra fikrini Əsədə açıq söyləmiş, tibb elminin bu qədər sürətli inkişafına baxmayaraq, hələlik bu mərəz qarşısında aciz olduğunu və qadının sağalacağına az ümid bəslədiyini etiraf etmişdi. Kamilin o zaman Əsədə dediyi sözlərdən ancaq bu yadında qalmışdı: «Onun xəstəliyinin əsas səbəbi – sarsıntıdı, Əsəd. İkinci böyük sarsıntı olarsa, ya – nə qədər olsa da səndən gizləmirəm – ya öləcək, ya da… sağalacaq. İndilikdə onun üçün dava-dərman havayı əziyyətdi. Onu da sənə deyim ki, ikinciyə ehtimalım daha azdı, Əsəd. Əsəb - yaman şeydi, qardaş. Mənim müşahidələrimə və qənaətimə görə, xəstəliklərin böyük əksəriyyətinin başlanğıc nöqtəsi – əsəb sisteminin pozulmasıdır. Hətta xərçəngin də. Əsəb hiss olunmadan, gündə bir az pozulur, ancaq sağalması, bərpa olunması uzun, səbr və dözüm tələb eləyir, qardaş».

Əsəd Kamilə bir həkimdən çox, bir Allah kimi baxırdı. Bu şəhərin ən adlı-sanlı həkimiydi Kamil. Onun əlinin yüngüllüyündən, bıçağının sayalılığından, ağlının itiliyindən, təcrübəsinin çoxluğundan az qala bütün şəhər danışırdı. Canı ağrıyan, ağır xəstəliyə düşən, sağalacağına ümidi olmayanlar belə ona pənah gətirirdi. Çünki dediyi, bəzən baxan kimi peyğəmbəranə qoyduğu diaqnozlar çox nadir hallarda düz çıxmırdı. O, indi həkimlər arasında dəb düşən kimi, təkcə dar bir sahənin həkimi olmaqdan şüurlu surətdə imtina etmişdi. Həm yaxşı cərrah idi, həm mahir əsəb xəstəlikləri ustası idi, ürəyin, psixologiyanın isə sözün həqiqi mənasında Allahı idi Kamil. Yaşı əllidən təzəcə sovuşmuşdu, amma gur, qalın saçları artıq çallaşmışdı. Sənəti onu özünə məftun etmişdi, gündüzlər xəstəxanada – xəstələri oxuyurdu, öyrənirdi, axşamlar kitabları, keçmişin, indinin məşhur təbiblərinin əsərlərini mütaliə edib beyninə, yaddaşına köçürürdü. «İş vaxtı», «qəbul saatı» məfhumları onun dəftərinə yazılmamışdı. Harada olsa, - qonaqlıqda, toyda, yasda, hətta gecənin şirin vaxtı yatdığı zaman belə, o, həkim idi hər şeydən əvvəl. Qayğıkeşliyi, mehribanlığı isə onun sənətini də, özünü də daha da gözəlləşdirirdi. Ona görə şəhərdə adı böyük bir ehtiram hissilə çəkilirdi, dildən dilə dolaşırdı. Canı ağrıyan hər

kəs özünü, xəstəsi olan hər kəs xəstəsini ona çatdırmağa can atırdı. Kamilin həmişə hər şeyi çatmışdı, təkcə vaxtı olmurdu Kamilin. Özü üçün, ailəsi üçün çox az vaxt ayıra bilirdi. «Başımı qaşımağa vaxtım yoxdur» – deyə-deyə Kamil, Əsəd kimi başını ağartmışdı.

Əlli beşinci ildə Tibb institutunu bitirəndə təyinatını Tacikistanın dağlıq rayonuna vermişdilər. Elə getmək ərəfəsində özü ilə bir yerdə oxuyan, gözəl, ağıllı, ağır-səngin, mehriban, Kamili altı il gizli bir məhəbbətlə sevən Tahirə ilə evlənmiş, cavan ər-arvad bir-birinə qoşulub Pamirə yola düşmüşdülər. Beş il orada elə yaşamış, elə işləmiş, elə hörmət qazanmışdılar ki, vətənə qayıtmaq məsələsi meydana çıxanda taciklər yamanca pərişan olmuşdular, hətta köç məqamında dallarınca ağlayan da tapılmışdı. Həyat bəxş etdiyi, ölümün soyuq əllərindən alıb dünyaya qaytardığı adamlar, üstündən illər keçməsinə baxmayaraq, hələ də Kamili unutmur, gah məktub yazır, gah yanına gəlir, gah da qonaq çağırırdılar. Hətta ağır xəstələrini oradan götürüb Bakıya, Kamilin yanına gətirənlər də çox idi…

… Otaqda iki çarpayı var idi. Qoşa laylı, hündür pəncərə qabağındakı çarpayıda Xəzangül uzanmışdı. Sahilə və Əsəd aşağı tərəfdə, ayaq üstə dayanmışdı. Ağ örtüklü tumbanın üstü bomboş idi. Tələsik çıxmışdılar deyə, nə çay saxlayan, nə stəkan-nəlbəki, nə dəsmal… heç nə götürməmişdilər. Bu, Əsədin yadına indi düşdü, ancaq bir söz demədi. «Səhər gətirərəm» – deyə ürəyindən keçirtdi. Sonra başını qaldırıb Xəzangülə nəzər saldı. Xəzangül, onun baxışlarını tutan kimi, iyirmi il əvvəl olduğu təki, uzun kipriklərini qırpdı və səssiz-səmirsiz, Sahilənin eşidə bilməyəcəyi tərzdə:

– «Mən sənə qurban olum!» – söylədi kipriklərilə.

Əsəd də kiprik çaldı:

– «Mən sənə qurban olum!» – Və gülümsündü.

Heç biri danışmırdı. Xəzangül elə bil danışmaqdan qorxurdu, «birdən yenə danışa bilmərəm, dilim tutular» – deyə ehtiyat eləyirdi. Əsəd də, Sahilə də danışıb onu yoracaqlarından

çəkinib susurdu. Buna baxmayaraq Əsəd, iri, qara əllərini çarpayının nikel üstünə qoyub:

– Bir yerin ağrımır ki, Xəzan? – deyə soruşdu.

– Yox. Yaxşıyam, Əsəd.

– İndi doktor gələcək. Sən onu tanıyırsan, Xəzan. Yadındadı, bir dəfə sizə gətirmişdim.

– O ağ baş kişi?

– Hə. Bilirsən nə həkimdi?

Elə bu vaxt qapı açıldı, əyninə ağ xalat geymiş, ağ başına ağ papaq qoymuş Kamil içəri girdi. Əhvalı yaxşı idi, üzündən mehribanlıq yağırdı. Bununla belə, diqqətlə baxan olsaydı, gözlərində bir yorğunluq da olduğunu sezə bilərdi. Gümrahlıqla:

– Salam! – dedi. – Bizim yanımıza öz ayağı ilə, öz xoşu ilə gələn az olur, amma öz ayağı ilə, sevinə-sevinə gedənlər çoxdur. Xəstənin halı, baxan kimi gördüm, yaxşıdı. Sağlamların halı necədi? – deyə o, üzünü Sahiləyə tutdu, qızın özünü itirdiyini görüb əlavə etdi – Səni deyirəm, qızım!

Sahilə pul kimi qızardı və astaca:

– Sağ olun, doktor, yaxşıyam! – söylədi.

– Hə, sən yaxşı olmalısan. Çünki sən yaxşı olanda anan da sənə baxıb fərəhindən yaxşı olacaq. Dərslərin necə gedir? Gərək ki, o dəfə Əsəd müəllim onuncuda oxuduğunu söyləmişdi.

– Hə, onuncudadı, Kamil – Əsəd dedi.

– Babatdı dərslərim.

– Yox, babat pisdi. Mənim Nərgiz balam da onuncudadı, bu il qurtarır. Medala namizəddi. Yox, gərək sən yaxşı oxuyasan – bu, anan üçün səndən daha vacib lazımdı. – Kamil danışa-danışa düşünürdü ki, Əsəd haqlı imiş – ana-bala bir-birinə necə də oxşayırmış. Genlərdi. İş genlərdədi. Təbiətdə gen, insanlarda gen, bütün kainatda gen… Gen deyirik, amma bu sözün dilimizdə necə adlandığını heç kəs fikirləşmir – bu, bizim dildə zat deməkdir. Xalq bunu yaxşı, yerində işlədib: «Filankəs zatı qırıq adamdır».

Xəzangül isə bu söhbətə qulaq asa-asa fikirləşirdi: «Qəribə adamdı. Xəstə qalıb bir tərəfdə, həkim dərsdən-filandan danışır! Amma qəribə bir söz dedi içəri girən kimi. «Xəstənin halı, baxan kimi gördüm, yaxşıdı!» Yəni elə bir baxışda bilmək olur xəstənin halı yaxşıdı, pisdi? Görünür, bilmək olur». Sonra Xəzangül özü də bilmədən həkimin son sözlərinə cavab verdi:

– Yazıq uşaq bütün vaxtını mənə sərf eləyir. Dərslərinə çox az vaxtı qalır, doktor!

Kamil Xəzangülə sarı döndü, yaxın gəlib çarpayının qırağında əyləşdi və onun nəbzini tutdu, gülə-gülə:

– Hə, bax, belə. Mən elə bayaqdan bunu istəyirdim. Dağdan-arandan danışırdım ki, siz dillənəsiniz. Suala cavab vermək ayrı şeydi, öz xoşuna, öz fikrini bildirmək ayrı şeydi. Bunun çox incə psixoloji əsası var, Əsəd.

– Mən səni başa düşürəm, Kamil. – Əsəd Kamilin bir həkim kimi düşüncə tərzinə heyranlıqla cavab verdi.

Kamil daha o «incə psixoloji əsası» xırdalamadan mətləbə keçdi:

– Danışanda çətinlik çəkmirsən ki?

– Yox.

– Əvvəlcədən bildiyin sözlərin hamısı yadındadı?

– Hə, yadımdadı – dedi Xəzangül, ancaq duruxub fikrə getdi. – Hə, deyirəm, ancaq nə bilim?! Bəlkə…

– Belə… İndi sənin yaddaşını yoxlayaq. – Kamil ani olaraq gözlərini yumub açdı – De görüm, orta məktəbdə sizə ədəbiyyatdan kim dərs deyib?

Xəzangül qımışdı:

– Ədəbiyyatdan?

– Hə. Ədəbiyyatdan…

– Sabit müəllim.

Kamil Əsədə sarı döndü:

– Düz deyir?

– Hə, düz deyir!

– Əla. – Bir az susub soruşdu – Familiyası nə idi o Sabit müəllimin?

– Familiyası… Gərək ki, Əlibəyzadə idi.

– Düzdür – Əsəd fərəh içində təsdiq etdi.

Kamil otağa göz gəzdirib:

– Bax, o yuxarıda, balaca açıq pəncərə var ha, onun adı nədir? – deyə soruşduqda Xəzangül qaşını və kipriklərini yuxarı qaldırıb pəncərəyə baxdı:

– Nəfəslik! – dedi.

Doktor ayağa qalxdı. Gözlərindəki yorğunluq silinib getmişdi:

– Lap yaxşı!.. Hər şey öz qaydasındadı… Sən sağalacaqsan, ancaq gərək darıxmayasan, yaxşı?

– Yaxşı, doktor. Mənimki daha darıxmaqdan keçib.

Kamil əllərini ağ xalatının cibinə salıb otaqda var-gəl elədi, boş çarpayıya baxdı. Sonra üzünü Sahiləyə çevirib:

– Hələlik bu çarpayını da sənə verirəm. Gecələr ananın yanında qala bilərsən – dedi.

Ana da, bala da bir ağızdan:

– Çox sağ olun, doktor! – söylədi.

Kamil sonra Əsədə üz tutdu:

– Belə, Əsəd müəllim. Sən də heç darıxma, ümid edirəm ki, az bir müddətdən sonra sənin xəstən öz ayaqları ilə buradan evə qayıdacaqdır. İndi sovet elmi möcüzələr yaradır, qardaş.

– Mən sizə də, elmimizin qüdrətinə də inanıram, doktor – deyən Əsəd sevindiyindən bilmirdi neyləsin. Əsəd bayaqdan Kamilin hərəkətlərinə, danışıqlarına fikir verirdi. Sualları qəribə göründü ilk anlarda. «Müəlliminin adı nə idi, famili nə idi, nəfəslik… nə bilim nə! Birdən, elə indicə Əsəd bunların mənasını anladı. Kamil Xəzangülün yaddaşını yoxlayırmış. Yaddaş isə başbeyin mərkəzinin fəaliyyəti ilə bağlı fizioloji bir prosesdi. Əgər yaddaş, hafizə yerindəsə, demək, baş beyinin işi, nizamı pozulmayıb, demək o, bədəni idarə etməyə, düşüncəni cilovlayıb nizamlamağa qadirdi. Bax, yəqin elə buna görə də,

Kamil belə inamla «Sən sağalacaqsan!» söyləyir. Yoxsa başqa nə cür ola bilərdi?! Bayaq, Əsəd başılovlu Kamilin yanına gələndə Xəzangülün birdən-birə danışdığını söylədikdə o, diqqətlə qulaq asıb, «Nəsə olub ki, onun dili açılıb. Dərin, sarsıdıcı bir şey olmalıdı, Əsəd. Boş yerə, durduğu yerdə bu, mümkün olan iş deyil» – dedikdə, Əsəd Sahiləyə buraxılış gecəsi üçün təzə paltar, ayaqqabı aldığını söyləmişdi. Sahilə geyinib, onun qabağına gəlib, arvadın gözləri böyüyüb həlqəsindən çıxıb… və sonra işarə ilə Əsədi çağırtdırıb…

Bunları eşidəndə Kamil gülə-gülə:

– Hə, bu, başqa məsələ, Əsəd müəllim! – demişdi. – O, anadı. Ana ürəyi isə dəhşətli dərəcədə həssas olur – xüsusən qız uşağına qarşı. Heç şübhə etmirəm ki, o fikirləşib, - bu paltarı ona heç kəs təmənnasız almaz. Ürəyinə min şübhə axıb dolub bir anda. Bilirsən, Əsəd, əslində onu sənin qayğın, sənin fədakarlığın, sənin diqqətin dilə gətirib. O, yaşasa – buna isə mən inanıram – sənə, ancaq sənə minnətdar olmalıdı.

Kamil Əsədin gözlərində aşıb-daşan sevinci görərək gülümsündü və Xəzangülə, Sahiləyə baxaraq Əsədə döndü:

– Hə, sən arxayın gedə bilərsən – söyləyərək otaqdan çıxdı. Əsəd onun dalınca baxa-baxa qaldı. Minnətdarlıq eləməyə belə macal tapa bilmədi Əsəd.

Palatada üçü qaldı. Sahilə ayaq üstə dayana bilmədiyindən (bu gün ancaq dərsdə oturduğu idi, sonra yanı yerə dəyməmişdi, ayaqları zoqquldayırdı, kötüyə dönmüşdü) bayaq doktorun göstərdiyi çarpayıda oturdu. Çarpayı astaca cırıldadı. Əsəd siqaret çəkmək üçün ağ dəstəyi burub qapını açaraq balkona çıxdı. İkinci mərtəbə idi, həyət yaşıllıq içindəydi, iki şam ağacı bu palatanın balkonunun dibindən üçüncü mərtəbəyə can atırdı. «Yaxşı xəstəxanadı, təmizdi, səliqəlidi» – deyə düşünə-düşünə bir «Avrora» yandırdı. Məhəccərə söykənib daş hasar içində qaralan yaşıllığa tamaşa edə-edə siqaretini çəkdi. Xəzangülün bu gün, bir neçə saat bundan qabaq dil açmasından bəri olanları fikrindən keçirdi. Bu günü Əsəd ömrünün, Xəzangül gedəndən sonra keçən ömrünün – bu illərdə onu demək olar ki,

heç nə belə fərəhləndirməmişdi – ən xoş günü hesab elədi. Nəhayət o, Xəzangüllə ağıllı-başlı danışa biləcəkdi, beynini, qəlbini elə hey, aramsız gəmirmiş, ona rahatlıq verməmiş cavabsız suallarına cavab ala biləcəkdi. Ən ümdəsi isə bu idi ki, Xəzangül sağalacaqdı. Ona Xəzangüldən heç nə lazım deyil. Təki sağ olsun, nəfəsi gəlsin, tək balasının üstündə olsun, başqa heç nə istəmir Əsəd.

Sonra onun fikri keçmişdən, gələcəkdən haylanıb indiyə, xəstəxanaya, xəstəxana ilə, Xəzangüllə, Sahilə ilə bağlı qayğılara qayıtdı. Burada elə bir çətin şey yox idi – bu barədə Əsədin fikri aydın idi. Siqaretini çəkib qurtaran kimi içəri girdi.

– Hə, ana-bala nə pıçıldaşırsınız? Bir-birinizlə danışmaq üçün çox darıxmısınız deyəsən, hə? – deyə Əsəd zarafat etmək istədi.

Xəzangül ağzını açıb minnətdarlıq eləmək üçün nə isə söyləmək istəyəndə Əsəd, qəsdən imkan vermədi və çox ciddi şəkildə Sahiləyə dedi:

– Çox danışıb onu yorma, qızım. O qədər vaxtınız olacaq ki. Onda nə qədər istəsəniz danışarsınız. O qaçmır, sən qaçmırsan. Birdən-birə onu yormaq olmaz. Sən özün də az danışmağa çalış, Xəzan. Yaxşı!

– Yax…şı, Əsəd.

– Sən də başa düşdün, qız?

– Başa düşdüm, Əsəd müəllim. Çox sağ olun. Allah…

Əsəd onun burnuna bir çırtma vurub sözünü deməyə aman vermədi:

– Yaxşı, yaxşı, qoca arvadlar kimi, dil-ağız eləmə, - dedi və güldü. – Sən yaxşısı budur, imtahanların barədə fikirləş. Qabaqdan dövlət imtahanların gəlir.

– İmtahan-zad heç gözümdə deyil, Əsəd müəllim.

– Yox. Sən nə danışırsan? Daha indi şükür, hər şey yaxşıdı, qayğıların azalıb. Bax, kitab-dəftərini sabah gətirərsən bura, axşamlar ananın yanında oxuyarsan, hazırlaşarsan, elə məktəbə də səhər tezdən burdan gedərsən. Dərsdən də çıxıb evinizə yollanarsan, axşamacan hazırlaşarsan. Gündüzlər mən qa-

lacağam burda, gecələr sən. Qaldı ki, bazarlıq-filan, onların hamısını mən eləyəcəyəm, qızım. Yox, yox, mən nə deyirəm, elə də olacaq. Bildin?

– Hə, bildim, Əsəd müəllim.

– Bax belə. Sabah mən burada işlətmək üçün nə lazımsa – qab-qaşıq, stəkan, qənd, çay və s. gətirəcəyəm. İndi tələsikliyə düşdük, yadımızdan çıxdı.

Bu zaman palatanın qapısı açıldı və ağ xalatlı, xurmayı saçlı bir cavan qız içəri girərək Əsədi görəndə təəccübləndi, nazik, alınmış qaşlarını yuxarı dartdı və:

– Tovariş, uje vam para uxodit. Skoro otboy – dedikdə Əsəd qol saatına baxaraq:

– Hə, gecdi. – söylədi Xəzangülə – mən gedim, səhər gələrəm.

Sahilə onu ötürmək üçün ayağa qalxdıqda Əsəd qoymadı:

– Otur, otur. Yaxşı, gecəniz xeyrə qalsın. – deyib ağ xalatlı qızın ardınca çıxmaq istədi. Qapının ağzında nə fikirləşdisə geri qanrılıb Xəzangülə baxdı. Xəzangül uzun kipriklərini yumub qaldırdı. Əsəd də elə elədi. Və qapıdan çıxdı…

… Əsəd gedəndən sonra uzun müddət aralığa dərin bir sükut çökdü. Ana-bala, Xəzangül uzandığı yerdə, Sahilə oturduğu yerdə donub qalmışdı. Elə bil, danışmağa söz tapmırdılar. Halbuki hər ikisinin ürəyi dolu idi. İllər uzunu bir-birinin səsini, sözünü eşitməyən istəkli ana-balanın deyiləsi, danışılası sözümü yox idi? Vardı, çoxdu, lap çoxdu. Ancaq gözlənilmədən onların qəm-qüssə ilə dolu evlərinin qapısını döyən sevinc ikisini də sanki təzədən lal eləmişdi. Bu, onlar üçün göydən düşmüş bir möcüzə idi. Hələ üstəlik Əsədin ürəyi də bu iki dərdli insanı heyrət içində dondurmuşdu. Hərəsi öz aləmində ürəklərinin dərinliyinə baş vurur, Əsəd barədə, onun qəlbi, vicdanı haqda layiqli bir söz tapıb dilə gətirmək istəyir, ancaq, qəribə idi ki, bütün gözəl kəlamlar, ifadələr Əsədin adının qabağında sönük, ölü görünürdü. Əsəd hər cür tərifdən, öygüdən yüksək idi. Xəzangül Əsəd haqqında, çox götür-qoydan sonra, belə bir hökm verdi: «Əsəd insan deyilmiş, Əsəd mələk imiş!

Tanrı Əsəd şəklində göydən endirmişdir, Tanrı Əsəd qiyafəsində mənə cəza vermək üçün asimandan yerə endirmişdir onu. Qoy versin bu əzabları mənə, qoy versin. Mən bundan da böyük cəzalara layiqəm…»

Sahilə də anasına baxmadan, gözlərini par-par parıldayan parket döşəməyə zilləyərək, Əsəd barədə fikirləşirdi: «Görəsən bütün insanlar Əsəd müəllim kimidi? Yox, ola bilməz. Əsəd müəllimə heç kəs bənzəyə bilməz. Amma kaş bütün insanlar onun kimi olaydı – onda yer üzündə dərdli-qəmli adam tapılmazdı, onda hamı xoşbəxt olardı, onda dünya cənnət olardı».

Sahilə başını qaldırdı, anasının səssiz-səmirsiz, tavana baxdığını görüb qorxu içində dilləndi:

– Ana!..

Xəzangüldən səs gəlmədi. Sahilə bir az ucadan, təşvişlə yenə:

– Ay ana! – deyə çağırdı.

Xəzangül xəyaldan ayrıldı:

– Hə, nədi, qızım?..

Sahilənin hövllənmiş ürəyi toxdadı:

– Heç… səsin gəlmədi, elə bildim… yatmısan…

Xəzangül ah çəkdi:

– Yox, yatmamışam, can bala. Düşünürəm…

– Nə barədə, ana?

Xəzangül ağ yastığın üstə, başını qızına sarı döndərdi, ona, çoxdan görmürmüş kimi, xeyli diqqətlə baxıb mənalı-mənalı gülümsünərək:

– Əsəd barədə fikirləşirdim, qızım! – söylədi.

Sahilə bu qəribə təsadüfə çox sevindi, yerində dikəlib uşaq fərəhiylə:

– Elə mən də onun haqqında düşünürdüm, ana – dedi.

Xəzangül bəxtəvərlik içində gülümsündü:

– Nə düşünürdün, qızım?

Sahilə aciz halda çiyinlərini çəkdi:

– Nə deyim, necə deyim, ana. Ayrı cür mehriban adamdı ey belə. Nə isə… adam söz tapıb deyə bilmir. – Bayaq ürəyində Əsəd barədə dedikləri indi ona çox sönük göründü – Belə… sözə sığışmır ey…

Xəzangül köksünü ötürdü:

– Düz deyirsən, qızım. Əsəd insan deyil…

Sahilənin yaraşıqlı gözləri böyüdü, çatma qaşları çatıldı:

– Necə yəni insan deyil?

Xəzangül qızının təəccübləndiyini duyub:

– Əsəd mələkdi, qızım… - dedi…

– Hə, hə, mələkdi, mələkdi. – Sahilə sevinclə az qala qışqırdı. Və qız, çoxdan ötəri bildiyi, hiss elədiyi bir şeyi – Əsədlə anası arasındakı münasibəti, sevginin tarixini – romanını soruşmaq istədi, lakin Əsədin tapşırığını xatırlayıb susdu. Bilirdi – anası dərdlidi, ürəyi doludu, soruşsa, danışacaq. Danışacaq və həyəcanlanacaq, yorulacaq. Bu isə olmaz, yox, qətiyyən olmaz… Odur ki, yorğunluğunu bəhanə edərək:

– Ana, yataqmı, qurban olum? Mən çox yorulmuşam. Elə sən də bu gün az yatmısan. Yat, dincəl, ana.

– Hə, yataq, qızım. Dur işığı söndür. Görək səhər başımıza nə gələcək.

… İşıq sönmüşdüsə də, buludsuz, ulduzları sayrışan göylərdə sanki hara isə axıb gedən ayın ziyası pəncərədən içəri düşürdü. Sakitlik idi, ancaq arabir qonşu palatada kim isə bərk zarıyırdı. Heç biri yerində tərpənmirdi. Sahilə elə bilirdi anası yatıb, anası da elə sanırdı qızı yuxulayıb… Əslində yatmamışdılar. Əsədli-Əsədsiz keçən günlər canlanmışdı və bu xatirələr o qədər çox, o qədər rəngarəng idi ki, qadın heç cür onları nizama sala bilmirdi. Hərəsindən qırıq bir fraqment canlanırdı, o qurtarmamış başqa bir hadisə, xatirə onun üstünə kölgə salıb səsini, təravətini itirirdi. Tez yoruldu və zəif bədəni bu gərginliyə davam gətirməyib şirin yuxunun qoynunda itib qərq oldu. Sahilə isə… bu gün, Əsədin dalınca qaçarkən gördüyü mənzərənin və eşitdiyi sözlərin sehrindən heç cür çıxa bilmirdi. Bu gün, anası onun əynində Əsədin aldığı təzə paltarı görəndən

sonra hadisələr elə sürətlə bir-birini təqib etmişdi ki, əslində qızın bu barədə düşünməyə vaxtı, imkanı belə olmamışdı.

Bu günə qədər Sahilə Əsədgilə gəlməmişdi. Evlərinin yanından üçü bir yerdə keçərkən, Əsəd onu evə dəvət eləmişdi bir-iki dəfə. Ancaq Sahilə razı olmamışdı. Onda Əsəd demişdi: «Yadında saxla, bax, bizim evimiz budu. Birdən lazım olsam… burda yaşayıram…» Sahilə də on səkkiz nömrəli göy qapını yadında saxlamışdı. Bayaq, bir neçə saat bundan qabaq, anası qaşlarını darta-darta, gözləri ilə «Get Əsədi çağır!» deyə işarə edərkən, Sahilə çətinlik çəkmədən düz bir baş bu həyətə gəlmişdi, daha doğrusu qaçmışdı. Həyət o qədər də böyük deyildi, hasarın içindəki bu balaca meydançada, düz ortada bir dənə badam ağacı vardı. Ağappaq idi, çiçək açmışdı. Onun altında bir stol, yanına da iki stul qoyulmuşdu. Divarın dibində su kranı görünürdü. Açıq idi, su axıb gedirdi. Çox da böyük olmayan artırmadan otağın qapısı gözünə dəydi – açıq idi. «Əsəd müəllim evdədi» – deyə düşündü. Eyvana qalxıb qapının ağzında töyşüyünü dərdikdən sonra astadan:

– Əsəd müəllim! – deyə səsləndi. Cavab gəlmədikdə bir də: – Ay Əsəd müəllim! – söylədi. Yenə səsinə hay verən olmadığına görə ehtiyatla içəri girdi. İşıq yanırdı. Əsəd şalvarköynəkdə, köhnə divanın üstündə uzanmışdı. «Yatıb!» Otağa göz gəzdirdi. Qarşı divarın dibində qədimi, ağ çubuqlardan düzəldilmiş bir kitab etajerkası qoyulmuşdu. İki pəncərənin qabağında yazı masası, arxasında da bir stul vardı. Əsəd pencəyini stulun çiyinlərinə keçirmişdi. Birdən Sahilənin gözləri alacalandı. Qız, balaca şüşə çərçivəyə salınmış şəklini stolun üstə görəndə qeyriiradi alt dodağını dişlədi. Asta addımlarla irəli yeridi, şəklə baxdı. Özü idi, öz şəkli idi Sahilənin. Qəzəbləmi, maraqlamı – bunu ayırd edə bilmədi – dönüb Əsəd müəllimə baxdı – daha doğrusu, onun ağ saçlarına baxdı. «Demək, deyilənlər düz imiş? Əsəd müəllim mənə vurulubmuş? Bəs bu şəklimi hardan tapıb görəsən? – deyə düşündü, baxışları bir anlığa ilişib Əsədin ağ saçlarında qaldı. Və sonra… titrək əlini irəli uzadıb şəkli ehmalca götürdü, baxdı, baxdı… birdən tanıdı şəkli… Bu, anasının – Xə-

zangülün şəkli idi. Eynən belə bir əks onların albomunda da vardı. Çevirib arxasına baxdı. Yazısı vardı. Şagird xəttilə bu sözlər yazılmışdı: «MSQO. Baxıb xatırlama, xatırlayıb bax! Xəzangül, 1960-cı il». Sahilənin bədəni uçundu. İndi ona hər şey aydın idi. Aman allah, gör insanın başına nələr gələrmiş! Demək, bunlar bir-birini seviblər, seviblər. Ancaq...

Sahilə özünü ələ aldı, vaxt az idi. Şəkli son dərəcə ehtiyatla yerinə qoydu, demək olar ki, barmaqlarının ucunda Əsədin yatdığı divanın yanına gəldi… Yenə onun ağ saçlarına baxmağa başladı. Kişi elə şirin yatmışdı ki, çağırmağa ürəyi gəlmədi. Və qəribə idi ki, birdən-birə ürəyinə çox doğma bir hiss axıb doldu – ona elə gəldi ki, Əsəd onun atasıdı, doyunca üzünü görmədiyi, nəvazişini hiss eləmədiyi, səsinə, üzünə həsrət qaldığı dost-doğma atasıdı. Özü də hiss eləmədən kiçik, ağ əlini onun ağ saçlarına çəkə-çəkə həzin, kövrək bir səslə:

– Əsəd… - dedi və qəhər boğduğundan «müəllim» sözü dodaqları arasında çırpınıb içəridə boğuldu. Elə bu zaman Əsəd sinəsi üstəki sağ əlini qaldırıb saçlarında gəzən o isti əli tutdu və gözlərini açmadan:

– Gəldin, Xəzangül?.. Bəs niyə belə gec gəldin, Xəzan? - deyə pıçıldadı. Sahilə diksinib əlini çəkdi Əsədin iri əlinin içindən. Bunu elə sürətlə elədi ki, Əsəd gözlərini açdı və yuxuda gördüyü Xəzangülün əvəzinə Sahiləni başı üstə görüb dik oturdu:

– Sahilə, sənsən? Nə olub?

Sahilə çaşqın halda ancaq:

– Anam… - deyə bildi…

ÜÇÜNCÜ FƏSİL

Nadirə xanım maqnitafon lentində Ceyhunun Reyhan adlı bir qadınla danışığı həkk olunmuş parçanı axırıncı dəfə dinləyən kimi mayor Hacı Əliyevə zəng eləyəndən yarım saat keçməmiş, o, özünü yetirmişdi. Nadirə əzgin, kədərli vəziyyətdə

Hacını qarşılamış, içəri, Ceyhunun otağına dəvət eləmiş, mayor da keçib xırda stulda oturmuş, dər-divarı Ceyhunun şəkilləri ilə bəzənmiş otağa göz gəzdirib Nadirənin - aman-zaman bir balasını itirmiş bu ananın halına yanmışdı, qəlbən yanmışdı. Və hardasa, ürəyinin dərinliklərində Ceyhunu qətlə yetirən o vicdansızı indiyə qədər tapa bilmədiyinə görə özündən narazı qalmışdı. Nadirənin kədərli gözlərinə baxmağa da utanırdı Hacı. Nadirə xanım isə ona sual dolu baxışlarını zilləmişdi, ondan nə isə yeni bir məlumat eşidəcəyi ümidini hələ itirməmişdi. Hacı isə divardakı şəkillərə tamaşa edirdi. Nadirə xanım axırı dözməyib soruşdu:

– İşdən təzə nə xəbər var, Hacı qardaş?

Hacı nəzərlərini divarlardan yığıb günahkar uşaq kimi çiyinlərini çəkərək:

– Hələ əsaslı bir şey yoxdu, Nadirə xanım – dedi. – Axtarış davam edir. Ancaq çox təəssüf ki, indiyə qədər tutarlı bir ilişik nöqtəsi tapmamışıq. Bu, mənim fəaliyyətimdə ən dolaşıq və düyünlü bir iş oldu. Rəisimiz də hər gün soruşur.

Nadirə köksünü ötürüb:

– Mənim günahsız oğlum torpağın altında çürüyür, qatili-sə arın-arxayın azadlıqda gəzir və kim bilir, bəlkə yeni cinayətlər də törədir - söylədi.

– Hə, təəssüf ki, elədir, Siz haqlısınız, Nadirə xanım – deyərək Hacı söhbəti dəyişmək, konkretləşdirmək istədi. – Siz… deyirsiniz lent tapıbsınız… Hanı o lent?

Nadirə maqnitafona işarə elədi.

– Burdadı.

– Zəhmət olmasa, onu səsləndirin.

Nadirə düyməni basdı. Təmiz, aydın yazılmışdı söhbət:

« – Ya nesçastnaya jenşina, Djek».

« – Ya tebya sdelayu sçastlivoy, doroqaya. Tı tolko lyubi menya».

« – Ya tebya oçen lyublu. Vseqda budu lyubit, Malış. Tı moy xoroşiy, tı moy silnıy, Malış».

« – Ya tebya obajayu, Reyxan».

Lent xırıldayıb susdu. Hacı vəchlə ayağa qalxıb:

– Hə, bu çox yaxşıdır. Yəni bu lentin tapılmağı çox yaxşıdı, Nadirə xanım. Demək, bu oğru işi deyil. Oğru variantını silib atmaq lazımdır. Bu, qəsdən qadın üstündə edilmiş bir qətldir. – dedi və əllərini cibinə qoyub otaqda gəzindi, yenidən şəkillərə baxmağa başladı. Sanki Ceyhunla şəkil çəkdirmiş adamlar arasında o qadını axtarırdı. Tərs kimi onların arasında da elə cavan qadın gözə dəymirdi.

– Demək, qadının adı Reyhandır.

O gəlib mizin arxasına keçdi, dəri qovluğun içindəki kağızları açıb vərəqləyəndən sonra Reyhanın adını yazdı. Başını qaldırıb Nadirəyə baxdı:

– Tanışlarınızın, bu evə gəlib gedənlərin arasında elə bir qadın xatırlamırsınız, Nadirə xanım?

– Yox. Bizə elə adam gəlməyib. Ancaq var belə bir qadın. Odur zəng eləyib susan.

– Nə vaxtlar zəng edir?

– Vaxtını dəqiq bilmirəm. Biz gündüzlər evdə olmuruq. Ancaq üç-dörd dəfə axşamlar da zəng edib, di gəl ki, səsini çıxarmayıb.

– Deməli belə. – Hacı fikrə getdi və az sonra əlavə elədi. – Demək, əgər zəng eləyirsə, Ceyhunun ölümündən onun xəbəri yoxdu. Başqa adam öldürüb Ceyhunu. Yoxsa o qadın Ceyhunun yoxluğunu bilə-bilə, daha bura niyə zəng çalırdı?

– Hə də… Mən də elə fikirləşirəm, o kimdirsə, Ceyhunu axtarır.

– Bəli. Siz … mənim tapşırığımı unutmamısınız ki?

Nadirə qaşlarını çatdı:

– Hansı tapşırığınızı, Hacı qardaş?

– Siz demişdiniz ki, parçalarınızı, üzüklərinizi, sırğalarınızı da aparıblar, elə deyil?

– Hə.

– Mən demişdim ki, küçədə, bazarda, avtobusda, trolleybusda diqqətli olun, bəlkə birinin əynində, barmağında, boyun-boğazında o şeylərdən birini tanıya bildiniz!

– Baxıram. Ancaq heç nə gözümə dəymir. Bir də onlardan ancaq iki şeyi görsəm, tanıyaram.

– Nədi onlar?

– Biri – üzükdü. Təkqaşlı brilyant üzükdü. Rəhmətlik anamdan yadigar qalmışdı. Atam onu ailə quranda mənə bağışlamışdı.

– Onu nədən tanıyarsınız ki?

– Qızılından və qaşından. Qızılı ağ təhərdi, indi elə qızıllar yoxdur. Nazikdi həlqəsi, çox nazikdi. Brilyantının da içində kiçik, lap kiçik, iynə ucu boyda qara bir nöqtə var. Xüsusi diqqətlə baxmasan, görə bilməzsən.

– Yaxşı detallardı. Qoy bunları qeyd eləyim. – Hacı yazdı. – Bəs ikincisi nədi, Nadirə xanım?

– İkincisi bir yapon parçasıdı. Nazik, qırmızı ipəkdi. Yaponiyadan gətirmişdim. Ceyhunumun nişanlısı üçün saxlamışdım. Özü də bilirdi. – Bu sözləri deyəndə o, qeyri-iradi doluxsundu.

Hacı Nadirənin nəmlənən gözlərinə baxmamaq üçün başını aşağı salıb kağıza təzədən nə isə qeyd elədi. Nadirə titrək səslə davam etdi. Qalan şeylərin elə xüsusi bir əlaməti yoxdu. Onlardan hər kəsdə ola bilər.

– Elə bu ikisi də kifayətdi, Nadirə xanım. Bunlardan biri ələ keçsə, bəsimizdi. Çünki onu qüvvətləndirəcək başqa bir dəlil də var əlimizdə.

– Nədir ki, o?

– O lentdəki səsdi, Nadirə xanım. İndi, təzəliklə işimizdə səs ekspertizasından da istifadə etməyə başlamışıq. Səs – barmaq cizgiləri kimi inkaredilməz dəlildi.

– Barmaq cizgiləri bir-birinə oxşaya bilməz – bunu mən də bilirəm. Ancaq səs… səs oxşayır axı! Məsələn, mən anabala tanıyıram – bizim dostumuzdular – səsləri bir-birinə elə oxşayır ki, çox vaxt telefonda qarışdırıram.

– Ola bilər, Ancaq hər səsin özünə görə çaları və fərdi xüsusiyyəti vardır – Nə qədər oxşar olsalar da, bir məqamda, bir nöqtədə ayrılırlar, fərqlənirlər, Nadirə xanım. Odur ki, siz bu lenti yaxşı saxlayın, o, bizə lazım olacaq…

Nadirə heç nə demədi, başını yana əyib məlul-məlul Hacının üzünə baxdı. Hacı söhbətin bitdiyini bildirmək üçün ayağa qalxıb qovluğunu bağladı və indi yadına düşürmüş kimi:

– Bəs professor hardadı? – deyə soruşdu.

– Bağa gedib!

– Əhvalı necədi kişinin?

– Eh, necə olacaq? Nə özünü bilir, nə sözünü bilir. Yaxşı ki, o bağ varmış, yoxsa bağrı çatlardı. Əvvəllər key kimi idi – elə bilirdin heç bunun oğlu ölməyib. Amma vaxt keçdikcə yara göynədir, soyuduqca ağrısı daha da çoxalır…

– Böyük müsibətdi, Nadirə xanım. Yenə səbrli olmaq lazımdır. Gələndə məndən ona salam deyin, xahiş edirəm. Nədənsə o kişi mənim yaman xoşuma gəlib – mərd adama oxşayır…

Nadirə qəmli-qəmli gülümsünüb heç nə söyləmədi.

DÖRDÜNCÜ FƏSİL

May günəşi ağ buludların arası ilə axıb günbatana doğru gedirdi. Havada yüngül meh vardı, balkonun qabağında əkilmiş hündür, artıq qocalmaq üzrə olan çinarların körpə yarpaqlarını yüngülcə titrədirdi.

Şənbə günü olduğundan həyətdəki uşaq bağçasının qapıları bağlı idi, hay-küy yox idi. Ancaq üstü şiferlə örtülmüş «besedka»nın altında üç-dörd oğlan uşağı oturmuşdu, nə barədə isə danışıb gülürdülər. Hacı gedəndən sonra evdə qərar tuta bilməyən Nadirə bu səs-küyə balkona çıxmışdı, kədərli-kədərli onlara baxırdı. Neçə illər qabaq onun Ceyhunu da öz yoldaşları ilə tez-tez orada oturardı, onlardan biri gitara çalardı. Qəribə idi ki, Nadirə indi də o uşaqlara baxa-baxa gitaranın səsini eşidirdi və fikrən Ceyhunu da o sehirli gitara səsi qaytarıb bu uşaqların

arasına gətirirdi. Nadirə bir neçə dəfə az qala ağzını doldurub «Ceyhun» deyə oğlunu evə çağırmaq istəmişdi. Ancaq beynində, xəyalında birdən o gitara susmuş, əvəzində yarımçıq lent yazıları səslənmiş və ananın əlini-ayağını soyutmuş, dilinə qıfıl vurmuşdu. Burda da duruş gətirə bilməyən Nadirə otağa keçmiş, itiyi itmiş adam kimi ora-bura vurnuxmuşdu. Səhər tezdən dolma büküb asmışdı. Yarpağın xoş ətri evi başına götürəndə mətbəxə gəlib qazı söndürmüş, ac olduğuna, artıq nahar vaxtının çoxdan ötdüyünə baxmayaraq, qazanın ağzını da açmamışdı.

Hələ şənbə günü idi, deməli, Salman bu gün bağdan qayıtmayacaqdı, sabah da bütün günü orda qalacaqdı, axşam isə ya gələ, ya gəlməyə… Çünki, bəzən bazar günü də qayıtmırdı, yatıb birinci gün tezdən birbaşa işə sürürdü maşını… Lent məsələsindən hələ xəbəri yox idi Salmanın. Bu dərdi hələ tək çəkirdi Nadirə. Arada bir maqnitafonu da götürüb bağa getmək istədi, ancaq yol gözünə durdu – burdan trolleybusla «Baksovet» metrosuna get, ordan «Əzizbəyov» metrosuna, ordan da 72 saylı avtobusa min, Bilgəhə… Yol ona çox uzun, zəhlətökən və yorucu göründüyündən bu fikrindən daşındı. Həm də düşündü ki, Salmana deməyin də indi elə bir xeyri yoxdu, sadəcə onu da təzədən pərişan eləyəcək, vəssalam. Qoy öz fikirləri ilə, ürəyi ilə tək qalıb dincəlsin… Son vaxtlar onsuz da başı yığıncaq götürmür Salmanın, əsəbi olub, kəmhövsələ olub. Bəzən öz-özünə danışır, kimisə söyür, fikri dağınıq olub – qoyduğu şeyi axtarıb tapa bilmir… Eynək alnında ola-ola eynəyini axtarır, maşını açıq qoyub gəlir, maşını Akademiyanın qabağında qoyub evə piyada dönür… Nadirə bir qadın kimi, yaxşı başa düşürdü ki, son vaxtlar Salmana bir-birinin dalınca çox ağır zərbələr dəyib və buna hər kişi dözməzdi. Mirzə Yanarın əlyazması məsələsi, Gülmirənin o sərt çıxışı, İltifatın dönüklüyü, Nurəddinin onu didib-parçalamağa hazır olması, nəhayət, Ceyhunun gözlənilməz ölümü… Bütün bunlar dalbadal olmuşdu, Salman bir zərbədən özünü doğruldub qamətini düzəltməmiş, ikinci zərbə vurulmuşdu, sonra üçüncü, sonra dördüncü… Nadirə, əlbəttə, bu işlərin, bu dolaşıq-mürəkkəb düyünlərin içində

çaşıb qalmışdı, kimin haqq, kimin nahaqq olduğunu artıq təyin edə bilmirdi – çünki bu zərbələrin bir başı da hardasa onu da tutmuş və karıxdırmışdı. Aradan xeyli vaxt keçəndən sonra isə, tapılan bu lent yazısı Nadirənin yarasının qaysağını təzədən qopartmış, onu sarsıtmışdı. Səhərdən «Reyhan» adı beynində fırfır fırlanır, Nadirəyə rahatlıq vermirdi. O qadını təsəvvür eləmək istəyirdi, gözünün qabağında canlandırmaq istəyirdi. Ancaq səsindən başqa heç nə eşitmirdi, heç nə görmürdü. Bir dəfə isə, azca bundan qabaq yorulub-əldən düşüb, divanda uzananda Reyhan bəstəboy, xurmayısaç, qaynar baxışlı bir qadın kimi ani olaraq gözlərinə göründü. Qəribə idi ki, onun əynində Nadirənin keçən il Yaponiyadan məhz Ceyhunun adına alıb gətirdiyi o qırmızı ipək parçadan tikilmiş çox yaraşıqlı bir don vardı. Tükləri biz-biz oldu Nadirənin o anda. Qadın o qədər qəşəng, cazibədar və yaraşıqlı idi ki, oğlunun belə qız seçdiyinə görə qəlbini ani bir sevinc bürüdü… Lakin… bunlar xəyalmış, sən demə! Bir göz qırpımında hər şey uçub dağıldı, qadın da yox oldu, o gözəllik də, o qırmızı libas da… Nadirəyə isə ürəyini çalın-çarpaz dağlayan acı bir hiss qaldı. Sonra fikri dolanıb Hacı ilə söhbətinin üstünə qayıtdı. Qəribə idi ki, Hacı bu dəfə Nadirəyə heç bir təsəlli vermədi. Lent yazısını dinləyib qadının adını dəftərçəsinə yazdı, «oğru deyil bu, bu, qəsdən qətldi, qadın üstə qətldir!» – deyib, bir az ordan-burdan danışıb getdi. Nadirə bunun mənasını heç yerə yoza bilmirdi. «Bəlkə də lazım bilməyib. Bəlkə artıq kələfin ucu əlinə keçib. Hə, hə, elədi ki, var. Qızın adını eşidəndə o, nə isə canlandı, dirçəldi. Səsinə də çox böyük əhəmiyyət verdi Hacı. Səs ekspertizası deyirdi, nə deyirdi. Bu boyda şəhərdə bu qədər qadının səsini necə yoxlamaq olar?.. Yox, heç ağlım bir şey kəsmir…»

Divanda o biri üzü üstə çevrilib, «Kim ola bu Reyhan, ilahi?» – deyə özü də bilmədən ucadan soruşdu. Elə bil kimsə qabağında dayanmışdı və onun bu sualına indicə cavab verəcəkdi. Ancaq Nadirənin bir özü idi, bir dizi… «Yox, - o, ürəyində deyirdi – Yox, var o, hardasa bu şəhərdədi o qadın… Bunu Ceyhunun yoldaşları bilməmiş olmaz – Saleh, Samir bilməmiş olmaz.

Bu yaşda oğlanlar sirrlərini bir-birinə deyir axı. Heç ola bilməz ki, Ceyhun Reyhanla görüşdüyünü, elə bir qadınla tanış olduğunu Valehə, Samirə açıb deməsin. Niyə onda Salman Hacının ağzını yan saldı, qoymadı o uşaqları əməlli-başlı dindirsin. «Əlişir də, Süleyman da mənim dostlarımdı, o oğlanların ikisi də mənim gözümün qabağında böyüyüb, mənə «əmi» deyiblər… Yox, elə şeyi heç ağlına da gətirmə. Saleh, Samir oğru, qatil? Yox, Hacı, yox»…

«Onlar bilməmiş olmaz.» – fikri Nadirəni divandan qaldırdı. Asta addımlarla Ceyhunun otağına getdi, stolunun üstündəki balaca, qırmızı bloknotu götürüb asta-asta, adları oxuya-oxuya varaqlamağa başladı. Bu, Ceyhunun özünün şəxsən tanıdığı adamların telefon nömrələri yazılmış bloknot idi. Süleyman Vüsalın nömrəsi gözünə birinci dəydi. Əlində dəftər telefona sarı gedib onu götürərək divanda gəlib oturdu və necə soruşacağını götür-qoy edə-edə nömrəni yığdı. Dəstəyi bir qız götürdü. Güman ki, bu, Samirin bacısı Nərgiz idi:

– Salam. Samiri olar? – deyə Nadirə tanışlıq vermək istəməyərək kəsəcə soruşduqda Nərgiz:

– Samir yoxdu – dedi – Leninqrada gedib. Təcrübəyə. Bağışlayın, kimdi soruşan?

Nadirə cavab əvəzinə dəstəyi aparatın üstünə qoydu. Salehin telefonunu isə heç götürən olmadı.

Nadirə qolları qoynunda başını xalçalı divara söykəyib tavandan asılmış çilçırağa baxmağa başladı. Hava qaralmışdı. İçəri alatoran idi. Divar saatının yeknəsək çıqqıltısını bayaqdan eşitmirdi Nadirə. İndi eşitdi və əqrəblərə nəzər saldı, yeddiyə işləyirdi. Nadirə hələ qabaqda uzun bir gecənin olduğunu xatırlayıb hövülləndi. Ürəyi sıxıldı. Dəhşətli bir təklik hiss eləyirdi Nadirə xanım. İndi belə halında onun yanında dərd bilən, çox yaxın, başa düşən bir kimsənin olmağı necə də lazım idi? Amma yox idi. Ona canı yanan bircə bacısı Sədəf idi – o da ayağını bu qapıdan tamam kəsmişdi. İki ildən çox idi ki, nə atası Müseyib kişi, nə bacısı Sədəf, nə də Sədəfin oğlu Rəhim – Nadirənin dünyada qalmış ən yaxın adamları bu evə baş çəkməmiş-

dilər. Onun öldüsündən, qaldısından xəbərsiz idilər. Salmandan küsmüşdülər – o, öz kobudluğu ilə Müseyibin də, Sədəfin də qəlbinə toxunmuşdu, Rəhim isə Ceyhundan incimişdi. Nadirə neçə dəfə gedib ağlamış, yalvarıb-yaxarmış, «mənim sizdən başqa kimim var, gəlin-gedin, məni tək qoymayın!» – demişdi. Müseyib kişi isə, ürəyinə daş bağlayıb: «Sənin bircə Salmanın var, o bəsindi.» – deyə hirsindən, hikkəsindən dönməmişdi – «Biz yoxuq sənin üçün, bala» – «Mən vəsiyyət eləmişəm, mən öləndə o, mənim üstümə də gəlməsin, yoxsa…» – kişi qəhərlənib sözünün dalını deyə bilməmişdi. Bu söhbəti dinləyən, əlini çənəsinə dayayıb fikrə getmiş Sədəf də, çox istədiyi Nadirənin halına biganə qalmış, kəlmə belə kəsməmiş, nə üçünsə sakitcə ağlamışdı. Müseyib siqaret yandırıb, «Qabaqlar adamlar belə deyildi, bala. Qanacaq, mərifət vardı. Nə olar mən hambal olmuşam, nə olar mən indi qarovulçuyam, lap heç kəsəm – axı, mən də insanam, bala. Sən professorsan deyə gözümüzü deşəcəksən? Yox, siz başqa dünyanın adamları olubsuz. Sənin uşağın da bizi bəyənmir. Nə olar! Qoy bəyənməsin. Biz sizə yaraşmırıq, qoy yaraşmayaq.» – demişdi. Müseyibin bu sözləri Nadirənin ürəyini çalın-çarpaz dağlamışdı, yandırmışdı içərisini və daha heç nə demədən evdən çıxmışdı. Elə o çıxan çıxmışdı. Ceyhunun müsibətində heç biri gəlməmişdi. Nadirə heç cürə ağlına sığışdıra bilmirdi ki, onlar bilə-bilə gəlməyiblər. Yox, bu qədər kinli olmaz onun atası, bu qədər ürəksiz deyil bacısı. Nadirə özünü inandırmağa çalışmışdı ki, sadəcə xəbərləri olmayıb. Yoxsa gələrdilər, mütləq gələrdilər. Hərdən özünü danlayırdı ki, niyə o vaxt Ceyhun öləndə atasına, bacısına xəbər göndərmədi?! Niyə göndərmədi? Başını itirmişdi, adı belə yadından çıxmışdı. Ancaq bu, indi də onun ürəyini göynədirdi. Daha gec idi. Aradakı uçurum daha da dərinləşdi bu gəlməməklə! Nadirə öz təkliyi ilə barışıb oturdu. Əlindən nə gəlirdi ki?!

Nadirə divanda o tərəf, bu tərəfə çövrükə-çövrükə ürəyində götür-qoy eləyib yenə Gülmirənin üstünə gəldi, bir daha dərk elədi ki, aralarında yaş fərqi çox olsa da, bütün bu illər ər-

zində onun həmdərd, rəfiqə adına tanıdığı, üns bağlayıb meyl saldığı yeganə bir insan varsa da – o da Gülmirədi. Gülmirə həssasdı, dəyanətlidi, cəsarətlidi, o, qarşısındakı adamı yaxşı başa düşür, dərdli olduğunu bilincə özünü unudub onun ürəyi, həyatı ilə yaşayır. Nadirə Gülmirəni bu cəhətlərinə görə sevirdi, hörmət eləyirdi. Və bunu da heç vaxt yadından çıxartmırdı ki, o, əvvəllər, Salman dostunun qızı kimi ona havadar çıxıb. İnstituta gətirəndə, mövzu verəndə Nadirə bunun əleyhinə olmuşdu, qızın elmi qabiliyyətinə şübhə ilə baxıb Salmanı qınamışdı. Bu da yaxşı yadında idi ki, Gülmirə elm aləmində gücsüzlüyünü hiss eləyəndə, elə o vaxt Orxana sığınmışdı, onun təmənnasız məhəbbətinə pənah gətirmişdi. Nadirə yaxşı xatırlayırdı ki, Gülmirə Orxanın onu sevdiyi günlər necə də bəxtəvər sanırdı özünü, arxalı bilirdi özünü. Doğrudur, Gülmirə bu barədə ona heç nə söyləmirdi, ancaq Nadirə uşaq deyildi, sözsüz də hər şeyi başa düşüb anlayırdı, görürdü. Sonra, Orxan dünyadan köçəndən sonra Gülmirənin təkliyi, qəmli-kədərli günləri başlamışdı. Ancaq o, kədərin qabağında sınmamışdı, əyilməmişdi, elə bil ona inanmayanların hamısının acığına o, tamam dəyişmiş, özgə – cəsarətli, işlək, dözümlü bir adam olmuşdu. Dalbadal elmi məqalələri çap olunmuşdu Gülmirənin, müdafiə eləyəndən sonra isə elə bil ona yeni bir ilham, təzə, qüvvətli bir inam gəlmişdi, sanki tutulub daş-kəsək içində itmiş bir bulağın gözü açılmışdı. Lakin Gülmirənin üstünə bircə şey yaman kölgə salmışdı – o da Mirzə Yanarın əlyazması məsələsi idi, Salmanın üstünə ləkə salması idi. Bax, bu, onu həmişə düşündürürdü, xəcil eləyirdi. Salman ona heç nə deməsə də, qadın, onun gözlərinin içinə şax baxa bilmirdi. Nadirə bütün bunları düşünə-düşünə, lap yorulub əldən düşdüyü vaxt, bu qərara gəldi ki, Gülmirə bədbəxt qadındı, çünki təkdi, könül həmdəmi yoxdu. O, hardasa özü ilə Gülmirə arasında qəribə bir oxşarlıq görüb dərin fikrə getdi.

BEŞİNCİ FƏSİL

Amma belə deyildi. Gülmirə indi özünü çox xoşbəxt sanırdı – əlbəttə, bu xoşbəxtlik nisbi xoşbəxtlik idi, gözü-könlü tox olan Gülmirəyə bəs eləyəcək xoşbəxtlik idi. Əvvələn, Orxanın evinə köçməyi onun qəlbini xeyli toxtatmışdı, qəribə bir nisgil içində olsa da, Gülmirənin Orxansız günləri sona çatmışdı – fikrən, qəlbən Orxanlı idi o indi. İkincisi, Orxanın o zaman açıb-ağartmadığı o böyük məhəbbət hələ də bitib-tükənmirdi, davam eləyirdi. Məsələ burasında idi ki, Gülmirə dəmir qapısına «Orxan Əlizadə» sözləri yazılmış bu otaqlara köçəndən xeyli sonra, növbəti yır-yığışların birində, arakəsmənin üstündə düzəldilmiş taxçadan bir ümumi dəftər tapmışdı. Dəftər Orxanın əliylə yazılmışdı – hamısı şer idi. Onu tapanda Gülmirə böyük bir xəzinə tapmış adamdan çox sevinmişdi. Qəribə idi ki, dəftəri ürəyi atlana-atlana vərəqləyib axıra çıxanda özü də gözləmədən belə bir qərara gəlmişdi ki, bu dəftəri birdən-birə oxumayacaq. Tez qurtarar və sonra Gülmirə neyləyər? Hər gün, ya həftədə bir şer oxuyacaq və elə biləcək ki, bu şeri Orxan bu gün yazıb! Və beləliklə, o, Orxanın hər gün isti səsini, doğma sözünü eşidib sevinəcək. Bu isə, böyük səadət idi onun üçün. Qəlbi təzədən Orxana qarşı dərin, şirin bir duyğu ilə dolmuşdu. Qəribə bir sövqi-təbii ilə duymuşdu ki, Orxan bu şerləri onun eşqilə, onun üçün yazıb və bu, onun qəlbini kədər qarışıq bir sevinclə doldurmuşdu. Birinci gün, dəftəri tapdığı anlarda, gəlib miz arxasında oturaraq, birinci şeri – cəmi dörd misradan ibarət şeri oxumuş və gözləri yaşarmışdı:

Gəlmisən ömrümə qaranquş kimi,
Sənsiz gül açılıb, yaz ola bilməz.
Adını qəlbimə yazmışam, gülüm,
Dünya dağılsa da, pozula bilməz.

Sözlər diri idi, canlı idi, isti idi, elə bil bax bu dəqiqə otağın gözəgörünməz bir yerində dayanmışdı Orxan, bir az ilişikli, bir az qalın səsilə bu sözləri ona söyləyirdi. Gülmirə bu səsi

aydın eşidirdi. Əllərinin içi ilə gözlərini silib, ömründə ilk dəfə verdiyi qərara, çıxardığı hökmə əməl edə bilməyərək dalbadal bütün şerləri oxumuşdu. Sonuncu şeri oxuyanda artıq hava işıqlanırdı. Və bütün gecəni yatmadığına baxmayaraq, Gülmirə bu gecəni ömrünün ən xoş günü sayırdı – çünki Orxan, hətta sağlığında da Gülmirəyə bu boyda sevinc bəxş eləməmişdi. Hərdən, çox xəsisliklə, yəni utandığından çəkinə-çəkinə ona bir şer verəndə Gülmirə o gecəni səhərəcən yata bilmirdi. İndi isə… bu qədər şer… Və elə həmin gecə beynində, ürəyində arzu doğmuşdu – o şerləri, ümumiyyətlə, Orxanın qələmindən çıxan ədəbi parçaların hamısını toplamaq, makinadan çıxartmaq, yaxşı bir müqəddimə yazaraq ayrıca kitab şəklində çap etdirmək necə də gözəl olardı. Bu fikir Gülmirəni elə qanadlandırdı ki, iki-üç ay ərzində bütün işlərini kənara qoyaraq, həmin işlə məşğul oldu. Hətta Razin qəsəbəsinə, Orxanın ata evinə gedərək bacıları ilə görüşdü, Şirin arvadın ölümü münasibətilə başsağlığı verib, nəhayət, gəlişinin məqsədini söylədi. Orxanın böyük bacısı bu xəbəri eşidib hədsiz sevindi və mərhum qardaşının bütün kağızlarını, qovluqlarını onun ixtiyarına verdi. Gülmirə vaxtilə əzizinin əlləri, nəfəsi toxunmuş kağızları qəlb çırpıntısı ilə vərəqlədi. Üç hekayə və bir gündəlik tapdı. Gündəlikdə adda-budda şerlər də vardı. Gülmirə onları oxumadan evə gətirdi və evdə arxayın-arxayın oxudu. İlahi, bu necə məhəbbət imiş, necə yerə-göyə sığışmayan imiş! Bax, bu sevgi idi Gülmirəni xoşbəxt eləyən. Yeddi çap vərəqi həcmində bir kitab əmələ gəldi, Orxanın şəklini də əlavə edib əlyazmasını nəşriyyata təqdim elədi. Xoşbəxtlikdən nəşriyyatda bu təşəbbüsü alqışladılar. Nəşriyyatın direktoru sən demə, Orxanı yaxşı tanıyırmış. Onun vaxtsız ölümünə kədərlənənlərdən biri də elə o imiş. «Orxan ölməli oğlan deyildi, Gülmirə!.. Bizim kisəmizdən – elmin kisəsindən getdi Orxan. Sən yaxşı eləmisən ki, bu əsərləri toplayıb gətirmisən. Yazı, xüsusən yaxşı yazı bizim mənəvi sərvətimizdi. Onları qorumaq, çap etdirmək, gələcək nəsillərimizə çatdırmaq bizim vətəndaşlıq borcumuzdu, bacım. Mən

üstünü yazıram, gələn ilin planına salsınlar. Apar ver bədii ədəbiyyat şöbəsinin müdirinə.

Gülmirənin uçmağa qanadı olmamışdı onda. İndi isə o, yerə-göyə sığışmırdı – çünki Orxanın «Yadigar» adlı şerlər kitabı çıxmışdı. Elə bu gün işin axırında nəşriyyata gedib on nüsxə kitab gətirmişdi. Kitabı vərəqləməkdən doymurdu. Mətbəə, qurğuşun iyi ona dünyanın ən gözəl ətrindən də xoş gəlirdi. Servantın şüşəsi qabağında mehriban-mehriban ona baxan Orxanın şəklinin yanına bir nüsxə qoydu, çəkilib kənardan tamaşa elədi. Şəkil elə bil dil açmaq, nə isə demək istəyirdi, ancaq dodaqları tərpənmirdi, Gülmirə isə astadan, mükəddər bir səslə:

– Səni təbrik eləyirəm, Orxan, əzizim! – dedi. Sənin şerlərin çıxıb, əzizim. Gözün aydın, Orxanım.

Orxanın yenə dodaqları qımıldanmadı, ancaq otaqda, qayibanə bir səs gəldi Gülmirənin qulaqlarına:

– Sağ ol, Gülmirə!

Gülmirə necə də istəyirdi bu söhbət uzansın. Ancaq, daha heç nə eşidilmədi. Çörək də yemədən, stol arxasında oturub kitabı təzədən oxudu. Necə şirin idi bu kitab, aman allah. Bu, Orxanın – onun ən əziz adamının yadigarı olduğuna görəmi belə şirin idi, ya bu şeylər ona yazıldığına görəmi? Baş açа bilmirdi – çünki çox sehirli və dolaşıq hisslər aləmində çalıxıb çabalayırdı Gülmirə. Nadirəyə, Orxanın bacısına zəng eləyib onlara bu şad xəbəri çatdırmaq o zaman yadına düşdü ki, artıq gec idi, saat üçə işləyirdi.

Gülmirə durub soyundu, işığı söndürdü, yerinə girdi. Lakin gözünə yuxu getmədi ki, getmədi. Birinci, Orxanın bacıları gəlib durdu qabağında, ağıllı, istedadlı, yeganə qardaş itirmiş bacıların kitabı görərkən necə sevinəcəklərini təsəvvür eləyib kövrəldi Gülmirə. O biri yandan da Orxanın şerlərinin çıxdığını görəndə Nadirənin necə fərəhlənəcəyini (Nadirə mərhumun xatirini çox istəyirdi və haradasa qəlbinin dərinliyində etiraf edirdi ki, Gülmirə doğru deyir – Orxanı Salman öldürüb və bunu, ona heç cür bağışlaya bilmirdi), Salmanın pırpız qaşlarının

çatılacağını, İltifatın dodaq büzərək (o, indiki şairlərin heç birini bəyənmirdi, sevimli bir sözü vardı – «cəfəngiyyat» – onu ürəyi ağrımadan hamının ünvanına işlədirdi.) «cəfəngiyyatdı» deyəcəyini, o biri yoldaşlarının «Balam, bizdən xəlvət işlər görürsən.» söyləyəcəyini indidən görür və eşidirdi – çünki Gülmirə bu barədə indiyə qədər heç kəsə heç nə bildirməmişdi. Sadəcə istəməmişdi.

… Doğrudan da, səhərisi bütün institutda, xüsusilə şöbədə Orxanın kitabının çap olunması Gülmirənin gözlədiyindən də böyük səs-küyə, söz-söhbətə səbəb olmuşdu. İş başlayandan, camaat gəlib öz yerində oturandan az sonra, Gülmirə bazar zənbilində gətirdiyi səkkiz kitabı (birini Orxanın şəklinin yanında qoymuşdu, birini də özü üçün saxlamışdı) yoldaşlarının stolunun üstünə qoyaraq astadan, həyəcanını mümkün qədər boğmağa və yuxusuzluqdan qızarmış gözlərini gizlətməyə çalışaraq:

– Orxanın təzə kitabı çıxıb! – demişdi və yavaşca da çəkilib mizin arxasında əyləşmişdi. Hərəsi bir cür təbrik etmişdi Gülmirəni. Çünki titul səhifəsində «Toplayanı, tərtib edəni və ön söz müəllifi, filologiya elmləri namizədi Gülmirə Əlibəylidir.» – sözləri yazılmışdı. Sonra otağa sükut çökmüşdü. Orxanın şer dəqiqələri başlamışdı – hərə ürəyində dünənəcən yanlarında oturan, sakit, xeyirxah, gecə-gündüz ömrünü elm yolunda şam kimi əridən, birdən-birə, gözlənilmədən dəstədən ayrı düşüb üzülən Orxanın şerlərini oxuyurdu. Gülmirə gözaltı onlara baxırdı. Salman vərəqlədi, bir kənara qoydu kitabı, nə isə yazmaq üçün əlinə qələm aldı. Nadirə xanım uymuşdu, oxuduqca xışıltı ilə vərəqləri çevirirdi. Üz-gözündə xoş bir ifadə vardı. Gülmirə onun şersevən olduğunu çoxdan bilirdi və hamıdan fərqli olaraq Nadirə, üstəlik, bu şerlərin Gülmirəyə yazıldığından da xəbərdar idi. Gülmirə özünün böhranlı anlarında, Orxan öləndən sonra dəli olmaq dərəcəsinə gələndə dərdini, ürəyini açıb Nadirə xanıma demişdi. Nadirə xanım isə özünə xas bir mehribanlıqla: «Ürəyini mənə açdığın üçün çox sağ ol, Gülü – söyləmişdi. – Ancaq deməsəydin də, mən bunu bilirdim!» Gülmirə təəccüb

və heyrətlə qaşlarını yuxarı qaldırıb, «Nədən?» – deyə soruşanda o, «Belə şeyləri məndən heç kəs pünhan saxlaya bilməz, Gülü. Mənim gözlərim hər şeyi görmək qüdrətinə malikdi.» – deyib qımışaraq əlavə eləmişdi: «Bircə Salmanın ürəyindən, içindən başqa hər şeyi görə bilirəm!» Gülmirə utanıb başını aşağı salmışdı, «Qəribədi!» Nadirə indi yaxşı ki, susurdu. Gülmirə istəmirdi ki, o, fikrini indi söyləsin. «Sonra, ikilikdə danışarıq!» O, belə düşünə-düşünə İltifata göz yetirdi. İltifat da eynən Salman kimi, kitabın axırına, tirajına baxıb stolun üstünə qoydü və iri, qabağa çıxmış domba gözlərini dolandırıb Orxanın divardakı şəklinə nəzər saldı, sükutu pozaraq:

– Orxan bəlkə də yaxşı alim olub, bilmirəm, ancaq bir şair kimi çox zəifdi! – söylədi. Qəribə idi ki, onun bu sözləri kimə dediyi bəlli olmadı. Nadirə başını qaldırdı, cavab vermək istəyirdi ki, Gülmirə onu qabaqladı – çünki Gülmirə onun əlindən yanıqlı idi, bu özündən müştəbeh, ancaq özünə vurulan – dəyanət deyilən, mərdlik söylənən yüksək insani keyfiyyətlərdən uzaq olan bu «şairciyəz» şöbədə hamı kimi onun da gözündən düşmüşdü. Bəlkə bir az da artıq. Üz-gözündən sırtıqlıq, yaltaqlıq yağırdı. Üstəlik də çatana çatıb, çatmayana bir daş atan – hərəyə bir eşq elan eləyən İltifat, Gülmirənin fikrincə, daxilən çürük adam idi. Ona görə İltifata tutarlı cavab vermək, birdəfəlik susdurmaq lazım idi.

– Səhv eləyirsən, İltifat. Başqalarını deyə bilmərəm, amma o, səndən yaxşı şair idi. Sən hövsələni bas, o şerləri diqqətlə oxu, bizə açıq deməyə cəsarətin çatmasa da, öz vicdanınla təkbətək qalanda etiraf edəcəksən ki, Orxan səndən yaxşı şair olub. Halbuki, o, heç vaxt şairlik iddiasına düşməyib, ürəyi deyəndə, qəlbi dolu olanda yazıb bu şerləri.

İltifatın gözləri sola-sağa axdı, istehza ilə qımışdı, burnunu çəkib:

– Deyəsən sənin sevər yerinə toxundum, Gülmirə xanım – dedi.

Nadirə xanım bu dəfə Gülmirəni qabaqladı:

– Gülmirə düz deyir, İltifat. Orxan həm yaxşı alim idi, həm də yaxşı şair idi – səndən güclü şair idi. Səni aldadıblar, heç olmasa sən özün-özünü aldatma, bala. Həqiqətin gözünə dik baxmağa çalış. Mən xatırlatmaq istəmirdim, ancaq özün məcbur edirsən – Salmanın o vaxt sənin haqqında yazdığı məqalə başdan-başa yanlış idi, sənin yazıların barədə həqiqətdən çox uzaq idi. Əsil söz – o vaxt mənim dediyim sözdü, İltifat. Yadındadırsa, bunu özün də mənə yazdığın məktubunda etiraf eləmişdin o zaman. Orxan bir meteor idi, təəssüf ki, tez yandı, tez söndü, getdi. Təəssüf ki, Orxan bu nöqtədə dayandı, onun daha bir addım demirəm, heç yarım santimetr də irəli getmək imkanı yoxdu. Sənin isə var, sən hələ cavansan, hansınızın yaxşı şair olduğunu gələcək göstərər. Bir də açığı, mən özündən bədgüman, müştəbeh adamlara nifrət eləyirəm – bu, hər cür təvazökarlıqdan, etikadan, mədəniyyətdən uzaqdı. Mən başqa bir həqiqətə də inanmışam, İltifat. O da budur ki, şəxsiyyəti bütöv olmayandan, əqidəsi-məsləki aydın olmayandan, yaltaq, külək ha tərəfdən əsdi, yaş çubuq kimi o tərəfə əyilən adamdan yaxşı şair olacağına qətiyyən inanmıram. Acığına gəlməsin, mən səndən yaşca böyüyəm və elə bilirəm bu sözləri sənə deməyə haqqım var. İnciyirsən inci, amma inciməyib düşünsən xeyrinə olar.

Nadirə stulda yerini bir az da möhkəmləndirib ani fikirdən sonra əlavə etdi – hayıf ki, səndə müstəqillik deyilən şey yoxdur.

– Nadirə xanım… - o nə isə cavab vermək istədi, ancaq Nadirə əlilə susmasına işarə elədi:

– Qulaq as, İltifat… Mən hər dəqiqə belə danışan deyiləm. Baxıram, yığıram, dözürəm, sonra bir dəfə öz sözümü deyirəm. Ağıllı adam olsa başa düşür, ağıllı adam olmasa… özü bilər. Bax, sən… səni Salman gətirib bu instituta. Özün bilirsən niyə, kimin xatirinə. Özün də bir neçə müddət «Salman bizim böyük alimimizdir» deməkdən yorulmurdun iclaslarda. Aslanzadənin yanında Aslanzadəni tərifləyirdin. O gedəndən sonra – işdən çıxarılandan sonra onun adını yaxşılığa bircə dəfə də

çəkməmisən. Hələ fikir vermişəm – ondan söz düşəndə ağız da büzməyə başlamısan… İndi tərif və mədh gəminin üzünü ona tərəf döndərmisən. Mən demirəm ona hörmət eləmə. Yox! Ancaq… belə olmaz, İltifat. Sən cavansan, indidən özünü necə tanıtdırdınsa, ölənəcən o adı üstündən götürə bilməzsən, bala. – Nadirə səsini alçaldıb sözünü bitirdiyini bildirdi. İltifat qıpqırmızı pörtmüşdü, elə bil, indicə hamamdan çıxıb gəlmişdi. Hələ indiyə qədər ona camaat yanında belə toy tutan olmamışdı. Az qalırdı ürəyi partlasın. Elə sarsılmışdı ki, cavab verməyə belə söz tapa bilmirdi. Tərs kimi, Nadirənin yadına nə düşdüsə, təzədən üzünü ona tutdu:

– Hələ bir sıra başqa məsələlər də var ki, onlardan da əl çəkməyini məsləhət görürəm.

İltifat çaşdığından:

– O hansı məsələlərdi, Nadirə xanım? – deyə soruşdu və dərhal da səhvə yol verdiyini anladı. Soruşmasaydı, bəlkə də heç o, açıb ağartmayacaqdı. Ancaq gec idi:

–Bu kollektiv bizim ev-eşiyimizdi, İltifat. Burda izzət-hörmətlə oturub durmaq hamımızın borcudur. Bunlar – o, sağ əlilə oturan qadınları – Gülmirəni, Ümmügülsümü, Faziləni, Sarışını göstərdi – Bunlar sənin bacılarındı, bala.

İltifat Nadirənin nəyə işarə elədiyini o saat başa düşdü, özünü bir az da itirdi. Ümmügülsüm bu zaman «pıqq» elədi, Fazilə qımışdı. Gülmirə isə açıq bir fərəh içində gülümsünüb ağ, yaraşıqlı dişlərini göstərdi. İltifat civə kimi oynayan gözlərini dalbadal onların üzündə gəzdirdi, başını aşağı saldı. Söz güləşdirməyi yersiz sayıb susdu. Otağa dərin bir sükut çökdü. Gülmirənin ürəyindən Nadirə xanım tikan çıxartmışdı. O özü belə sərt deyə bilməyəcəkdi. Fərəh içində bayaqdan bu söhbətlərə sakitcə qulaq asan Sakit Aranlıya baxıb mehribanlıqla gülümsündü. Nadirənin sözləri ona da ləzzət eləmişdi. Bir vaxt, İltifat Nurəddinə şer həsr eləyəndə Sakit də ona öz sözünü söyləmişdi, ancaq imkan daxilində yumşaq, həlim, bir qələm yoldaşı kimi ürəyi yana-yana asta bir səslə. Lakin Sakit onun baxışlarından oxumuşdu ki, İltifat başa düşmədi dediklərinin mə-

nasını. «Özündən küssün, mən onu istədiyimdən dedim bu sözləri». İndi, aradakı sükutu Sakitin səsi pozdu:

– Çox xeyirxah iş görmüsən, Gülmirə. Sağ ol, Orxanın ruhunu şad eləməkdən başqa, oxucularımıza da yaxşı bir töhfə bağışlamısan. Nadirə xanıma, sənə baxanda bayaqdan ürəyin dağa dönüb, inanın. Bir çox kişilərimiz ziyalılığı, prinsipiallığı sizdən öyrənsin gərək.

Salman qələmi yerə qoyub Sakitə baxdı, ancaq heç nə demədi. Bayaq da, Nadirə onun adını çəkəndə də söhbətə qarışmaq istəmişdi, lakin susmuşdu…

Salman o gün bağdan qayıdandan, Nadirə çox tərəddüddən, götür-qoydan sonra, Ceyhunun təzə lent yazısının tapıldığını deyəndən, kişi inanmayıb o səsə, o söhbətə qulaq asandan bəri lal-dinməz olmuşdu – oğlunun səsini eşidib elə bil dili tutulmuşdu. Az danışardı, söz-söhbətə qulaq asardı, həssas adam, belə hallarda o dəqiqə kəsdirərdi ki, Salmanın özü burdadı, fikri başqa yerdədi. Neçə gündən sonra Salmanın belə qaradinməz olduğunu tutan Nadirə özünü hey danlayırdı – «Niyə dedim bunu ona?» – deyə təəssüflənirdi.

Ancaq iş-işdən keçmişdi.

İndi də Salman Orxanın təzə kitabını görəndə və bu kitabı heç kəslə, xüsusən onunla gənəşmədən Gülmirənin çap etdirdiyini biləndə ürəyində qəribə hisslər baş qaldırdı. Bu işi gərək o özü görəydi, hamıdan qabaq o Orxanın bədii yazılarını toplayıb çap etdirmək barədə düşünəydi. Necə olub ki, bu onun ağlına gəlməyib, ax, necə olub? Bunu Salman heç cür özünə bağışlaya bilmirdi. O, bu barədə düşünərkən Nadirə də, Sakit də gör nələr danışır. «Sənin belə olmağında Salman günahkardı.» – deyir Nadirə. «Bəzi kişilərimiz ziyalılığı, prinsipiallığı sizdən öyrənsin gərək.» – söyləyir Sakit. Adamlar qəribə olub, vallah.» – deyə ürəyindən keçirtdi və ayağa qalxıb otaqdan çıxdı. İltifat isə qarşısındakı vərəqdən başını qaldırmırdı.

ALTINCI FƏSİL

Əsəd yorğun-arğın xəstəxananın daş pillələrini aşağı düşüb arakəsməli, şüşəli qapıdan çölə çıxan kimi, ayaq saxlayıb bir siqaret yandırdı. Əhvali-ruhiyyəsi yaxşı idi. Xəzangülün səhhəti babatlaşdıqca Əsədin kefi durulurdu. Xəzangül yeyib-içir, rəngi-rufu açılır, üzünə həkk olunmuş əbədi kədər, əbədi bədbəxtlik ifadəsi dava-dərmanın, qayğının əlilə silinib yox olurdu. Sahilə də Əsədin gözünə yaxşı dəyirdi – qızın həyatı bir az nizama düşmüşdü. Daha az ora-bura qaçırdı, bütün günü dərsdə, evdə olurdu, axşamlar isə anasının yanına gəlib Əsədi azad edirdi. O, xəstəxanaya gələn kimi, palatada anasını çarpayısında uzanmış, Əsədi isə aşağı tərəfdə, kətilin üstə oturmuş görüb sevinc içində salam verirdi, yaxınlaşıb anasının üzündən öpürdü, Əsədin əhvalını xəbər alırdı. Yarım saat ordan-burdan, məktəbdən, xəstəxanadan söhbət eləyib, bir az deyib-güləndən sonra, Əsəd ayağa qalxır:

– Bax, xəstəmizi sağ-salamat sənə təhvil verdim, yoldaş gecə növbətçisi! – deyir və xudahafizləşib gedirdi. Xəzangül neçə dəfə ikisi bir yerdə olanda, keçmiş xatirələrin üstünə qayıtmaq, illər uzunu qəlbini, həyatını didib parçalayan «günahları»nı dilə gətirib yüngülləşmək, o ağır yükü birdəfəlik yerə qoyub rahat nəfəs almaq istəmişdisə də, Əsəd buna imkan verməmişdi, açıq-aşkar etirazını bildirmişdi:

– Yox, Xəzan, o barədə gəl danışmayaq, qurban olum. Hələ olmaz, həkim icazə vermir. Sonra, sonra… Eh, o qədər vaxtımız olacaq ki… o qədər danışacağıq ki…

Xəzangül Əsədin bu sözləri incikliklə yox, küskünlüklə yox, səmimi-qəlbdən, onu istədiyindən söylədiyini aşkar duyub susmuşdu və nə isə bunun özündə də qəribə bir canıyananlıq, məhəbbət görüb sevinmiş, qürrələnmişdi. Əsədin qarşısında bir neçə çətin məsələ dururdu: o, gecə-gündüz bu işləri necə həll edəcəyi barədə düşünürdü. Birinci növbədə Xəzangül ayağa durmalı idi, sağalmalı idi. Bu, ən ümdə qayğısı və dərdi idi Əsədin. Xəzangül sağalıb ayağı yer tutsa, o biri işlər asanlıqla düzələcəkdi. İkincisi, Sahilə bu il nəyin bahasına olursa-olsun

ali məktəbə girməli idi. İndi də, deyirdilər, danışırdılar ki, ali məktəbə düşmək olduqca çətinləşib. Oxumaq istəyən çoxdu, oxumaq, ali məktəb bitirmək zərurətdən çox, bir dəb halı alıb, hamı uşağını diplomlu görmək istəyir. Övladının başını, biliyini, savadını nəzərə almadan oxutmaq istəyir. Əsəd bir müəllim kimi, bu axında o qədər də ürəkaçan bir şey görmürdü, görə bilmirdi. «Ancaq ləyaqətlilər oxumalıdı, xüsusi həvəsi, qabiliyyəti, istedadı olanlar oxumalıdı, yoldaşlar. Vallah, bu yolla ki, indi biz gedirik, düz deyil, bunu sonra başa düşəcəyik ki, düz deyilmiş bu yol – axı bax, bu uşağın başı boşdu, oxumağa həvəsi yoxdu, niyə bunu döyə-döyə oxutmalıyıq biz?! Nəyin xatirinə, yeddi il, səkkiz il oxuyub, yazısı-pozusu var, qoy getsin özünə bir sənət, bir peşə qazansın, səhər ac qalmasın, ailəsini, özünü, balalarını dolandırsın, cəmiyyətimiz üçün faydalı bir işin qulpundan yapışıb faydalı bir adam olsun. Vallah, bu dövlətin, bu xalqın pulu hayıfdı ki, biz belə uşaqların təhsilinə xərcləyirik, özü də illər uzunu xərcləyirik. Nəticədə isə… heç nə qazanmırıq. Baxın, yoldaşlar, bizim hörmətli maarif şöbəsinin müdiri, bizi, biz müəllimləri danlayır, məsələn, mənə irad tutur ki, niyə sənin sinfində qiymət faizi aşağıdı? Axı, siz bilə-bilə özünüzü niyə aldadırsınız, yoldaşlar! Axı, mən oxumayan, oxumaq istəməyən, məktəbə zorla gələn və ya zorla gətirilən uşağa necə yüksək qiymət verim, vicdanımı necə ayaqlayıb keçim? Mənim iyirmi iki şagirdimin içində altı nəfər istedadlı uşaq var. Mən onların üstündə əsirəm, çünki bilirəm ki, onlar hansı məktəbin qapısına getsələr, əli boş qayıtmayacaqlar, uğurla imtahan verib daxil olacaqlar. Qalanları isə yox, yoldaşlar. Onlara xərclənən pul da havayı gedəcək, vaxt da. Hələ bu attestat balı deyilən şey… Bunu bilmirəm kim düşündü, kim çıxartdı? Bu, orta məktəbə, cəmiyyətimizə yad olan, Lenin yoldaşın nifrətlə damğaladığı rüşvət adlı bir mərəzin ayaq açmasına şərait yaradır, yoldaşlar. Ata-ana bir də görürsən müəllimin yanına toyuqdan, yağdan, cəmdəkdən, nə bilim xrustaldan – imkanına görə bir şey qapıb gəlir ki, amanın bir günüdü, müəllim, bizim nökər deyəsən filan fənndən bir az axsayır, onun

qiymətində gözün olsun, yəni yuxarı qiymət yaz… Bəzi müəllimlər də – xoşbəxtlikdən hələ aramızda belələri azdı – ətə, yağa, xrustala baxıb, «Onsuz da bu gədədən oxuyan olmayacaq, gedib kəsilib qayıdacaq, o biri yandan da direktor, maarif müdiri gözümü deşəcək ki, niyə sənin sinfində qiymət faizi aşağıdı. Sən axı müəllimsən, bəs sən başa baxırsan? – deyərək üzümü danlayacaqlar. Ona görə, müəllim hara yox, ətə, xrustala baxıb valideynə «yaxşı» deyir. Sonra nə olacaq olsun. Sonra isə çox pis şeylər olur, yoldaşlar!…»

« – Əsəd Əsədzadə yoldaşın bu günkü çıxışı mənim heç xoşuma gəlmədi. Mən maarif şöbəsi müdiri kimi, Əsəd müəllimin indiki çıxışını boş və əsassız bir şey hesab edirəm, bizim maarif sistemimizə böhtan adlandırıram, yoldaşlar!…»

« – Mən həqiqəti deyirəm, yoldaş Səlimxanov. Siz bu həqiqəti məndən az bilmirsiniz, intahası mən deyirəm, siz yox…» Halbuki məndən qabaq, bir kommunist kimi, sizin mənəvi vətəndaşlıq borcunuzdu ki, məktəblərimizdə, ümumən təhsil sistemində mövcud olan və getdikcə dərindən kök salmağa başlayan bəzi nöqsanları, mən deyərdim ki, yaraları bir sərraf gözü ilə görüb ümumiləşdirərək maarif nazirliyinə, lap Moskvaya yazasınız, səsinizi qaldırasınız, sözünüzü deyəsiniz. Amma siz susursunuz. Mən əlimin içi kimi bilirəm, sabah bu nöqsanlar kəşf olunanda, mətbuatda yazılmağa başlayanda siz də deyəcəksiniz – tamamilə doğrudur. Amma indi deyirsiniz böhtandır. Siz sadəcə gözləyirsiniz ki, yuxarıdan qaldırsınlar bu məsələni. Heç kəs demir, mən niyə deyim – prinsipilə yaşamaq kommunistin həyat prinsipi deyil, yoldaş Səlimxanov!»

Əsəd siqaretindən bir qüllab vurub fikirləşdi ki, bu iki daşın arasında inişil, hələ rayonda işlərkən, müəllimlərin avqust müşavirəsində olan bu söhbət niyə indi gəlib yadına düşdü? Hə, xatırladı – Əsəd qapıdan çıxan kimi, həyətdə sıramla əkilmiş söyüd ağaclarının altında qoyulmuş oturacaqların birində, tək-tənha əyləşib Xəzangülün yatdığı palatanın balkonuna baxan Ərəstunu görmüşdü. Bu, həmin Ərəstun idi ki, Sahiləni kölgə kimi addımbaaddım izləyirdi. Sinifdə də, küçədə də,

dəniz qırağında da… Əsəd onların məktəbində cəmi on-on beş gün davam eləyən müəllimliyi vaxtında və sonralar sahildə Xəzangülün kolyaskasından beş-on addım uzaqda görəndə də aydın hiss eləmişdi ki, bu yaraşıqlı, yaxşı geyinib-keçinən oğlan Sahiləyə vurulub… Ağıllı-başlı tanış ola bilməmişdi, araları hələ açıq olmadığına görə, qızdan da onun barəsində heç nə soruşmağa ürək eləməmişdi – Sahilə utana bilərdi. Ancaq son günlər Əsəd aydınca duymuşdu ki, qızın taleyi onu bərk narahat edir və qayğılarının içində bu, heç də az yer tutmur. Hardasa hərdən ona elə gəlirdi ki, Sahilə doğma balasıdı, ciyərparasıdı – Xəzangülün balası, onun balası – Əsəd üçün heç fərqi yox idi. Əsəd qəlbinin dərinliyində anlayırdı ki, Sahilənin həyat məsələsi – kimə rast gəlməsi, kiminlə ömür-gün yoldaşı olması, xoşbəxtliyi onun oxumağından da vacib məsələdi; Sahilə oxumaya da bilər bəd ayaqda – ancaq o, xoşbəxt olmalıdı, səadət içində yaşamalıdı – özü də iki qat xoşbəxtlik nəsib olmalıdı ona. Xəzangülün – anasının baş tutmamış səadətini də o yaşamalıdı. Buna görə də, Əsəd istər-istəməz, Sahilənin yolu üstə bitən bu yaraşıqlı oğlanla maraqlanmağı, onunla yaxından tanış olmağı qərara almışdı. Söhbət etmək, içini, ürəyini, xasiyyətini, ailəsini öyrənmək istəmişdi. Çünki bu, çox ciddi məsələ idi, Sahilə cavandı, təcrübəsizdi, hər addımda səhv eləyə bilər. Cavanlıqda atılan hər yanlış addım isə çox baha başa gəlir və sonra, bəlkə bütün ömrün boyu o yanlış addımın günahlarından, zərbələrindən qurtara bilmirsən. Hey əlləşirsən, vuruşursan, ancaq özünü düzəldib doğrulda bilmirsən. Əsəd bunu çox yaxşı başa düşürdü və buna görə Sahiləni qorumaq, yenə qorumaq istəyirdi.

Əsəd, qəribə idi ki, bu yaraşıqlı oğlandan yaman nigaran idi. Sifətində bir sırtıqlıq vardı Ərəstunun. Özündən razı, arxayın, yoldaşlarına, ətrafındakılara yuxarıdan aşağı baxmaq əlamətləri görürdü onda Əsəd və bu, onu heç açmırdı. Bu da çox maraqlı idi ki, Əsəd onu görəndə özündən asılı olmayaraq o zaman, iyirmi il əvvəl, gözlənilmədən Xəzangüllə onun yolunun üstünə çıxmış, qızıl dişləri, qızıl saatı ilə göz qamaşdırıb

onların həyatını zülmətlərə qərq eləyən o arıq, uzun, şıx geyinmiş oğlanı – Mürsəli xatırlayırdı və nə qədər çalışırdısa, bu oxşarlığı qəlbindən, beynindən çıxarıb qova bilmirdi. Əsədə elə gəlirdi ki, Ərəstun da onun kimidi, onun kimi olacaq və bundan yaman həyəcanlanırdı. Nə idi bunun səbəbi? Əsəd çox düşünəndən sonra tapmışdı – bax, bu Ərəstun deyilən oğlan idi, onuncu sinifdə oxuyur, amma layka geyir – qara rəngli layka hardasa Əsədin gözündə Mürəslin qızıl dişləri kimi, qızıl saatı kimi göz qamaşdırırdı. Qara layka və parıltı! Bunun altında gizlənən mənanı axtara-axtara Əsəd hələ heç bir təsəvvürü olmadığı Ərəstunun ailəsinə gedib çıxırdı. Onuncu sinifdə – layka geyən uşaq! Bu, lazımdımı? Bu, bizim məktəb sisteminin mahiyyətinə uyğundumu? Yox. Bax, bu da, Əsədə görə, bu günkü məktəbin, attestat balı kimi, qiymət fason kimi çox mühüm problemlərindən biri idi. Və bunun qarşısını almaq lazımdı. Müəllimlər görəsən hara baxır? Əsəd bu az müddətdə yaxşı müşahidə eləmişdi – məktəbə pudra-kraska, brilyant üzük, par-par yanan sırğalar yol açıb gəlib – doqquzuncu, onuncu siniflərdə oxuyan qızların yanaqlarında, gözlərində, barmaqlarında, qulaqlarında. Layka plaşlar gəlib!.. Ərəstunların əynində! Məktəbli sadə geyinməlidi, məktəbli bir-birindən geyiminə-keçiminə görə yox, başına, biliyinə görə fərqlənməlidi. Bu məsələni – məktəblərə ayaq açmış bu qızıl-gümüş, bər-bəzək məsələsini demək, qaldırmaq lazımdı, bunun kökünü məktəblərimizdən kəsmək gərəkdi. Çünki bu, uşaqlar arasında həsəd, qibtə deyilən çox pis mərəzin doğulmasına səbəb olur – onuncu sinifdə oxuyan uşaqların hamısı Ərəstun kimi layka plaş geyə bilmir. Geyə bilən bir, iki, geyə bilməyən çox. Və bu, onların arasında gözəgörünməz, dərin bir uçurum yaradır, onların arasına bir sədd çəkir. Bu isə lazım deyil. Əsədə görə, bu, təkcə müəllim, məktəb qayğısı deyil – bu, eyni zamanda valideyn qayğısıdı. Valideyn düşünməlidi, özü də çox ciddi düşünməlidi bu barədə. Əsədin fikrindən «valideyn» keçən kimi, bu ilin sentyabrında o, öz doğma məktəbində təzəcə işləməyə başladığı vaxt, məktə-

bin direktoru Aliyə xanımın sinfində – dördüncü sinifdə baş vermiş bir hadisə yadına düşdü.

Aliyə xanım sinifdə sərbəst yazı işi veribmiş. Şagirdlərin dəftərini axşam evdə yoxlayanda Şəmayil adlı bir qızın dəftərində qəribə bir yazıya rast gəlir. Uşaq iri, muncuq kimi yanyana düzülmüş hərflərlə yazıbmış: «Aliyə müəllimə, mən bir şeyi heç cür başa düşə bilmirəm. Bizim ailəmiz beş nəfərdən ibarətdir – iki qardaşım, atam, anam, bir də mən. Anam işləmir – evdar qadındır, qardaşlarım sizin məktəbdə oxuyur. Atam…. İdarəsində işləyir və yüz otuz beş manat maaş alır. Siqaret çəkəndi atam – ancaq «Malbora» siqareti çəkir – o Amerikan siqareti var ey, ondan. Gündə iki qutu gücnən çatır ona. Dediyinə görə, o siqaretin bir qutusu Kubinka bazarında beş manatadı. Demək, gündə atam on manat siqaretə verir. Bu, ayda – hesab eləmişəm – üç yüz manat eləyir. Təzə maşın da alıb atam – «Qaz-24». Ha fikirləşirəm, o yüz otuz beş manatı bölürəm, bölürəm, görürəm, ailəmizin xərclədiyindən çox az çıxır, heç ödəmir, müəllimə. Bəs atam nə eləyir ki, bu yüz otuz beş manat bu qədər xərci ödəyir, müəllimə?»…

Aliyə xanım Şəmayilin bu sərbəst yazısını oxuyub çaşmışdı. Səhər müəllimlər otağında bu əhvalatı danışanda kimi gülmüşdü, kimi isə dərin fikrə getmişdi. Müəllimlərdən biri demişdi: «Sağ ol, Şəmayil». O biri qəzəblə dillənmişdi: «O dəftəri eləcə qoyun konvertin içinə, göndərin Xalq Nəzarəti Komitəsinə! Bu sualı Şəmayil də, biz də həll eləyə bilmərik, ancaq Nəzarət Komitəsi tez həll eləyər, Aliyə xanım!»

Aliyə xanım çox götür-qoydan sonra, yaxşı tanıdığı valideynə zəng edib yanına çağırtdırmışdı, yazı işi ilə onu tanış eləmişdi. Qızın atası, əlində maşının açarlarını oynada-oynada gülmüş, «Aliyə müəllimə, siz belə şeylərə fikir verməyin. Axı, siz bilirsiz, o uşaq bir az xəstə kimidi. Bəzən nə dediyini, nə elədiyini bilmir» - deyib getmişdi. Ancaq səhər Şəmayil, müəllimlər otağına gəlib ağlaya-ağlaya Aliyə xanıma söyləmişdi: «Müəllimə, bəs siz deyirsiz, düz danışın, düşündüyünüzü deyin. Bəs … onda … atam məni niyə döyür? Deyir: «Boyunu yerə

soxum. Sən də evladsan? Mən sizin xatirinizə özümü oda-közə vururam! Çörəyim gözündən gəlsin»…

Müəllimlər otağında hamının üstünə su çilənmişdi. Aliyə xanım irəli yeriyib qızın sarı saçlarını sığallamış, könlünü almaq istəmişdi. Əsəd Şəmayilin göz yaşlarına dözə bilməyib dəhlizə çıxmışdı və düşünmüşdü ki, bu heç yaxşı hadisə deyil. Aliyə xanım gərək o yazını atasına yox, o ağbaş müəllim deyən kimi, bir baş Xalq Nəzarəti Komitəsinə yollayaydı. Əsəd o atanı – valideyni şəxsən tanımırdı, ancaq ona gün kimi aydın idi ki, o, halal çörək yemir, kimdisə əyri yoldadı, sənin, onun, dövlətin cibinə girir. Əsəd üçün bu, məsələnin zahiri, rəsmi tərəfi idi, ancaq bundan da ciddi bir cəhət var idi ki, burda, o, Əsədi çox narahat eləyirdi. Bu da işin mənəvi tərəfiydi – Şəmayil hələ uşaqdı, müəllimlər, məktəb ona düz danışmağı, fikirləşdiyini söyləməyi təlqin eləyib – lakin həyatda Şəmayil başqa şey gördü – düz danışmağın ilk acı zərbəsini daddı və yəqin ki, onun zərrə-zərrə, aylarla, illərlə beyninə hopdurulmuş «düzlük», «təmizlik» məfhumu, anlayışı bir anda, o bir zərbə ilə uçulub dağıldı. Sındı, qırıldı onun şamı. Bax, bu, böyük itkidi.

Elə xəstəxananın qapısı ağzında, siqaret çəkə-çəkə Əsəd, qəribə bir fikir aydınlığı ilə, iyirmi il əvvəl gördüyü o qızıldiş, qızıl saatlı Mürsəli, sonra Şəmayilin atasını, daha sonra isə, bax o oturacaqda əyləşib gözünü balkona zilləyən Ərəstunun kimliyini, nəçiliyini bilmədiyi atasını xəyalında canlandırdı, onları gətirib yan-yana düzdü və bir-birinə hardasa, nədəsə çox oxşadıqlarını açıq-aşkar gördü və üşürgələndi. Əsəd indi nəyə desəydin and içə bilərdi ki, ömründə bir-birini görməyən bu üç adam bir yuvanın quşudu, yaşları, sənətləri ayrı olsa da, onlar əkiz qardaşlar kimi bir-birinə çox oxşayır…

Əsəd siqareti böyründəki zibil qabına atıb, çoxdan izlədiyi, maraqlandığı Ərəstunu dişinə vurmaq üçün, ona sarı addımladı. Ərəstunun fikri-zikri balkonda olduğundan Əsədi görmürdü. Əsəd gəlib yanında oturanda salam verdi:

– Salam, Ərəstun.

Ərəstun bu gözlənilməz səsdən və salamdan səksəndi, çevrilib Əsəd müəllimi görəndə çaşan kimi oldu.

– Salam…

– Nədi, sizin də xəstəniz var burda? – deyə Əsəd qəsdən, onun məhz Sahiləyə görə bura gəldiyini əlinin içi kimi bilə-bilə uzaqdan başladı. Ərəstun Əsədin sözünü o dəqiqə göydə qapdı, «Sizin xəstəniz.» sözündən yapışıb əlüstü bir yalan quraşdırdı.

– Hə, müəllim. Bir dostumun atası yatır. Ona dəyməyə gəlmişik. Əsəd yenə bir siqaret yandırdı, sümürə-sümürə fikirləşdi ki, «gör nə ustalıqla yalan danışır?» - və dedi:

– Xəstəyə dəyməyə gəlmisən, bəs niyə burda oturmusan? Niyə içəri keçmirsən? Buraxmırlar?..

– Hə, buraxmadılar ikimizi birdən.

– İstəyirsən, buraxdırım?

– Yox, sağ olun. İndi gələr oğlan…

«Bu da bir yalan! Buraxmırlar!»

Əsəd xeyli susub:

– Yaxşı, dərslərin necə gedir? – deyə soruşdu.

– Gedir də…

– Hara girmək istəyirsən qurtarandan sonra?

– Hələ heç bilmirəm. Paxan deyir gəl bizim instituta.

Əsəd məqamı əldən vermədi, onun «paxan» sözünə gülümsünərək:

– Paxanın hansı institutda işləyir ki?… - deyə tələsik xəbər aldıqda Ərəstun baxışlarını balkondan üzmədən:

– Xalq təsərrüfatında… - söylədi.

– Hə, ora yaxşı institutdu. Kimdi sənin atan?

– Qulam. Professor Qulam Qulamzadə…

– Ha, eşitmişəm, eşitmişəm…

Əsədin fikri, yaddaşı uzaqlara, tələbəlik illərinə uçub getdi. O dəfə Sakit Aranlı ilə xudmani oturub əməlli-başlı söhbət eləyəndə tələbə yoldaşlarını xatırlamış, kimin harda, nəçi işlədiyini, kimin öldüyünü yada salmışdılar. Onda da məlum olmuşdu ki,

Əsəd öz sinif yoldaşlarından başqa çox az adam tanıyırmış və demək olar ki, sonralar onların heç birini heç yerdə görməmiş, söhbət eləməmişmiş. Amma Sakitin yaddaşı maqnitafon lenti imiş, sən demə. Hər şey, ən kiçik bir hadisə, ən gözəgəlimsiz tələbə, ən ötəri bir müəllim belə yadından çıxmamışmış. Hətta özündən aşağıda, yuxarıda oxuyan uşaqları da xatırlayırdı Sakit. Onun söhbətindən Əsəd bilmişdi ki, həmin uşaqların bir çoxu indi elm aləmində, sənət aləmində tanınmış adamlardı. Riyaziyyat fakültəsində oxuyan yaraşıqlı, ucaboy, şəkli şərəf lövhəsindən düşməyən Arif Babazadə indi akademikdi. Tofiq, Yaşar, Famil filologiya elmləri doktorlarıdı. Ağacavad, Abbasəli, Arif, Şamil alim və şairdilər. Hə, bax, Sakit bu adamlardan danışanda Qulamı da yad eləmişdi və hətta ondan daha çox danışmışdı. Məsələ burasında idi ki, bu Qulam çox zirək, üzlü, ucda yeyib ortada gəzən, dərslərini ölmə-diril oxuyan bir tələbə idi. Rayondan gəlmişdi, dediyinə görə, böyük bir ailənin ən kiçik oğlu idi. Dalıyca gələn, pul, yemək-içmək göndərən demək olar ki, yox idi. Bircə kartof ümidimə yaşayırdı. Yataqxanada yaşayan Qulamın heç nəyi də olmasa, həmişə kartofu var idi. Bir dəfə yarı zarafat, yarı ciddi yoldaşlarından birinə demişdi. «Bu il düz üç ton kartof yemişəm». Dostu gülüb: «Ə, elə şey olmaz, bir ildə üç ton kartofmu yemək olar?» – deyəndə o da qımışıb, «Heylə yox ey, bir azını faktiki olaraq yemişəm, qalanını da satıb yemişəm» – söyləmişdi. «Hə, bu, başqa məsələ!»

Sonra Qulam iki şeylə daha çox yadda qalmışdı; hardansa Qulamın əlinə bir dənə palazqulaq, nömrəsi cırılıb oxunmayan bir yüzlük düşmüşdü. Hansı mağazaya, dükana aparmışdısa, heç kəs yaxın qoymamışdı. Yüzlük əlində qalan, özü isə yeyib-içmək istəyən Qulam çox maraqlı, qəribə bir üsul tapmışdı. Rast gəldiyi bir tələbəyə; «Yaman acımışam, girək bu Şərq restoranına, bir loxma çörək yeyək.» – deyərmiş. Tələbə də gedərmiş, Gətir, götür, ye, iç… Pul vermək məqamı gələndə Qulam şəstlə əlini cibinə salanda qonağı deyərmiş: «Ə, dayan, mən verəcəyəm!» «Nə danışırsan, ay kişi, səni mən dəvət eləmişəm. Əlini çıxart cibindən.» – deyib cırıq yüzlüyü qoyun ci-

bindən çıxarıb şappıltı ilə stolun üstünə atırmış. Ofisiant pulu götürürmüş, qatını açıb o yan-bu yanına baxanda, «Cavan oğlan, bu cırıq puldu, bunu mən götürə bilmərəm.» – deyib qaytarırmış. Onda Qulam böyük təəccüblə, «Heylə şey olmaz, canım, necə yəni cırıqdı»» - deyib pulun ora-burasına baxırmış: «Bay atana lənət, necə paçka basıb ey, köpək oğlu. Mən də fikir verməmişəm». Qonağı məcbur olub yemək-içməyin pulunu ödəyirmiş. Səhər bir başqa tələbəni yanlayıb başqa bir restorana dəvət edirmiş. Belə-belə, şəhərin restoranlarının çoxunda başqalarının hesabına yaxşıca yeyib-içirmiş Qulam. Ancaq bu, çox davam eləmir. Söz-söhbət tələbələr arasında yayılır. Zarafatcıl bir tələbə Qulamın növbəti «qonaqlığı» zamanı o, əlini cibinə atıb o pulu çıxardan kimi qamarlayıb ofisiantın gözünün qabağında tikə-tikə eləyib kül qabına atır. Qulam qışqırır: «Ə, neylədiyindi? Ə, sən neylədin? Mənim çörək ağacım… Vay səni!»

Bu hadisədən sonra Qulamın cibində pulu olanda da, ürəklə çörək yeməyə dəvət eləyəndə də heç kəs onunla heç yerə getmirdi.

İkinci hadisə də pulla bağlı idi. Ancaq bir az başqa cür. Məsələ bunda idi ki, o biri fənləri ala-babat bilsə də, bu «siyasi iqtisad» fənnindən heç nə başa düşə bilmirdi. Burdan oxuyurdu, ordan yadından çıxırdı. Professor Bəhmən Bəhmənov isə çox ciddi, tələbkar adam idi, bu çətin elmi elə həvəslə, elə şirin izah eləyirdi ki, ən küt adam belə bir şey götürə bilərdi. Qulam ondan yaman qorxurdu. O iki saatı –Bəhmən müəllim sinifə girib çıxanacan Qulam ürəyini yeyirdi. İmtahan vaxtı əsə-əsə gedib bilet çəkən Qulamın suallarının birincisi «Pulun vəzifələri» imiş. Qulam oturub başını çox sındırır, «Ayə, pulun çörək ağacı olmaqdan başqa nə vəzifəsi ola bilər ki? Ver, al, vəssalam». Ancaq Qulam pulsuzluqdan o qədər yanmışdı ki, özündən pula bir tərif verdi iki daşın arasında. Professor ondan birinci suala cavab istəyəndə Qulam «Nə ola-ola, risk eləyəcəyəm» – deyə düşünüb:

– Professor, pulun kitabda yazılmış vəzifəsini söyləyim, ya özüm verdiyim tərifini deyim? – mızıldanmışdı.

Professor maraqlanmışdı:

– Sən özün pula tərif vermisən?

– Bəli, professor.

– Maraqlıdır. De görək!

Qulam, «Ay Allah, özün məni bu kişinin qılıncından sovuşdur» düşünüb qorxa-qorxa:

– İndiyə qədər məndə olmayan və indi iki versəniz yeddi ay da olmayacaq şeyə pul deyilir, professor. – demişdi.

Professorun xırda gözləri gülüş içində itmişdi, Qulamın bu «kəşfi»nə gülə-gülə bir üç yazıb daha heç nə soruşmamışdı və universitetdə oxuduğu illər ərzində təkcə o semestr təqaüd ala bilmişdi.

Sakitin dediklərindən bu da aydın olmuşdu ki, Qulam elə o vaxt hansı bir professorunsa qızı ilə tanış olmuş, az sonra evlənmişdi. Onu qurtaran kimi aspiranturaya saxlatdırmışdılar. Özü də hansı sahə üzrə - siyasi iqtisad elmi üzrə. Buna Əsəd heç cür inanmaq istəməmişdi. Özünü uzaqdan tanıdığı, haqq-salamları olmasa da, əməllərini ordan-burdan eşitdiyi Qulam və siyasi iqtisad! Əsədin inanmadığını görən Sakit: «İstəyirsən inan, istəyirsən inanma. Həmin Qulam indi iqtisad elmləri doktorudu. Görsən heç tanımazsan. Mən hərdən şəhərdə, Akademiyada, Xalq Təsərrüfatı institutunda görürəm. Düzdü, əlaqəmiz yoxdu, ancaq tanıyıram ki, bu, həmin Qulamdı…» – deyib söhbəti dəyişmişdi.

Əsəd sadəcə, «Vallah möcüzədi» – deyərək fikrə getmişdi. İndi bu layka geyib özünü çox bərbəst aparan Ərəstun həmin Qulamın oğludursa… nə bilmək olar, bəlkə heç o, Əsədin, Sakitin tanıdığı Qulamın oğlu deyil. Nə çoxdu Qulam bu şəhərdə?!

Əsəd üçün bu hələ mühüm deyildi. Əsəd indi ayrı şeyi öyrənmək istəyirdi – odur ki, öskürüb Ərəstunun diqqətini özünə cəlb elədikdən sonra dedi:

– Yaxşı, Ərəstun, indi sən daha uşaq deyilsən. Sənlə elə bilirəm açıq danışmaq olar.

Ərəstun:

– Nə barədə, müəllim? – soruşdu maraqla.

– Sahilə barədə. Mən hiss eləyirəm… Sən onu… sən onu istəyirsən, elə deyilmi?

Ərəstun dodağının altında nə isə mızıldandı, ancaq Əsəd heç nə başa düşə bilmədi.

– Yəqin fikrin ciddidir. Ancaq mən sənə bir cəhəti xatırlatmaq istəyirəm, bala. Onun anasının vəziyyətini görürsən. Sən mənim bir sualıma cavab ver. Onun – o kolyaskadakı arvadın əzabına-əziyyətinə dözəcəksənmi, onun qayğılarına tab gətirəcəksənmi?

Gözləri balkonda, qulaqları Əsəddə olan Ərəstun, adi bir şey haqqında söhbət gedirmiş kimi, çox laqeyd halda:

– Əh, onun nə ömrü qalıb. Bu gün-sabah ölüb gedəcək. – söylədi.

Əsədin başına elə bil bir qazan qaynar su tökdülər. Nitqi batdı kişinin. Və çox pərişan halda, bu ürəksiz oğlana heç nə demədən, qalxıb ağır addımlarla Ərəstundan uzaqlaşdı. «Allah eləsin Sahilə bu gədəni sevməsin. Yoxsa bədbəxt olar. Necə də vicdansızdı, qəlbsizdi bu, ilahi? Yox, yox. Mən Sahiləni sənə vermərəm, vermərəm. «Bu gün-sabah ölüb gedəcək»… Necə asanlıqla dedi o bu sözləri?» Bir insanın ölümü haqqında necə asanlıqla dedi, ilahi?»

YEDDİNCİ FƏSİL

İltifat o gündən – Gülmirə Orxanın şerlər kitabını şöbəyə gətirəndən az sonra Nadirənin o «acı» sözlərini eşitdiyi gündən heç cür özünə gələ bilmirdi, hirsindən, hikkəsindən nə evə-eşiyə, nə küçəyə, nə də institututa sığışırdı. Hərdən elə hövllənirdi, elə əsib-coşurdu ki, gözləri bir az da irəli çıxıb bərəlirdi. Kimsə ilə danışmırdı. Təkcə Sarışınla hərdən nə isə pıçıldaşırdı. Həmən gün, Nadirə İltifatı «yıxıb sürüyəndən» iki saat keçmiş Elvira dəhlizdə onun qabağını kəsib:

– Niyə ağzına su alıb susdun, İltifat? O nə karədi ki, sənə elə sözlər söylədi. Sənin atandı, anandı, ya nəyindi? Borclusan,

yanında gözü kölgəlisən nədi ki, ağzını da açmadın? – deyə İltifatı o ki, var danlamışdı. – Yox, sən zəif adam imişsən.

– Birin bilirsən, birin bilmirsən, Elvira – deyə İltifat pərt halda burnunu çəkmişdi. – Qabaqda Salman var. Orda ancaq susmaq lazım idi. Əsas günahkar Sakitnən Gülmirədi. Onların məni görən gözü yoxdu. Sakit paxıllıqdan heç bilmir neyləysin. Gülmirə də… Orxana görə… Orxanın ünvanına kim nə desə qız qırğı kimi atılıb gözünü deşməyə hazırdı. Sevir də kişinin qızı…

– Qadam onun ağzına, ölünün nəyini sevir?

– Deyir o, bir çox sizin kimi dirilərdən ləyaqətlidi. Nə bilim, deyir də…

Birdən Elvira dönmüşdü, sərtləşmişdi:

– Bura bax, o düzdü ki, sən Ümmügülsümə, Faziləyə, Gülmirəyə şer yazmısan?

– Onu kim deyir?

– Eşitdim də.

– Əh, onlar nədi ki, mən onlara şer də yazım? Onlar sənə paxıllıq eləyirlər, Elvira. İnan buna. Sən hiss eləmirsən, amma mən hiss eləyirəm – biz danışanda, mehriban olanda heç bilmirlər həsəddən neyləsinlər

Elvira İltifatın bu yalanına dərhal inanmışdı.

– Qoy yanıb-yaxılsınlar! Özlərini gözəl hesab eləyirlər.

– Sən mənim gözümdə hamıdan gözəlsən, ceyranım – demişdi İltifat və çıxıb getmişdi. Elvira isə onun bu sözlərindən qanadlanıb işin qalan saatlarını havalı kimi, gah dəhlizdə, gah otaqlarda gəzmişdi.

Evdə Afərin ərinin qanının qara olduğunu görüb əl-ayağa düşmüş, böyür-başına çox keçmiş, ancaq bir sirr ala bilməmişdi. İltifat «kefim yoxdur» – deyərək iş otağına keçmiş, divanda uzanmış, gözlərini tavana zilləyib xeyli düşünmüşdü. Sonra qalxıb Nadirə xanıma özünün dediyi kimi «öldürücü bir həcv yazmışdı», bir az keçmiş isə boş və mənasız olduğunu, Nadirəni tutmadığını görüb cırıb atmışdı. Sonra Orxanın şer kitabını «Diplomat» çantasından çıxarıb oxumağa başlamışdı. Yanına

qələm-kağız qoymuşdu, nəzərinə çatan nöqsanları qeyd eləmək istəmişdi. Gülmirənin acığına Orxanın kitabına bir tənqid yazmaq fikri onu xeyli sevindirmişdi. «Darmadağın eləyəcəyəm bu kitabı. Qoy Gülmirə bilsin ki, onun Orxanı böyük şair deyil, adicə qafiyəpərdazdı. Çap elətdirəcəyəm.»… Oxumuşdu şerləri, kitabı axıra çıxanda ayılıb görmüşdü ki, qabağındakı vərəq bomboşdu, heç nə yazmayıb. Kitabı kənara atıb yenə divana uzanmışdı. Orxanın şerləri barədə düşünmüşdü. Bu şerlər lirik şerlərdi, sevə-sevə, böyük məhəbbətlə yazılmışdı. Şer yazmaq xatirinə qələmə almamışdı Orxan bunları. Sonsuz bir həsrət, ülvi bir sevgi çırpınırdı o misraların içində; od vardı o sətirlərdə, ürək yanğısı vardı. İltifat bunları bərkdən deməsə də, dilinə gətirməsə də, qəlbində etiraf eləyirdi. Çox əlləşib-vuruşandan sonra bu kitaba bir irad tutmuşdu: «Mövzu məhdudluğu… həyatımızın ictimai məsələləri, müasirlik yoxdu bu əsərlərdə. Birbirinin dalınca gələn lirik şerlər oxucunu yorur»…

Çox götür-qoy eləyəndən sonra İltifat Orxanın kitabı barədə məqalə yazmaq fikrindən daşınmışdı. Səbəbi də bu olmuşdu ki, kitabı başdan-başa zəif, sönük bir kitab adlandırmaq olmazdı. O belə yazsaydı da, heç kəs onu çap eləməzdi. Gərək heç olmasa bir neçə səhifə Orxanın şerlərinin məziyyətlərindən, ülvi hisslər tərənnüm və təlqin etdiyindən yazaydı… Bunu isə o, eləyə bilməzdi – ürəyi qoymazdı, əli yazmazdı, dili deməzdi… Amma, ürəyində Orxana qarşı özünün də tam dərk eləyə bilmədiyi bir qibtə hissi çırpınırdı. Ölüyə qibtə idi bu! Bu həqiqəti qəbul eləmək çətin idi onun üçün – Orxan öləndən sonra da ondan qüvvətli və qüdrətli idi. Orxan sağlığında gör necə sevmişdi ki, aradan illər keçməsinə baxmayaraq, Gülmirə hələ də o oda isinir, o sevginin həzinliyi, ülviliyi, müqəddəsliyi ilə yaşayırdı. Gülmirə üçün Orxan hələ də sağdı. Bu, doğrudan da qibtə olunmalı bir səadət idi; üstündə əsilməli, qiymətləndirilməli, ömür həsr edilməli bir məhəbbət idi. İltifat döyüşdən sınıq çıxmış, məğlub bir əsgər kimi, küskün-küskün Gülmirə-Orxan məsələsinin üstündən fikrində xətt çəkmişdi. Sonra Sarışının sözlərini saf-çürük eləməyə başlamışdı. Nadirə xanım da üstü-

örtülü deyəsən elə buna işarə eləmişdi. «Demək, bu satqınlar bir-birinə xəbər veriblər. Ay sizin boyunuza qəmiş ölçüm. Yaxşı deyiblər, qadının hülqumu olmaz, qadın sirr saxlaya bilməz… Bunlarla ehtiyatlı olmaq gərəkdi»… İltifat bütün şöbənin mövqeyini ölçüb-biçmiş, hörmətinin laxlayıb uçduğunu anlamışdı. Sarışından başqa heç kəs xətirini istəmirmiş, sən demə. Əsas adamlar – Salman, Nadirə, Gülmirə, Cəfər, Ümmügülsüm, Fazilə onunla çox soyuq danışıb dərdləşirdi. Onların içində az-maz Gülalı ona mehribanlıq göstərirdi. Ancan bunu İltifat özünə dərd eləmirdi: «Cəhənnəmə hörmət eləsinlər mənə! Gözlərim atırdı. Əsas Aslanzadədi – o mənim dalımda durandan sonra bunlar kimdi ki. Adicə peşkadı bunlar. Aslanzadənin ətəyindən bərk yapışmaq lazımdı. Kişinin çox böyük nüfuzu var, özü də xətrimi yaman istəyir… Şöbədəkilər də elə ona görə məni gözümçıxdıya salıblar. Yoxsa mən neyləmişəm onlara?»… İltifat bu neçə günü belə düşünmüş, nəhayət, toxtamışdı.

… Direktorun kabinetinin qabağından keçəndə İltifat Nurəddinlə rastlaşdı, özünü yığışdırıb dolu bir salam verdi.

– Salam, Nurəddin müəllim.

– Ay əleykə… - deyə Nurəddin kefi kök halda cavab verdi. – Nə təhərsən, ay şair.

– Sağ olun, Nurəddin müəllim. Yaxşıyam…

– Gəl içəri, görək nə var, nə yox.

Özü qabaqca, İltifat arxasınca kabinetə daxil oldular. Nurəddin stolunun dalına keçib əyləşdi:

– Otur görək.

İltifat çox böyük sevinc içində divanın dibindəki kresloda əyləşdi – çünki Nurəddin əlilə o kreslonu göstərmişdi. İltifat yerini rahatlayınca Nurəddin bir siqaret yandırdı və açıq qapıya üz tutub ucadan:

– Ay qız, Sürəyya, ordan iki stəkan çay təşkil elə bizimçün. – dedi və üzünü İltifata çevirdi. – Şöbənizdə nə təhər gedir işlər? – İltifat özünü toplayıb cavab verməmiş Nurəddin əlavə elədi – Nə isə sizin şöbədən yaman nigaranam, İltifat. Bir direktor kimi məni düşündürür sizin şöbə…

İltifatın çiçəyi çırtladı. Məqamı, fürsəti əldən vermək olmazdı. Bir halda ki, direktor özü də nigarandı, onda hər şeyi açıq-saçıq danışmaq olar. Ancaq bir məsələ vardı ki, Nurəddinin onların şöbəsinin məhz nəyindən nigaran olduğunu İltifat dəqiq təyin edə bilmirdi – hələlik ona bircə şey gün kimi aydın idi: - Nurəddinin o şöbənin iki əsas işçisindən – professor Salman Qurbanzadədən və onun arvadı Nadirə xanımdan zəndeyi-zəhləsi gedir – vəssalam. O, «nigaranam» deyəndə də yəqin ki, elə bunları nəzərdə tutur. Ancaq bunlar çox azdı – Sakit də, Gülmirə də az aşın duzu deyil. Bunu Nurəddinə başa salmaq vacibdi, yoxsa sonra kişi inciyə bilər, niyə vaxtında xəbər eləməmisən – deyər. İltifat çox yaxşı duymuşdu ki, ər-arvaddan başqa, Sakit və Gülmirə də Nurəddinin iş üsulundan, adamlarla rəftarından çox narazıdı. Salman, Nadirə kimi bunu açıq deməsə də, narazı olduqlarını da gizləməyə çalışmırdılar.

İltifat həm-hüm eləyib fikrini cəmləşdirənə qədər balaca boy, arıq, ağ paltar geyib, qara saçlarını boynunun ardında burub düyünləmiş bir qız əlində iki armudu stəkanda çay gətirdi. Birini Nurəddinin, o birini isə İltifatın qabağına qoydu və laldinməz çıxıb getdi. Gümüş qənddan elə stolun üstündə idi – Nurəddin sol əlilə qənddanı İltifatın qarşısına itəlidi.

– Təzə katibə götürmüsünüz deyəsən, Nurəddin müəllim? – deyə İltifat çox məmnun halda – zarafat deyildi, akademik Nurəddin Osmanzadə kimi adlı-sanlı bir alim onun üçün də çay gətizdirmişdi. Kaş indi İltifatın «nədənsə səni heç kəs sevmir, hörmət eləmir, sirrini başa düşə bilmirəm!» – deyən arvadı Afərin bu dəqiqə burda olaydı, görəydi ərinin necə hörməti var» - kreslosunu irəli çəkib soruşduqda Nurəddin ağzına bir konfet atıb:

– Hə, – dedi – Şərqiyə iki il staj toplayıb bu il instituta girdi. Yeri boş idi. Bilirsən də, idarə katibəsiz keçinə bilmir. Dostumun qızıdı. Bu il balı çatmadı, instituta düşə bilmədi… Götürmüşəm, qoy işləsin, gələn il girər.

– Yaxşı eləmisiniz, Nurəddin müəllim. – İltifat Nurəddinin çayını içdiyini görüb ürəkləndi, o da stəkanı götürdü, bir

qurtum vurub: - Tamamilə düz deyirsiniz, Nurəddin müəllim. Bizim şöbə son vaxtlar, daha doğrusu, siz direktor təyin olunandan sonra məni də narahat eləməyə başlayıb. – dedi. – Düzü, mən bir şeyə yaman heyrət eləyirəm.

– Nədir o?

– Vallah, adamın dili də gəlmir, amma gərək deyəm.

– De, de. Mən hər şeyi bilmək istəyirəm, İltifat. Bu idarədə kimin nəynən nəfəs aldığını, qarnının altında nə olduğunu bilməsən, əsla işləmək mümkün olmaz. Mən dostumu, düşmənimi tanımalıyam.

– Tamamilə düz deyirsiniz… Mənim demək istədiyim budu ki, bizim şöbənin əsas adamları hesab olunanlar – başda Salman olmaqla, sizin direktor gəlməyinizdən yaman əsəbiləşiblər. Hərdən mənə elə gəlir ki, Salman özü direktor olmaq istəyirmiş. Nə isə planı varmış – siz pozubsunuz. «Canım, belə direktorluq olmaz axı?» – deyir tez-tez Salman. Lap elə siz birinci gün işə çıxanda, balaca bir çıxış elədim ey mən, hə, bax, onda kişi az qalırdı məni öldürsün. Düzdü, üzümə bir söz demədi, ancaq gözlərindən oxudum ki, məni tikə-tikə eləməyə hazırdı. Paxıl adam imiş. Müsəlman paxıllığı içini gəmirir Salmanın. Nadirə də ərindən geri qalmır. Partkom kimi, az qalır hər şeyə burnunu soxsun. Peşimansan bir söz deyəsən. O saat başlayır ki, nə bilim kommunist prinsipiallığı belə gəldi, vicdan elə getdi.

– Hə, o irəli mənim üçün də elə bir vəzzariyyət oxudu. Bilirəm, onu Salman qızışdırır. Mən partkomam, mən cavabdeham, nə bilim nə… hayıf, o vaxt Salmanın məsələsini bir yana çıxarda bilmədiniz. Yoxsa, atasını yandıracaqdım onun. Əgər o vədə Mirzə Yanar məsələsini sübuta yetirə bilsəydik, Nadirənin də dili gödək, gözü kölgəli olardı yanımızda, eləyə bilmədik, çox heyif… Mən nə isə Gülmirənin dediyi versiyaya daha çox inanıram.

– Mən də, professor. Əgər elə olmasaydı, Salman ondan sonra da bir fərli-başlı, yadda qalan əsər yazardı. Amma yoxdu,

xırda-xuruş məqalələrlə başını girləyir… Son on beş-iyirmi ildə bir dənə sanballı kitab üzə çıxarda bilməyib.

– Elədi. Sən mənim fikirlərimi bir az da qüvvətləndirirsən, İltifat. Mən də hiss eləmişdim Salmanın könlündən direktorluq keçirdi. Ancaq o, boynunun ardını görəndə, direktorluğu da görər. Bu il partkom seçkilərində Nadirəni də qoyacağam yeşikdə… Bu ər-arvad çox özbaşınalıqlar eləyirlər. – Nurəddin çayını içib qurtardı, yenə siqaret yandırdı. Bu, İltifatın nəzərindən qaçmadı:

– Nə çox siqaret çəkirsiniz, ay Nurəddin müəllim. Ziyandı sizə, canınıza hayıfınız gəlsin… Siz bizim elmimizə lazımlı adamsız. Özünüzü qoruyun…

– Əsəbdəndi. Hər gün əsəbiləşirəm. Hərənin ağzından bir avaz gəlir. Çəkməsəm, ürəyim partlar.

– Partlasın səni istəməyənlərin ürəyi. – İltifat bu sözləri büzülüb söylədi və sifətində elə bir ifadə yarandı ki, elə bil bu dəqiqə həqiqətən Nurəddinin ürəyi partlayacaqdı. – Elə deməyin, iraq canınızdan…

Nurəddin ayağa qalxdı, gəlib pəncərədən küçəyə ani bir nəzər yetirib geri döndü və:

– Bəs o qız, nədi onun adı, hə, Gülmirə, o neyləyir? – deyə İltifatdan ətraflı məlumat almaq mümkün olduğunu qət edib mətləb üstünə gəldi. – O necədi?

– Gülmirə tamamilə Nadirənin təsiri altındadı, Nurəddin müəllim. Nadirə hansı havanı çalsa, o da qol götürüb o havaya oynayandı.

– Amma o dəfə, Salmanı ifşa eləmək istəyəndə, nə isə mənə cəsarətli adam təsiri bağışladı o qız.

– Zahirən elə ola bilər. Ancaq savadsızın, kütbeyinin biridi. Həm də özbaşınadı, professor. Deyəsən sizin xəbəriniz yoxdu, təzə bir kitab çap elətdirib.

– Nə kitab? – deyə Nurəddin tələsik soruşdu.

– Orxanın şerlər kitabını çap elətdirib. Toplayıb, müqəddimə yazıb, Orxanı az qala klassik kimi qələmə verib. Toplayır

deyəndə ki, heç yerdən toplamayıb. O şerləri Orxan onun özünə yazıb, hamısını ona yazıb. Bilmirəm, bilirsiniz, ya bilmirsiniz, Orxan onu sevirmiş…

– Hə?

– Bəli. Hamısı şəxsi şerlərdi, arxiv üçün yazılmış çiy, sanki cəfəngiyyatdı. Bunları götürüb nəşr etdirib. Heç kəsə də deməyib. Nə Salmana, nə Nadirəyə. Heç olmasa mənə desəydi, bir az əl gəzdirərdim, ağzın-burnun düzəldərdim. Necə olmasa, o, professional deyildi də. Mənə də göstərməyib. Biz heç, bir direktor kimi gərək sizə mütləq deyəydi. Bu, saymazlıqdı, məncə. Ümumiyyətlə, o qız, böyük-kiçik yeri bilən deyil…

– Bəs niyə o bir adama ərə getmir? Mən bilən, neçə ildi onun əri ölüb…

– Ərini sevmirmiş, deyilənə görə. Orxanı sevirmiş. İndi də oturub onun xəyalı ilə yaşayır.

– Qələmi, qabiliyyəti nə təhərdi o qızın?

– Nə deyim, Nurəddin müəllim. Elə bir kəsərli qələmi yoxdu. Adi bir elmi işçidi mən bilən. İstedadı, alim müstəqilliyi olsaydı Cəfərin Füzuli avtoqrafı kəşfini öz adına çap etdirməyə qətiyyən razılıq verməzdi. Mən inanmıram Salman bu işdə onu məcbur eləmiş olsun – böhtana oxşayırdı. Salmana da atdığı böhtanı sübut eləyə bilmədi. Demək, ona-buna böhtan atmaq o qızın təbiətində var. Səhər mənə də, sizə də yalandan bir şər ata bilər. Mən bir şeyə təəccüb elədim: - o vaxt Salman niyə onu məhkəməyə vermədi? Gülmirəyə bu şərinə görə əməlli-başlı cəza düşürdü. Ancaq Salman nə üçünsə susdu. Guya alicənablıq elədi…

– Yox, o, Nadirə ilə çox yaxındı. Yəqin Nadirə qoymayıb.

– Axı bu, təkcə şəxsi iş deyil, professor. Bu, həm də ictimai məsələdir. Gərək institutun müdiriyyəti onu cəzasız buraxmayaydı – ona yaxşıca bir dərs verəydi. Bu, onun özünə də, başqalarına da ibrət olardı. Sabah o da, onun kimiləri də belə qələt eləməzdilər. Sözü demə, dedin sübut elə. Mən belə başa düşürəm, professor.

Nurəddin gəlib oturdu:

– Bu, çox mürəkkəb məsələdi, İltifat. Sən, görürəm, yaxşı oğlansan, ancaq təcrübən hələ azdı, bir çox şeyləri hələ bilmirsən. Daha doğrusu, bir tərəfini bilirsən, bir tərəfini yox. Salman sənin, mənim düşündüyüm kimi ağılsız adam deyil. Yerin altını da bilir, üstünü də. Yüz ölçməsə, bir biçmir. Deyirsən, niyə məhkəməyə vermədi Gülmirəni. Axı burda təkcə Gülmirə məsələsi deyil, bala. Bax, sən, Gülmirə, Gülalı əlyazmalarını oxuyub rəy yazmışdınız. Min faiz əmin idiniz ki, Salman oğrudu və buna məni də inandırmışdınız. Rəyə siz qol çəkmişdiniz, mənə də o özü lap axırda qol çəkdirdi – rəy də bu. Saat da ondadı. O, Gülmirəni məhkəməyə versəydi, deməli, bizim hamımızı da məhşər ayağına çəkməli idi. Deyəcəkdilər, yaxşı Gülmirə bizim adlısanlı professorumuza böhtan atıb – siz də onu müdafiə eləmisiniz. Demək, siz də böhtançısınız, böhtanın ayaq tutub yeriməsinə kömək eləmisiniz. Onda biz də cavab verməli olacaqdıq…

– Deməli, bu işi eləməməklə Salman bir güllə ilə iki dovşan vurub, hə?

– Bəli, bala. Məhz bir güllə ilə iki dovşan. O elə bir diplomatik xod eləyib ki, hələm-hələm adamın ağlına gəlməz. İndi Gülmirənin də onun yanında dili gödəkdi, sizin də. Qol çəkdiyimə görə elə mənim də…

– Belə de… Burasını mən heç fikirləşməmişdim, professor.

– Çox güman ki, o, bizim kimi belə primitiv düşünməyib. Ola bilər o daha dərin düşünüb – buna Salman qadirdi. Həmin rəyi Salman yəqin ki, qarovulda saxlayıb. Vaxtı gələndə... ortalığa çıxarda bilər.

– Mənə elə gəlir ki, o, bu məsələdən bərk yapışardı. Oğlunun ölümü başını qarışdırdı. Yoxsa Salman yıxdığının başını kəsməsə, ayağa duran adama oxşamır… Düz tapmısınız, Salman həyatda hamı ilə, hətta arvadı ilə də mürəkkəb kombinasiyalarla dolu şahmat oynayır. O Sakit də təxminən elə adamdır.

– Hə? – Nurəddin Sakitin adını eşidən kimi yerində dəbərişdi, qurcalandı – Mən onu yaxşı tanımıram. Kənardan fikir verirəm, sakit adama oxşayır.

– Yox, yox, professor. Onun buynuzları içəridədi, ürəyindədi. Deyirlər, boyu balaca adamın ürəyindən gündə üç dəfə allahlıq iddiası keçər – Mənə elə gəlir ki, gündə yox, saatda üç dəfə allahlıq iddiası keçir Sakitin ürəyindən. Özü barədə çox yüksək fikirdədi. Elə bil, alçaq dağları bu yaradıb. Dörd-beş dənə kitabçası çıxıb, heç bilmir neyləsin… Yazdıqları da bir şey olsa, adamı yandırmaz. Cəfəngiyyatdı hamısı.

– Elmi necədi onun?

– Sıfır. Alim deyil, boş yer tutur institutda. Hökumətdən ayda filan qədər pul alır, elmi iş görmək əvəzinə, oturub roman yazır. Nə vaxt gəlirsən, görürsən oturub elə hey yazır. İstəyirsiniz, bax elə bu saat duraq gedək şöbəyə, onun qabağındakı kağızları götürək, baxaq. Onların arasında bir səhifəlik elmi iş tapsanız, mən adımı dəyişərəm, Nurəddin müəllim. Bir sözlə, nə alim kimi alimdi, nə yazıçı kimi yazıçı. Ümumiyyətlə, heç ziyalı deyil Sakit!

… Qəribə idi, elə bu anlarda, dəhlizin o başındakı otaqda Sakit ortalıqda gəzinə-gəzinə (hamı tənəffüsə çıxmışdı, təkcə Gülmirə öz yerində oturmuşdu, əli üzündə onu dinləyirdi) danışırdı:

– Ziyalı məsələsi məni çox düşündürür, Gülmirə. Deyəsən, elə ömrümün axırına qədər də düşündürəcək. Qələm sahiblərimizin bəzisi kəndi, kolxozu, kəndli psixologiyasını yaxşı bilir, bəzisi zavodu, şəhəri, fəhlə həyatını. Mən bilmirəm -– xoşbəxtliyimdi ya yox – bu ziyalı problemindən qopub ayrıla bilmirəm. Maraqlı aləmdi, çox maraqlı aləmdi, Gülmirə. Yazılmamış, qatı açılmamış bir kitabdı bu aləm. Ziyalı kimdi? Ziyalı mənim aləmimdə, bir nur parçasıdı, işıqdı, günəşdi. Xalqın düşünən beynidi, görən gözüdü, danışan dilidi, yazan əlidi. Xalqın sabaha, gələcəyə gedən yolu, gecələr stolunun arxasında oturub ürəyini şam kimi əridən ziyalımızın beynindən keçib gedir, gözünün nuru ilə işıqlanır. Tarix boyu o xalqlar ağ günə

çıxıb, öz azadlıqlarını, varlığını, mənliyini qoruyub saxlaya bilib, yadların başına qılınc endirib, müqəddəs vətən torpağını gülüstana döndərib ki, ağıllı, uzaqgörən, özü üçün yox, torpağı, milləti üçün yaşayan qeyrətli ziyalı oğulları olub. Bizim xalqımızın dünən də ağıllı, vətəndaş ziyalıları var idi, bu gün də var və mən inanıram, sabah da olacaq… Elmimiz, ədəbiyyatımız, musiqimiz, nəqqaşlığımız dünyaya səs salıb – dünyanın indi harasına getsən, bu xalqın səsini-sorağını eşidərsən və ürəyin dağa dönər. Bunları bizim ziyalılarımız eləyib, Gülmirə. Ona görə, mən ziyalı adı gələndə müqəddəs, fədakar, əlçatmaz, qeyri-adi bir möcüzə göstərməyə, sehrə-əfsuna qadir bir varlıq qarşısındaymışam kimi papağımı çıxardıb min ehtiramla baş əyirəm. Üzeyir möcüzə deyil? Səməd möcüzə deyil? Sənətkar möcüzə deyil? Yusif Məmmədəliyev möcüzə deyil? Adı dünya astrofizika elmində Qalileylə yanaşı yazılan, öləndən sonra eşitdiyimiz Nadir İbrahimov möcüzə deyildi?.. Hansını sayım. Saymaqla qurtarmaz, Gülmirə… - Sakit vəcdə gəlmişdi, saydığı adamların heç birini şəxsən görməmişdi, kəlmə kəsməmişdi, amma elə bil, atası haqqında, qardaşı haqqında, lap onlardan da əziz bir adamı haqqında danışırdı. Danışdıqca mavi gözləri parlayırdı, həzin, ləzzətin ən yüksək məqamına çatmış adam kimi arıq sifəti işıqlanırdı; Gülmirə elə bil nağıla qulaq asırdı – bu şeylər hardasa ona da məlum idi, çox adama məlum idi – yəqin o vaxt Orxan da bunları bilirdi, indi yəqin Salman da, Nadirə də bilir – ancaq indiyəcən onların heç biri hamıya aydın bu həqiqət barədə belə şirin, belə ürəklə danışmamışdı Gülmirəyə. Gülmirə bəlkə həyatında ilk dəfəydi ki, azərbaycanlı olması ilə fəxr eləyirdi – bu ana qədər insan olması ilə, sevməsi ilə, təmizliyi ilə çox öyünmüşdü. Ancaq indi, Sakiti dinlərkən ürəyinə axıb dolmuş iftixar hissi bunların hamısından uca idi, güclü idi, sehrli idi. Heyrət eləyirdi ki, niyə bu vaxta qədər bu duyğu onun qəlbində baş qaldırmayıb, niyə belə məhdud düşüncələr aləminə qapılıb yaşayıb? Niyə? Niyə? Və gör nə qədər adam – lap oxumuş olsun – bu uca hisslərdən uzaq ömür sürüb, yaşayıb, ölüb gedib? Bu ləzzəti dərk eləmədən gedib? Gülmirə bu

fikrin qarşısında dəhşətə gəldi, qorxdu və ani xəyaldan ayrılıb Sakiti qarşısında görərkən bir az toxdadı. Və sonra xatırladı ki, Sakitlə həmişə danışanda, söhbət eləyəndə o, daxilən zənginləşib, hardasa ayılıb, bir şey görüb-götürüb. Təbiətcə çox sakit, adiliyi, sadəliyi ilə başqalarından heç də seçilməyən Sakit hər dəfə Gülmirə üçün yenidən kəşf olunub, təzələnib, seçilib, ayrılıb. Sakit Gülmirənin tanıdığı adamlara əsla bənzəmirdi – hardasa az-çox Orxana bənzəri vardı Sakitin. Həlimlikdə, sadəlikdə, ciddilikdə, qayğıkeşlikdə ona oxşayır Sakit. «Torpağı sanı yaşasın» – deməyi də unutmurdu Gülmirə belə anlarda. O, bunu da özünə yəqin eləmişdi ki, Sakitlə hər dəfə (belə hallar az-az olurdu) bu cür məhrəmanə söhbətlər eləyəndə bir kitab oxumuş hesab eləyirdi özünü. Adi kitab yox, düşünülmüş, ütülənmiş, xəbəri-mübtədası yerində olan kitab yox, həyat kitabı, bəlkə həyatın özünü, böyük dünyanın kiçik bir parçasını görürdü, mütaliə edirdi, qavrayıb düşünürdü Gülmirə. Mənən durulurdu, saflaşırdı. Və bütün vücudunda bir yüngüllük hiss eləyirdi. Elə sanırdı, dünyaya təzəcə gəlib, hələ ömür qabaqdadı, hələ şirin günlər, göz yaşardan sevinclər irəlidədi. Dünya dönüb yaşamalı, doyulmaz olurdu Gülmirə üçün. Onun aləmində Sakitin kitabları da elə idi – özünə bənzəyirdi. Yazılarını oxuyanda o, nəyisə sevirdi – görünür bu, Sakitin özünün də sevdiyi idi – nəyəsə nifrət eləyirdi – görünür, bu da Sakitin nifrət elədiyi idi. Ona görə Gülmirə Sakitin təbiəti ilə kitabları arasında uçurum yox, fərq yox, eynilik, vahidlik görürdü. Sakit necə vardı, eləcə idi, gizlənmirdi, heç nəyini də gizləmirdi. Hərdən Gülmirəyə elə gəlirdi ki, Sakitin beyninin, ürəyinin içini beş barmağı kimi bilir – çünki o, beynindəkilərin, ürəyindəkilərin hamısını, heç bir şeyi pərdəyə bürümədən, məhrəm adamına deyirmiş kimi, kağızın üstə tökür, hamıya söyləyir. Sakitin ürəyi kağızında, Sakitin ürəyi, düşüncəsi dilində, gözlərindədi.

Sakit bir anlığına sözünə ara verərək gəlib pəncərənin qabağında dayanmışdı. Küçəyə, həyətə, çarhovuza tamaşa eləyirdi, sanki dediklərini həzm eləmək üçün, düşünmək üçün Gülmirəyə imkan, vaxt vermək istəyirdi. Əlləri ciblərində idi

Sakitin. Kürəyi şax idi, saçlarına dən düşmüşdü. Çiyinləri aramla, asta-asta qalxıb enirdi. «Görəsən Sakitin arvadı necə adamdı? Gözəldimi, ağıllıdımı, başa düşürmü Sakiti? Belə kişinin arvadı xoşbəxt olmalıdı. Onunla yüz il qoşa, yanaşı yaşamaq olar, amma yorulmaq, bezmək, usanmaq olmaz». – Gülmirə belə fikirləşdiyindən səksəndi. Nə üçünsə, çox zaman ona elə gəlirdi ki, Sakitdə adamın düşündüklərini, ürəyini oxumaq qabiliyyəti var. O, adamın üzünə baxmasa da, beynindən keçənləri duya bilir. Ona görə də, Gülmirə, Sakit barədə, arvadı barədə içində doğan sualları boğmaq, özündən uzaqlaşdırmaq üçün stolunun üstdəki kitabı qabağından götürüb o yana qoydu, içində aşdım-daşdım gülləri olan güldanın yerini dəyişdi. Ancaq Sakit haqda düşüncələrini ürəyindən qova bilmədi. Yaxşı ki, Sakit özü ona kömək elədi. Elə bil bunu duymuşdu – geri çevrilib yavaşdan:

– Sənin xəbərin var, akademiyanın bağına – bizim bu Nəsir bağına hardansa qumrular uçub gəlib. Hələ bir dənə də qaratoyuq gəlib. – dedi.

Gülmirə Sakitin danışdığına sevinib:

– Hə? Mən heç qumru, qaratoyuq görməmişəm! – deyərək ayağa qalxdı.

– Sən şəhər uşağısan, qumrunu, qaratoyuğu harda görə bilərdin ki. – deyə Sakit ilıq, isti bir təbəssümlə gülümsündü – Bəri gəl, bax!

Gülmirə onun yanına gəldi, böyründə dayandı:

– Ora bax, fəvvarənin yanındadı ikisi. Bax, iki yaraşıqlı, xıneyi rəngli quş qumrudu.

– A, a, nə gözəldilər, Sakit!

– Hə. Bax, o şam ağacının böyrünə bax – o, sağ əlini uca şam ağacına tərəf uzatdı – onun dibinə bax – o qara quşu gördün?

– Hə, hə, gördüm.

– Bax, o da qaratoyuqdu. Qəribə oxumağı var onun!

– Bu quşlar şəhər quşu deyil, Gülmirə. Onlar bilirsən buraya niyə gəliblər?

– Yox.

– Əlbəttə, səni, məni sevindirmək, gözümüzü-könlümüzü oxşamaq üçün gəlməyiblər. Onlar yaşamaq xatirinə gəlib bu Nəsir bağına.

Gülmirə gözlərini quşlardan çəkmədən:

– Başa düşmədim. – dedi. – Necə yəni yaşamaq üçün?

– Hə. Sən bilməzsən bunu, Gülmirə xanım. – Sakit ah çəkdi – Onlar zəhər əlindən qaçıblar, Gülmirə.

– Necə yəni zəhər? Kimdi ki, onları zəhərləyən?

– Heç kəs. Biz özümüz. Pambığa zəhər vururuq – sovkanı – pambıq qurdlarını öldürmək üçün. Bunu ki, bilirsən?

– Hə, eşitmişəm.

– Bax, həmin zəhərdi bunları təbiətin geniş və azad qucağından, yaşıl dağlardan, meşələrdən didərgin salan, Gülmirə. Kimdi hesablayan? Yəqin bu quşların çoxu tələf olub gedib. Bəli, biz təbiətə qarşı qəribə olmuşuq. Bir əlimizlə əkirik, qoruyuruq, cavanlaşdırırıq, o biri əlimizlə bax, beləcə məhv eləyirik.

– Olmaz ki, o zəhəri vurmasınlar pambığa?

– Onda qurd pambığın axırına çıxır, Gülmirə. Camaatımızın zəhmətini, əməyini heç eləyir. Sən ayrı şey de: alimlərimiz fikirləşib bir başqa çarə tapa bilməzlərmi? Axı bizim yaxşı təbiət alimlərimiz var!.. Təşəbbüs yoxdur, bax, əsas məsələ budur. Hər il milyonlarla pul o zəhərə, təyyarəyə, benzinə məsrəf olunur – pambıq qurdunu məhv etmək üçün. Qəribədi, bu pambıq qurdu elə bil o zəhərə alışıb, öyrəşib – daha zəhər onu öldürmür. Sonra biz məcbur oluruq uşağı, böyüyü – hərəsinin əlinə bir butulka verib qurdu yığmaq üçün tarlalara çıxardırıq. Pambıq qurdunun bax, bu boyda – Sakit dırnağını göstərdi – o həşəratın hər birinə on qəpik pul xərcləyirik – milyonlar da burdan gedir. Bu, məsələnin maddi tərəfi. Başqa, daha mühüm bir ziyan da verir o zəhər, o pambıq qurdu. Bilirsən nədi o?

– Yox. Nədi ki?

– İnsan orqanizmini zəhərləyir. Təzəcə ana olmuş cavan gəlinin südünü analiz eləsən, görərsən ki, o süddə də var o zəhər zəhirmardan. O ananın döşündən zəhərli süd əmən o uşaq böyüyüb nə olacaq? Yarımadam, şikəst, zəif bir varlıq.

– Ay aman! – deyə Gülmirə içini çəkdi, keçib stolunun arxasında əyləşdi, başını tutdu.

– Bəli, görürsən… Dırnaq boyda müzürr bir həşərat həm cibimizə, həm də canımıza nə qədər böyük ziyanlar vurur. Amma buna artıq son qoyulur. Alimlərimiz təzə bir preparat tapıblar – zəhərsizdi, ziyansızdı. Ancaq pambıq qurdunu məhv edir.

– Nə yaxşı, nə yaxşı. – Gülmirə ürəkdən sevindi və sonra gülə-gülə əlavə elədi – Gör hardan başladıq, hara gəlib çıxdıq.

– Hə, ziyalılardan başladıq, pambıq qurduna gəldib çıxdıq. – Sakit əlləri cibində ortalıqda gəzindi və ani sükutdan sonra davam etdi – Qəribə də olsa o pambıq qurdu, o zəhərlə bizim gözəl ziyalı ordumuz içində olan bəzi başa bəla xəstəliklər arasında bir bənzəyiş görürəm, Gülmirə. Deyəcəksən pambıq qurdu, zəhər hara, ziyalı dünyası hara!

– Hə də. Doğrudan o hara, bu hara?

– Yox, elə deyil, Gülmirə xanım. Ziyalı ordumuzu mən yaşıl, barlı-bərəkətli bir pambıq tarlasına bənzədirəm. Gözəldi, baxdıqca göz oxşayır, könül sevindirir. Amma içində qurdları da var, Gülmirə – xəstəlikdi bu. Şöhrət xəstəliyi, vəzifə xəstəliyi, ad-san xəstəliyi. Pambıq qurdunu zəhərlə qismən də olsa məhv etmək olur, zəhər öldürməyəni də on qəpiklər gücünə məhv etmək olur, ancaq bu xəstəlikləri, görünür, heç nəynən aradan qaldırmaq mümkün deyil. O təbiət hadisəsidi, hardasa bir qanunauyğunluq tapmaq olar orada. Ancaq axı bu ziyalı dünyasıdı, başa düşən, alim adamlar dünyasıdı. Mən buna çox heyrət eləyirəm. Ayrı-ayrılıqda bunların – bu xəstəliklərə tutulanların hamısını dindir, görəcəksən, ağıllı, məntiqlə düşünüb mühakimə yürüdən, hamısı vətən üçün, xalq üçün çalışdığını söyləyən adamlardı. Amma çəkil kənardan bax, müşahidə elə – görəcəksən ki, bir-birinin ətini yeməyə, başını kəsməyə hazırdı

bəziləri. Fikirləşirsən – bax bu adamların nə şərikli malları düşüb? Niyə hərəsi başını aşağı salıb öz işiylə, elmiylə, təcrübəsiylə, kitabını yazmaqla məşğul olmur? Nəyin üstündə birbirini infarkt eləyib öldürür, vaxtından tez torpaq altına gömür bu adamlar? Şöhrət, sən yox, mən – fəlsəfəsidir bu mərəz.

Baxıram, düşünürəm, sən onda hələ orta məktəbdə oxumuş olardın. Mən otuz ildi bu akademiyadayam, yaxşı bilirəm belə şeyləri. Hə, bir alimimiz vardı. Əli Vüsət. Gözəl, istedadlı bir alim idi. Tariximizin qədim dövrünü də, orta əsrlərini də, inqilabi tariximizi də elə gözəl bilir və tədqiq eləyirdi ki, elə bilirdin bu adam xalq, tarix yaranandan dünyaya gəlib, onunla birgə bu uzun, dolaşıq, mübarizələrlə dolu yolu keçib gəlib. Çox tez elmlər doktoru olmuşdu.

– Əli Vüsətin mən kitablarını oxumuşam. Amma özün görməmişəm.

– Qoymadılar görəsən. Qalsaydı indi altmış yaşı tamam olmazdı. Qoymadılar yaşaya. Ona görə ki, istedadlı idi, ona görə ki, qol-qanad açsaydı, pərvazlansaydı, o zaman akademiyanın ictimai elmlər üzrə akademik katibi olan akademik Hüseyn İsmayılov kimi süst, zorən təbib alimlər kölgədə qalacaqdı. Birləşdilər, toplaşdılar, onu qoymadılar müxbir üzv seçilsin. Sıxdılar, ləkələdilər – o da təmiz adam idi, vicdanlı adam idi. Özünə edilən haqsızlıqlara görə yox, öz sənət yoldaşlarının niyə belə nadan və qəddar olduqlarını dərk etdiyindən bağrı çatladı – cavan yaşında.

– Hayıf.

– Hələ qulaq as. Bu hamısı deyil hələ. Əli Vüsət ölən gün, səhər tezdən Hüseyn İsmayılovun dostlarından biri bu «şad» xəbəri ona çatdırmaq istəyir. Götürüb zəng edir. Hüseyn bu vaxt elektrik üz qırxanı ilə iri, bədənnüma aynanın qabağında durub üzünü taraş edirmiş. «Gözün aydın, Hüseyn bəy. Əli Vüsət ömrünü sənə bağışlayıb getdi» – deyir dostu ona telefonda. Hüseyn İsmayılov – bunu sonralar öz arvadı danışırmış – elə oradaca, əlində üz qırxan sevindiyindən keçinir. Sən təsəvvür elə, Gülmirə – ziyalı ziyalının ölümünə sevindiyindən ölür. Bu,

dəhşətdi, vallah, dəhşətdi. Əgər Hüseyn İsmayılov öz qələm yoldaşının ölümündən sarsılıb ölsəydi, kədərlənib ölsəydi, mən deyərdim, ən böyük ziyalımız odu. Amma Hüseyn sevindiyindən öldü. Bax, məni bu dərdlər düşündürür, bütün ürəyimi talan eləyir, Gülmirə. Mən bunları necə yazmayım, necə deməyim?!

– Doğrudan müsibətdi.

– O qalsaydı indi elmimizin şöhrəti daha çox olardı, Gülmirə. O tək deyil. Neçəsini tanıyıram – nadan, savadsız, qol – pul, dayı gücünə gəlib vəzifə, məqam, ad-şöhrət əldə eləyən bəzi pambıq qurdlarının əlilə öldürülüb – bıçaqla, tapança ilə yox, sözlə, süründürməçiliklə. Bu dünən olub. Bu gün də var, təəssüf. Niyə uzağa gedirsən – gözünün qabağında Aslanzadə var. Onu Nurəddin yıxdı. Ölsə qanı boynundadı.

– Orxanı da elə öldürdülər, Sakit!.. – deyə heç özü də bilmədən dərdini dilinə gətirdi Gülmirə. – Onu bax, bu Salman – onun boş stoluna işarə elədi – bu Salman öldürdü, Sakit…

– Başqa millətlərin ziyalıları arasında belə xəstəliklər yoxdu, Gülmirə. Hamısı – böyüklü – kiçikli əl-ələ verib öz xalqına, torpağına, tarixinə, ədəbiyyatına, mədəniyyətinə xidmət edir – hər kəs bir daş qoysa, bəsdi – deyirlər.

– Elədir, Sakit. Niyə belədi görəsən? Niyə bizimkilər birbirinin qədrini bilmir görəsən, Sakit? Bax, deyirsən, pambıq qurdunu məhv etməyin çarəsini tapıblar alimlərimiz. Bəs bunun çarəsi nədi görəsən, Sakit!

– Sənə deyim ki, xalq, hökumət qədirbilməndi, ağı-qaradan tez seçir, Gülmirə. Bax, Əli Vüsəti nadan adamlar öldürdü – indi onun adına mədəniyyət sarayı, küçə var. Amma Hüseyn İsmayılov adlı «alim» yoxdu, unudulub – onun adı bir-iki məqaləsinin üstündə, üç-dörd dostunun xatirində qalıb, vəssalam.

– Bu, çarə deyil, Sakit. Bu, sonrakı işdi. Bu, ona bənzəyir ki, sən məni öldürəsən, sonra qəbrim üstə heykəl qoyasan. Yox, bu çarə deyil. Bunun qarşısını almaq – bu müzürr xəstəliyi dəf etmək, kökünü kəsmək üçün yollar axtarmaq, dərmanlar tapmaq lazımdı, Sakit!

– Bunun ən yaxşı yolu, ən yaxşı, kəsərli dərmanı – mübarizədi, Gülmirə. Bax, haqsızlığa, nadanlığa, şöhrətpərəstliyə, yerliçiliyə qarşı əl-ələ verib hamı vuruşsa, bu xəstəliyin kökü kəsilər. Bunun üçün bizdə olan biganəliyi aradan qaldırmalıyıq, nadürüst, karyerist adamların əl-qol açmasına, dövlətin ona verdiyi səlahiyyətlərdən sui-istifadə etməsinə imkan verməsək, kimsənin haqqının tapdalanmasına dözməsək – bu xəstəlik sağalacaq. Xoşbəxtlikdən indi partiya bu cür yaramaz hallara qarşı çox ciddi mübarizəyə başlayıb və açıq-aydın deyir: - Belə adamlar bizimlə yol-yoldaşı ola bilməzlər.

Sakit susdu, Gülmirə ona baxıb gülümsündü və bu təbəssümün nə isə məftunluq ifadə etdiyini duyub tez ciddiləşdi. Sakit o təbəssümə ayrı məna verməyərək gedib elektrik çaynikinin çəngəlini cərəyana qoşdu və geri dönəndə:

– Bax, indi biz bu xəstəlikdən danışdıq burda, Gülmirə. – dedi. Amma əlimin içi kimi bilirəm – heyif bunu yoxlamağa bizim imkanımız yoxdu – indi, bax bu dəqiqə, bizim öz yoldaşımız, həmkarımız İltifat hardasa – ya dəhlizdə, ya otaqların birində, ya direktorun kabinetində sənin, mənim, Nadirənin, Salmanın qeybətini qırır, ləkələyir, gözdən salır. Və təəssüf ki, iltifatlar tək deyil, hər institutda, hər idarədə, hər kollektivdə var…

Gülmirə ayağa qalxıb çay dəmləmək üçün çaydanı götürüb kədərlə:

– Deməli, onda düzələn deyil? – söylədi. Sakit sualı eşitdisə də, cavab vermədi.

SƏKKİZİNCİ FƏSİL

Aslan hıçqırıq səsi eşitdi, bədəni gizildəyib uyuşdu. Gözlərini açıb yan-yörəsinə baxmaq istədi, ancaq göz qapaqlarını qaldıra bilmədi – elə bil üstünə daş qoymuşdular. İçərisini acı bir təəssüf hissi yandırıb yaxdı. Gözləri açılmırdı – düz bir ay idi ki, o, dünya işığına həsrət qalmışdı. Son gördüyü adam – onu təcili yardım maşınına mindirən ağ xalatlı həkim, bir də Sakit olmuşdu. Elə maşında, dəmir xərəyin üstünə uzadılan ki-

mi gözlərini yummuşdu – elə o yuman yummuşdu. Sonra daha açа bilməmişdi. Xəstəxanaya çatdırılan kimi, beşinci mərtəbədə, üzü dənizə, «Moskva» mehmanxanasına baxan palatada yerləşdirmiş, ilk dava-dərman eləmiş, xəstəliyinin səbəbini aydınlaşdırmışdı həkimlər. Qan təzyiqi həddən artıq yuxarı qalxdığı üçün beyninə qan sızmışdı. Sonra hələ adını bilmədiyi həkim Sakitə üz tutub:

– Evinə, arvad-uşağına xəbər elə, qardaş! – demişdi. – Qoy bir nəfər gəlsin.

Sakit Aslanzadəgilə zəng çalmış, çox çətinliklə, ehtiyat eləyə-eləyə Kiçik xanıma bildirmişdi ki, Aslan müəllim bir balaca kefsizdi, deyir ki, yanıma gəlsin. Xəstəxananın yerini, palatanın nömrəsini demişdi Sakit. Kiçik xanım heç yarım saat keçməmiş, təngnəfəs, uçuna-uçuna özünü Aslanzadənin yanına yetirmişdi. Sakit onu qapı ağzında qarşılayıb hay-küy salmağa, ağlayıb-sıtqamağa qoymamışdı. «Qorxulu bir şey deyil, kişinin ürəyini üzmə, Kiçik xanım bacı». İncavara, o da Sakitin sözünə baxmış, lal-dinməz palataya girib özünü ağlamaqdan güclə saxlayaraq:

– Aslan, mənəm, gəlmişəm, qurban olum – demişdi astaca.

Aslan qurumuş dodaqlarını tərpədib nə isə demişdi, ancaq Kiçik xanım heç nə başa düşməmişdi.

Sonra Sakit gedəndən, ara sakitləşəndən sonra həkimlərlə söhbət eləyən Kiçik xanım ərinin xəstəliyinin səbəbini və gələcək nəticələrini öyrənmiş, çarə, imdad diləmiş, nəhayət, taleyin hökmü ilə barışıb oturmuşdu.

Kiçik xanım ərinin böyük alim və şəxsiyyət olduğunu çoxdan bilirdi. Ancaq bu fikir onda ötəri, adi bir fikir imiş sən demə. Aslan xəstələnib buraya düşəndən sonra o, elə bil yuxudan ayıldı. Başa düşdü ki, onun əri – bax bu ağ çarpayıda uzanıb gözlərini açа bilməyən yaraşıqlı kişi Kiçik xanımın bildiyindən, təsəvvür etdiyindən çox-çox böyük imiş, qeyri-adi imiş, qiymətli imiş. Onun nə qədər hörməti-izzəti varmış, aman allah. Onu nə qədər istəyən, sevən varmış! Bu bir ayda yanına nə qədər adam gələrmiş. Nazirdən, katibdən, alimdən tutmuş adi

kənd müəlliminəcən, kimlər gəlməmişdi Aslana dəyməyə? «Müəllimim olub Aslan kişi». «Elmi rəhbərim idi». «Opponentim olub». Adamların bol-bol gəlib-getdiyini gördükcə, xasiyyəti etibarı ilə qonaq-qara xoşlayan Kiçik xanımın ürəyi fərəhdən dağa dönürdü, bəzən hətta Aslanın xəstəliyini də unudurdu. Gələnlər o qədər dil-ağız eləyirdi, o qədər minnətdarlıq sözləri deyirdi ki, dua-səna eləyirdi ki, Kiçik xanım Aslanın bütün bunların sehirli təsiri sayəsində sağalacağına, mütləq sağalacağına, gözlərinin açılacağına inanmağa başlayırdı. Lakin günlər keçir, Aslanın halında ciddi bir dəyişiklik yaranmırdı. Bu, Kiçik xanımın ürəyini söküb dağıdır, məyuslaşdırır, ağladırdı.

İndi də astaca ağlayırdı Kiçik xanım. Aslanın eşitdiyi hıçqırıq onun hıçqırığıydı. Aslan əlini yana uzatdı. Böyründə, Kiçik xanımın demək olar ki, bütün günü oturduğu stul boş idi. Diliylə dodaqlarını yalayıb zəif səslə:

– Böyük, - dedi Aslan. Öz çarpayısında əyləşmiş Kiçik xanım tələm-tələsik əlilə gözlərinin yaşını sildi – elə bil, Aslanın onun ağladığını görəcəyindən qorxurdu, halbuki, o, bunu görməyəcəkdi, görə bilməyəcəkdi – yaxın gəldi, stulunda əyləşdi, ərinin yana uzanmış kiçik, ağ, zərif əlini əlinə alıb:

– Can – dedi – mən burdayam.

– Sən ağlayırsan?

– Yox, yox… - O həyəcanla əlini yenə gözünə çəkdi – Ağlamıram. Niyə ağlayım ki, nə olub şükür allaha…

– Yox, Böyük, gözlərini görmürəm, amma səsin ağlayır.

Kiçik xanım gülməyə çalışdı:

– Qəribəsən ey, vallah. Heç səs də ağlayar?

– Ağlayar, ağlayar, Böyük. Səs də ağlayar, söz də ağlayar. Bəli, ürək ağlayanda səs də ağlayar, söz də ağlayar, Böyük! Mən bilirəm – sən məni çox istəyirsən, ona görə sənə təşəkkür eləyirəm, arvad. Və çox istədiyinə görə də qorxursan ki, ölərəm birdən.

– Allah eləməsin. Ölsün pis adamlar, ölsün düşmənlərin.

– Bəri başdan arxayın ol, mən ölməyəcəyəm, Böyük. Mən yaşayacağam. İnan buna. Özünü üzüb əldən salma. Qaldı ki, düşmən… Mənim düşmənim yoxdu dünyada, Böyük. Acığım gələn adam ola bilər, ancaq düşmənim yoxdu. Görmək istəmədiyim adam ola bilər. Bu qədər yaşamışam, amma görmək istəmədiyim adamlar barmaqla sayıla biləcək qədər azdı, Böyük. Onlar da bilirsən kimlərdi?

– Yox, ay kişi, bilmirəm.

– Onlar nadan adamlardı, Böyük. Mən nadanlara həmişə nifrət eləmişəm. Ancaq düşmən olmamışam. Bu dünyanı hərə bir cür, ağlı kəsən şəkildə, alnına yazılan şəkildə (əgər alın yazısı varsa) yaşamalıdı. Hamı yaxşı ola bilməz, hamı həssas ola bilməz. Onda yaxşıların qədri bilinməzdi, Böyük. Belə deyirəm, ancaq çarəsizlikdən deyirəm, Böyük. Əslində hamı yaxşı olmalıdı. Hamı yaxşı olsa qədir bilməyə heç ehtiyac qalmaz. Yaxşı olmaq onda bir vəzifə olar. Pis olmaqdan qorxar onda adamlar.

Aslanzadə danışırdı, Kiçik xanım yorğun, yuxusuz olduğundandımı, ya nədən idi – həmişə məntiqli, tutarlı, konkret söz deyən ərinin indiki sözlərindən heç nə başa düşə bilmirdi. Hardansa qəribə bir qorxu axıb dolurdu canına: deyəsən kişi sayıqlayırdı. Nəbzini yoxladı; ürəyi adi qaydada vururdu. Hə, deyəsən bir az hərarəti var. Elədi, elədi. Əli od tutub yanır. Bəs necə olub Kiçik xanım bunu indiyəcən hiss eləməyib?

– Aslan…

– Hə?

– Haran ağrıyır?

– Heç yerim. Necə bəyəm? Sənə kim dedi ki, bir yerim ağrıyır?

– Heç kəs. Elə belə soruşuram. Deyəsən bir az qızdırman var, hə?

– Yox əşi!

– Al bu termometri, qoy qoltuğunun altına. Yox, yox, qoy özüm qoyum. Hərarət ölçəni üç-dörd dəfə çırpıb Aslanın qol-

tuğunun altına qoyduqdan sonra neçə saniyə lal-dinməz oturdu, pəncərənin qarşısına gəldi. Dənizə nəzər saldı. Sakit idi dəniz. Elə bil Buzovnadakı dəniz deyildi – dalğalı, çalxalanan dəniz deyildi. Sonra «Moskva» mehmanxanasının əzəmətli binasına xeyli tamaşa elədi. Doqquzuncu mərtəbədə, orta balkonların birində bir qadın – bir kişi dayanıb şirin-şirin söhbət edirdi. O tərəfdə Kirovun heykəli əlini dənizin üstünə doğru uzadıb nə isə deyirdi. Bu yanda isə nəhəng televiziya qülləsinin başı az qala buludlara toxunurdu. Kiçik xanım bunlara baxa-baxa niskil içində fikirləşirdi ki, hayıf, Aslan bunların heç birini indi görmür, görə bilmir. Və, görəsən, görə biləcəkmi haçansa? Bu sual onu həmişə düşündürürdü və üşüdürdü. Yerə-göyə ürəyində yalvarırdı ki, onun gözləri açılsın, bu işıqlı dünyaya baxa bilsin. Əgər lazım olsa, gözlərini verərdi ərinə. «O mənim ömrümün gözüdü, qoy o görsün – mən onun gözüylə bu dünyanı görə bilərəm» – deyə tez-tez ürəyindən keçirirdi.

Hərarət ölçən dedi ki, Aslanın hərarəti yoxdur. Kiçik xanımın qəlbi bir az sakitləşdi.

– Neçədi?

– Yoxdu hərarətin! Qorxuzmuşdun məni…

– Qorxma, Böyük. Mən sənə dedim ki, heç nə olmayacaq mənə!

– Allah ağzından eşitsin, kişi! – Kiçik xanım iri, yaraşıqlı bir alma soyub iri dilimini Aslana verdi. – Bunu ye, kişi. Əcəb ətirli almadı. Sakit gətirmişdi dünən.

– Hə, onun gətirdiyi almanı məmuniyyətlə yeyərəm. Yaxşı oğlandı Sakit. Təmiz, zəhmətkeş adamdı, Böyük.

– Mənə də elə gəlir.

Aslanzadə almanı yedikdən sonra:

– Bir dilim də ver, Böyük – dedi. – Xoşuma gəldi.

Kiçik xanım verdi və söylədi:

– Sizin kollektiv yaman xoşuma gəldi, kişi. Çox mehriban və istiqanlı kollektivdi. Dəstə-dəstə hər gün yanına gəlirlər.

– Hə, sağ olsunlar… çox razıyam.

– Ancaq bircə Nurəddin gəlməyib!

Aslanın üzünün dərisi dartıldı və o, hiss eləmədən köks ötürüb:

– O gəlməsə yaxşıdı, Böyük – dedi – Mən indiyəcən demək istəmirdim, ancaq indi deyirəm: o gəlsə, yanıma buraxma. Eşidirsən? Buraxma.

– Boy, niyə, ay kişi? Gəlsə, necə buraxmayım, nə deyim?

– Heç nə. Sadəcə de – həkimlər icazə vermir, vəssalam.

– Axı niyə?..

– Bax, o, həmin görmək istəmədiyim beş-altı adamdan biridi, Böyük – Aslanzadə bu sözləri daxili bir yanğı ilə söylədi – həmin adamlardan biridi. Mənim yadımdan çıxar birdən, Sakit bura gələndə ona söylə, Nurəddinə çatdırsın ki, mənim yanıma zəhmət çəkib gəlməsin. Mütləq de.

– De deyirsən, deyərəm. Ancaq…

Aslanzadə təntimiş halda nəfəs aldı. Elə bil, otaqda hava çatmırdı indi ona.

– O barədə danışmayaq daha, Böyük. Dur, zəhmət olmasa, o nəfəsliyi aç, ürəyim nə isə sıxılır…

Kiçik xanım nəfəsliyi açdı, içəri təmiz, dəniz təmi qarışıq may havası axdı. Aslan acgözlüklə o havanı ciyərlərinə çəkib «oxxay» – dedi… Sifəti açıldı bircə anda…

Kiçik xanımı fikir götürdü: «Bu nə təzə söhbətdi. Niyə Nurəddindən onun acığı gəlir? Axı… araları yaxşı idi. Axı Aslan Nurəddinə olmazın yaxşılıqlar eləyib vaxtilə. Kiçik xanımın yadındadı: Nə qədər ki, namizədlik müdafiə eləməmişdi, həftə səkkiz, mən doqquz o, Aslanın yanında olardı. Kabinetdə saatlarla oturardı, söhbət edərdilər. Kitab apaprardı Nurəddin Aslanın kitabxanasından. Kiçik xanım çay verərdi, bəzən xörək yedirtməmiş buraxmazdı. Sonralar seyrək-seyrək gəldi. Doktor olandan sonra ayağı tamam kəsildi Nurəddinin. Bir də son dəfə, dörd-beş il bundan qabaq, akademik seçiləndə gəlmişdi. Aslandan onun xeyrinə səs verməyi xahiş edirdi. Aslan çay içə-içə, qayğılı bir tərzdə:

– Biz akademik seçiləndə belə şeylər yox idi, Nurəddin? – dedikdə Nurəddin yanıqlı-yanıqlı söyləmişdi:

– Eh, Aslan müəllim, onda zəmanə başqa idi. İndi, akademik olmaq istəyən, gərək bax, belə, mənim kimi, qapı-qapı gəzsin, ağız açsın, xahiş eləsin… Bir buna bax, - deyə Nurəddin döş cibindən bir kağız çıxartmışdı, çəkilmiş cədvəli ona göstərmişdi. Kimlər səs verəcəkdi, kimlər poza bilərdi, kimlər bitərəf qala bilərdi prezidiumun üzvlərindən, akademiklərdən, müxbir üzvlərdən.

Aslanzadə cədvələ baxıb:

– Əməlli-başlı krassvorddu ki, bu! – demişdi.

– Hamısını görmüşəm. Təkcə siz qalmışdınız. Siz də səs versəniz, bir səslə seçilmiş olaram…

– Neçə yer verilib?

– Bir.

– Konkurentin çoxdu?

– Bir nəfər var…

– Kimdi o?

Nurəddin konkurentinin adını demək istəməmişdi. Çünki deməydi, Aslanzadənin fikri haçalana bilərdi.

– Kimdi konkurentin, Nurəddin? – Aslan ikinci dəfə soruşanda, Nurəddin çarəsiz qalıb?

– Yusifdi, professor – söyləmişdi.

– Ha – deyə Aslanzadənin gözləri yol çəkmişdi. – Öz aramızdı, o, yaxşı alimdi, Nurəddin. Çox ağıllı və müdrik alimdi. Elmi məhsulu da sənindən çoxdu – bir ora bax. – Aslan divarlar boyu, tavana qədər düzülmüş kitab şkaflarından birinə elə oturduğu yerdə işarə eləmişdi. – Yeddi dənə kitabı yanyana düzülüb Yusifin. Məndə olanı yeddidi. Bir neçə kitabını kimsə aparıb məndən. Sənin isə, cəmi bir kitabın çıxıb, Nurəddin…

Aslanzadə Yusifdən belə vəcdlə danışanda Nurəddinin qara sifəti bir az da qaralıb boğulmuşdu, pərtliyini gizlətmək üçün siqaret yandırmışdı. Aslan sözünü demişdi:

– Mənə qalarsa, yer onundu, Nurəddin!

– Hə?

– Hə də, həqiqət naminə!

Nurəddin: «Zalım oğlu məndən qabaq gəlib, kişinin saqqızını oğurlayıb» – düşündü.

– O gəlmişdi bura?

– Kim? Yusif?

– Yox. Niyə gəlməliydi ki?..

– Heç, elə belə… Ancaq bu dəfə mən keçməliyəm, professor. Yoldaşların hamısının fikri belədi. Yusif yox, mən seçilməliyəm akademik!..

Aslanzadə uşaq kimi gülümsəmişdi:

– Niyə axı?

– Bilmirsiniz?.. Bilməmiş olmazsınız. Prezidentin onu görən gözü yoxdu. Bu isə, hər şey deməkdi.

– Hə, belə de!!! İntriqa bura da, bu müqəddəs elm ocağına da gəlib çıxıb! Hayıf elmimizdən…

Kiçik xanım indiki kimi xatırlayırdı. Həmən il, aprel ayında Nurəddin akademik seçilmişdi. Səs çoxluğu ilə. Yusif hələ də akademik deyildi. Yadındaydı ki, Aslan o zaman çox əsəbləşmişdi, evə-eşiyə sığışmırdı, siqareti-siqaretin oduna yandırırdı. «Belə də şey olar?.. Belə də şey olar?» – deyə-deyə iri zalda o baş-bu başa gedib gəlirdi – Adamlarda obyektivlik hissi korşalıb, subyektivizm baş alıb gedir. Yusif kimi alim kənarda qaldı…» Aslan bircə şeylə özünə təskinlik vermişdi ki, o, Nurəddinə səs verməmişdi. Amma nə olsun, bunun nə xeyri olmuşdu – yenə o seçilmişdi. Bundan sonra Nurəddin Aslanzadəgildən tamam-kamal ayağını kəsmişdi və üstəlik hələ ordaburda danışırdı ki, Aslanzadə guya istəmirmiş institutda özündən sonra ikinci bir akademik olsun. Gözü götürmürmüş guya. Bu söhbətləri gətirib Aslana çatdırırdılar və o, Nurəddinin belə kiçik hisslərlə yaşadığına təəssüf eləyirdi.

Bütün bunları Kiçik xanım bilirdi – çünki Aslan hər axşam evə gələndə gündüz kimlərlə görüşdüyünü, nə iş gördü-

yünü – bir sözlə bitdən-sirkəyə hər şeyi arvadına danışmağı xoşlayırdı. O qədər danışmışdı ki, Kiçik xanım az qala bütün institut əməkdaşlarını, böyükdən-kiçiyə bütün akademiya adamlarını Aslanın özü qədər tanıyırdı. Hər kəsdən, hər şeydən xəbəri vardı. Ayrı yerə düşəndə, o, akademiyadan elə şirin və dəqiq məlumatlarla söhbətə qoşulurdu ki, elə bilirdin o da akademiyada işləyir. Ona görə, ərinin «Nurəddin bura gəlməsin!» – deməsi, əvvəlcə anlaşılmaz görünsə də, bir az fikirləşib bunun səbəblərini tapmışdı:

– Hə, indi başa düşdüm. – Xeyli sükutdan sonra Kiçik xanım yenə Nurəddin məsələsinin üstünə qayıtmışdı. – Bilirsən, Nurəddinin səndən acığı gəlir, kişi. Çünki o vaxt, o, akademik seçiləndə sən ona səs verməmişdin. Nə oldu, sən səs vermədin, o akademik seçilmədi?

– Axı bəs… vicdan da var axı, Kiçik? – Aslan bu söhbətin təzələnməsindən narazı halda, bir az da əsəbiliklə söylədi – haqq var, ədalət var axı, Kiçik.

– Haqqı, ədaləti gözləmək elə təkcə sənin boyuna biçilib?

Kiçik xanım gördü ki, Aslan sifətini qırışdırıb başını yana – pəncərəyə sarı çevirdi, daha heç nə söyləmədi. Hiss eləyirdi ki, kişi əsəbləşir. Otağa sükut çökdü. Kiçik xanım ayaqlarının ağrıdığını, yorulduğunu duyub çarpayıya uzandı, gözlərini tavana zillədi. Fikri yenə Aslanın səhhəti üstünə gəldi. «Bircə tez sağalaydı, ay allah. Tikəmiz ovsanaya düşüb – ölə də bilərmiş… Qansızma kiçik olub, çox kiçik olub. Gözün beyinlə əlaqəli xırda kapilyarlarına qan axıb. Ola bilər Aslanın gözləri heç açılmasın – açıla da bilər, amma. Buna isə güman azdı. Həkim – məşhur göz həkimi, Filatovun tələbəsi Məhərrəm Novruzov belə deyirdi… - O qanı oradan çəkmək mümkün deyil. Ya özözünə çəkilib gedəcək, ya da qalacaq. Çəkilib getməyi – işıq deməkdi, dünya deməkdi. Qalmağı – korluq deməkdi, zülmət deməkdi, ev dustağı olmaq deməkdi.» Kiçik xanım tez-tez üzdə ərinə təsəlli versə də, ürəyində qan ağlayırdı, Aslanın gələcək həyatını düşünüb dəhşətə gəlirdi.

Aslan isə tezliklə sağalacağına, gözlərinin açılacağına bir uşaq sadəlövhlüyü ilə inanırdı. Fikri-zikri stolunun üstündə yarımçıq qalmış əlyazmasının yanında olurdu həmişə. Qırx il yazmışdı, qırx il qələm çalmışdı – ömrünü şam kimi əritmişdi miz arxasında. Mənasız yaşamamışdı və bu, onun üçün ən böyük təsəlli idi. Cild-cild kitabları onun əbədi yaşaması üçün etibarlı pasport idi – gələcək nəsillər üçün görüşə, söhbətə getməyə icazə verən, zəhmətlə, alın tərilə imzalanıb möhürlənmiş tutarlı sənəd idi. Ancaq bircə nisgili vardı – bu son kitabı da qurtarsın. Bu, onun şah əsəri olacaqdı. Bircə ona görə kimdənsə möhlət istəyirdi Aslan. «Ömür niyə belə azdı, görəsən?.. Axı niyə belə azdı?» – bu sual beynində dolanır, dilinin ucunda ilişib qalırdı – dilə gətirməyin mənası da yox idi – çünki bu suala cavab verə biləcək bir insan, bir varlıq tanımırdı Aslan. Hardansa Orxan gəlib yadına düşdü: «O yazıq lap cavan öldü – sözü ürəyində getdi. Dünya belədi – dünya belə qurulub ki, insanlar bir-birinə baxıb təsəlli tapa-tapa yaşayırlar. Mən cavan ölmüş Orxana baxıb təsəlli tapıram. Orxan da yəqin heç nə yazmadan, özündən sonra heç bir yadigar qoymadan köçüb gedənlərə baxıb təsəlli alıb son anında…»

– Kiçik! – Aslanın hirsi soyuyandan sonra səsləndi.

– Hə, nədi, Aslan?..

_ Yatmamısan ki!..

– Yox… Nə istəyirsən?..

Aslan köks ötürdü:

– O gün Gülmirə Orxanın kitabını gətirmişdi ha.

– Hə.

– Onu hara qoymusan?

– Burdadı. Necə məgər?

– Onu tap, ordan bir-iki şer oxu mənə. Nədənsə Orxan gəlib yadıma düşdü – sözünü eşitmək istəyirəm. Seçmə, elə hardan gəldi, oxu.

– Bu dəqiqə.

Kiçik xanım tumbuçkanın üstündəki kitabların, qəzetlərin arasından Orxanın kitabını axtarıb tapdı və ürəyində niyyət elədi ki, qarasına açacaq, sağ səhifədəki şeri oxuyacaq. Allah elәsin yaxşı sözlər olsun. Kitabı açdı, yüzüncü səhifə, sağ tərəf. «Ömrüm». Ürəyi çırpına-çırpına:

– Qulaq asırsan, Aslan! – söylədi.

– Hə, eşidirəm.

Kiçik xanım başladı:

Əsir asta-asta səmum yelləri,
Dönür yavaş-yavaş xəzana ömrüm.
Qəm-qüssə çox, fərəh, şadlıq, sevinc az,
Gəldin dərd əlindən cəzana, ömrüm.

İnsan xislətinə heyranam özüm,
Bu şirin dünyadan doymayır gözüm.
Deyirəm ağrıya, əzaba dözüm,
Təki gözüm baxsın cahana, ömrüm.

Sən mənə dayaq ol, mən sənə bəzək,
Yolunda şam kimi əridim ürək.
Sənինçün hər şeyəm: - su, arzu, çörək,
Bilməm nə istərsən, daha nə, ömrüm!

Bircə təmənnam var, səndən ay canım,
Başına dolanım, oduna yanım.
Qıyma yarı yolda durum, dayanım,
Çalış zinət olaq zamana, ömrüm.

Kiçik xanım susdu, kitabı örtüb Aslanın üzünə baxdı. Aslanın ağ sifətində bir təəssüf ifadəsi yatırdı. Kiçik xanım baxışları ərində olduğu halda, ürəyində götür-qoy eləyirdi ki, bu, yaxşı haldı, ya yox. Bir qərara gələ bilmirdi. Aslan yerində qurcalanıb:

– Orxan hayıf oldu, getdi – dedi. – O yaşda ömrün mənasını çox yaxşı başa düşürmüş biçarə. Özü də o şeri xəstə vaxtı yazıb – ömrünə yalvarırmış, ürəyinə yalvarırmış ki, məni yarı yolda qoymayın. Amma qoydular, Orxan yarı yolda dayandı hayıf ki.

– Yazıq, cavan öldü, evlənməmiş. Heç bir nişanəsi də qalmadı yer üzündə.

– Niyə qalmadı, Kiçik! Bəs əlindəki o kitab nədi? Nişana deyil? Bəs Mirzə Cəlil haqqında yazdığı o gözəl kitab nişana deyil?.. Kitab övladdan da yaxşı nişanadı, Kiçik. Kiçik xanım bu sözləri eşitməməzliyə vurdu, üstündən keçdi, Aslanın dərdini təzələyib qəlbini qanatmamaq, özünü də məyusluqdan qurtarmaq üçün:

– Qulaq as, başqa bir şer oxuyum sənə – dedi və yenə kitabı açdı. Ancaq bu dəfə niyyət eləmədi:

Sən mənim allahımsan –
İnanmırsan, inanma.
Göz yaşımsan, ahımsan –
İnanmırsan, inanma.

Ürəyimsən, canımsan,
Damarımda qanımsan,
Dinimsən, imanımsan –
İnanmırsan, inanma.

Günəşimsən, ayımsan,
Fəryadım, harayımsan,
Mənim tale payımsan –
İnanmırsan, inanma.

Kiçik xanım şeri oxuyub qurtarıb:

– Tiflis! – dedi.

– Nə Tiflis? – deyə Aslan soruşanda Kiçik xanım:

– Deyirəm şeri Tiflisdə yazıb… - söylədi.

– Həəə – Aslan səsini uzatdı – o zaman Salman onu aldadıb Tiflisə göndərəndə yazıb bu şeri Orxan!..

– Necə yəni aldadıb göndərəndə?

Aslan uzaq illərin yaddaş səhifələrini varaqladı, xatırladı:

– Orxana Yazıçılar İttifaqının plenumunda məruzə tapşırmaq istəyirmişlər. Salman bunu bilən kimi, Orxanı təcili surətdə Tiflisə ezamiyyətə göndərdi ki, orada guya, Dövlət arxivində Mirzə Cəlilə aid yeni sənədlər tapılıb. Get gətir. Özün də Mirzə Cəlildən yazırsan, o sənədlərsiz əsərin kamil olmaz. Orxan da Mirzə Cəlilin bir sözü üçün nəinki Tiflisə, hətta dünyanın o başına gedərdi. Yazıq uça-uça getdi, ancaq əliboş qayıtdı. Sonra mənə rəhmətlik özü danışdı – Sən demə, Salman paxıllığından Orxanı göndərib. Bunun - Salmanın şəstinə toxunub ki, bu dura-dura niyə məruzəni Orxan kimi ağzından süd iyi gələn bir uşağa tapşırsınlar!

– Vay, vay… Yəni Salman…

– O, sən Salmanı tanımırsan, Kiçik. Onun at getməz-at getmək yolları çoxdu. Otuz ildi bir yerdə işləyirik, mən hələ onun qarnının altını – ürəyini öyrənə bilməmişəm.

– Vay, vay… Deyirəm axı yazıq Nadirənin ağzı yanıqdı ondan?

– Nadirə qızıl parçasıdı, Kiçik. Həm yaxşı alimdi, həm də yaxşı insandı.

… Ər-arvad danışırdı, xəbərsiz idilər ki, elə bu zaman, fəxri xiyabanın yanında institutun bir dəstə işçisi, şüşə bazardan çıxıb əllərində gül, içində mer-meyvə olan kağız torba, xəstəxanaya gəlirdi. Cəfər nə isə söyləyirdi, yanındakılar gülürdü. Trolleybus dayanacağında onlar küçənin sağından soluna, xəstəxana olan tərəfə keçmək istəyəndə Nurəddinin qara maşını onların qarşısında dayandı, Nurəddin başını pəncərədən çölə çıxarıb salamsız-kalamsız:

– Xeyir ola, dəstəynən hara belə gedirsiz? – deyə soruşanda lap yaxın olduğundan Gülmirə cavab verdi:

– Aslan müəllimə dəyməyə gedirik, Nurəddin müəllim! –

– Hm… - O, kinayə ilə qımışdı – Gedin, gedin… Daha heç nə demədi, sürücüyə «getdik» – deyə işarə elədi. Maşın şütüyüb getdi. Nurəddinin bütün günü kefi kök olmuşdu. Prezidiumun instituta ayırdığı kağız limitini – gələn ilin nəşriyyat planını – cəmi otuz beş çap vərəqi olan kağızı bölmüşdü. İyirmi çap vərəqini özü götürmüşdü, onunu Sultana vermişdi, beşini də İltifat üçün ayırmışdı. Oğlu üçün nəzərdə tutmaq istəyirdi, ancaq onun əsəri hələ hazır deyildi. «Tənbəl oğlu tənbəl. Bilmirəm nə fikirləşir. Elə bilir ki, mən həmişə direktor olacağam. Yazıb müdafiə eləmir. Yox, gərək bir şey fikirləşəm. Ona qalsa, xəmir çox su aparacaq…» – deyə ölçüb-biçmişdi.

Müavini Sultan Nurəddinin bu bölgüsünə ağızucu, yarıkönül, xalaxətrin qalmasın deyə «etiraz» eləmişdi:

– Sonra səs-küyə səbəb olacaq, Nurəddin. İnstitutda hazır, illərlə yatan əsərlər, monoqrafiyalar var.

– Məsələn?

– Məsələn, Nadirə xanımın şöbəsinin beş monoqrafiyası elmi şuranın portfelində beş ildi yatır.

– Eh, onları sən monoqrafiya hesab edirsən?.. Onlar elm deyil, Sultan, sudu, söz yağışıdı. Şer belə gəldi, təmsil elə getdi, roman elə oldu… Bu, elm deyil, Sultan, cəfəngiyyatdı. – Bu sözü deyəndə xatırlamışdı ki, İltifatdan eşidib. Özü də bir neçə dəfə. İndi özü də buna adət eləyib – Bəli, cəfəngiyyatdı. Mənə həqiqi elm lazımdı.

– Adamlar illərlə zəhmət çəkib, əsər yazıb…

– Yazıb, pulunu da alıb. Daha nə istəyirlər?..

Sultan susmuşdu, Nurəddin siyahını imzalayıb kənara qoymuşdu. Bununla da Nurəddinin bu günkü işi bitmişdi. Buna görə də onun kefi kök idi. Ancaq indi, Aslanın yanına gedən əməkdaşlarını görəndə, qanı birdən-birə qaraldı. İki ay əvvəl bu xəstəxanada o da yatmışdı… On beş gün… Çox az adam gəlmişdi yanına. Sultan, İltifat, oğlu, Şərifə… Daha kim?.. Ha xatırladı, yadına kimsə düşmədi. Amma… Aslanın yanına gör necə gedirlər? Cibindən siqaret çıxarıb yandırdı və çatana qədər

sürücüylə bir kəlmə də kəsmədi. Maşından düşəndə həmişə «Sağ ol» deyərdi. Bu dəfə onu deməyi də unutdu.

DOQQUZUNCU FƏSİL

Orxanın kitabının işıq üzü görməsi hamıdan çox Gülmirənin ürəyini işıqla doldurmuşdu. Neçə gün idi ki, o, yerə-göyə sığışmayan bir sevincin qanadları üstündə uçurdu, institutda, alimlər arasında, ədəbi mühitdə deyə-gülə gəzir, Orxan haqqında, kitabı haqqında minnətdarlıq sözləri eşidirdi. Adamların çoxu Gülmirənin əvəzsiz, xeyirxah bir iş gördüyünü, Orxanı təzədən bir şair kimi kəşf eləyib həyata qaytardığını söyləyirdi. Bundan isə onun ürəyi daxili bir qürur hissilə dolub qabarırdı. O, bir nakam şairi ölməyə qoymamışdı, bir dilsiz məhəbbətin həsrət dolu fəryadlarını sıralayıb solmuş dəftər vərəqlərindən götürüb işığa çıxartmış, sevib-sevildiyinə qovuşa bilməyənlərin (həyatda isə belələri çoxdu) ixtiyarına vermişdi. İndi hara gedirdi, oxucular, şer həvəskarları arasında ancaq Orxanın kitabından danışıldığını eşidirdi. Bu söhbətlərdə sevinc qarışıq bir nisgil də hiss eləyirdi Gülmirə. Bu nisgil ona çoxdan, lap çoxdan tanış idi – bu, Orxanın yoxluğu nisgili idi.

Lakin bu gün Gülmirənin o böyük sevincinin üstünə su çiləmişdilər. Qızlar gətirib ona xəbər vermişdilər ki, İltifat ordaburda Orxanın kitabındakı şerlərin hamısını Gülmirəyə həsr etdiyini, Orxanla Gülmirənin arasında o vaxt bir məhəbbət macərası olduğunu söyləyib rişxəndlə gülürmüş… Gülmirə əvvəl bu sözü eşidəndə özünü itirmiş, rəng verib rəng almışdı. Çünki, Ümmügülsüm Gülmirəyə heyfi gələ-gələ:

– Sən nahaq bu şerləri üzə çıxartdın, Gülmirə! – demişdi. – Bu, qarğa məndə qoz var demək oldu lap. Yazmışdı, qoyaydın qalaydı başının altında, daha bunu faş eləməyin nə mənası vardı? İndi görürsən, İltifat kimi ağzıgöyçəklər, alçaq və pis adamlar sənin təmiz adını ləkələmək üçün bundan istifadə edirlər…

Fazilə də onun sözünə qüvvət vermişdi. Ancaq Gülmirə zərbəni qəbul edib özünə gələndən sonra təmkinlə:

– Qələt eləyir İltifat. – söyləmişdi. – Bəli, bu şerlər mənə yazılıb, Orxan məni sevirdi, bəli! Mən Orxanın o təmiz, o riyadan uzaq məhəbbətiylə indi də fəxr edirəm, qızlar. Siz Orxanı hayıf ki, yaxşı tanımırsınız. Möcüzə idi Orxan, bir parça kristal idi – tər-təmiz.

– Bilirsən mən niyə görə elə deyirəm, Gülü? – deyə Ümmügülsüm öz böyükməməliyini bildirmişdi – Sən hələ cavansan, elə ömrün boyu dul qalmayacaqsan ki. Nəhayət, bir gün biri qabağına çıxacaq, sevəcəksən, ya o səni sevəcək, ərə getmək istəyəcəksən. Bax, onda bu söz-söhbət sənin qabağını kəsə bilər, adının üstünə kölgə sala bilər, xoşbəxliyinə mane olar. Şükür allaha, sən ki, bizim kişiləri tanıyırsan. Özləri min hoqqadan çıxırlar, amma gərək onların aldığı qız, qadın təmiz olsun, heç kəsin əli dəyməsin ona. – Ümmügülsümün səsindəki rişxənd, kinayə açıq-aydın duyulmuşdu - hə, bəs nə bilmisən, bala!.. Gərək təmiz olsun. Soruşa da bilmirsən ki, ay filan-filan şüdə, özün çox təmizsən?.. Hə, cavab ver, sən çox təmizsən?.. Hə, cavab ver, sən çox təmizsən?

– Hə, düz deyirsən, təəssüf ki, belədi. Ancaq İltifatlar arxayın olsunlar – məni tanıyan tanıyır, mənim adım ləkə götürməz. Mən özüm bilirəm ki, təmizəm – vicdanım, namusum təmizdi – bu, mənə bəsdi. Qoy kim nə deyir, desin. İnsan gərək xırda hisslərlə yaşamasın, insan gərək uca, əlçatmaz bir zirvədə dayanmağı bacarsın – mən bu məsələnin o biri tərəfini daha üstün tuturam – Orxanın şerləri yaşamalı idi, üzə çıxmalı idi, sandıqlarda çürüməməli idi – o şerlərin mənə, sənə, ona həsr olunmağının əslində elə bir əhəmiyyəti yoxdu; şerimiz bir şairin ürək çırpıntıları ilə də zənginləşdi. Bax, əsas məsələ budu, qızlar. Müsəlman dedi-qodusu həmişə olub, yenə də var. Paxıl, alçaq adamlar həmişə kiminsə sevincinin üstünə su çiləməkdən ləzzət alıblar – bu, onların təbiətidir.

Onlar xeyli söhbət etmişdilər. Gülmirə zahirdə özünü sındırmamışdı, günortadan sonra öz stolu arxasında əyləşib burnunu çəkə-çəkə nə isə yazan İltifata gözucu nifrət hissilə baxmış-

dı. «Arvadsifət! Görəsən belə adamlar niyə yaşayırlar yer üzündə?! Tfu! Adam iyrənir!»

Lakin əslində pərt olmuşdu Gülmirə. Bu söhbəti, Nadirə onun qanının niyə qara olduğunu görüb səbəbini soruşanda, açıb ona da demişdi. Nadirə gülümsünüb əlini yelləmişdi:

– Əh, adam sözü danış sən də. İltifat özü nədi ki, sözü də nə ola?

Ancaq buna baxmayaraq, Gülmirənin kefi durulmamışdı, fikirli-fikirli işdən çıxmış, heç kəsə qoşulmadan, tək-tənha trolleybus dayanacağına gəlmişdi. Trolleybusda gedirdi, ancaq yanyörəsindəki adamları görmürdü, söz-söhbətlərini eşitmirdi. Ayaq üstə dayanmışdı, oturacağın dəstəyindən yapışmışdı, pəncərədən küçəyə baxırdı. Birdən gözü qabağındakı, dəstəyindən tutduğu oturacaqda əyləşmiş, nazik, qırmızı, son dərəcə gözəl dəbdə tikilmiş don geyən bir qadına sataşdı. Başı açıq idi, xurmayı saçlarını toplayıb kəlləsində sancaqlamışdı. Gülmirənin gözü parçada idi. Bu od tutub yanan parça xalis qan rəngində idi. Harda görmüşdü onu? Gülmirənin fikrinin səmti dəyişdi – yox, bu parçanı o hardasa görmüşdü, lap əlini də vurmuşdu. Qəribə idi – birdən-birə o parça Gülmirənin nəzərində əridi, mayeləşdi, qana döndü və düz Nadirəgilin parket döşəməli evinin içinə axıb töküldü. Gülmirənin tükləri qabardı. Bəli, xatırladı – bu, Nadirənin parçasına – iki il əvvəl Yaponiya səfərindən alıb gətirdiyi və böyük sevinclə: «Ceyhunun adına almışam!» – dediyi parçaya çox oxşayırdı. Oxşayırdı? Bəlkə özü idi elə? O parçadan məgər təkcə Nadirədə olmalıydı? Başqa adamda ola bilməzdi? «Mübarəkdi. Sağlığına qismət olsun, Nadirə bacı, gəlininin! Çox yaxşı parçadı». «Onu alanda inan ki, sən də yadıma düşdün. Dedim sənin üçün də bir paltarlıq alım. Əvvələn çox baha idi, ikincisi də düşündüm ki, Gülmirə qara paltardan əl çəkir ki, qırmızı parçadan tikilmiş don da geysin?»… «Yox, yox, mənim daha belə paltarlar geyən vaxtım keçib, Nadirə!»… Əvvəlcə o vaxt, səfər çamadanı ortadaykən aralarında olan bu söhbət beynində səsləndi, sonra döşəmədəki qurumuş qan – Ceyhunun qanı bir qırmızı parça – pərdə kimi gözlərinin qabağında cilvələndi, daha sonra isə,

lap bu yaxınlarda Nadirənin ağlaya-ağlaya işə saldığı «Qrundik» maqnitafonundan eşitdiyi söhbət – Ceyhunla Reyhan adlı bir qızın söhbəti eşidildi qulaqlarında. Reyhan!.. Hə, hə, Reyhan idi qızın adı!.. Bəlkə bu, elə həmin qızdı? Yəni bu, balaca boy, qəşəng qadın Ceyhunu öldürə bilər? Yox, yox, o söhbətdən aydın olurdu ki, Reyhan Ceyhunu çox istəyir. O öldürməz. Adam sevdiyinə necə qıyar!.. Bəlkə… bəlkə bax bu qız, Ceyhunu öldürən adamları tanıyır? Onlarla əlaqəsi var bəlkə? Bu ola bilməzmi ki, qatil Ceyhunu öldürüb evdən apardığı şeyləri – o parça da gedən şeylərin arasında imiş – bazarda, orda-burda, əl və tin alverçiləri vasitəsilə satdırsın? Gülmirə uçunurdu. Gülmirənin ürəyində birbirinin dalınca doğulan bu suallar cavabsız qalırdı – çünki çox həyəcanlı idi və diqqətini cəmləşdirə bilmirdi.

Gülmirə şüşə bazarın yanında çox adam düşdüyünə görə yer boşaldığından azca irəli keçdi, qızın sifətinə baxmağa başladı. Ağappaq üzü vardı. Nazik, alınma qaşları altında iri, qonur gözlərindən bir dalğınlıq oxunurdu. Baxışlarını pəncərənin şüşəsinə zilləyib küçəyə tamaşa eləyirdi. Arıq, mütənasib bədənli bir qadındı – boy-buxunundan uşağa oxşasa da, yaşı otuza yaxın olardı. Qaraşınlığından Gülmirə güman elədi ki, azərbaycanlıdı.

Qadın elə bil kiminsə baxışlarının ona zilləndiyini hiss elədi, başını döndərib altdan-yuxarı Gülmirəyə ötəri bir nəzər saldı. Elə bu zaman Gülmirə qeyri-iradi:

– Salam! Sən Reyhan deyilsən? – deyə soruşanda qadın qaşlarını dartıb:

– Çto? – söylədi. Və bu bir kəlmə söz, Gülmirəni silkələyib ayıltdı. Nə edəcəyini, nə deyəcəyini bilmədi Gülmirə. «Yox, o deyil. Bu heç azərbaycanlı deyil!..» – deyə ani olaraq fikrindən keçirtdi. Qadın üzünü yana çevirdi. Hətta onun «izvinite» söyləməyini də eşitmədi. Və sonra bir daha, Kirov parkının yanındakı dayanacaqda düşənə qədər dönüb Gülmirəyə tərəf baxmadı. Gülmirə çaşqın halda qızı nəzərləri ilə müşayiət edirdi. Ağır, təmkinli addımlarla irəliləyirdi – Gülmirə bilmədi ki, o, telestudiyaya gedir, ya parka. Çünki trolleybus fırlanıb üzü

aşağı sürətlə şütüyürdü. Gülmirə cismən trolleybusda idi, fikri-zikri geridə, o qırmızı paltar qadının yanında idi. «Yox, bu qadın o idi, o idi. Ceyhunun sevdiyi qadın idi. Rusca danışmağı niyə məni çaşdırdı? Axı o, lentdə də rusca danışmırdımı? Vay sənin! O idi. Hər halda o da olmasa, əynindəki parça o parça idi, mənim əlim dəyən o qırmızı parça idi…»

Gülmirə özünü danlaya-danlaya, poliklinikanın yanında trolleybusdan düşdü və geri, parka tərəf addımladı…

ONUNCU FƏSİL

– Sən gəl məni düzgün başa düş, Xəzan. Bax, bir aya yaxındı xəstəxanadasan. Maşallah, xeyli yaxşılaşıbsan – dilin, qulaqların, əllərin «dirilib» – doktor Kamilin təbirincə desəm. Sən hamıdan çox, özün-özünü qorumalısan, öz həkimin özün olmalısan, Xəzan. Axı sən… nə danışacaqsan mənə! Axı mən hər şeyi əlimin içi kimi bilirəm – məndən ayrılandan sonra keçən bütün həyatını bilirəm – onları indi təzədən mənə danışmaq, ürəyini yüngülləşdirmək, bir növ etiraf eləmək istəyirsən. Ancaq mən bilirəm ki, sən danışsan, istər-istəməz həyəcanlanacaqsan, əsəblərin gəriləcək, hisslər, xatirələr burulğanına düşəcəksən – bu isə, sənə hələ olmaz, Xəzan.

– Mən onları danışmayacağam, Əsəd.

– Bəs nə danışacaqsan? Çəkdiyin əzabları-əziyyətləri danışacaqsan, eləmi?.. Axı onlar da həyatının bir parçasıdı, Xəzan. Sənin əzabların – sənin ömür yolunun kölgəsidi, nəticəsidi. Onları da danışma – mən onları sənin danışacağından artıq təsəvvür eləyirəm, Xəzan. Odur ki, lazım deyil, Xəzan. Yaxşısı budu, sən mən deyənə qulaq as – allah qoysa, tamam-kamal sağalarsan, səni evə apararam, bax, evdə arın-arxayın, ürəyin istəyən qədər danışarsan.

– Niyə qoymursan… - dedi Xəzangül və sözünün dalını gətirə bilmədi, qəhər boğdu onu, gözləri yaşardı. Əsəd bu an düşündü ki, o özü də qəribə olub: illər uzunu içində, ürəyində dalbadal doğulan suallarına cavablar axtarmışdı, lakin tapa bil-

məmişdi – çünki bu suallara cavab verə biləcək adama əli, səsiünü yetməmişdi. Əli çatanda isə, Xəzangülün danışmaq iqtidarı olmamışdı. Beləliklə, bütün sorğuları cavabsız qalmışdı. Düzdü, onun marağını Sahilə, anasının güzəranından ordan-burdan danışdığı şeylərlə söndürmüşdü, üstünə su çiləmişdi, Əsədi bir qədər sakitləşdirmişdi. Lakin… bütün olub-keçənləri Xəzangülün öz dilindən eşitmək necə nə maraqlı idi Əsəd üçün. Buna baxmayaraq, Əsəd bu güclü istəyini boğurdu – Xəzangülün özünün xatirinə boğurdu.

– Bax, görürsən, heç də danışmamış ağlayırsan, Xəzan…

– Danışsam ağlamaram, Əsəd…

Əsəd çarəsiz qaldı. Kətilin üstündən qalxıb onun yastığını düzəltdi. Xəzangülün dodaqlarını dili ilə yaladığını görüb «!Barjom» şüşəsindən armudu stəkana su tökdü:

– Al iç! – dedi – Dil-dodağın quruyub.

Xəzangül nəmli gözlərilə qəmli-qəmli gülümsündü:

– Sən məndən çox yaşayacaqsan, Əsəd.

– Niyə belə deyirsən, Xəzan. Xahiş edirəm belə sözləri dilinə gətirmə.

Xəzangül iki-üç qurtum sudan içib stəkanı Əsədə uzatdı:

– Bilirsən, elə ağzımı doldurub su istəmək istəyirdim səndən ki, sən özün verdin… Sağ ol, Əsəd…

– Dəyməz, Xəzan… Bax, bir az toxdadım indi. Hə, əgər çox istəyirsənsə, danış…

Xəzangül uşaq kimi sevindi:

– Danışım? Danışım deyirsən?

– Hə. Danış, ancaq göz yaşı olmasın, ağlamaq olmasın – Sənə olmaz… Xəzangül elə bil bu sözə – icazəyə bənd imiş. Gözlərini yumdu, ani olaraq susdu – ona indiyəcən elə gəlirdi ki, bircə Əsədin razılığına bənddi – hər şeyi əvvəldən-axıra qədər, yerli-yataqlı danışmağa qadirdi. Amma sən demə, belə deyilmiş. Bütün fikri qarışdı, həyatının ağlı-qaralı günləri gəlib yumulu gözləri önündə canlandı, ancaq qatma-qarışıq şəkildə. Elə halda ki, əvvəli-axırı bilinmədi. Xəzangül çaşıb qaldı. İçini

acı bir hiss yandırdı. İyirmi il ərzində – nişan günündən, toy gününədək tutmuş xəstələndiyi günə qədər bir dənə işıqlı, fərəhli, könülaçan bir xatirə tapa bilmədi – hamısı kədər idi, hamısı göz yaşı idi, təhqir idi, təəssüf, peşmançılıq idi. Əvvəllər ona elə gəlirdi ki, həyatından qalın bir kitab bağlamaq olar. Ancaq indi başa düşdü ki, heç nə olmayıb həyatında. Yaşamayıb o, insan kimi ömür sürməyib!.. Kiminsə sözü, təkidi ilə, könlünü – bahar çiçəyi kimi təravətli, gözəl qəlbini bir zalıma tapşırıb – o da insafsızca, bir-iki dəfə qoxulayandan sonra ayaqları altına atıb, tapdalayıb – evə girəndə tapdalayıb, gecələr tapdalayıb, evdən çıxanda tapdalayıb. Sonra da, o gül solub ətrini, təravətini itirməmiş, çıxıb gedib… Öz həyatını danışmalı olsa, birinci o zalımdan başlamalı idi. Onun adını – Xəzangül indi anladı bunu – Əsəd kimi bir insanın yanında dilə gətirmək, ən azı onu təhqir etmək olmazdımı?! Xəzangülə elə gəldi ki, Əsədin dünyada bircə nəfər də düşməni ola bilməz. Əgər varsa, o da Aşurzadə ola bilər. Çünki o, təkcə Xəzangülü yox, Əsədin özünü də bədbəxt eləmişdi. Gözlərini açıb Xəzangül Əsədin ağ saçlarına baxa-baxa fikirləşdi ki, bu saçların belə qar olmasında o zalımın az günahı olmayıb. Yox, əsil günah elə Xəzangülündü, Xəzangülündü. «Nə danışım, necə danışım – danışsam ağzımda dilim yanar. Əsəd düz deyirmiş… Danışmaq olmaz, olmaz… Bəlkə elə Əsəd özü də eşitmək istəmir – Qanını qaraltmaq istəmir…»

– Çətindi, Əsəd… - deyə Xəzangül çırpınıb-çırpınıb, nəhayət, dilləndi – Danışa bilmirəm, Əsəd…

Əsəd sevindi:

– Heç lazım da deyil, Xəzan. Vallah, lazım deyil. Elə uşaq kimi, iki ayağını bir başmağa dirəmisən ki, danışacağam. Unut getsin olub-keçənləri.

– Sən unuda bilirsən?

– Yox, Xəzan. Elə deməyimə baxma.

– Mən də unuda bilmirəm, Əsəd… İnsan öz keçmişini necə unuda bilər axı. Bu, qətiyyən mümkün deyil.

– Düzdü, Xəzan. Unutmaq olmur, ancaq danışmamaq ki, olar?

Xəzangül ah çəkib mələfəni boğazına qədər sinəsinin üstünə çəkdi. Sonra baxışlarını dolandırıb Əsədə nəzər saldı. O, yorğun idi. Elə bil, bütün günü daş daşımışdı. Ancaq sifətinə yazılmış əzginlik, yorğunluq gözlərindən uzaq idi. O xırda gözlər lap əvvəldəki kimi heyranlıqla Xəzangülə, onun dən düşmüş saçlarına, əzablı bir ifadə həkk olunmuş sifətinə tamaşa eləyirdi. Bu bir ay müddətində Əsəd bircə an da Xəzangülün yanında olanda çimir eləməmişdi. Xəzangülü huş aparsa da, yatsa da Əsəd elə hey ona baxmışdı – sanki uzun illərin həsrətini canından çıxarmaq istəmişdi. Lakin iyirmi ilin hicranının törətdiyi daxili aclığı bu az müddətdə dəf etmək mümkün olan şeyə oxşamırdı.

Xəzangülün danışmaq həvəsi sönüb getmişdi və buna çox sevinirdi – danışsaydı, şübhəsiz, ağlayacaqdı, halı pozulacaqdı. Bu da yəqin idi ki, Əsədin də könlü pərişan olacaqdı… Amma indi Əsəd… mehriban-mehriban ona baxırdı, gözlərinə, onun hər nəfəsini, hər hərəkətini yığa-yığa baxırdı.

Xəzangül düşündü ki, neçə vaxtdı elə hey özü haqqında Əsədə söhbət eləmək, başına gələnləri danışmaq, onu hali etmək istəyir. İndi anladı ki, bu, etiraf eləmək arzusu imiş. Əsəd isə, buna qulaq asmaqdan qaçır, hər vəchlə qaçır və deyir ki, mən hər şeyi bilirəm sənin haqqında… «Bəs… bəs mən nə bilirəm onun barəsində? Heç nə… heç nə… Bu barədə nədənsə indiyəcən düşünməmişəm. Niyə axı? Vaxtım olmayıb, imkanım olmayıb?.. Yox, qorxmuşam. Soruşmasan da bilirəm ki, onun həyatı da bir həyat olmayıb… Sahilə deyir təkdi, evində arvad-uşaq yoxdu. Sənin şəklini stolunun üstünə qoyub. Yəni evlənməyib? Bəlkə evlənib – ayrılıb?.. Yazıq Əsəd… Səni mən bədbəxt eləmişəm…» – deyə Xəzangül yerində çevrikdi, sağ əlini başının altına qoyub:

– Mən danışa bilmədim, Əsəd. – dedi – Heç olmasa sən danış… Görüm günün-rüzgarın necə keçib, Əsəd?..

– …

– Mən təsəvvür eləyirəm, Əsəd…

– …

– Niyə susursan?

– Nə deyim, Xəzan?.. Həsrətlə keçən ömür, ömür deyil, Xəzan!..

– Kimlə evləndin, Əsəd?.. – Xəzangül özü də bilmədən soruşdu. Əsəd nə üçünsə mənalı-mənalı qımışdı, ah çəkdi. O, bu sualı elə vermişdi ki, guya Əsədin evlənməyi ona qəti aydın idi – sadəcə kiminlə ailə qurduğunu bilmək istəyirdi. Əsəd onu qınamırdı. Çoxları kimi, Xəzangülün özü də, görünür, ağlına sığışdırmırdı ki, könlü bir dəfə qırılan, ilk oxu daşa dəyən Əsəd, daha heç kəsə könül açа bilməyib, nişan taxıb toy eləməyib, ev-eşik, arvad-uşaq sahibi olmayıb. İndi hansı zəmanədi ki, bu cür sevən adam tapasan – bələləri, indi demək olar ki, yoxdu. Çıraqla gəzsən bir nəfər tapasan ya tapmayasan. Tapsan da tapmaq istəməzsən. Deyərsən, bu, ağıllı adam deyil. Çünki indi bu gün sevirəm – deyir biri, səhər nişanı qaytarır, o biri gün başqası ilə evlənir. Çünki indi, bu gün arvadı ölür, aparır dəfn eləyir, axşam yasa gələn qadınların arasında özünə bab qadın axtarır gözaltı. İndinin kişiləri belə olub. Əlbəttə, onda təkcə Xəzangül yox, heç kəs inanmaz ki, Əsəd evlənməmiş olar.

Əsəd bayaq Xəzangülün sualını eşidəndə buna görə köksünü ötürmüşdü.

– Bir allah bəndəsilə, Xəzan – dedi Əsəd. Xəzangülün gözləri parladı. «Nə yaxşı. Allah səni xoşbəxt eləməli idi».

– Gözəldi?..

– Hə.

– Bəs indi hardadı?

– İndi?.. – Əsəd cod tüklü başını qaşıdı. – İndi xəstəxanadadı, Xəzan.

– Xəstəxanada? – Xəzangül başını qolunun üstündən qaldırıb dikəldi – Nə danışırsan?

– Hə.

– Nəyidi?..

– Ağır idi, Xəzan. İndi yaxşıdı…

– Bəs… Bəs… sən onu orda, xəstəxanada qoyub… - Xəzangülün səsi titrədi, sözünü bitirə bilmədi. Deməsəydi də, fikri aydın idi: «Onu xəstəxanada qoyub neçə aydı gecə-gündüz mənim yanımda sərgərdansan?» Bu hiss boğazını tıxadı. Gözləri alacalandı. «Gör məni nə qədər sevirmiş bu, ilahi! Öl, yerə gir, Xəzangül».

– Həyəcanlanma, Xəzan… Gündüzlər sənin yanında oluram, axşamlar onun yanına gedirəm…

Xəzangül bir az sakitləşdi.

– Bəs… oğuldan-uşaqdan nəyin var, Əsəd?

– Bir qızım var, Xəzan.

– Allah saxlasın, allah saxlasın… Adını nə qoymusan, Əsəd?..

– Adını? – Əsəd ani sükutdan sonra cavab verdi – Adını Sahilə qoymuşam, Xəzan.

Xəzangülün qulağı guruldadı:

– Nə?

– Sahilə…

– A… Nə xoş təsadüfdü bu, Əsəd…

– Təsadüf deyil, Xəzan. – Əsəd gülümsündü yenə – mən öyrəndim ki, sən qızının adını Sahilə qoymusan, mən də qızımı elə çağırdım, Xəzan…

– Demək, sənin məndən xəbərin varmış… Bəs niyə gəlmirdin, bəs niyə səsini çıxartmırdın, Əsəd?! Niyə özünü göstərmirdin, Əsəd. Gəlsəydin, görsəydim, bəlkə bu hala düşməzdim, Əsəd.

– Nə bilim…

– Bəs… Onun adı nədi?

Əsəd fikirli halda:

– O kimdi? – deyə soruşdu.

– Arvadının adını deyirəm…

– A… arvadımın?.. Hə də, arvadımın… - Əsəd kəkələdi. – Adı… Xəzangüldü, Xəzan!

– Nə? Nə dedin?.. – Xəzangül qalxıb oturdu.

– Xəzangüldü adı…

– Nə danışırsan, Əsəd?.. – O, demək olar ki, qışqıra-qışqıra dedi bu sözləri – elə şey olmaz, Əsəd…

– Olar, Xəzan… Olar… Mənim bir Xəzangülüm var, Xəzan. Bütün ömrüm boyu bir Xəzangülüm olub, Xəzan – o da sənsən…

– Ay allahım, ay tanrım. Sənə qurban olum – çılğınlıqla söylədi Xəzangül və heç özü də bilmədi çarpayıdan nə zaman yerə düşdü, beş il torpağa dəyməyən ayaqlarını döşəməyə qoyub səndirləmədən şax, qollarını geniş açaraq, onun bu qeyri-adi sıçrayışından səksənib ayağa durmuş Əsədin boynunu qucaqladı, üzündən, gözündən, saçlarından öpməyə başladı. Öpmürdü, duz kimi yalayırdı və nəfəsi tıncıxa-tıncıxa: – Sənə qurban olum, ay mənim allahım, ay mənim tanrım – deyirdi. Əsəd onun çiyinlərindən bərk-bərk yapışmışdı, yıxılacağından qorxurdu. Əsəd heç bilmirdi onun ayağa qalxmağına belə sevinir, yaxud öz əzizini qolları arasında, nəfəs-nəfəsə gördüyündən belə şaddı. Xəzangül qollarını çəkdi Əsədin boynundan:

– O yana dur, Əsəd! – dedi. Əsəd çaşqın halda onun çiyinlərini buraxıb geri çəkildi – Bir az da o yana, Əsəd.

«Bu nədi, məni qovlayır, nədi? Yoxsa, başına hava gəldi?» – deyə düşünürkən Xəzangül bir də yalvarıcı səslə:

– Qurban olum, bir az da o yana dur – dedikdə, Əsəd onun məqsədini başa düşdü və çılğınlıqla deyilmiş bu sözlərin təsiri altında, müti bir uşaq kimi, lap qarşı divarın dibinə çəkildi. Elə bu zaman Xəzangül durduğu yerdən quş kimi qopub, qollarını geniş açaraq Əsədə sarı yeridi. Hərəkətlərində, addımlarında bir qətiyyət vardı, qorxu-ürkü hissindən uzaq idi Xəzangül… İki-üç addımlıq yolu gəlib ona çatanacan Əsəd ürəyini yedi, özünü saxlaya bilməyib, o da qolları havada ona sarı əyildi. Və sarmaşdılar. Əsəd onu öpə-öpə belindən yapışdı, ayağını yerdən üzüb fırladı…

– Sən yeriyirsən, Xəzan – dedi Əsəd qışqıra-qışqıra.

– Mən yeriyirəm, Əsəd – Xəzangül havada fırlana-fırlana söylədi. – Qoy məni yerə, qoy məni döşəmənin üstünə.

Əsəd onun üzündən, saçlarından öpə-öpə ehmalca yerə qoydu, çəkilib kənarda dayandı. Xəzangül ona, özünün ayaqlarına baxdı, baxdı, yox yıxılmırdı. Yox, o, ayaq üstə dayanmışdı. Birdən Xəzan-gül təzədən yerindən qopdu, Əsədə sarı gəldi və onu qucaqlayıb üzündən, pencəyindən öpə-öpə sürüşüb ayaqlarına yıxıldı:

– Sənin ayaqlarından öpəcəyəm, Əsəd. – dedi, ancaq Əsəd buna imkan vermədi, qolları altından tutub qaldırdı və sinəsinə sıxdı…

ON BİRİNCİ FƏSİL

Hacı şəhərin sakit, bağ-bağatlı bir məhəlləsində, akademiyanın və təzə tikilməkdə olan metronun yanındakı binalardan birinin beşinci mərtəbəsindəki tək otaqlı mənzilin qapısının zəngini basdı. Qapının üstünə ağ dəmir lövhədə sarı xətlə «S.A.Hüseynov» yazılmışdı. «Saleh Əlişir oğlu Hüseynov… Bu oğlandan çox şey öyrənmək mümkündü. Ceyhunun dostu olub – Salman, Nadirə onu çox yaxşı tanıyır – atası da Salmanın yaxın adamlarındandı…»

Hacı o vaxtdan, Nadirəgildə maqnitafonda Ceyhunla Reyhan adlı bir qadının söhbətini dinləyəndən sonra bu evə üç dörd dəfə gəlmişdi. Özü də mülki paltarda, müxtəlif vaxtlarda. Heç kəsə – qonum-qonşuya da heç nə demədən… Ancaq Salehi evdə tapa bilməmişdi. Hacı öyrənmişdi ki, bu Saleh deyilən oğlan, çox səliqəli, bahalı paltarlar geyib qalstuk bağlayan bir centlemen olsa da, şələ-şur, qabağından yeməyən, içkini və qadınları xoşlayan bir cavandı. Həmişə pulu olardı, xərcləyəndi, yeyib-içməyi, restoranlarda vaxt keçirməyi sevəndi. Tez-tez turist dəstələrinə qoşulub gah ölkə daxilinə, gah xaricə səfər etməkdə, şəhər cavanları arasında az qala birinci yeri tuturdu. Bunda qeyri-adi bir şey yox idi – atası akademik idi. Yəqin pul

sarıdan, putyovka sarıdan oğluna kömək eləməyə həmişə imkanı olurdu. Bu evi də – bu tək otaqlı mənzili də almışdı Salehə. Onda Əlişir akademiyanın mənzil komissiyasının üzvü idi – Əlişir uzaqgörən adam olduğundan, Saleh hələ körpə ikən – onda Salehin iki-üç yaşı ancaq olardı – ev qayğısına qalmışdı, prezidentin adına ərizə yazmış, elmi iş yazmaq şəraitinin olmadığını çox tutarlı şəkildə əsaslandırmış, «xüsusi hal» kimi bu otağı ələ keçirmişdi. Ancaq həmin otaq düz iyirmi il boş qalmışdı, qapısı, pəncərəsi bircə dəfə də açılmamışdı. Qonşular mat-məəttəl idi, bu otaq kimindi, niyə köçmür görəsən. Hamıdan çox bu, Bədrəddini düşündürürdü. Çünki ona da bu binadan tək otaqlı mənzil vermişdilər. Dörd uşağı, arvadı, özü… Evdə tərpənməyə yer yox idi… Bədrəddin ora-bura çox yazmışdı ki, mənim mənzil məsələmi komissiya düzgün həll eləməyib, mənə heç olmasa iki otaq düşməliydi. O, evlər idarəsindən öyrənə bilmişdi ki, bu tək otaq, o zaman elmlər doktoru olan Əlişir Hüseynovun «qismətinə» yazılıb. Və Bədrəddin ərizələrinin birində onun da adını çəkmişdi. «Kommunist» qəzeti redaksiyasının müxbirinin, faktları dərindən öyrənib akdemiyanın mənzil komissiyasının bölgü zamanı düzgün hərəkət etmədiyini, bir sıra qanunsuzluqlara yol verdiyini yazdığı məqaləsində Əlişirin də adı çəkilmişdi. Əlişir onda şüvərək, səliqəli geyinən, gözlərinə qızılı sağanaqlı eynək taxan (elə indi də o eynəyi taxır) bir alim idi, Moskvadan təzə gəlmişdi, arvadı Marina Petrovna ilə iki otaqlı mənzildə yaşayırdı. Onda – o məqalə çıxan zaman, Bədrəddin Əlişir Qafuroviç ilə rastlaşanda, o, eynəyinin altından qəzəblə Bədrəddinə baxmış:

– Görərsən, sənin partbiletini aldırmasam, onda mən heç Əlişir Qafuroviç deyiləm – demişdi.

Bədrəddin də:

– O bileti mənə sən verdirməmisən ki, sən də aldırasan? – söyləmişdi. – Düz söz acı olur? Sən alimsən, sən kommunistsən, sənin vicdanın necə qəbul edir ki, mənim uşaqlarım çarpayının altında, kresloda yatsın, sən isə bir otağın ağzına qıfıl vurub saxlayasan ki, sənin oğlun, inşallah, böyüyəndə evsiz

qalmasın?.. Bunu sənin vicdanın necə qəbul edir, yoldaş alim? Danışanda ağzına çullu dovşan sığışmır, etikadan, moraldan danışırsan, tribunadan ağzın köpüklənə-köpüklənə prinsipiallıqdan danışırsan. Deyirəm o otaq onsuz da boş qalıb – insan nəfəsinə həsrət çəkir – hələlik, mənim şəraitim düzələnə qədər, açarı ver, müvəqqəti istifadə eləyək – oğlun böyüyəndə, sənə mənzil lazım olanda boşaldaram, vallah, boşaldaram. Deyirsən, yox, bu qeyri-qanuni olar. Qanun gözləyən oğlan, bəs qamarlayanda heç qanun yadına düşmədi?.. İndi mənə gələndə qeyri-qanuni oldu?.. Özün də deyirsən, biz yoldaşıq, biz həmkarıq… Budu sənin yoldaşlığın?

Bu söz-söhbətlər, əlbəttə, söz-söhbət olaraq qalmışdı. Nə Əlişir Qafuroviç Bədrəddinin partiya biletini aldırmışdı, nə ona öz oğlunun otağının açarını vermişdi, nə də Bədrəddinin vəziyyəti yaxşılaşmışdı. O, on beş il həmin boş otağın yanında yanıb yaxıla-yaxıla, həsrətlə baxa-baxa yaşadıqdan sonra, öz puluna telestudiyanın böyründə tikdirdiyi dördotaqlı kooperativ mənzilə köçmüşdü. Onda da hələ bu otaq boş idi, çünki hələ Saleh qızıl eynəkli atasının himayəsi altında böyüməkdə idi. Marina Petrovna Əlişir Qafuroviçdən ayrılıb, oğlunu da onun yanında qoyub Moskvaya – ata-anasının yanına qayıtmış və orada təzədən bir «uzaq səfərlər kapitanına» ərə getmişdi. Əlişir altı il Salehlə bir damın altında tək yaşayıb olmazın əziyyətlər çəkəndən sonra, «subaylığ»ın daşını atmış, öz şöbəsində işləyən Mərcan xanımla evlənmişdi. Heç bir il keçməmiş, Mərcanla Saleh arasında, necə deyərlər, «ailəvi konflikt» düşmüş, bu zaman universitetin birinci kursunda oxuyan oğlan atasının gözündə birdən-birə böyümüş, «daha maşallah yekə kişisən, o sənin evin-eşiyin, bax, bu da açarın. Get yaşa, oğul!» – demişdi. Ondan sonra Salehin asudə, arxayın, məsuliyyətsiz günləri başlamışdı. Bu tək otaq, sanki boş, səs-küyə, danışığa, musiqiyə həsrət qaldığı günlərin də kimdənsə acığını çıxmışdı – məhəllənin ən hay-haraylı, gəl-getli, qonaq-qaralı bir mənzilinə dönmüşdü. Tələbə yoldaşları, biri-birindən qəşəng, cavan qızlar – qadınlar ayaq açmışdı bu evə. Saleh bu həyətə gec

gəlmişdi deyə, heç kəsi tanımırdı, kimsə ilə əlaqə saxlamırdı və elə bilirdi ki, heç kəs də onu tanımır. Halbuki həyət adamlarının çoxu onun kim olduğunu, kimin oğlu olduğunu yaxşı bilirdi.

… Saleh qapını açan kimi, Hacını tanıdı. Bu, Ceyhunun yas yerindəki adam idi, mülki paltarda olsa da, bilirdi ki, o, orqan işçisidi. Kiminsə məhkəməsində müstəntiq kimi görmüşdü onu. Tanımışdı, ona görə, bacardığı qədər özünü təmkinli, sakit, hər cür təşvişdən uzaq kimi aparmağa çalışmışdı. Və çadırın böyründə cızhacızla qaynayan samovarın yanında, çay süzən Samirə yavaşca pıçıldamışdı:

– Orada, Salmanın qabağında əyləşən orta boylu, yaraşıqlı, boz kostyum geymiş kişi var ha, bax o, milisdi. Ceyhunun qatilini axtarır.

– Yox a? – Ömründə məktəbdən, kitabdan, rənglərdən və fırçadan başqa hələ çox şeydən xəbəri olmayan (qadınlarla da təzə-təzə maraqlanmağa başlamışdı) Samir bir uşaq sadəlövhlüyü ilə təəccübünü gizləyə bilməmişdi – Ceyhunun qatilini məgər burda axtarmaq lazımdı? O, indi allah bilir haralarda səksəkə ilə yaşayır.

– Milis belədi, Samir. Hər yerə başını soxmalıdı, öyrənməli, göz qoymalıdı. Bayaqdan fikir verirəm – o, bir-bir yasa gələn adamların üzünə baxır, nə isə oxumağa çalışır.

– Yaxşı da eləyir, qoy axtarsın. Tapılmalıdı Ceyhunun qatili. Onun qanı yerdə qalmamalıdı. Tapsam, mən özüm onun canını alaram.

– Hm… - deyə Saleh sağ qaşını yuxarı qaldırıb Samirə gizlicə fikir verdi və yadına düşdü ki, Samir Ceyhunu çox istəyirdi. Yaxın idilər, çox yaxın idilər. Saleh onlara sonradan qoşulmuşdu. Və Saleh o bədbəxt hadisə üz verəndən bəri Samirin üzünün bircə dəfə də gülmədiyini, gözlərinin hey yol çəkdiyini çox görmüşdü. Ancaq buna adi bir şey kimi baxmışdı; dost itkisinin göynərtisi kimi baxmışdı. İndi isə Samirin sözlərində bir qəzəb də oxunurdu. Və qəzəb hardasa Salehi üşüdürdü. Canındakı üşütməni gizləməyə çalışaraq Samirin ar-

mudu stəkanlara süzdüyü çayı güllü siniyə yığıb məclisə aparmışdı. Saleh gedəndən sonra Samir marağını boğa bilməyib boş stəkanları yığmaq bəhanəsi ilə çadıra girmiş, Salmanla üzbəüz əyləşən kişiyə ötəri diqqət yetirmişdi. Doğrudan da o, çox narahat görünürdü, gələnlərə, gedənlərə xüsusi maraqla fikir verirdi. Salehin «milis» adlandırdığı kişi hətta iki daşın arasında quş baxışı ilə Samirə də baxmağa fürsət tapmışdı.

… Saleh ağzındakı tikəni diri-diri udub:

– Sizə kim lazımdı? – deyə udquna-udquna soruşduqda Hacı mülayim bir səslə:

– Sən Saleh deyilsən? – deyə xəbər aldı.

– Bəli.

– Sənin yanına gəlmişəm.

Saleh çaşqın halda geri çəkildi:

– Buyurun.

Hacı təmiz şotkalanmış və par-par parıldayan ayaqqabılarını pol əskisinə silib içəri keçdi. Saleh qapını onun arxasınca çəkib bağladı. Hacı dar, mavi rəngli dəhlizdən otağa və qapısı açıq mətbəxə nəzər saldı. Mətbəxt stolunun üstündə qab-qaşıq, araq şüşəsi vardı. Kimsə gözə görünmürdü – tək idi Saleh…

– Keçin əyləşin. – Saleh sol əlilə otağı göstərdi. Hacı otağa daxil oldu, Saleh isə mətbəxə keçdi.

Divardan əl ilə toxunmuş, zərif güllü bir xalça asılmışdı. Naxışlarından Hacı o dəqiqə təyin elədi ki, bu, Çin xalısıdı, özü də qədimdi və ən azı yüz əlli, iki yüz ilin yadigarıdı. Xalı asılan divarın dibində üzərinə boz örtük salınmış divan qoyulmuşdu. Ortalıqda stol, üç-dörd stul, divanın yuxarı tərəfində iki kreslo, arasında alçaq jurnal stolu və onun da üstündə bir maqnitafon vardı. Vidiomaqnitafon küncə qoyulmuşdu. Qarşı divara söykənmiş servantın içi isə cürbəcür xrustal stəkanlarla, piyalələrlə, servizlərlə dolu idi. Çarpayı isə aşağı tərəfdə idi. Səliqə-sahmana söz ola bilməzdi… Hacı otağı nəzərdən keçirib oturmağa macal tapmamış Saleh əlində «Malbora» siqaretinin qutusu və üstündə çılpaq qız şəkli olan alışqan içəri gəldi, onları

stolun qırağına qoyub divanda əyləşdi, qıçını qıçının üstünə aşıraraq arxayınca oturdu.

– Niyə ayaq üstə durmusunuz? Əyləşin, xahiş edirəm. – dedi və sınayıcı baxışlarla Hacıya baxdı. Hacı əlindəki dəri qovluğu stolun üstə atıb oturdu və gülümsünərək:

– Yox, maşallah, pis yaşamırsan? – söylədi.

– İndi şükür, kim pis yaşayır ki, mən də pis yaşayım?.. Bir də mən akademik maaşı alıram.

– Necə yəni akademik maaşı.

– Paxan akademikliyinə ayda üç yüz əlli manat alır və üstündən bir qəpik götürmədən mənə verir. – deyə Saleh qımışdı.

– A… - Hacının qalın, pırpız qaşları yuxarı dartıldı. – Pis pul deyil. Bəs təqaüd almırsan?

– Əh, təqaüdü neynirəm. Onların qırx-əlli manatına qalmışam? Deyirəm, qoy imkanı olmayanlara versinlər.

– Alicənablıq eləyirsən, Saleh. – Hacının səsində yüngül bir istehza duyuldu, ancaq Saleh özünü o yerə qoymadı.

Salehin gözləri qızarmışdı. Araq iyi Hacını uzaqdan vururdu və hiss eləyirdi ki, siqareti siqaretin oduna calayan Saleh tüstü, tənbəki qoxusu ilə içdiyini gizləmək istəyir, arağın iyini ört-basdır eləməyə çalışır.

– Bağışlayın, mən kiminlə söhbət eləyirəm. Görürəm, siz məni tanıyırsınız… Amma mən sizi…

– Hə, mən özümü təqdim eləməyi unutdum. Mən müstəntiqəm. Mayor Hacı Əliyev…

Saleh yarıya qədər yanmış siqaretinə dərin bir qüllab vurub tüstünü havaya üfürəndən sonra:

– Müstəntiq? – deyə təəccüblə xəbər aldı. Ancaq özü də hiss elədi ki, bu təəccübü çox süni çıxdı. Hacı da bunu tutdu və yəqin etdi ki, Saleh onu tanıyır. Saleh bayaqdan ürəyində qəribə bir qorxu keçirirdi. Bu gəlişdən yaxşı heç nə gözləmirdi. Lakin maraqlı idi ki, indi o, nə deyəcək, nə soruşacaq. Görəsən nə bilir Hacı?..

Bu suallar daxili suallar idi və hələlik heç birinə cavab vermək mümkün deyildi. – Deməli, müstəntiq… Çox yaxşı. Mənə dair qulluğunuz, yoldaş mayor?

– Mən Ceyhunun işini aparıram, Saleh!

– A… indi başa düşdüm. – Ceyhun təzə siqaret yandırdı, fikrə getdi:

«Mənim yanıma niyə gəlib? Bəlkə…» – deyə fikrindən keçirtdi və öz-özünə, qəti bir əmr verdi: «Ehtiyatlı ol, Saleh. Bu boş-boşuna gəlməz bura… Soyuqqanlı ol, Saleh… Yoxsa korlaya bilərsən işləri!» – hələ də oğruları, qatilləri tapmamısınız?

Hacı günahkar kimi:

– Təəssüf ki, hələ də yox… - dedi.

– Mən isə elə bilirdim artıq qatillər tutulub, güllələnib də!

– Tutulsaydılar, siz eşitmiş olardınız.

– Mən hardan eşidə bilərdim?

– Bəs… daha Ceyhungilə gedib gəlmirsən?

– Yox, düzü, ürəyim gəlmir. Axırıncı dəfə qırxı günü gedənəm. Sonralar ha istəmişəm gedim, qocalara baş çəkim, ancaq ayaqlarım getməyib. Bizi – oğlunun yoldaşlarını görəndə… yazıqların əhvalı tamam dəyişir. Adamın ürəyinin başı soyulur… Mən şəxsən Salman əmimin də, Nadirə xalamın da gözünün içinə baxa bilmirəm, vallah. Bax, onu yadıma saldınız, bütün bədənim əsir… - Saleh susdu, qalxıb gəzişdi, sonra nə fikirləşdisə, mətbəxə gedib ağzı təzəcə açılmış «Stoliçnı» şüşəsini, iki piyalə, təzə xiyar-pomidor doğranmış qab, iki də çəngəl gətirdi. Süzdü, birini Hacının qarşısına qoydu, o biri piyaləni götürdü:

– Nuş edin, Hacı müəllim.

– Yox, mən içən deyiləm.

Saleh israr etmədi. Öz piyaləsini başına çəkdi. Üz-gözünü turşutmadı da: elə bil su içirdi, acı araq yox. Handan-hana çəngəllə bir xiyar qıçası atdı ağzına və xırıltı ilə yeyib: - Yazıq Ceyhunun adı gələndə bütün ovqatım təlx olur. – dedi və yenə

siqaret yandırıb, - Yəni heç izinə də düşməmisiniz qatillərin? – deyə soruşdu.

– Düşmüşük… - Hacı soyuqqanlılıqla söylədi. Salehin ürəyi əsdi:

– Düşmüsünüz?

– Bəli. Ceyhunun ölümündə bir qadının əli var.

– Qadının?

– Hə. Sənə təəccüblü gəlir?

Saleh qadın söhbətini eşidəndə azca toxtadı. «Demək, məndən heç nə bilmir…» Mayorun sualı müqabilində o, çiyinlərini çəkməklə kifayətləndi.

– Bu qadın Ceyhunu tanıyırmış, sevirmiş… Gəlib gedirmiş yanına.

Saleh: «Reginadı. Reginadan şübhələnirlər!» – deyə tələsik qərar çıxartdı ürəyində. «Regina ələ keçsə… heç nə… İşin üstü açılacaq.»

– Bəs… nədən bilirsiniz ki, qadın əli var bu işdə? Görən olub, tanıyan var o qadını?

– Yox. Məsələ belədi ki, Nadirənin evindən aparılan şeylər içində, çox manşırlı, yadda qalan bir parça da olub – Yapon parçası… İndi həmin qadın o parçanı tikdirib, arın-arxayın bu şəhərdə gəzir özüyçün.

Parça söhbəti ortaya gələndə… Saleh lap arxayınlaşdı. Çünki o, evdən çıxanda – Ceyhunu vurandan sonra tələsik gedərkən pal-paltar adına heç nə götürməmişdi. Şkafı, çamadanları töküb-töküşdürəndə gözünə deyəsən qırmızı parça dəyməmişdi də. Kim bilir, bəlkə də varmış, həyəcanlı olduğundan görməyib? Ola bilərdi… «Yox, Regina deyil…»

– Bəs… Niyə o qadını tutub soruşmursunuz ki, bu parça sənin üçün hardandı?..

– Bir yoldaş görüb o qadını. Ancaq… itirib sonra. İndi bütün şəhəri axtarırıq…

– Hm… Demək belə…

– İndi… Sizin – Ceyhunun dostlarının köməyi lazımdı bizə. Heç ola bilməz ki, siz – mərhumun yoldaşları o qadını tanımayasınız. Heç olmasa görmüş olarsınız…

– Hm… Maraqlıdı… - dedi Saleh və çox incə bir mətləbin ortalığa gəldiyini dumanlı halda başa düşdü – Qadın… Bu, çox güman, Reginadı. Tutaq ki, belədi və mən dedim ki, yox tanımıram. Bəs… Samir? Reginanı o da tanıyır və deyəcək belə bir qadın var… Əgər Samir sadəcə şübhələnsə ki, bu işdə Reginanın əli var, mütləq satacaq… Reginanı üzə çıxartdılar, heç nə. Samirlə görəsən danışıb? Danışa bilməz… Samir yoxdu burda, Leninqraddadı… Amma bunların əlində oraya gedib Samirdən soruşmaq nə çətin işdi ki?.. Yox, meydan daralır… Qırmızı paltar… Axı… mən verməmişəm ona bu qırmızı paltarı. Verdiyim pulları da rəngli televizora xərclədi. Yəni o parça çox bahalı parçadı – Reginanın onu almağa gücü çatmaz… Yox, bu Regina deyil. Bəs onda kimdi? Bəlkə məndən sonra doğrudan da evə oğrular gəlib?.. Nə bilmək olar…» – Çox maraqlıdı – deyə Saleh ani olaraq beynində parlayıb sönən fikrini – dəhşətli fikrin təsiri altında, öz aləmində izi azdırmağı qərarlaşdırdı – Ceyhun və qadın? Mənim heç ağlım kəsmir, yoldaş mayor. Ceyhun ana uşağı idi, ağzından süd iyi gəlirdi hələ yazığın. Həm də qız kimi utancaq idi. Yox, bu variant ağlıma batmır mənim. Mən şəxsən… Ceyhunu tanıyan elə bir qadın görməmişəm, tanımıram da. Ceyhun özü də bir söz deməyib mənə. Olsaydı, deyərdi. Deyirsiniz… Ceyhungilə gəlib gedirmiş o qadın?

– Hə.

– Onda… Nadirə xala görməmiş olmaz!

– Təəssüf ki, görməyib. Heç ağlına da gəlmirmiş.

– Onda… - Saleh səksəkə içində soruşdu – Onda yəqin qonum-qonşulardan kimsə görüb, eləmi?

– Yox. Onlardan da kimsə görməyib…

– Bəs onda?.. – Salehin içini maraq, özü də qorxu qarışıq bir maraq yandırırdı. Hacının danışıqlarından, söhbətlərindən Saleh hiss eləyirdi ki, mayor ondan şübhələnmir. Sadəcə, özünün dediyi kimi, kömək üçün, məsələləri aydınlaşdırmaq

üçün gəlib yanına. «Sən özünü çox pis aparırsan, Saleh» – deyə ürəyində kənar adama söyləyirmiş kimi, özünə təpindi… - «şübhələnə bilər». Ona görə vermək istədiyi sualı yarımçıq kəsib yenə öz fərziyyəsini doğrultmağa çalışdı. Çünki Hacıya məlum olan kartlardan onun xəbəri yox idi – nə lent yazısından, nə o qadının adının «Reyhan» olduğunu mayorun bildiyindən hali deyildi Saleh. Və yaxşı ki, Hacı bu məsələləri açıb demirdi ona. Salman, Nadirə bu uşaqları – Salehi, Samiri, onların valideynlərini o qədər tərifləmişdi ki, mayor ağlına da gətirmək istəmirdi ki, bayaqdan əsil qatillə üz-üzə oturub, danışır. Salehdə hiss elədiyi çaşqınlığı, həyəcanı da o, pis yerə yozmurdu, bir dost, tay-tuş, yoldaş itkisindən doğan hal hesab eləyirdi. Və bu, dəhşət idi, nə kimi pis nəticələr, bədbəxtliklər gizlənirdi bunun altında – hələ Hacıya məlum deyildi. Hacı sadəcə düşünürdü ki, Saleh yaxşı yoldaşı olub Ceyhunun. Onun ölümündən sarsılıb. Hələ də özünə gəlməyib. «Xarakterdi Saleh. Özü də yaşından çox bilir…» Hacı belə düşünərkən Saleh deyirdi:

– Tutaq mənə deməyib kimisə sevdiyini. Bəs Samirə? Ona mütləq deyərdi; amma ona da deməyib – Çünki Samirə demiş olsaydı, o da mənə söylərdi. Yox, mənə elə gəlir ki, Ceyhunu oğrular öldürüblər. Bu son amnistdən sonra şəhərdə bir neçə belə hadisə olub – hamı danışır. Siz də eşitmiş olarsınız. Məncə qatili amnistə düşüb həbsxanalardan çıxanların arasında axtarmaq lazımdı. Çıxıblar, pul yox, yemək-içmək yox. Yəqin də eşidiblər ki, Qurbanzadələrin hər ikisi alimdi, kalan alırlar. Özlərini toxuyublar. Ceyhun da yəqin müqavimət göstərib, vurublar. Qadın məsələsi olsaydı, evdən heç nə aparmazdılar. Halbuki, əllərinə nə keçib, aparıblar. Mən əvvəlcə çit-çülə apardıqlarını eşitməmişdim. İndi deyirsiniz, pal-paltar, parça-purça da aparıblar – bu, ancaq oğru işidi. Həmin o qadın ki, deyirsiniz, o parçanı onlardan alıb dəyər-dəyməzinə.

Hacı Salehin sözlərinə qulaq asırdı, məntiqinə, mühakimələrinə fikir verirdi, ancaq, əslində, bu dəqiqə o, Salehlə özünün bu yaşda olduğu çağları göz qabağına gətirib müqayisə eləyirdi. Hacı bu yaşda kənddə idi, atası müharibədən qayıt-

mamışdı deyə evin, o boyda ailənin (altı uşaq vardı Hacıdan başqa) dərdlərini tək çiyinlərində daşıyan anasına həyan olurdu, əl tuturdu. Mal-qaraya baxmaq, tövləni təmizləmək, otpəncər biçmək kimi işlər onun boynuna idi. Dərslər qurtaran kimi də, bütün yay tətilini kolxozda işlərdi. Min bir qayğısı vardı. Onuncunu bitirib anası ilə özündən kiçik bacı-qardaşları ilə xudahafizləşib Bakıya oxumağa gələndə cibində otuz manat pulu vardı. İnstituta girə bilmədi, mədənə fəhlə düzəldi, doxsan manat pul alırdı. Hər ay anasına otuz manat pul göndərirdi, yarı ac, yarı tox dolanırdı. Üç il sonra, ali məktəbə girənə qədər belə yaşamışdı Hacı. Elə tələbəlik illəri də fərəhsiz keçmişdi. Amma buna bax – deyə o, Saleh barədə düşünürdü – Gör özündən necə razıdı. Niyə də olmasın. Akademik oğludu. Evi-eşiyi. Özü demişkən, akademik maaşı… heç bir çətinlik görməyib. Hazırın naziri olub. Bunlar heç nəyin qədrini bilməzlər».

– Demək, belə – dedi Hacı fikirli-fikirli – Demək, sən mənə kömək eləmək istəmirsən, Saleh…

– Vallah, bir şey… bilsəydim, deyərdim… Ceyhun mənim ən yaxın dostum idi – Mən onun ölümünə atasından-anasından az yanmıram, yoldaşlarımdan…

Hacı ayağa qalxdı…

… O, gedəndən sonra, Saleh dalbadal iki piyalə araq içdi və divanda oturub dərin fikrə getdi… «İşlər şuluqdu, Saleh» – dedi öz-özünə.

ON İKİNCİ FƏSİL

Şər qarışan vaxtıydı. Zərli pərdələri kənara çəkilmiş pəncərədən içəri qərib axşam qaranlığı axıb dolurdu. Otaq sükut içində mürgü vururdu. Elə sakitlik idi ki, sanki dörd otaqlı bu mənzildə heç kəs yox idi. Nurəddin yumşaq kresloda yarı uzanmış halda oturub qıçlarını xalça üstə uzatmışdı və nəfəsliyi açıq pəncərədən çölə baxa-baxa fikirləşirdi ki, görəsən arvad-uşaq hardadı. Samirdən səs-səmir yox idi, Mürşüdün evdə olub-

olmadığı çox vaxt hiss edilmədiyindən o, təyin edə bilmirdi ki, oğlu burdadı ya yox. Ürəyi sıxılırdı, iri, kobud əliylə ürəyinin üstünü ovxalayırdı, ancaq küt ağrı azalmırdı, təngnəfəslik keçib getmirdi. İşığı yandırmaq lazım idi, ancaq Nurəddin qalxıb qapı ağzındakı düyməyə barmağını uzatmağa ərinirdi.

İşdən gələndən sonra elə kresloda bir saatacan çimir eləmişdi, idarədə başını-beynini yorub şişirtmiş gərginlik bir az azalmışdı. Telefon zəngləri, ayrı-ayrı adamlarla söhbətlər, gah qan qaraldan, gah fərəh bəxş eləyən qayğılar hər gün bu və ya digər şəkildə təkrar olunduğundan bezdirici, usandırıcı görünürdü Nurəddinə. Ancaq son vaxtlar deyəsən buna adət eləmişdi. Bunlar olmayanda, xüsusən şənbə və bazar günləri darıxırdı. Səbəbini çox düşünüb tapmışdı; evdə hakimiyyət yox idi. Özünü çox zabitəli, hökmlü adam saysa da, bu kiçik ailə artıq onun idarəsi altından çıxmışdı. Böyük oğlu arvad-uşaq sahibi olandan sonra, demək olar ki, ayağını ata mülkündən çəkmişdi. Hərdən bir zəng eləməklə kifayətlənərdi. Samirə onun narahat, çılğın rəftarına uzun ilər dözə-dözə artıq biganələşmişdi – Nurəddinin xoş sözünün də, qəzəbinin də onun üçün heç bir təsiri və əhəmiyyəti yox idi. Bazar-dükan, biş-düş idi Samirənin işi. Xörəyi yaxşı çıxanda, duzu-tamı yerində olanda sevinirdi. Təzə, yağlı ət, ölüşgəməmiş göy-göyərti, içi puç olmamış turp alanda xoşhal olurdu. Ərinin kitabının, məqaləsinin, əsərinin çıxmasının elə bil zərrəcə ona dəxli yox idi. Sanki onlar tamam yad bir adamın kitabı – əsəri idi ki, Nurəddin evə gətirirdi, ilk vaxtlar yazı stolunun üstə saxlayıb bir neçə gün gedib-gəlib, oturub-durub baxırdı, gələn dostlarına fərəhlə üstünü yazıb bağışlayırdı. Onlar da onu ağız dolusu tərifləyirdi, «Sən bizim böyük alimimizsən, sənin lə fəxr eləyirik!» - deyirdilər. Bəzən Samirə xörək gətirəndə, çay verəndə belə söhbətlərin istər-istəməz şahidi olurdu və nədənsə ona elə gəlirdi ki, bax bu adamlar yalandan, könlü xoş olsun deyə, uzaqgörənlik edib Nurəddini tərifləyirlər; ya ikiüzlüdülər onlar, ya da yaltaqdılar. Samirənin, evdar qadın olsa da, universiteti bitirəndən, Nurəddinə ərə gedəndən sonra, ictimai həyatdan, öz sənətindən ayrı düşüb bu

dörd divar arasında yaşasa da, bir çox məsələlərdə olduğu kimi, əri barədə də öz fikri var idi. Düzdü, o, bunu indiyəcən dilinə belə gətirməmişdi. Ancaq ürəyindəydi bu fikri və ürəyində deməkdən heç kəsdən, hətta Nurəddinin özündən də qorxmurdu – çünki, - Samirə şükür eləyirdi – nə yaxşı ki, Nurəddinin telepatlığı yoxdu. Yoxsa onun yeganə «azadlığ»ı – qəlbində sərbəst, qorxusuz-ürküsüz fikir söyləmək, düşünmək «azadlığ»ı da əlindən alınardı və onda Samiräni heç nə bu evdə saxlaya bilməzdi. Baş götürüb gedərdi – çünki onda Nurəddin arvadının onun barəsindəki fikrini açıq-aydın oxuyardı və dözməzdi. Samirənin isə, Nurəddini dünyada hamıdan yaxşı tanıyan bir insan kimi, fikri çoxdan qətiləşmişdi: Nurəddinin özü nədi ki, yazdığı da nə ola! Hələ tələbəlik illərində, Heydər Hüseyn, Əli Sultan, Aslan Aslanzadə kimi məşhur alimlərin kəlamlarına qulaq asan Samirənin beynində belə bir qənaət yaranmışdı ki, yaxşı insan olmayan yaxşı kitab yaza bilməz. Kitab yazan adam gərək fövqəlbəşər olsun, təmiz olsun, müqəddəs olsun, lap gərək allah olsun. Alim də, şair də… Bax, gərək belə olsun. Kim deyə bilər, kim ağlına sığışdıra bilər ki, Nizami, Bəhmənyar, Nəsimi, Füzuli, Seyid, Sabir… pis adam olublar?.. Adamın dili quruyar belə desə, ürəyi yanıb parçalanar belə düşünsə!.. Olub – Samirə bilirdi – olub ki, pis adamlar da kitab yazıblar. Ancaq hanı onların kitabları?.. Özlərinin pislikləri oduna yanıb kül olublar o kitablar!

Mürşüd isə – Nurəddinin, Samirənin son beşik övladları olan Mürşüd idi – tamam ayrı cür oğlan idi. Samirənin fərəhi, onu bu dünyaya bağlayan bir şey vardısa, o da Mürşüd idi və ona ürəyində gündə min dəfə allahına minnətdar olurdu ki, nə yaxşı o, atasına oxşamır xasiyyətcə. Nə yaxşı oxşamır. Mürşüd təmkinli idi, səbr dəryası idi, sözünü, hərəkətini ölçüb biçən idi. Cavan olmağına baxmayaraq həyat, insan, yaxşılıq, pislik, mərdlik, namərdlik barədə özünün fikirləri var idi və hərəkətlərini, sözünü həmişə bu düşüncə tərəzisi ilə nizamlayırdı. Tələbə ikən də, elmi-tədqiqat institutunda işlədiyi bu illərdə də, hamı onun təvazökarlığını, səmimiliyini, sadəliyini görüb qiy-

mətləndirmişdi. Mürşüd, atası direktor olmamışdan necə idisə, indi də eləcə idi, lovğalıq, mənəmlik deyilən şeyi heç kəs onda görməmişdi. Ancaq Mürşüdün heç kəsin görmədiyi, duymadığı (anasından başqa) bir gizli dərdi vardı ki, onu o, tək çəkirdi, nə dostlarına, nə qardaşına deyə bilirdi -– Bu da Nurəddinin – atasının dərdi idi. Nurəddinin hərəkətləri, adamlarla rəftarı onun qətiyyən xoşuna gəlmirdi. Özbaşınalıq, sərtlik, lovğalıq, heç kəsi, heç nəyi bəyənməmək, hamıya yuxarıdan aşağı baxmaq mərəzi onda əvvəllər də var idi, ancaq bu, necə deyərlər, «şey özündə şey» idi, hamıdan çox Nurəddinin özünə ziyan verirdi. Ancaq indi, o direktor olandan sonra, Nurəddinin bu mərəzi əməl libası geymişdi və işə, adamlara, ürəklərə ağıllı-başlı ziyanlar vururdu. Bunun isə yaxşı əlamət olmadığını və nəticə etibarilə yaxşı qurtarmayacağını Mürşüd çox gözəl başa düşürdü. Başa düşürdü və sıxılırdı.

«Sənə tələbə vaxtı da çox dedim, qulaq asmadın, partiyaya keçmədin. Amma indi keçməlisən, bala!» – deyərdi hərdən Nurəddin. Ona görə «hərdən» ki, ata-bala onların səmimi-mehriban söhbətləri çox nadir hallarda, elə «hərdən» baş tutardı. Yalnız belə nadir söhbətləri zamanı Samirə onların ata-oğul olduğuna inanmaq istəyərdi. Ayrı vaxtlar onlar yad adamlar idilər. Hərəsinin öz dünyası, öz aləmi var idi. Nurəddinin dünyası kitablar idi, özü idi, öz fikri idi – qalan hər şey, arvad da, ev-eşik də, oğul-uşaq da onun dünyasının bəzən lazımlı, bəzən lazımsız əlavələri idi…

«Gərək elə hamı partiyaçı olsun?» – demişdi bir dəfə Mürşüd.

«Yox, hamının olmağı vacib deyil! Amma sənin olmağın vacibdi, Mürşüd».

«Niyə?»

«Əgər istəyirsən vəzifən olsun, mövqeyin olsun, gərək keçəsən!»

«Sən buna görə keçmisən partiyaya?»…

Nurəddin fikrə gedib:

«Yox!» – söyləmişdi. Ancaq çox həssas oğlan olan Mürşüd başa düşmüşdü ki, atası yalan deyir. O, məhz vəzifə, mövqe xatirinə partiya sıralarına daxil olub – kimlərisə, nə zamansa çox məharətlə aldadıb. Və təəssüf eləmişdi Mürşüd: niyə adamları partiyaya qəbul etmək kimi müqəddəs bir iş tapşırılmış yoldaşlar bu cür adamların gözünün içini, ürəyinin içini oxumağa qadir deyillər? Bu, çox incə məsələdi, çox həssas nöqtədi. Burda səhv eləməyə kommunistin ixtiyarı yoxdu, əsla yoxdu.

«İnsanın ürəyi, vicdanı kommunist ürəyi, kommunist vicdanı olsun gərək. Partiyaçı olmayan o qədər vəzifəli, yüksək mövqeli adamlarımız, qəhrəmanlarımız, qabaqcıllarımız var ki» – demişdi Mürşüd və inişil, hələ Nurəddin direktor təyin edilməmişdən xeyli qabaq partiya sıralarına qəbul olunmuşdu. Bilirdi ki, boynuna böyük məsuliyyət götürüb. Ona görə, hər şeydən əvvəl, öz elmi işini yazmaq, çap etdirmək məsələsini ön plana çəkmişdi. Gecəni-gündüzə qatıb çalışırdı, kitabxanalardan çıxmırdı. Bundan əlavə, onun, institut partiya təşkilatının üzvü kimi, dilinə hələlik gətirə bilmədiyi bir qayğısı da vardı. Partkom Nadirə xanım bir direktor kimi, Nurəddinin işindən narazı idi. Bir neçə ay əvvəl onların arasında ciddi söhbət olmuşdu və bunu bütün kollektiv bilirdi. Əgər sabah, birisi gün, Nadirə xanım bu məsələni partiya iclasında qaldırarsa, o biri kommunist yoldaşları bilmir, amma özünün çox ağır vəziyyətdə qalacağını Mürşüd indidən görürdü və bu, onu çox həyəcanlandırırdı. Nə isə, bu sabahın işi idi və hələ sabaha da çox vardı.

Nurəddin, beləcə evdəki «əsgərləri» üzərində bir-bir hakimiyyətini itirmişdi. Ancaq idarədə… idarədə isə… onun hökmü rəvan idi, bir sözü iki olmurdu. Nə deyirdi, nə düşünürdü, həyata keçirilirdi. Elmi şura üzvlərinin çoxu öz adamları idi – «çoxu» ona görə deyirdi ki, adamları indi tanımaq çox çətindi. Üzdə «bəli» deyirlər, arxada, səs vermə zamanı bir də görürsən direktorun «hə» – dediyi əsəri, ya alimi pozanlar da olur. Kimdi bu bir-iki adam?.. Tapa bilmirdi. Müavini Sultan Sultanov onun üçün hələ yaxşı idi. İndiyəcən bir sözünün, qərarının əleyhinə

getməmişdi. Şöbə müdirləri də həmçinin. Bircə Nadirədən başqa… Nurəddin fikrində tutmuşdu ki, İltifat tez müdafiə eləsəydi, Nadirəni çıxarıb yerinə İltifatı qoymaq olardı. Nə olar cavan olanda? İndi cavanları irəli çəkmək siyasəti ortaya çıxıb. Yaxşı siyasətdi – bundan istifadə edib Nadirənin başını yemək olar…

Bax, buna görə Nurəddin idarəni çox sevirdi, evindən çox sevirdi. O, hardasa özünü bir şahmatçıya bənzədirdi. Evdəkilər – arvadı, oğlu onun bütün «xod»larını bilirdi – deyə Nurəddin üçün onlar maraqsız tərəf – müqabil idilər. Amma institutda… o, yaxşı «şahmat» oynayırdı – çünki tərəf müqabili olan adamlar çox idi, müxtəlif idi və qəribə idi ki, böyük əksəriyyəti də böyük həvəslə ona açıq-aşkar uduzmaq istəyirdi. Bu isə… Nurəddinə sonsuz bir ləzzət verirdi. Ayağının altında torpaq yox idi, ayağının altında bütün dövrələmə dəhlizlər boyu, otaqlarda parket döşəmələr var idi, ancaq o, bu divarlar – institut divarları arasında özünü torpaq üstündəki kimi güclü və qüdrətli hiss eləyirdi. Binadan çıxan kimi bu güc, bu qüdrət azalırdı, yaman azalırdı.

… Nurəddin ürəyini ovxalaya-ovxalaya gözlərini nəfəslikdən yığdı. Otaq artıq qaranlıqlaşmışdı. O, üzünü aralıq qapıya tutub:

– Aaz, a Sultanın qızı… - deyə səsləndi. Hay verən olmadığına görə bu dəfə bir az da ucadan, həmişə öz adıyla yox, atasının adıyla çağırdığı arvadını harayladı.

Samirə mətbəxdə imiş. Qapı ağzında göründü.

– Hardasan, aaz?

– Burdayam. Mətbəxdə idim, kitab oxuyurdum. – deyə Samirə işığı yandırdı – otaq çıraqban oldu. Nurəddinin bayaqdan qaranlığa öyrəşmiş gözləri qamaşdı.

– Əcəb! Mən burda ölürəm, sən orda kitab oxuyursan.

– Nə olub yenə? – Samirə irəli yeridi, ərinin sifətinə diqqətlə baxdı. – Haran ağrıyır?

– O zəhrimardan bir dənə ver, dilimin altına qoyum.

Nurəddin bütün dərmanlara «zəhrimar» deyərdi. Samirə ərinin o «zəhrimar» sözünün böyrünə əlavə elədiyi sözlərdən məhz hansı dərmanı istədiyini müəyyən edər və ondan verərdi. Servantın siyirməsini çəkdi, bir dənə ağ tabletka uzatdı Nurəddinə tərəf. Nurəddin tənbəl-tənbəl dərmanı alıb dilinin altına qoydu. Nurəddinin rəngi Samirənin heç xoşuna gəlmirdi, qaralıb boğulmuşdu. Nurəddin direktor olandan sonra tez-tez əsəbi halda evə gələrdi. Bəzən yuxusunda da o, direktor kimi «işlərdi»; kimisə danlardı, kimisə söyərdi. Samirə neçə dəfə ərini yuxuda ikən, «Mən direktoram, belə deyirəm» – deyə sayaqladığını eşitmişdi. Ancaq üzünə vurmamışdı. Yazı-pozu ilə də əvvəlki kimi məşğul ola bilmirdi. Sadəcə vaxtı çatmırdı, beyni elmdən başqa min sualla, min qayğı ilə dolu olurdu.

– Elə bilirsən səni çox istədiklərindən gətirib o boyda instituta direktor qoyublar? Yox, kişi. Səni istəməyənlər səni bu vəzifəyə irəli çəkdilər. Bilirsən niyə? Bilməzsən sən. Sən ki, yetənə-yetirsən, yetməyənə də bir daş atırsan, əlindən hamı sinədağlıdı. Səni başqa yolla məhv eləyə bilmədiklərini görüb bu direktorluğu atdılar sənin ağzına. Burada iki məqsədləri var onların: birincisi budu ki, sən daha susasan, onlarla işin olmasın. «Balam vəzifə də verdik sənə. Daha nə istəyirsən bizim yaxamızdan? Biz sənin dostlarınıq… Sən isə o iclas yoxdu ki, qılıncını sıyırıb üstümüzə düşməyəsən». İkincisi və ən əsası budu ki, sənin ürəyini partlatsınlar, vəssalam.

– Nağıl danışma, aaz.

Samirə qarşıdakı kresloda oturdu:

– Sənin yerinə olsam, ərizə verib çıxaram direktorluqdan. Yoxsa sən öləcəksən, vallah.

– Gic-gic danışma, aaz! Sən nə bilirsən vəzifə nə deməkdi. Vəzifə – indi böyük şeydi, a Sultanın qızı. Camaat maya qoyur, xərc çəkir, min fırıldaqla vəzifə başına keçməyə çalışır, mən də durum ərizə verim? Hamı mənə axmaq deməz? Gülməzlər mənə?

– Mən sənin özünə görə deyirəm, Nurəddin.

– Elə mənim özümə görə, mənə vəzifə lazımdı, arvad. İndi yaxşı kişi odu ki, öləndə də vəzifə başında ölür. Vəzifə başında öləni isə çox böyük təmtəraqla götürürlər, arvad. Tabutu kruqlu zala qoyulur. Bülbül Üzeyirin «Sənsiz»ini oxuyur. Fəxri qaraulda dururlar böyük-böyük alimlər… Fəxri xiyabanda basdırırlar…

– Sən ölmə. Öləndən sonra bütün bunların sənin üçün nə əhəmiyyəti var axı.

– Yox, nə danışırsan?.. Çox…

Samirə barmaqlarını əsəbiliklə şıqqıldatdı:

– Bu şöhrətpərəstlikdi. Şöhrət azarıdı bu, daraşıb canına. Sonra peşiman olacaqsan, onda da əlin heç yerə çatmayacaq. Məndən deməkdi. – deyib ayağa qalxdı – Mən istəyirəm gedəm nəvələrə bir baş çəkəm. Həvəsin var, dur gedək, həm də bir az havasatın dəyişər, fikrin dağılar.

– Rədd elə. Atası başıma tac qoyub, sabah da uşaqları tac qoyacaq. Mən getmirəm. Gedirsən özün get.

Samirə çoxdan bəri ürəyini yandıran nisgilini dilə gətirməyin vaxtı, məqamı çatdığını hiss eləyib:

– Nəvələrin bu gün-sabah dərsə gedəcəklər. Amma heç səni düz-əməlli tanımırlar da uşaqlar. Bu qədər soyuqluq olmaz ki, sən göstərirsən. Öz nəvələrindi də. – dedi və az qala doluxsundu.

– Rədd elə – əlini havada yellədi Nurəddin.

– Eh, mən bu sözləri heç bilmirəm sənə niyə deyirəm?.. Sən öz uşaqlarını nə vaxt sevmişdin ki, indi onların balalarını da sevə biləsən?.. Sən… sən, ümumiyyətlə, dünyada ancaq özünü istəmisən, vəssalam.

Nurəddin nə isə deməyə çalışdı, ancaq dilinin altında əriyib kiçilmiş dərman boğazına düşdüyündən çeçəyib susdu. Samirə o biri otağa keçdi və bir az sonra çöl qapının şıqqıltı ilə örtülməyindən Nurəddin başa düşdü ki, Samirə getdi. «Axmaq arvad. Xalqın arvadları qabağa düşüb ərlərinə vəzifə, məqam düzəldir, bu da deyir ərizə ver direktorluqdan çıx... Ay boyunu yerə soxum, arvad.» – deyərək Samirənin dalınca deyindi, söyüb-söyləndi.

Mürşüdün səsi-səmiri yox idi. Görünür, evdə yox idi. Bir də onun evdə olub-olmamağı çox vaxt heç hiss olunmurdu. Nadir hallarda onu ata-anasının cəmiyyətində görmək olardı. Əksərən öz otağına çəkilərdi, oxuyub yazardı. Osmanzadələr ailəsinin yaşadığı bu cah-cəlallı mənzilin kiçik bir guşəsi onun idi və o, bu dünyanın içində öz düşüncələri, ağlı, ürəyi ilə, demək olar ki, tək güzəran keçirərdi. Mürşüd böyüdükcə, yaşa dolduqca, həyat adlanan mürəkkəb, anlaşılmaz, ziddiyyətli kitabı oxuduqca, gəzib-dolaşdığı alimlər mühitinə, elm aləminə, xüsusən, bu aləmin üzdə olan nümayəndələrindən sayılan atasına, onun rəftarına, düşüncəsinə nəzər saldıqca dərin-dərin fikirlərə dalır, götür-qoy eləyir, gördüyü, eşitdiyi hər şeyi saf-çürük süzgəcindən keçirirdi. O, öz yaşında, atasının sayəsində, çox alimlər görüb tanımışdı. Evlərinə gəlib gedən, Nurəddin Osmanzadənin dostu-tanışı olan alimləri dinləmişdi. Özü də neçə il idi ki, akademiyada idi – istər-istəməz böyük-böyük alimlərlə rastlaşmışdı, danışmışdı. Onların hərəsi bir cür yadında qalmışdı Mürşüdün. Hərəsindən bir şey öyrənmişdi, elmlərinin incəliyinə vara bilməmişdi, çünki onda onun imkanı yox idi və bu, mümkün də deyildi. Ancaq Mürşüd bir şeyi yaxşı anlamışdı; onlar, alimlikdən əvvəl, yüksək mədəni səviyyəyə malik, xoşqılıq, söhbətcil, həddən artıq sadə adamlar idilər. Danışdıqca danışmaq istəyirdin. Dinləməkdən yorulmurdun. Lap ən adi adama belə yuxarıdan aşağı baxmaq hissi yox idi onlarda. Və Mürşüd hər dəfə, belə alimlərlə söhbət eləyib ayrılandan sonra, istər-istəməz atası haqqında düşünməli olmuşdu. Düşünmüşdü və pərt olmuşdu. Çünki Nurəddin Osmanzadə qətiyyən onlara bənzəmirdi. Buz kimi soyuq idi Nurəddinin ürəyi. Başqaları o yana dursun, öz övladlarına belə soyuq idi. Samirə də bu cəhətini bilirdi ərinin. Ancaq uşaqların yanında açıb ağartmırdı; qorxurdu ki, uşaqlar atalarından soyuya bilərlər, uzaqlaşa bilərlər. Lakin həyat öz işini görürdü. Böyük qardaş bunu duymuşdu, səssiz-səmirsiz çıxıb getmişdi. İndi də kiçik oğul – Mürşüd bu həqiqəti tam çılpaqlığı ilə dərk etməyə başlamışdı. Və bu, uşağa böyük bir dərd olmuşdu. Niyə atası belə idi? Təkcə soyuqluq idimi Nurəddinin nöqsanı? Yox, təkcə bu olsaydı, dərd

yarı idi. Məsələ bunda idi ki, Nurəddin Mürşüdün gözünün qabağında işləyirdi, böyük bir kollektivə başçılıq eləyirdi və hər addımını o, görürdü. Qaba idi, ürəksiz idi Nurəddin. Ürək sındırmaqdan qətiyyən çəkinmirdi, qorxmurdu. Bu isə, Mürşüdün aləmində çox böyük qəbahət idi, heç kəsə, xüsusən alimə qətiyyən yaraşan xasiyyət deyildi. Belə adam sevimli ola bilməz, belə adam izzət-ehtiram sahibi ola bilməz.

Mürşüd son vaxtlar bir neçə dəfə qəstlənmişdi ki, ikilikdə, ata-bala üzbəüz oturub bu məsələlər barəsində açıq söhbət eləsin. Fikirlərini desin atasına. Bəlkə hələ gec deyil, bəlkə düzələ bilər. Ancaq sonra bunun qeyri-mümkün olduğunu yəqin edib susmuşdu – çünki Nurəddin onu hələ də ağzından süd iyi gələn uşaq sayırdı, başlayan kimi, ağzının üstündən vuracaqdı, «Sən nə hesab eləyirsən məni? – deyəcəkdi – sən hələ uşaqsan, yaxşısı budur, get əsərini yaz, müdafiə elə. Boş-boş şeylər haqqında düşünmə. Mənim sənin məsləhətinə ehtiyacım yoxdu…». Heç bəlkə belə də deməyəcəkdi, qısaca, əlini havada yelləyib: «Rədd elə!» söyləyəcəkdi və Mürşüdün sözünü yarımçıq kəsəcəkdi. Mürşüdün demək istədikləri ürəyində qalacaqdı. Ona görə, oğlan, çox götür-qoydan, ölçüb-biçməkdən sonra, atasına məktub yazmaq fikrinə düşmüşdü. Bu fikrin qəribəliyinə ürəyində özü də gülmüşdü. Bir damın altında yaşayasan, ata-oğul qabaq-qənşər oturub dərdləşə bilməyəsən? Bunun özü böyük dərd deyildimi? Eşidən-bilən buna necə baxardı? Bütün bu suallara baxmayaraq, Mürşüd, nəhayət, keçən həftə öz otağına çəkilib atasına uzun bir məktub yazmışdı. Qəribə idi ki, o zaman, Mürşüd həmin məktubu qələmə alanda atası qonşu otaqdaydı, aralarında cəmi bircə divar vardı. Əgər Mürşüd yazdıqlarını ucadan desəydi, atası yəqin ki, divarın o tayında onu aydınca eşidərdi. Bəli, məktubu işdə poçta qutusuna atmışdı və on beş iyirmi dəqiqəlik bir məsafədə olmağına baxmayaraq həmin məktub düz bir həftə yol gəlmişdi. Bu gün işdən qayıdanda qəzetlərlə birgə öz məktubunu da yeşikdən çıxarıb atasının stolunun üstünə qoymuşdu. Özü isə şəhərə çıxmışdı və gec gələcəyini də anasına söyləmişdi. «Qoy oxusun, düşünsün. İsti-

isti yanında olsam, söhbət qəlizləşə bilər» – düşünmüşdü Mürşüd…

… Nurəddin qəzetlərin dördüncü səhifələrini nəzərdən keçirib kənara itələyərkən konverti gördü, götürüb baxdı. Təəccüb içində zərfin qırağını cırdı. «Elə bir bu qalmışdı! Mürşüd mənə məktub yazıb?»

Mürşüdün məktubu: «Bilirəm, sənə məktub yazdığımı biləndə çox təəccüblənəcəksən, ata!»

Nurəddinin ürəyi: «Yox, bir təəccüblənməyim də. Axşamacan gözümün qabağında evdə də, işdə də yanımda olan oğlum, mənə məktubla müraciət eləyir.»

Mürşüdün məktubu: «Təəccüb eləmə, ata. Bunun bir çox səbəbi var, bircəciyini qeyd eləyəcəyəm, özün inanacaqsan ki, mən haqlıyam!»

Nurəddinin ürəyi: «Elə, elə, görüm nədi o səbəblər?»

Mürşüdün məktubu: «Mən ağlım kəsəndən bəri belə görmüşəm, belə müşahidə eləmişəm ki, hər hansı vacib bir məsələ barədə sənինlə heç kəs üzbəsurət oturub söhbət eləmək, dərdləşmək, məsləhət almaq, məsləhət vermək səadətinə nail olmayıb. Söz deyən peşiman olub. Çünki sənինlə normal şəkildə danışmaq əsla mümkün deyil, ata. Səndə tərəf müqabili axıra qədər dinləmək hövsələsi və mən deyərdim ki (bu sözə görə üzr istəyirəm səndən) qabiliyyəti yoxdur, ata. Bu, bir insan kimi sənin çox böyük nöqsanındır. Tərifləri hardasa yenə dinləyə bilirsən, ancaq sənin bu və ya digər nöqsanın haqqında deyilən ən cüzi bir fikir belə səni hövsələdən çıxarır, heç özün də bilmədən aləmi qatırsan bir-birinə, səni istəyərək, xeyirxahlıqla, nəticə etibarilə xeyrinə danışan adama düşmən gözü ilə baxırsan. Və buna görə də, səni tanıyanlardan heç kəs, daha belə söhbətlərə girişmək istəmir, «nəyimə lazım, özü bilir neyləyir!» -– deyib yaxasını kənara çəkir. Bəlkə də mənim də bu sözləri sənə deməyə ixtiyarım yoxdur. Bəlkə mən də sənin acığına gələcəyəm – ancaq mən çox düşünüb-daşınandan sonra bu qərara gəldim ki, məni narahat eləyən bəzi məsələləri sənin nəzərinə çatdırım – çünki mən yad adam deyiləm, sənin

doğmaca oğlunam və buna görə, sənin taleyinə biganə qala bilmərəm, ata! Sənin taleyin elə hardasa mənim də taleyimdi, ata!»

Nurəddinin ürəyi: «Əcəb oğulsan. Çörəyim gözündən gəlsin. Hə, de görək nə deyirsən, de! Sənin taleyin, mənim taleyim…»

Mürşüdün məktubu: «Sən indi cavan deyilsən, sənin yaşın altmışı artıq adlayıb. Bu yaş elə yaşdı ki, keçilən ömür yoluna yekun vurmaq, yarımçıq işlərin əl-ayağını yığmaq vaxtı-vədəsidir. Bu yaşda keçmişi yox, sabahı düşünmək lazımdı, səndən sonra qalanları düşünmək lazımdı. İşdə sənin səhv eləmək ixtiyarın yoxdu, ata. Ancaq mən sənə fikir verirəm – görürəm yanlış yoldasan, tutduğun işlər, əməllərin sənə başucalığı gətirməyəcək deyəsən. Sənin nə qədər ki, vəzifən yox idi, bu nöqsanların ev, şöbə miqyasında bilinirdi, çölə-bayıra o qədər çıxmırdı. Ancaq sən direktor olandan sonra, bir pillə ucaldığın üçün, hər yerdən görünürsən. Daha səni gizləmək mümkün deyil. Ona görə, bu yüksək məqamda sən elə yaşamalısan, dayanmalısan ki, səndən ağız-dodaq büzə-büzə danışmasın adamlar. Hamı indi səninlə Aslanzadəni müqayisə eləyir – o yaxşı direktor olub, yaxşı alim olub, yaxşı insan olub. Kollektivin atası olub – laborant da, doktor da ondan ağız dolusu danışar. Onun xəstələnməyini hamı böyük bir itki hesab edir… Kollektiv gecə-gündüz onun yanındadı. Amma sən… sənin institutda zərrəcə hörmətin yoxdu, ata. El gözü ən dəqiq tərəzidi. Sən direktor olandan sonra, o böyük kollektivin içində qəlbinə toxunmadığın, incitmədiyin adam barmaqla sayıla bilər. Onlar da sənin məddahlarındı, dırnaqarası dostlarındı. Beş-üç nəfərə söykənib, arxalanıb bütöv bir kollektivə qarşı çıxmaq, hamını təhqir etmək, hamını qorxu hissi altında saxlamaq ağıllı adamın tutduğu yol deyil, ata…

Sən gələndən sonra institutu onlarla yaxşı alim tərk eləyib gedib. Əvəzində kimləri götürmüsən? Nazir uşaqlarını, vəzifəli adamların övladlarını… Onların alim olması üçün uzun-uzun illər lazımdı… Sən onların başını sığallayırsan – çünki ataları,

dayıları var. Yəni düşünürsən ki, onlar hardasa sənə dayaq ola bilər, arxa ola bilər. Amma işdən çıxartdıqların kimlərdi? Kimsəsiz adamlar. Əzizin heç kəsi yoxdu, Rənanın heç kəsi yoxdu. Əziz iki ildi işsizdi. Düzdü, ona başqa işlər təklif edirlər – ancaq o, getmir. Niyə? Ona görə ki, o, ixtisasını dəyişmək istəmir. Niyə də dəyişsin?! Dolanışığı pisdi onun. Adamın yazığı gəlir ona. Mən, sənin oğlun onu görəndə başımı soxmağa yer axtarıram, ata. Sənin xəbərin yoxdu ki, mən hər ay öz maaşımdan ona əlli manat pul verirəm. Götürmək istəmir, məcburdur – ancaq dost kimi yalvarıram, yaxarıram, borc verdiyimi deyirəm, sonra götürür. Sən heç düşünürsənmi ki, neyləyirsən? O kimdən pis işləyirdi. Əsər yazıb, yenə yazacaqdı. Amma sən kimlərinsə sözü ilə onu işdən qovdun. Prokuratura onun haqsız olaraq işdən azad edildiyini qeyd edir və işinə bərpa olunmasını tələb edir. Sən prokuraturanın da qərarını yerinə yetirə bilmirsən. Çünki onun yerinə öz dostunun oğlunu götürmüsən.

Xəzəri iki ildi ki, müdafiəyə buraxmırsan. Nə var, nə var, atası səni tənqid eləyib. Bir fikirləş ki, sabah sənə görə sənin də övladlarının «başını kəsən» oğullar tapıla bilər. Xəzər istedadlıdı. O, artıq doktorluğunu da yazıb qurtarıb. Sən isə deyirsən – mən işləyən adamı sevirəm. Belə çıxır bu, yaxşıdı, ata. Sən bir kadrı da – böyük gələcəyi olan bir kadrı da beləcə itirirsən.

Sən artıq heç nə yaza bilmirsən. Özünü tərcümə sahəsinə vermisən. Yaza bilməyəndə qələmi yerə qoymaq özü də bir kişilikdi. Sən isə… onun-bunun ürəyinin, beyninin, yuxusuz gecələrinin məhsulu olan yazıların üstünə heç bir vicdan əzabı çəkmədən öz imzanı qoyursan. Sən İltifatla əsər yazmısan? Qəzetdə ikinizin imzası ilə məqalə çıxmışdı. Özü də birinci sənin adın idi. Sənin adın, şöhrətin İltifat kimi şöhrətpərəst adama lazımdı – amma o, sənin nəyinə lazımdı?! Sənin sahən deyil. Hə, düşünürsən ki, təki qoy hamı sənin ensiklopedik alim olduğunu söyləsin, hə?! Bunun sabahını düşün, ata.

Sonra, camaat sənlə Şərifə məsələsini müzakirə edir. Bu yaşda özünü bədnam eləməkmi istəyirsən? Qov getsin onu,

ondan alim olan deyil. Amma qova bilməzsən, çünki atası böyük bir nazirliyin məsul işçisidir… Qorxursan ondan!»

Nurəddinin ürəyi: «Ay küçük, sən bunları hardan bilirsən?»

Mürşüdün məktubu: «Mən hər şeyi bilirəm, ata. Camaat danışır. Sən gec-tez bədnam olacaqsan. Mənim borcum idi sənə deyim bunları!»

Nurəddin qalxıb gəzindi, Mürşüdün otağının qapısını itələyib açdı. Yox idi. Dilxor-dilxor siqaret yandırdı. Var-gəl eləməyə başladı: «Düşmən ocaq başında imiş».

Bu vaxt Mürşüd gəldi. O, qapı ağzında tərs-tərs oğlunu süzdü və qəzəbindən özünü saxlaya bilməyib:

– O nədi, yazmısan, axmaq! – dedi. Mürşüd atasına qorxu içində nəzər yetirib dinmədi. – Yəni deyirsən indi mən də sənə məktubla cavab verim? Dilin yoxdu?

– Məktubdu da… Belə məsləhət bilmişəm…

– Qələt eləmisən, belə məsləhət bilmisən.

– Elə bu sözləri eşitməmək üçün məktub yazmışdım, ata – deyib öz otağına keçdi və qapını ardınca örtdü.

Nurəddin yerindəcə donub qaldı…

Birinci hissənin sonu

Bakı, 1985-1989

MÖCÜZƏ

BİRİNCİ HİSSƏ

BİRİNCİ FƏSİL

Qara «Volqa»nın yanında dayanmışdı, sol əlini böyründəki uzun gövdəli ağaca söykəmişdi, sağ əlinin dırnaqları saralmış barmaqları arasındakı siqareti tez-tez sümürür, nigarançılıq içində çırpına-çırpına küçənin gah aşağı, gah yuxarı tərəfinə boylanırdı: kimisə gözlədiyi o dəqiqə nəzərə çarpırdı. Ağ, kraxmallı köynəyinin yaxasının üst düymələrini açmış, ortasına qızıl sancaq taxılmış qara qalstukunun yaraşıqlı düyününü boşaltmışdı. Bir yerdə dayanmışdı, qaçmırdı, qovan yox idi, amma buna baxmayaraq tövşüyürdü, ürəyi sinəsində tora düşmüş balıq kimi çabalayırdı. Qarışıq, dumanlı, çalpaşıq fikirlərdən, neçə aydan bəri bütün varlığın qurb kimi gəmirib didən və cavabsız qaldığından dəli olmaq dərəcəsinə gətirən suallar azmış kimi, dünən səhər, saat doqquza qalmış, işə gedərkən kənarda, uzaqda yox, elə maşının içində tamamilə təsadüfən gördüyü və hələ də düz-ağıllı dərk eləyə bilmədiyi qəribə bir müəmmadan şişib keyləşmiş başı elə bil ağır, pudluq daşa dönüb çiyinlərindən aşağı basır, şax qədd-qamətini əyir, öz gözünün qabağında onu açıq-aşkar balacalaşdırırdı.

Suallar, suallar… Ən dəhşətlisi bu idi ki, cavabsız suallardı bunlar və onu yandıran da o idi ki, özünü dünyanın ağıllıbic, çoxbilmiş adamlarından sayan o, bunların heç birinə yerliyataqlı, ürəyini soyudub sərnidən bir cavab tapa bilmirdi ki, bilmirdi. «Məni niyə ordan — yuxarıdan — Mərkəzi Komitədən çıxartdılar? Səbəbkarı kim idi? BİRİNCİ — təzə gələn? O, məni şəxsən tanımırdı, münaqişəmiz olmamışdı. Ola bilməzdi ki, elə durduğu yerdə, gecə yatıb yuxusunu görsün və səhər məni səbəbsiz-filansız ordan uzaqlaşdırmaq fikrinə düşsün. Yox, burada şeytan barmağı var idi: amma kimin idi o barmaq, kimin? — Bir cavabsız sual idi bu. «Bu cəhənnəm. Yüksək vəzifədən çıxarılan nə birinci adamam bu dünyada, nə də axırıncı.

Buna birtəhər dözmək olar. Amma buna necə dözüm ki, yer üzündə hamıdan, hətta özümdən də çox istədiyim, gecə-gündüz pərvanə kimi başına dolandığım, neçə illər canbir qəlbdə yaşadığımız o gözəl, o ağıllı Tanrıgül məndən son vaxtlar yaman soyuyub. Pismi baxmışam? Biganəlikmi göstərmişəm? Xəyanətmi eləmişəm? Yox. Bunların heç biri olmayıb. Bəs onda niyə, niyə, ilahi? Bəlkə kimsə bilir, başa düşür ki, divin canı şüşədə olan kimi, mənim də canım ondadı — məni öldürmək, məhv etmək üçün onu mənim əlimdən almaq, uzaqlaşdırmaq istəyir? Bəlkə təzə dost tapıb? Axı o elə qadın deyil. Varadövlətə, sərvətə aldanan deyil axı o? Bəlkə sevib, özü sevib, hə? Yox, arada kimsə var ki, o elə dəyişib. Elə bil yoxam onun üçün. Görmür məni elə bil daha. Əvvəlki o isti, o mehriban Tanrıgüldən çox az şey qalıb, çox az şey. Bu isə məni öldürür, göynədir: elə göynədir ki, üstünə duz basılmış yara belə göynətməz. Varsa, kim ola bilər o əclaf?» — Dünənəcən sualların ən dəhşətlisi, ən dözülməzi bu idi — Nə kimsəyə açıb ağarda bilirdi, nə də Tanrıgülün özündən soruşmağa cürəti çatırdı: çünki o elə zabitəli və eyni zamanda sevər yeri çox incə olan, yəni sözdən söz çəkib elə tez inciyən bir qadın idi ki, o, ömründə beləsinə rast gəlməmişdi. Ona görə yox ki, rastına çıxmamışdı, sadəcə ona görə ki, dünyada Tanrıgülə bənzər ikinci bir qadın yox idi — düşünürdü o. Yox idi və bir olan Allah özü də bilir ki, yoxdu və ola da bilməzdi. Ürəyi qadın qəbristanlığıydı: indi o tüklü sinəsinin altında narahat-narahat çırpınan, yatmağa, dincəlməyə, düşünməyə qoymayan o qəbristanlıq — ürəkdə neçə-neçə bir-birindən cavan, bir-birindən gözəl qızın, gəlinin, öz qəddarlığı, rəhmsizliyi, insafsızlığı ilə yandırıb külə döndərdiyi arzularının öləziyib sönmüş ocaq yerləri qalmışdı, adları belə unudulmuşdu. Korun-korun tüstülənən ocaqların, hərəsi nalə, inilti dolu bir nəğmə pıçıldayan, xatirələr danışan o adların üstünə Tanrıgül — doğrudan da ulu Tanrının xoş saatında xəlq elədiyi bu ilahi qadın öz qəfil, təkrarsız gəlişiylə elə bir su çiləmişdi ki, bütün o qəribə qəbristanlıq öz zavallı, atılmış, təhqir olunmuş, gözüyaşlı sakinləri ilə vidalaş-

mışdı və elə orada, o köhnə qəbristanlıqda o — Tanrıgül, bunu istəməsə də, özünə əzəmətli, əlçatmaz, gözəl bir heykəl tökmüşdü, kollar, tikanlar bitmiş, dünənəcən, yəni o buraya qədəm basanacan elə hey bir ucdan öz ayaqları ilə deyə-gülə gəlib burda «ölən» və burda da «basdırılan» o qurbanlıqların məzarıstanını gözəlliyi, məhəbbəti andıran bir gülüstana döndərmişdi. Elə bil, sehrli bir möcüzə baş vermişdi, yatsaydı, yuxusunda da görə bilməyəcəyi bir möcüzə… Ona hamını, hər kəsi, hər şeyi unutdurmuşdu. Hətta özünü də. Daha özü üçün yaşamırdı o. Ancaq və ancaq Tanrıgül üçün yaşayırdı. Daha dünyada kimsə yox idi, daha dünyada Leylası yox idi, daha dünyada qadın da qalmamışdı, sanki Tanrısı yer üzünün bütün qadınlarının bütün gözəlliklərini bir yerə cəmləyib Tanrıgülə bağışlamışdı və onu da bir qəşəng gül dəstəsi kimi gətirib onun ürəyinin içinə qoymuşdu. Niyə? Nə üçün? Hansı yaxşı əməlinə görə? Bilmirdi, başa düşmürdü. Tanrı, bəlkə tutduğu o əyri yollardan, o insafsızlıqlardan onu qaytarmaq, döndərmək üçün belə bir xoşbəxtlik əta etmişdi ona? Bunu da bilmirdi. Elə bir qadın idi… Sən hər şeyi bilənsən deyirlər, ilahi. Yalvarıram sənə, məni başa sal: o mərhəmətin nə idi, bu zülmün nədi, ey gözə görünməz?»

Cavab yox idi, yox idi…

«Mən yazıq hərəsi bir dağdan ağır olan bu suallara cavab axtarırkən, bu yandan da dünən bu canına od düşmüş Leylanın müəmmalı şəkildə sağ qulağına əl aparması və barmağını havada fırlaması… Sükan arxasında oturmuş o köpək oğlunun alın güzgüsündə ona — Leylaya baxıb qımışması… Bütün bunlar nə deməkdi? Yox. Deyəsən torbada pişik var. Deyəsən sənin başına papaq qoyurlar. Qoyurlar, ya qoyublar artıq, hə? Nə danışırsan, ciyərin çıxardaram, vallah. Yox, Leyla elə qələt eləməyə cürət edə bilməz. Qorxur məndən it kimi. Bəlkə… Nə bəlkə?» Yox, burda nə isə müəmmalı bir oyun var. Amma nədi bu oyun, ilahi?» — Bu sual onun içini bərk üşüdürdü, ancaq qəribə idi ki, Leyladan şübhələndiyi bu iki gün ərzində çəkdikləri Tanrıgülün xəyanətini düşünərkən, ağlına gətirərkən çəkdiyi o dəhşətli əzabların yanında çox az, çox cüzi idi, halbuki Leyla

onun kəbinli arvadıydı, Tanrıgül isə onunla rəsmi heç bir şey bağlamırdı: əri vardı və namusunu, qeyrətini çəkmək lazım idisə, o çəkməliydi, o xəyanətkarı axtarmalı, tapmalı, cəzalandırılmalıydı. Lakin bir məsələ vardı ki, o bədbəxtin Tanrıgülün onunla gizli məhəbbət macəralarından, görüşlərindən xəbəri olmadığı kimi, yəqin bu təzə sədasından (Allah eləməmiş, əgər varsa) da xəbəri ola bilməzdi. Bir də o, Tanrıgülü gözünün bəbəyi sayırdı, ürəyinin canı hesab eləyirdi, çox, lap çox sevirdi onu, Leyla Tanrıgülün yanında onun üçün heç idi, rəsmi arvadı olsa da, yad idi, biganə idi və görünür, məhz buna görə Tanrıgülün ona xəyanət eləyə biləcəyi fikri, Leylanın xəyanət edəcəyi fikrindən daha qorxulu, daha göynədici idi ki, onu belə yandırırdı.

Hava bozarmışdı, payızın ilk çiskini başlamışdı, yarpaqları yavaş-yavaş, hiss olunmadan, gündə bir az saralan ağacın budaqları başının üstündə nəhəng bir çətir kimi dayandığından, şeh zərrələri boyda xırda və zərif damcılar onun saçlarına, sir-sifətinə düşməyib, səkinin qırağında, azca aralıda saxlanmış, gündüzdən tər-təmiz yuyulub silinmiş qara maşının şüşəsinə, damına qanad çala-çala gəlib qonsa da, bütün günü idarədə böyük və ümumi otaqda od içindəymiş kimi yanan bədəninə qəribə bir sərinlik yayılır, canını dincəldirdi. Ancaq bu çox az idi, içinin, ürəyinin istisini, hərarətini soyuda bilmirdi, bilməzdi də.

Gecəni çox pis yatmışdı, əslində, demək olar ki, heç çimir də eləməmişdi. Elə bil, o yumşaq, pərqu kimi rahat yorğan-döşəyinin içinə qor doldurmuşdular, yatağına ilan-çayan buraxmışdılar, bu qatma-qarışıq suallar, fikirlər sübhün gözü açılanacan onu dara çəkmişdi. Uzun-uzun istədiyini eləyən, tutduğu vəzifələrə görə özünü qədir-qüdrətli sayan və həyatda heç nəyin qarşısında aciz qalmayan o boyda kişi indi dəqiq olaraq kimin-kimsəninsə qabağında yox, özünün, öz ürəyinin, düşüncələrinin qarşısında, əlində acizin acizi kimi az qalmışdı ağlasın. Cırtqoz adam deyildi, bir iş görməmiş yüz ölçüb biçməyi xoşlardı, cikini-bikini öyrənməmiş, həqiqi olduğuna inanmamış heç kəsə, xüsusən də Leyla xanıma bir söz deməzdi.

Onda ki, xəyanət kimi mühüm, qan iyi gələn bir iş ola «Bu arvad tayfasını mən yaxşı tanıyıram: dabbaqda gönünə bələdəm, dünyanın bütün fitnə fəsadlarının mənbəyi olan bu kafir uşağının. Elə-belə, quruca sözlə, boş və yalın əllə bunlara heç nə sübut eləmək olmaz. Hətta bu zalım uşağının eləsi var ki, sənin öz gözünlə gördüyünü də danmağa, inkar eləməyə qadirdir və vicdansızcasına deyə bilər ki, yox, ağa, sən səhv görmüsən, sənin gözlərin yaxşı görmür, get, gözlərini həkimə yoxlatdır. Bəli, bunlar belədi» — Tərs kimi, Leyla srağagündən dərzisinə bahalı Çin ipəyindən tikdirdiyi, par-par yanan donunu geyinirdi, çox xoşuna gəldiyindən ancaq yatanda əynindən çıxardırdı və kişi onu libasda görərkən nə isə qızıl ilan yadına düşürdü və heç nə demədən, sadəcə gözucu baxırdı, hərəkətlərinə diqqət yetirirdi, xəyalında onu kiminsə, kiminsə yox, öz sürücüsünün — o cavan, yaraşıqdı, ilk baxışda çox dilsiz-ağızsız, fağır təsiri bağışlayan «gedənin» də ağuşunda təsəvvür eləyəndə beyninə qan vurduğunu duyurdu, ürəyində isə, arada heç nə olmamış kimi deyib-gülən, həmişəki qaydada mərifət və mədəniyyətlə ərinə qulluq göstərən Leylanın necə ustalıqla oynadığını və onu aldatdığını görür, için-için yanıb-yaxılırdı. Yaxşı ki, ərinin əhvalının nə isə yerində olmadığını duyan Leyla, o biri otaqda yatmışdı: ümumiyyətlə, gecələr başını yastığa qoyan kimi daş yuxusuna gedən, necə deyərlər, yanında top atsalar da çətin oynayan Leyla xanımın, ərinin qonşu otaqda əqrəb sancmış adam təki çalıxıb-çabalamasından, tez-tez siqaret yandıraraq dənizə baxan aynabəndə çıxıb-girməsindən xəbəri olmamışdı. «Bəlkə mən səhv başa düşmüşəm? Bəlkə Leyla doğrudan qulağını qaşımaq istəyirmiş? Qulaqdı də, qaşındı, qaşındı də. Amma axı o, əlini qulağına heç toxundurmadı deyəsən, elə havada baş barmağını bir-iki dəfə fırladı: yəni «zəng elə». O alçaq da — o çörəyimi yeyən vicdansız da çox incə-incə gülümsündü. Hə, hə, gülümsündü — bunu mən aynada lap aydın gördüm. Yox, bala, mənə gələ bilməzsiz, mən bu yolları çoxdan keçmişəm. Siz duza indi gedirsiniz, mən isə duzdan qayıdıram».

Bu ağır və ağrıdıcı daxili həsbi-hal onu dünənki kimi, axşamkı kimi gündüz də — işdə olarkən də bir an belə rahat buraxmamışdı, idarədə bütün günü nə elədiyini, nə dediyini bilməmiş, hövsələsizlik göstərmiş, işçiləriylə, yanına gəlib-gedənlərlə sərt, fikri dağınıq davranmışdı. Bunu hiss eləyən idarə əməkdaşları da mümkün qədər ona az müraciət eləməyə çalışmış, uzaq gəzib dolanmışdılar. Dünən də, bu gün də «şef»in qanının yamanca qara olduğunu hamıdan tez görən və duyan, təbii ki, Tanrıgül olmuşdu, çünki bir yerdə işlədikləri bu uzun illərdə, xüsusən taleyin hökmüyləmi, zərurət ya təsadüf üzündənmi (Tanrıgül indiyə qədər bunu hələ də aydınlaşdıra bilməmişdi, görünür, alın yazısıymış, belə olmalıymış», — deyərək barışıb oturmuşdu), onunla qaynayıb qarışaraq canbir qəlbdə olandan, o qüdrətli, ötkəm, məqsədinə çatmayınca yolundan dönməyən kişinin qəlbinin hakiminə çevrildiyini, onun hakimi-mütləqi olduğunu anlayandan sonra, hər xasiyyətinə, oturuşuna, duruşuna, nəylə, necə nəfəs almasına dərindən-dərinə bələd olmuşdu və adicə bir baxışla nə demək istədiyini, nə düşündüyünü və çox hallarda ürəyindən belə nə keçdiyini müəyyən eləyə bilirdi. Tanrıgül dünən də, bu gün də birində göz-qaş işarəsi ilə, ikincisində diliylə: «Nə olub?» — deyə xəbər almışdısa da, o, başını bulamaqla: «Heç nə» cavabını vermişdi və sonra da fikirləşmişdi ki, bu Leyla əhvalatını Tanrıgülə desinmi, deməsinmi? Desə, necə desin? Deməsə, necə deməsin? — çünki indiyəcən Tanrıgüldən heç bir şey gizləməmişdi: ən gizli, ən məhrəm sirlərini, dərdlərini belə ona açmışdı, hətta elə məsələlər də vardı ki, onlardan Leylanın xəbəri yox idi, amma Tanrıgül onun fikrincə, içində oturmuşdu, özüydü; adam da özündən söz gizləməz ki.

Bəli, Tanrıgül onu çoxdan tanıyırdı: əslində Tanrıgülü ora, yuxarı, aparata, Mərkəzi Komitəyə, öz yanına gətirən, çox əzab-əziyyətdən, gizli, gözəgörünməz cəngi-cidaldan, sonralar qadının yarıciddi, yarızarafatla dediyi kimi, «qan su yerinə axandan sonra», demək olar ki, zorla özünə təslim eləyən və illər boyu ətlə dırnaq kimi bir-birindən ayrılmadan yaşayan, can

deyib, can eşidən və nəhayət, Bakıda adam bir-birinə dəyib dünya qarışarkən o uca zirvədən başı aşağı dığırlananda da Tanrıgülü özüylə bərabər bura — bu balaca idarəyə gətirən də o olmuşdu.

Tanrıgülün yadındadı; əvvəllər, hələ aparatda işlərkən, çəkişib bərkimiş münasibətlərinin, yerə-göyə sığışmayan məhəbbətlərinin qaynar-qızğın çağlarında hərdən səhərlər evdən işə qanıqara, dilxor gələndə dərhal, bir qadın sövqi-təbiisi ilə başa düşürdü ki, ər-arvadın arasında söz-həkət olub, Leyla onu zəhərləyib, qəlbinə dəyib, burnuna duzlu su qoyub (hansı ev-ailə söz-söhbətsiz olur ki?) küsüşüblər. Qəribəsi bu idi ki, belə olan günlərdə Tanrıgül yamanca, lap uşaq kimi sevinərdi və bundan daha qəribəsi buydu ki, istəyirdi onlar tez-tez, heçin-puçun üstündə dava-qalmaqal salıb bir-birini dindirməsinlər. Tanrıgül yaxşı bilirdi ki, bu cür olanda həmin gecə ər-arvad ayrı yatır və o, bundan anlaşılmaz bir sevinc duyurdu: bunu da bilirdi ki, o umu-küsü hələm-hələm keçib getməyəcək, ən azı üç-dörd gün, bəlkə lap bir həftə davam edəcək. Həmin gecələri Tanrıgül də öz evində, öz çarpayısında rahat-rahat yatardı, təbii ki, həmin gecələr Eynulla da — onun əri də öz halalca arvadının gözəl vücudundan həzz almaq imkanlarından hər hansı bir bəhanə ilə (qadının bəhanə tapmağına nə var ki, başım ağrıyır, kefim yoxdur, xəstələnmişəm və sair və sair) məhrum edilərdi. Tanrıgül bunu da ona — öz «gizli əzizinə» sədaqət sayırdı. Bəli, belə günlərdə onun necə «prinsipial» olduğunu yaxşı bilirdi Tanrıgül. Dəvə kimi kinliydi o; hələm-hələm hirsi soyumazdı, hətta Leyla peşiman olub ərindən üzr də istəsəydi, yalvarsaydı da, o, barışan deyildi, üzünü divara çevirib tək-tənha yatacaqdı və Leyla da öz yerində qıvrıla-qıvrıla qalacaqdı. Tanrıgül uzun illər boyu, lap bu yaxınlara qədər, onun «gizli əzizini» bunca sarsıdan o soyuqluq küləkləri əsənəcən bu gözəgörünməz qısqanclıq oyunlarından, bu qəribə «intiqamlardan» sonsuz, dillə deyiləsi mümkün olmayan bir ləzzət alardı. Bunu o da duyurdu və Tanrıgülün bu sehrli, doyulmaz, təkrarolunmaz və hardasa bir az da anlaşılmaz olan bu qadının belə pünhan nəşəsini onun

böyük sevgisi sayaraq məst olurdu, yerə-göyə sığışmırdı, özünü dünyanın ən bəxtəvər kişisi sanırdı. Lakin son vaxtlar belə qanıqara hallarda o, Tanrıgülün qara, işıqlı gözlərində, ağ-əsmər sifətində o gizlin sevinci, fərəhi duymur və bundan yaman pərt olurdu. Ona axır zamanlar elə gəlirdi ki, indi belə şeylər, ümumiyyətlə, onun özü, Tanrıgülü az maraqlandırır, bəlkə də heç maraqlandırmırdı da. Son dərəcə həssas bir qadın olan Tanrıgülün bu cür soyuqluğu, biganəliyi onu üşütməyə başlamışdı və hətta qəlbində şübhəli fikirlərin doğmasına səbəb olmuşdu. Tanrıgül deyəsən bunu da anlamırdı və ya anlamaq istəmirdi ki, son aylar onun belə pərişan gəzib-dolanmasının, arıqlamasının, açıq-aşkar qocalmasının iki-üç mühüm illəti vardısa, onların biri, bəlkə də birincisi Tanrıgülün beləcə dəyişməsi, ya da dönməsiydi. Bax, məhz bunu Tanrıgül başa düşürdü, bu da onu dəli olmaq dərəcəsinə gətirir, dirigözlü öldürürdü. Bəla burasındaydı ki, onun içini gəmirib dağıdan dərd — niyə belə eləməsi — Tanrıgülün özünə məlum idi, ancaq ona… yox.

Sol qolunu irəli uzadıb saata baxdı: beş idi, haramzada isə hələ də yox idi…

Hər gün bir qutu siqaret çəkərdi, bu gün isə ikinci qutu artıq qurtarmaq üzrə idi. Ağzının zəhər daddığını hiss eləyib, ağacın dibinə tüpürmək istədi, ancaq ayıb, ədəbsizlik sayıb zəhərini uddu. Maşının qabaq şüşəsi, damı xırda damcılarla örtülmüşdü, asfalt islanmışdı, keçib gedən maşınların təkərlərinin qəribə qıjıltısı əsəblərini cırmaqlayırdı. Sürücünün dalınca alıb-verdi, söyüb-söyləndi: «Küçük. Otur maşında, gözlə məni. Dayan, sənin başına bir oyun gətirim ki, adın da yadından çıxsın, vicdansız. Mənim çörəyimi ye, sonra da arvadımın üzünə baxıb, yabı kimi dişlərini ağart. Ay sən öləsən, köpək oğlu». Srağagünəcən çox istədiyi, hörmət elədiyi, həmkarlarının ədəbli, başıaşağı olması, dəqiqliyi ilə seçilən bu oğlan, dünəndən bəri gözünə ilançayan şəklində görünməyə başlamışdı və allah eləməmiş, ürəyinə damanlar düz çıxsa, onunla necə rəftar edəcəyini də ölçüb-biçməyə vaxt tapmışdı, hökmünü çıxartmışdı:

«Öldü…rə…cəyəmmi», — deyə əfi ilan kimi fıs-fıs fısıldamışdı.

Birdən yadına düşdü ki, saat altıda burda olmasını tapşırıb və yenə nigarançılıq içində saata baxdı: altıya yeddi dəqiqə işləmişdi. Kötüyünəcən sümürdüyü siqareti əsəbi bir hərəkətlə ağacın dibinə tullayıb, təzəsini yandırmaq istəyəndə elə bil qaibdən kimsə ona əmr elədi ki, baxışlarını qaldır yuxarıdan, kitabxana tərəfdən, küçə ilə üzüaşağı, sənə sarı gələn o qadına bax. Qəribə idi: məhz «qadına» bax, — söylədi kim idisə, «kişiyə» yox. Böht içində, qeybdən deyilmiş o sözlərin sahibinin kim olduğunu müəyyən etmək üçün, o, qanrılıb yan-yörəsinə ötəri bir nəzər saldı, lakin heç kəsi görməyib, özündən asılı olmayaraq söylənilən səmtə boylandı, siqaretini alışdırmağı belə unudaraq qaşlarını çatıb baxışlarını xiyabana zillədi. Və heyrət içində gördü ki, nəsə danışa-danışa addımlayan üç-dörd kişinin ardınca orta boylu, sadə, kasıbyana geyinmiş, şəhər xanımlarına, qızlarına əsla oxşamayan, çiynində zərli-zibalı çantası olmayan, sol əlində çox yüngül bir salafan zənbil tutmuş, sakit, xırda, arxayın addımlarla bir qadın gəlir. Hər şeydən əvvəl onun yaşıl, güllü, saya baş örpəyi diqqətini cəlb elədi. Sanki onun baxmağını gözləyirmiş: qadın yalnız bircə saniyəliyinə ayaq saxladı, baxdı — ona baxdı və elə o an da, qadının hələ rəngini belə seçə bilmədiyi gözlərindən elə bil iki qırmızı-mavi işıq seli nazik qoşa sap kimi axıb çox sürətlə ona sarı süzüldü, ba-yaqdan açıq havada, çiskin altında azca sərnimiş bədəni isinən kimi oldu, vücudunda anlaşılmaz bir gizilti gəzib dolaşdı, canı qızışdı. Bütün bunlar cəmi bircə saniyənin içində olmuşdu, ancaq nədənsə ona elə gəldi ki, o qadının göründüyü andan indiyəcən az qala bir ömür qədər vaxt keçib. Sonra qadın yerindən tərpəndi və eyni arxayın qədəmlərlə addımladı. Elə bil ayaqları yerə dəymirdi, uçurdu sanki, ya su üzərində yeriyirdi, gözləri isə ondaydı. Gəlirdi. O da sehrlənmiş kimi, baxışlarını ondan üzə bilmirdi və beynindən keçirirdi: «Mənə «o qadına bax» deyən kim idi, ilahi? Bəlkə qulağım səsə düşdü, hə? Axı burda məndən başqa heç kəs yoxdu. Yox, mən dəli oluram

deyəsən». Qadın tuşuna çatdı, hə, budu, çatdı. Keçib getməliydi qanunla, ancaq… ancaq birdən, lap böyründə ikən dönüb ona sarı addımlayanda o, bir az da üşürgələndi, bədəninin hərarəti bir az da artdı və qəribə idi ki, birdən vücudu soyudu, üşüdü.

Qənşərində dayandı: indi o, qadına diqqətlə baxa bilirdi; iri, qonur, qığılcım saçan gözləri vardı, qəşəng biçimli, qəlibdən çıxmış kimi yaraşıqlı sifəti ənliksiz-kirşansız nazik, çatma qaşları qaranquş qanadları kimi çox şairanə olan gözlərinin üstünə gərilmişdi. Ani olaraq tanıdığı, bildiyi, gördüyü, yanına, qəbuluna gəlib gedən az qala bütün qadınları fikrən xatırlamağa çalışdı, ancaq tanıya, xatırlaya bilmədi. Yaddaşından heç vaxt şikayət eləməmişdi: bircə dəfə görmüş olsaydı, hökmən xatırlardı. O, fikrini cəmləşdirməyə imkan tapmamış, qadın onu lap yaxından tanıyırmış kimi, çox ərkyana, çəkinib eləmədən, uşaq təbəssümüylə gülümsünərək:

— Aslan bəy, xahiş edirəm mənə bir dənə siqaret verin. — söyləyəndə Aslanın pırpız qaşları dartılıb az qala alnının ortasına qalxdı. Azca əvvəlki hərəkətlərinin – qayibdən gələn o əmrin, qadının gözlərindən axıb üstünə tökülən o qırmızı-mavi işıq selinin, canının isinməsinin və sonra soyumasının — bütün bunların üstünə bir heyrət də əlavə olundu. Adını hardan bilirdi və bir də belə cavan, lap kəndli qızına oxşayan bu qadın eynən kişi kimi (heç hər kişi də cəsarət eləyib küçənin ortasında Aslandan siqaret istəyə bilməzdi) ondan papiros xahiş edirdi. Bu çaşqınlıqdan çıxmamış, qadın təzədən çaşdırdı onu:

— Niyə qaşlarınızı çatırsız, məgər siz Aslan bəy deyilsiz?

Aslan nə edəcəyini bilmədiyindən, karıxmış halda kəkələyə-kəkələyə soruşdu:

— Sən… sən mənim adımı hardan bilirsən, qız?

— Cibinizdən, — deyə o, nazik qaşlarını yuxarı qaldırmaqla Aslanın sol cibinə işarə elədi və kişinin özünü tamamkamal itirdiyini görərək mehriban bir ədayla gülümsündü. Aslan başını aşağı əyib ürəyinin üstünə baxaraq:

— Necə yəni cibimdən? — dedi.

— Cibinizdəki vəsiqənizdən. Orada adınız da, atanızın adı da, familiniz də ap-aydın yazılıb, bəy. Aslan Fərhad oğlu Qədirli, istəyirsiz pasportunuzdakı ünvanınızı da deyim?

— Yox, yox. Lazım deyil! — Aslan elə tələsik buna etiraz elədi ki, guya ünvanını tanımadığı bu qadının dilindən eşitmək nə isə böyük bir fəlakət gətirə bilərdi. Və ürəyində öz-özünə pıçıldadı: «Kağızı dalından oxuyan eşitmişdim, amma cibdən oxuyan görməmişdim».

Qadının əsmər üzü təbəssümdən işıqlandı:

— Kağızı dalından oxuyan eşitmişdiz, ancaq cibdən oxuyan görməmişdiz, eləmi? — deyə o, bircə saniyə əvvəl Aslanın ürəyindən keçirdiyi sözləri olduğu kimi təkrar eləyəndə Aslan lap donub qaldı və nə isə demək istədi, lakin ağzında dili hərlənmədi. Qadın isə özünün bu ürək oxumaq qabiliyyətindən qürrələnib eləmədən, sakit bir ədayla əlavə etdi: — Görməmişdiz, görərsiz, bəy, hələlik isə heyrətinizi qoyun bir yana, lütfən mənə bir dənə siqaret verin. Bilirəm, qutuda siqaret az qalıb — beş gilə siqaretiniz qalıb cəmi, amma eybi yoxdu, evinizdə çoxdu, ağzı hələ açılmamış iki blok «Malbora»nız var evdə.

Aslanın ayağı yerə yapışmışdı, elə bil tamam ayrı bir dünyaya düşmüşdü. Sanki yuxu görürdü. Heyrətdən, təəccübdən dili tutulmuşdu elə bil. Beyni, düşüncələri gözəgörünməz bir əlin hökmü ilə qatılıb-qarışdırılmışdı. Heç nə fikirləşmək, heç nə söyləmək iqtidarında olmayan Aslan qeyri-iradi əlini cibinə salıb qutunu çıxartdı, qapağını aralayıb içinə nəzər saldı: doğrudan da beş gilə siqaret qalmışdı. Onlardan birini götürüb qadına uzatdı və həyəcanından aşkarca əsən əlindəki alışqanla onun siqaretini yandıranda bir də simasına tamaşa elədi: adi, sakit, hiylədən, məkrdən uzaq bir adam təsiri bağışlayırdı, sarımaq, ələ salmaq, lağa qoymaq niyyətlərindən uzaq adama oxşayırdı. Aslan onun üzünün cizgilərini öyrənə-öyrənə, yaddaşına həkk etməyə çalışaraq öz siqaretini də alışdırdı. Qadın siqaretə bir qüllab vurub öskürdü. «Çəkən deyil», — deyə Aslan düşünəndə qadın, yenə gözləmədiyi halda:

— Düz deyirsiz, çəkən deyiləm, — söylədi və Aslan növbəti heyrətini büruzə verməyə özündə daha taqət tapa bilməyib, sehrlənmiş kimi susub matdım-matdım qadına baxıb gülümsün-dü. Evdə həqiqətən iki blok «Malbora» var idi. Dördünü almışdı, ikisini çəkmişdi, indi cibində olan, içində də bu xanımın dediyi kimi, cəmisi beş gilə siqaret qalmış qutu ikinci blokun sonuncu qutusuydu. Güləş, ya boks meydanında güclü rəqibindən dalbadal ağır zərbə almış oyunçu vəziyyətinə düşmüş Aslan fikrində bu möcüzələri götür-qoy edərkən qadın həlim və qayğıkeş bir səslə dilləndi:

— Siz çox kədərlisiz, Aslan bəy. Bu gecə də heç yatmamısız, indi də burda dayanıb sürücünüzü gözləyirsiz. O isə indi yox, siz dediyiniz vaxt, yəni saat altıda gələcək. İndi o, yəni Mehman, o biri küçədə bir dostunun kabinetindən sizin evlə danışır.

— Necə yəni bizim evlə? — Çılğın bir səslə soruşdu Aslan: elə bil ki, Mehmanın bu dəqiqə onun evinə zəng eləməsində günahkar qarşısındakı qadın idi. — Mən ona elə şey tapşırmamışam.

— Siz tapşırmamısız, düzdü, bəy, — Qadın bir an susdu, nə isə fikirləşib — hiss olunurdu ki, demək istəmir, amma deməlidi — çətinliklə söylədi: — Siz deməmisiz, ancaq sizin möhtərəm xanımınız Siranuş tapşırmışdı, bəy.

Aslanı elə bil qəfildən güclü bir ildırım vurdu, bütün bədəni gərildi və o, başının gicəlləndiyini, indicə küçənin ortasında, elə bu ağacın dibində, gəlib-keçənlərin gözünün qabağında yıxılacağını duyub kürəyini ağacın gövdəsinə söykədi. Nəfəsi bir anlığa getdi, gəlmədi, sinəsində gizləndi, dodaqları kilidləndi, tez-tez dəbərişən xırda, qonur gözlərini eynən boğulan ya havası çatmayan adam təki geniş açaraq qarşısında çox soyuqqanlıqla durub yalandan siqaretinə qüllab vuran, ancaq tüstüsünü ciyərinə çəkməyən qadına baxdı. O, sakitcə dayanmışdı, elə bil Aslanın dalbadal aldığı bu sarsıdıcı, dözülməz zərbələrdən necə qıvrıla-qıvrıla, əzabla can verməyinə tamaşa edib ləzzət alırdı. Çox qəddar adam imiş o! Bu xəbərlərin elə

yalnız bircəciyi bəs idi ki, Aslanın ürəyi o andaca partlasın. İlahi, bu kimdi? İnsandımı, cin-şəyatindimi? Göydənmi gəlib, yerdənmi çıxıb? O, Siranuşu hardan tanıyır axı?! Bu boyda Bakıda Leylanın əsil adının Siranuş olduğunu göydə allahdan, yerdə Aslandan və bir də Siranuşun özündən başqa bilən ikinci bir adamın varlığını qətiyyən ağlına belə gətirə bilməzdi. Bu sirri bilən bircə Siranuşun qoca əmisi Haykaz idi ki, o da iyirmi il bundan qabaq ölüb getmişdi. Başqa heç kəs, heç kəs… Mehmanı hardan tanıyır? Onun Siranuşa zəng etdiyini ya etməli olacağını hardan bilir axı bu, ilahi? Göydənmi düşmüş, yerin təkindənmi çıxmış bu qadın necə məxluqdu, aman allah?

Birdən beynindən qıjıltı ilə bir fikir keçdi: kürəyini ağacdan ayırıb üstünə cümsün, yaşına, vəzifəsinə baxmadan şapalaqlasın, ayağının altına alıb çıqnasın. Çünki onun ən məhrəm, ən gizli sirrlərinin üstünü açmağa qadir idi, bilirdi. Mehmanla Leylanın münasibətindən xəbərdar idi, halbuki, o özü bundan cəmisi iki gün qabaq şübhələnmişdi — hələ şübhələnmişdi, o isə bu əhvalatdan fakt kimi danışırdı. Leylanın Siranuş olmasından xəbərdar idi. Aslan bu sirrin üstünün açılacağından, ölümdən qorxduğundan çox qorxurdu. İndi, şeytan hiyləsiyləmi, kənardan uzadılan «ingilis» barmağının fitnəsiyləmi, ağılsızlıq ucbatındanmı dingildədilib ortalığa salınmış namərd, qədirbilməz qonşularımızın başladığı bu qanlı savaşa cəlb olunan və bu qədər qanlar tökülməsinə səbəb olan elan olunmamış müharibənin bu çağında o dəhşətli — əlbəttə, Aslan üçün — sirrin üstü açılsa, o gərək papağını götürüb bu torpaqdan çıxıb getsin, çünki yəqin bir belə həngamədən sonra sümüyünü it sümüyünə calamış belə «qeyrətzadə»lərin bu torpaq üstündə yaşamasına heç kəs imkan verməyəcək; başqa cür də ola bilməz, çünki ermənilər, kim də yaxşı bilməsə, Aslan yaxşı bilirdi ki, orada, tarixən bizim ata-baba torpaqlarımız olan o səfalı yerlərdə heç olmasa öldürüb nümunə kimi muzeylərində gələcək namərd nəsillərinə göstərməyə saxlamaq üçün də bir türk qoymayıblar qala. Hətta öz halalca arvadlarına çevirdikləri və neçə illər bir yastığa baş qoyduqları ağılsız və heysiyyətsiz bəzi türk

qadınlarını da min-bir bəhanə ilə ev-eşiyindən, uşaqlarından didərgin saldıqları bir zamanda, Aslan kimi yalnız adı azərbaycanlı olan «kişiciyəzlər»in öz erməni xanımlarını saxlamağı əsla mümkün olmayacaqdı. Bu hələ gələcəyin işi — qayğısı idi, indinin dərdini çəkmək lazım idi: bu dərd isə ondan ibarət idi ki, əgər onun arvadının erməni olduğunun üstü açılsaydı, bu dəqiqə əsəbləri sim kimi gərilmiş, ürəyində nifrət və qəzəb dalğaları əsib coşan camaat Aslanın özünü daş-qalaq eləyər, damını başına uçurdar. Odla-su arasında bu da ağlına gəldi: «Məgər erməni qızı alan tək mənəm? Mərkəzi Komitədə, Nazirlər Sovetində işləyən neçəsini tanıyıram ki, arvadları da ermənidi, hələ «lyubovnitsalar»ı da. Ancaq bir iş var ki, onlar bunu gizləməyiblər. Mən isə ağıllılıq eləyib bu it qızının adını da dəyişmişəm. Ala qarğa çox bilmişliyindən ilişdiyi kimi, mən də çoxbilmişliyimdən ilişmişəm bu dəfə». Ürəyində maşının yanına gec gəlib çıxan Mehmanı — əgər o, burda olsaydı, tez minib getsəydi, bu sehrkar qadına yəqin ki, rast gəlməzdi və bu qan qaraldan söz-söhbət də olmazdı — söyməyə başladı və iki daşın arasında bunu da hiss elədi ki, Mehmanı nə qədər çox və yağlı söyürdüsə, bir o qədər canından çox tikan çıxırdı.

Lakin indi… o qadından öz məhrəm sirrini eşidəndən və bir neçə anın içində allah bilir neçə dəfə ölüb-diriləndən sonra Aslan zəif, aciz bir səslə:

— Axı… axı sən kimsən? Sən falçısan, cadugərsən, əfsunkarsan, nəsən, ay başına dönüm? Səni kim öyrədib mənim yanıma göndərib axı? Sən məndən nə istəyirsən? — deyərək əlləri əsə-əsə siqaret yandırdı, yazıq-yazıq qadının üzünə baxaraq tüstünü ciyərlərinə sümürdü; sanki içərisinin yanğısını bu zəhirmar tüstü ilə söndürə biləcəkdi. O, məşum sözləri dilinə gətirən andan Aslanın haldan-hala düşdüyünü görən və sanki özününmü, başqa birisininmi bədbəxtliyində kiminsə deyil, məhz onun günahkar olduğunu bildiyindən bundan xüsusi ləzzət alan qadın müəmmalı bir tərzdə gülümsünərək yarıyacan «çəkdiyi» siqareti yerə atdı, burnunun ucu sürtülmüş ayaqqabısı ilə tapdalayıb söndürdükdən sonra sakit-sakit dedi:

— Mən nə falçıyam, nə cadugərəm, nə agentəm, nə göydən gəlmişəm, nə yerdən çıxmışam, Aslan bəy. — Qadın onun təkcə indicə dilindən qopan sözləri yox, bayaqdan bəri neçə dəfə ürəyindən keçirdiyi sözləri də bir-birinə qatıb söyləyəndə Aslanın pırpız qaşları yenə qalxıb alnının ortasına mindi: — Mən sən düşündüklərinin heç biri deyiləm, mən adi bir adamam.

— Yox, yox, nəyə desən and içərəm, sən adi adam deyilsən. Sən ya mələksən — göylərdən gəlmisən, ya cinsən, şeytansan, qız. Əgər səni mənim düşmənlərim, DTK öyrədib dalımca göndərməyibsə, sən möcüzəsən, qız. Açıq söylə, de görüm məndən nə istəyirsən? Bax, niyə öz yolunla çıxıb getmədin, niyə mənim yanıma döndün, niyə mənim onsuz da özümə bəs eləyən dərdlərimi təzədən yadıma salıb qanımı qaraltdın, qız? Mən səni heç cür xatırlaya bilmirəm. Ola bilər mən haçansa sənə bir pislik eləmişəm, sən indi məndən intiqam almaq istəyirsən, hə? Sən məni əvvəllər görmüşdün, tanıyırdın? Sən allah, düzünü de, bağrım çatlayır.

— Dedim ki, yox, bəy. Sənin dediklərinin heç biri düz deyil. Mən səni birinci dəfədi görürəm, vallah. Sən şəxsən mənə də heç bir pislik etməmisən ki, səndən intiqam alım. Səndən də heç umacağım yoxdur. Məni heç kəs sənin yanına göndərməyib — hər halda sənin şübhələndiyin adamlar məni sənin yanına göndərməyiblər. Özüm də əslində bilmirəm niyə uzaqdan səni görən kimi üstünə gəldim — elə bil mənə dedilər ki, sənin yanında ayaq saxlayım və cəmi bir neçə anın içində sənin bütün həyatın mənə əyan oldu, bəy. Mən səni uzaqdan oxudum: sən həm çox qəddar, həm də yazıq adamsan, Aslan bəy. Sən qəddarlığına görə cəzalanmalısan, yazıqlığına görə isə… sənə kömək eləməliyəm, bəy.

— Mənə «bəy» demə, qız.

— Niyə? İndi dəb düşüb. Bizimkilərin hamısı bir-birinə «bəy» — deyir. Cibində beş manatı olmayan da bəydi, kassalarda, gizlənclərdə milyonları olanlar da bəydi. Elə biri sən.

Xaricdə iyirmi beş milyon pulun var. Belə olan surətdə mən sənə niyə «bəy» deməyim, hə?

Aslan hələ tamam-kamal özünə gəlməmiş, onun bu sözlərindən sonra yenə fikir dumanında itib çırpındı: «Ay aman, mənim pulumun qədərini də bilir ki. Görəsən hardan bilir?»

— Soruşursan ki, sənin pulunun qədərini hardan bilirəm?

— Mən səndən elə şey soruşmadım, qız.

— Düzdü, soruşmadın, ancaq ürəyində belə dedin.

— Sən mənim ürəyimdə dediklərimi də bilirsən?

— Eşidirəm.

Aslan bütün vücudunu titrədən bir qorxu içində, eyni zamanda bu sehrkar qadını bir daha yoxlamaq üçün ürəyindən keçirtdi: «Daha mənim sənə sözüm yoxdu».

Qadın məmnun halda qımışdı:

— Nə sözün olacaqdı ki? Bəli, Aslan, indi sənin Şvetsariya və Türkiyə banklarında iyirmi beş milyon dolların, burda, Bakıda isə otuz milyonun var; onun az bir qismi kassadadı, gözə kül üfürmək üçün qoymusan, qalanları isə bağındadı. — Aslan bu sözləri eşidəndə bir anlığa o yan bu yanına baxındı, kənar adamın böyür-başında olub-olmadığını yoxladı, kimsəni görməyib rahat nəfəs alsa da, dünəndən nifrət eləməyə başladığı, sabah, birisi gün gümanları, şübhələri düz çıxarsa, bəlkə də güllələyəcəyi Mehmanı baxışları ilə axtardı: «Kaş bu küçük gələydi, məni bu tilsimli arvadın əlindən alıb qurtaraydı». Ancaq qorxusundan bu fikri tez özündən uzaqlaşdırmağa çalışdı, istədi maşını, Mehmanı elə burdaca, küçənin ortasında qoyub oddan-alovdan, oğrudan-quldurdan qaçırmış kimi, dabanlarına tüpürüb ayaqları yer tutduqca yolun ağına düşüb qaçsın, uzaqlaşsın, lakin taqətimi qalmışdı? Yerindən tərpənə bilməyib tələyə düşmüş yazıq ov təkin çarəsiz-çarəsiz qadına baxıb köks ötürdü, artıq əzilib ütüsünü itirmiş cib dəsmalıyla alnının tərini silə-silə başa düşdü ki, qadın əbəs yerə qımışmır: onun fikirlərini oxumuşdu o, lakin əhəmiyyət vermədiyinə görəmi, alicənablıq etdiyinə görəmi, üstünü vurmayıb yarımçıq qalmış sözünə davam elədi: — Bəli, bağındadı. Ancaq nə olsun? Elə bilirsən xoşbəxtlik ancaq sərvətdədi? O

qədər sərvətin ola-ola, bu boyda Bakıda seçilən, sayılan on-on beş kişidən biri sayıla-sayıla sən, xoşbəxt deyilsən, Aslan. Sən təbii ki, çörək dərdi, paltar dərdi, ev dərdi çəkmirsən. Səni sıxan, bədbəxt eləyən tamam başqa şeylərdi, bəy.

— Nədi, bacı? — Aslan yazıq-yazıq soruşdu, çünki o özü də bu fikirdəydi: «Bu qədər varın-dövlətin ola, amma könül rahatlığın olmaya, özünü dünyanın bədbəxtlərindən biri hesab eləyəsən. Belə də zülm olar?» — deyə Aslan son zamanlar bu suallar ətrafında çox çırpınmışdı, ancaq cavab tapa bilməmişdi. Ondan «bacı» sözünü eşitmiş qadının sifətində qəribə bir parıltı göründü, gözləri işıqlandı:

— Mənə bacı deyirsən?

— Hə. Mənim bütün sirlərimi bilirsən, sənə necə bacı deməyim?

— Sənin bacın var?

— Yox. Tək oğlan olmuşam.

— Bilirsənmi ki, «bacı» sözü necə müqəddəs sözdü? İnanmıram ki, bacısı olmayan adamlar bu sözün böyüklüyünü, ülviliyini və məsuliyyətini layiqincə başa düşsünlər. Qanı, südü, mayası doğma olmayan bir qıza, qadına «bacı» deyən kişi, gərək o kəlmənin təmizliyini kişi kimi də axıra qədər qoruya bilsin, «bacı» dediyi qıza-qadına başqa gözlə baxmağı gərək bilmərrə ürəyindən çıxarıb atsın, o murdar hissi yaxına belə gərək qoymasın. Ancaq… ancaq indi, çox təəssüf, kişi paltarı geymiş elə nakişilər də əmələ gəlib ki, üzdə, camaat gözünə, dost-tanış, qohum-əqrəba arasında bir də görürsən ki, birinə «bacı» deyir, ancaq… xəlvətdə… Nədi, qaşlarını yuxarı niyə qaldırırsan? Yoxsa belə şey görməyibsən, eşitməyibsən ya özün eləməyibsən? — Qadının bir an əvvəl xüsusi vurğu və qəribə bir kinlə dilinə gətirdiyi «nakişi» sözünü adının qabağından kənar eləmək üçün Aslan tələsik:

— Yox, — söyləyəndə qadın başını istehza ilə yırğalayıb:

— Yalan deyirsən, Aslan — söylədi. — Səmimi demirsən. Sən özün… hələ mən biləni, bir dəfə elə na…

Aslan, son dərəcə pis həzm elədiyi, acığı gələn o sözü təkrar eşitməmək xatirinə yenə tələsik dedi:

— Hə, hə, olub elə şey bir dəfə.

— Elə indi də var. İndi də onun ərinin, qohum-əqrəbasının yanında «bacımdı» deyirsən. O yazıqlar da inanırlar, ürəklərinə heç nə gətirmək istəmirlər. Lakin hamı avam deyil, bunun gözdən asılan pərdə olduğunu bilənlər də var, Aslan. Ən çox isə əri bu sözün səmimiliyinə inanmır və hər dəfə sənin dilindən o kəlməni eşidəndə üzünə heç nə deyə bilməyən o, səni ürəyində bilsən necə söyür, ikiüzlü adlandırır? Bütün günahlarını — ömrü boyu işlətdiyin bütün günahlarını qoysan bir tərəfə, yalnız ona — o qabiliyyətli, mehriban, zəhmətkeş, bir az da sadəlövh olan o kişiyə sənin verdiyin qısqanclıq əzabları kifayətdi ki, səni allah-taala o dünyada cəhənnəm əzabında, qır qazanında əbədiyyətə qədər yandırsın. Bəli, ancaq bircə bu kifayətdi, vallah. Sən heç cür təsəvvür eləyə bilməzsən ki… Yox, indi, ancaq indi, sənin özün elə bir oda düşəndən sonra başa düşə bilərsən ki, o necə dəhşətli əzab imiş ki, sən, elə o qadın da, birləşib o yazığa verirmişsiz. Ancaq allaha qurban olum, o, adildi, buynuzsuz qoçun intiqamını buynuzlu qoçda qoymur qalsın: indi sən özün eynən elə bir odun içində yanırsan, alova atılmış yaralı ilan kimi qıvrılırsan, heç yana, heç yerə sürünüb qaça bilmirsən, canını xilas eləyə bilmirsən. Gecə-gündüz baş sındırırsan ki, o düyünü açasan, amma aça bilmirsən… Ən gözəli də budu ki, o qadın, sənin özündən bir zamanlar öyrəndiyi, daha doğrusu, sənin öyrətdiyin hiylələri, üsulları sənin özünü aldatmaq üçün tətbiq eləyir — çünki o qadın əvvəllər çox təmiz olub, hiylədən, məkrdən uzaq olub, sən onu dəyişmisən, pis-pis əməllərə öyrətmisən, «adamı necə aldadarlar» elminin incə sirlərini başa salmısan. O gözünə döndüyüm də bu işə birinci elə sənin özündən başlayıb. Bu, çox təbii bir şeydi, Aslan. Ona görə də çox atlanıb düşmək lazım deyil. Nə isə, mən bir az qabağa qaçdım, bu düyünü… Mənim sözümü kəsmə, görürəm, fikrin haçalandı, ağlın dumanlandı, ancaq tələsmə. Madam ki, sən mənə «bacı» dedin, mən sənin həyatının

bütün ilişiklərini, düyünlərini, baş sındırdığın, lakin açа bilmədiyin, sənə məlum olmayan qaranlıq guşələrini açıb işıqlandıracağam. Əlbəttə, istəsən və dözə bilsən…

Aslan alnının, üzünün tərini silib:

— İstəyirəm. Dözərəm də, həqiqət nə qədər acı olsa da, bilmək, görmək istəyirəm, çünki inanmıram ki, o, mənim çəkdiyim əzablardan — o cəhənnəm əzablarından acı və dözülməz olsun. Mən o həqiqətləri bilmək, sonra da arxayın ölmək istəyirəm: onları bilməmiş ölə bilmərəm mən.

— Bilirəm, sən dözümlü və möhkəm adamsan, Aslan. Sən həyat adamı olmusan, yaxşı yaşamısan, dünyada görmədiyin kef, əyləncə qalmayıb, nə istəmisən, onu da eləmisən. Ağlın necə buyurub, elə də yaşamısan, həmişə özünü üstün, qalib görmüsən, saymısan, buna bir növ adət eləmisən, bundan isə yerə-göyə sığmayan bir qürur duymusan. Bax, buna görə də yaşına nisbətən belə cavan qalmısan. Sən həyatın mənasını yalnız iki şeydə görmüsən: sərvətdə və qadında. Sən və sənin kimilər o sərvəti, dövləti partiya dediyiniz, yalnız adı kasıbkusub, avam adamlar üçün müqəddəs olan, özü isə lotuların, əyyaşların, qəddarların, vicdansızların, işbazların əlində oyuncaq, şirma, vasitə, qalxan olan o təşkilatdan istifadə edib yığmısız. Bu tək sənə aid deyil ha. Bu, sənin böyür-başındakılara da aiddi, Aslan. Səndən yuxarılarda oturanların çoxu səndən də vicdansız, səndən də həris olublar. Onlar da öz sərvətlərini sənin kimi, yaman gün üçün, qara gün üçün, adamları, dövləti, partiyanı, əslində isə bu yazıq xalqı aldada-aldada yığıblar. Aranızda olan tək-tük təmiz adamları, əqidəliləri, pak məsləklərinin qulu-əsiri olanları və ancaq maaş cədvəlinə qol çəkməklə dolanan, sizə, yalnız sizə məxsus xüsusi mağazalardan aldıqları ucuz ərzağa və sairə baxıb sevinən gözəl əxlaqlı adamları mən bura qatmıram, Aslan. Siz, əlbəttə, onları axmaq, avam hesab eləyirdiz və xəlvətdə, öz aranızda elələrini ələ salıb gülürdüz və imkan düşən kimi, o cür adamları sıxışdırıb oradan — aparatdan çıxardırdız, çünki hər necə olsa onların yanında

siz özünüzü bir az pis, naqolay hiss eləyirdiz. Yoxsa düz demirəm?

— …

— Görürsən, susursan. Çünki həqiqəti deyirəm. Nə isə. Sənin ikinci, necə deyərlər, xobbin qadın olub və sən bunu özün üçün şan-şöhrət işi bilmisən, Aslan. Çox kişilərin, ataların, oğlanların namusuna, deməli ki, ləyaqətinə öz murdar əllərini uzatmısan, xoşuna gələn, gözünü-könlünü oxşayan neçə-neçə təmiz qızı, gəlini mələk donuna girərək ya vəzifən, ya pulun, ya yalançı göz yaşların hesabına yoldan çıxardıb aldatmısan, ləkələmisən, kefini, ləzzətini çəkəndən sonra yaxanı da kənara çəkmisən, kimini gözüyaşlı, kimini peşiman və pərişan, kimini isə amansız taleyin ümidinə qoyub aradan çıxmısan. Mən görürəm, yolunun üstünə çıxan bütün o qadınları, qızları sən atıb getmisən, çünki özünü qadir, qüdrətli saymısan. Ancaq o qadınlardan tək bircəciyi — onların — tanımadığı, bilmədiyi o qızların, gəlinlərin intiqamını səndən elə ustalıqla alıb və elə indi də alır ki, sən — özünə bu qədər qürrələnən və güvənən sən heç nə eləyə bilmirsən və yanıb yaxılırsan. Az qala bütün şüurlu ömrünü yalanlarla qol-boyun yaşayan, aldada-aldada bu sərvətə və bu mərtəbəyə gəlib çıxan sənin indi aldadılmaq növbən gəlib çatıb, Aslan. Sən hiss eləyirsən ki, səni asta-asta aldadırlar, gözünün qabağında pərdə tutub başına ustalıqla papaq qoyurlar. Evdə də, çöldə də. Bu isə sənə çox ağır gəlir, səni iliklərinə qədər yandırır, kül eləyir, ancaq sən bunun qarşısını heç nəynən, heç cür ala bilmirsən. Bunu yadında yaxşı saxla, Aslan: dünyada heç bir əməl cavabsız qalmır; insan tutduğu hər yaxşı işin mükafatını, hər pis əməlin isə cəzasını gec-tez alır. Tanrı yuxarıdan hər şeyi görür, yazır, yadında saxlayır və bir gün səni haqq-hesab meydanına çəkir, daş-tərəzi qurur. Oğulsan, bax, onda döz, tabla, verilən suallara cavab tap. İndi sənin öz əməllərinin qabağına çıxan vaxtı gəlib çatıb: sən aldadıldığını hiss eləyirsən, başa düşürsən, amma görə bilmirsən, sübut eləyə bilmirsən və bu, səni, bir zamanlar özünü dünyanın iki ən qüdrətli kişisindən biri sayan səni acizin acizi eləyib, Aslan.

Bax, sən buna görə əzablar içindəsən, yaşaya bilmirsən, yata bilmirsən. Səni görənlər, səni tanıyanlar qocaldığını, düşdüyünü görürlər və çoxları elə sanır ki, sən o böyük kürsüdən — vəzifədən çıxarılıb bu əldən-ayaqdan uzaq balaca idarəyə atıldığından yana belə fikir eləyirsən. Düzdü, kim də bilməsə, sən özün yaxşı bilirsən ki, bunun da az əhəmiyyəti olmayıb sənin bu cür qocalmağında. Lakin bu, səni yaxşı tanımayanların düşüncəsidi. Səni üzən, əldən salan bu deyil. Belə getsə, bu namüəyyənlik sənin ürəyini partladacaq, Aslan. Gözlərindəki kədər də bax elə bunun kədəridi. Mən o kədəri bax ordan, uzaqdan — qadın çönüb əlini gəldiyi səmtə uzatdı — görüb oxudum və… və sənə yazığım gəldi…

— Ona görə mənə yaxınlaşdın, eləmi?

— Hə.

— Axı niyə yazığın gəldi mənə? Bayaqdan dediklərindən belə çıxdı ki, mən dünyanın ən pis, ən alçaq adamıyam, bəs nə əcəb belə bir adama sənin yazığın gəldi?

— Bilmirəm. Mən bunu özbaşıma eləmədim. O hissi — sənə rəhm eləmək hissini mənim ürəyimə dolduran kişi var, Aslan.

— Kişi?

— Hə.

— Kimdi o kişi, qız?

— Onu soruşma, Aslan. Belə şeyləri soruşmazlar. O, sənin üçün sirr olduğu kimi, mənim üçün də sirdi və görünür, həmişə sirr olaraq da qalacaq. Mən heç yerə özbaşına getmirəm, heç nəyi özümdən uydurub demirəm. Sadəcə sözü deməmişdən bir anmı, anın onda biri qədərmi vaxt keçməzdən əvvəl mənə əyan olan şeyləri dilimə gətirirəm və deyirəm. Vəssalam.

— Onda sən ekstrasenssən, qız, heç özün də bilmirsən.

— Yaxşısı budu, bu barədə heç danışmayaq. Sadəcə, yadında saxla: biz bu gün, bax elə burada, bax elə bu vaxt görüşməliymişik və mən sənə bu sözləri deməliymişəm.

— Belə çıxır ki, səni mənim yanıma… allah özü göndərib hə?

— Dedim ki, heç nə soruşma. Bu görüş səndən, məndən asılı deyildi. Heç ağlına gətirirdinmi ki, mənim kimi bir adamla görüşə bilərsən?

— Yox.

— Mən də yox. Deməli, bu bizim iradəmizdən asılı olmayaraq baş tutmuş bir görüşdü. Bax, sən bayaq, mən sənə o sərt sözləri deyəndə, bərk əsəbiləşmişdin, məni döymək, əzişdirmək keçirdi ürəyindən, qaçmaq, uzaqlaşmaq istəyirdin, ancaq bacarmadın!

— Nə bilim. Bacarmadım.

— Yox, qoymadılar, Aslan. Dayan, danışma, indicə demək istəyirsən ki, kim qoymadı. Soruşma.

— Baş üstə, xanım. Demək, mən nə qədər pis, müzürr adam olsam da, allahın mənə yazığı gəlib ki, səni yolumun üstünə çıxardıb.

— Bəlkə də. Allah adildi, mehribandı, bağışlayandı, Aslan. Görünür, hələ sən tamam məhv olmamısan və tanrı səndən ümidini tamam kəsməyib, yəqin istəyir haqq yoluna qayıdasan, günahlarını yuyasan. Mən ki, səni əvvəllər tanımırdım, təzəcə tanış olmuşuq və mən baxıb görürəm ki, sənin qəlbini şeytanlar hələ başdan-ayağa qədər işğal eləyə bilməyiblər: əgər özün istəsən, xilas ola bilərsən.

— İstəyirəm, çox istəyirəm. Çünki daha belə yaşamaq olmaz, inan ki, daha dözə bilmirəm.

— Başa düşürəm, Aslan. Sən ürək adamısan, yəni sənin allahın, əstəğfürullah, ürəyindi. Ağlından çox ürəyinin hökmü ilə oturub-durmusan, onu incitməmisən, arzuladığını vermisən və ömrünü ürəklə yaşamısan. Doğrusunu bilmək istəsən, mən özüm də ürəklə yaşayan adamları xoşlayıram. Bəli, sən ürəklə yaşamısan və indi sənin o ərköyün ürəyini incidirlər, əzab ve-

rirlər. Sən qaranlıqlar, zülmətlər içindəsən, müəmmalar məngənəsində tora düşmüş qızıl balıq kimi çırpınırsan, çabalayırsan. Bilirsənmi ki, balıqların şahı sayılan qızıl balığı hələ bir balıqçı diri tuta bilməyib? Çünki qızıl balıq tora düşən kimi özünü ora-bura çox vurur, tordan xilas olmağa can atır, nicat yolu tapa bilməyəndə isə hikkəsindən, qəzəbindən bağrı çatlayır. Hə, sən indi o qızıl balığa oxşayırsan ki, tora düşmüsən, çırpınırsan, əgər xilas olmasan, xilas olunmasan, məhv olacaqsan. Sən çox şeylərin düyününü açmaq, aydınlaşdırmaq istəyirsən, sübut eləmək istəyirsən, lakin bacarmırsan, bacara da bilməzsən, çünki indi elə sən də daxil olmaqla insanlar çox mürəkkəb, məkrli, ikiüzlü yox, min üzlü olublar ki, açılmaz, dolaşıq, milyon düyünlü bir müəmmaya dönüblər, çünki zəmanə özü anlaşılmaz olub, insanlar ondan da anlaşılmazdı, Aslan…

Aslan ixtiyarı əlindən getmiş, sehrlənmiş bir adam kimi, susub qulaq asırdı: qadın onun ürəyini, içini, həyatını ovcunun ortasındaymış kimi yavaş-yavaş, hələlik ordan-burdan oxuyurdu və ömrünün, düşüncələrinin elə pünhan, bəziləri ancaq özünə məlum, bəziləri isə özündən də gizlin olan nöqtələrinə toxunurdu, gözəgörünməz dünyasının elə məhrəm sirlərindən danışırdı ki, hərəsi ayrı-ayrılıqda bir kitaba sığmazdı. Bu qadınla elə-belə, indiki təki gözü orda-burda ola-ola, ayaqüstü, küçədə yox, evdə, bağda, sakit, arın-arxayın bir şəraitdə üzbəsurət oturmaq, söhbət eləmək, müəmmalı, sehrli bir dastana bənzəyən bu qadını saatlarla, günlərlə danışdırmaq, dinləmək, həqiqətən peyğəmbərcəsinə söylədiyi və neçə müddətdən bəri rahatlığını əlindən alıb dəliyə döndərmiş o pırtlaşıq düyünləri asta-asta, bir-bir açmaq, onlara cavab tapmaq necə də gözəl olardı, aman allah. Cavanlıq illərində güclü ateist olmuş, allahı, peyğəmbəri tanımamış, dini, məzhəbi, təriqətləri puç və əfsanə hesab eləmiş Aslan, indi, yaşının altmışı haqladığı vaxt, bəlkə də ölümünün yaxınlaşdığını, ömrünün qürubunun çox da uzaqda olmadığını duyduğundan, kim bilir, bəlkə də son zamanlar düşdüyü bu burulğandan xilas ola bilməyəcəyinə inandığından

o gözəgörünməz varlığa tapınmağa, iman gətirməyə başlamışdı. Qəlbini çulğamış bu təşviş və nigarançılıq o qədər güclü idi ki, hətta arada-bərədə gəzən, çoxu yalançı, fırıldaqçı olan, hamıya az qala eyni sözlər deyən falçılara, qaraçılara, karta baxanlara, ruhlarla danışanlara, iynə, nəlbəki fallarına və sairə inanmaq istəyirdi, onların göstərdiyi «möcüzələr» barədə eşitdiyi söhbətlərə maraqla qulaq asırdı, yanlarına da getmək arzusuna düşürdü. Lakin vəzifəsi, yaşı buna imkan vermirdi, «ayıbdı, görən, tanıyan olar, nə deyərlər?» — sualı, qarşısına hündür bir çəpər çəkirdi. İndi budur, elə bir fürsət, daha doğrusu, elə bir adam özü öz ayağı ilə gəlib çıxıb, əgər bu qarşısında dayanan qadının sözlərinə inanmaq (Aslan, qorxu içində ona fikir verdisə də, ancaq düşüncəsinin axarını saxlaya bilmədi) olardısa, allah özü belə bir insan göndərib onun yanına, onu əldən buraxmaq ən azı ağılsızlıq olardı və Aslan da elə ağılsızlardan deyildi. Bu tələtümə düşəndən, onun ilk ağrılarını-əzablarını dadından və bunların dəhşətli dərəcədə dözülməz olduğunu dərk eləyəndən az sonra qəti və möhkəm qərara gəlmişdi ki, içərisini gəmirən, ürəyini şübhələr içində çürüdən, yediyini-içdiyini harama döndərən, yuxularına zəhər qatan o amansız suallara cavab ala bilsəydi, o müəmmaları həll eləsəydi, günahkarları cəzasına çatdırıb onlarla birdəfəlik üzülüşə bilsəydi, bundan sonra qalan ömrünü heç kəsə inanmadan, kimsəyə uymadan, könül vermədən, qurulan torlara düşmədən rahatca yaşayacaq. Yoxsa tez öləcək, yoxsa ürəyi tez partlayacaqdı. İndi, bu dumanlı başıyla nəyi də yəqin bilməsə, bunu dəqiq bilirdi Aslan. Yox, bu ilahi qisməti əldən buraxmaq olmaz, qətiyyən olmaz, nəyin bahasına olursa-olsun, bu qadının yerini-yurdunu öyrənmək, nə istəsə vermək lazımdı ki, desin, danışsın, Aslanın rahatlığını, şirin yuxularını özünə qaytarsın.

Bir neçə saniyə ərzində səssiz-səmirsiz, ürəyindən keçirtdiklərinə sanki qulaq asırmış: nazik qaşlarını azca yuxarı qaldırıb hüzn dolu bir səslə:

— Mənim yerim-yurdum yoxdu, Aslan. Sənin də heç nəyin mənə lazım deyil. İndicə də fikirləşəcəksən ki, mən sən-

dən sığınacaq-filan almaq üçün sənə yaxınlaşmışam. Allah xatirinə, belə murdar şeyləri ürəyinə gətirmə, — söylədi.

Aslanın bayaqdan bəri kim bilir neçənci dəfə durduğu yerdə ayaqları titrədi:

— Ay allah, bundan heç nə gizləmək mümkün deyil, — dedi və yersiz-yurdsuz olduğundan, onu ya evə, ya bağa apara bilmək ehtimalının gücləndiyindən azcana qırışığı açıldı və zarafat eləmək istədi: — Vay sənin ərinin halına.

Qadın diqqətlə Aslanın gözlərinin içinə baxıb:

— Mənim ərim yoxdur, — dedi və yüngülcə köks ötürdü.

— Sənin kimi arvadnan yaşamaq olar? Yəqin yazıq baş götürüb qaçıb də, — deyə Aslan köks ötürməklə hər şeyi demiş qadını başa düşməyərək yenə zarafatından qalmadı. Və əgər Aslan, qadının arzuladığı qədər həssas olsaydı, bundan necə də kədərləndiyini duya bilərdi. Təəssüf ki, o, bu cür zərifliklərdən uzaq, çox uzaq idi.

— Yox, səhv eləyirsən. Mən heç ərə getməmişəm.

— Hə? Nə əcəb? Qəşəngsən, ağıllısan… Oğlanların gözü niyə tutulub, sənin kimi bir qızı görməyiblər, almayıblar?

— O yağlı sözləri saxla özün üçün, bəy. O, sənin köhnə silahındı — tərifləmək, göylərə qaldırmaq, inandırmaq, sonra da yerə çırpmaq…

— Yox, vallah, sən mənə qəşəng görünürsən… Bə niyə indiyəcən ərə getməmisən?

— Sevdiyim vardı, ancaq qismət olmadı… — dedi qadın və gözlərinə axıb dolan qüssəni gizləmək üçün başını qaldırıb ağacın saralmış yarpaqlarına baxdıqda Aslan söylədi:

— Demək, yer üzündə bir səadət kəm olub.

Qadının zərif dodaqlarına incə bir rişxənd ifadəsi qondu:

— Yoxsa sən də bizim bəzi qızlarımız, oğlanlarımız kimi, hələ də fikirləşirsən ki, evlənmək yaxud ərə getmək səadətdi?

Aslan saatına baxdı: qorxurdu ki, indi qadın öz nakam məhəbbəti, səadətin nə olması və sair barədə öz düşüncələrini,

mülahizələrini danışmağa başlayacaq. Mehman da bu yandan gəlib çıxacaq və söhbətləri yarımçıq qalacaq.

— Yox, Aslan. Doğrudanmı, sən elə bilirsən mən küçənin ortasında dayanıb öz bədbəxt taleyimin dastanını sənə danışacağam? Yox. Mən dərdini ovcunda gəzdirən qadınlardan deyiləm. Bir də danışsam da, sən məni başa düşən adam deyilsən — sən başqalarının dərdini-sərini anlamaq, şərik olmaq hissindən məhrum tərbiyə olunubsan: sən ancaq öz başın kəsiləndə haray-həşir qopararsan, gözünün qabağında bir nəfərin yox, bir millətin başını kəssələr də, vecinə almazsan. Acığına gəlməsin, boynuna alıb etiraf etməsən də, sən beləsən.

— …

— Susursan. Susmaq isə razılıq əlamətidi deyirlər.

Aslan yenə qolunu irəli uzadıb saata baxdı, söhbəti dəyişmək üçün və həm də bayaqdan bəri neçə dəfə ağlına gələn, lakin dalbadal sarsıdıcı şeylər eşitdiyindən unutduğu sözü axır ki, soruşdu:

— Bayaqdan danışırıq, xanım. Sən mənim adımı, atamın adını, hətta ən gizli sirrlərimi də bilirsən. Ancaq məndə səndə olan o gözəl qabiliyyət yoxdu ki, sən deməmiş mən sənin adını cibindən, ya üzündən oxuyum. Əgər sirr deyilsə, sənin adın nədi?

Qadın qımışdı:

— Yaxşı ki, yadına düşdü gec də olsa. Mənim adım… Leyladı, Aslan.

— Leyla?

— Hə. Niyə belə təəccüb eləyirsən? Yəqin ona görə ki, sənin də arvadının adı Leyladı, hə? Amma sənin Leylanla mənim çox şeylərdən əlavə, bir mühüm fərqim də var, Aslan.

— Nədi o?

— Fərq budu ki, o — sənin arvadın dönmə Leyladı, mən isə əsl Leylayam. Sən onunla Krasnodarda evlənəndə, o, Siranuş idi, Bakıya köçmək istəyəndə uzaqgörənlik eləyib adını dəyişdirib Leyla qoydun. Nə üçün o yan, bu yana baxırsan? Qorxursan ki, eşidən, bilən olar? Qorxma, ətrafda heç kəs yox-

du. Sən fəxr eləyə bilərsən ki, indi öz erməni arvadlarının adını dəyişib müsəlman adları qoyan və bununla da millətinə «xidmət» edən nakişi «kişilərimiz»in öncülü, qabağa düşəni sən olmusan. Qorxma. Mən bunu heç kəsə deməyəcəyəm. Ancaq gec-tez bu, bilinəcək, Aslan. Çünki sən onun adını dəyişmisən, xislətini, qanını, erməniliyini ki, dəyişməmisən. Nə isə, sənin dünyada çox günahların var, onların ən böyüyü budu, Aslan.

Aslan, Leylanın hərəsini bir batman balla yemək mümkün olmayan sözlərini, özü də həqiqət olan sözlərini səbrlə, diqqətlə dinləyib həzm eləmək üçün ağlına gələn yeganə çıxış yolunu dilinə gətirdi:

— Deyirsən onsuz da sənin yerin-yurdun yoxdu, Leyla xanım. Sən gəl məni düzgün başa düş, xahiş edirəm. İndi şoferim gələcək, o, bizi bir yerdə görməsin deyə sən bir az kənara çəkil. Qoy onu yola salım getsin. Biz isə ayrı bir maşına minək, gedək bağa. Şükür allaha, hər cür şəraitimiz var. Qabaqda iki gün də istirahətimiz var. Oturaq rahat, sən danış, mən də qulaq asım, hə, Leyla xanım?

— Mərdəkana gedək deyirsən?

— Sən mənim bağımın yerini də bilirsən. Görürsən, sən mənim həyatımın hər cəhətini, hər problemini məndən yaxşı bilirsən, mən isə səndən heç nə bilmirəm. İstəyirəm mən də səninlə ətraflı tanış olam. Sənlə söhbət eləmək çox maraqlıdı, Leyla xanım. Etiraf edirəm ki, bu yaşa çatmışam, hələ sənin kimi möcüzəli bir şəxslə oturub durmamışam, Leyla xanım. Hə, Leyla xanım, gedək?

— …

— Susmağını razılıq əlaməti kimi başa düşüm, Leyla xanım? Axı bayaq sən özün dedin ki, susmaq razılıq əlamətidi.

— …

— Çox xahiş edirəm, Leyla xanım. Lap yalvarıram.

— Yaxşı, — dedi və bu sözü eşidəndə Aslanın çox sevindiyini hiss eləyib gülümsündü. Doğrudan da yaxşı olacaqdı. Əldən-ayaqdan uzaq bağ, gəlib-gedən yox, sual çox. İki gün də o vicdansız arvadının üzünü görməyəcəkdi. Lakin onun adını xa-

tırlayan kimi, fikri yenə dumanlandı: «Axı Leyla bayaq dedi ki, indi Mehman hardasa, kiminsə kabinetində oturub mənim arvadımla telefonla danışır. Mən bağa getsəm, onda… ara xəlvət, tülkü bəy… görüşəcəklər… Yox». Aslan nəsə demək istəyirdi ki, Leyla astadan dilləndi:

— Nigaran qalma, Aslan. Onlar istəsələr də görüşə bilməyəcəklər.

— Niyə, Leyla xanım? — Aslan bu söhbətin başqa birisi haqqında deyil, məhz öz arvadı barədə getdiyini dərk eləyib xəcalət içində gözlərini Leylanın nüfuzlu baxışlarından qaçırdaraq yerə baxanda Leyla yazığı gəlirmiş kimi, səsinə yumşaq bir ahəng verib dedi:

— Görürəm, xəcalət çəkirsən, Aslan. Ağır dərddi. Ancaq bu mərhələ — sənin üçün nə qədər ağır da olsa, deməliyəm — çoxdan keçib və sən çoxdan xəcil olmusan. Bir də sən özün… o qədər kişilərin, lap sənin özündən də qat-qat yaxşı, üstün kişilərin arvadları ilə bağda, dağda, xəlvəti, oğurluq görüşmüsən ki… Onda heç ağlına da gətirmirdin ki, belə bir iş bu gidi dünyada sənin özünün də başına gələ bilər: onda məst olurdun, eyş-işrət aləmində xumarlanırdın, özünü dünyanın ən bəxtəvər adamı, ən qüdrətli kişisi sayırdın və heç ağlına da gətirmirdin ki, onlar səndən əskik kişi deyil, onların da namusu, heysiyyəti, şəxsiyyəti, qeyrəti var, Aslan. Onda belə şeylər haqqında düşünməyə sənin sadəcə vaxtın olmurdu… Amma indi…

— Yaxşı, ay Leyla xanım, sən allah, məni az danla daha… Hələ ömrümdə məni bir kəsin cürəti olmayıb ki, belə sözlərlə sıxıb divara söykəsin. Yaxşı, indi giley-güzar vaxtı deyil, de görüm niyə onlar bu günlərdə görüşə bilməyəcəklər, Leyla xanım?

Leyla gözlərini yumub (Aslan yalnız indi başa düşdü ki, Leyla nə isə bir suala cavab verəndə beləcə gözlərini bircə anlığa yumur) ani düşüncədən sonra söylədi:

— Mehman indi burdan evə gedəndə görəcək ki, qaynanası ölüb. Başı yasa qarışacaq, nəinki sənin Siranuşun, hətta öz adı belə yadından çıxacaq.

— Hə?

— Bəli. Ona görə sən qarşıdakı iki günü rahat öz dərdlərinlə məşğul ola bilərsən…

Aslan bu gözlənilməz xəbəri eşidəndə özündə qəribə bir sevinc duydu və bayaqdan bəri ilk dəfə əməlli-başlı gülümsündü. Bunu Leyla da tutdu, lakin ona heç nə söyləmədən ürəyindən keçirtdi: «Budu sənin siman. Gör nəyə sevinirsən. İnsan öləcək, sən isə buna sevinirsən. Nədi, nədi, Mehmanın başı qarışacaq və sənin arvadınla görüşə bilməyəcək».

— Hm. Belə de. — Aslan siqaret yandırdı. — Bu, daha yaxşı. Leyla xanım, sən bax, o hündür binanın — kitabxananın qənşərində, küçənin o biri tərəfində dayan. Mən elə burdan, bu avtomatdan evə zəng eləyim, deyim ki, məni Qarabağa — cəbhəyə göndərirlər. Gözlə ha, Leyla xanım. Çox xahiş eləyirəm.

Leyla heç bir şey demədən, yalnız başını astaca tərpətməklə ondan aralandı. Aslan dalınca xeyli tamaşa elədi, dolu, tökmə baldırlarına, düz, mütənasib bədəninə, aram, arxayın yerişinə hərisliklə nəzər salıb qılıncdan iti nəfsini saxlaya bilməyərək fikrən onu soyundurmaq istəyirdi ki, kimin haqqında belə düşündüyünü xatırlayıb o bəd, çirkin düşüncələri özündən uzaqlaşdırdı: «Lənət sənə, şeytan, yox, bu arvad yer adamı deyil, həqiqətən möcüzədir. İndi yəqin bildi ki, ürəyimdən nə keçirtdim. Qorxar, getməz, əlimdən çıxar, qalaram belə».

— Axşamınız xeyir, Aslan Fərhadoviç…

Aslan səsə çönüb böyründə dayanmış və əlində maşının açarlarını fırladıb oynadan, dünəndən bəri gözünə ilan-qurbağa şəklində görünən və indi zəndeyi-zəhləsi getdiyi Mehmanı gördü, salamını almamış üstünə çımxırdı:

— Hardasan, adə? Bir saatdı səni bu yağışın altında gözləyirəm…

— Aslan Fərhadıç…

— Nə Aslan Fərhadıç, Aslan Fərhadıç salmısan? Mənim adımı sən qoymusan?

— …

— Maşını yiyəsiz qoyub hansı cəhənnəmə itmişdin? — Bu dəqiqə yerin-göyün qəzəbini, hirsini sürücüsünün üstünə tökməyə hazır olan Aslan, az qalmışdı: — Sənə kim ixtiyar verib, mən deməmiş, götürüb bizim evə zəng vurursan? — desin, lakin zorla özünü ələ alıb sözlərini uddu və əvəzində: — Şəhər oğruynan, cığannan doludu, adamın papağını başından götürüb qaçırlar, gözünün qabağında gündə neçə «uqon» olur, sən isə… Aparsalar, neyniyəssən?

— …

Mehmanın sərt qaya kimi dayanıb qulaq asması, cavab qaytarmaması Aslanı bir az da hövsələdən çıxarırdı: «Köpəkoğlunun heç vecinə deyil, çünki fikri ayrı yerdədi». Mehman doğrudan da əhvalını pozmadan dayanıb «xozeyn»in ürəyini boşaldıb hirsini soyudandan sonra nə edəcəyini gözləyirdi.

— Apar maşını qoy qaraja.

— İndi evə getmirsiniz?

— Yox. Dalımca ayrı maşın gələcək. Yoldaşlarla Qarabağa əsgərlərlə görüşə gedəcəyəm. — Aslan bu son sözləri bilə-bilə qəsdən söylədi, gözlənilməz xəbəri necə qarşılayacağını, sevinib-sevinməyəcəyini yoxlamaq, görmək istəyirdi, çünki vaxtilə özü çox belə «psixoloji eksperimentlər» aparmış, tərəfmüqabilinin əhval-ruhiyyəsini öyrənmək xatirinə çoxlu gözlənilməz «xodlar» eləmişdi və indi də Mehmanı bu yolla «tutmaq» istəyirdi: ancaq Mehmanın dolu, qaraşın sifətindən, iri, mavi gözlərindən heç nə oxuya bilmirdi Aslan. «Yəni bu küçük də rol oynayır? Bu xaraba dünyada yəni hamı, hətta şofer də artist olub? Dayan, köpəkoğlu, sənin ciyərini çıxardacağam».

— Onda… Leyla xanıma deyim ki, siz gəlməyəcəksiz?

Aslan tələsik, ağzında dili yanırmış kimi, dedi:

— Yox, yox. Lazım deyil. Özüm demişəm. — Sonra düşündü: «Aman allah, deyirlər yalan danışma. Amma hamı, hətta bu sözü deyənlər də yalan danışır, axı bu dağılmış xarabada yalansız yaşamaq mümkün deyil, ilahi, vallah, mümkün deyil».

İKİNCİ FƏSİL

Aslanla Leyla arxa tərəfdə, yanaşı oturmuşdular. İkisi də gərginlik içindəydi, ancaq heç biri dinib danışmırdı. Əslində isə hər ikisi, daha doğrusu, hər üçü ürəyində danışırdı. Aslan bağa getmək fikrinin baş tutmasına, Leylanın buna razılıq verməsinə sevinsə də, hadisələrin necə cərəyan edəcəyindən, söhbətdə nələr eşidəcəyindən yaman bərk nigarançılıq keçirirdi. Hiss eləyirdi ki, irəlidə onu dəhşətli, sarsıdıcı şeylər gözləyir, bunları bilmək, bəlkə də ürəyinin partlaması ilə nəticələnəcəkdi, lakin bütün bunlara baxmayaraq, o, dizləri əsə-əsə bu mənasız ölümə doğru könüllü surətdə özü gedirdi, çünki daha dözümü qalmamışdı; «Nə olacaq qoy olsun, birdəfəlik bu daxili əzablardan canım qurtarsın». Özü haqqında fikirləşirdi, böyründə əyləşmiş Leyla xanım barədə heç nə düşünməməyə çalışırdı, çünki artıq qorxurdu. Qadın gözünün odunu yaman almışdı ipə-sapa yatmayan, təbiəti etibarilə hökmlü adam olan Aslan, necə deyərlər, özü də fərqinə varmadan, quzuya dönmüşdü və artıq əmin idi ki, Leyla xanım insafsızlıq eləyib desə ki, təpəsi üstə dayan, heç bir etiraz eləmədən, «Axı niyə? Axı sən kimsən ki, mənə belə əmrlər verirsən?» — söyləmədən dayanacaqdı. Həm gülməliydi, həm ağlamalıydı onun halı, lakin təəssüf ki, nə gülə bilirdi, nə ağlaya bilirdi.

Leyla xanım sürücünün arxasındaydı, onun boynunun ardına baxırdı, Aslan barədə düşünmürdü, çünki fikrini qarşısındakı beli azca donqar, saçları artıq çallaşmış, enli kürəkli, ba-yaqdan bəri dinib-danışmayan, ancaq yola baxan sürücü cəlb eləmişdi. Kişi tez-tez ah çəkirdi və sərnişinlərin də eşidə biləcəyi səslə: «Allah, sən özün kömək ol, ümid bir sənə qalıb» — deyirdi. Ürəyindən keçirdiklərini isə Leyla aydın eşidirdi: «İlahi, sən özün mənim aman-zaman qız balamı o odun-alovun içində hifz elə. Nə anasının sözünə baxdı, nə mənim. Elə bil Vətən tək bunundu, elə bil Qarabağda dünyaya gəlib. Yazıq heç Qarabağın üzün də görməmişdi. Dünyanın düz vaxtı elə hey dedim ki, yığım arvad-uşağı, aparım oralara, İsa bulağının üstünə, gəzsinlər, görsünlər, qismət olmadı. Zalım uşağı oturublar burda, stol üstündə,

vəzifə üstündə bir-birinin ətini ye-yirlər, orada isə torpaq əldən gedir, lay divar kürəkli cavanlarımız qırılır. Hamısı da kasıb-kusub balasıdır. Bir dənə dövlətlinin, vəzifəlinin oğlu, qardaşı yoxdu orda. Allah eləməmiş, o qızın başına bir iş gəlsə, anası dəli olacaq. Elə indi öz-özünə danışır, televizorun, radionun qabağından çəkilə bilmir. Ay atam-qardaşım, bizim bu böyüklərimiz niyə belə qeyrətsiz oldu görəsən? Bunlar gecələr evlərində necə rahat yata bilirlər, ilahi? Boğazlarından çörək necə keçir? Yox, o uşağıma bir şey olsa, baxmayacağam ağına-bozuna, işimigücümü atacağam, güdəcəyəm, o şərəfsizin başına harada əlimə keçsə, bir güllə çaxacağam. Yoxsa mənim ürəyim soyumaz.» Kişi cismən burdaydı, maşının içindəydi. Ancaq Leyla hiss eləyirdi ki, o, fikrən ordadı, cəbhədədi — qızının yanındadı. Kim də başa düşməsə, Leyla onu yaxşı başa düşürdü, çünki özü də o dərdliydi, çünki onun da, ailəsinin özündən sonra sağ qalmış yeganə nümayəndəsi — yeganə qardaşı Mərdan da cəbhədəydi: Leyla nə qədər eləmişdi, bu sürücünün qızı kimi, onu fikrindən döndərə bilməmişdi. «Yox, bacı, — demişdi Mərdan, — mən qala bilmərəm, mən atamın, qardaşımın, öldürülənlərimizin, buzda-şax-tada donanlarımızın, evimizin-eşiyimizin intiqamını almasam, yer üzündə yaşaya bilmərəm, bacı. Sən nahaq ağlayırsan, nahaq yalvarırsan, bacı, məni sən yox ha, Allah özü də gəlsə saxlaya bilməz. Mən getməliyəm». Və doxsanıncı ilin fevralında, imperiyanın qırmızı ordusunun rəhmsizcəsinə biçib məhv elədiyi şəhidlərin qırxı çıxan günün səhəri, tək-tənha «Şəhidlər xiyabanına» gedərək qərənfil yorğanı altında uyumuş qurbanlarımızın məzarları arasında gəzinə-gəzinə səssiz-səmirsiz and içmiş, oradan da çıxıb getmişdi. Elə o zaman Leyla qardaşının gələcək bədbəxt taleyindən xəbərdar idi, lakin açıb ona deyə bilmirdi, buna görə də həmişə dərd çəkirdi. Mərdan hələ sağ idi, vuruşurdu və hələ vaxtına çox vardı — dəhşətli sona hələ çox qalırdı.

Qurbanqulu — sürücünün adı beləydi — ürəyində tez-tez «Seyranə» deyirdi və Leyla bilirdi ki, qızının adı Seyranədir. Qurbanqulunun dərdi ona öz dərdini unutdurdu və o bir anlığına gözlərini yumub fikrən o Seyranəni əsgər libasında, əlində av-

tomat, səngərdə gördü, qəşəng, uzun kiprikli gözlərinə, xurmayı saçlarına, ağappaq çöhrəsinə tamaşa elədi və o andaca da əti kəsilmiş kimi inildədi: Seyranənin taleyi onun beynində kino lenti kimi bir anda fırlanıb keçdi və o, dəhşət içində gözlərini açdı. Dilə gətirilməli, deyilməli deyildi və Leylanın Qurbanquluya yazığı gəldi: Bədbəxt adam. Sənin müsibətin hələ qabaqdadı. Sənin müsibətin mənimkindən də böyük olacaq».

Maşında üç adam oturmuşdu və hərəsi öz dünyası, öz dərdi barədə düşünürdü. Gəlib-gedən maşınların təkərləri altında qıjıldayan, faralardan, sağdakı-soldakı beton dirəklərdən düşən işıqlar altında qara mərmərə oxşayan yolun artıq bağrı yarılmışdı. Sükutdanmı bezdi, dərdinimi unutmaq istədi, Qurbanqulu astaca başını sağa döndərib Aslana müraciətlə:

— Deyəsən, eloğlu, küsülüsüz. Danışmırsız bir-birinizlə deyəsən. Amma… nahaq. Barışın getsin. İşlərimiz ki, belə gedir, bilmək olmaz sabah nə olacaq. Bizim ki, başbilənlərimiz belə tərpənir, bir də gördün erməni səhər bir bomba atdı Bakıya, aləm künfəyəkün oldu. Düz demirəm?

— …

— Mitinqə-zada heç gedirsiz?

— …

— Getmirsiz? Nahaq getmirsiz, qardaş. Gedin, görün dünya necə dağılır. Gedin, görün böyüklərüvüzü necə söyürlər.

— Məgər tək bizim böyüklərimizdi onlar? Sənin böyüyün deyillər? — Aslan narazı halda dilləndi.

— Yox. Mənim böyüyüm-zadım yoxdu. Tüpürüm elə böyüyün üzünə mən. Satqındı hamısı, xəyanətkardı hamısı. Rus yaxşı bilir kimi vəzifə başına qoymaq lazımdı. Anasının əmcəyini kəsənlərdi çoxu. Baxarsız, mən ölü, siz qalı, bu camaat onların hamısını tutub dar ağacından asacaq. Divara söykəyib güllələyəcək. Baxarsız. Satqındı, bəli. Qoşunu şəhərə kim çağırdı? Sən özün! Kim televizorda dedi ki, arxayın olun, qoşun şəhərə girməyəcək? Sən özün! — Qurbanqulu bu sözləri deyəndə Aslanın kürəkləri arasında elə bil bir sürü qarışqa ora-bura qaçışdı,

bədəni gizildədi: «Deyəsən məni tanıyır». Cüssəli vücudu balacalaşdı, istədi kişi ilə mübahisəyə girişsin, hər şeyin onun düşündüyü kimi sadə və asan olmadığını başa salsın. Ancaq: «O, kimdir ki, mən onunla belə məsələlər barədə danışım?» — deyib susmağı üstün tutdu. Bu dəqiqə necə istəyirdi ki, bu cılız, ancaq ürəyi dolu kişi sussun. Amma deyəsən bu söhbət Leylaya ləzzət eləyirdi. O, tez-tez, xüsusilə də Qurbanqulu o son sözləri deyəndə dönüb Aslana baxırdı. Yaxşı ki, Qurbanqulu sərnişinlərinin ağzına su alıb danışmaq istəməmələrindən hirslənib səsinin tonunu dəyişərək, qanrılıb Aslana çəpəki nəzər saldı:

— Yoxsa sən də o böyüklərdənsən, kişi? — deyə xəbər aldı və yalnız bundan sonra Aslan anladı ki, sürücü onu tanımır, elə-belə, qarasına danışır və bir az sakit oldu. Qurbanquluya deyən də olsaydı ki, sənin apardığın bu adam elə o böyüklərdən olub, o televizorda qırğından bir neçə gün qabaq ağzı köpüklənə-köpüklənə: «Qoşun şəhərə girməyəcək!» — deyənlərdən biri odu, inanmazdı:

— Görürəm, heç elə bil bu işlərin sizə bir qırıq da dəxli yoxdu. Sizin ürəyiniz ağrımır?

— …

— Nə bilim, vallah. Adamlar da bir təhər olub. Bəzilərinin heç vecinə deyil. Bəzilərinin isə təpəsindən tüstü çıxır.

— Burdan sola dönəcəksən, kişi — deyə Aslan Mərdəkanın içində, nə üçün məhz bura qoyulduğu kimsəyə bəlli olmayan daş oraq-çəkicə az qalmış dilləndi. Sürücü sürəti azaldıb sola burdu maşını və dənizə tərəf irəlilədi. Bir az sonra Aslan göstəriş verdi: — İndi də sağa, zəhmət olmasa.

Maşın hündür, daş hasarlı, iri dəmir darvazalı bağın tuşuna çatanda Aslan:

— Hə, çatdıq, — deyincə Qurbanqulu əyləci basıb maşını saxladı. Aslan qapını açıb yerə düşdü, cibini pul üçün qurdalayanda Leyla artıq maşından çıxmışdı və Qurbanqulunun böyründə dayanmışdı. Qurbanqulu açıq pəncərədən, altdan-yuxarı ona baxanda Leyla daha özünü saxlaya bilməyib dilləndi:

— Qurbanqulu kişi, qızınız Seyranədən nigaran olmayın. Sağ-salamatdı. Yaxşı oldu, təsadüfən sizə rast gəldim, yoxsa evinizə gələcəkdim və onun salamını sizə, anasına çatdıracaqdım.

Qurbanqulu özünü dərhal maşından çölə atdı və Leylanın qarşısında dayandı, dili ağzında dolaşa-dolaşa:

— Ay sənə qurban olum, ay mənim qızım, sən nə danışırsan? Doğru deyirsən ki, Seyranənin yanından gəlirsən? Allah səni xoşbəxt eləsin, ay mənim balam. Necədi, sən allah? Xəstələnib eləməyib ki? Yaralı-zad deyil ki? — deyə tez-tez üyüdüb tökdü. Yazıq az qalırdı qamarlayıb əlindən öpsün Leylanın.

— Yox, yox. Sağ-salamatdı. Kefi də kökdü. Əsgər qardaşları başına and içirlər. Qoruyurlar. Heç narahat olmayın. Halal olsun ona, bir çox oğlanlarımızdan o qeyrətlidi, kişi. Sən onunla fəxr eləyə bilərsən.

— Ay qızım… Ay qızım… — Qurbanqulu elə bil deməyə söz tapmırdı, böyründə duran və əlində pul tutmuş Aslana sarı dönüb: — Ay kişi, sənin də qızın cəbhədəymiş ki? — bəs bayaqdan mənə niyə demirsən bunu?

Aslana indi bəlli oldu ki, sürücü Leylanı onun qızı hesab eləyir. Qımışdı qaranlıqda: çünki bayaq şəhərdən çıxanda ərarvad sandığı sözlərindən bəlli olmuşdu.

— Allah sizə kömək olsun, — söylədi və Aslanın əlindəki pulları görüb geri itələdi: — Götür, götür, qoy cibinə. Gərək mən sizə pul verəm ki, qızın qızımdan xoş xəbər gətirib. Gör ey, sən Allah.

Qurban olduğumun işinə bax ey. Ay Allah, sənə inanmayana lənət. Kişinin sözlərini demək olar ki, eşitməyən Aslan pulu kişinin döş cibinə basıb heç nə demədən, tələsik ondan uzaqlaşdı, çünki Leylanın tanımadığı-bilmədiyi bu adamla bu cür danışmağından yamanca əsəbləşmişdi və bunu Leyla da hiss etmişdi. Ancaq neyləyə bilərdi, ürəyi ilə bacara bilməmişdi. Ona görə kişini tez başdan eləmək və səhər əlavə başağrısı yaratmamaq üçün bəhanə tapıb dedi:

— Mən səhər yenə cəbhəyə gedirəm, amma tamam ayrı yerə, Qurbanqulu kişi. Sağlıq olsun, müharibə qurtarar, ünvanınızı bilirəm, gələrəm Seyranənin toyuna. — Dili belə dedi Leylanın, ancaq içərisindən gələn səs daha aydın idi. «Yasına»…

— Allah ağzından eşitsin, qızım. Amin, qızım. — deyə Qurbanqulu onun tələsdiyini hiss eləyib maşına mindi və az sonra şəhər yoluna çıxıb sürəti artıranda birdən ağlına gələn sualdan heyrətləndi: «O qız məni necə tanıdı, adımı hardan bildi?» — Ayağını qazdan çəkdi, sürəti azaltdı, «qayıdım, qayıtmayım?» — sualı arasında çırpındı.

Ətraf sakitlikdi. Qonşu bağlardan səs-səmir gəlmirdi, qaranlıq qoynunda mürgü vuran bağların işıqları yanmırdı, demək yoxdu — yəqin sabah, şənbə günü gələrlər. Aslan darvazanın dibində, ağ daşın altında həmişə hər ehtimala qarşı gizlədiyi ehtiyat açarı götürüb qapını açdı. Əvvəl Leylaya yol verdi, arxasınca özü keçib qapını çəkib bağlayandan sonra dəmir sütunun böyründəki düyməni basaraq başını qaldırıb yuxarı boylandı və bir an keçməmiş kvadrat şəkilli bağın hər küncündəki dəmir dirəklərin kəlləsində güclü işıqlar — projektorlar yanaraq hər yanı çiraqban elədi. Lap axırda bağın tən ortasındakı işıq da yandıqdan sonra Aslan, asfalt döşənmiş, hər iki tərəfinə sərv ağacları əkilmiş maşın yolunun qırağında dayanaraq heyranlıqla o yan-bu yana tamaşa eləyən Leylaya sarı döndü:

— Leyla xanım xoş gəlib-səfa gətirib bizim bağa, — söylədi, səsinin ilişiyini hiss eləyib hirsinin hələ də soyumadığını başa düşdü, ancaq daha bu məsələnin üstünə — Leylanın arada sürücünün də «falı»na baxması məsələsinin üstünə qayıtmamağı qərara aldı. Amma hər halda bu da Aslana çox şey söylədi: kişinin adını deməsi, qızının adını deməsi və sair. Kim bilir, bəlkə də Leyla bunu qəsdən eləmişdi ki, öz qüdrətini Aslana bir daha sübut eləsin? Əslində Aslanın acığı başqa şeyə tutmuşdu: yəqin sabah həmin Qurbanqulu deyilən o kişi arvadını da maşına mindirib köçünü sürəcəkdi bura — bağa, başlayacaqdılar sorğu-suala. Leylanın belə bir qeyri-adi qabiliyyəti olduğunu bi-

ləndən sonra orda-burda danışacaqdılar, o buna, bu ona, bir də gördün az qala Azərbaycanın yarısı tökülüb gələcəkdi, ondan sonra eşşək gətir, mərəkə yüklə. Bu isə Aslana sərf eləmirdi: o istəyirdi ki, Leyla ancaq onun ixtiyarında olsun, kimsə onun bu sehrli güzgüsündən xəbərdar olmasın: çünki o, Leyladan istifadə eləyib çox işlər görə biləcəkdi, çox bədxahlıqlarının, gizli qəsdlərinin, sirlərinin üstünü açacaqdı, onları mat və heyran qoyacaqdı. Lakin Leyla hələlik nə eləsə də, Aslan dözməliydi, susmalıydı, qulluğunda, xidmətində uşaq kimi lap nökər kimi dayanmalıydı.

— Xoş günün olsun, — dedi nəhayət, Leyla. — Sağlığına qismət olsun, yaxşı bağdı.

Sağda, hasarın dibində uzun, ikimərtəbəli, qəşəng ağardılmış bina qəribə bir sükut içində çiskinli payız axşamının qucağında mürgü vururdu. Hündür divar dibi boyunca cərgə ilə şam ağacları əkilmişdi, ortada, nisbətən çökəklikdə üzüm tənəklərinin, o yanda əncir ağaclarının yarpaqları yağış altında yuyulmuş kəhrəba kimi saralırdı. Evin qənşərindəki iri hovuz idi, ağzınacan su ilə dolu olduğundan və başı üstə işıq yandığından xırda yağış damcılarının yüngülcə mehin təsiri ilə astaca yırğalanan suyun üzünü döyəclədiyi aydın görünürdü. Alt mərtəbədə deyəsən üç otaqdı, çünki üç qapı gözə dəyirdi. Yox, qapının biri iri və qoşalaylıydı, yəqin qarajdı, hə, elədi ki, var.

Açarları əlində cingilti ilə fırladan Aslan, Leylanın ağzı açıq halda tamaşa elədiyini görüb daxili bir qürur hissilə:

— Bu iki otaq qonaq-qara üçündür, o isə qarajdı, — söylədi. — Özümüz isə yuxarıda yaşayırıq. Biz də indi orada — yuxarıda oturarıq. Ordan dəniz də aydın görünür. Bağ evindən ki, dəniz görsənmədi, bir qəpiyə dəyməz. Bağa gəldin, gərək dəniz sənin üz-gözünü öz ilıq nəfəsiylə yalaya, oxşaya. Onda bütün yorğunluğun, azar-bezarın canından çıxar. Hə, necə baxırsan? Deyirəm yuxarıda oturaq, hə?

— Qonaq ev yiyəsinin dəvəsidi, harda xıxırtsa, orda da xıxır.

— Sən qonaq niyə olursan? Yox, mən səni nə üçünsə qonaq hesab eləyə bilmirəm. Elə bilirəm nə isə bir əziz adamım gəlib bu gün bizə.

— Çox sağ olun.

— Həqiqi sözümdü, iyirmi ildi bu bağdayam, ancaq indiyə qədər sənin kimi qəşəng və… maraqlı adam ayağı dəyməyib bura.

— Bu sözləri sən çox adama demisən, Aslan. Unutma ki, mən onların tayı deyiləm. Birincisi, mən… qəşəng deyiləm…

— Qadın özünün qəşəng olduğunu heç vaxt bilmir, Leyla xanım. Ona qiymət vermək mütləq kişi gözüylə baxılmalıdı. Deyirlər, ya bilmirəm hansı kitabdasa oxumuşam, deyir, dünyada ən qiymətli şey qızıldı, ancaq qızıl özü bilmir ki, o qızıldı. Onun qədrini zərgər bilir. Qadın da elədi: — qızıldı, fəqət kişi yanında. Təklikdə, kişisiz, qadının nə gözəlliyi var, nə də qiyməti.

Leyla güldü:

— Deyirlər, ala qarğa çox bilmişliyinə görə həmişə dimdiyindən ilişir. Görürəm, sən də qadın məsələsində çoxbilmişsən və elə buna görə də sən də dimdiyindən ilişmisən.

— Hə, onu düz deyirsən, Leyla xanım. — Leyla fərqinə varmadan, söz sözü çəkdiyinə görəmi, ya qəsdənmi, Aslanın zəif damarına toxunduğundan, o, səsini xırp kəsdi. Qolundan tutub ikinci mərtəbəyə qalxmasına kömək eləmək istəyəndə o, bədənini yana çəkdi və astadan:

— Özüm çıxaram — söylədi.

İkinci mərtəbəyə qalxan kimi, Aslan divardakı düyməyə əl atdı və işığı yandırdı. Enli, yanları məhəccərli, qəşəng kafel düzülmüş eyvan nura qərq oldu. Burda da üç qapı vardı. Tavandan iri neon çıraqlar asılmışdı. Aslan qapını açmamış, Leylanın eyvanın o başında addımladığını görüb dalınca gəldi:

— Bax, o, dənizdi, Leyla xanım. Qara nəhəng kimi uzanıb. Gecə olduğuna görə qapqara görsənir. Gündüzlər baxanda havanın sakit vaxtları nəhəng bir göy sətinə bənzəyir — ada-

mın gözünü-könlünü oxşayır. Külək qopdumu çalxalanır, dağ boyda dalğalar bir-birinin üstünə minib daha da nəhəngləşir, az qalır ipini-sapını qırıb üzü bəri, bağların üstünə gəlsin. Onun özünün də bir gözəlliyi var — uğuldayır, fınxırır, ayaqlarını yerə döyən bədoy at kimi şahə qalxır. Bax, ləzzət al, ömrün uzansın. Bir qulaq ver, sən allah, eşidirsənmi, nəfəsini, hənirtisini? Hə, sən bir az bizim bu yatmış gözəlin nəfəsini dinlə, mən də qapını açım.

Aslan dabanı üstə geri çevrilib getdi. Leyla isə çiynini daş sütuna söykəyib gecənin sakit qoynunda səssiz-səmirsiz uyuyan bağların üstündən dənizə tərəf baxmağa başladı. Hava doğrudan da təmizdi, safdı, adamın nəinki bütün vücudu, bəlkə bütün düşüncələri, nə qədər ağır olsa belə, dincəlib büllurlaşır: «Ağıllı kişilər olublar bizim milyonerlərimiz. Əbəs yerə burda damdaş tikib, bağ-bağat salmayıblar ki? Doğrudan da o yandan, dəniz səmtdən udduqca ciyərlərini genişləndirən hava axıb gəlir, alnına, sifətinə, saçlarına sığal çəkirdi sanki. Bayaqdan çiskinləyən yağış indicə, onlar eyvana qalxandan sonra güclənmişdi. «Payız öz taxtına minib artıq, öz hökmünü göstərir yavaş-yavaş havalar soyuyur, dalıyca əli soyuq qılınclı qış gəlir. Mənim isə… heç nəyim yoxdu. Nə başımın üstündə bir damım, nə isti ocağım, nə qalın paltarım. Qış sərt olacaq deyəsən». Xəyallarından, qayğılarından uzaqlaşmaq, xatırlayıb pərişan olmamaq üçün dönüb açıq qapıdan içəri keçdi. Bu, böyük, yaraşıqlı və işıqlı bir otaq idi. Ortalıqda bir iri qədimi stol qoyulmuş, yanlarına yumşaq stullar düzülmüşdü. Pəncərələrdən Leyla xanımın çox xoşladığı mavi rəngli pərdələr asılmışdı. İki pəncərə arasındakı servant zərif, bahalı qab-qacaq, vaz, büllur fujerlər və qədəhlərlə doluydu. Divarın dibində yumşaq divan, o biri divarın qabağında isə taxta bir çarpayı gözə dəyirdi. Aslan yan otaqda kostyumunu dəyişmiş, mil-mil, qalın parçadan tikilmiş stolun üstünün güllü müşənbəsini silirdi. Arxada hənirti duyub dikələndə Leyla xanımı böyründə görüb gülümsündü:

— A, gəldin, — dedi. — Keç yuxarı başa, xahiş eləyirəm, utanma, sıxılma, özünü evinizdəki kimi hiss elə, sən Al-

lah, Leyla xanım. Utanan, sıxılan adam görəndə mən düzü, əsəbləşirəm. Yox, əvvəl bura, o biri otağa keç, şifoneri aç, bizim arvadın — o, bu sözü deyəndə qaralıb boğuldu, — hə, oradakı paltarların, xalatların hansını bəyənirsənsə, götür gey, rahatlan.

— Yox, sağ ol. Elə belə yaxşıdı. Özgə paltarı adamı sıxır.

— Çox xahiş eləyirəm, mənim sözümü yerə salma, Leyla xanım. Keç, dəyiş paltarını. Elə ölçünüz bir olar. O da sən boybuxundadı. Hə, niyə durmusan? İnciyərəm ha. Gəl bura — deyib özü düşdü qabağa və Leylanı içəri dəvət elədi. Leyla könülsüz də olsa dalınca yan otağa keçdi. Aslan şifonerin qapısını taybatay açaraq: — Buyur, bəyəndiyini gey, gəl. Mən də sənin üçün bir şey hazırlayım. Çaydan, çörəkdən… — deyib kölgə kimi çəkilib gözdən itdi.

Küncə qoyulmuş televizoru yandırdı: məşhur müğənninin yanıqlı, ürəyə işləyən səsi otağı başına götürəndə Aslan yamanca sevindi: o müğənninin dəlisiydi, mahnılarına qulaq asmaqdan doymazdı, yorulmazdı, səsini eşidəndə nə dərdi-səri olsaydı unudardı, işini-gücünü kənara qoyub dinləyərdi, dincələrdi. Amma evdəki Leylanın ondan xoşu gəlməzdi. «Nə var ey, onda bilmirəm. Onun nəyinə pərəstiş eləyirsən, başım çıxmır. Balası ölmüş arvad kimi mələyir, vəssalam». Amma bir gün Aslan onun qarnının ağrısını başa düşmüşdü: məlum olmuşdu ki, Leyla ərini ona qısqanır. Müğənni oxuyanda Aslan divanda əyləşib gözlərini ekrandan çəkməzdi, ətrafdakı hər şeyi, hətta arvadını, qonaqlarını belə unudardı. Belə məqamların birində Aslan ekrana, Leyla isə onun, yəni ərinin sifətinə baxarkən təsadüfən kişinin udqunduğunu görmüş və bu onu lap hövsələdən çıxarmışdı. «Nu, eto uje slişkom mnoqo, Aslan. Əgər sən düz adamsansa, niyə ona baxıb elə ac adam kimi udqunursan? Əgər onu bu qədər istəyirsən, zəng elə, qoy gəlsin. Pomoemu, ona tebe ne otkajet». «Tı dura, bolşe nikto. Tı ee sovsem neznaeş. Ona voobşe ne takaya».

«Eh, bu hardan yadıma düşdü?» — deyib tələsməsinə baxmayaraq, stul çəkib oturdu. Deyəsən, təzə mahnıydı — in-

diyəcən eşitdiyini xatırlaya bilmirdi. Müğənni az qala ağlaya-ağlaya oxuyurdu:

Başı qarlı dağam, gülüm,
Sənsiz yaşaya bilmirəm.
Bir qanadsız quşam inan,
Dənsiz yaşaya bilmirəm.

***

Olsam gərəksiz yaşaram,
Susuz, çörəksiz yaşaram,
Mən bu ürəksiz yaşaram,
Sənsiz yaşaya bilmirəm.

Nə sadə, amma ürəkdən gələn sözlər idi bunlar, ilahi! Məgər müğənni bu mahnını məhz onun üçünmü oxuyurdu? O da bu hissləri yaşamışdı — Tanrıgülə eynən bu cür, bütün varlığından qopub gələn şirin sözlər azmı demişdi? Şerlə yox, elə-belə, adi sözlərlə. Yana-yana, bəzən ağlaya-ağlaya. Xüsusilə son vaxtlar. Demişdi, yalvarmışdı. O isə dinləmişdi, sonra da nə «hə», nə də «yox» demədən çıxıb getmişdi. Niyə? Bax, bu «niyələr» idi Aslanı dəli eləyən, falçıya, cadugərə tapındırın. O bu suallara cavab axtara-axtara az qalmışdı ki, ağlını itirsin, özünü öldürsün. Tanrıgülün isə fikri-xəyalı başqa aləmdəydi.

Nə isə, müğənni oxuyurdu. Hayıf tez qurtardı konsert. Sən demə, çoxdan başlamışmış.

Aslan mahnının təsiri altında, Tanrıgülü düşünə-düşünə süfrə açmağa başladı. Yaxşı ki, dünəndən bütöv bir təndir çörəyi qalmışdı, bəsləriydi. Soyuducudan kərə yağ, kürü, pendir, pomidor-xiyar, qəzetə bükülmüş göy-göyərti çıxartdı, stolun üstünə düzdü. Konyak şüşəsinə baxıb xeyli fikirləşdi, «qoyum», «qoymayım» deyə xeyli götür-qoy elədi. Və nəhayət, onu da gətirib ortalığa qoydu. Servantdan iki qədəh götürüb, içini təmiz dəsmalla sildi. «İçər görəsən? Yox, belə adamlar Allah adamı olur, içməz. Eybi yox, o içməz, mən bir-iki qədəh vuraram. İçməsəm, dilim-ağzım bağlanacaq, danışa bilməy-

əcəyəm. Allah bunu hayandan yetirdi? Yox, onu əldə saxlamalıyam, saxlamalıyam». Aslan başını qaldıranda səksəndi: sanki Leylaydı — arvadı Leyla. Özünü itirdi bir anlığa. Onun bu qorxusunu hiss eləyən Leyla qımışdı:

— Çox oxşadım sənin Leylana?

— Çox dedin qoydun? Bağrım yarıldı.

— Ondan yəni elə qorxursan?

— Yox əşşi. Qorxub eləmirəm. Sadəcə fikirləşdim ki, yəqin sən nə isə elədin, özün çıxıb getdin, o gəldi bura. Bunu isə indi mən istəmirdim.

— Niyə?

— Necə niyə? Heç hənanın yeridir? Sənin kimi bir adam göydən gəlib düşüb əlimə, bu yandan o durub gəlsin? — Aslan Leylaya təpədən dırnağa tamaşa eləyib: — Hə, bax, bu başqa məsələ. İndi oldun nur əlanur. Gəl, əyləş, ürəyin istəyən yerdən otur, — dedi və birdən yadına nə düşdüsə, təəssüflə: — Gör necə yadımdan çıxıb? İstəyirsən hamamı yandırım, çim, hə? Çim, rahatlan. Elə yaxşı deyil? — söylədi.

— Yox. Çox sağ ol. — Amma ürəyindən keçirdi ki, yaxşı olardı, çünki neçə vaxtdı çimməmişdi, qaldığı sanatoriyanın hamamı işləmirdi, ümumi hamama da getməkdən xoşlanmırdı: yəni adi insan kimi yaşama imkanlarının get-gedə daralıb sıxıldığı bu günlərdə hamam qayğısı da bir yandan onu və onun kimiləri sıxmağa başlamışdı. İndi birdən-birə Aslanın yadına düşən bu təklif Leylanın ürəyincə olsa da, gözəl və cavan vücudu «su, su» — deyib dilsiz bir fəryad qoparsa da, utancaqlıq hissi ona «hə» söyləməyə icazə vermirdi: necə olsa, o qadın idi və yad, birinci dəfə qonağı olduğu bir kişinin elə ilk təklifi ilə durub çimməsi yaxşı təsir bağışlamazdı — fikrindəydi Leyla. Lakin onu da duyurdu ki, ev sahibi bir az da təkid etsə, bu istək hər şeyi üstələyəcək. Ona görə ağlına gələn bəhanəni dilinə gətirdi:

— Soyuq olar.

— Soyuq-zad olmaz, Leyla xanım. Bax, qaz sobasını yandırmışam. Beş dəqiqəyə otaq olacaq im-isti. Hə, yandırım? Qoy yandırım, Leyla xanım. Yuyun çıx. Sən çimənəcən də mən sənin üçün bir-iki salxım üzüm tapım bağdan. Sovulan vaxtı çoxdan keçib. İndi bu boyda Mərdəkanda mənim bağımdan başqa heç bir bağda bir gilə də üzüm tapa bilməzsən. Üzümün indi şirin-şəkər vaxtıdı, Leyla xanım.

Leyla yumşaldığını bildirən bir təbəssüm göstərdi:

— Yaman dilli-dilavərsən ha. Adamı tez yoldan çıxarırsan. İndi başa düşürəm ki, çənginə keçən qadınlar nə üçün sənin əlindən yaxasını sağ-salamat qurtara bilməyiblər.

— Nə bilim, allah məni də belə yaradıb də. — deyə Aslan, qızın yumşaldığını başa düşüb sevindi: — Mən istəyirəm sənin üçün xoş olsun, bu görüş yadında qalsın. Özünü tərifləmək olmasın, mən zövq əhliyəm — baxıram bu don sənə yaman yaraşır — çox bahalı və yumşaq parçadı, arvad bunu geyəndə həmişə deyirdi ki, özümü quş kimi hiss eləyirəm. Madam paltarını dəyişmisən, çimsən də əla olar, Leyla xanım

— Yaxşı, yandır. Çiməcəyəm. Hamam aşağı mərtəbədədi?

— Yox, elə burada, bu mərtəbədədi, Leyla xanım. Qoy sənin üçün mələfə-zad götürüm, sabun, şampun, ətir-mətir… Hər şey var orda, — deyib bir quş cəldliyi ilə yan otağa keçib qayıtdı, tiftikli dəsmalı onun qolunun üstünə atdı: — Gəl bura.

Leyla onun arxasınca mətbəxin böyrünə gəldi. Aslan içəri girib beş dəqiqə keçməmiş qayıtdı:

— Hə, keç, Leyla xanım. Hər şey hazırdı. Rahat-rahat çim, məndən razı qalarsan, vallah.

Leyla hamamın açıq qapısından içəri boylandı: Hamam tər-təmiz idi, divarlara güllü-bəzəkli kafel vurulmuşdu. Pəncərənin qabağına cürbəcür şampunlar, Leylanın çoxunu birinci dəfə gördüyü və adlarını belə bilmədiyi ətriyyat şüşələri düzülmüşdü. Aslan duşu açdı, su şırıltı ilə axıb vannaya töküləndə Aslan qapıdan çıxıb ədəblə, özünün də təəccüb elədiyi şəkildə:

— Buyurun, xanım, — söylədi və getdi. Aslan ona görə təəccüb eləyirdi ki, bu ona, onun uzun-uzun illər boyu buraya gətirdiyi, yedirib-içizdirib, kef elədiyi, dənizdə də, hamamda da çimizdirib əzizlədiyi, sayını-hesabını belə itirdiyi qadınlara oxşamadığı kimi, o özü də özünə oxşamırdı. Birinci dəfəydi ki, Aslan qadın qonağını hamama salıb çəkilib gedirdi. Qorxusundanmı, həyəcandanmı, çaşqınlıqdanmı Leylaya bir qadın kimi baxa bilmirdi. Yoxsa Aslan xoşlayırdı ki, qadın qonağının hamamda çimməsinə, soyunmasına, geyinməsinə kömək eləsin, üstünə, başına ətirlər səpsin, mələfəyə büküb qucağına alaraq qaça-qaça otağa gətirsin, güzgü qabağında qurulayaraq öpə-öpə, əzizləyə-əzizləyə çarpayının üstünə atsın. Çox xoşlayırdı belə şeyləri Aslan. Və başının tükü sanı qədər də belə günlər yaşamış, belə «xəlvəti», «oğurluq» gəlmiş və ya gətirdiyi qonaqlar yola salmışdı ki, hər biri bir nağıl idi, dastan idi.

Ancaq indi… indi Leyla bəlkə də onun ömründə yeganə qadın idi ki, Aslan tək çimməyinə razı olurdu və ən qəribəsi bu idi ki, suyu şır-şır axan o hamama — içində cavan, əl dəyməmiş bir qadın olduğunu bilə-bilə içəri, yanına girməyə can atmırdı və lap düzü bu idi ki, bu barədə düşünməyə də qorxurdu.

Yarım saat sonra onlar süfrə arxasında əyləşmişdilər. Leylanın bayaq yorğun, solğun və qayğılı görünən sifəti allanmışdı, hərəkətlərində bir dirilik, çeviklik əmələ gəlmişdi. Elə bil gözlərinin işıq seli də çoxalmışdı və o, bayaqkından daha qəşəng, daha cazibəli görünürdü, saçlarını burub-büküb başının ortasında düyünləmişdi. Ağ sinəsinin kiçik bir hissəsi — uzun boğazının aşağısı güllü xalatın açıq yaxasından görünsə də, bu, Aslana heç nə demirdi. Hərəkətlərindəki sıxıntını usta gözləri ilə duyan Aslan, Leylanın doğrudan da təmiz qadın olduğundan, belə şeylərə nəinki adət etmədiyindən, hətta görmədiyindən xəbər verirdi və bu, ev sahibinə nədənsə xüsusi ləzzət eləyirdi.

Yazıq sən demə, möhkəm ac imiş. İştahla yeyirdi. Aslan hiss eləyirdi ki, süfrəsi kasıbdı. Leylaya, daha çox isə onun özünə layiq deyil, ona görə üzrxahlıq edirmiş kimi, üzünü qonağına tutaraq:

— Bağışla ki, süfrəmiz belə kasıbyana oldu. Mən bilsəydim, ertədən yaxşı bir məclis təşkil elətdirərdim, — söylədi.

— Yox, yox, narahat olmağına dəyməz. Maşallah, hər şey var.

— İstəyirsən zəng eləyim yarımca saata hər şey gətirsinlər, hə?

— Hara zəng eləyəcəksən?

— Restorana.

— Pəhləvana?

— Baho, — Aslan ağzındakı tikəni diri-diri uddu. — Onun da adını bilirsən?

— İndicə ürəyində adını çəkdin.

— Hə, düzdü. Doğrudan, istəyirsən zəng eləyim?

— Yox, lazım deyil. Hər şey var.

— Düzü, mənim yadıma indi düşdü. Özümü elə itirmişəm ki, baş-ayaq vururam. Həm də istəmirəm bu gecə kimsə söhbətimizə mane olsun. Sabah zəng çalaram, gələr, nə lazımsa gətirər.

Televizor asta-asta nədənsə danışırdı. Hər şey xoşuna gəlmişdi, ürəyincə idi Leylanın. Cah-cəlal da, səliqə-sahman da, Aslanın zirəkliyi, dilli-ağızlı olması da Leylanın illərdən, aylardan bəri ürəyində, vücudunda yığılıb qalmış yorğunluğa, gərginliyə bir sığal çəkirdi. Çimməyi isə onu tamam başqa bir aləmə çəkib aparmışdı, təsadüfən qarşısına çıxmış, birinci dəfə gördüyü, lakin naməlumluqlar içində çalıxıb-çabalayan bu adama qarşı elə ilk anlardaca qaibanə bir duyğunun təsiri altında yaranan marağın dalınca bura, bu əfsanəvi bağa gəldiyinə zərrəcə peşiman deyildi Leyla. Onun fikrincə, Aslan elə bir burulğanın fırtınalı oyununa düşmüşdü ki, gec-tez məhv olacaqdı, onsuz da yaranmışların hamısı ölümə — o dəhşətli ayrılığa məhkumdu, buna şübhə yoxdu heç kəsdə. Ancaq bir var yaşayasan, rahat, arın-arxayın bir ömür sürəsən və vaxtın gəlib çatanda, günlərin birində də gözünü yumub dünyanı dəyişəsən. Bir də var əzab çəkə-çəkə yaşayasan, şübhələr, qaranlıq, müəmmalı suallar əlində çırpınasan, həqiqəti axtarasan, gör-

mək, tapmaq istəyəsən, ancaq bacarmayasan, əlindən gəlməyə və çarəsizliyini, acizliyini dərk eləyib dizini qucaqlayıb oturasan, ürək isə yana, qovrula, külə dönə və bu nigarançılıqlar içində də ölüb gedəsən. Yaşamağın ən əzablısı budu və belə adamlar görəndə həmişə Leylanın öz dərdləri yadından çıxır, onların yanından saymazyana keçib gedə bilmirdi. Qabaqlar belə hallarda ancaq yazığı gəlməklə kifayətlənirdi, çünki onda özü də aciz idi, əlindən demək olar ki, heç nə gəlmirdi. Lakin o unudulmaz, o müdhiş gündən-qanlı iyirmi yanvar gecəsindən sonra, özündə özünün də nə demək olduğunu tam mənasıyla dərk eləyə bilmədiyi o sehrli qüvvəni və qüdrəti duyandan sonra, belə adamlara azdan-çoxdan məsləhətlər verməklə, xoş söz deməklə dərdlərini azca da olsa yüngülləşdirməyə çalışır və bundan hədsiz bir xoşbəxtlik hiss eləyirdi. İndiyəcən rast gəldiyi adamlar adi adamlar olmuşdu, qayğıları itik-filan olan adamlar… Ancaq… Aslan… Yox, o, başqa adam idi, tamam başqa adam idi: Aslan Leylanı möcüzə sayırdı, lakin onun özü Leyla üçün az möcüzə deyildi: əgər bugünkü çalxalanan dənizi xatırladan cəmiyyətin sosioloji-psixoloji vəziyyətini, bu hala gəlib düşməyimizin səbəblərini və səbəbkarlarını öyrənən bir institut yaradılsaydı (təəssüf ki, bizdə belə şeylərə fikir verən yoxdu, çünki sərf eləmir), onda məhz Aslan kimi adamları nümunə olaraq götürüb öyrənmək, tədqiq etmək lazım gələrdi, çünki onların həyatı, keçdikləri yol, düşüncələri ağılla, təmkinlə, qərəzdən uzaq, siyasətdən uzaq halda təhlil edilsə, ümumiləşdirilsə çox mətləblər aydınlaşar. Bunlar, bax, vəzifə stolları arxasında, rəhbər kreslolarında uzun illər əyləşmiş, partiya bileti arxasında gizlənmiş, zahirdə özlərini imam cildində göstərmiş, batinən isə canavar təbiətli, ancaq özlərini düşünən, kabinetlərini Vətən, ailələrini və qohum-əqrabalarını milləti hesab eləyən adamlar olan bu qəbil şəxslərin çoxu (istər böyüyü — istər isə kiçikləri olsun — fərqi yox) bir-birinə oxşayırlar: elə xüsusi diqqətlə seçiblər, axtarıblar, tapıblar, gətiriblər, qoyublar bu millətin başına. Bax, indi qabağında əyləşib fikirli-fikirli çörək yeyən, xəyalı dağda-aranda dolaşan bu Aslan bəy onlardan

biridi — indi fağır-fağır oturmağına baxma. Oğru-rüşvətxor deyirsən, oğrudu, rüşvətxordu, qeyrətsiz deyirsən qeyrətsizdi, satqın deyirsən — satqındı, arvadbaz deyirsən — arvadbazdı və sair və ilaxır. Qul da deyirsən — quldu da.

Leyla xanım — Aslanın hələ yaxşı tanımadığı bu bədbəxt qız, ona baxa-baxa hardasa düşünürdü ki, onun və minlərlə onun kimilərin bu hala düşməsində, günahsız adamların yerlərindən-yurdlarından didərgin salınmasında, o yanda, Qarabağda qanların axıdılmasında, on doqquzundan iyirmisinə keçən yanvar gecəsində sinəmizə dağ çəkilməsində azmı-çoxmu dərəcədə bax bu Aslanın da, neçə-neçə onun kimisi ilə bərabər günahı var və əli qanlı, vicdanı ləkəlidi. Belələrini, lap ondan böyüklərini, lap BİRİNCİləri çox axtarmışdı Leyla. Ancaq onlar ələ düşənmi idilər? Qəribə gəlmişdi ona həmişə: niyə bu xalqın rəhbərləri, böyükləri öz adamlarından, doğma xalqından qaçırlar? Niyə onları xüsusi adamlar və dəstələr qoruyurlar? Kimdən və nəyə görə? Demək, arada divar var və bu divar Çin divarından, Berlin divarından da ucadı. Fərqi isə budu ki, bu divar daşdan deyil, dəmirdən deyil və adi gözlə də görünmür. Bu deyilmi bu şəhəri, bu məmləkəti belə tələtümə gətirən?

Bir sözlə, Leyla bu gün son dərəcə maraqlı bir roman tapmışdı, onu oxumaq, saf-çürük eləmək, çox mətləbləri başa salmaq imkanı düşmüşdü əlinə. Aslan bu ağıllı, sərt, bir az da qəribə romanın həm müəlliflərindən biriydi, həm də iştirakçısıydı, bəzi şeylərin qurulub-qoşulmasında əli vardı, çox günahlı işlər görmüşdü. Bəli, o da çox eləmişdi, amma Allahın iradəsiylə ona da çox eləmişdilər və indi, o, öz əməllərinin odunda yanıb qovrulurdu. Heç bilmirdi kimdi onu yandıranlar: bircə onu bilirdi ki, yanır, yaman yanır. Leylanın indi hər şeydən çox, bircə təsəllisi vardı: evlər uçuranın, zülümlər eləyənlərin, xəyanətlər eləyənlərin, öz xalqını başqasının gülləsinə-süngüsünə tuş edənlərdən birinin əzablarına, müsibətlərinə şahiddi və ürəyini boşaltmaq üçün məqam tapılıb. Yoxsa bu dərdləri ürəyində gəzdirməkdən, içində çəkməkdən bezmişdi, yorulmuşdu: indi onun Aslanı və onun simasında ondan böyükləri də, kiçik-

ləri də divara söykəyib «güllələmək», «dar ağacından» asmaq, ittiham eləmək imkanı vardı və buna çox sevinirdi. Xəyanətkarların, satqınların, gözü kölgəliolərin həmişə qorxaq olduqlarını çox yaxşı bilən Leyla, qadın olsa da, tək-tənha adam belə öldürməyə hazır və qadir olan Aslandan bu xəlvət bağ yerində də qorxmurdu, çəkinmirdi: bilirdi, hiss eləyirdi ki, Aslan ondan bərk yapışıb, özünü düşündürən, içini çürüdən suallara cavab almaq istəyi bu saat hər şeydən güclüdü onda və bunun üçün də Leylaya pislik eləmək fikrinə düşə bilməz Aslan. O isə Aslanı əgər istəsə, alçalda bilər, təhqir edə bilər. Belə fikri yox idi ancaq. Sadəcə belə adamların zəlilliyini, dirigözlü öldüyünü öz gözləri ilə görmək, təskinlik tapmaq istəyirdi. Bəli, Aslan Leyla üçün son dərəcə maraqlı bir roman idi və onu oxumağa o qədər də tələsmirdi.

Otaq artıq isinmişdi, hər şeydə bir rahatlıq, bir şairanəlik duyulmaqdaydı. Qaz sobası asta-asta guruldayırdı və bu səs göylərdə uçan təyyarə uğultusunu xatırladırdı. Çörək Aslanın boğazından çətinliklə keçirdi: nigaran idi — bu qadın ona daha nələr deyəcəkdi, nələrin üstünü açacaqdı? Aslan öz əməllərinin faş olacağından o qədər də çəkinmirdi, çünki özünün elədiklərinin hamısı məlum idi. Əsas məsələ ona edilənlər idi ki, Aslan bunları öyrənmək istəyirdi. Həmişə süfrə başında bir-iki qədəh içməyə adət eləmiş Aslan, tez-tez beş ulduz konyak şüşəsinə baxıb udqunurdu. Deməyə də cəsarəti çatmırdı. Bunu Leyla aşkar hiss eləyirdi, ancaq ürəyindən keçirdikləri kimi, bunu üzə vurmurdu, müsahibinin səbəbini yoxlayırdı. Axırı kişi dözmədi:

— Leyla xanım, bu qırmızıgöz bayaqdan bizim intizarımızı çəkir axı.

— Mənim intizarımı çəkmir. İçmək istəyirsən, iç. Görürəm, tikən boğazından ötmür — dedi və baxışları ilə şüşəyə işarə elədi. — Öyrəşmisən, yediyin canına sınmaz içməsən.

Aslanın qırışığı açıldı, əl atıb fövrən şüşəni qapdı və ağzını aça-aça: «Mənim yemək-içmək rejimimi də bilir, vay dədə. Allah eləməsin adamın belə arvadı olsun. Gərək aydan arı, su-

dan duru olasan, dilinə yalan gətirməyəsən, işə oxley kimi dümdüz gedib dümdüz qayıdasan» — deyə çaşıb düşündü.

— Əlbəttə.

— Nə əlbəttə? — deyə Aslan heç nə başa düşməyib soruşdu və dərhal da onun bircə sözünün mənasını anlayıb əlavə elədi: — Sən allah, düz demirəm?

— Düz deyirsən, Aslan. Çox şadam ki, sən də mənim ürəyimi yavaş-yavaş oxumağa başlayırsan. Bu çox yaxşıdı.

Aslan stolun üstəki qədəhlərə konyak süzüb dərindən ah çəkdi:

— Kaş səndə olan o qabiliyyətin çox demirəm, onda biri məndə olaydı, Leyla xanım. Dünyada dərdim olmazdı. Məni heç kəs aldada bilməzdi, yalan danışa bilməzdi. Dostlarımın harda, necə xəyanət elədiyini o dəqiqə bilərdim, düşmənlərimin mənə necə tor qurduqlarından xəbərdar olardım, sirrlərini öyrənərdim, heç qoymazdım göz açalar.

— Allah dəvəyə ona görə qanad vermir də. Bir də allah dağına baxıb qar verir — deyiblər atalarımız. — Leyla ikinci dəfə qədəhə baxışları ilə işarə elədi: — Bəs bunu kimin üçün süzmüsən?

— Sənin üçün, xanım.

— Mən dedim ki, içən deyiləm.

— Bəlkə… bir az içəsən? Yaxşı konyakdı, fransız konyakıdı.

— Yox.

Aslan bir an duruxub Leylanın gözlərinin içinə diqqətlə, hardasa yalvarışa bənzər bir baxışla baxdı və o gözlərdə bir qətiyyət oxuyub:

— Onda icazə ver, bunu sənin kimi nadir bir insanın şərəfinə nuşican eləyim, Leyla xanım. Xoş gəlmisən, bu bağı öz bağın bil, həmişə səni burda görməyimə şad olaram. — söylədi, qədəhini onun qabağına qoyduğu dolu qədəhə yavaşca toxundurub içdi, araq içən bir çoxları kimi, ağzını, dodağını turşutmadan, arxayın bir hərəkətlə, açıq qutudan qırmızı qızılı

«dona» bükülmüş şokaladdan birinin «köynəyini» soyundurub ağzına atdı, ədəblə ikincisini də götürüb Leylaya tərəf uzatdı:
— Heç olmasa bunu ye, Leyla xanım. Bu ki, günah deyil.

— Yəqin bu da fransız şokaladıdı, eləmi?

— Hə, düz tapmısan.

— Maşallah, pis yaşamırsan…

— Niyə də pis yaşamalıyam, Leyla xanım? Nə atam məni bir də əkəndi, nə də anam məni təzədən doğandı. Bir dəfə gəlmişəm bu dünyaya, ikinci dəfə gəlməyəcəyəm. Yoxsa sən deyəcəksən ki, yenidən dünyaya gəlmək imkanı var, hə?

— Var, bəli!

— Sən məni hər şeyə inandıra bilərsən, Leyla xanım, bilirəm, bu qüdrət səndə var: ancaq icazə ver, sənin bu fikrinlə razılaşmayım. Acığına gəlməsin a. Söhbətdi də eləyirik. — deyərək o, öz qədəhinə bir də içki süzdü və: — Yenə sənin sağlığına içirəm, Leyla xanım. — deyib qədəhi başına çəkəndən sonra, bu dəfə məzə götürmədən davam etdi: — Dünyada hər şeyə inandıra bilərsən məni, ancaq tək buna yox.

— İnanmırsan inanma. Mən səni məcbur eləmirəm və buna haqqım da yoxdu. Ancaq sən buna özün öləndən sonra inanacaqsan, Aslan və onda da inandığını etiraf eləmək üçün yanında bir adam tapmayacaqsan. Daha doğrusu, tapacaqsan, ancaq deyə bilməyəcəksən.

— Niyə? Dilim olmayacaq?

— Olacaq. Dilin olacaq. Lakin səni o adamlar eşidib başa düşəcəklər ki, onlar da bu dünyada olanda bu həqiqətə inanmışdılar. Sən onlara deyəcəksən, onlar sənə və sizin bu gecikmiş etirafınızı bu dünyada olanlar eşidə bilməyəcəklər.

— Deməli, mən yox, mənim ruhum qayıdıb gələcək bu dünyaya, ancaq nə adamlarla danışa biləcək, nə də bir şey yeyib içə biləcək, nə kef eyləyəcək, hə? Elə həyat mənim nəyimə lazımdı, Leyla xanım? Bu ona bənzəyir ki, nağdı qoyub, nisyə dalınca düşəsən. Bu isə, məni bağışla, avamlıqdan başqa bir şey deyil.

— …

— Yaxşı, yaxşı, bağışla, sən allah. Görürəm acığına gəldi. Mənim dilimə bu zəhrimar dəyəndə bir az çərənçi oluram. — Şüşənin ağzını qapayıb kənara itələdi: — Qoy sənin üçün bir əla çay dəmləyim. — O ayağa qalxanda Leyla durdu:

— Yox, sən əyləş, qoy çayı mən dəmləyim.

— İstəyirəm sənə özüm qulluq eləyim axı.

— Bayaqdan eləyirsən. Qulluq eləmək qabiliyyətinə isə söz ola bilməz.

Bir azdan armudu stəkanlara tökülmüş pürrəngi çay stolun üstündə buğlanırdı. Qənddanda səliqə ilə doğranmış qənddən savayı, üç-dörd cür də konfet vardı. Leyla ayağa durmuşkən, qabqaşığı, çörəyi-filanı da yığışdırıb Aslanın işarəsilə qamodun üstünə yığmışdı, müşəmbəyə dəsmal çəkmişdi. Təkcə konyak şüşəsi və bir də şokolad qutusundan başqa hər şeyi götürmüşdü. Deyəsən konyak da öz işini görmüşdü: sifəti qızarıb allanan Aslanın qırışığı azca da açılmışdı, hərəkətləri, danışmağı bayaqkına nisbətən xeyli sərbəst idi. Leylanı mətləb üstünə gətirib danışdırmaq istəyirdi, lakin hardan, necə başlamağı heç cür ağlına gətirə bilmirdi. Leyla da bilirdi ki, ürəkdən nifrət elədiyi və eyni zamanda (qəribə deyildimi?) hardasa yazığı gəldiyi bu adamın qəlbi dolurdu, danışmaq, dərdini yüngülləşdirmək üçün bir yaxın, başa düşən, ağrılarına çarə eləyən bir insan axtarır, ancaq tapa bilmir. Leylaya bu da məlum idi ki, elə adamların həyatda can dostu, ürək həmdəmi olmur: bələləri canavara bənzəyirlər, qurd kimi ağız-ağıza yatırlar. Və bu da bir cəzadır ki, heç özlərinin də xəbəri olmadan, Allah-təala onlara verir. Leyla dadlı-təmli çaydan içə-içə belə düşünürkən Aslan daha dözə bilməyib dilə gəldi:

— Görürəm, sən məni, mənim özümdən yaxşı tanıyırsan, Leyla xanım. Demək olar ki, cikimi də bilirsən, bikimi də. Nə qədər pulum var, haralardadı, hətta sürücümün bu axşam qaynanası öləcək… — Aslan birdən yadına düşmüş kimi saata baxdı: — Yəqin indi ölmüş olar, hə, Leyla xanım?

Leyla yenə iri, qonur gözlərini yumub sanki elə o yumulu gözləri ilə harasa baxandan sonra başını «hə» — mənasında tərpətməklə cavab verdi. İki-üç saat idi ki, qorxa-qorxa olsa da, elə bir məqam axtarırdı ki, Leylanın bu sözlərinin də düz olub-olmamasını axırıncı dəfə yoxlasın. O biri — bundan qabaq dediyi sözlərə də inanmışdı: xüsusən pul məsələsində qadının dedikləri tamam doğruydu. Ancaq burda bir ehtimal ola bilərdi və o da Aslanın ürəyinə yol tapmışdı ki, bu işdən hali bir adam ola bilər, ağzından qaçırar hardasa, Leyla da tamamilə təsadüfən eşidə bilər. Lakin bəs bağdakı pul? Bunu ki, onun özündən başqa kimsə bilmirdi, hətta arvadına da deməmişdi. Bu məsələlərdə güman min yerə gedə bilərdi. Ancaq… Mehmanın qaynanasının öləcəyini irəlicədən xəbər vermək… Əgər bu da düz olsa, daha bundan o yanası yoxdu, vallah, yoxdu. Aslan tələsik ayağa qalxıb pəncərənin pərdəsi arxasına qoyulmuş qırmızı telefon aparatını xəttə qoşdu və zəng çaldı. Dəstək qulağındaydı, gözləri Leyla xanımda. Dəstəkdən Mehmanın yox, bir qadının səsini eşidəndə ürəyi düşdü: «Yoxdu evdə. Yəqin bizə gedib, köpək oğlu».

— Ay qızım, zəhmət olmasa Mehmanı çağır telefona. Nə? Bəs hara gedib? — Eşitdiyi cavabdan sarsıldı ki, dili dolaşdı: — Sən… nə… danışırsan, qız? Haçan keçinib? Vay, vay, Allah rəhmət… eləsin. Heç, tanışlarındandı…

Dəstəyi yerinə qoydu, taqətsiz halda divara söykəndi və günahkar uşaq kimi Leylanın üzünə baxdı. Leyla heç nə söyləmədi — özünə qarşı inamsızlıq göstərdiyini üzünə vurmadı, çünki gördü ki, o, bu hərəkətdən utandı. İlk sarsıntılar, heyrət və təəccüb dalğaları keçəndən sonra birdən Aslanın sifətində qəribə və şadlıq duyuldu və o, bu sevincini ifadə eləmək üçünmü, sözlərinin doğru çıxmasına görəmi — ayırd eləyə bilmədi — divardan qopub Leylanın üstünə yeridi, qabağında diz çöküb titrəyən əlini irəli uzadaraq dizinin üzərinə hərəkətsiz qoyulmuş əlini qaldırıb dodaqlarına yaxınlaşdırdı və öpdü:

— Sən peyğəmbərsən, Leyla xanım, vallah peyğəmbərsən — söylədi: hər şeydən aydın görünürdü ki, bu xəbərin düz çıxmasından daha artıq Mehmanın qaynanasının ölməsi Aslanı çox sevindirib. «Qoy hər gün biri ölsün, əzizləri ölsün, başı əbədi özünə qarışsın, heç onun yadına Leyla düşməsin. Köpək oğlu, vicdansız. Hamısından yaxşı olardı ki, o xəyanətkar özü it kimi gəbərib ölsün. Bu, lap əla olardı». — Yox sən peyğəmbərsən, Leyla xanım.

Leyla xanım məmnun halda oturmuşdu, qarşısındakı bu adamcığazın heç bir şeydən xəbəri və heç bir şeydən xəbəri və heç bir şeydə günahı olmayan bir insanın ölümünə belə sevinməsinə baxır, təəssüflə başını yırğılayırdı.

— Əstəğfurullah de, Aslan. Günaha batma. Onsuz da günahın çoxdu.

— Bilirəm günahım çoxdu. O dünyada məni qır qazanında qaynadacaqlar, dərimi soyacaqlar, qoy olsun, qoy bu da bir günah olsun. İslanmışın yağışdan qorxmağı əbəsdi, Leyla xanım. İndi mən günah işlətmirəm, indi mən o gözəgörünməzin yaratdığı bir möcüzə qarşısında öz heyrətimi izhar eləyirəm, allahın qüdrətini və böyüklüyünü təsdiq eləyirəm, Leyla xanım. Mən… mən…

— Yaxşı, yaxşı, həyəcanlanma, keç, otur, özünə gəl, Aslan.

Aslan dikəldi, dizlərini də çırpmadan qayıdıb yerində əyləşdi, əlini üzünə söykəyib mat-mat Leylaya tamaşa elədi. Qadın, heç bir şey olmamış kimi çox sakit idi, hərdən gülümsünməklə kifayətlənir, heç nə demirdi.

Belə azmı keçdi, çoxmu keçdi, nəhayət, Aslan özünə gəlib toxdadı və bayaq nəsə soruşmaq istədiyini xatırlayıb xəbər aldı:

— Hə, onu demək istəyirdim axı… Sən də özün haqqında mənə bir şey deyəcəksən ya… qadağandı?

— Özüm haqqında? Yəni bu elə maraqlandırır səni?

— Əlbəttə, çox. Çox maraqlandırır. Mən bir möcüzə ilə üzbəüz oturum, bilməyim o, kimdi, nəçidi, kosmosdan gəlib, o

dünyadan gəlib? Bilməyim? Mənim yerimə sən olsaydın, heç nə soruşmazdın? Sözsüz ki, soruşardın…

— Elədi, soruşardım.

— Elə isə mənə de görüm, əgər sirr deyilsə, sən kimsən, nəçisən? Mələikəsən ya nəsən?

Leyla bütün bu müddət ərzində ilk dəfə ucadan güldü:

— Mələikəyə bax. İndi mən desəm kiməm, inanmayacaqsan.

— Yox, sən nə danışırsan? Sənə inanmayan kafirdi, Leyla xanım.

Araya cansıxıcı bir sükut çökdü. Yəqin Leyla özü barədə necə, hardan başlamağı götür-qoy eləyirdi və ona bu imkanı vermək üçün Aslan qalxıb televizorun səsini kəsdi, gəlib oturdu. Leyla ciddiləşmişdi, elə bil, bir dəqiqə əvvəl ürəkdən gülən o deyildi. Sivri qaşları çatılmışdı. Sinə dolusu ah çəkib dedi:

— Mən… mən adicə bir qaçqınam, Aslan. Yerindən, yuvasından didərgin salınmış bir qaçqın. Siz, bizim başda oturanlarımız, qələm sahiblərimiz biz yazıqların heç adını da düz tapıb deyə bilmirsiz: biriniz «qaçqın» deyir, biriniz «köçkün» deyir, bir başqası «didərgin» yazır, bir para əclaflar «yeraz» qoyub adımızı.

Bayaqdan Aslanın bu müəmmalı qadının kim ola biləcəyi barədə ürəyinə min fikir gəlmişdi, ancaq təkcə bu yox. Ona görə doğrudan da inanmaq istəməyib pırpız qaşlarını yenə alnının ortasına qaldırdı:

— Sən nə danışırsan, ay Leyla xanım? Sən doğrudan…

— Bəli, mən doğrudan qaçqınam. Qaçqının buynuzu-zadı olmur ki.

— Vay Allah. Sən nə danışırsan, qız?

— Eşitdiyini, yoxsa Mehmanın qaynanasının öləcəyi barədə dediklərimə inanmadığın kimi, buna da inanmaq istəmirsən? Onu zəng elədin, öyrəndin. Bəs bunu hara zəng eləyib öyrənəcəksən, hə? Kimə, hara zəng eləyəcəksən?

— Yox, yox, inanıram, Leyla.

— Bəs sən görmürsən mənim üst-başımı, ayaqqabımı-geyimimi? Məgər mən bu şəhərdə sənin gördüyün, gözəlliyinin, yerişinin, duruşunun tamaşasına durduğun o gözəl-göyçək xanımların hansından əskiyəm ki, bu kökdə, dilənçi günündə, evsiz-eşiksiz, yarı ac, yarı tox, bu gün bir tanışın, sabah bir qohumun evində yaşamağa məcbur olmuşam? Mənim evim yox idi, var-dövlətim yox idi? Torpağım yox idi? Hər şeyim var idi, insan üçün lazım olan hər şeyim var idi. Özüm də xoşbəxt yaşayırdım.

Aslan donub qalmışdı. Nə deyəcəyini, necə deyəcəyini bilmirdi. Əli üzündəcə duruxmuş, donuq, təəccüb həkk olunmuş gözlərini Leylaya zilləmişdi. Qonağının sözləri ona öz dərdlərini unutdurmuş, bayaq beynini azca dumanlandırmış içkinin də təsirini yox eləyib ayıltmışdı. Canına bir soyuqluq gəlmişdi. Qeyri-iradi, təzədən qədəhinə konyak süzdü, sağlıqsız-filansız, qonağından da icazə almamış, demək olar ki, bir nəfəsə başına çəkdi, bir gilə ağ şanı qoparıb məzə elədi:

— Sən haçan gəlmisən, Leyla xanım?

— Elə birinci dalğada. Səksən səkkizin fevralında. Ayaqyalın, başıaçıq. Qarlı dağların üstündən adlayıb gəlmişəm. Qoca və xəstə atam elə aşırımda, meşədəcə gözümün qabağındaca donub öldü. Balaca qardaşımla kişini bir ağacın dibində qoyub gəldik. O boyda kişini çiynimizə alıb gətirəmi bilərdik? Hər kəs öz hayındaydı. Kərbəla müsibəti idi: qoca-qarı o çovğunlu-boranlı yollarda tut kimi tökülüb qaldı, qurda-quşa yem oldu. Nəyi deyim, hansını deyim? Yadıma salanda, gözümün qabağına gətirəndə az qala dəli oluram, yerə-göyə nifrinlər yağdırıram.

— Elə üç nəfər idiz?

— Böyük qardaşımı və… onu bir il əvvəl öldürmüşdülər.

— O kimdi?

— O? O… mənim nişanlım idi. Toyumuza bir gün qalmışdı. Sabah toy olacaqdı. Mağar da qurulmuşdu, heyvanlar da kəsilmişdi, dəvətnamələr də paylanmışdı. Qardaşımla nişanlım səhər tezdən Yerevana getmişdilər — bəzi şeylər almaq üçün.

Axşama qayıtmalı idilər. Ancaq gəlib çıxmadılar. Gecə yarıdan keçənə qədər gözlədik, «yəqin işləri düzəlməyib, sabah tezdən gəlib çıxarlar» — deyə yatdıq. Səhər yuxudan ayılanda isə… gördük ki, ikisinin də başını kəsiblər, uzadıblar mağarın içinə.

— Nə danışırsan?

— Hə. Yanaşı uzatmışdılar, başlarını da yanlarına qoymuşdular.

— Vay. Kim eləmişdi? Bilmədiz?

— Onlar…

— Axı kimdi onlar? Bayaqdan fikir verirəm: demirsən kimdi onlar.

— O qədər nifrət eləyirəm ki, «erməni» sözünü dilimə gətirə bilmirəm. Elə bilirəm ağzımda yanacaq dilim, o sözü desəm. O qədər alçaq, xain, əzazil, mənfur millətdi. Siz, bizim baş bilənlərimiz, rəhbərlərimiz qorxursuz belə deməyə. Gah «yaraqlı» deyirsiz, gah «bandit» deyirsiz. Başınızı yalançı, yanlış ideyalarla elə doldurublar ki, hələ də fikirləşirsiz ki, bir millətin üstündən qara xətt çəkmək olmaz, onların arasında yaxşısı da var və sair. Sizin başınızı elə manqurtlaşdırıblar ki, daha düşünə də bilmirsiz. Çünki görməmisiz onların zülmünü, həyasızlığını, işgəncələrini görməmisiz. Evinizi viran qoymayıblar, uşaqlarınızı diri-diri dəmir turbaların içinə doldurub ağzını qaynaqlamayıblar. Bu millətin yaddaşını — qan yaddaşını da sizin kimi, üzr istəmirəm, sizin kimi biqeyrətlərin əlilə silib yox elətdiriblər: onların beşinci ildə, on səkkizinci ildə elədiklərini də, eşitdiklərinizi də unutdurmusunuz bu millətə. Özünüz də unutdunuz, bu millətə də unutdurdunuz. Halbuki o vaxt bu millətin rəhbərləri də, ziyalıları da deyirdi, yazırdı ki, bu vəhşilikləri, bu qanları, bu haqsızlıqları heç vaxt unutmayacaq bu xalq, hanı bəs?

Üstündən çoxmu keçdi? Bəs niyə unutduz, niyə unutdurduz? Qorxaqsız, heysiyyətsizsiz, biqeyrətsiz və buna görə də bu boyda milləti də qorxaq, heysiyyətsiz, biqeyrət eləmisiz. Çünki qulsuz, başınız bolşeviklərin qoltuğunun altındadır, onlar nə cür çalır, elə də oynayırsız. Qorxursuz «erməni pisdi, əclafdı, sat-

qındı, yaltaqdı, qəddardı» — deməyə, qorxursuz. Vəzifənizdən qorxursuz, partbiletinizdən qorxursuz, itirə bilərsiz. Amma mən qorxmuram, heç kəsdən, heç nədən qorxmuram. Mənə o dağlar boyda bir tribuna ver, çıxım onun arxasından bütün dünyaya car çəkib bu sözləri deyim. Təəssüf, o da mənə məlumdu ki, əgər mənim və mənim kimilərin əlinə o sözləri demək imkanı düşsə, bizi rusdan qabaq, ermənidən qabaq siz arxadan vurarsız, ağzımızı bağlayarsız və ağalarınıza böyük sədaqət göstərməyinizlə fəxr eləyib hələ bir utanmaz-utanmaz mükafat da umarsız. Bəs niyə bu boyda müsibəti görə-görə ağzınıza su alıb danışmırsız, susursuz?

Mən təkcə səni nəzərdə tutmuram, çünki sənin heç haqqın yoxdu o cür danışasan, çünki sənin dilin gödəkdi, gözün də kölgəlidi. Bəs başqaları niyə dinmir, susur, hə? — Leylanın qəşəng, qonur gözləri parıldayırdı, ətrafa elə bil bu dəqiqə qığılcım səpələyəcəkdi, ağzından od tökələcəkdi bu an. Qəhər boğdu, dayanıb susdu, matı-qutu qurumuş halda ona baxan Aslanın alnındakı tər damcılarını görüb çox sərt sözlər dediyinin indi fərqinə vardı, peşman olmuş kimi:

— Məni bağışla, sən Allah, — dedi. — Yaramın gözü qopdu, qan axdı yaramdan, qızışdım, özümü saxlaya bilmədim. Bağışla.

— Eybi yoxdur, xanım, sən haqlısan. Bizim günahımız böyükdü sizin qabağınızda.

— Tək bizim — o faşistlərin, o qəddarların Ermənistandan, öz ata-baba torpaqlarımızdan rəhmsizcəsinə qovub didərgin saldığı bu iki yüz min soydaşımızın qarşısında yox, bütün bu millətin qarşısında, bu başıbəlalı xalqın, hər qarışı qanla sulanmış bu torpağın qarşısında sizin günahınız böyükdür. Bu günahı siz öz qanınızla yuyub qurtara bilməzsiz, inan, çətin.

Acı sözlər idi və Aslanın qətiyyən yadına gəlmirdi ki, özündən aşağı saydığı bir adam indiyəcən ona cəsarət eləyib belə ağır sözlər demiş olsun. Sadəcə, o, buna imkan verməzdi, məsələsini iclasa qoyardı, işdən, hətta partiyadan çıxartdırardı, hətta haqlı olsaydı da belə o adam. Lakin… indi… Əvvələn,

Aslan o Aslan deyildi, vəzifəsi o vəzifə deyildi; ikincisi də Leylaya o nə eləyə bilərdi? Nəyi vardı Leylanın? Nədən məhrum eləmək olardı onu? O biri tərəfdən də, Aslan nə qədər «küt» və «qul» olsa da, bu sinəsi dağlı qadının — daha doğrusu toy görməmiş, arzuları gözündə yanıb-qaralmış bu dilli-dilavər, bu möcüzəli qızın sözlərinin həqiqət olduğunu başa düşürdü. Leylanın ona söylədiyi ittiham dolu sözlərdən bir çoxu — hamısı da olmasa, bir çoxu birbaşa ona da aid idi, bu məsələlərdə azçox onun da barmağı olmuşdu, var idi. Doğrudur, Aslan öz həmkarlarının bir qismindən fərqli olaraq, həmişə, hətta özünə görə, ən yüksək vəzifələrdə olanda da tamam bic bir mövqe tutmağı xoşlardı; işi elə qurub qoşardı ki, həm istəyinə nail olardı, həm də əgər gələcəkdə bir qəmbərqulu çıxardısa, onun üçün də bəri başdan bir siçan yolu qoyardı: «Bu məsələni filankəsin təklifi əsasında həyata keçirmişik. İnanmırsınızsa, protokola baxın — «Ağa durur, ağacdan durur», — deyərdi. Özü demişkən, «ideya onda itinə tök» idi, ancaq həmin o ideyaları o başqalarının başına elə ustalıqla yeridərdi, təlqin eləyərdi ki, həmin adam heç özü də bilmədən onun təşəbbüskarı kimi ortalığa çıxardı və beləliklə, məsuliyyət onun boynunda qalmış olardı.

Əlbəttə, o, ancaq içindən gələcəkdə qəmbərqulu çıxa biləcək məsələləri başqalarına sırıyırdı, tüstüsü düz çıxan işləri isə özü irəli sürür, özü də həll eləyir, «mükafatı»nı, «sağ ol»unu da özü alırdı. O biri ustalığı isə bundan ibarət idi ki, həmişə özündən böyüklərin qabağında mil durardı, yalan-doğru bir sözlərinə etiraz eləməz, səhv də, yanlış da olsa, hətta nəinki başqalarını, onun özünü belə uçuruma aparan təklif, fikir olsa da, əlini sinəsinin üstünə qoyub qul kimi icra edərdi, bəzən onun öz şəxsi fikrini soruşsaydılar da, o, müti bir şəkildə qımışıb: «Mən kiməm ki, öz fikrim də olsun? Mən balaca adamam. Siz düz buyursuz», — deyərdi. Hətta bir zamanlar ÜÇÜNCÜ olanda da belə idi, belə olmuşdu. Deyəsən elə bu cür olduğunu görmüşdü ki, BİRİNCİ, o vəzifəyə ac pişik çiy ətə marıdan kimi göz dikmiş həmkarlarının arasından onu xoşlayıb seçmişdi.

Ona görə BİRİNCİnin adıilə həyata keçirilən hər balaca ya böyük işdə istər-istəməz, az ya çox dərəcədə onun da «xidmətlər»i olurdu. Və görünür, onun hər əməlindən, hər xasiyyətindən xəbərdar olan Leyla, son illərdə bu millətin başına gətirilən bu fəlakətlərdən Aslanın da «payı» olduğunu bilməmiş deyildi, yəqin elə onun üçün də Leyla bu sözləri birbaşa ona, onun gözünün içinə deyirdi. Etiraz eləsinmi? Necə? Axı bu yazıq qadın düz deyirdi. «Qoy desin. Qoy ürəyini boşaltsın. Məhkəmə deyil ki, özümü müdafiə eləyim?» — deyə ürəyindən keçirtdi. Və dərhal qorxusundan susdu, yazıq-yazıq Leylanın gözlərinə baxdı.

— Məhkəmə də olacaq, darıxma. Hər kəs öz əməllərinə cavab verəcək, Aslan. Düşmənin elədiyi pisliyə, qəddarlığa, xəyanətə yenə də birtəhər dözmək olur. Amma sənin özününkü sənə xəyanət eləyəndə, kürəyinə arxadan bıçaq saplayanda çox incidir. Ox, bilmirsən necə incidir. Yaxşı, qismət idimi, taleyimiz idimi, yerimizdən, yurdumuzdan eləmişdilər, gəlmişdik, heç olmasa onda, imkan varkən bizi ora — Qarabağa göndərəydiz, yerləşdirəydiz ermənilərin böyründə. Demirdilər ki, Qarabağda, erməni çoxdu azərbaycanlılardan, ona görə də Ermənistana birləşmək istəyirik? Yerləşdirəydiz bizi ora, onda görüm nə deyəcəkdilər? Onda görərdilər bizim gücümüzü, üzümüzü. Onda Qarabağda bir erməni qalmazdı, hamısı bizim kimi evini-eşiyini, malını-mülkünü quruluca qoyub canını götürüb gedərdi atasının xarabasına. Biz bura, onlar ora. Bu idi yeganə yolu. Ağıllı olsaydız belə eləyərdiz: orda bir azərbaycanlı qalmadığı kimi, burada da bir erməni dığası qalmazdı, inan. Yox, eləmədiz. Ermənin raykomu da, milisi də, prokuroru da durmuşdu başımızın üstündə. «Gedin» — deyirdi hamısı. Niyə? Onlar kommunist deyildi sizin kimi? Onlar da Moskvanın «xalqlar dostuğu, qardaşdı» — deyə çaldığı laylaya qulaq asmamışdı sizin kimi? Onlar sovet adamı deyildi sizin kimi? Yox, onlar hər şeyə qulaq asırdılar, ancaq ermənilikləri̇ndə qalırdılar. Budu sizdən onların ən böyük fərqi, Aslan. Bəli, o cür eləmədiz, bəhanə də gətirdiz ki, qırğın olar. Bilmirəm bizə yazığınız gəlirdi ya onlara? Sonrakı hadisələr göstərdi ki, bizə yox, onlara ya-

zığınız gəlirmiş sizin, guya biz çox qəzəbliymişik, onları uşaqdan-böyüyə qırıb-çatarıqmış. Avtobus gətirdilər sərhəddə, bizi mindirdilər. Dil çıxardıb yalvardıq ki, bizi aparın Qarabağa, camaat arasında söz gəzdi ki, bizi Bakıya gətirmək fikirləri var, onda tökülüşdük avtobuslardan, «getmirik» — dedik. Onda o zaman Mərkəzi Komitədə — satqınlıq, məkr, hiylə, alver yuvası olan o xarabada işləyən — ona da elə nifrət eləyirəm ki, adını da çəkmək istəmirəm — kök, tösmərək, başı dazlaşmış kişi irəli çıxıb bizi dilə tutaraq maşina mindirdi: «Sizi elə Qarabağa aparırıq. Narahat olmayın» — söylədi. Sən demə, burda da aldadırmış bizi o, bunu Bakıya çatanda başa düşdük, onda da gec idi, əlimiz hara çatırdı? İlahi, bizim millətimiz necə avam olub, necə gözübağlı olub, o Mərkəzi Komitə deyilən müzürr aparata müqəddəs bir şey kimi necə inanıb? Biz ömrümüz boyu elə bilmişik ki, orada bizim dərd-sərimizi çəkən təmiz, qeyrətli adamlar, bizim rəhbərlərimiz oturublar, çay-çörək də yemirlər, gecə-gündüz bizi düşünürlər, xalqı düşünürlər.

— O göstərişi Moskvadan vermişdilər, Leyla xanım.

— Bəli, Moskvadan vermişdilər ki, camaatı — o qaçqınları Qarabağa buraxmasınlar. Bəli, Moskvadan sənin BİRİNCİnə demişdilər. O da təcili bir müşavirə çağırıb sizi də toplayıb başa salmışdı ki, necə eləyin. Səsini qaldırmaq, etiraz eləmək, dünyanı köməyə çağırmaq əvəzinə, yenə Moskvanın çaldığı ilə oynamağı üstün tutmuşdu. Bəli, sən demə, siz — xalqın qulu, rəhbəri olmalıykən, yuxarının, Moskvanın qulu, nökəri imişsiniz. Siz ona görə orda otururmuşsuz ki, ona görə BİRİNCİ, İKİNCİ, ÜÇÜNCÜ olurmuşsuz, ola bilirmişsiz ki, ağalarınıza – Moskvada oturan, balaca xalqları qul eləmək siyasəti yeridənlərə «bəli, bəli» deyirdiniz. Hansının ixtiyarı vardı ki, onların dediyindən, göstərdiyi yoldan bir qarış kənara çıxsın. Yox idi elə ixtiyarınız. Eləsəydiniz, oturmazdınız o yumşaq kreslolarda. O böyük BİRİNCİnin sözü yerlərdəki oyuncaq BİRİNCİLƏR üçün qanun idi, sizin BİRİNCİNİZİN də sözü sizin üçün qanun idi. Yoxsa düz demirəm?

— Düz deyirsən, BİRİNCİNİN yanında biz kimik ki, ağız açıb söz deyək?

— Sən deyə bilməzdin bunu, bilirəm. Bəs o birilər? Sizin aranızda heç zaman bir ağıllı kişi olmuyub?

— Ağıllı olan da susub. O birilər də həmçinin. Elə bilirsən onlar məndən təmizdi? O beş nəfərin də hər biri öz dalıyca yeddi-səkkiz nəfər çəkmiş, ortalığa çıxartmışdı. İKİNCİ həmişə olduğu kimi, yenə də Moskvadan gəlmişdi: o, bir qayda olaraq, bizim birincini heç saymırdı, faktiki olaraq hamımızı o idarə eləyirdi. Bizim BİRİNCİ şirma idi, kölgə idi: bunu kim də bilməsə, o özü və biz yaxşı bilirdik.

— Bəli, keçmişdə, inqilabdan əvvəl də belə idi. Və bunlara canişinlər deyirdilər. Əsl xozeyin, əsil ağa, padşah onlar idi. Yəni «xər həmən xər bud, çuləş digər bud».

— Burda… bircə «xər» və bir də «çul» sözünü başa düşdüm, Leyla xanım. Deyəsən sən isə…

— Hə, yəni «eşşək həmən eşşək idi, yalnız çulu başqa idi» — deməkdi bu. Burda yadıma bir lətifə düşdü.

— Hə? Lətifə? De, sən allah. Bilirsən, mən fikir verirəm, biz bayaqdan danışırıq, amma elə şeylərdən danışırıq ki, bunlar indi balaca uşaqlara da aydındı, — deyə Aslan qalxıb çayları təzələdi. Bayaqdan söhbətin səmtini dəyişmək istəyən, lakin buna cəsarət etməyən, hətta «Ay kişi, bu nə avam-avam danışır?» — fikrini ürəyindən belə keçirməyə ehtiyat eləyən ev sahibinin qırışığı açıldı:

— Mən də yaman lətifəbazam, xoşlayıram dadlı-duzlu lətifələri. Əyyami-sabiqdə bir qadın dostum, bağışla də, keçib, onsuz da sən mənim hər sekretimi bilirsən, gizləməyin də mənası yoxdur, hə, bir qadın dostum vardı…

— Daha vardı niyə deyirsən? O qadın elə indi də var, Aslan. İntəhası, aranız bir az sərinləyib…

Aslan ah çəkib ani fikrə getdi:

— Hə, doğrudur, Leyla xanım. Hə, — Çaydan bir qurtum içib Tanrıgülü gözünün qabağına gətirdi, əzablı düşüncələr

içində gülümsündü, onunla bağlı və qəlbini hər şeydən çox incidən o düyünü də Leylanın vasitəsilə nəhayət ki, açacağına arxayın olub sözünə davam etdi: — Hə, o, yaman lətifəbaz idi o vaxt. Hər dəfə görüş istəyəndə əvvəlcə soruşurdu ki, təzə lətifən var? Varsa gəl, yoxsa… Özü də xoruz səsi eşitməmiş lətifə istəyirdi məndən. — Aslan güldü. Mən də canımın dərdindən özümü oda-közə vururdum, dostlara-yoldaşlara zəng eləyirdim, xanımın eşitmədiyi bir-iki lətifə tapıb sevinə-sevinə yanına gedirdim.

— Bilirəm.

— Onu da bilirsən?

— Sənin həyatında indiyə qədər olan qadınların ən gözəli və ən ağıllısı odur, Aslan. Sən bu yaşa gəlmisən, çox qadınlarla oturub-durmusan, çox gözəllərə yalandan-doğrudan bağlanmısan, ancaq heç birini onun qədər sevməmisən və innən belə də çətin ki, bir kimsəni elə bir dəli məhəbbətlə sevəsən.

Aslan daha heç nəyə heyrətlənmirdi: Leyla xanımın birbirinin dalınca onun həyatının, ürəyinin, xatirələrinin ən gizlin, ən məhrəm sirrlərindən, guşələrindən işarələrlə olsa da, danışması, sarsıda-sarsıda onu sanki keyləşdirmişdi.

— Deyəsən lətifən yadından çıxdı, hə?

— Yox. Yadımdan çıxmayıb, Aslan. Mənim yadımdan heç nə çıxmır. Sadəcə o qadını xatırladın, fikrim onun yanına uçdu…

— Hə. Elə mənim də…

— Ancaq… Hələ onu saxlayacağıq sonraya… Sən tələssən də, onun sirlərini bilməyə hər şeydən çox can atsan da, indi o barədə sənə heç nə deməyəcəyəm.

— Niyə axı, Leyla xanım? Mən deməsəm də, sən ürəyimi oxuyub görürsən ki, o mənim həyatım olub, elə indi də bütün varlığım ona bağlıdı. Sən isə…

— Onların hamısını bilirəm, Aslan. Amma istəyirəm sən daha çox əzab çəkəsən, çox, lap çox…

— Axı niyə? Mən sənə nə pislik eləmişəm ki, sən mənim əzab çəkməyimi istəyirsən? Neyləmişəm sənə?

— Mənə heç nə… Heç nə, Aslan. Amma sən heç bir günahı olmayan, əslində heç tanımadığın və sənə zərrəcə belə yamanlığı keçməmiş çox təmiz, ləyaqətli, gözəl bir insana — o sevdiyin qadının ərinə elə dəhşətli əzablar vermisən, onu dirigözlü cəhənnəm odunda yandırmısan ki, yazıq uzun illər necə yaşadığını da bilməyib, ölüb-dirilib. Lakin sənin bundan heç xəbərin də olmayıb — sən öz kefində, damağında olmusan, o bədbəxt isə… Bax, sən məhz buna görə üstündən neçə illər keçəndən sonra özün də belə bir bəlaya düçar oldun ki, — daha doğrusu, allah səni belə bir müsibətə düçar elədi ki, başa düşəsən yanmaq nə deməkdi, dirigözlü ölüb, dirilmək nə deməkdi.

— Demək, Tanrı mənə cəza verir…

— Bəli, nə doğrayarsan aşına, o da çıxar qaşığına, Aslan. Leyla susdu, çaydan bir qurtum içib sınayıcı, yoxlayıcı nəzərlərlə Aslana fikir verdi: o, bilmədən, düşünmədən elədiklərinə peşiman bir uşaq kimi büzüşüb oturmuşdu, titrəyən barmağı ilə müşəmbənin güllü naxışına sığal çəkirdi və bu mənasız hərəkəti niyə elədiyini özü də bilmirdi.

Doğrudan da Tanrıgüllə bağlı o müəmmanı, düyünü heç cür aça bilmirdi; bu, onu ağlagəlməz dərəcədə sarsıtmış, sevdiyini, həyatı, nəfəsi sandığı adamı itirmək üzrə olduğunu dərk edəndə aylarla yorğan-döşəyə düşmüş, saqqal buraxmış, guşənişin olub evdən bayıra çıxmamış, arvadının — Leyla xanımın dəfən-dəfən gətirdiyi ən yaxşı həkimlərin dava-dərmanı belə əlindən tuta bilməmiş və demək olar ki, bu pərişanlıq və dərmansız ağrılar onu ruhən, mənən qocaltmış, yaşına görə taytuşlarının həsəd apara biləcəyi qədər qapqara qalmış saçlarına dən salmış, dünyadan küsdürmüşdü.

Onun yeganə dərdi Tanrıgül idi, ancaq bədbəxtliyindən o da bilərəkdənmi, bilməyərəkdənmi, qəsdənmi, — aydın deyildi ona — bu müddət ərzində Aslanı çox az itirib-axtarmış, bir dəfə xəstə şeflərinə baş çəkməyə gələn əməkdaşlarla bir yerdə ya-

nına gəlmiş, yad bir adam kimi oturub başqaları kimi təsəlli verməklə kifayətlənmiş, Leyla xanım kurortda olarkən tez-tez gəldiyi, saatlarla qalıb əyləndikləri, yeyib-içdikləri bu otağa biganə nəzərlərlə tamaşa eləmiş və axırda hamı kimi «yüngül yastıq» arzulayıb çıxıb getmişdi. Tanrıgül çox məharətlə, ustalıqla özünü burada elə aparmışdı ki, guya bu evdə birinci dəfəydi olurdu, guya bu divan, o stol, o yataq otağı ona heç tanış deyilmiş. İşdə, uzun illər boyu əgər Tanrıgül Aslandan qabaq çıxıb getməli olduğu zaman xudahafizləşmək üçün, heç kəs şübhələnməsin deyə, diliylə: «Sağ olun» deyəndə, uzun kiprikli gözlərini qırpmaqla da, səssiz-səmirsiz: «Sağ ol, əzizim». — söyləmişdisə, indi, o xəstə yatdığı və buna daha çox ehtiyacı olduğu vaxt bunu da ondan əsirgəmişdi. Bu isə Aslanı lap dəli eləmiş, yerinə ilan-qurbağa doldurmuş, yata bilməmiş, özünə ucuz ölüm arzulamışdı. Qısqanclıq, şübhələr zəhər kimi təkcə qanına işləməmiş, ruhuna da daxil olub bütün varlığını gəmirməyə başlamış, yaşamağı ona haram eləmişdi. Sonra iki dəfə də zəng eləmişdi Tanrıgül. Onda Leyla evdə olmadığına görə Aslan onun niyə belə elədiyini soruşub öyrənmək istəmişdi, «Axı sənə nə olub, niyə belə eləyirsən?» — deyə xəbər almışdısa da, Tanrıgül soyuq və quru bir səslə: «Heç nə». — deyə cavab vermiş, eyni soyuq bir ahənglə də tez sağalmağını arzulayıb dəstəyi asmışdı.

İndi Leyla, Tanrıgüllə olan münasibətini də bildiyinə işarə eləyib sonra da onun barəsində hələ danışmayacağını söyləyəndə Aslan eyri-iradi olaraq: «Yox, burada nə isə mühüm bir sirr var. Yoxsa bu hər şeyi bilən Leyla da belə deməzdi». — deyə düşünüb, istər-istəməz onun hökmünə boyun əyərək çarəsiz adamlar kimi köks ötürdü, o Tanrıgüllü aləmdən qopub ayrılmaq üçün, necə haldan-hala düşdüyünü görüb mənalı baxışlarla onu süzən Leylanın nəzərləri altında əzilə-əzilə yenə lətifə məsələsinin üstünə qayıtdı:

— O nə lətifə idi elə, Leyla xanım?

— Heç… Danışmayacağam o lətifəni daha.

— Niyə? Yoxsa… yoxsa xətrinə dəydim, Leyla xanım? Əgər namünasib bir sözlə xətrinə dəydimsə, sən allah, bağışla məni.

— Yox, yox. Heç nəynən xətrimə dəymədin, Aslan. Sadəcə olaraq, sözü vaxtında və məqamında deyəsən gərək. Keçdinmi, keçirtdinmi, onun gözəlliyi, şirinliyi itir. Həm də mən artıq bayaqkı adam deyiləm.

Aslan gözlərini döydü:

— Necə yəni bayaqkı adam deyiləm?

— Yəni əhvali-ruhiyyəm bayaqkı deyil. Bayaq dərdlərim yadıma düşmüşdü, ürəyim göyüm-göyüm göynəyirdi, ona görə bütün dünyanı qatmışdım biri-birinə. O sözlər çoxdan yığılıb qalmışdı ürəyimdə. Sən keçdin əlimə, qəlbimin ağrı-acısını sənin üstünə töküb bir az toxtadım. Mən o sözləri, bizim bugünkü bədbəxtliyimizdə az-çox günahı olan bir kimsəyə deməliydim — sən keçdin girimə. Sən də o sözləri haçansa kimdənsə eşitməliydin — kimsə bu sözləri sənə deməliydi. Yoxsa elə bilərdin — necə ki, sənin o biri böyük-böyük yoldaşların belə başa düşür ki, hamı avamdı, heç kəsin sizin əməllərinizdən xəbəri yoxdu, dünya avamlar dünyasıdı, korlar-karlar dünyasıdı. Dərdlərimi — tək öz dərdimi yox, bu millətin dərdlərini sənə dedim, azcana sakitləşdim. Dərd adamı çürütdüyü kimi, milləti də çürüdür, Aslan.

— Elədi. Bunu kim də bilməsə, mən bədbəxt yaxşı bilirəm, Leyla xanım, Yaxşı, bəs indi kiçik qardaşın sənin yanında deyil?

— Yox. Getdi.

— Hara?

— Qarabağa. Nə qədər elədim, saxlaya bilmədim. Könüllü getdi. Uşaq dözmürdü, gecə-gündüz ağlayırdı. Gördüm dəli olacaq, dedim get, qardaş.

— Qeyrətli oğlanmış sənin qardaşın. — Aslan «qeyrət» sözünü dilinə gətirdiyinə dərhal peşiman oldu, çünki o bilirdi ki, bu sözü eşidən kimi, Leyla xanım yenə nə isə tikanlı-tikanlı

sözlər deyəcək: ona görə heç imkan verməyib əlavə elədi: — Sağ-salamat qayıdıb gəlsin.

Leyla xanım Aslanın tökdüyü çayı içməyə başlayanda araya dərin bir sükut çökdü və Aslan bir müddət nə edəcəyini, nə deyəcəyini bilməyən uşaq kimi o yan-bu yana döyükdü. Ağlına gələn fikirdən sevindi: onunla tanış, həmsöhbət, yol yoldaşı olan vaxtdan bəri hey soruşmaq istədiyi, ancaq araya bu və ya başqa bir söz düşdüyündən, Leylanın gözlənilməz «zərbələrindən» çaş-baş qaldığından unutduğu sözün nəhayət, məqamının yetişdiyini görüb xəbər aldı:

— Sənin sənətin nədi, Leyla xanım? Əgər sirr deyilsə…

— Heç nə… — Leyla qaşlarını çatıb diqqətlə Aslana baxdı.

— Necə yəni heç nə?

— Sadəcə, onuncunu qurtarmışam.

— Nəə?

— Bəli.

— Bəs niyə oxumamısan? Özün istəməmisən, ya…?

— Özüm istəmişəm, bilirsən necə istəmişəm? Bunu bir mən bilirəm, bir də o göydəki Allah. Amma qoymadılar.

— Kim qoymadı? Atan-anan?

— Yox, onlar istəyirdilər. Arzuları məni oxumuş görmək idi. Ancaq qismət olmadı.

— Niyə?

— Düz altı il Bakıya gəlib getdim. Ancaq qəbul eləmədilər. «Balın çatmır» — dedilər. Yəqin deyəcəksən, savadsızın, malbaşın biri olmusan, ona görə girə bilməmisən. Yox. Elə deyildi. Mən əlaçıydım orta məktəbdə. Özü də yalançısından yox. Sadəcə mənim pulum yox idi, atam dalımca gələ bilmirdi. Mənim hazırladığım uşaqlar, üçə güclə cavab verə bilənlər gözümün qabağında daxil olurdular, mən qalırdım kənarda. Onlar qəbul kağızını alıb sevinə-sevinə evə dönəndə, mən ağlaya-ağlaya qayıdırdım.

— Axı niyə belə olurdu?

— Guya bilmirsən? Onların pulu vardı, mənimsə yox idi. Molla Nəsrəddinin bir lətifəsi yadıma düşdü. Deyirlər, bir gün Molla qonşusu ilə nəyinsə üstündə dava eləyir. Qonşu varlı-hallı imiş. İkisi də Qazinin yanına şikayətə getməli olur. Varlı qonşu gedəndə dilinin altına bir qızıl onluq qoyur. Molla da həyətindəki aman-zaman qazı vurur əbasının altına. Varlı şikayətini eləyəndə dilini elə hərləyir ki, Qazi ağzındakı qızıl onluğu görür. Molla da danışanda qoltuğunun altındakı qazı sıxır, biçarə qaz canının ağrısından boğazını irəli uzadıb qaqqıldayır. Qazi hər ikisini dinləyib işi varlının xeyrinə kəsir, bu zaman Molla haqsızlığa dözməyib qara-qışqırıq salır. Qazi əlini qaldırıb deyir: «Ay rəhmətliyin oğlu, görmürsən kişi ağzında qızıl kimi söz danışır? Sən də qaz kimi boğazını nə uzadıb qırıldayırsan?»

Aslan bu lətifəni haçansa, kimdənsə eşitmişdi və onun üçün bunda heç bir yeni şey yox idi: amma buna baxmayaraq, Leylanın xətrinə dəyməsin deyə yalandan qımışdı:

— Başa düşdüm.

— Bəli, onlar ağızlarında qızıl kimi söz danışırdılar, mən də qaz kimi boğazımı uzadırdım. Professor Əlyar Səfərli — bizim məşhur ədəbiyyatşünasımız axırıncı il məni görəndə dedi: «Ay qız, mən sənə «Beş» qiymət yazmaqdan yoruldum, sən bura gəlib-getməkdən yorulmadın?»

—… Təəssüf.

— Nə təəssüf? Guya siz — bax, o yuxarıda oturanlar — Leyla xanım əlini başından yuxarı qaldırdı. — bunu, bu zülmü, bu haqsızlığı, rüşvətin hər şeyi yuyub apardığını görmürdüz? Xəbəriniz yox idi? Sizin hansınızın — mən, əlbəttə, səni demirəm, bilirəm sənin övladın yoxdu və sən bunu özünə böyük dərd eləmisən, amma nahaq. Çünki sənin oğlun var. Hə, qurcuxma, həyəcanlanma.

— Sən nə danışırsan, Leyla? — deyə Aslan, «xanım» sözünü də unudub demək olar ki, qışqırıb yerindən sıçradı: — Ay sənə qurban olum, sən nə danışırsan? Sən məni dəli eləyəcəksən, sən mənim ürəyimi partladacaqsan, vallah.

Leyla rəngi ağarmış, az qala bütün vücudu titrəyən, qalın, ətli dodaqları səyriyib daha söz tapmayan Aslana altdan yuxarı baxdı, çox soyuqqanlılıqla, adi bir şeydən danışırmış kimi, sakit bir ahənglə:

— Özünü ələ al, Aslan. — söylədi. — Bu məsələ üçün, yəni sənin oğlunun olduğunu eşidib bunca sevinmə. Sadəcə bil ki, oğlun var, vəssalam. Sadəcə, bil ki, sən sonsuz deyilsən, vəssalam.

— Axı bu mənim üçün…

— O oğlunun olub-olmamasının sənə elə bir isti-soyuğu yoxdur, Aslan. Hələlik bu qədər bilməyin kifayətdi ki, sənin oğlun var. Yaşayarsan, inşallah, görərsən öz oğlunu və yalnız görəndən sonra bilərsən ki, sənin üçün onun olmağı ilə olmamağı arasında elə bir fərq yoxdur. Hə, indi keç otur.

Aslan əl atıb cibindən dəsmal çıxartdı, alnının, üzünün tərini sildi, siqaret qutusunu stolun üstündən götürəndə gözü konyak şüşəsinə sataşdı, siqareti yerə qoyub qədəhini doldurdu və birnəfəsə başına çəkib papiros yandırdı və gəlib yerində əyləşdi.

— Doğrudan adam lap dəli ola bilər, Leyla xanım. Həyat necə də qəribə və necə də mürəkkəbdir. Dünyanın ən ağıllı, ən şüurlu varlığı olan insan…

— Heyvan — deyə Leyla onun sözünə düzəliş verdi. — Ən ağıllı və ən şüurlu heyvan olan insan de, Aslan.

— Bununla yaranmışların ən şərəflisi hesab olunan insanı təhqir etmirikmi, Leyla xanım?

— Əsla. Hələ insanın kamil olmağına çox var.

— Bəs onda niyə belə deyirlər?

— Kim deyir onu? İnsan özü deyir bunu özü haqqında. O insan ki, tərifdən sarı sinov gedir, özü haqqında, öz ucalığı və əlçatmazlığı barədə mühakimələr yürüdür, kəlamlar deyir və özünün başının ulduzlarda olduğu halda, ayaqlarının çirkablar içində olduğunu görmür, görmək istəmir, yaxud özünü görməməzliyə vurur. Uzağa niyə gedirsən? Elə sadəcə özünə bax, öz

ürəyinə, vicdanına bir kənar adam gözüylə tamaşa elə, onda görərsən ki, insan nədir? Hələ bunu da nəzərə al ki, sən oxumuşsan, sən ziyalı hesab olunursan, nə bilim nə. Ya oxu o kitabları, o filmlərə tamaşa elə, gör insan insanın başına nə oyunlar açır, necə bir-birinin başını kəsir, qanını içir. Bunu insan adlanan o şüurlu məxluq eləyir, Aslan. Bunları heyvan eləmir, yox, heyvan eləmir.

— Sən insanlardan deyəsən tamam əlini üzmüsən, Leyla xanım.

— Yox, sən məni düzgün başa düş. Mən insanlardan tamam əl üzməmişəm. Ancaq incimişəm insanlardan. Deyəcəksən, dünyada yaxşı insanlar da az deyil.

— Bəli.

— Ancaq insan adını daşıyan hər kəs gərək yaxşı olsun, Aslan. Əgər sən insansansa, sənin pis olmağa haqqın yoxdu.

— Bu, mümkün olan şeydirmi? Onda həyat mənasız olmazdımı?

— Yox, onda həyat daha gözəl olardı, inandırıram səni. Qat-qat gözəl olardı.

— Nə bilim, vallah, — Aslan bu qəliz, özünün də o qədər başı çıxmayan bu fəlsəfi söhbətdən qaçıb yaxa qurtarmağın yeganə çarəsini Leylaya bayaqkı söhbətini xatırlatmaqda gördü və sözü dəyişmək üçün dedi: — Sən nə isə deyirdin bayaq… Leyla gözlərini qıyıb xatırlamağa çalışdı və yadına salıb:

— Hə, mənim oxumağımdan danışırdıq. — söylədi. — Sözümün canı o idi ki, siz, orada, yuxarıda oturanlar, utanmadan, qızarmadan bizə «yoldaş» deyirdiz, «bərabərik» deyirdiz, ancaq, bir insafnan fikirləş, siz bizim yoldaşımız idiniz, bizimlə bərabər idiniz? Yox. Sizin mağazanız ayrı, ərzağınız ayrı, hətta qəbristanlığınız da ayrıydı. Onların hansı birinin uşağı, mənim kimi altı il ali məktəb qapısına gəlib, ancaq əli ətəyindən uzun qayıdıb geri? Hansının? Orta məktəbi yaman-yaxşı qurtaran kimi ya özünün, ya valideyninin istədiyi, arzuladığı instituta, fakültəyə girməyib, çöldə qalıb, onu aparıb zavodda, fabrikdə,

mətbəədə staj yığsın deyə işə düzəldiblər? Hə? Heç birini. Bu boyda Bakını ələk-vələk eləyəsiz, özü də otuz il müddətinə orta məktəbi bitirmiş uşaqları axtarıb tapasız, siyahısını tutasız, bircə nəfər də vəzifəli «papa», «mama» uşağı tapa bilməzsiz ki, qurtaran ili ali məktəbə qəbul olunmamış olsun. Tapa bilməzsiz, tapsanız, başımı verərəm.

Leyla xanımın yenə dərdi güc gəldiyindən qızışıb danışırdı. Aslan ancaq üzünə baxırdı, səsini eşidirdi, əslində isə, nə dediyini başa düşmürdü. Çünki bir az əvvəl söylədiyi: «sənin oğlun var» — sözləri onu ildırım vurmuş kimi silkələyib sarsıtmışdı, fikirlərini yuvasına ilan girmiş quş balaları kimi pərən-pərən salmışdı, xəyal gözəgörünməz qanadlarının üstünə alıb yenə ötən günlərinə — kefli, damaqlı, qızlı, gəlinli çağlarına aparmışdı, uzaq, hardasa əlçatmaz, daha görünməz, yaşanmaz bir dünyanın illərin uçurub dağıtdığı, viran qoyduğu divarları arasında sərgərdan-sərgərdan dolaşmağa vadar eləmişdi onu. «Oğul. Qız da yox, oğul! Hardadı o? Kimdi? Adı nədi? Bu şəhərdədimi ya başqa şəhərdədi? Aman allah, bu dünyada nələr olurmuş?»

Aslanın daha onun sözlərinə qulaq asmadığını, fikrinin uzaqlarda cövlan elədiyini duyan Leyla xanım, ayağa qalxdı və üzünü yana çevirib çox zərif bir şəkildə gərnəşdi, bayaqdan lap asta ayaqda öz-özünə nəsə danışan televizorun qənşərində dayandı, azca baxıb hələ də yerindən tərpənməyə taqəti olmayan Aslana sarı döndü:

— Bayaqdan heç siqaret çəkmirsən, xeyir ola? — Bu sualı o özü qəsdən verdi, çünki bilirdi ki, siqareti qurtarıb, bir az qabaq yandırıb çəkdiyi axırıncısıydı. Bunu elə belə deyirdi, əylənmək üçün. Həm də bilirdi ki, o, siqaretsizlikdən əziyyət çəkəcək. İstəyirdi kömək eləsin və ən ümdəsi də bu idi ki, yenə onu təəccübləndirsin.

Aslan ayağa durdu,əllərini pijamasının iri yan ciblərinə vurub:

— Siqaretim qurtarıb. Sənə demişdim ki, — söylədikdə Leyla qətiyyətlə:

— Var, — dedi. — Siqaretin var, Aslan.

— Vallah yoxdu.

— Var, bəy. İndi mən sənə siqaret versəm, sən mənə nə verərsən?

Aslanın ətli gözləri parıldadı:

— Nə istəsən verərəm, Leyla xanım. And olsun. Hə, yəqin sumkanda varmış. Düz tapmışam?

—Yox. Sumkamda yoxdu. Mən, yadında saxla, heç vaxt yalan danışmıram və xahiş edirəm, sən də heç vaxt yalan danışma.

— Bilirsən, Leyla xanım, — deyə Aslan yaman yerdə axşamladığını başa düşüb bəri başdan özü üçün siçan yolu qoymaq istədi. — İndi elə zəmanədi ki, yalansız bir gün də ötüşmək olmur. Sən istəməsən də məcbur olub axırı yalan danışmalı olursan. İndi vallah, ata uşağını aldadır, arvad ərini aldadır, ər arvadını… Nə bilim, yəni hamı bir-birini aldada-aldada yaşayır. Əvvəl-əvvəl adam bir az vicdan əzabı çəkir, sonra öyrəşir və bu yalanlara həyatın adi bir parçası kimi baxıb adət eləyir.

— Elə bütün bədbəxtliklərin çoxu da bax bu yalanlardan başlayır. Bir yalan deyirsən, onun doğruluğunu sübuta yetirmək üçün daha bir neçə yalan uydurmalı olursan və bir də görürsən ki, yalanlar girdabında batıb qərq olmusan. Ancaq sən… Heç olmasa mənə yalan danışmamalısan. Bilirsən ki, faydası yoxdu.

— Vallah, yalan demirəm. Bircə gilə də qalmayıb. İnanmırsan, yoxla.

— Yox, mən sənə inanıram, Aslan. Bilirəm siqaretin qurtarıb. Mən bu yalan məsələsini elə-belə dedim. Ancaq… sənin siqaretin var.

— Hardadı axı?

— Bax, elə burda, bu evdə… De görüm nə verərsən sənə siqaret tapım?

— Dedim ki, nə istəsən.

— Özün de. — Aslan bir az duruxdu, elə bil sinifdə müəllim çətin bir sual vermişdi, cavabını tələb eləyirdi, o isə çaşıb qalmışdı. Başını qaşıdı və birdən dedi:

— On min manat verərəm.

— On min manat? — Leyla bu sözləri heyrətlə söyləmədi, elə-belə, adi bir şey eşidirmiş kimi dilinə gətirdi. Aslan öz sözlərinin onu təəccübləndirəcəyini gözləyirdi. Yox, nə təəccüblənmişdi, nə də sevinmişdi Leyla. Bu, onun heç bir əzələsi belə tərpənməyən üzündən, ifadəsi belə dəyişməyən baxışlarından bilinirdi. Əgər Leyla-Aslan belə fikirləşdi – pul qoparmaq niyyəti ilə ona yaxınlaşsaydı və bu siqaret söhbətini buna görə ortalığa atmış olsaydı, on min manat söhbətini eşidən kimi mütləq sevinməli idi. Ancaq o, yalnız qaşlarını azca yuxarı dartaraq:

— Səxavətlisən, bəy — söyləməklə kifayətləndi.

— Aşığı oynamaq üçün yığırlar, Leyla xanım. — Aslan Leylanın bu tərifindən xoşlanıb gülümsündü.

— Ancaq o Bakı milyonerinə çata bilməzsən.

— Hansı Bakı milyonerinə?

— Deyirlər inqilabdan qabaq Bakı milyonerlərinin birinin (adını bilirdim ey, indi yadımdan çıxıb) Fransadan gəlmiş qəşəng, cavan, çox işvəli-qəmzəli bir xanım qonağı varmış. Qış vaxtı, bağda oturub yeyib-içiblər: gecənin bir aləmi, nökər-qaravaş yatandan sonra xanımın könlünə hardansa qəhvə düşür və bu istəyi bəyə bildirir. Soba sönmüşmüş, od-ocaq keçmişmiş. Bayırda da qar, tufan. Milyonçu nəyin bahasına olursa-olsun, bu qəşəng xanımın arzusunu yerinə yetirmək istəyir. Çox düşünmədən qəhvədanı ocağın üstünə qoyur və seyfi açıb oradan çıxartdığı qom-qom əskinasları alışdırıb qəhvə qaynadıb bişənəcən pul yandırır. Milyonmu, milyardmı, bilmirəm, amma yandırır. Qəhvəni piyalələrə süzüb xanımın qabağına qoyur və qış gecəsi, milyonların oduna bişmiş o qəhvəni ləzzətlə içirlər. Xanım milyonçudan çox razı qalıb deyir:

— Mən özümü dünyanın ən xoşbəxt qadını saya bilərəm. Bütün tarix boyu hələ heç bir qadın bu qədər pul oduna-atəşinə qaynadılıb bişirilmiş qəhvə içmək səadətinə nail olmayıb. Dünyanın ən zəngin padşahları belə bu cürəti eləməmişlər və yəqin, bundan sonra da belə səxavət göstərən ikinci bir kişi dünyaya gəlməz. — Leyla bir an susub Aslana diqqət yetirdi, sonra əlavə elədi: — Bax, belə, Aslan bəy. Dünyada belə kişilər olub.

Aslan Leylanın bu hekayətini maraqla dinləyib özünü də milyonçunun yanına qoymaq istəyi ilə:

— O mənim adamım imiş, — dedi — hal əhli imiş. Bunu ancaq bizim kişilər eləməyə qadirdi, Leyla xanım.

— Hə, düz deyirsən, Aslan. Ancaq bizim kişilər belə axmaq iş tuta bilər. Başqa millətlərdə belə axmaq kişilər tapmaq çətindir.

— Səxavətli olmaq məgər axmaqlıqdır?

— Yox, səxavətli olmaq çox böyük insani bir məziyyətdir. Ancaq yerində və qaydasında. İndi səndən soruşuram: həmin o milyonçu o milyonları, milyardları öz millətindən olsaydı o xanım, ona eləcə qıyardımı? Yox, qıymazdı, vallah, qıymazdı. Bir dilənçiyə, bir əlsiz-ayaqsıza, bir xeyriyyə cəmiyyətinə o pulun mində, milyonda birini qıymazdı o kişi. Düz demirəm?

Aslan söhbətin başqa səmtə yönələcəyini, Leylanın yenə onu divara qısnayacağını hiss eləyib, mübahisə etmək fikrindən daşınaraq zarafatla işin içindən çıxmaq istədi:

— Sən də Leyla xanım, özünü dünyanın — bizim dünyamızın ən xoşbəxt qadını saya bilərsən. Çünki indi bütün yer üzündə sən elə bir qadın tapa bilməzsən ki, bir qutu siqaretə on min manat pul versinlər ona.

Leyla xanım onun bu sözlərinə ucadan güldü:

— Hazırcavabsan ha sən özünə görə.

Siqaretin dəmi gəlmişdi, Aslanın ciyəri yanırdı, Leyla isə bilməyərəkdənmi, qəsdənmi söhbəti uzadırdı. Aslan axırda dözmədi:

— Hanı ey bu siqaret? Ürəyim çəkildi ki.

Leyla dabanı üstə geri hərləndi, iki pəncərənin arasına qoyulmuş kamodun — rəngi şabalıdıydı və hiss olunurdu ki, qədimi şeydi — üstünə yeridi, çönüb maraqla onu izləyən Aslana baxdı və:

— Bax, bu kamodun alt gözündə, lap arxa tərəfdə, dəsmalın altında bir qutu malbora var. Aç, götür. Görürəm, dayana bilmirsən — deyib gözləmədən eyvana çıxdı. Aslan əvvəl yerindən tərpənə bilmədi, dayanıb başını qaşıya-qaşıya yadına salmağa çalışdı ki, əgər doğrudan da burada, illərlə əlini vurmadığı, heç yaxınına belə düşmədiyi bu kamodun içində siqaret olsa, bu da Leyla xanımın bir möcüzəsidi. Bu bir. İkincisi və ən ümdəsi bu idi ki, o özü şəxsən — nəyə desən and içə bilər — bu kamoda siqaret qoymayıb. Niyə də qoymalıydı? Hə, onda ayrı sual çıxır ortalığa. Demək, arvadı qoyub. Nə üçün? Bəlkə ərinin haçansa əlimyandıda siqaretsiz qalacağını düşünüb Leylası? Yox. Belə şeylər onun dəftərində olmayan şeydi. Heç olmasa ona görə ki, Leylanın — onun sevimli arvadının siqaret iyindən zəhləsi gedir, həmişə deyinir və o, Aslan, həmişə siqaretini çıxıb ya balkonda, ya da mətbəxin açıq pəncərəsinin qabağında çəkir. Bu, ev rejimidi onun. Bəs onda? «Ay allah, bu nə işdi mən düşmüşəm? Bu nə müəmmalar aləmidi ki, mən yaşayıram? Hər şey dolaşıb, düyünə düşüb, heç birini də açıb axırına çıxa bilmirəm. Qıçları əsə-əsə kamoda yaxınlaşdı, əyilib siyirməni çəkdi, əlini ilan yuvasına uzadırmış kimi, qorxa-qorxa irəli uzatdı… və ütülü, qatlanmış çay dəsmalının altından siqaret qutusunu çıxartdıqda bədənini soyuq bir gizilti gəzib dolaşdı. Bilmədi neyləsin. Sağ əlindən sol əlinə ötürdü, qutunun o tərəf-bu tərəfinə nəzər saldı. Adicə siqaret idi, həmişə çəkdiyi siqaretdəndi. Gecənin bu vaxtı, ümidi hər yerdən kəsiləndə siqaret tapdığına sevinmək istəyirdi, lakin bu gözlənilməz, amma çox yerinə düşən bu tapıntının altında hərəsi bir zəhərli ilan kimi qıvrılıb yatan ağrılı-acılı suallar onun bu sevincinin üstünə su çiləyib qorxuzur, fərəhlənməyə qoymurdu. O siqaret qutusu üçün on min manatı Leylaya uduzduğu heç gözündə deyildi. Nə

pul idi ki, o? Kişi kimi söz vermişdi, ağzından çıxarmışdı, verəcəkdi. Təki başqa şey olmasın, olmasın, ay allah. Amma yox, burada nə isə sehrli, Aslanın indiyəcən bilmədiyi, ağlına belə gətirmədiyi müəmmalar vardı deyəsən və bunu o, bütün varlığı ilə hiss eləyirdi. Əlinin əsməyi də ondan idi. Çox çətinliklə qutunu açdı, bir gilə papiros yandırıb acgözlüklə sümürdü: içi, ciyərləri bayaqdan bəri «nekatin» — deyə ac uşaq kimi mələyirmiş, sən demə. Dalbadal üç-dörd qüllab vurub azcana sakitləşəndən sonra fikrini cəmləyib hələ də soyuq şüşə kimi əlində saxladığı siqaret qutusuna nəzər saldı, sanki bu baxmaqla ondan nə isə soruşmaq, öyrənmək istəyirdi. Qutu isə qutuydu, dili yox, ağzı yox. Nə deyəcəkdi Aslana?

Bu, son bir neçə saatın içində, başqa şeylər bir yana qalsın, Leylanın Aslana göstərdiyi neçənci möcüzə idi.

Yağış kəsmişdi. Göylər qapqaraydı, bir dənə də ulduz görünmürdü. Yalnız on beş günlük ay boz-bulanıq sularda üzən işıqlı bir gəmi kimi ağır-ağır üzü yuxarı üzürdü. Yerdə, torpaq üstündə xəzri qalxmışdı, yaxınlıqdakı dənizin uğultulu-gurultulu dalğaları hirslə-hikkə ilə başını sahildəki qayalara vurur, qayaların tərpənmədiyini, halına heç təfavüt eləmədiyini görüb sanki qəzəbindən parçalanır, çiliklənir və qəribə, uzaqdan, lap uzaqlardan gələn bir güyültüyə çevrilib eyvanda, əlləri qoynunda dayanaraq qaranlıqda çalxalanan dəniz səmtə baxan Leylanın qulaqlarında səslənirdi. Hava elə təmiz, elə safdı ki, nəfəs aldıqca özünü qov təkin yüngül hiss eləyir və sanki indicə əfsanəvi quşlar kimi qanad gətirib uçacağına, burdan, yerdən, insanlardan uzaqlaşacağına inam aşılayırdı. Sakit Mərdəkan gecəsinin qaranlığı, qonşu bağlardan gələn işıq, eşidilən danışıq, musiqi səsləri, göylərdə ağır ləngərlə süzən ayın hüzn doğuran görkəmi Leylanı buradan, bu şairanə gecənin qucağından qoparıb ora — iki il öncə qoyub gəldiyi öz doğma kəndlərinə yenicə aparmışdı ki, çiyinlərinə nəyinsə astaca toxunduğunu duyub səksəndi, hərəsan geri qanrılanda qarşısında yad bir kişinin dayandığını görərək əvvəlcə qışqırmaq istədi, ancaq bir an sonra özünün harda və kimin yanında olduğunu xatırlayıb toxtadı,

gülümsər bir baxışla ona baxdı: Aslan onun çiyninə pencək salmışdı və o, bunu yalnız indi başa düşüb qəlbində ona bir minnətdarlıq hissi duydu.

— Çimmisən, sənə soyuq olar, Leyla xanım. — dedi Aslan və siqaretini çəkə-çəkə əlavə elədi: — Görürsən nə gözəl gecədi? Ömür uzadan gecədi, Leyla xanım. Dənizin səsini eşidirsən? Bu əsən - xəzridi. Dənizdən əsir. Bizim Abşeronun bir də gicəvarı var.

Söz Leylaya qəribə göründüyü üçün soruşdu:

— Nəyi?

— Gicəvarı.

— Gicəvar-xəzri ilə giləvarın qarışmasından, toqquşmasından, yəni ikisinin də eyni vaxtda əsməsindən əmələ gəlir.

— Hm. Başa düşdüm. Bu torpaq doğrudan da gözəldi, misilsizdi. Dünyanın heç yerində bizim məmləkət kimi könüloxşayan, sərvətli, təkrarolunmaz gözəlliyə malik ikinci bir məmləkət tapmaq olmaz, yoxdur da. Ona görə də başı bəlalıdı torpağımızın. Rəhmətlik atam bir dəfə öz qonaqlarına deyəndə eşitmişəm: deyirdi: bizim bu torpaq, bu məmləkət son dərəcə gözəl bir qadına bənzəyir: onu ələ keçirmək, ona sahib olmaq, onu özününkü etmək istəyənlər çox olub həmişə.

— …

— Çünki çox vaxt yiyəsiz olub. Qeyrətlilərimizin hakimiyyəti olmayıb, hakimlərimizin də qeyrəti. Ona görə də parçalayıblar, satıblar, talan ediblər.

Heç vaxt bir yumruq kimi birləşməmişik: qoymayıblar. Əcnəbilər bir tərəfdən, öz satqınlarımız da o biri tərəfdən. «Haralısan?» — fəlsəfəsi evimizi yıxıb bizim. Ta bir-birimizdən «haralısan?» — deyə soruşmaqda o qədər adətkərdə olmuşuq ki, yerdə o sualı verməyə bir adam tapmayanda göydə uçan yaralı durnadan da soruşmuşuq ki, «Ay yaralı durna, sən haralısan?» Amma o zəhləmgetmişlər heç bir-birindən soruşmurlar ki, sən haralısan…

— Bu gün neçə saatdı sənə qulaq asıram, — deyə Aslan bayaqdan bəri ürəyində dolandırdığı sözü nəhayət, dilinə gətirdi — elə bilirəm bir alimlə söhbət eləyirəm, Leyla xanım. Vallah, üzünə demək olmasın, sən lap filosofa oxşayırsan ey. Hərdən mənə elə gəlir ki, sən zarafatnan deyirsən onuncunu qurtarmışam cəmi-cümlətanı.

— Yox. Mən nə var, onu da demişəm. Sadəcə, mən kitab dəlisiyəm. Yalan olmasın, oxumadığım kitab az-az tapılar. Savad diplomnan deyil ki, diplom bizim zəmanədə ancaq bir tikə çörək üçündü, vəssalam.

— Hayıf, oxusaydın, yaxşı alim olardı səndən.

— Eh, o qədər mənim kimi oxumaq arzusu gözündə qalıb kolxozda pambıqyığan, zavodda fəhlə olan cavanlarımız var ki, mən də onlardan biri.

— O vaxt mənə rast gəlsəydin, mən səni istədiyin ali məktəbə düzəldərdim.

Leyla xanım gözlərini dənizdən çəkib Aslana baxdı və kinayə ilə gülümsünərək:

— Hə, bilirəm, düzəldərdin. Sözdü də deyirsən. Onda sən mühafizəçilər əhatəsində işə gəlib-gedirdin. Sənin ayağın heç şəhərin küçələrinə dəyirdi ki. Sənin qəbuluna düşmək üçün yəqin aylarla sürünmək lazım idi. Bir də sən tanımadığın, bilmədiyin bir kimsəni heç qəbul elətdirərdinmi? — söylədi.

Aslan köks ötürdü:

— Düz sözə nə deyəsən.

— Deyirsən o vaxt mənə rast gəlsəydin… Bilirəm nə təhər düzəldərdin, Kəriməni düzəltdiyin kimi, hə?

Aslan çoxdan olmuş və çoxdan unutduğu o əhvalatı xatırlayıb yerində qurcuxdu, söhbətin bu səmtə hərlənib gəlməyinə nahaq imkan yaratdığına ürəyində peşiman oldu, özünü itirdiyindən, qızın ayrı şey deməsinin qarşısını almaq məqsədilə, tələsik söylədi:

— Mən ondan bir qəpik də almadım, inan.

— Nə alacaqdın ondan? Nəyi vardı ki, nə də alaydın? Pulu yox idi, qızılı yox idi. Ancaq əvəzində onun ən qiymətli mətahını — namusunu aldın əlindən, bəy. Yazıq yenə daxil olsaydı, dərd yarı idi.

— Məni onda üç aylıq Moskvaya ezam elədilər. Başım qarışdı.

— Sonra maraqlanmadın da ki, o biçarə qız necə oldu, başına nələr gəldi.

— Özü də yanıma gəlmədi sonralar.

— Niyə də gəlməliydi ki? O, sənə Allaha inanan kimi pənah gətirmişdi, sığınmışdı. Atası yerində idin sən onun. Mənliyini, heysiyyətini bir vəhşi kimi didib parçaladın, bədbəxt elədin, cibinə də bir az pul qoyub buraxdın taleyin ümidinə. Heç bilirsən o Kərimə indi hardadı, neyləyir?

— Yox. Vallah… — Aslan qızara-qızara yavaşdan söylədi: elə bil müttəhimlər kürsüsündə oturmuşdu. Leylanın gözlərinin içinə dik baxa bilmirdi.

— Şəhərdədi. Kəndə qayıda bilmədi, ailə qura bilmədi. İndi bir qoca arvadın evində kirayənişin yaşayır və demək olar ki, o da qaçqındır: qeydiyyata düşə bilmir, qeydiyyata düşə bilmədiyinə görə heç yerdə işə götürmürlər.

— Vay. Vay.

— Bəli. Yaxşı qanunlar qoymusuz, bəy. Adamı işə götürmürlər ki, qeydiyyatı yoxdur. Qeydiyyata isə götürmürlər ki, işləmir. Yəni bütövü kəsmə, paraya dəymə, ancaq doğra, doyunca ye.

— Bəs o necə dolanır görəsən?

— Necə dolanacaq? Bütün günü şəhərin bu küçələrində bu maşından düşüb o maşına minir, tanımadığı, üzünü bircə dəfə gördüyü, adını belə bilmədiyi adamların bir qarın yemək, bir cib xərcliyi müqabilində şəhvətlərini söndürməklə şikəst və nisgilli ömrünü yaşayır. Sən onu ildə, beş ildə bir dəfə də yadına salmırsan, amma o səni az qala hər gün yad eləyir.

— Doğrudan? — Aslan sevinc içində xəbər alanda, Leyla kinayə ilə gülümsündü:

— Yoxsa elə bilirsən səni çox istədiyindən xatırlayır Kərimə?

— Yox?

— Xeyr. O səni nifrətlə yad eləyir və söyür. Hər təhqir olunanda, hər alçaldılanda. Elə qarğışlar eləyir sənə, Allah, Allah, mən təəccüb eləyirəm ki, sən niyə indiyəcən salamat qalmısan? Niyə o qızın ah-naləsi səni yerlə-yeksan eləməyib indiyəcən? Görünür, tanrının səbri doğrudan da dərya qədərmiş.

Aslan oğurluq üstə tutulmuş uşaq kimi büzüşüb balacalaşdı:

— Nə bilim, vallah. Özü gəldi çıxdı qarşıma. Ölmüş çox da gözəl idi, tamah güc gəldi, keçə bilmədim. Bir iş idi də oldu. Hansı kişinin həyatında belə şeylər olmur?

— Məsələ bundadı ki, bir iş deyil, neçə-neçə belə işlərin olub, bəy. Və onların elə bircəciyinin üstündə səni və sənin kimiləri güllələmək olardı və lazım idi. Ancaq sən və sənə bənzərlərə qanunun əli çatmırdı, çünki qanunları yaradanlar da siz idiz, onları pozanlar da. Sizin — o əlçatmaz yuxarılarda oturanların hamısının da olmasa, mən cəsarətlə deyərdim, böyük əksəriyyətinin əli qanlı, vicdanı ləkəli, gözü kölgəlidi, inan. Mən hərdən, xüsusən bu son illərdə heyrət eləyirəm ki, siz bu millətin üzünə necə baxa bilirsiz, bu torpağın üstündə necə rahat gəzib yaşaya bilirsiz, ilahi? Yəqin sizləri yüz, min, on min, bəlkə də yüz min adamın içindən xüsusi olaraq axtarıb tapıblar, seçiblər, vəzifə başına gətiriblər. Siz…

Aslan daha dözə bilmirdi: Leylanın hər şeyi bilməyi, hələ üstəlik başqalarının gözünün içinə deyilməli sözləri də onun üzünə söyləməsi hövsələsini lap daraltmışdı; istəyirdi Leylanın sözünü kəssin, sərt bir şəkildə desin ki, bəsdi, bəsdi, məni az divara dirə, mən sənin üçün uşaq-zad deyiləm, müttəhim deyiləm, sən də hakim deyilsən. Bəsdi. İçərisində öz daxili qışqırığını eşidirdi, ancaq küt, anlaşılmaz, izah olunmaz bir qorxu bütün iradəsini, cəsarətini əlindən aldığına görə təpər tapıb sə-

sini çıxarammırdı. Yeganə çarəsi buna qaldı ki, söhbəti zarafatla dəyişsin:

— Hər halda o zaman sən mənə rast gəlsəydin, kömək eləyərdim və səninlə Kərimə kimi rəftar eləməzdim, Leyla xanım.

— Niyə ki? — Leyla qımışıb soruşdu və Aslanın qəlbindən keçirdiyini üzünə söylədi: — Mən onun kimi gözəl deyiləm, ona görə, hə?

— Yox, yox. — Aslan tələsik cavab verdi və səhvini malalamağa çalışdı: — Sən ondan qəşəngsən, Leyla xanım. O, sənin əlinə heç su tökməyə də yaramaz, inan.

Aslan gözləyirdi ki, bu xoş sözlər Leylanın canına yayılar, sevindirər. Hər necə olsa, qadındı, qadınların isə tərifdən xoşu gəlməyənini çətin tapmaq mümkündü. Öz təcrübəsindən bilirdi: ən kifir, ən idbar bir qadını da tərifləsən, bunun həqiqət olmadığını əlinin içi kimi bilsə də, inanır, xoşhallanır. Neynəmək olar, təbiət qadını da belə yaradıb.

Ancaq cəmi bir neçə saniyənin içində Aslan başa düşdü ki, Leyla o deyən qadınlardan deyil, çünki onun dediyi xoş sözlərdən nəinki kefi durulmadı, əksinə, bir az da tutuldu, qaşlarını çatıb incimiş halda:

— Məni ələ salmaq lazım deyil, Aslan — söylədi. — Mən özümün nə olduğumu hər kəsdən daha yaxşı bilirəm. Sənin bir bədbəxtliyin də odur ki, həmişə vicdansızcasına yalan danışmısan, Aslan. Yalanla isə dünyanı gəzmək olar, ancaq geri qayıtmaq olmaz.

— Qadın öz gözəlliyini görmür, qiymətləndirə bilmir, Leyla xanım. Qadının gözəlliyini ancaq kişi gözü qiymətləndirə bilər. Hər kişi də yox, mənim kimi görüb-götürmüş, qadın gözəlliyindən başı çıxan kişi.

Aslan pişik kimi arxasını yerə qoymaq istəmədi.

— Bir də ona görə sənə Kərimə kimi baxmazdım ki, sən hər şeyi bilirsən, adamın ürəyini oxuyursan. Əgər elə bir məqsədim olsaydı, sən məni o dəqiqə başa düşüb çox asanlıqla aradan çıxa bilərdin.

— Onda… onda mən belə deyildim, Aslan.

— Hə? Bu qabiliyyət səndə anadangəlmə deyil?

— Yox. — Leylanın baxışları son dərəcə ağır, dəhşətli, ürək göynədən bir hadisəni xatırlamış kimi dumanlandı: elə bil, kimsə onsuz da kədərli olan gözlərinə qəm çilədi. O, köks ötürüb söylədi:

— Ümid eləyirəm, yanvarın on doqquzundan iyirmisinə keçən o dəhşətli gecəni unutmamısan, doxsanıncı ilin yanvarını deyirəm.

Aslan söhbətin axarının yenə dəyişdiyini, onu neçə vaxtdan bəri səksəkədə saxlayan o hadisələrdən və maraqlandığı mətləblərdən uzaqlaşacaqlarını başa düşüb içində bir gərginlik hiss elədi, xırıltılı səslə söylədi:

— O elə gecədi ki, yaddan çıxmaz, Leyla xanım. — Və qorxu ilə müsahibinin gözlərinə baxdı. Qorxmağının səbəbi bu idi ki, yalan deyirdi, çünki o gecə haqqında yalnız danışılanda, radioda, televiziyada söhbət gedəndə, qəzetlərdə yazılanda həmin gecəni xatırlayırdı və mümkün qədər o söhbətlərdən qaçmağa çalışırdı. Digər tərəfdən də əslində o gecəni bütün dəhşətləriylə görməmişdi, nəinki görməmişdi, heç bir güllə səsi də eşitməmişdi. Çünki o gecə Moskvadan gələn qonağı ilə evdə oturmuşdular, yeyib-içmişdilər və Aslan o qədər içmişdi ki, axırda, saat on birə işləyəndə Leyla onu qonağın köməyilə demək olar ki, güclə sürüyüb yataq otağına aparmışdı: o yatan yatmış, bir də o biri gün saat ona işləyəndə oyanmışdı və ən maraqlısı bu idi ki, kefli-kefli durub Saşanı — qonağını öpməyindən sonra heç nəyi yadına sala bilmirdi. Leyla sərxoş-sərxoş nələr dediyini, nə hərəkətlər etdiyini ona danışanda Aslan matmat dayanıb üzünə tamaşa eləyirdi, «heç nə yadıma gəlmir». — deyir və kim bilir, neçənci dəfə bir daha bu qədər içməyəcəyinə söz verirdi.

Leyla xanım onun yanından burulub içəri keçəndə o da arxasınca otağa adladı. Leyla üşümüşdü, üzü bozarmış, əllərinin tükləri biz-biz olmuşdu. Birbaş aşağı ayaqda yanan qaz sobasının yanına keçdi, uzaqdan uçan təyyarə uğultusuna bənzər səs

çıxaran sobanın lap böyründə üşümüş əllərini ocaqda qızdırırmış kimi irəli tutdu. Bunu görən Aslan tez stəkana çay süzdü və gətirib divanın qabağındakı balaca jurnal stolunun üstə qoyaraq qonağını çaya dəvət elədi. Leyla heç bir söz demədən razılıq hissilə gəlib əyləşdi. Aslan güman edirdi ki, daha o söz yadından çıxdı Leylanın, bir də üstünə qayıtmaz o məşum deyilən gecənin. Lakin görünür, bu dəfə də səhv edirmiş Aslan: Leyla yerini rahatlayandan sonra:

— Düz deyirsən, Aslan, yaddan çıxan gecə deyil o gecə. Amma baxır o gecəni kim nəyə görə unuda bilmir və ya unuda bilməyəcək. Biri yaralandığına görə, biri qorxub sarılıq azarına tutulduğu üçün, o biri gördüyü dəhşətlərdən dəli olduğu üçün, bir qeyrisi yetmiş ilin qəflət yuxusundan ayıldığına görə, biri xilaskarımız saydığımız o əlləri də, dişləri də qana batmış cəllad ordunu öz doğma xalqını qanına qəltan eləmək üçün dəvət etdiyinə görə, biri də… — dedi və bura çatanda Aslanın düz gözlərinin içinə diqqətlə nəzər saldı: — biri də çıxıb televizor ekranlarından camaata yalan satıb: «Qoşun şəhərə girməyəcək» — deyərək xalqın başının altına yastıq qoyduğu üçün… unuda bilmir, bəy, o gecəni.

Aslan Leylanın axırıncı, xüsusi vurğu ilə dediyi, eyhamı açıq-aşkar hiss olunan sözlərini eşidəndə damağındakı siqaretinə dərin bir qüllab vurub ağzından buraxdığı tüstü pərdəsinin arxasında gizlənməyə çalışdı, sıxılıb balacalaşdı və nigarançılıq içində qadının üzünə baxıb daha nə deyəcəyini gözlədi. Leyla ağrılı yarasına qəfil toxunulmuş adam kimi qəribə bir səslə inildəyib divanda qurcalandı, çaydan bir qurtum içib sərt bir ədayla:

— O tarixi cinayətdə sənin də əlin qana batıb, bəy — söylədi.

— Mənim? — Aslan bu birbaşa həmlənin qabağında özünü itirsə də, təslim olmaq istəmədi.

— Niyə təəccüb eləyirsən? Bəli, sənin. Və mən yaxşı bilirəm ki, sən öz şəxsi dərdlərindən başqa, bir də məhz buna görə səksəkə içində yaşayırsan, qorxursan ki, indicə gəlib səni də aparacaqlar. Amma qorxma hələ. O faciənin müəlliflərinin,

«qəhrəmanları»nın hələ heç birini aparmayıblar. Nə Moskvada, nə Bakıda. Allah qarğa deyil ki, günahkarın gözünü o dəqiqə oyub ovuclarına töksün. İndi təəssüf ki, hələ elə oğul yoxdu gəlib sizin yaxanızdan tutub haqq divanının məhkəməsinə çəksin. Amma gələcək, o məhkəmə olacaq, bəy. Onda heç kəs, o cümlədən sən də yaxanı kənara çəkə bilməyəcəksən: onda o birilər kimi, sən də cavab verməli olacaqsan. Soruşacaqlar.

— Nə soruşacaqlar? — Çətin imtahana gedən fərsiz şagird, bilən yoldaşından verilə biləcək sualların heç olmasa birinə, ikisinə cavab axtarırmış kimi, çırpındı: — Nə soruşacaqlar məndən?

— Bilmirsən nə soruşacaqlar? Soruşacaqlar ki, cənab Aslan Büləndərli, sən və sənin bir neçə yoldaşın niyə Moskvadan gəlmiş o cəlladla mavi ekran qarşısına çıxıb xalqı aldadaraq deyirdiz ki, ordu şəhərə girməyəcək. Axı siz bilirdiniz ki, qoşun şəhərə girəcək. Hətta saatını da bilirdiniz, Aslan. O əcnəbi idi, qanı qanımızdan, canı canımızdan deyildi; o, yalan danışa bilərdi, aldada bilərdi: onların peşəsi tarix boyu aldatmaq, yalan danışmaq, dildə bir şey deyib, əməldə ayrı şey etmək olub. Bəs siz? Axı siz bu torpağın, bu millətin övladı idiz, siz niyə yalan danışırdız, bəy?

— Bizə dedilər belə deyin, biz də dedik. Biz oyunda kiçik adamlar idik.

— Oyunda iştirak eləyənin böyüyü-kiçiyi olmur, bəy. «Bizə dedilər belə deyin, biz də dedik». — Aslanın azca əvvəl dediyi sözləri o, kinayə ilə eynən təkrar elədi: — Bəs sizin öz vicdanınız, ağlınız, mənliyiniz hardaydı? Bir adamı, iki adamı bəlkə də aldatmaq olar, amma bir xalqı aldatmaq… Mən bilmirəm bunun üçün nə boyda vicdansız olmaq gərəkdi.

Qadın yüngülcə köks ötürüb sözə başladı.

— Biz yerimizdən-yurdumuzdan didərgin düşəndən sonra, mən kiçik qardaşımla Bakının Montin qəsəbəsində, xırda bir həyətdə, uzaq qohumumuz — atamın xalası oğlunun (Dəniz neft mədənlərində işləyirdi, ayda on beş gün dənizdə olurdu, on

beş gün isə istirahət edirdi) ikiotaqlı evində yaşayırdım. Balaca, xudmani bir həyət idi: düz ortalıqda bir tut ağacı vardı, ağacın altında isə bir su kranı çəkilmişdi. Çox dar, kiçik olmağına baxmayaraq, o həyətdə on iki ailə olurdu ki, onların yalnız ikisi azərbaycanlı ailəsi idi: qalanlarının səkkizi erməni, biri rus, o biri isə yəhudiydi. Teymur — qohumumuzun adı beləydi — elə ilk gündən bizi başa salmışdı ki, Ermənistandan köçürülənlərdən olmağımızı heç kəs, xüsusən erməni qonşular bilməsin. Bunun mənasını əvvəlcə başa düşməmişdim, ancaq sonra anladım: kişi ehtiyat edirmiş ki, bir hadisə-filan ola bilər. Biz də — bacı-qardaş — səsimizi də, dərdimizi də içimizə salıb sıxıla-sıxıla onsuz da darısqal olan bu mənzildə birtəhər yaşayırdıq. Bunu sənə demək artıqdı ki, mənim də, qardaşım Sahibin də ürəyi burada, gözümüzün qabağında dik-dik gəzən, mənzillərin yaxşısında yaşayan, çörəyimizi yeyən, havamızı udan, suyumuzu içən və kimsənin «gözün üstə qaşın var» demədiyi bu adamlara — ermənilərə qarşı qəzəblə, kinlə doluydu. Mən o balaca həyətdə hər dəfə bir ermənilə üz-üzə gələndə qanım sıçrayıb beynimə vururdu, istəyirdim yaralanmış pələng kimi üstünə atılıb dişimlə-dırnağımla didim-parçalayım. «Lənət şeytana» — deyib özümü güclə saxlayırdım. Su gətirməyə, şəhərə gəzməyə çıxmaq istəyəndə əvvəlcə pəncərədən baxırdım, onlardan heç kəsin çöldə-bucaqda olmadığını yəqinləşdirəndən sonra evdən çıxırdım — onlarla qabaq-qənşər gəlməyim deyə. Sahib də elə mənim günümdəydi. Əslində o, daha pis vəziyyətdəydi: dözə bilmirdi, uşaq olmağına baxmayaraq, canlı, boy-buxunluydu — qırıb çatardı hamısını bir saatın içində. Gec-tez əlindən bir xəta çıxacağı qorxusu gecə-gündüz məni tərk eləmirdi və elə hey Allaha yalvarırdım ki, bir şey eləməsin bu uşaq, tək heç yana buraxmırdım. Teymura deməmiş, əl altdan başqa bir sığınacaq axtarırdım, ancaq tapa bilmirdim. Sən təsəvvür elə, düşmən hesab elədiyin, görməyə gözün olmayan adamlarla hər gün ən azı üç-dörd dəfə rastlaşmaq necə də əzablı bir şeydi. Bunu sən başa düşməzsən, bəy. Bilirəm, bax, indicə sən ürəyindən keçirtdin ki, səni oradakı ermənilər incidiblər, qardaşını, sevdiyini, atanı

öldürüblər, evini yağmalayıblar, bunların nə günahı var axı? Yox, bəy. Sən və sənin kimilər səhv düşünürlər. İndiyəcən də bizimkilər yanlış fikirləşiblər. Beşinci ildə, on səkkizinci ildə, nə bilim daha sonralar, bizim yurdumuza su calayanlar, torpaqlarımızı qarış-qarış alanlar, günahsız körpələrimizi süngüyə keçirənlər, adamların kürəyinə yanar samovar bağlayanlar kim idilər? Onlar erməni deyildilərmi? Yoxsa yenə deyəcəksən ki, o ermənilərin bu ermənilərə nə dəxli var? Yox, bəy. Var, var. Aradakı uzun tarixi fasilə də onların əməllərinin üstündən xətt çəkib poza, dəyişə bilmir. Bilirsən niyə? Onlar öz uşaqlarına elə bələkdə ikən «Türk sənin düşmənindir, özünü türkdən qoru, ona heç vaxt inanma» — deyə layla çalırlar və o murdar hissi qan yaddaşına çevirirlər. O mərdlik, o ürəyiyumşaqlıq, o insaflılıq ki, bizdə, bizim millətdə var, onlarda yoxdu: uşağında da, cavanında da, qocasında da yoxdu, Aslan. Faşistlər bu qəddarlığı eləməyiblər, inan. İndi Ermənistan deyilən o xarabada — Allahın köməkliyi ilə tez bir zamanda yerlə-yeksan olacaq, baxarsan — öldürüb muzeyə qoymaq üçün belə, bir azərbaycanlı tapa bilməzsən: ucdantutma hamısını sürdülər və mən ilk dəfə onda sarsıldım, özümüzün acizliyimizə, miskinliyimizə, - bu söz nə qədər ağır və acı da olsa, - deyəcəyəm, qeyrətsizliyimizə baxıb yana-yana uşaq kimi hönkürdüm. Sahibsizliyimiz məni yandırdı, külə döndərdi. Qoyun sürüsü kimi qatdılar bizi qabaqlarına, ayaqyalın, başı açıq, varımızı-yoxumuzu götürməyə belə imkan vermədən öz doğma yerlərimizdən qovladılar bizi. Nə səsimizi eşidən oldu, nə fəryadımıza hay verən. Amma burda, şəhərin yaxşı, axar-baxarlı yerlərində, gözəl küçələrində cah-cəlallı evlərdə yaşayan ermənləri görəndə bu ağrım birəon artdı və düşündüm ki, ilahi, niyə biz bu qədər heysiyyətsiz, qeyrətsiz olmuşuq? Çünki başbilənlərimiz heysiyyətsiz olublar.

Nə isə… O həyətdə bir xarrat da yaşayırdı. Adı Qarik idi, familləri Muradyandı. Ailə böyük deyildi: özüydü, arvadıydı, orta məktəbdə oxuyan qızıydı və bir də Slavik adında bir oğluydu. Bu Slavik əsgərlikdən təzə gəlmişdi, hansı zavoddasa işləyirdi. Ucaboy, enlikürək bir oğlan idi. Həyət-bacada az-az

görünərdi — səhər tezdən gedərdi, axşam şər qarışandan sonra qayıdardı. Yalnız bazar günləri ev-eşikdə tapılardı: onda da küçə darvazasının qabağında məhəllə cavanlarını başına yığıb nəsə danışar, onları güldürərdi. Teymurun mənzilinin pəncərəsi küçəyə baxdığından onları çox vaxt elə ordan görür, elə ordan danışıqlarını eşidirdim. O uşaqların xeylisinin adını da öyrənmişdim. Hə, bax, bu Slavikin gözü deyəsən məni tutmuşdu, imkan düşəndə, qabaq-qənşər gələndə mənə çox diqqətlə baxır, nəsə demək istəyir, ancaq mən buna imkan vermirdim. İstirahət günləri evdə olanda gözlərini pəncərəmizdən çəkmirdi. «Ay sən öləsən, dığa köpək oğlu» — deyirdim ürəyimdə. Bizim dilimizi ana dili kimi bilirdi. Danışanda heç deməzdin ki, ermənidi. Mən də, orda, ermənilərin arasında yaşayanda o dili öyrənmişdim, danışığım erməni qızlarının danışığından seçilməzdi. Ancaq burda, həyətdə bir kəslə ermənicə danışmadığımdan heç kim bilmirdi ki, mən o dili başa düşürəm. Axşamçağılar həyətə, yeganə tut ağacının altına, su kranının başına yığışıb qarduqurdu eləyirdilər və bir çox söhbətlərini mən, su götürməyə gələndə, çirkli qab-qaşığı yuyanda eşidirdim və axşam Teymura danışırdım ki, filan-filan kəs köçməyə hazırlaşır, filankəs evini iki yüz minə satıb, bu gün-sabah gedəcək: konteyner gözləyir. Və günlərin birində elə gecəykən, həmin Slavikin ailəsi də harasa köçüb getdi. Bu, səksən doqquzun axırlarında olmuşdu. Hər erməni ailəsi köçüb getdikcə mənim ürəyimdə toy-bayram olurdu: ancaq məni bir şey yamanca yandırırdı — biz evlərimizi, mal-qaramızı, var-dövlətimizi quruluca qoyub gəlmişdik, daha doğrusu, götürməyə imkan da verməmişdilər.

Milisi, ispolkomu, raykomu durmuşdu başımızın üstündə, «haydı, tez, tez» — deyib tələsdirir, göz açmağa aman vermirdilər. Lakin onlar… burdan gedən ermənilər, bizim xoşqeyrətliyimiz üzündən arın-arxayın, rahat, hətta evlərini də satıb köçürdülər. Hətta bizim milis nəfərləri də dayanırdı yanlarında ki, birdən onlara «gözün üstə qaşın var» — deyən olar bizimkilərdən. Yox. Mən bilirəm: bunun mahiyyətini sən başa düşməzsən, Aslan. Bu, məni yandıran kimi, səni yandırmaz. Çünki

sən torpağını qoyub gəlməyibsən, evini-eşiyini qoyub gəlməyibsən ki. Səni təhqir etməyiblər ki. Orada, bizim Həsənağa adlı bir qonşumuz vardı. Səkkiz qız atasıydı. Böyüyünün on səkkiz yaşı hələ tamam olmamışdı: su sonası kimi bir gözəl idi ki, yemə, içmə, otur xətti-xalına, gül camalına tamaşa elə. Bütün kənd qızlarının gözüydü Meyxoş. O qədər istəyəni vardı ki. Ancaq Həsənağa vermirdi hələ, deyirdi uşaqdı. Arvadı da ölmüşdü deyə kişi onu vermək istəmirdi ki, balaca bacılarını da bir yana çıxara bilsin Meyxoş. Ancaq… deyir, sən saydığını say, gör fələk nə sayır. Həmin o köçhaköç günündən bir gün qabaq, gecə yarıdan keçmiş, erməni dığaları Həsənağanın evinə soxulmuş, kişini elə alt tuman-köynəkdə tutub əl-qolunu bağlamış, elə gözünün qabağındaca Meyxoşu… zorlamışdılar. Bundan heç kəsin xəbəri olmamışdı, çünki dığalar o biri qızları evə salıb qapını da çöldən kilidləyiblərmiş. Onlar gedəndən sonra, bir təhər əl-qolunu açan kişi, başına hava gəlmişdimi, sarsılmışdımı, bilmirəm, damda gizlədiyi ov tüfəngini götürüb, döşəmədə yarıçılpaq halda çabalayan, hələ də özünə gəlməmiş biçarə Meyxoşu — öz doğma ciyərparasını güllələmişdi. Qonum-qonşu onun atdığı güllə səsinə qaçıb həyətə girəndə Meyxoş artıq canını tapşırmışdı və Həsənağa əlində tüfəng, ora-bura qaçaraq, dəli kimi qışqırır və ağlayaraq: «Meyxoşum özü dedi məni öldür, özü dedi, özü» dedi. Mən onda, ömrümdə birinci dəfəydi ki, dəli olmuş adam görürdüm və bu elə bir mənzərə idi ki, innən belə min il də yaşasam, yadımdan çıxmaz, heç cür unuda bilmirəm. Hətta üç gün sonra, meşədə, ağacların arasında şaxtanın şiddətindən gözümüzün qabağında ağaca dönən atamın faciəsi də — nə qədər qəribə görünsə də — mənə elə pis təsir etməmişdi. Bəlkə ona görə idi ki, onda artıq Meyxoşun müsibətini görmüşdüm, sarsılıb keyləşmişdim?!

İndi həmin Həsənağa kişi — çox sevdiyi anası kimi, körpəsi kimi əzizlədiyi balasını öz əlilə qətlə yetirən adam, yeddi başsız uşağını sahibsiz buraxıb Maştağa dəlixanasında yatır. Daha doğrusu yatmır, yatızdırırlar: saxlaya bilmədiklərindən, qaçıb daha başqa bir fəlakət törətməsindən qorxduqlarından, həkimlər

onu zəncirdə saxlayırlar orda. Camaatımızdan — yanına gedib gələnlərdən eşitmişəm ki, Həsənağa kişi — bu gün-sabahlıqdır, öləcək və bir də heç vaxt balalarının üzünü görə bilməyəcək.

Leylanın bu uzun və onun üçün çox maraqsız görünən söhbətinə candərdi qulaq asan Aslan, yerində qurcuxub Həsənağanın faciəsinə acıyırmış kimi:

— Orda baş həkim mənim tanışımdır, Leyla xanım. — söylədi: — Bəlkə…

Leyla xanım gözlərini ani olaraq yumub sonra açaraq:

— Eh, neynəyəcək baş həkim? — dedi, mənalı-mənalı qımışdı: — Əgər ağıllı adamı dəli eləməkdən söhbət getsəydi, siz bunu məharətlə bacarardınız, Aslan bəy. Amma dəlini ağıllandırmağa sənin də, sənin baş həkim dostunun da gücü çatmaz.

— Elə hey sancırsız məni, Leyla xanım — dedi Aslan. — Səndən olsa, dünyanın bütün bəd işlərini, pis əməllərini yığıb mənim boynuma qoyarsan, yenə ürəyin soyumaz. — Aslanın səsindəki incikliyi Leyla duymaya bilməzdi. Duymuşdu, ona görə də səsinin ahəngini bir az yumşaldıb:

— Düz deyirsən, bəy. Məni də qınama. Sənin dediyin bu bəd əməllərdə əsl günahkar olan adamlar əlimə keçmir ki, deyəm, ürəyimi boşaldam. Onların arasından taleyin hökmü ilə sən düşmüsən əlimə, ona görə sənə deyirəm və sən nə qədər özünü yuyub pambıq üstünə qoymağa çalışsan da, bilirəm və sən özün də yaxşıca bilirsən ki, sən də günahsız deyilsən, bəy. Günahın isə böyüyü, balacası yoxdu. Onun üçün sən məndən inciməməlisən. Bu sözləri sənə deyirəm, elə bilirəm hamıya deyirəm. Və bunu da bil ki, tək mən demirəm bu sözləri sənə, sizə, onlara. İndi az-çox ağlı başında olan, həyatı, siyasəti az-maz bilən, düşüncəli, qabiliyyətli hər kəsin ürəyini deşən sözlərdi bu sözlər. Kimə deyək, hara deyək, necə deyək? Yoxdu belə bir yer, belə bir tribuna, Aslan. Və elə bir oğul da yoxdur ki, sizin hamınızın qolunu qandallayıb bir damın altına yığa, müttəhimlər kürsüsündə oturda və bir-bir əməllərinizi, xəyanətlərinizi üzünüzə, gözünüzün içinə oxuya, hər kəsə günahına görə cəzasını verə və

bu öz-özünə danışmaqdan az qala dəli olmaq dərəcsinə gəlmiş xalqın ürəyini soyuda. Hələ ki, yoxdu elə bir oğul.

Aslan daha heç nə deməyib siqaretini yandırdı, öskürdü. Leyla da nəfəsini dərib bir an fikrə getdi, harada qaldığını xatırlamaq istədi, ancaq yadına sala bilməyib sual dolu baxışlarını Aslanın üzünə zillədikdə Aslan onu başa düşdü:

— Həsənağadan danışırdın, Leyla xanım.

Leyla qımışdı:

— Həsənağa elə birdən yadıma düşdü. Mən ayrı şeydən danışırdım, söz-sözü çəkdi, mətləbdən uzaqlaşdım. Vaxt o vaxt idi ki, mitinqlər, nümayişlər şəhəri ağzına alıb gedirdi. Xəstələr də, qocalar da, uşaqlar da axışıb meydana tökülürdü az qala hər gün. Hamının canına bir mitinq xəstəliyi yoluxmuşdu elə bil. Harada bir yığıncaq olurdu, mən ordaydım. Artıq özümü haqq deyib hayqıran kütlənin ayrılmaz bir zərrəsi hesab edirdim. Sahib də məndən geri qalmırdı. İmperiyanı da söyürdük, sizi də, Aslan. Siz onda, o gərgin günlərdə yayda sərin, qışda isti kabinetlərinizdən çıxmırdınız. Qorxurduz. Qorxmaya da bilməzdiniz. Moskvanın zənbilnən gətirib bir-iki saatın içində bu xalqın, bu torpağın BİRİNCİSİ elədiyi adam qaynar qazanın içinə atılmış kimi, çaşıb qalmışdı, odla su arasındaydı: yuxarı baxırdı — bığdı, aşağı baxırdı — saqqal. Yuxarıda Moskvaydı, aşağıda öz xalqı. Bilmirdi hansını tutsun. Hansını tuturdu, əli yanırdı. Meydan isə kükrəyirdi, onu ortalığa çıxmağa çağırırdı.

Camaat hələ onda inamını tamam itirməmişdi, yatsaydı, heç kəs yuxusunda da görə bilməzdi ki, çörəyimizi yeyən, tankları benzinimizlə işləyən o vəhşi qaniçənlər bir az sonra bizi — əliyalın camaatı güllələbarana tutacaqlar.

Mən yolun qırağında, səkinin üstündə, küknar ağacının dibində dayanmışdım. Doğrusu, ac idim, ürəyim sıyrılırdı. Üstəlik əynim-başım da nazik idi, üşüyürdüm, içəridə ürəyim yarpaq kimi əsirdi. Ancaq nə aclıq, nə soyuq eynimə deyildi. Barrikadanın o tərəfində dayanmış əsgərlərin, hərbi texnikanın arasından heç bilmək olmurdu ki, kimdi ucadandanışanla nə isə deyən, təhlil eləyən, dağılışmağımızı tələb eləyən. Lakin daha adamları bura-

dan qopara biləcək bir qüvvə yox idi: heç kəs onun dediklərinə məhəl qoymurdu. Saat on ikinin yarısında bir tank — barrikadanın o tərəfində ertədən dayanıb lüləsini də «Qızıl ordu» heykəlinə tuşlamış qırx üç nömrəli tank hərəkətə gəldi, nərildəyə-nərildəyə, ancaq asta sürətlə bizə tərəf yeridi. Məndən azca aralı, sement-beton dirəyin başındakı neon lampası dövrəmizi yaxşı işıqlandırdığından, adamların üzünü də, gələn tankın tırtıllarını da aydın görə bilirdim. O nəhəng ölüm maşını tuşumuza çatar-çatmaz — əmrmi verdilər, xarabmı oldu — bilmirəm — yerindəcə silkələnib dayandı: tankın yuxarı qapısı — lük deyirlər — başım çıxmır — açıldı və saçları çiyninə tökülmüş, başında furajka olan bir adam dikəlib ətrafa boylandı. Üzünü bəri, bizə sarı çevirəndə… dondum. Ay allah, bu ki, bizim qonşu Slavikdi. Hə, odur, özüdür ki, var. Birdən nədənsə az qala hər şeyi unudaraq, qeyri-iradi: «Slavik, sən orda neynirsən?» qışqırmaq istədim, ancaq nagahan içimdən qopan o səs dişlərimə, dodaqlarıma ilişib ağzımdaca öldü. Əsməcə tutdu məni. Qabağımda dayanmış ucaboy adamın çiyinləri üstündən ona yaxşı baxa bilmədiyim üçün, pəncələrim üstə qalxıb diqqətlə fikir verdim Slavikə. Kökəlmişdi, çiyinlərinə düşən sarı saçları rəngində saqqal da saxlamışdı. Gözü-başı qaynayan — nəşəmi çəkmişdi, araqmı içmişdi — Slavik ətrafa nəzər salanda — elə bil adamların arasında kimisə axtarırdı — birdən gözləri məni aldı: gördüyünə inanmırmış kimi, fikrini cəmləyib bir də baxdı: yox, səhv etmirdi. Bu, mən idim, onun qonşuluğunda yaşayan qız idim. Sanki özünü itirdi, nə düşündüsə, təhlükəli bir şey hiss eləmiş tısbağa kimi, tez başını o dəmir qınına — tankının içinə çəkdi, lük örtüldü. Yan-yörəmə nəzər saldım, böyrümdə bayaqdan dayanıb elə hey siqaret çəkən silindirli kişiyə yavaşcadan dedim:

— Tankın içindəki bizim qonşumuz idi.

— Hə? Qonşunuz? Ola bilməz, canım.

— Necə ola bilməz? Deyirəm o idi də. Slavikdi adı. Slavik Muradyan.

— Ermənidi?

— Hə.

Ağzında, dodaqları arasında tutduğu, bəlkə də yadından çıxartdığı sönmüş siqaretin kötüyünü yerə atıb:

— Onda işlər pisdi, qızım. Əgər bura, bizim üstümüzə erməni göndəriblərsə, qıracaqlar bu xalqı. Tfu. Köpəy uşağı. Qəsdən belə eləyiblər. Yanvarın on üçünün, on dördünün qanını almaq üçün belə eləyiblər. Yaxşı bilirlər ki, kim də bizə rəhm eləsə, onlar rəhm eləməyəcəklər. — Kişinin sağ yanağı səyriməyə başladı və daha bir kəlmə də danışmadı. Başım tanka baxmağa qarışdığından, bəlkə Slavikin bir də başını öz «yuvası»ndan çıxaracağını gözlədiyimdən, şlyapalı adamın nə zaman yanımdan yoxa çıxdığını bilmədim. Onda gördüm ki, onun yerində bəstəboy bir qız dayanıb, ağlayır. Qıza da fikir vermədim. Çünki fikrimzikrim Slavikin yanındaydı. Deməli, belə. Slavik doğulduğu, böyüdüyü şəhərin üstünə tankla gəlib. Bax, budu ermənin siması, bəy. Həmin o dəhşətli gecə Slavik, öz yoldaşlarına qoşulub Bakıda nə qırğınlar elədi, neçə adamı qətlə yetirdi, bir Allah bilir.

Bir azdan sonra Slavikin tankı nərilti qopararaq üzü aşağı getdi — ayağımın altında yerin titrədiyini hiss elədim.

Saat düz on ikidə atışma başladı. Yox, buna atışma demək doğru deyil, bəy. Atışma odu ki, hər iki tərəf atır. Axı bizdə nə vardı ki, nə də ataydıq? Bəli, onlar – barrikadanın o tərəfində durmuş əsgərlər atmağa başladılar. Meydana çaxnaşma düşdü. Kimsə qışqırdı: «Qorxmayın, boş güllələrdi, yalandan havaya atırlar». Bir başqa kişi səsi hayqırdı: «Yatın yerə». Qaçan qaçdı, qaçmayan torpağa sindi. Mən də ağacın dibində uzandım. Yerim asfaltın üstünə uzananların yerinə nisbətən bir az hündür idi və atanları, ata-ata irəli gələnləri aydın görürdüm. Biçə-biçə irəliləyirdilər. İki nəfər cavan oğlan, görünür, dözə bilməyib qalxdı və qaçmaq istəyəndə arxadan vurdular. Biri qışqırıb yerə sərildi, o birinin isə səsi də çıxmadı, sanki bir anlığa havada dondu, nədənsə tutmaq istəyirmiş kimi, əllərini o tərəf-bu tərəfə atmaq istədi və kökü kəsilmiş ağac kimi kiminsə üstünə sərildi. Məndən azca aralı bir oğlan uzanmışdı, tərpənib eləmirdi.

Birdən onun başı tərəfdən nazik qan şırnağının mənə tərəf axdığını görəndə… hər şey mənə əyan oldu. Yalan deyirmişlər: güllələr boş deyilmiş, doğruçu güllələr imiş. Dəli kimi nə edəcəyimi bilmədim. Əlimi qeyri-iradi üstümə axıb gələn şırnağa sarı uzatdım: yox, qan idi bu. Yavaşca oğlanı səslədim: «Ay qardaş, ay qardaş». Cavab gəlmədikdə yerimdən sıçrayıb qaçmaq istədim. Ancaq elə bu an… başımın üstündən aydın, təmkinlə deyilmiş bu sözləri eşitdim: «Durma, qızım. Qətiyyən tərpənmə, yoxsa səni də öldürərlər. Qorxma, övladım. Mən həmişə sənin yanında olacağam, səni himayə edəcəyəm. Sən mənim sözlərimə qulaq as və əməl elə, övladım».

Mən nəm və soyuq torpağın üstündə əsim-əsim əsirdim, qan görüb qorxmuşdum. Mənə elə gəlirdi ki, artıq ağlım çaşıb: bura niyə gəlmişəm, bu camaat niyə belə bu soyuq torpağın üstünə sərilib, o atılan güllələr kimə və nəyə atılır? Heç nə dərk eləyə bilmirdim. Üstəlik də o səs. Axı başım üstə dayanıb o sözləri mənə deyən kim idi? Marağımı saxlaya bilməyib, başımı azca yana tərpətdim, çəpəki yuxarı baxdım ki, bu kimdi? Başım üstə heç kəs yox idi. «Məni qara basır» — dedim ürəyimdə. Ağlamaq istəyirdim ki, yenə o səs başımın üstdən eşidildi. «Yox, övladım, səni qara basmır. Mən həqiqətəm, mən varam, mən burdayam: sən məni görmürsən, mən isə səni görürəm, övladım. İkinci dəfə o gözəgörünməz vücudun o arxayın və təmkinli səsini eşidəndə elə bil ki, bütün bədənimə qəribə bir arxayınlıq, rahatlıq axıb doldu və mən başımı yenidən torpağın üstünə qoyduqda nədənsə mənə elə gəldi, yer isinib sanki.

Meydana, küçəyə ötəri bir quş baxışı saldım: adamlar hərəkətsiz, səssiz-səmirsiz uzanmışdılar. Çox idilər: əllimi, yüzmü, daha çoxmu… deyə bilmərəm. Dinşədim. Ordan-burdan inilti səsləri eşidilirdi: «Yaralıdılar yazıqlar» — düşündüm. Azmı keçdi, çoxmu keçdi — vaxt məfhumu daha yox idi mənim üçün — güllə səsləri səngidi, havanı qatı bir barıt qoxusu və duman bürümüşdü. Araya ölü bir sükut çökdü. Az sonra, barıt dumanı çəkilib seyrələn kimi, hardansa — saydım — düz on iki nəfər əli avtomatlı əsgər küçəyə sərilmiş adamların arasında

göründü: onlar addımlarını iri-iri ataraq, bəzən kiminsə üstündən hoppanaraq ora-bura baxır, nəsə deyir, danışırdılar. Qabaqda gələn ucaboylu əsgər bərkdən qışqırdı: «Yest ranennıe?» Onun lap yaxınlığından, demək olar ki, iki addımlıqdan bir baş qalxdı və zarıltılı səslə: «Pomaqite, pomaqite, tovariş, umirayu» — söylədi. Əsgər ayaq saxlayıb səs gələn səmtə çöndü, avtomatını zorla qalxmış başa tərəf tuşlayıb atəş açdı. Uzaqdan güclə gördüyüm baş axıb yanındakı adamın üstünə düşdü. Sonra iki-üç yerdən də: «Pomaqite» — deyən səs eşitdim və səs gələn tərəfə əli avtomatlı adamların sakitcə atəş açdıqlarını öz gözümlə görüb, necə deyərlər, sarımı uddum. O əsgərlər on dəqiqəyə qədər yerə sərilmiş o zavallıların arasında dolaşdılar və yaralı olan, can verən, yaşamaq istəyən günahsız adamları güllələdilər. İlahi, necə qəddar imiş bunlar, necə rəhmsiz imişlər? Hələ heç nə anlaya bilmirdim, bunun nə demək olduğunu başa düşmürdüm. Key kimi torpağa yapışmışdım.

Sonra yenə araya nisbi bir sakitlik çökdü. İşlərini görüb qurtarmış əsgərlər bir yerə toplaşdılar, siqaret yandırdılar və nə isə danışmağa başladılar. Elə bu zaman arxadan (orada — o arxada nə qədər əsgər varmış) — yenə əli avtomatlı bir dəstə çıxdı və təzədən açılan güllə səsləri yaranmış ani sükutu pozdu. Görəsən indi kimə atəş açırdılar, ay Allah? Baxdım: indi təzə gələnlər, əvvəl gəlib yaralıları öldürmüş əsgərləri biçirdilər. Vay Allah, özləri özlərini qırırdılar bu qansızlar. Heç nə anlamırdım. Amma üstündən günlər keçəndən, özümə gələndən, gördüklərimin yuxu yox, həqiqət olduğunu dərk edəndən sonra hər şeyi başa düşdüm: onlar bunu ona görə edirmişlər ki, sabah haqq-hesab çəkilmək məqamı gələndə bizi — bu əliyalın camaatı günahlandıra bilsinlər: guya bu indi öldürülmüş əsgərləri biz — barrikadada dayanmış əli silahsız adamlar qırmışıq və onlar da məcbur olub atəş açıblar və bizdən də filan qədər adam ölübdür. Sən məkrə, hiyləyə baxırsanmı, bəy? Bu heç şeytan oğlu şeytanın da ağlına gəlməzdi. Demək, hər şey əvvəlcədən qurulub qoşulubmuş, düşünülübmüş.

« — Camaat necə də hər şeyi bilir ey, pah atonnan» — deyə Aslan ürəyindən keçirtdi və bunu o dəqiqə Leylanın hiss edib biləcəyini düşünərək günahkar kimi onun sifətinə baxdıqda gördü ki, Leyla bir anlığa duruxdu, nə isə demək istəyən kimi Aslana diqqət yetirdi, ancaq deyəsən üzünə gəlmək istəməyib sözünə davam elədi:

— Sonra, bir xeyli keçmiş, iri yük maşını gəldi, üstü örtülüydü maşının. Yerdəki, bayaq öz əsgər yoldaşlarını gülləbarana tutmuş əsgərlər uzanmış, yəqin ki, ölmüş hesab etdikləri adamların əlindən-ayağından tutaraq maşına atmağa başladılar: elə bil insan yox, taxta, daş, nə bilim un kisəsi atırdılar. Heç kəsi qoymurdular qala. Küçəni, meydanı cəsədlərdən təmizləyə-təmizləyə mənə sarı yaxınlaşırdılar. Çaşmışdım. Durub qaçımmı ya…? Hər nə olacaq, qoy olsun: qaçacağam. Elə bu qərara gəlmişdim ki, bu zaman həmin bayaqkı səs yenə eşidildi: «Yox, övladım. Tərpənmə, nəfəsini belə gizlə. Diri olduğunu bilsələr, o birilər kimi səni də öldürəcəklər. Özünü ölmüşlüyə vur. Qorxma». İlahi, sən özün kömək ol — deyib o gözəgörünməz kişinin söylədiyi kimi qımıldanmadan yerimdəcə qalıb gözləməyə başladım. Nəhayət, mənim də növbəm çatdı. İki əsgər əllərimdən, ayaqlarımdan yapışıb məni də maşının içinə atdılar. Yalnız onda — ucaboy əsgər ayaqlarımı tutanda hiss elədim ki, topuğuma güllə dəyib. Sadəcə, istiymiş, bilmirmişəm. Ağrıtsa da, çınqırımı da çıxartmadım, canımı dişimə tutub dözdüm. Üstümə beş-altı meyid də atdılar. Bədənim heç, bədənimdən əlimi üzmüşdüm, çalışırdım ki, təkcə başım çöldə qalsın, nəfəsim daralmasın. Deyəsən, daha yerdə kimsənin qalmadığını görüb, maşının dal taxtasını bağladılar. Kiminsə — bu, yəqin komandir olardı — dediyi bu sözü aydınca eşitdim: «K moryu». Tüklərim biz-biz oldu. Deməli, bizi — yəni bu meyidləri dənizə tökməyə aparırdılar. Qışın o vədəsində quruca dəniz sözünü eşitməyim bütün vücudumu titrətdi. Dişlərim bir-birinə dəyib şaqqıldayırdı. Maşın hərəkətə gəlib yola düşdü: hardan, hansı küçələrdən keçdi, deyə bilmərəm. Çünki o zaman mən şəhəri hələ yaxşı tanımırdım. Sinəmin üstünə bir

qadın cəsədi düşmüşdü: saçları üzümə toxunurdu, başından axan qan pencəyimi islatmışdı. Yavaş-yavaş gözlərimi açdım, qadının meyidini çiynimlə azca yana itələdim. Kuzada əsgər-zad yox idi: yəqin hamımızı ölmüş bilib keşikçi qoymamışdılar.

Qaçmaq. Nəyin bahasına olursa-olsun, qaçmaq. Mən üzə bilmirdim: dənizə atandan sonra mənim oradan üzüb çıxmaq imkanım olmayacaqdı və ümumiyyətlə, bu, mümkün olan şey idimi? Bayaqdan hiss eləmişdim ki, döngələrdə maşının sürəti azalır və mən elə bir məqam seçməliydim ki, özümü yerə ata bilim. Üstümə atılmış meyidlərin arasından bir təhər dartınıb çıxdım. Ya nəsib, ya qismət. Görsələr öldürəcəklər, görməsələr… bəlkə xilas oldum. Yenə o nagahani səsi eşitdim: «Hə, qızım. Məqamdır. Atıl maşından».

Elə bil mənə güc gəldi, ayağımın ağrısını da unutdum. Qalxıb maşın hansı döngədəsə yavaşıyanda özümü bir təhər maşından yerə atdım, üzü üstə düşüb qalmadım: yel — maşının yeli məni xeyli asfalt üstündə sürüdü. Şükr Allaha, küçədə heç kəs yoxdu. Şükr Allaha, məni kimsə görmədi. Və maşın o biri döngədən keçib görünməz olanda mən bir təhər ayağa qalxıb axsaya-axsaya seyrək ağaclı bir bağa girdim. Sonralar başa düşdüm ki, o bağ «İyirmi altılar» bağıymış.

Leyla bura çatanda susdu, sanki danışmaqdan yorulmuşdu: gözlərini yumub elə bil yatdı bir anın içində. Doğrudanmı yatmışdı, ya xəyala dalmışdımı — Aslan bunu müəyyən edə bilmirdi. Onun yorğun, əzablar yazılmış sifətinə, ucları az qala yanaqlarını öpən uzun kipriklərinə, asta-asta enib-qalxan sinəsinə tamaşa elədi.

Leyla gözlərini açıb fikirli-fikirli yuxudan ayılmış adam kimi:

— Bəli, Aslan bəy. — dedi. — O gecə o günahsız qırılmış, gülləbaran edilmiş o adamları — neçə nəfər idi, Allah bilir — aparıb dənizə tökdülər və onların — heç vaxt qəbirləri olmayacaq, el adətincə dəfn olunmayan o adamlar bizim ilk şəhidlərimizdi. Dünyanın heç yerində dəniz qəbristanlığı yoxdu, amma bizim dənizimiz də qəbristanlıqdı, aman Allah!

— Hə, — söylədi Aslan. — Bilirəm, Leyla xanım. Ancaq bu hadisələrin, bu danışdıqlarının sənə vergi verilməsi ilə nə əlaqəsi olduğunu yenə başa düşə bilmədim. O kişi sonra yenə sənin yanına gəldimi, Leyla xanım?

— Hansı kişi?

— O da… Sənə məsləhət verən kişini deyirəm.

Leyla baxışlarını ondan ayırıb kənara — sağ tərəfə baxdı və sakit bir səslə cavab verdi:

— O elə indi də burdadı, bəy.

Aslan üşürgələndi, vücudundan soyuq bir gizilti keçdi, səksəkə içində ətrafa baxındı, kimsəni görməyib çaşqın halda çiyinlərini çəkdi:

— Heç nə başa düşə bilmirəm. Əgər burdadısa, hanı bəs?

— O burdadı. Ancaq sən onu görə bilməzsən, Aslan. O hər adamın gözünə görünməz.

— Sən məni lap qorxudursan, Leyla xanım.

— Yox, qorxma. Sən onu görməsən də, tanımasan da, o, səni yaxşı tanıyır: sənin keçmişini də, indini də, gələcəyini də çox gözəl bilir. Ona görə qorxmağına dəyməz.

Araya yenə hövsələ daraldan bir sükut çökdü. Aslanın qəlbi sıxıldı, nə edəcəyini, durduğu yerdə işə düşmüş adam kimi nə deyəcəyini bilməyərək qalxıb təzədən çaydanı elektrik pilətəsinin üstünə qoydu, siqaretini götürüb yandırdı və eyvana çıxdı. Leyla onun dalınca baxıb: «Getdi mənə uduzduğu pulları gətirsin. Eybi yox, qoy gətirsin» — deyə düşündü.

Çaydan cızıldamağa başlayanda Aslan damağında siqaret geri qayıtdı: Leylaya baxıb qımışdı, çiyninə saldığı pencəyinin yan cibindən nəsə çıxara-çıxara ona doğru gəldi: nədisə, qəzetə bükülmüşdü, gülə-gülə soruşdu:

— Vallah, yoxlamaq üçün xəbər almıram ha, Leyla xanım. Elə-belə, interes üçün xəbər alıram. Bu nədi, Leyla xanım?

Leyla xanım gülümsündü:

— Puldu, Aslan. Uduzduğun on min manatdı.

— Yaxşı, de görüm neçəlikdi bu pullar?

— Yüzlüklərdi, Aslan.

— Düzdü, hamısı yüzlükdü. — Aslan bir az heyrət, bir az sevinc içində, həm də özünün sözünə düz olduğunu nümayiş etdirdiyini gizləməyərək qəzeti cırıb kənara atdı, rezin halqanın içinə salınmış pul bəndürümünü ərklə Leylanın dizlərinin üstünə tulladı. Leyla pula gözünün ucuyla da baxmadı, sakit, lakin amiranə bir tərzdə dedi:

— Gəl götür bu pulları, Aslan.

— Niyə? — Aslanın qaşları alnının ortasına qalxdı.

— Əvvəl gəl götür. Gəl, gəl.

Aslan bir anlığa susub onun üzünə diqqət yetirdi, bu sözləri ciddiyyətlə söylədiyini yəqin edib irəli gələrək əyilib pulu dizinin üstündən götürdü:

— Axı… axı mən sənə uduzmuşam, Leyla xanım. Niyə qaytarırsan?

— Yox, qaytarmıram, Aslan. O pullar indi artıq mənimdi.

— Bə onda mənə niyə verirsən bunları?

— Sənə vermirəm. O pulları birinci gün şəhərə gedəndə özünlə apararsan, gedərsən bir baş Müdafiə Nazirliyinə, özün də getməsən — bilirəm özün getməyəcəksən — bir adamdan göndərərsən, mənim adımdan fonda keçirsin, kağızını da alıb gətirərsən mənə. Yaxşımı?

— Yax…şı.

— Sənin özünə qalsa, o fonda bir qara qəpik də verən deyilsən. Halbuki bu pullar elə xalqındı, amma siz xalqın cibindən oğurladığınız bu milyonların bir manatını da onun dar günündə xərcləməyə qıymırsız. Tək sən belə deyilsən, sənin tayların da, ətrafında olanlar da belədi, bəy. Qıyımsızsınız hamınız. Ona görə də bu pullar sizin özünüzə qismət olmayacaq.

— Mən deyirdim bu pulu sən götürərsən, özünə pal-paltar alarsan. Qabaqdan əli qılınclı qış gəlir. Əynin-başın yuxadı. Sən isə deyirsən apar ver müdafiə fonduna. Elə bilirsən Müdafiə fondunun pulu azdı? Xalq milyardlar verir o fonda.

— Xalq verir, amma siz vermirsiz, bəy. Çox adam tanıyıram ki, kasıbdı, özünün, uşağının boğazından, əynindən kəsir, aparır verir fonda, təki o əclaf ermənilərin belini tez qırsınlar, qələbə tez gəlsin.

Aslan qımışdı:

— Sən elə bilirsən qələbə tez gələcək? Yox, Leyla xanım. Bu xəmir hələ çox su aparacaq. Bizim camaatın avamlığı məni dəli eləyir, vallah. Siz elə bilirsiz bu erməni-müsəlman davasıdı? Yox, Leyla xanım. Burda məsələ daha dərindi. Erməni kimdi? Ermənin dalında dayanan qüvvələr var: onu silahnan, valyutaynan təmin edənlər var.

— Onlara da kömək eləyən sizin kimi adamlarımız var bizim. Bəs bunu niyə demirsən? Xalq onu da bilir, bunu da bilir. Sən bu camaatı nahaq avam hesab eləyirsən, bəy.

— Nə isə, bu, uzun söhbətdi və onu biz — sən və mən həll edən deyilik, Leyla xanım. — O, əlindəki pullara baxdı: — Bəlkə bunu qoyasan cibinə, Leyla xanım. Xərclərsən. Müdafiə fondu sənin on min manatınsız da keçinər.

— Yox, yox. Aparacaqsan, Aslan. Mən onu da bilirəm ki, orda da sizin kimi tamah dişi Əlinin qılıncından da iti olan adamlar oturublar, o pulları oğurluyurlar, yeyirlər. Ancaq ona da inan ki, xalqın boğazından kəsib verdiyi o pulları yeyənlər qan qusacaqlar, hamısı burunlarından gələcək. Vallah, gələcək. Xalqa olunan zülm heç vaxt yerdə qalmayıb, bu zülm də yerdə qalmayacaq. Bir gün ifşa olunacaqlar və camaat onların murdar üzünə tüpürəcəklər. Sən buna öz varlığın kimi inan.

O ki, qaldı mənim əyin-başıma, buna diqqət yetirdiyin üçün çox sağ ol, Aslan. Bir təhər keçinərəm.

— Səndə ki, bu qabiliyyət, bu istedad var, başqası sənin yerinə olsaydı, indi çoxdan milyoner olmuşdu. Sən niyə bundan istifadə eləmirsən axı.

— Deyirsən yəni mən də başqaları kimi falçılıq eləyim, camaatın inamından istifadə edib pul qazanım, hə?

— Hə də. İndi belələri çoxdu, Leyla xanım. Mən sınamışam, adamlar göndərmişəm o adları çıxmış falçıların yanına, baxsınlar, mənə düz bir söz desinlər. Amma nəticəsi-zadı olmayıb. Hamısı yalan danışır. Pulu alırlar, ancaq yalan danışırlar. Sənsə yalan demirsən, Leyla. Bayaqdan — biz tanış olandan bəri yoxlamışam, nə deyibsən, başdan-ayağa düz çıxır. Ona görə sənə halaldı.

— Yox, bəy. Mən elə ola bilmərəm.

— Niyə axı?

— Onunçun ki, mənim elə etməyə ixtiyarım yoxdu, bəy. Mən falçı-zad deyiləm. Mən mövlamın, qurbanı olduğumun — o gözəgörünməz kişinin sözlərini deyirəm. Nə artıq, nə əskik. O nə deyir, mən də elə eləyirəm. O deməsə, mən heç nə deyə bilmərəm.

— Deməli, o gecə sənə bu vergi verildi, hə? Ondan qabaq səndə belə şey yox idi: heç nə hiss eləmirdin, eləmi?

— Hə, ilk dəfə onda aşkar onun səsini eşitdim. Ona qədər ürəyimə damırdı ki, filan iş filan cürdü, filan şey də filan yerdədi. Hardan axıb dolurdu bu fikir ürəyimə, beynimə, bilmirdim. Ancaq o gecə — o dəhşətli gecə o qurban olduğumun səsini aydın eşitdim.

— Ancaq səsini eşidirsən? Üzünü görmürsən?

— Görürəm.

— Necədi, Leyla xanım? Elə bizim kimidi ya?

— Onu soruşma, deməyəcəyəm.

— Başa düşdüm. Yəqin sizin nəsildə varmış. Ya atanda, ya ananda…

— Sən nəyə inanırsan, Aslan?

— Nə bilim, vallah. Düzü, indiyəcən heç nəyə inanmamışam.

— Elə ona görə də baş-ayaq vurmusan ömür yollarında. Mən bu az yaşımda bu qənaətə gəlmişəm ki, inamsız yaşamaq mümkün deyil. İnsan həyatda nəyəsə inanmalıdı, bəy. Haçansa, hansı bir yazıçının belə bir cümləsi beynimə həkk olunub qalıb:

«Çalış, heç kəsin inamını öldürmə, oğul. İnam öldürmək, insan öldürməyə bərabərdi». Həqiqətən belədi. İnamsız insan, inamsız millət yaşamağa qadir deyil. Gec-tez o, həyat səhnəsindən getməyə məhkumdu. Mən təəccüb eləyirəm: sən inamsız necə yaşamısan? Yəqin sən partiyaya inanmırsan, eləmi?

— Vallah, indi baxıb görürəm heç partiyaya da inanmırmışam, Leyla xanım. Axı, indi, öz aramızdı, onda inanmalı bir şey də yox idi. Sadəcə, özümüzü elə göstərirdik ki, ona inanırıq. Bir də o din deyil axı.

— Əlbəttə. O əqidə idi, siyasi əqidə idi. Sizə o, vəzifə üçün, məqam üçün lazım idi — partbiletin olmasaydı, sənə çox güman ki, heç vaxt yüksək vəzifə verməzdilər. Elə deyilmi?

— Düzdü.

— Mən isə Allaha, onun birliyinə inanırdım həmişə. Rəhmətlik anam mənə bunu təlqin eləmişdi.

— Bəlkə o da… sənin kimi imiş, hə?

— Bəlkə də… Ancaq hiss elətdirmirdi. Sadəcə bəzi şeyləri əvvəlcədən deyirdi və indi, üstündən çox illər keçəndən sonra dərk eləyirəm ki, onun dediklərinin əksəri doğru çıxırmış: uşaq olduğuma görə başa düşmürmüşəm. Məsələn, Hikmət mənə vurulanda — məni istəyən oğlanın adı belə idi — evlənməyimizə qətiyyən razı deyildi anam. Mən bir yana durdum, o bir yana, axırı arvadın saqqızını oğurladım: nişan gətirməklərinə razılıq verəndə yazıq küskün-küskün söylədi ki, madam ürəyin istəyir, get, ancaq bəri başdan deyirəm: xoşbəxt olmuyassan, qızım. Heç toy da görmüyəssən, balam. Dilim-ağzım qurusun ki, belə deyirəm, ancaq deməliyəm. Bu sözləri eşidəndə atam çox pərt olub acıqlandı: «Niyə bayquş kimi bəd-bəd uluyursan, ay bəduğur qızı. Ağzını xeyirliyə açа bilmirsənmi?» Anam incik-incik baxıb gözündən yaş axıda-axıda: «Bir sözdü də deyirəm» — söyləyib tövləyə girdi.

— Anan deyən düz çıxdı?

— Hə. Hikməti, qardaşımın harayına gedərkən, ermənilər öldürdülər. İkisini də bir gündə dəfn elədik.

— Nə üstündə axı…

— Hə, demək istəyirsən ki, qardaşımı nə üstə öldürdülər?

— Hə də. Durduğu yerdə adamı öldürməzlər ki, Leyla xanım. Yəqin bir şey eləyib ki…

— Elə dava da bunun üstündədi ki, qardaşım yazıq heç nə eləməmişdi, fağırın biriydi, sakit, təmiz bir oğlandı: kəndin, daha doğrusu, kolxozun maşınını sürürdü. Sən demə, dığalardan birinin ürəyindən şofer olmaq, həmin maşını ələ keçirmək keçirmiş, kolxoz sədriylə də danışıbmış, haqqını da veribmiş. Sadəcə, onu aradan götürmək lazım imiş ki, o, rahat sürücü ola bilsin. Vəssalam.

— Belə də iş olar?

— Olar, olar, bəy. Bu dünyada nə desən olar.

— Bəs o öldürəni tutub damlamadılar?

— Hm. — Leyla acı bir təbəssümlə gülümsündü. — Nə danışırsan? Kim tutacaqdı? Erməni ermənini tutacaqdı? Yox. Yüz azərbaycanlı öldürsün erməni — kimdi tutan? Hərlənib-fırlanıb öləni günahkar çıxarırdılar və hətta imkanları olanda, bizimkiləri öləndən sonra da mühakimə edirdilər. Onlarda, o yerlərdə sovet hökuməti yoxdu, sovet qanunu yoxdu. Erməni dövləti var orda, Ermənistan var orda, bəy. O ancaq bizim boynumuza biçilib. Bax, elə indinin özündə, uzaqda yox, elə burda, Azərbaycanda türmələrimizi axtar, gəz, gör bir ermənyə bir şillə vurduğu üçün, bir hayın toyuğuna daş atdığı üçün beş il, altı il, lap səkkiz il iş alıb həbsxanalarda yatan nə qədər azərbaycanlı tapa bilərsən? Onlarla, yüzlərlə.

Kim tutub onları? Erməni yox. Sənin milisin. Kim istintaq aparıb? Sənin müstəntiqin. Məgər bu dağılmış Şura hökumətinin bütün qanunları yalnız bizim millətimiz üçündü? Yuxarıdan nə göstəriş gəlsə, siz — bizimkilər onu birinci yerinə yetirməyə can atmırlarmı? Burda da birinciliyi əldən verməmək istəmirlər. Yadınızdadırmı, Böyük Birinci göstəriş vermişdi ki, əhalidəki bütün silahlar yığışdırılsın?

— Hə, yadımdadı.

— Nə oldu? Bir erməni milisi bir ermənin əlindəki, evindəki silahı almadı. Amma siz neylədiz? Siz — ağanız buyurub deyə şəhərbəşəhər, kəndbəkənd gəzərək, evləri axtararaq Allahın ov tüfənglərini belə camaatın əlindən aldız, əli yalın qoyduz düşmən qabağında. Ov tüfəngi deyirəm, siz yaxşı bilirsiz ki, bizim camaatda ov tüfəngindən başqa bir silah yox idi. Bəli, onu da aldız yazıqların əlindən. Budu, indi erməni tanknan, topnan sənin əliyalın adamlarının üstünə hücum çəkir, qırır, torpaqlarımızı ala-ala irəliləyir. Erməni ordu yaradırdı, silah alırdı, amma siz,başda BİRİNCİNİZ olmaqla deyirdiz bizə ordu lazım deyil, bizə silah gərək deyil, Qızıl ordu bizim öz ordumuzdu, bizi qoruyacaq. Yaxşı qorudu. Gəldi, qızıl qanımıza qəltan elədi, getdi.

— Moskva qoymurdu. Ordu yaratmaq…

— Moskva o sözü hamıya deyirdi, o cümlədən ermənіyə də deyirdi, bəy. Qorxaqlar, yaltaqlar qulaq asdı, amma siz… Bu boyda milləti qeyrətsiz eləyib qoyduz ora. Sizi bilmirəm, ancaq mən qadınlığımla oğulları ölən anaların, ataların, qardaşları, nişanlıları ölən cavan qızların, ərləri həlak olan bir üzü qız, bir üzü gəlin gəlinlərin, yetim qalmış körpələrin üzünə baxa bilmirəm, vallah, baxa bilmirəm. Siz necə? Baxa bilirsizmi, bəy?

Leyla doluxsundu, uzun, qatlama kipriklərinin ucunda yaş damcıları gilələndi. Vücudu gərilib titrədi: elə bil bu dəqiqə ürəyi gedəcəkdi. Lakin Leyla, hansı bir daxili qüvvənin hesabınasa, özünü ələ alıb susdu.

Aslanın ona yazığı gəldi və bu sadə, ancaq möcüzəli qadının ürəyini döyündürən hisslərin öz qəlbində olmadığını dərindən, bütün çılpaqlığı ilə başa düşüb xəcalət çəkdi. Ömrü boyu ancaq və ancaq yalnız özünü düşünə-düşünə yaşamışdı, kimsənin dərdinə ürəkdən şərik olduğu, kimsənin ölümündən sarsılıb ağladığı yadına gəlmirdi — elə belə, yaşamışdı, əylənmişdi, heç ölüm haqqında belə fikirləşməyə vaxtı olmamışdı. Bu, bəlkə birinci dəfəydi ki, Aslan bunca öz daxili boşluğunu, hələ anlamadığı və özündə olmayan bir çox hisslərdən məhrumluğunu başa düşüb sıxılırdı.

Bu sıxıntını unutmaq, nə isə danışıb aradakı gərginliyi azaltmaq xatirinə soruşdu:

— Qardaşını, nişanlını itirəndən sonra anan sənə daha heç nə demədi?

— Dedi. — Leyla ah çəkdi.

— Maraqlıdı. Nə dedi, Leyla xanım? Yəqin başına sərki elədi ki, gördün mən deyən oldu? Hə? Belə dedi?

— Yox. Bu, mənim özümə də qəribə gəlir ki, arvad niyə heç o barədə mənə bir kəlmə də söyləmədi, xatırlatmadı?

— Bəs o nə…

— Ölənlərimizin qırxı çıxandan sonra, mənim heç özümə gələ bilmədiyimi görən yazıq anam, bir gün xeyli təsəlli verib: «İndidən özünü belə üzüb əldən salma, qızım, sənin həyatın hələ qabaqdadı. Sən çox əzablar çəkməli olsan da, nəhayət, bir gün xoşbəxtliyə çıxacaqsan. Düzdü, o xoşbəxtliyin də…» — söylədi, ancaq sözünü çox müəmmalı şəkildə yarımçıq kəsdi və bir də biz, o, dünyadan köçənəcən bu barədə danışmadıq. Hə, yadımdan çıxmışdı: bir də kədərli-kədərli köks ötürüb: «Hayıf ki, o günlərini mən görməyəcəyəm» — söyləmişdi.

— Deməli, ananın dediklərinə inansaq, sən hələ əzablı günlərini yaşayırsan, deməli, xoş günlərin hələ qabaqdadı, Leyla xanım.

— Mən anamın sözlərinə inanıram.

— Bəs… bəs sənin o gözəgörünməzin sənin özün haqqında heç bir söz demir sənə? Hamı, hər şey haqqında deyir, sənin haqqında demir?

— Deyir.

— Nə deyir? Əgər sirr deyilsə?

— Onu deməyə ixtiyarım yoxdu, Aslan. — Leyla köks ötürdü: — Bu, mənim öz sirrimdi. Yaxşını da, pisi də özüm yaşamalıyam. Amma sən… sən mənim xoşbəxt olduğum günləri görəcəksən, Aslan.

— Hə? — Aslan sevindi: — Doğrudan? Deməli, mən də çox yaşayacağam, eləmi, Leyla xanım?

— …

— Niyə susursan? Məntiqnən belə çıxır da: əgər sənin xoş günlərin hələ qabaqdadırsa və mən də o günləri görəcəyəmsə, deməli, mən də çox yaşayacağam da?

— Hə. Düz deyirsən. Məntiqnən elədir. Yəqin ki, elə də olacaq.

— Nə yaxşı, nə yaxşı… Qanunnan sənin kimi adam gərək xoşbəxt olsun, Leyla xanım. Yoxsa bu, ədalətsizlik olardı.

— Bilirsən, həyatda hər şey nisbidir, Aslan. Məsələn, sən mənə görə sərvətlisən, mən bir başqasına görə, deyək, ayaqyalın, çılpaq bir adamın yanında sərvətli görünürəm və sair və ilaxır. Ümumiyyətlə isə, mənim kimi adamlar sözün əsil mənasında xoşbəxt ola bilməzlər.

— Niyə axı, Leyla xanım?

— Heç olmasa ona görə ki, mən ətrafımdakı adamların dərdlərini, müsibətlərini görürəm, bilirəm və bunlar bir insan kimi, mənim ürəyimi parçalayır. Deyək, sənin, ya bir qeyrisinin bədbəxt olduğunu bilən mən, necə özümü xoşbəxt saya bilərəm, Aslan? Axı mən insanam!

— Hə. O da düzdü.

— Ancaq bunu da hər adam bacarmır. Məsələn, sənin nə vecinədi ki, kimin yatmağa yeri yoxdu, kim acdı, yalavacdı? Sən bunları ola bilər ki, görürsən, bilirsən, amma özünə dərd eləmirsən, öz kefində, damağında, eyş-işrətindəsən. Sən xoşbəxtsən, elə bilirsən hamı xoşbəxtdi. Bu, sənin biganəliyindi.

Mən isə bunu bacarmıram, Aslan. Ona görə də mən əsil mənada xoşbəxt ola bilmərəm. Heç vaxt ola bilmərəm, inan.

ÜÇÜNCÜ FƏSİL

Gecə yarıdan keçmişdi. Birdən-birə çözələnən, bir-birinə bənd olub uzanan söz-söhbət qurtarmaq bilmirdi və deyəsən heç qurtarmayacaqdı da. Ona rast gələnə qədər dərd, sıxıntı,

nigaran suallar, şübhələr əlində sıxılıb çapalayan Aslana elə gəlirdi ki, nəinki Bakıda, bəlkə bütün dünyada, o qədər varı-sərvəti olmağına baxmayaraq, ondan bədbəxt adam yoxdu. Ancaq bu bir neçə saatın içində başa düşmüşdü ki, elə deyilmiş. Yer üzündə dərdlər varmış ki, onun dərdləri onların yanında toya getməli imiş. Elə biri onun bu gecəki qəribə qonağı Leyla xanımın özü, yerin altını da, üstünü də bilən bu qız. O necə də dərdli adam imiş, ilahi? Ürəyi doluymuş, içi yanırmış, sən demə. Onun özünün dərd-səri bu gecə heç qurtarana oxşamırdı. O danışdıqca deyəsən yüngülləşirdi: qəlbini əzən-sıxan ağrıları elə belə adi adama yox, hardasa, haçansa o əzabların, bəlaların, müsibətlərin baş verməsində haqlımı-haqsızmı günahkar hesab elədiyi, başda duranlardan, iqtidarda olanlardan saydığı bir adama söyləmək imkanı tapmışdı deyə, Leyla bəzən onu lap qurulmuş haqq məhkəməsində çıxış eləyirmiş kimi, çox sərt və ağır sözlərlə ittiham edirdi. Leyla xanım yəqin ki, bu sözləri qonşusuna, qaçqına, bazarda, avtobusda, metroda rast gəldiyi hər adama söyləməzdi və əgər demiş olsaydı da, bunun elə bir mənası olmazdı. O sözlər, o dərdlər çoxdan idi ki, ürəyində qövr eləyirdi, didib-dağıdırdı sinəsini: bir ixtiyar sahibi, böyük bir adam axtarırdı ki, danışıb qəlbini boşaltsın. Buna görə Aslan elə bil göydən düşmüşdü əlinə. Ağrılarını, əzablarını dilinə gətirirdi, qabağında oturan, ancaq öz dərdlərini düşünən Aslanı divara dırmaşdırır, ona hətta insafının əleyhinə də gedərək əzablar vermək də istəyirdi. «Bu əclafların böyüyü-kiçiyi yoxdu — hamısı bu millətin qarşısında günahkardı. Bunlar böyük olmayıblar, quldur olublar, xəyanətkar olublar. Biri az, biri çox. Xalqın bu günə düşməyində əlləri var, gözləri kölgəlidi, vicdanları ləkəlidi bu alçaqların. Onlara rəhm eləmək olmaz, yox, olmaz». — deyə düşünən Leyla məqamı gələndə Aslanı sancmaqdan, hətta təhqir eləməkdən belə çəkinmirdi və bu da qəribə idi ki, sonra da çəkinməyəcəyini özünə söz vermişdi.

Leyla, bir qadın və insan sövqi-təbiisi ilə hiss edirdi ki, Aslan bu söz-söhbətin beləcə uzanmasından yana çox əsəbiləşir: üz-gözündən oxuyurdu ki, onu indi Leylanın danışdıqları

məsələlərdən daha çox, öz şəxsi dərdi-səri, sualları, nigarançılıqları düşündürür, onlara tez, konkret və aydın cavablar almaq və rahatlaşmaq istəyir.

Bu, həqiqətən də beləydi. Aslanı bu saat, daha doğrusu, Leyla ilə tanış olandan sonra keçən saatlar ərzində ancaq və ancaq öz nigarançılıqlarının axırına çıxmaq maraqlandırırdı və həmin sirlərin, müəmmaların açarını əlində tutmuş «Sirr dağarcığı»nın (Aslan onu ürəyində qorxa-qorxa belə adlandırmaq istəyirdi, ancaq cəsarət eləmirdi.) hədsiz dərəcədə «çərənçi» olması qətiyyən ürəyincə deyildi. Lakin çarəsiz idi — çəkinirdi, sözünü kəsə bilmirdi, içəridən qırıla-qırıla olsa da, susub dinləməyə məcburdu. Həyatında ilk dəfəydi ki, Aslan özünün bu əndazədə müti ola biləcəyini açıq-aydın dərk edir və özündən zəhləsi getməyə başlayırdı. Onun daxilən yaşadığı, ancaq açıb ağarda bilmədiyi bu hissləri, şübhəsiz, Leyla aydın şəkildə oxuyurdu və bu, ona çox ləzzət eləyirdi. O biri tərəfdən də Leylanı da qınamaq olmazdı, çünki Aslanın dastanı beş-on dəqiqəyə danışılıb qurtarılası dastana oxşamırdı — hər şeyi dəqiq, yerli-yataqlı bilmək arzusu ilə yanan, çırpınan Aslanın ürəyinə, şübhələrinin üstünə asanlıqla su səpmək mümkün olmayacaqdı və bunu Leyla bəri başdan aydınca dərk eləyirdi.

Yorğunluq artıq özünü hiss elətdirirdi: gah o, gah bu əsnəyirdi. Səhərəcən oyaq qalmaq olmazdı ki.

Aslan yuxusuzluğa da, narahatlığa da, eşidəcəyi həqiqətlərin zəhər kimi acı, öldürücü olduğunu bilə-bilə dinləməyə də hazır idi. Ancaq Leylanın gözlərindən yuxu töküldüyünü görəndə söhbətlərinin bu gecə qurtaracağına olan ümidini tamam itirərək xeyli məyus oldu: qonağını, özü də Leyla kimi bir adamı məcbur eləyə bilməzdi ki, yatmasın, danışsın. Təsəllini bunda tapdı ki, sabah şənbədi, birisi gün bazardı — iki gün onların ixtiyarındadı, qabaq-qənşər oturub danışmaq, ürəyini didib-parçalayan suallara, şübhələrə cavab almaq üçün gen-bol imkan-vaxt olacaq. Sabah Aslanın guya rayona getməsindən istifadə edib arvadı ilə Mehmanın da oğurlanıb bağa gəlmək imkanını da istisna etmək olar: daha Mehman öz qaynanasının

yasını, dəfnini yarımçıq qoyub bağa kefə gələ bilməz ki. Həm də Aslan gecə yaxşı-yaxşı fikirləşər, ölçüb-biçər, onun rahatlığını əlindən alan nigarançılıqlarını sistemə salar, bir-bir hamısını soruşub öyrənər. Təki hər şeyi desin Leyla xanım, heç nəyi gizləməsin.

Yer məsələsi də fikrində dolanırdı: necə, harda yatırtsın qonağını? Başqa qadın qonaqları olanda bu barədə düşünmürdü: məsələ aydın idi: yeyirdilər, içirdilər, elə bir yorğan-döşəkdəcə də yatırdılar. Qışda bir çarpayıda. Yay aylarında isə kim harda istəyirdi, orda da yatırdı. Ancaq Leyla o qadınlara bənzəmirdi və ümumiyyətlə, qorxusundanmı idi, ya nədən idi — bilmirdi — Aslan bu axşam başqa şeylər barədə fikirləşə bilmirdi, özünün kişi, Leylanın qadın olduğunu da deyəsən unutmuşdu. Və bu məsələ yadına düşəndə, özünün indi bu vəziyyətdə olmağını ağlına gətirəndə təəccüblənirdi də. Əyləşdikləri otaqda iki çarpayı vardı: ikisi də qurulu, ağappaq mələfəli, ipək yorğanlı, yumşaq, rahat. Amma o, Leyla xanım burada, onun yanında yatardımı? Çətin. Çarə qalırdı o biri otağa — yataq otağına. Orada da qoşa çarpayılar hazır idi — onlar bu çarpayılardan da yumşaq, rahat və abırlı idi. Lakin o otaq bir az soyuq idi — dənizdən əsən külək öz soyuq nəfəsi ilə buranı yayda sərin, qışda isə buzxana eləyirdi. Aslan oraya qış aylarında elektrik pilətəsi qoyurdu, qızdırırdı, soyuq-filan heç hiss olunmurdu. «Leyla xanım harda istəsə, orda da yatar». — Nəhayət, qərara gələndə Leyla xanım ayağa qalxdı:

— Sən narahat olma, Aslan. Mən o biri otaqda yatacağam, — dedi və Aslanın yenə təəccübləndiyini görüb gülümsündü:

— Görünür heç cür adət eləyə bilmirsən ki, mən sənin ürəyindən keçənləri oxuyuram. Elə deyilmi?

— Elədi, vallah, Leyla xanım. Düz deyirsən.

— Mən ürəyindən də, gözlərindən də oxuyuram ki, sən elə indicə, bu saat, bu gecə aylardan bəri səni üzən, içini söküb

dağıdan nigarançılıqlarının, şübhələrinin hamısını bilmək, öyrənmək istəyirsən, Aslan. Elədimi?

— Elədi, Leyla xanım. Görürəm: sən çox şey, yox ey, sən hər şeyi bilirsən, xəbərdarsan. İstəyirəm deyəsən, danışasan. Yoxsa mən dəli olmaq dərəcəsinə gəlib çatmışam, inan. Səhərəcən yata bilməyəcəyəm, yuxum ərşə çəkiləcək, yerimə ilan-qurbağa dolacaq, Leyla xanım. Bilirsən, mənim daha o dünyada qır qazanında, cəhənnəm odunda-filanda yanmaqdan qorxum qalmayıb: mən onları — o əzabları bu dünyada çəkmişəm. Danış, qurban olum, de, nə varsa, söylə, qoy bilim. Hətta ölümümü də görürsənsə, çəkinmə, onu da de. Mən heç nədən qorxmuram, vallah. Dünyanın ən dəhşətli şeyini də desən mənə, yenə qorxmaram.

— Səni başa düşürəm, Aslan. Ancaq tələsmə. Deyirlər, xəstə tələsər, armudsa vaxtında yetişər. Bil və agah ol ki, sənin dastanın uzundu, çox uzundu, bəy. Bir-iki kəlmə ilə qurtaran deyil. Bu gecə rahat yatarsan. Elə bil ki, məni heç görməmisən, tanımırsan. Dözməyəcəkdin? Yaşamayacaqdın? Necə yaşayacaqdınsa eləcə də yaşa bu gecəni. Necə yaşayacaqdın bu gecəni?

— Əgər sənə rast gəlməsəydim, gedəcəkdim evə. İki gün ley-pey eləyəcəkdim dünyanı unutmaq üçün, heç nə fikirləşməyim deyə içəcəkdim, içəcəkdim, sərxoş olub yatacaqdım…

— Bəs sənin Leylan neyləyəcəkdi?

— Leyla? Nə bilim… Yəqin bazara-dükana gedəcəkdi…

Leyla qımışdı:

— Tək?

— Hə. Yox. Yəqin maşını çağıracaqdı. — Bu sözləri eşidəndə Leyla xanım özünü saxlaya bilməyib ucadan güldü:

— Məgər sənin maşının dil bilir, qulağı var, nədi?

— Yox.

— Sən sadəcə Mehmanın adını dilinə gətirmək istəmirsən. Düzdü?

Aslan qıpqırmızı qızardı, gözlərini Leylanın istehza qonmuş baxışlarından yayındırmaq istədi, ancaq, çarəsiz qalıb yenidən ona baxmalı oldu:

— Bu söhbət mənim kişilik qürurumu sındırsa da, boynuma alım ki, hə, Leyla xanım. Srağa günəcən o nəməkbəharamdan qətiyyən şübhələnmirdim: nəinki şübhələnmirdim, heç belə yatsaydım, yuxuma da girməzdi, inan. Neçə ildi çörək verirəm o qoduğa. Yaxşılıqlar eləmişəm ki, tərəzinin bir gözünə onun özünü qoysam, o birinə elədiklərimi, vallah, elədiklərim ağır gələr. Elə bircə onu deyim ki, evsiz-eşiksiz idi, qaynanasının — bax, ölümünü bu gün sən xəbər verdiyinin, o gorbagorun qoltuğuna sığınmışdı — ev aldım, verdim: arvadını, iki körpəsini götürüb köçdü, mebelinə də kömək elədim, öz qiymətinə aldı. Köpəkoğlu: «Ölənəcən qulunam, Aslan müəllim» — deyirdi. Deyir, yaxşılıq eləyən evində ölməz. Bu da mənim haqqsayım. Srağagün görürəm onunla him-cim danışır köpəkoğlu. — O, dişlərini bir-birinə sıxaraq:

— Eybi yox, qalsın qırmızı qulluğunda. O, o olsun, mən də mən — söylədi.

— Yaxşı, yaxşı, qəzəblənib özündən çıxma, Aslan. Olan olub, keçən keçib — bu elə şeydi ki, geri qaytarmaq, silib atmaq, pozmaq, unutmaq olmur. Bu, sənin ömür kitabına qara hərflərlə yazılmış xəcalət gətirən bir dastandı ki, heç vəchlə, heç nəylə üstündən götürə bilməzsən. Bir də əhvalat sən düşündüyün kimi də deyil — deyə Leyla xanım getdikcə, yadına saldıqca əsib-coşmağa başlayan Aslanı sakitləşdirmək istədikdə o, yenə bir cavab almaq ümidiylə soruşdu və səsindəki çılğınlığı Leyla hiss etməyə bilmədi:

— Axı, bəs necədi bu?

— Səbrli ol, Aslan. Sabah, sabah.

— Səbrsiz olmuşam son vaxtlar, Leyla xanım. Daha dözümüm qalmayıb. — O, ah çəkdi: — Döz deyirsən, dözüm də. Dözməkdən başqa əlimdən nə gəlir ki. — Aslan çarəsiz-çarəsiz susub otağa göz gəzdirdi, sonra o biri otağa işarə edərək: —

Ancaq ora soyuq olar qorxuram. Bəlkə sən burda yatasan, mən o otaqda, hə?

— Yox, ora xoşuma gəlir.

— Onda qızdırım. — Qaz sobasının yanındakı elektrik sobasını götürüb yan otağa apardı, çarpayının birini — özününkünü açıb mələfəni, balış üzünü öz səliqəsilə dəyişdi, rahat bir yataq hazırlayıb qayıdanda Leylanı görməyib qəribə bir qorxu içində düşündü: «Vay, bu yox oldu ki. Adə, vallah, bu gözbağlayıcıdı». Elə bu zaman qapı ağzında Leylanın gecənin sükutunu pozan cingiltili gülüşünü eşitdi:

— Mən burdayam. Özüm də gözbağlayıcı-zad deyiləm.

— Ay səni — deyə ona tərəf çevrilib o da güldü: — Məni qorxuzmuşdun, Leyla xanım.

— Qorxma. Mən heç yerə qaçan deyiləm. Qanadım da yoxdu ki, uçub gedəm.

— Nə bilim, vallah. Düzü, çaşıb qalmışam. Doğrusu, sehr aləmindəyəm elə bil. Nə eşitdiklərimə inanmaq istəyirəm, nə də gördüklərimə.

Leyla xanım güldü:

— İnanarsan, inanarsan. — Aslanın özünü tilsimə düşmüş hesab eləməsi onun kefini xeyli durultdusa da, yatmaq həvəsini söndürə bilmədi: yan otağa sarı addımlayanda Aslan da dalınca getdi və Leyla xanım ağappaq, qar kimi yumşaq yorğan-döşəyin açılıb hazırlandığını görəndə razılıq və mehribanlıq hissilə qanrılıb ev sahibinə baxdı:

— Çox sağ ol. Nə əziyyət çəkirdin? Özüm hazırlayardım də.

— Sənin kimi əziz qonağa qulluq eləmək mənim üçün çox xoşdu, Leyla xanım. İnanırsan, mən ömrümdə birinci dəfədi ki… — Aslan adəti üzrə qadın qonağına söylədiyi, buna görə də tutuquşu kimi əzbər bildiyi bu sözləri dilinə gətirib yarıda peşiman oldu və sözünü yarımçıq kəsdi. Yadına düşdü ki, yalan danışdığı Leylaya əyandı və indi bunun üstündə yaxşı məzəmmət olunacağını fikrinə gətirib günahkar təkin onu süzdü. İncə-

vara, Leyla xanım həqiqətən oxuduğu o düşüncənin başına ip salmayıb ayrı şey söylədi:

— Yaxşı elədin bu çarpayıda yer açdın mənim üçün. Onda açsaydın — deyə dənizə açılan pəncərənin qənşərindəki əl vurulmamış qurulu çarpayını göstərdi:

— Yatmayacaqdım.

— Hə? Niyə?

— Ona görə ki, o, sənin arvadının çarpayısıdı.

— Arvadımın çarpayısı olduğunu bildiyinə görə təəccüblənmirəm. Ancaq niyə onda yatmaq istəmədiyini bilmək istərdim, Leyla xanım. Yəqin ona görə ki, ermənidi, hə?

— Həm ona görə, həm də… — Leyla bir anlığa dayandı, nəyisə demək istəmədiyi aydındı və bunu Aslan da duydu: ona görə ev sahibinin acığına gələcəyini əvvəlcədən bilsə də, ürəyindəkini dilinə gətirdi: — həm də natəmizdi, murdardı, Aslan.

— Deyəsən burda bir balaca səhv eləyirsiz, Leyla xanım. — deyə Aslan çəkinə-çəkinə etirazını bildirdi: — O, insafən çox təmizkardı, Leyla xanım. Səliqə-səhmanına, silib-süpürməyinə söz ola bilməz.

— Sən məni başa düşmədin, Aslan. O, mənən, daxilən, vicdanən natəmizdi. Bax, onun bu yorğan-döşəyi natəmizdi: burda səndən başqa bir adamın nəfəsi hiss olunmamalıdı qanunnan. Amma, burda, yalnız sənin girib yatmalı olacağın bu yorğan-döşəkdə o başqaları ilə…

Aslan tezcə onun nə demək istədiyini anlayıb sözündən tutdu və tələsik soruşdu:

— Başqaları ilə, ya başqası ilə, Leyla xanım?

— Bunun nə fərqi varmış?

— Yox, yox, fərqi var, Leyla xanım. Bir var, yalnız bir nəfərlə oturub dura, bir də var kim girinə keçdi… Bu, artıq fahişəlikdi, bilirsənmi?

— Bir nəfərlə oturub-durmaq yox, hə? Əcəb fəlsəfədi. Bu fəlsəfəni sən ancaq özün üçün uydurmusan və hardasa özünə təskinlik vermək istəyirsən bununla. Amma yox, bir rəqəm-

lərin əvvəlidi, ondan sonra iki gəlir, üç gəlir və sair. Sən bu fikri qəbul eləmək istəmirsən ki, sənin lə oturub-duran sabah, ya sənin gözünün qabağında, ya səndən xəlvət ya da səndən sonra bir başqası ilə də oturub-duracaq. Sən bunun belə olduğunu yaxşı başa düşürsən, ancaq o fikri özündən uzaqlaşdırmağa çalışırsan, çünki onu qəbul etmək sənin üçün sərf eləmir. Sən hələ deməsən də, mən yaxşı bilirəm: indi sənin yandığın odların içində elə bu məqam da var, Aslan. Ancaq gəl indi bunu xatırlamayaq, gecdi. Get, yat. Gecən xeyrə qalsın.

— Xeyrə qalsın… gecən. — dedi çaşqın-çaşqın. Çünki doğrudan da Leyla düz söyləyirdi: o, bununla Tanrıgül haqqındakı düşüncələrinə işarə eləyirdi və necə də doğru tutmuşdu: iş cəhənnəm, lap Leylası da, Mehmanı da cəhənnəm, təkcə Tanrıgül, təkcə o gözəl, müəmmalı mələk… Bax, hər şeydən çox onu dəli eləyən bu idi və fil kimi dözümlü, əstəğfürullah, Allah kimi səbrli olan Aslan ancaq buna dözəmmirdi.

Aslan ani olaraq beynindən keçirdiyi bu fikirləri özündən uzaqlaşdırmağa çalışaraq qonağının sözünə əməl edib dal-dalı otaqdan çıxmaq istəyəndə Leyla xanım qəribə bir şəkildə sağ əlini yuxarı qaldırıb onunla özü arasında havada şaquli bir xətt çəkdi və bunu Aslan gördü. Maraq üzündən xəbər aldı:

— O nə demək idi, Leyla xanım?

Leyla uşaq kimi saf bir təbəssümlə qımışdı:

— O? Heç… Bir an susub əlavə elədi: — Divar idi.

— Divar? Nə divar?

— Ordan beləsinə. — O, yenə əlilə havada bir xətt cızdı — sənin lə öz aramda bir divar çəkdim, Aslan.

— Daşsız, palçıqsız da divar olar? — Aslan təəccübünü gizləmədi.

— Olur, Aslan. İnsanlar arasında çox gözəgörünməz divarlar var, biri də budur ki, mən çəkdim. İndi sən daha ordan bu tərəfə keçə bilməzsən. Bunu hər ehtimala qarşı elədim. İşini ehtiyatlı tutmayanlar, həmişə qonşudan gileyli olurlar.

— Hə, indi başa düşdüm, Leyla xanım. — Aslan süni surətdə güldü və söhbətin artıq bitdiyini anlayıb çıxanda:

— Qapını örtüm, Leyla xanım? — deyə soruşdu.

— Yox, lazım deyil. — dedi. — Qoy açıq qalsın. Get yat, get yat.

Aslan bir saatdan çoxdu ki, yorğan-döşəyin içindəydi, ancaq yatammırdı — yorğun, əsəbi, həyəcanlı idi, bir az içmiş olsa da, yuxu ondan elə bil qaçaq düşmüşdü. Yerinin içinə qor dolmuş kimi çalıxıb-çabalayır, gah o üzü, gah bu üzü üstə çevrilir, amma heç cür aram olub uyuya bilmirdi. Bütün bu həngamələrdən sonra yatmaqmı olardı? Bu gün onun başına gələnlər bir nağıla, əfsanəyə bənzəmirdimi? Gördüklərinə, eşitdiklərinə inanmaq istəməsə də, hamısını həqiqət kimi qəbul etmək məcburiyyətində idi. Onsuz da çaş-baş olan düşüncələri bir az da çözələnib elə dolaşmışdı ki, nəyin necə olduğunu, niyə belə olduğunu və nə ilə nəticələnəcəyini aydınlaşdırmaq, ona elə gəlirdi ki, daha mümkün olmayacaqdı.

Aslan küt, key adam deyildi, həmişə özünü ağıllı, tədbirli bir adam saymışdı. Tutduğu hər işi yüz dəfə ölçüb-biçməyin, nəyin xeyrinə olacağını, nəyin adına, vəzifəsinə, sərvətinə ziyan gətirəcəyini əvvəlcədən götür-qoy eləməmiş bir addım atmağı qətiyyən sevməzdi. Baş verə biləcək, mümkün təhlükələrdən, sualtı qayalardan məharətli bir kapitan kimi yan keçməyi bacarmaq qabiliyyətinə malik olmasına hamıdan, ətrafındakılardan da qabaq özü qiymət verir və bundan daxili bir məmnunluq duyurdu. Son illərə qədər belə yaşamışdı. Nə iş dərdi çəkmişdi, nə yemək-içmək, nə vəzifə, nə paltar. Əslində bunların heç biri zərrəcə də onu maraqlandırmamışdı. Bir kərə ondan soruşmuşdular: «İşlərin necə gedir?» O zaman Aslan özü də fərqinə varmadan, bütöv bir zəmanənin səciyyəvi xüsusiyyətini ifadə eləyən müdrik bir söz demişdi: «Vallah, işləri elə qurublar ki, elə öz-özünə gedir». Həqiqətən bunu o, sonralar daha dərindən anlamağa başlamışdı — məsələ eləymiş. Çünki Aslan öz vəzifəsini bilirdi, ona tabe olan adamlar da nə eləməli olduqlarını anlayırdılar və beləliklə, doğrudan da işlər yağ kimi ge-

dirdi. Onun özünün də, ondan asılı adamların da yalnız bir qorxusu var idi: Aslanın BİRİNCİnin qəzəbinə düçar olmaq qorxusu və ona tabe olanların da Aslan Fərhadıçın gözündən düşmək təhlükəsi. Vəssalam. Uzun-uzun illər o və o qəbil adamlar yalnız bu qorxu içində yaşamış, işləmişdilər. Lap-lap keçmiş BİRİNCİnin vaxtında ortalığa çıxan, neçə-neçə illər çox sürətlə vəzifə pillələri ilə yüksəlib ucalan, böyük bir bölgənin balaca BİRİNCİSİ olan, nazir «seçilən», o, əlbəttə ki, qayğısız, dərdsərsiz yaşamalı idi və yaşayırdı da. Özü də, insafən, əl-ayaq altında qalanlardan olmamışdı. Mötəbər iclaslarda çıxışlar eləməsi, az-maz qələm çala bilməsi, yuxarı dairələrdə tarix ilə məşğul olan bir adam kimi tanınması, hərdən-birdən imzası, adı heç olmasa «Kommunist» qəzetinin (o, öz yazılarını ən çox burada çap etdirirdi) oxucularının yadından çıxmasın deyə cəmiyyətin məfkurəvi əsaslarından, onun «kapitalizm cəmiyyətindən üstünlüklərindən» bəhs edən yazılarla meydan sulaması gözə görünməyə, qeyd olunmaya bilməzdi və buna görə də o, təzə BİRİNCİnin özü üçün də maraqlı bir adam təsiri bağışlamışdı. Bu səbəbdən də BİRİNCİLƏR dalbadal gəlib getsələr də, Aslan elə həmin Aslan kimi qalmışdı üzdə. Sadəcə gah bir az qalxmışdı, gah bir az enmişdi, ancaq oyundan-meydandan tamam çıxmamışdı. Hətta səksən səkkizin axırlarında, səksən doqquzun əvvəllərində, hadisələr təzəcə tüğyan eləməyə başlayanda «aparatın əsas ideoloqu» kimi, bunlar ona mənasız və gülünc görünmüşdü: qüdrətinə, əzəmətinə, möhkəmliyinə öz varlığından çox inandığından, bu cəmiyyətdə, belə şeylərin mümkünlüyünü qəbul etməmiş, bunu — oradakı — Ermənistandakı bir neçə ekstremistin təhriki ilə baş verən bir hadisə saymış, beşinci ilin, on səkkizinci ilin əhvalatlarından, ermənilərin tamahından, qəddarlığından yaxşı xəbəri ola-ola, buna ötəri bir şey kimi baxaraq, yuxarıya yazdığı arayışda da həmin mövqeyini ifadə eləmişdi. Bundan əlavə o zamankı BİRİNCİnin də başının altına yastığı o qoymuşdu: Moskvanın tezliklə, lap beş-on günə bu özbaşınalığa son qoyacağını, lap böyük BİRİNCİnin, Ermənistanın BİRİNCİSİNƏ, möhkəm bir qulaq-

burması verəcəyini söyləmişdi. Onda, hadisələrin külək vuran tonqal kimi getdikcə qızışdığı zaman, sadəlövh və kövrək ürəkli, siyasətdən və imperiyanın məkrindən başqa hər şeydən başı çıxan təzə BİRİNCİnin kabinetindən çıxmayan Aslan lazımi qiymət vermədiyi o dalğanın tufanı bir-iki saatın içində onların isti, ilk baxışda çox möhkəm görünən yerlərindən oynadıb kənara atdığını görəndə, başa düşmüşdü ki, səhv eləyib, vərgəni suya verib, ona inanan BİRİNCİni də, özünü də uçurum qırağına gətirib. Siyasət isə belə səhvləri bağışlamır. Elə həmin gün gecədən xeyli keçmiş, o plenum deyilən nəhəng, dəstəyi uzaqda, Moskvada oturan böyük BİRİNCİnin əlində olan mexanizm işləyib öz işini görəndən sonra o, ömründə ilk dəfə vəzifədən düşmüş BİRİNCİnin belə zəif, cılız və aciz olduğunu lap yaxından görmüş və təəccüblənmişdi. Eləcə də, dünənəcən, lap elə iki saat qabağa qədər yanında, böyür-başında hərlənən, o qədər də saymadığı iş yoldaşının birdən-birə dönüb BİRİNCİ olduğunu və o dəqiqə vəzifə atına minib hökmlü bir adama çevrildiyini də görüb heyrətlənmişdi Aslan. Cəmisi üç gün namüəyyənlik içində qalmışdı, dördüncü gün onu oradan, Mərkəzi Komitədən — BİRİNCİnin özününmü fikri idi bu, ya ətrafındakı adamların əli ilə edilmişdi — bunu indiyəcən bilmirdi — o dairələrdə mövcud olan yazılmamış rəsmi adətə uyğun bir «hörmətlə» kürüyüb nə boy-buxununa, nə keçmişinə və nə də xidmətlərinə yaraşan bir tərzdə bu balaca idarəyə atmışdılar. O, əvvəl tərəddüd eləmiş, ancaq evdə, Leylasının məsləhəti ilə razılıq vermiş və yalnız sürücüsünü (İndi yadına salır ki, bunu da arvadı məsləhət görmüşdü) və bir də Tanrıgülü (əlbəttə, öz istəyi ilə) götürüb bura gəlmişdi.

İlk vaxtlar ona bu, çox sarsıdıcı təsir eləmişdi: heç cür barışa bilmirdi bu yerdəyişmə ilə: hətta ilk günlər bir neçə dəfə çaşıb köhnə iş yerinə də getmişdi. Ona elə gəlmişdi ki, bu dərdə dözə bilməyəcək. Ancaq sonra… Tanrıgülün «problemi» çıxdı ortalığa və o dərdini unutdurdu. Son neçə aydı ki, Aslan bu çıxılmaz bəla girdabına düşmüşdü, gecəli-gündüzlü ha baş sındırırdı, axırını bir yana çıxarda bilmirdi ki, bilmirdi. Həyata,

dünyaya hərtərəfli, açıq gözlə baxmağı xoşlayan o, öz hərəkətlərini, davranışını, münasibətlərini də saf-çürük eləyir, götürüb qoyurdu: bəlkə onun özünün soyuduğunu, biganəliyini hiss eləmişdi Tanrıgül? Yox, Aslan buna yol verməmişdi, əsla. Əksinə, daha mehriban, daha diqqətli olmağa çalışmışdı, çoxlu hədiyyələr almışdı, şirin sözlər demişdi. Bəlkə başqa bir qadınla oturub-durmuşdu və bunu da o duymuşdu, eşitmişdi? Yox, bu da olmamışdı. Bu suallar içində çırpınırkən birdən, heç gümanına belə gətirmədiyi yerdə, bu Mehman-Leyla məsələsi meydana gəlmişdi və Tanrıgülün nigarançılığını kölgədə qoymuşdu: hər necə olsa da Leyla onun arvadı idi və cəmiyyət içində onun xanımı kimi tanınırdı. Və Aslan –çox da öyünüb ortalığa çıxartmalı olmayan öz təcrübəsindən yaxşı bilirdi ki, belə şeylər necə də bu boyda şəhərdə ildırım sürətilə yayılır və sənin «xəlvəti iş» hesab elədiyin şey az qala bütün aləmə bəlli olur. Azmı görmüşdü bu cür şeyləri Aslan? Və onun üçündü ki, o məşum hiss ürəyinə axıb dolandan qulağı səksəkədə idi: bu gün, ya sabah, ya haçansa lap bu yaxınlarda belə bir şey eşidəcəyinin qorxusu çökmüşdü canına. İnandırmaq istəyirdi özünü: Yox, Leyla ilə Mehmanın arasında heç nə ola bilməz. Leyla yazıq qulağını qaşıyırmış yəqin. Mehman da – elə-belə, yəqin balaca qızının əyə-əyə dediyi sözləri xatırlayıb gülümsünürmüş. Hə, hə, belədi, şübhəsiz, belədi. Bəs onda… bəs onda bu sehrkar Leyla xanımın dedikləri nədir? Mehmanın qaynanasının öləcəyi xəbəri, siqaret, pul? Bunlar da yalan ola bilərmi? Yox, bu boyda yalan ola bilməz. Aslanın özünün gözünün qabağında olan şeylərdi bunlar. Həqiqət idi və indi, gecənin yarıdan çoxunun keçirdiyi bu vədəsində, ən dərdli adamların belə düşünüb-daşınıb yorularaq yatdığı bu anlarda yerinin içində qurcuxa-qurcuxa öz-özünü danlayırdı: «Sənə bu da azdı, Aslan. Özünü hamıdan ağıllı, bic, şeytana papış tikən sayırdın. Elə bilirdin dünya həmişə sənin istəyincə fırlanacaq. Amma sən demə, fil qulağında yatmışmışsan. Orda, yuxarıda yoldaşların ayağının altını qazıyırmış, bu yanda tanrın qədər sevdiyin Tanrıgül səni gözün görə-görə atırmış, evinin içində də Leyla — sənin arvadın başına papaq

qoyurmuş. Kül başına, ay Aslan. Ta niyə yaşayırsan bu yer üzündə?» — Aslan bu böyrü üstündən o böyrü üstünə çevrilir, ürəyində əlini Allahın dərgahına qaldırıb yalvarırdı az qala: «İlahi, özün kömək ol mənə. Qoy bu düyünlər açılsın, qoy sənin özünün mərhəmətlə ürcahıma çıxartdığın bu sehrkar, möcüzəli Leyla xanım mənim bu qəflət yuxusuna getmiş gözlərimi açsın və mən əsil həqiqətləri, nə qədər acı olsa da öyrənim. Hamısının üzünə deyəcəyəm bir-bir xəyanətlərini. Gözlərinin içinə tüpürəcəyəm hamısının. Deyəcəyəm siz elə bilirdiniz mən frayerəm, heç nə görmürəm, bilmirəm? Ay siz öləsiz. Bu qadını, bu Leyla deyilən anlaşılmaz məxluqu sən yetirmisən mənə, ilahi. Öləcəyəm, qalacağam, onu əldən buraxmayacağam, lap bütün var-yoxumu verəcəyəm ona, saxlayacağam yanımda, qulluğunda duracağam. Həm mən rahat olaram, həm də o xoş bir gün görər. Razı olsa lap alaram onu. Qaçqın olanda nə olar. Bir də onu yaxşı geyindirsən, keçindirsən kim bilər ki, o, qaçqındı, köçkündü? Yox, adamın elə arvadı olması bir bədbəxtlik olar. Gərək onda heç nə eləməyəsən: işə oxlov udmuş kimi düz gedib, düz də qayıdasan. Ondan heç nə gizləməyəsən gərək. Bunsuz da bu zəmanədə necə yaşamaq mümkündü?» Sonra Aslan ürəyində özünə güldü: «Lap dindar olmusan ha. Dünənəcən Allahı-Peyğəmbəri tanımayan sən, indi onların mərhəmətinə sığınmısan və əl açıb onların dərgahından nicat umursan. Görünür, insanın təbiəti belədi — dara düşəndə, qocalıq soyuq əlini yaxasına sarı uzadanda, ölümün soyuq nəfəsini yaxında duyanda Allaha inam doğulur insanın ürəyində. Halbuki, deyirlər, o inam insanla bir gəlməlidi dünyaya. Hər insanın öz inamı». «İndi budur. Heç nəyə inanmayan sənin qonağın sehrkar bir qadındır — o biri otaqda yatır. Görəsən o yatanda da mənim nə düşündüklərimdən xəbərdar ola bilir? Bəlkə heç yatmayıb?» — Aslan öskürdü, sonra diqqət kəsilib o biri otağı dinlədi. Heç bir səs-səmir, qımıltı gəlmirdi. Bir az da diqqətlə qulaq asıb Leylanın aramla nəfəs aldığını, körpə uşaq kimi mışıl-mışıl yatdığını başa düşüb rahatlandı. «Yatıb!»

Və Aslan bunu da xatırladı ki, bu bağın tarixində və özünün ömrünün keçmişdə qalan illərinin salnaməsində Leyla birinci qadındı ki, bura qədəm basıb gələ, Aslan ona toxunmaya — nə saçlarını sığallaya bilə, nə öpə bilə. Yox, belə qadın olmamışdı, yox idi və Leyla birinci idi. Qəribə idi ki, Aslan özü də elə bil həmin Aslan olduğunu unutmuşdu — qadına olan tamahı, hərisliyi qalmamışdı sanki. Yox, axı keçən həftə Nataşa ilə bura gələndə belə deyildi. — Nataşanı hamamda özü çimdirmişdi, özü qurulayıb qucağında otağa gətirmişdi, yeyib-içmişdilər və o, qızı səhərəcən yatmağa qoymamışdı. Nataşa yumşaq yorğan-döşəkdə çabalayaraq: «Tı menya sovsem izmuçil!» — demişdi ki, bu sözlər də onun canına yağ kimi yayılmışdı: «Yox, hələ canın suludu, Aslan, hələ qocalmamısan!» — deyərək öz-özünə qürrələnmişdi. Yəqin bir həftə sonra Nataşa, ya qeyri bir qadın bu bağa qonaq gəlsə, Aslan onu da elə o həvəslə qarşılayıb, elə o həsrətlə də yola salacaqdı. Yox, bu nə idisə Leylanın özü ilə bağlı idi. Hə, axı o sehrkardı, o əfsunkardı — yəqin nəsə elədi — duamı oxudu, cadumu elədi — bilmirdi. Sonra yadına düşdü ki, Leyla əlinin qəribə hərəkəti ilə onunla özü arasında bir divar çəkmişdi yatmamışdan qabaq. Hə, hə, elə idi.

Divar çəkdi və özü də, gərək ki, dedi bunu. Aslanın elə arın-arxayın: «Qapını bağlayım?» — sualına. «Yox, qoy açıq qalsın. Sən o divarı keçə bilməzsən!» — cavabını vermədimi?

Aslanın tamah dişi itiydi və bu gecəki o qəribə qonağını elə-belə — vüsalına çatmadan yola salacağı fikri ilə heç cür razılaşa bilmirdi. «Əşi, sən də lap avam olmusan axır vaxtlarda, ay Aslan» — özü-özünə danışdı — Sehrkardı, möcüzəkardı, hər nədi — özü bilər, ancaq o, axı hər şeydən əvvəl qadındı. Qandın, ay zırrama, qadındı! Ta özü deməyəcək ki, gəl! Gərək səndə bir tərpəniş-təpər olsun da. Yoxsa istəyirsən o özü gəlib sənin qucağına girsin?

Sən bilirsən ki, qadınlar cürbəcür olur: Biri özü gəlir, birinin yanına gərək sən özün gedəsən. Bir başqası istəyir zor iş-

lədəsən, güclə təslim eləyəsən. Yadında deyil, sən Tanrıgülü demək olar ki, zorla fəth elədin? Və sənin bu cəsarətin onun çox xoşuna gəlmişdi. Demişdi: «Mən belə xoşlayıram».

Leylanın əgər rəyi olmasaydı, qapını örtərdi və sonra arxadan cəftələrdi. Eləmədi. Divar… Əşi, nə divar, evin içində nə divar ola bilər, ay avam? «Lənətə gələsən, kor şeytan. Yenə gəldin girdin ürəyimə. Çox fərli adama fitva verirsən. İndi duracağam, keçəcəyəm yanına… Sonra da içindən ayrı bir əngəl çıxacaq, qoyub gedəcək, qalacağam çabalaya-çabalaya».

«Yox, Aslan. Sən uyma bu şeytan əclafın fitvasına. Otur yerində. Bir də axı sən ona «bacı» dedin. Nə tez yadından çıxdı?.. Kişi ol, Aslan. Hə, «bacı» sözünü deyəndə bayaq o nə isə qəribə sözlər söylədi… Hə, hə, üzdə «bacı»… xəlvətdə…» Hə, dedi ki, sənin də… elə bir müsibətin var… Dedi, dedi…»

«Dur ayağa, keç o biri otağa. Leyla yatmayıb. Yalandan özünü yatmışlığa vurub və özü də səbirsizliklə səni gözləyir. Əgər getməsən, sabah üzünə deməsə də, ürəyində deyəcək: «Sən də kişisən?»…

Ürəyində gedən bu səssiz-səmirsiz vuruşda şeytan üstələdi və o, ehtiyatla qalxıb çarpayısında oturaraq tumbanın üstünə qoyduğu siqaretdən birini yandırdı. Xeyli fikirləşdi və:

«Əşi, yüz dəfə mollanın sözünə baxanda, bir dəfə də şeytanın sözünə qulaq asmaq lazımdı» — dedi və ayağa qalxdı. Stolun yanına gəldi və sanki nə üçün gəldiyini unudaraq çaşqın halda o yan-bu yana baxdı.

«Yox, ayığam. İçmiş olsaydım, gedərdim!»

İçindəki ikinci səs rişxəndlə söylədi:

«Konyak vur bir az. Gözləyir o səni!»

«Hə, doğrudan a. Konyak heç yadıma düşmür». Və Aslan bayaqdan axtardığını tapmış adam kimi sevindi, gecə lampasını yandırıb soyuducudan yarımçıq şüşəni götürdü və stolun üstəki çay stəkanını ağzına qədər dolduraraq başına çəkdi. Açıq qutudakı fransız şokoladından birini ağzına atdı və əyləşdi…

Siqaretini çəkə-çəkə yenə götür-qoy eləməyə başladı. Bir neçə dəqiqədən sonra, özündə heç bir dəyişiklik hiss etməyə-

rək stəkanı bir də doldurub içdi. Yenə siqaretinə qüllab vurub alaqaranlıqda qarşıdakı güzgüdə özünə tamaşa eləmək istədi, nədənsə sir-sifətindən xoşu gəlmədi, üzünü yana çevirdi. Gözü yenə konyak şüşəsinə sataşanda…

«Görəsən yenə içim? Zəhrimarın heç təsiri yoxdu. Elə bil sudu. Eh, bu qalcağın nə olacaq» — deyə konyakın qalanını da doldurub birnəfəsə ötürdü…

«Niyaz əclaf! Oturmuşdum da yerimdə. Çiynində oturmamışdım, yerini dar eləmirdim. «Yox, səni burda saxlaya bilmərəm. Sən onun adamısan — deyir hamı. Gərək gedəsən. Deyirəm, ay yoldaş Niyaz, dünənəcən onun adamı idim, saxlarsan, bu gündən olaram sənin adamın. Mən az qüvvə deyiləm ha. Sənə xeyrim dəyə bilər». «Yox — dedi və məni bu günə qoydu. Eybi yoxdu, sənin də başına gələr, səni də qulağından tutub atarlar, onda məni başa düşərsən. Amma sənə mən çox böyük pislik elədin, Niyaz. Sən məni burdan atmasaydın, bəlkə Tanrıgül də elə eləməzdi…»

Leyla Aslanın yadından çıxmışdı.

«İtin belindən gələn köpəkoğlu. Mənim sənə nə pisliyim keçmişdi, ay Mehman? Səni pis dolandırırdım? Maaşın yaxşı, ərzağın bol, xalturan da öz yerində.

İndi sən belə ağız bəhəm eləmisən ki, mənim arvadımla… Lap o axmaq özü təklif eləsə də, sən gərək bu işə qol qoymayaydın. Deyərdin: «Aslan Fərhadoviçin çörəyi gözümü tutar, xanım! Mən o qələti eləyə bilmərəm». Sən əclaf isə onun üzünə qımışırsan da hələ utanmaz-utanmaz. Hələ gedib dostunun kabinetindən zəng də eləyirsən Leylaya. Dayan, dayan, qoy hər şeyi bilim, sənin ananı ağladacağam, itin belindən gələn haramzada»…

Qonşu otaqdan çarpayı cırıltısı eşidib qapıya sarı boylandı və yadına düşdü ki, Leyla ordadır. «Yatmayıb. Səni gözləyir. Dur, Aslan. Özünü biabır eləmə». Bu səs güclü idi, qətiyyətlə deyilmişdi o sözlər və Aslanı müti qul kimi ayağa qaldırdı. Şıqqıltı salmamaq üçün, oğurluğa gedən adam kimi, ayaqlarını yerə asta-asta basaraq açıq qapıya sarı addımladı. Astanada… dayan-

dı… Burdan Leylanı çarpayısının ayaq tərəfi aydın görünürdü. Elektrik pilətəsinin tək gözünün işıltısında çarpayının ağ nikelli ayaqlarının yanında qoyulmuş stulun başından asılmış xalatı — o Leylanın olan, ancaq bir neçə saat qabaq bu Leylanın geydiyi xalatı görəndə o, başa düşdü ki, qonağı soyunub… və bu, onu bir az da həvəsləndirdi, Leylanı alt paltarda, ağ yorğan-döşək içində təsəvvür eləyib içəri keçmək istəyəndə… qeybdənmi, göydənmi, haradansa gələn bir səs eşitdi və bu səs ona tanış idi — bu səs Leylanın öz səsi idi:

«Sən o divarı keçə bilməzsən, Aslan. Get yat, get yat, get yat…»

Aslan ayağının biri o otaqda, biri bu otaqda, dayandı, səsə qulaq asdı və istədi soruşsun: «Sən hələ oyaqsan, Leyla xanım? Sənə soyuq deyil ki?» — Ancaq bu sözləri ürəyində söylədi, dilinə gətirə bilmədi və birdən, key kimi, əmri yerinə yetirməyə borclu olan bir əsgər sayağı geri dönüb çarpayısına sarı gəldi, yerinə uzandı…

Qulaqlarında bir neçə dəqiqə bundan qabaq qeybdənmi, Leylanın özündənmi eşitdiyi o sözlərin ancaq axırıncısı getdikcə azalan bir ahənglə səslənirdi:

«Yat, yat, yat…»

Və onun kipriklәri qapandı.

… Aslan səhv eləyirdi, Leyla da yatmamışdı. Leyla bu elektrik plitəsinin tək gözü işıldayan alaqaranlıq otaqda haçandan bəri həsrətini çəkdiyi belə rahat yorğan-döşəkdə böyrü üstə uzanıb Aslan haqqında, onun qəribə, maraqlı, təzadlı həyatı haqqında düşünmürdü, səhəri, o birisi günü barədə fikirləşmirdi. Burada fikirləşməli bir şey də yox idi. Leyla arxayın idi ki, sabah bu dərd, namüəyyənlik içində dəli kimi çırpınıb çapalayan adam onun qabağında diz çöküb hətta bütün var-yoxunu belə verməyə razı olaraq ondan öz həqiqətlərini, şübhələrini aydınlaşdırmaq üçün yalvaracaq və Leyla da qulağına qeybdən deyilən, pıçıldanan, kimsənin eşidə bilmədiyi şeyləri olduğu kimi ona deyəcək, nəhayət o, toxtayıb rahatlanacaq. Düzdü, sarsılacaq, ağlayacaq, ölüb-diriləcək, ancaq həqiqəti biləcək. Əvəzin-

də, durulacaq, saflaşacaq və bəlkə də dəyişib tamam başqa adam olacaq. Leyla bunu da indidən bilirdi ki, Aslanın sabah, biri gün və bəlkə də gələcək bir neçə ayı çox çətin, sınaqlı, ağrılı keçəcək, o, çox əzablar çəkəcək. Bu əzablar bəlkə də o dünyada təpədən-dırnağa qədər günahlar içində itib-batmış hər hansı bir günahkar bəndənin çəkə biləcəyi ən dəhşətli əzablardan da ağır və dözülməz olacaq. Görünür, Aslan elə bir insandı ki, onun cənnəti də bu dünyadadı, cəhənnəmi də. Belə adamlar o dünyada behiştdə, qismətisə, görə biləcəyi xoşbəxtliyi, ləzzəti, nəşəni bu dünyada ala bildikləri kimi, əzablarını da bu dünyada çəkməli olurlar və onlar bu əzabların içində elə yanırlar ki, o dünyadakı əfsanəvi qır qazanında yanmaq bunun yanında elə də qorxulu əzab olmur. Hər halda Leylanın Aslan barədə ilk təəssüratı belə idi və bu, məsələnin ancaq bir tərəfi — Aslanla bağlı tərəfi idi. Və Leyla yerinə girənəcən öz təzə tanışı haqqında belə düşünmüşdü, lakin o, soyunub yatağında rahatlanaraq dua oxuyandan az sonra,bugünkü qəribə sərgüzəşti və onun qəhrəmanı barədə düşünməyə başlarkən yaxında hənirti duyub gözlərini açdı. Anasıydı. Ağappaq paltarda, başında qara kalağayı, ayaqları yalın halda onun çarpayısının böyründə dayanmışdı və eynən Leylanın gözləri kimi qonur, işıqlı və eyni zamanda silinməz bir kədər həkk olunmuş baxışlarını ona zilləmişdi. Çoxdandı gəlmirdi. Qızının yatdığı yer, qaldığı otaq pis olanda, narahat olanda arvad gözə görünmürdü; Leyla arzulasa da, çağırsa da harayına hay vermirdi. Ancaq elə ki, qızının bir balaca qarnı tox olurdu, üzü gülürdü, yatacağı, yurdu babat olurdu — ana elə bil yel qanadında uçub gəlir, Leylanı axtarıb tapır, ona doyunca tamaşa eləyir, danışdırıb ürəyinin hovunu-köpünü alandan sonra çıxıb gedirdi.

Çoxdan idi yoxdu, çünki çoxdan idi Leylasının günü-güzəranı pis keçirdi, nə doyunca yeməyi olurdu, nə gecələr rahat yatacağı. İndi onu görəndə Leylanın bədəni uçundu. Dodaqları səyridi, gözləri doluxsundu və qəhər boğmuş səslə lap ağzının içindəcə astadan pıçıldadı:

— Gəlmisən, ay ana? Qədəmlərinə qurban olum, ay ana. Bəs hardasan indiyəcən? Yoxsa məndən incimisən?..

O, başını yuxarı qaldırmaqla «yox» cavabını verdi.

— Niyə elə uzaqda dayanıbsan, ay ana? Yaxına gəlsənə. Yenə ayaq yalınsan, əynin-başın nazikdi, üşüyərsən axı. Xəstələnərsən axı. İndi bizim yerlərə yəqin qar yağıb.

— Yox, qızım, başına dönüm. Sən mənim fikrimi çəkmə, indi mənə heç nə lazım deyil. Hə, qar yağıb bizim yerlərə: hər yan ağappaqdı.

— Bizim evimiz də zəlzələdə uçdumu?

— Hə, yerlə-yeksan oldu, qızım… İçindəki o bişərəflər də məməyeyəndən pəpəyeyənəcən qaldı daşın-kəsəyin altında, qızım. Mən o ev uçanacan hər cümə axşamları ora baş çəkirdim, içəri girirdim, gəzirdim otaqları, baxırdım o vicdansızlara: mənim çarpayımda o qoca, əprimiş Haykanuş yatırdı, sənin yerində isə… onun başkəsən oğlu Zorik yatırdı… Baxırdım, baxırdım, gözlərimdən yaş sel kimi axırdı, yerə-göyə nifrinlər yağdırırdım, ürəyim soyumurdu ki, soyumurdu. Sonra uçub göylərə — qurban olduğumun yanına getmək istəyirdim — amma gedib çatmaqmı olur onun dərgahına? Yalvarırdım ki, ey ulu Tanrı, sən adilsən, sən zülmü yerdə qoyan deyilsən, qoyma bu zülm yerdə qalsın, ey ilahi pərvərdigar, qoyma bu zülm ərşə dirənsin, yoxsa sənin taxt-tacını da silkələyər bu zülm, qoyma buynuzsuz qoçun qisası buynuzlu qoçda qalsın, qoyma, qoyma, qoyma…

— Görürsən, qoymadı qalsın, ana. Uçurtdu, mənim torpağım çəkdi kamına o qansızları. Ancaq bir şeyə heyfsilənirəm, ana!

— Nəyə, bala?

— Axı bizim torpaq müqəddəs idi, təmiz idi — o murdarlar onun müqəddəsliyini pozdular deyəsən.

— Yox, bala, poza bilməzlər.

— Təki sən deyən olsun, ana. Bəs indi…

— Bəs indi haralardayam demək istəyirsən?

— Hə.

— Sonra qardaşımın, atamın — ailəmin qəbri üstə dolanırdım, can bala — təsəllimi onlardan alırdım. Ancaq vicdansızlar onu da mənə çox gördülər — traktor salıb şumladılar əcdadlarımız yatan o qəbristanlığı — hamarladılar, bağ-bağça saldılar.

— Ah, allah… ürəyim partlayır. Amma biz necə qəribə millət imişik, ilahi. Burada, Bakıda, bu boyda camaatın gözü qabağında yeni böyük qəbristanlıqda onların ölüləri yatır — bircəciyinə də dəyən olmayıb. Başdaşıları yerində, ətrafına əkilmiş ağaclar yerində… Çaşıb qalmışam — biz ya həddən artıq yaxşı millətik, ya həddən artıq axmaq millətik, ana! Bilmirəm.

— Yox, qızım. Küfr danışma. Bizim millətdən yer üzündə alicənab, duz-çörəkli və insaflı başqa ikinci millət tapa bilməzsən. Onları heç dilinə də gətirmə, onların millətlər cərgəsində yeri yoxdu. Sənin qardaşın neynəmişdi ki, onun zülmnən başını kəsdilər?

— Heç nə…

— Amma onun da — Surenin də başını kəsdilər, qızım! Qanı yerdə qalmadı qardaşının.

— Kim kəsdi ki, ana?

— Elə öz dığaları. Bir-birinin başını kəsən millətdən sən nə gözləyirsən, can bala?! Nədi, ağlayırsan? Niyə ağlayırsan, qızım?!

— …

— Ağlama, sənin göz yaşlarına dözə bilmirəm. Kiri, sən allah.

— …

— Bax, ağlasan, gedəcəyəm, daha gəlməyəcəyəm.

— Yox, yox, ağlamaram. Vallah, ağlamaram, ana. Getmə, getmə.

— Yer üzündə səndən və qardaşından başqa heç kəsim yoxdu. Bircə sizdən niyaranam. Oğlandan çox səndən niyaranam.

— O, indi odun-alovun içindədi. Mənə nə olasıdı ki, ondan qorxuram — tələf olacaq…

— Elə demə, qız. Bağrım çatlayar… Allaha tapşırmışam onu, qızım.

— Allah ağzından eşitsin, can ana. Amma onun axırının necə olacağını sən də bilirsən, mən də. Yadımdadı, sənin dediklərin düz çıxardı həmişə.

— Hə.

— Sən demişdin Hikmətə ərə getməyə razılıq verməyim. Sənin sözünə baxmadım.

— Hə.

— Amma sən bir şey də demişdin o zaman.

— Nə?

— Demişdin xoşbəxt olacaqsan.

— Demişdim, qızım.

— Bəs hanı? Mənim nə yaşım var ki, indidən saçlarım ağarır, ay ana? Saçları vaxtından qabaq ağarmış, ürəyi cavanlıq görmədən qocalmış qız kimin nəyinə lazımdı, ay ana?

— Yox, başına dönüm. Elə demə. Sənin o xoşbəxt olmalı vaxtın gəlib çatıb indi, qızım. Sən öz qismətini tapıbsan, can bala.

— Elə şey yoxdu, ana. Mən təkəm, yalqızam.

— Bilmirsən. Sən tapıbsan taleyini, qızım.

— Hanı bəs?

— O biri otaqda yatan kişi sənin bəxtindi, qızım. Allah çıxarıb qənşərinə…

— Nə danışırsan, ay arvad? O? Aslan ha?

— Hə.

— Əşşi, onun arvadı var, aşnası var. Üzü üzlər görüb onun. Yaşda da məndən çox böyükdür, ana. Ömründə elə şey ola bilməz.

— Olar. Elə mən bunu sənə demək üçün gəlmişəm, qızım.

— Axı o…

— Nə axı?

— O murdarın, satqının, alçağın biridi. Sən necə razı olursan ki…

— Mən razı oldum, olmadım, belədi, qızım.

Ana bu sözləri deyib susdu, bir az da irəli gəlib qızının başı üstə əlini fırlatdı, nəsə pıçıldadı və sonra heç nə söyləmədən yox oldu. Leyla ayıqlıqla yuxu arasında olan bir adam kimi qalxıb yerinin içində oturdu, dizlərini qarnına yığıb büzüşdü. Anasıyla söhbətini bir də təzədən yaşamaq, onun doğma səsini eşitmək istədi, ancaq fikri o qədər dolaşmışdı ki, yozub bir yana çıxarda bilmədi.

— İlahi, özün kömək ol, ilahi, özün yer üzündə yaratdığın, yaşatdığın insanları xoşbəxt elə, mən də onların arasında.

DÖRDÜNCÜ FƏSİL

Qəribə, əzablı və eyni zamanda şirin, maraqlı bir nağıla bənzəyən bu gecəni demək olar ki, səhərəcən çimir eləyə bilməyən, öz uzun, təzadlı, şirinli-acılı, sarsıntılı və rahatlıqla dolu ömür yolu kitabını fikrinin, xəyalının barmaqları ilə asta-asta varaqlayıb alt-üst, ələk-vələk edən, ən gizli, bir Allahın, bir də özünün bildiyini zənn etdiyi xatirələrini belə iyirmi-otuz illik mürgüsündən oyadıb təzədən «görmək», «yaşamaq» istəyən Aslan, gözləri qızarmış, başı qazan kimi şişib ağırlaşmış halda sübh tezdən oyanmışdı, yorğan-döşəyini səliqəyə salmış, üzünü təraş etmiş, çaydanı doldurub pilətənin üstünə qoymuşdu. Və sonra xeyli fikirləşib Pəhləvana — dəniz qırağındakı kababxananın müdiri, yaxın dostu olan və onun belə məclislərini çox az bir vaxt ərzində quş südündən başqa, hər cür naz-nemətlə bə-

zəməyi özü üçün böyük xoşbəxtlik sayan, cüssəli, bazburtlu, dünyagörmüş bir kişi olsa da, uşaq kimi mehriban, əliaçıq və səmimi olan Pəhləvana zəng eləmək yadına düşmüşdü və özünü danlamışdı ki, bunu niyə axşam xatırlamayıb, sonra Leylanın o qəribə söhbətlərinin, möcüzələrinin onu yamanca çaşdırdığını xatırlayıb gülümsünmüşdü və bir növ «öz günahını» bağışlamışdı. Pəhləvanın dəniz qırağındakı bu kababxananı açmasında Aslanın böyük xidməti olmuşdu, icazəni o almışdı və neçə il idi ki, Pəhləvanın bu kababxanası yay, qış bütün şəhərdə yeyib-içən, kefkom oğlanların, kompaniyaların seçib bəyəndiyi və tez-tez gəlib-getdiyi bir istirahət guşəsinə çevrilmişdi: Pəhləvan az bir müddət içində sərvətlənmiş, özünü yaxşıca tutmuşdu, ancaq bəzi görməmişlər kimi, qudurub harınlayıb cızığından çıxmamış, elə əvvəlki sadəliyi, mehribanlığında qalmışdı. O, müştərilərini elə gülərüzlə, elə səmimiyyətlə qarşılardı, xidməti elə yüksək səviyyədə elətdirərdi ki, bir gələn, bir də gəlmək istəyərdi, axırda, məclisin sonunda haqq-hesab çəkiləndə də kimsə qəpik-quruş söhbəti eləməzdi. Milis də, katib də, oboxees də ona dəyib-dolaşmaz, haqq almazdı; çünki Pəhləvanın kababxanasının üstündə qeyri-rəsmi Aslanın adı vardı. Ancaq Pəhləvan ora gəlib-gedən adamları elə qarşılayıb elə yola salırdı ki, onlar da Pəhləvanı öz adamları sayırdı və üstəlik pul da almaq istəməməsini görüb ondan çox razı qalırdılar. Bir sözlə, Pəhləvan bütün dostlarının içində birinci yerdə Aslanı qoymuşdu və onun bir xahişini iki elədiyi, onun, nə bunun yadına gəlməzdi. Aslan, o biri otaqda yatan Leyla səsini eşidib yuxudan ovgər olub ayılmasın deyə Pəhləvanla yavaşcadan danışırdı.

— Pəhləvan, qonağım var. Hə? Bir nəfərdi, yəni ikimizik. İki gün də burdayıq. Yaxşı, nəyin varsa, təşkil elə, siqareti unutma ha. Özün gətir, hə. Yaxşı. Sağ ol. Bacardıqca tez elə.

— Baş üstə, qədeş, yarım saata ordayam.

Sonra Aslan stolun üstünü təmizlədi, dəm çaynikinin köhnə pıçalını boşaldıb təzədən dəmlədi. Səliqə-sahmana xüsusi diqqət yetirdi və oturub çarpayısının böyründəki radio-

qəbuledicini burub lap asta ayaqda qoyaraq son xəbərlərə qulaq asmağa başladı və hansısa məlumatın son cümləsini: … «ermənilər hücuma keçmişlər!» — eşidən kimi radionu söndürdü.

Fikri dolanıb Leyla xanım oyanandan sonra başlayacaq (yəni başlayacaqdımı, bəlkə heç bir söhbət baş tutmayacaq, Leyla bir şeyi bəhanə edəcək və çıxıb gedəcəkdi?!) ağır, çətin söhbətin üstünə gəldi və oturduğu yerdə dizlərinin əsdiyini hiss eləyib büzüşdü. O, ömründə xeyli mürəkkəb, məsuliyyətli görüşlərə getmiş, qəbullarda olmuşdu, hətta ən çox çəkindiyi BİRİNCİnin qəzəbli vaxtlarında qəfildən köməkçisinin zəng eləyib kişinin onu çağırdığını deyəndə belə bu cür sarsıntı və həyəcan keçirməmişdi. «Qeyri-müəyyənlik içində olmaq, ölüm hökmü gözləməkdən də betərmiş» — deyənlərə indi haqq qazandıra bilərdi.

Axşamkı hərəkətini xatırladı, içdiyini, Leylanın yanına getmək xəyalına düşdüyünü yadına salıb peşiman oldu. «Yəqin bildi o mənim fikrimi. Öl köpək oğlu, nəfsinə tət deyə bilmirsən. Elə bilirsən dünyanın axırıdı. İndi onun üzünə necə baxacaqsan? Utanıb yerə girməyəcəksən?» — deyə gecəki əməlinə görə özünü çox danlayan Aslan, nəhayət «Yox əşi, bilməz. Yatmış olardı Leyla o zaman. Ta o gecə yatanda da yeri-göyü, adamın ürəyini görməyəcək ki?» — deyə özünə təskinlik verib həyətə çıxdı, meynələrin arasında gəzindi, saralmış yarpaqların altından iki-üç qıra kişmiş üzümü tapdı, sonra divar dibi boyunca əkilmiş nar ağaclarından iki dənə partlamış nar dərdi və qayıdıb hovuzun kranını açaraq üzümləri yuyub dikələndə çöl darvazasının qabağında maşın səsi eşidib iti addamlarla ora cumdu.

Gələn Pəhləvan idi. Mehriban görüşdülər. Hal-əhval tutdular. Sonra Pəhləvan az qala ağzınacan dolu həsir zənbili maşının baqaj yerindən götürüb balaca qapıdan içəri girdi. Zənbili görən Aslan:

— Adə, nə qədər şey gətirmisən? — deyə təəccübünü bildirəndə Pəhləvan təvazökarlıqla:

— Elə bir şey deyil, Aslan qədeş! — dedi. — Bala-bala yeyərsiz, nuşican olsun.

— Əsas siqaretdi, Pəhləvan.

— Gətirmişəm, qədeş.

— Çox sağ ol, Pəhləvan. Sən get, mən özüm apararam.

— Sizə əziyyət olmaz?

— Yox, yox, apararam…

Aslan bir əlinə zənbili aldı, o biri əlini ona uzatdı:

— Çox sağ ol, Pəhləvan.

— Dəgməz, qədeş. Bir şey lazım olsa, zəng elə, genə gələrəm, gətirərəm.

Pəhləvan gedəndən sonra Aslan yuxarı çıxdı, zənbilləri yerbəyer elədi. Nəlbəkiyə qara kürü qoydu, yumşaq təndir çörəyini çörək qabına, balıq kababını bir boşqaba, tikə ilə lüləni ayrı bir qaba çəkdi. Stolun üstə bir şampan, bir konyak qoydu. Pomidor-xiyar doğradı, göy-göyərti düzdü. Qalan şeyləri soyuducuya yığıb nigaranlıqla yan otağa sarı boylananda sol qapıdan içəri girən Leylanı görüb:

— A, sən oyanmısan, Leyla xanım? — dedi. — Sabahın xeyir.

— Sabahın xeyir, Aslan bəy. Nə tezdən durmusan?

— Hə, mən həmişə tezdən dururam. Xüsusən bağda olanda. Necə yatdın? Üşümədin ki? Yerin rahat idimi barı?

— Çox sağ ol, bəy. Hər şey əla idi.

Aslan fikir verirdi: Leyla əl-üzünü yumuşdu, öz köhnə paltarlarını geymişdi, üzündən-gözündən rahatlıq yağırdı. Aslan istəyirdi qız stolun üstünə baxsın, oraya düzdüyü naz-nemətlərə baxıb təəccüblənsin, onun bu fədakarlığını qiymətləndirsin, heç olmasa quruca bir xoş söz desin. Ancaq yox, Leyla elə bil stolu görmürdü, elə hey Aslanın üzünə, çal saçlarına, qarnına, ayaqlarına baxırdı; deyəsən heç onun dediklərini də eşitmirdi və Leylanın belə eləməsi Aslanı lap çaşdırmışdı. «Deyəsən mənə qəzəbi tutub». Belə düşündüyündən tez qorxub günahkar kimi gülümsündü və araya söz qatmaq üçün:

— Əyləş, Leyla xanım. Yəqin acından ürəyin axır, — dedi. — Elə mən də yaman acmışam. Bir zavtrak eləyək.

Leyla yalnız indi çönüb stola baxdı, heç nə demədən güzgü ilə qabaq-qənşər stulda əyləşdi. Güzgüdə özünə ötəri bir nəzər salıb əlini təndir çörəyinə uzadaraq:

— Bismillah! — deyərək bir tikə kəsəndən sonra: — Sən də möcüzə eləmək istəmisən deyəsən, ha, Aslan bəy — söylədi. — Bu qədər yeməyi neyləyirdin? Hər qonağın üçün Pəhləvana bu qədər əziyyət verirsən ya ancaq…

İstədi yalan danışsın, ancaq çəkindi:

— Hə, Leyla xanım… Mən ümumiyyətlə qonaqpərvərəm. Tək boğazımdan heç nə keçmir. Qonaq-qara olanda iştahla yeyib-içirəm. Eh, ay Leyla xanım. Bilmirəm səhv fikirləşirəm, ya düz fikirləşirəm. Məni bundan sonra nə atam əkəndi, nə anam doğandı. — İkinci dəfə də dünyaya gəlmək imkanı çox güman ki, yoxdu və olmayacaq da. Ona görə mənim fəlsəfəm belədi: Ye, iç, kef çək, dünyada nə arzu, kamın var, al, yaşa, öləndə də bir şeyin dalınca gözün qalmasın. Düz demirəm sən Allah? Yoxsa, bəlkə düz demirəm?

— Yox, düz demirsən, bəy. Təəssüf ki, sənin kimi düşünənlər çoxdu və onlar səhv eləyirlər. Bu dünyada Allah-təalanın insana verdiyi müvəqqəti ömür o dünyadakı əbədi ömrün bir anıdı və Allah bu bir anı səni sınamaq, yoxlamaq, imtahan eləmək üçün verir və sənə də imkan yaradır ki, o əbədi ömrünü xoşmu, pismi keçirmək yolunu özün seçəsən. Bunu da öz əməllərinlə qazana bilərsən — bu dünyada əzab çəkə bilərsən, amma orada əbədi ömrünü xoşluq və rahatlıq içində keçirərsən. Bu bir anın əzabıyla o əbədiyyətin əsasını qoymuş olarsan və əksinə, Aslan bəy.

— Axı, bu nəqddi, Leyla xanım, o isə nisyədi? Mən gözlərimlə gördüyümə inanım ya eşitdiyimə? Axı heç kəs o dünyadan gəlməyib və bir inandırıcı xəbər də gətirməyib ki, mən də bu fəlsəfənin həqiqət olduğuna inanım? Qurban olum Allaha, bax, bir nəfəri gətirsin o dünyadan və o da hamıya danışsın…

Çox demirəm, bircə nəfər… — Aslan birdən dayandı və yenə günahkar uşaq kimi böht içində Leylaya baxdı:

— Vay, gör mən nə danışıram, aman Allah. Bağışla, sən allah, məni. Mən ac olanda beynimə axmaq-axmaq şeylər gəlir və məni yoldan çıxardır. Allah şeytana lənət eləsin, — deyib acgözlüklə yeməyə girişdi və üzünü ona tutub: — Sən Allah, iştahla ye, mənə də nuş olsun — söylədi.

— Yeyirəm.

Aslan konyakı açdı və özünə də, Leylaya da içki süzdü. Və həmişə adət elədiyi kimi, piyaləsini onunkuna vurub:

— Sənin sağlığına, əzizim — dedi. — Bir də sabahın xeyir. Və Leyladan heç bir cavab gəlmədiyini görəndə qədəhi başına çəkib içdi. Daha dilinə vurmadı.

Yemək dəstgahı qurtarıb ortalığa çay gələndə araya öldürücü bir sükut çökdü, Aslan siqaret yandırdı və asta-asta çəkə-çəkə gözlədi. Ancaq Leyla elə bil heç nə deməyə tələsmirdi. Arxayın-arxayın çayını içir və sükut içində Aslana tamaşa eləyirdi. Aslan hardan biləydi ki, Leyla axşam mərhum anası ilə görüşüb, danışıb və arvad əziz ciyərparasına yuxusunda da görə bilməyəcəyi sözlər deyib, Leylanı çaşqınlıq içində qoyub gedib.

Leyla özü indi suallar qarşısında qalıb: əgər anası deyən doğru olacaqsa, — yəni bu qabağında əyləşib iştahla siqaret çəkən Aslan onun alın yazısında yazılmış qismətidisə, nə üçün mövlası ona dünəndən bəri heç nə söyləməyib? Niyə susub? Hər şeyi Leylanın ürəyinə, beyninə pıçıldayan o sehrli varlıq niyə bu qədər çox istədiyi, bəlalardan qoruduğu əzizini xəbərdar eləməyib ki, bax, sənin belə bir macəran da olacaq? Anası deyir, amma o yox? Axı anası da doğru danışan olub? Bəs?.. Suallara Leyla özü də cavab verə bilmirdi və qətiyyətsiz də olsa, anasına ürəyində etiraz eləyirdi: «Yox, ana, bu, ola bilməz. Sən deyən kimi olsaydı, mövlam da mənə bir söz deyərdi, ana!»…

Leylanı fikirdən Aslanın səsi ayırdı:

— Deyəsən… mən sənin xətrinə dəymişəm, Leyla xanım. Bağışla, sən Allah, məni. Axşam… mən… bir qələtdi eləmişəm… Keç günahımdan…

— …

— Bağışlamırsan?

— İnsansan. Sənin qəlbini şeytanlar işğal eləyib, içində bardaş qurub oturublar, bəy. Qul kimi, ağılsız uşaq kimi hara istəyirlər, çəkib aparırlar səni. Sən zəif iradəli adamsan, ürəyində Allaha, Tanrıya məhəbbət olmadığına görə, onlar orda özlərinə isti yuva qurublar və səni qul eləyiblər.

— Bunda mən günahkaram?

— Səndən də çox sənin valideynlərin günahkardı, bəy. Onlar səni başa salmayıblar, öyrətməyiblər. Evinizdə Allah kəlamı eşitməyibsən.

— Onda heç ata-anamın da günahı yoxdu, Leyla xanım. Sən bilirsən ki, qoymurdular, qadağan idi.

— Hə, Şura hökuməti Allahsız hökumət idi, elə şeyləri qadağan eləmişdi, bilirəm. O, yaxşı başa düşürdü ki, müsəlman öz Allahına inamı ilə qüdrətlidi, basılmazdı, diz çökməzdi: onu qul eləmək üçün o inamı ürəyindən nəyin bahasına olursa-olsun çıxartmaq lazımdı və müruri-zamanla adamlarımızın əksəriyyətinin ürəyindən onu çıxartmağa da müvəffəq oldu… Az-çox dini-islami bilənlərimizi, yaşadanlarımızı yaxaladılar, aradan çıxartdılar, yaranan yeni nəsillər isə bütün o zəngin mənəvi-daxili paklıq xəzinəsindən xəbərsiz böyüdü və sənin kimi bəzi əyyaşlar əmələ gəldi. Mən üzr istəyirəm a. Və nəticəsi də göz qabağındadı…

— Demək, o kişi — Aslan qaşlarını yuxarı qaldırmaqla göyə — Allaha işarə elədi — bilir ki, mənim və mənim kimilərin günahı yoxdu bu məsələdə. Bilirmi?

— Bilir…

— Ay sağ ol… Onda o, qurban olduğum gərək məni bağışlasın da. Axı… mən bilə-bilə onu qəlbimdən silməmişəm — zornan sildiriblər və qəlbimizi bomboş eləyiblər ki, indi sən

deyən kimi, şeytanlar gəlib oturublar orda… Bax, şeytan dedim, yadıma düşdü. Bir məni başa sal görüm bu şeytan dediyimiz əcinnəni Allah yaratmayıb?

— Yaradıb!

— İndi icazə ver, səndən soruşum. — Əgər o qurban olduğumuz öz bəndələrini çox istəyirdisə, niyə bu şeytanı da yaradıb salırdı onun canına ki, o da mənim kimi zəifləri toruna salıb bəd-bəd işlər görməyə sövq eləsin? Hə? Niyə yaradırdı?

— Ona görə yaradırdı ki, sənin — öz yaratdığının iradəsinin möhkəmliyini, sədaqətini yoxlasın. Yaxşısı ilə pisini ayırsın insanların. Yoxsa…

— Hə, yoxsa nə? Yoxsa onun yaratdığı cəhənnəm boş qalardı? Ora göndərməyə günahkar bəndə tapılmazdı? — Aslan bunu deyib birdən konyak şüşəsinə əlini uzatdı — icazənlə, birini də içim. Bunlar çox maraqlı məsələlərdi, mən istəyirəm biləm ki… — deyib özü üçün konyak süzdü.

— Bax, görürsən, içindəki şeytan səni qızışdırdı — o birinci qədəhi də içməsəydin, heç bu suallar sənin beynində doğmayacaqdı, bəy. İç, indi görək daha nə deyəcəksən. — Aslan qımışdı və çox uzağa getdiyini, öz dərdlərini yaddan çıxartdığını anlayıb ürəyində: «Yox, içməyəcəyəm!» — desə də, elə bil gözə görünməz bir əl onun qolundan yapışıb qədəhi birnəfəsə başına çəkməyə məcbur elədi. Sanki özündən asılı olmayaraq tutduğu bu iş üçün yanında dayanmış kimisə günahlandırmaq, danlamaq üçün ətrafına baxındı. Heç kəs yox idi, ola da bilməzdi.

— Axtarma, görə bilməzsən. Şeytan içində oturub, bəy. İradəni tamam alıb əlindən. Bircə saniyə bundan qabaq sən özlüyündə; «Yox, içməyəcəyəm!» — söyləmədinmi!

— …

— Söylədin: ancaq bacara bilmədin, kişi kimi sözünün üstündə dura bilmədin.

— …

Aslan, dilini udmuş kimi heç nə demirdi, deyə bilmirdi. Eləcə dirsəyini mizə söykəyib sağ əlini təmiz təraş olunmuş üzünə dirəmişdi və yazıq-yazıq Leylaya tamaşa eləyirdi. Leyla da susmuşdu, ona diqqətlə baxırdı, elə bil öyrənmək, tanımaq, sifətinin cizgilərini, alnının qırışlarını yadda saxlamaq istəyirdi. Qəribə idi, anasının axşam gördüyü qiyafəsi gözlərinin qabağından çəkilib getmirdi: o, bilirdi ki, arvad «gəlməyib», indi burda yoxdu. Ancaq sözlərini — axşamkı sözlərini ap-aydın eşidirdi Leyla. Nə qədər qəribə olsa da, heç cür inanmaq istəmirdi o sözlərə. «Yox, qulağım səsə düşüb! Elə bir şey olsaydı, «O» mənə deyərdi, mütləq deyərdi». «Axı anam gəlmişdi. Dedi axı…» «O» deməyincə inanmaram. Yox, inanmaram! — Leyla Aslana baxa-baxa öz ürəyində beləcə danışırdı və az qala Aslanı da unutmuşdu ki, birdən gözləmədiyi halda, kişi ayağa qalxdı, stulun tərpənməsinə qız da xəyaldan ayrıldı və sanki harada olduğunu xatırlamağa çalışdı

Bu zaman artıq səbri, hövsələsi tükənmiş Aslan uzun, enli, qədimi mizin bu böyründən o böyrünə keçib düz Leylanın qənşərində dayanaraq:

— Leyla xanım, — dedi və səsinin titrədiyini hiss eləsə də, davam etdi: — Leyla xanım, sən mənim ürəyimi partladmaqmı istəyirsən, anam, bacım? Niyə iki gündü məni üzürsən? Mən ölürəm axı? Məgər görmürsən? Sən ki, hər şeyi görən və bilən bir adamsan! Görürsən ki, mənim bağrım çatlayır, suallar, şübhələr məni öldürür, dayana bilmirəm, yaşaya bilmirəm. Bu murdar insanlar arasında — bu yalançılar, gözdən pərdə asanlar arasında yaşamaq nə müşkülmüş, ilahi? Səni tapanda, sənə rast gələndə, gördün ki, uşaq kimi necə sevindim? Bax, nə istəyirsən verim, nə qədər istəyirsən verim, ancaq məni xilas elə, qurtar bu şübhələrin əlindən. Dünəndən gözləyirəm ki, bir söz deyəcəksən, sakitləşəcəyəm. Sən isə oxun atıb yayını gizləyə-gizləyə nigarançılıqlarımı bir az da artırırsan.

Qurban olum, mənə dağdan-dərədən danışma, mənim ağzımı dağa-daşa salma. Ayağının altında ölüm.

Və Leyla gördü ki, Aslanın bu sözləri deyə-deyə gözləri yaşarıb, tamam zavallı bir günə düşüb. Bu dəfə ona çox rəhmi gəldi, ancaq qəribə bir soyuqqanlıqla dedi:

— Yaxşı, yaxşı, özünü ələ al, həyəcanlanma, Aslan. Keç yerində otur, nə istəyirsən, soruş…

— Qoyursan ki, soruşam? Qorxumdan soruşa bilirəm ki? — deyə Aslan əmri icra eləməyə məcbur bir əsgərsayağı çevrilib əvvəlki yerində oturdu: — Ha istəyirəm mətləbə yaxınlaşım, sən uzaqlaşırsan. Bir söz deyən kimi bir uzun dastan başlayırsan, qalıram içimdən qırıla-qırıla.

Leyla mehriban-mehriban qımışdı. (Aslan isə bu sözlərinin onun xətrinə dəyəcəyini ağlına gətirib az qala sarısını udmuşdu).

— Niyə sənə elə gəlir ki, ancaq sən dərdlisən? Məgər mən adam deyiləm? Məgər mənim dərdim yoxdu? Mən də sənə deyirəm dərdlərimi, başqa adama deməyin mənası yoxdu, bəy. Çünki, sən o adamlardan birisən ki, hardasa mənim və mənim kimilərin bu hala düşməyində azmı, çoxmu dərəcədə günahkarsan! Görmürsənmi ki, mən səni mühakimə eləyirəm, ittiham eləyirəm? Bəlkə bu məsələlərə görə səni heç qanuni şəkildə, rəsmi surətdə ittiham eləməyəcəklər, sən bəlkə də heç müttəhimlər kürsüsündə oturmayacaqsan. Çünki səndən də böyük günahkarlar var və əgər bu millətin mənliyi, qeyrəti varsa, onları göyə çıxsalar da, yerə batsalar da, hətta öləndən sonra da ittiham eləməlidi, cəzalandırmalıdı; ola bilsin o zaman sən heç yada düşməyəsən… Yox, yox, yada düşəcəksən, Aslan. Bəlkə də çox ürəyi yumşaq olan bu xalq sənin xırda-xuruş günahlarını bağışlaya, ancaq ən böyük günahını — dünən dediyiniz günahını — doxsanın yanvarı günahını heç cür bağışlaya bilməz. Bağışlamamalıdır da…

Aslan yerində qurcuxub yenə hövsələsini basmağa çalışaraq, bacardığı qədər səsinə mülayim bir ahəng verib söylədi:

— Yox, Leyla xanım. Sənինlə danışmaq daha mümkün deyil. İndicə ağzımda sənə bir quranlıq söz dedim, sən yenə…

Leyla başını silkələdi.

— Bağışla, Aslan. Yeri gəldi, özümü saxlaya bilmədim. Daha öz dərdlərimi — səsinin ahəngində bir kədər duyuldu… — dilimə gətirməyəcəyəm. Dünya belədi, hər kəs öz ölüsü üçün ağlayır, bəy. Sən öz hayında ikən…

— Xətrinə dəydim deyəsən. Üzr istəyirəm, keç günahımdan, sən allah. Əsəblərim tamam-kamal korlanıb. Allah pis adamlara lənət eləsin…

— Axı mən neynəyim? Sən özün elə sözlər deyirsən, mən də istər-istəməz danışmalı oluram, bəy.

— Yenə nə dedim ki?

— Dedin ki, allah pis adamlara lənət eləsin.

— Hə, dedim.

— Bax, indi mən necə deməyim ki, min lənət.

— De də.

— Bəs onun dalınca mən necə deməyim ki, o pis, lənət oxunan adamlardan biri də elə sən özünsən, Aslan! Necə deməyim, hə?

— …

— Nədi? Yoxsa sən özünü dünyaya təzə gəlmiş uşaq kimi tər-təmiz hesab eləyirsən? Yoxsa sənin əllərin pak, vicdanın pak, ürəyin pakdı? Yoxsa sən… oğru, rüşvətxor, ev yıxan olmamısan? Sənin pislik elədiyin adamlar çox-çoxdu, sənə pislik eləyənlər isə… azdı. Amma dözə bilmirsən, lənət oxuyursan. Bu hesabla indi gör sənə nə qədər adam nə qədər lənət oxuyur… Cəmdəyinə bunca lənətlər yağdırılan, adın gələndə yeddi arxandan üzü bəri söyülən, qarğışlanan sən, hələ bir xoşbəxt olmaq istəyirsən, rahat yaşamaq da istəyirsən? Yox, sən görməsən də, bilməsən də, qəbul eləməsən də, yer üzündə bir mizan-tərəzi var, hər şeyi ölçüb-biçən var, Aslan. Əgər bu, belə olmasaydı, dünya çoxdan dağılmışdı, inan! Əgər sən indi içində qovrulduğun bu bəlalara düşməsəydin, özünün istədiyin kimi hər işin yağ kimi getsəydi, fikrin, əlin, qolun açıq olsaydı, sən elə pisliklərini, əclaflıqlarını, yalançılıqlarını, ikiüzlüklərini, nə bilim daha nələrini, nələrini davam etdirəcəkdin, evlər yıxacaq-

dın, neçə-neçə kişini namussuz, neçə-neçə qızı-gəlini ismətsiz eləyəcəkdin və elə biləcəkdin ki, bu belə də olmalıdır, sən haqlısan, sənə hər şey mümkündür, çünki sənin pulun var, vəzifən var, sən… böyük adamsan…

Aslan az qalmışdı ki, əlini atıb o boyda stolu çevirsin, qışqırıb Leylanı şillələmək üçün üstünə cumsun, birdən qız xırda döşlərini stolun qırağına söykəyib başını irəli uzadaraq, Aslanın düz gözlərinin içinə baxdı və yumşaq bir tərzdə (elə bil azca əvvəl ağzından od püskürən o deyildi) soruşdu.

— Aslan bəy, sən heç ömründə bir dəfə özünə sual veribsən ki, bu məqama, bu vəzifəyə niyə və necə gəlib çıxmısan?

Aslan bir az əvvəl edə biləcəyi dəliliyi etmədiyinə o qədər sevindi ki, elə bil ona dünyanı bağışladılar. Çünki Leylanın bu müraciətindən başa düşdü ki, nəhayət, başlayır və fikri o qədər çaş-baş oldu ki, qəfildən verilmiş bu sualın cavabında gözlərini döydü. Qız ayrı-ayrı sözlərlə təkrar elədi:

— Məsələn, heç fikirləşibsənmi ki, sənin deyək Əlidən, Rəşiddən, Yaşardan nəyin artıq olub ki, bu məqama gəlib çıxıbsan? Deyəcəksən savadım? Məsələn, Əlinin, Yaşarın savadı səndən də çoxdur. Və onlarla adam göstərmək olar ki, səni savadda susuz aparıb, susuz gətirərlər. Elədimi?

— Ola bilər…

— Deyəcəksən ki, təşkilatçılıq qabiliyyətim, rus dilini bilməyim və s. Yenə boynuna ala bilərsən ki, bu sahədə də səndən bacarıqlı oğlanlar çoxdu, həddindən artıq çoxdu. Bəs onda niyə sən? Hə?

— …

— Yox, soruşuram da. Niyə sən?..

— …

— Bilirəm niyə susursan…

— Niyə? — Aslan qorxa-qorxa xəbər aldı.

— Ona görə ki, səni bundan, bu məsələdən daha artıq o biri məsələ maraqlandırır…

— Hansı məsələ?

— Tanrıgülün məsələsi.

— Hə.

— Görürsən, sən. — O, nə isə ağır söz — «sən namussuz imişsən də» deməkdən özünü güclə saxladı — Yox, əvvəl bu sualı aydınlaşdırmalısan özünə.

— Axı hansı sualı? Vəzifə məsələsini? O məni az maraqlandırır, Leyla xanım. Keçib getmiş şeydi o.

— Yox, Aslan, sən səhv eləyirsən. O elə birbaşa sənin bu gün rahatlığını pozan əsas məsələnin — yəni sənin Leylanın məsələsidir.

— Hə?

— Bəli.

— Axı… vəzifə ilə… Leylanın nə əlaqəsi ola bilər, Leyla xanım?

— Ay, ay, sən bic, usta olduğun qədər də avam olmusan, deyəsən. Ya da özünü avam göstərmək istəyirsən…

— Yox, vallah.

— Aslan? Axı demişəm, mənə necə varsan, elə görün. Görünməsən də görəcəyimə əminsən, elə deyil?

— Elədi.

— Onda… danış. Danış görüm… Siranuşla — bu köhnə Bakı ermənisi ilə… necə tanış olmağın məlumdu. Sən Stavropolda tələbə olanda onların evində kirayənişin olmusan. Sonra evlənmisən, institutu qurtarandan sonra Bakıya gəlmək ərəfəsində onun adını dəyişib — qaynatanın təklifi ilə, əlbəttə, Leyla qoymusan. Bakıya gəlmisən. Yenə Siranuşun Bakıda, Bakı Sovetində işləyən, küçələrə ad qoymaq məsələsi üzrə görkəmli mütəxəssis sayılan əmisi Badamyanın evində yaşamısınız… Bunların hamısı məlumdu… Danış görək necə oldu ki, Stavropoldan təzəcə Bakıya gəlmiş, heç kəsin tanımadığı… heç kəsi tanımayan səni necə oldu birdən-birə Mərkəzi Komitəyə işə apardılar?

Leylanın söhbəti ciddiləşmişdi — bunu onun danışığından da, gözlərindən də oxumaq Aslan üçün elə də çətin deyildi.

Leylanın baxışları dünənki, bu gün səhərki: lap bir az bundan qabaqkı adi, azca kədərli, azca məsum baxışlara oxşamırdı. Stolun üstəki sol əlinin barmaqlarını yummuşdu, sanki o ovcundakı kəpənəyinmi uçacağınımı, işıldaböcəyimi qanad açıb gedəcəyindən qorxurdu qız. Ancaq Aslanın qarşısında oturanın bu zahiri dəyişikliklərini ətraflı, dəqiq görəsi, təhlil edəsi və məna verəsi halı yox idi. Bu dəqiqə o, çətin bir imtahanın çətin sualları qabağında dayanmış və nə edəcəyini, nə deyəcəyini bilməyən bir fərsiz şagirdə oxşayırdı. Beyni qarışmışdı, çünki Leyla onu dünənə yox, srağagünə yox, on il bundan öncə olub keçmiş günlərə, hadisələrə qaytarmaq istəyirdi — onun yaddaşı buna kömək edəcəkdimi? Çünki Aslan ancaq özünün xoş günləri ilə bağlı xoş saatları, hətta dəqiqələri — onu da əgər onlarda ləzzət, nəşə varsa, əgər bu, bir gözəl qadının vüsalı, verdiyi həzzlə bağlıdırsa — yadında saxlamağa adət eləmişdi, qalan şeylər, hətta kədərli olsalar belə, onun yaddaşına yazılmamışdı, əgər yazılanı olmuşdusa da, tez pozulub getmişdi. Ümumi qonaqlıqlar, iclaslar nə idi ki, Aslan onları da unutmayaydı?

Amma yox, Leyla sualı ayrı cür qoymuşdu — o, həmin uzaq illərin əhvalatlarını, adamlarını soruşmurdu, konkret xəbər alırdı — səni ora, yuxarıya, Mərkəzi Komitəyə kim aparmışdı və nəyə görə, Həsəni, Əlini, Vəlini yox, məhz səni? Axı, Leylanın qırımından elə anlamışdı ki, Siranuş əvvələ salınıb; hər şeydən qabaq, həttaTanrıgüldən də qabaq ondan başlamaq qərarına gəlib! Görəsən niyə?

Aslan bu suallar əlində çırpınırdı, Leyla isə cavab gözləyirdi. İki şeydən biri idi: Aslan ya xatırlamırdı, ya da demək istəmirdi. Bu isə zahirən, nisbətən təmkinli görünən Leylanı içəridən əsəbləşdirirdi.

— Əgər doğrudan da sənin əlindən tutan, adam içinə, böyük yola çıxaran adamı yaddan çıxartmısansa, onda sən eyni zamanda qədirbilməz, yaxşılıq qanmayan bir adam imişsən, Aslan.

— Yox, elə deyil, Leyla xanım. Mən nə yaxşılığı, nə də pisliyi unudan adam deyiləm.

— Bəs onda niyə susursan?

— Bilirsən, Leyla xanım, mən fikirləşirəm ki, bunun məsələyə nə dəxli var axı? Deyəsən sən Leyladan başlamaq istəyirdin axı.

— Hə, elədi. Sən öz bədbəxtliyinin tarixini bilməsən, indiki halını başa düşə bilməzsən, Leylanın Mehmanla qaş-göz eləməsinin dəhşətini yaşaya bilməzsən, Aslan?

— Hə? Sən nə danışırsan?

— Bəli. Sən indinin bədbəxti deyilsən. Sənin bədbəxtliyinin tarixi Stavropolda, o Siranuşa rast gələndə qoyulmuşdu, lakin sən bunu anlamırdın, anlaya da bilməzdin. Çünki Leyla, sənin Siranuşun həqiqətən gözəl idi, boy-buxunluydu. Bir baxan bir də dönüb baxmaq istəyirdi. Sənin gözün o zaman elə tutulmuşdu ki, onun gözəlliyinin tənasübünü pozan azca iri burnunu və ətli dodaqlarını da bir yaxşı məziyyət kimi qəbul edirdin.

— Sən Leylanı… Siranuşu görmüsən ki, onu belə təsəvvür eləyirsən?

— Yox, həyatda, beləcə sənin kimi üzbəsurət görməmişəm. Ancaq mən onu görürəm. Yoxsa, düz demirəm? Burnu yekə, dodaqları qalın deyilmi sənin Siranuşunun?

— Elədi.

— Sən yaxşısı budur, mənim fikrimi çaşdıran suallar vermək əvəzinə, siz Bakıya gələndən az sonra, Siranuşun əmisinin təşkil elədiyi o qonaqlığı yadına sal, bəy, o qonaqlıq sizinmi şərəfinizə təşkil olunmuşdu?

Aslan ani fikirdən sonra:

— Yox, Haykaz Adamyan — Siranuşun əmisi o qonaqlığı Həsən Quluzadənin — o zaman təzəcə üçüncü təyin olunmuş Həsən Quluzadənin şərəfinə təşkil eləmişdi.

— Hə, bax, indi mətləb üstünə gəlirsən. Qonaqlıq necə keçdi?

— Keçdi də. Yaxşı bir süfrə açılmışdı — quş südündən başqa hər şey vardı ortalıqda, içki bol idi. Haykaz Həsəni çox istəyirdi — yaxın dostu idi. Onun üçüncü seçilməsini bayram

kimi qarşılamışdı və dostunun təzə təyinatını yumaq qərarına gəlmişdi.

— Çox adam vardı?

— Yox, Həsən Quluzadə tək gəlmişdi. Haykaz idi, arvadı idi, bir də, bir də bizi çağırmışdı — Siranuşla məni.

— Haykaz o məclisdə sizi təqdim edəndə dedimi ki, Siranuş mənim qardaşım qızıdı?

— …

— Yadına sala bilmirsən?

— Deyəsən… demədi. Hə, xatırladım, sadəcə əziz qonşusu kimi tanış elədi bizi.

— Sən bilən niyə?

— Onda deyəsən belə bir söhbət olmuşdu ki, bilməsə yaxşıdı. Sonra Həsən elə bilər ki…

— Sən onun qohumusan. Bu qonaqlıq sizə gün ağlamaq xatirinə təşkil olunmuşdu. Əvvəlcədən Haykaz sənlə bu barədə danışmışdı?

— Yox.

— Siranuşla necə?

— Bilmirəm. Siranuş mənə bir söz deməmişdi.

— Əlbəttə, deməzdi də. Onlar — əmi və qardaşqızı səndən xəlvəti bu işi qurub qoşmuşdular.

— Nə bilim…

— Sən qonaqlıqda heç nə hiss eləmədin?

— Nə barədə?

— Həsənin Siranuşla… belə də… hayıl-mayıl olması… və s.

— Yox, yox. O, çox mədəni, intiligent bir adamdı. Özünü çox sadə, təmkinli, gözü-könlü tox aparırdı. Hətta təzə ailə qurmuş bizim şərəfimizə yaxşı bir tost da dedi, bizə xoşbəxtlik arzuladı… Yəni deyirsən…?

— Hə, Aslan bəy… Bunları sənə deməyə də bilərdim — ancaq deməliyəm, sən Siranuşu yaxşı tanıyasan deyə deməli-

yəm. — Nə qədər ağır olduğunu, sənin kişilik heysiyyətinin necə təhqir olunduğunu başa düşürəm. Di gəl, çarə yoxdu. Ancaq mən bir şeyə heyrət eləyirəm ki, sənin kimi bic, hiyləgər adam necə olub ki, heç nə başa düşməyibsən. Mənim rəhmətlik dayım deyərdi: külü qoyum o kişinin başına ki, altındakı atın harda, haçan büdrədiyini bilməsin, başa düşməsin. Görünür, cavan olmusan, təcrübəsiz olmusan onda.

— Yox, elə şey ola bilməz, Leyla. Siranuş, təzə gəlin…

— Belə düşünməkdə haqlısan, Aslan. Qanunla, adətə görə, belə olmalıdı — təzə gəlinin sevib təzəcə getdiyi adama xəyanət eləyə biləcəyinə sən də, mən də, ümumiyyətlə, heç kəs inanmaq istəmir. Ancaq bu, mərd qadınların sifətidi, bəy. Qadın namərd olandan sonra ərə gedəndən üç gün keçən kimi də xəyanət eləyə bilər və nə qədər ürək ağrıdan olsa da, bələləri var. Bir nəfər, iki nəfər də olsa var. Buna kim də inanmasa, sən inanmalısan, Aslan, çünki elə sənin özünün həyatında bir nəfər elə gəlin olub. Qaşlarını niyə çatırsan? Yoxsa xatırlaya bilmirsən?

— …

— Könül toydan sonra dördüncü gün həkimə gedirəm bəhanəsi ilə evdən çıxıb sənin yanına gəlməmişdimi? Elə kabinetinə…

— Hə, düz deyirsən… minnətdarlığını bildirmək üçün…

— Onun əhəmiyyəti yoxdu nə üçün. Fakt budu ki, gəlmişdi və o, həmin xəyanəti eləmişdi. Belə olan surətdə sən nə üçün Siranuşun — təzə gəlin olduğuna görə sənə xəyanət eləməyəcəyinə inanırsan? İnanmırsan əslində, ancaq özünü inandırmaq istəyirsən…

— Hm… — Aslan siqaret yandırdı. — Sən məni lap öldürürsən, Leyla.

— Ölməzsən, qorxma…

— …

— Haykaz səni həyətdəki anbardan turşu bankası gətirməyə göndərəndə… Həsən… Siranuşun şirin bir təbəssümlə

ona baxdığını tutub, mehriban-mehriban gülümsünmüşdü və içkinin təsiri altında, özündə cəsarət hiss eləyib:

— Sən çox gözəlsən, Leyla xanım — demişdi. — Sənin ərin dünyanın ən xoşbəxt adamıdı…

Leylanın bu sözlər canına yağ kimi yayılmışdı və əzilib-büzülüb: — Nu, çto vı, Qasan Qasanoviç… — söyləmişdi. — Sposibo za kompliment. Vı osçastvili menya.

Və Həsənin o bircə cümləsi hər şeyi — onun əxlaqını, taleyini, sənin ömrünün, mənliyinin, kişiliyinin taleyini həll eləmişdi, bəy. Sonra ertəsi günü Haykaz — o qoca əclaf, — sən insanda simasızlığa, şərəfsizliyə bax — öz doğma qardaşı qızını bəzi mətləblərdən hali etmişdi:

— Sən görürsən də necə simpatiçni kişidi mənim bu Qasançikim?

— Hə, çox.

— Səndən yaman xoşu gəlib. Bu gün işə zəng eləmişdi. Sənə xüsusi salam göndərdi.

— Oy, çox sağ olsun… Məndən də ona salam deyin.

— Mən niyə deyirəm? Özünün dilin-ağzın yoxdur?

— Mən onu harda görüm ki…

— Telefonda.

— O… Onunku pravitelstvennıy olar yəqin…

— Hə, elədi.

— Onda ona mən heç cür zəng eləyə bilmərəm…

— Bilərsən, Siranuş. Əmin verər nömrəsini, sən də eləyərsən.

— Hə, nə yaxşı, sağ olun…

Beləcə başladı onların telefon söhbəti. Və bir həftə keçməmiş, Həsən Həsənoviç özü sənə zəng eləyib yanına çağırdı, qapıda buraxılış vərəqəsi yazdırdı və səni içəri buraxdılar… Və sən bir həftədən də sonra… artıq onun — Həsən Quluzadənin — Üçüncünün köməkçisi idin. Elə deyilmi?

— Elədi, ancaq…

— Nə ancaq… Yoxsa…

— Nə bilim, vallah… — Aslan qıp-qırmızı pörtmüşdü. Əsəbdənmi, gərginlikdənmi sağ yanağı səyriyirdi. Ayağa qalxıb gəzinməyə başladı, sonra bir qədəh konyak içdi… — Hm… Deməli, belə… Vicdansız… vicdansızlar… Demək, namusumu alıb, vəzifə verirmiş mənə… Üzümə gülürdü, inanırdı mənə, lap bir evli kimiydik, get-gəlimiz vardı… Əclaf imiş, sən demə… Maskalanmışmış, sən demə. Hayıf, sağ deyil, mən onu öz əlimlə güllələrdim, inan.

— Güllələməzdin.

— Niyə? Qorxardım?

— Güllələyərdin, tutardılar səni, vəzifən gedərdi, partbiletin gedərdi…

— Cəhənnəmə getsin…

— İndi elə deyirsən. Amma onda elə deməzdin… Orda, o cəlallı binada işləyənlərin arasında bu günə salınan tək sən deyildin ki. Səndən başqaları da var idi və çoxu da bilirdi ki, işlər necədi… Amma susurdular. Çünki o, zəncirvari bir sistem idi. Hamısı bir-birinə baxıb təsəlli alırdı.

— Sənin deməyindən elə çıxır ki…

— Yox, bildim sən nə demək istəyirsən. Yox, ucdantutma hamısı elə deyildi. Orda təmiz, ləyaqətli adamlar da çox idi — bunları sən də bilirsən. Ancaq bunu da bilirsən yaxud bilməlisən ki, maymaqlar, yaramazlar, ləyaqətsizlər, lap namussuzlar da var idi onların arasında.

— Belə çıxır ki, — o, ah çəkdi — o namussuzların biri də mən imişəm.

— Təəssüf ki, belə çıxır, Aslan.

Aslan siqareti siqaretin oduna yandırdı. Konyakı yarıdan keçirmişdi, ancaq nədənsə sərxoş ola bilmirdi — sanki konyak yox, su, çay içirdi. Və gəzinə-gəzinə Siranuşla keçirdiyi ömrünü göz qabağına gətirir, xoş günlərini, saatlarını xatırlayır və ürəyində necə də rəhmsizcəsinə aldadıldığını, başına papaq qoyulduğunu düşünüb odsuz-tüstüsüz yanıb-yaxılırdı. Siranuş

onu necə məharətlə aldadıb. Özü də Aslan kimi adamı. O necə inanıb ona? Bu uzun illər, qəribədi ki, Siranuş bir dəfə də olsa onu şübhəyə sala biləcək hərəkət etməyib. — Nə vaxt baxımından, hara, neçədə, niyə, kimin yanına və nə üçün getdiyini bitdə-bitdə danışıb, kim ona nə deyib — ona qədər söyləyib. Və Aslana elə gəlib ki, arvadı ondan heç nə gizlətmir, gizlətmək istəmir. Daha o, anlamayıb ki, olan məsələləri gizləyə bilər Siranuş.

Və bu da qəribə idi ki, Aslan indiyəcən Siranuşu heç kəsə qısqanmayıb. Niyə? Ona görə ki, inanıb ona sidqi-ürəkdən? Bəlkə də. Eşitmişdi ki, qısqanclıq pis xəstəlikdir — kişi gərək arvadını qısqanmasın, qısqanırsa, demək, onu təhqir edir. Haradansa, kimdənsə, haçansa — görünür, lap cavan vaxtı eşitdiyi bu axmaq fikir başına batıb ürəyinə işləmişdi və doğrudan da, o, Siranuşu heç kəsə qısqanmamışdı. İnsafən, Siranuş da onu qısqandırmamışdı. Yadına düşürdü onun sözləri: «Yer üzündə səndən ağıllı və səndən qüdrətli kişi yoxdu, Aslançik…» Və bu sözlər onda Aslanın canına sarı yağ kimi yayılırdı.

Sonralar bir ayrı söz də eşitmişdi: Sən o zaman qısqanmırsan ki, sevmirsən. Arvadın səni qısqanmırsa, demək, sevmir. Sən arvadını qısqanmırsansa, demək, sevmirsən. Hansı düz idi bu mühakimələrin, müxtəlif insanların həyatda yaşayıb, hiss edib, inanıb dilə gətirdiyi bu hökmlərin hansına inanasan?..

Aslan gəzinirdi və ildırım sürətiylə beyninə, ürəyinə axıb dolan bu suallara cavab tapa bilmirdi, yenidən siqaret yandırırdı və yenidən konyak içirdi. Leyla lal-dinməz ona baxırdı, heç nə demirdi, od içinə düşmüş kimi qıvrılan Aslanın bu çırpıntılarından özünün də izah eləyə bilməyəcəyi qəribə, anlaşılmaz bir ləzzət alırdı… «Yan, yaxıl, yaramaz» — deyə səssiz-səmirsiz eşidib təmkinlə onun dillənəcəyi anı gözləyirdi. O isə lal olmuşdu elə bil.

Leyla gülümsünərək:

— Axırıncı fikrin düzdü, bəy — dedi nəhayət — Sən onu sevmirdin. Ona elə belə, cavanlıq eşqi ağlını başından alanda, gözəlliyinə görə evlənmişdin — Sən gözəllik dəlisi idin (elə

indi də eləsən) «O gözəl qız mənim olmalıdı» — fikriylə, nəticəsini, gələcəyini düşünmədən almışdın onu. Kim deyibsə düz deyib: — qısqanclıq o yerdə olur ki, orda məhəbbət var.

Tikan orda var ki, orda gül var, bəy. Sənin qəlbin boş olub Siranuşa qarşı, bir arvad kimi baxmırsan ona, vəssalam. O da sənə, insafən, yaxşı qulluq eləyib — o, sənə öz uşağı kimi baxıb və bütün bunları ona görə eləməyib ki, səni çox istəyir, ona görə eləyib ki, bütün ağıllı arvadlar kimi bunu öz qadınlıq vəzifəsi sayıb. Sevmədən də kiməsə qulluq etmək olar. Eləcə də tərsinə.

— Həqiqətən mən Siranuşu qısqanmamışam.

— Demək, sevməmisən.

— Elədi. İndi, bax bu dəqiqələrdə, sənin qarşında gəzə-gəzə başa düşürəm ki, sevməmişəm.

— Amma buna baxmayaraq, onun sənə xəyanət elədiyini eşidəndə mən gördüm ki, necə varından yox oldun, bəy. Çox pis təsir elədi sənə.

— Hə.

— Bilirsən niyə?

— Niyə?

— Sadəcə, bu xəbər, sənin kişilik qüruruna toxundu. Ona görə… hər necə olsa o, sənin kəbinli arvadındı və hara getsə, uşaq kimi, əsər kimi, sənin adın onun üstündədi. Lap boşasan da, sonra, məsəl üçün deyirəm, başqa bir ərə də getsə, yenə sənin adın onun üstündə qalır.

— Məni yandıran bilirsən nədi?

— Nədi?

— Odu ki, axı o nəyin xatirinə belə elədi?.. Nəyi çatışmırdı. Mən cavan idim…

— Bəli, sən cavan idin… Ancaq onda sən kim idin? Heç kim, heç kim. Quruca maaşabaxan bir cavan. Onda nəyiniz vardı? Bir dəst yorğan-döşəyiniz, bir-iki dəst də pal-paltarınız. Eviniz yox, mebeliniz yox…

— Deyirsən ehtiyac üzündən?

— Yox, mən elə demirəm. Hər halda bunlar da az rol oynamayıb. Məsələ təmin olunub-olunmamaqda deyil. Sən də, mən də elə qadınlar tanıyırıq və xoşbəxtlikdən belələri o qədər çoxdur ki, ehtiyac onları sındırmayıb. Təmiz yaşayıblar, təmiz də gediblər. Məsələ əxlaqdadı, bəy. Əxlaq gözə görünməz bir şeydi. O, qarpız deyil, maşın deyil ki, bir dəfə baxan kimi görəsən. Onun kökü-rişəsi nəsildən gəlir, indi sizin alimlərin dediyi gendən gəlir,bəy. Və onu bəzən içində yaşadan, gəzdirən adamın özü də görməkdə aciz olur. Sənin Siranuşun kim idi?.. Yəqin anası ilə, atası ilə tanış idin və bəlkə də onlar haqda pis heç nə deyə bilməzsən. Ən çox tanıdığın Haykaz idi, əmisi…

— Bəlkə… hallı-əhvallı kişi idi. Yeyib-içən idi. Respublikada elə bir vəzifəli, saytal-samballı adam tapa bilməzdin ki, Haykaz onu tanımasın, dost olmasın. Bir söznən, rəhmətlik yaxşı adam idi.

— Bəli, ancaq eyni zamanda o, qeyrətsiz-şərəfsiz idi. Sənin Siranuşunu Həsənin qucağına o itələdi. «Razve tı nexoçeş çtobı tvoy çernomazıy turok stal priliçnım çelovekom?» — deyərək öz doğma qardaşı qızını əxlaqsızlıq, namussuzluq girdabına itələyən Haykaz olmadımı? Sən bunu heç hiss eləmədin o vaxt? Yox, hardan hiss eləyə bilərdin? Nə olsa da bizimkilər belə əclafsızlıqlar eləməkdən, şükür Allaha ki, hələlik uzaqdılar.

Aslan Leylanın Haykazın dilindən rusca eşitdiyi o sözlərdən titrəyib gərildi. Və elə o an qəribə bir maraq doğdu içində — soruşmaq, öyrənmək, Siranuşla harada, haçan, hansı şəraitdə onu dəyişdiyini və əmisinə də, o əclaf «Qasan Qasanıça» da Aslan haqda nə dediyini bilmək marağı. İlk sarsıntılar keçmişdi. Daha olan da olmuşdu və geri qaytarılası bir şey də qalmamışdı. Və bu da qəribə idi ki, dəqiqələr sovuşub getdikcə, Aslana elə gəlirdi ki, söhbət onun özü, arvadı haqda yox, tamam yad və kənar bir adam haqda gedir və Aslan da, məhkəmədə çıxış etməyə hazırlaşan bir vəkil, yaxud kitab yazan yazıçı kimi, material toplayır, hər şeyi yerli-yataqlı bilmək istəyir.

— Yaxşı, Haykaz elə deyəndə… Siranuş nə cavab verdi?

— Sən bilən nə cavab verə bilərdi?..

— …

— «Nu, koneçno, dyadya. Tak mı propadyem. Moy turok bolşoy neqodyay i kruqlıy idiot» — dedi sənin Siranuşun, bəy.

— Vay, qancıq!

— Nə isə… Mənə elə gəlir bu barədə kifayətdi, bəy.

Aslan yalvarıcı bir səslə birdən:

— Başına dönüm, yalvarıram sənə, mənə bəy demə. Onda elə bilirəm məni qəsdən təhqir eləyirsən, Leyla. Sən qardaşının canı, bir də o sözü demə mənə. Siranuş məni bəy eləyib, bəsimdi — dedi və gəlib öz yerində oturduqdan sonra: Yox, hələ qurtarmadıq, Leyla — söylədi. Mənim hələ suallarım var… Mən hər şeyi bilmək istəyirəm…

— Hm… Ta nəyi bilmək istəyirsən? Bu sənə bəs deyilmi ki, sənin arvadın Qasan Qasanıçın aşnası idi və sən, o Haykazın uzaqgörənliyi, Siranuşun «fədakarlığı» nəticəsində, az bir zaman içində, necə deyərlər, adam olub adamlara qoşuldun — beş otaqlı ev aldın, xüsusi maqazinə yazıldın, naz-nemət içində üzməyə başladın və bir müddətdən sonra isə Siranuşu da Qasan Qasanıç çəkib oraya — Mərkəzi Komitəyə apardı… Çünki o, itiyazan idi, stenoqrafiya deyirsiz, nə deyirsiz… Qasan Qasanıç — onu öz yanına yox, İKİNCİnin yanına düzəltməli idi… O kişinin famili nə idi?..

— …

Aslan gözlərini döydü. Leyla gülə-gülə:

— Camaat arasında Qoyunzadə deyirmişlər ona o vaxt — deyəndə:

— Hə, yadıma düşdü — dedi… — Yoxsa… onunla da?..

— Sənincün ağır da olsa, hə, Aslan…

— Paho… elə mənim gözümün qabağında? Heç cür inanmaq istəmirəm, Leyla.

— Öz işindi. Mən səni inandırmağa çalışmıram da, sadəcə nəzərinə çatdırıram. Sənin də gözünün qabağında, elə Qasanıçın da gözünün qabağında.

— Düz deyirmişlər, qadın istəməsin, istədimi, sandığın içinə salsan, ağzını da qıfıllayıb açarını cibinə qoyasan, yenə elədiyini eləyəcək… Yaxşı, bu, çox davam elədi?

— Bu, nə?

— Yəni məsələn, Qasan Qasanıçla…

— Yox, təxminən bir il… Sonra Qasan Qasanıç təzəsini tapdı və sənin Siranuşunu unutdu. Daha doğrusu, saymadı. Siranuş çox atdandı-düşdü, əl çəkmək istəmədi. Hətta yalvardı da. Ancaq sənin Qasan Qasanıçın bal arısı kimi bir şey idi, bir çiçəyin üstünə iki dəfə qonmağı xoşlamırdı. Bu barədə Siranuşun özünə də dedi: «Mən gör səni nə qədər çox istəyirəm ki, bir ilimi sənə sərf eləmişəm». Siranuşla salam-kəlamı, münasibəti kəsmədən, səssiz-səmirsiz uzaqlaşdı.

— İKİNCİynən ondan sonra başladı?

— Yox, elə onun vaxtında… hiss eləmişdi ki, Həsən ondan soyuyur, onda…

— Axı… İKİNCİ… ondan çox böyük idi — demək olar ki, qocaydı…

— Hm… Qocaydı… Deyəsən özünə təsəlli vermək üçün bəhanələr axtarırsan? Belə şeyləri gəl məndən soruşma, Aslan, sən özün yaxşı bilirsən… Yoxsa sən… özündən, 30 il, 35 il kiçik olan qızlarla, qadınlarla az oturub durubsan, hə? Soruşuram də. Az oturub durubsan yoxsa?

— …

— Görürsən, cavab verə bilmirsən…

Aslan yenə siqaret yandırdı.

— Yaxşı, tutaq bu qadındı, özü də lap axmaq qadındı — hardasa bunu başa düşmək olar. Ancaq mən bu Haykazı heç cür anlaya bilmirəm. Öz qardaşı qızını…

Leylanın dodaqlarına rişxəndli bir təbəssüm qondu.

— Sən mənə, fərz edək, o vaxt rast gəlsəydin və o vaxt məndən bu sualı soruşsaydın, bəlkə də haqq qazandırardım, Aslan. Ancaq indi… İndi heç cür anlamıram. Yəni bu qədər

hadisələrdən sonra sən və sənin kimilər, yenə ayılmayıbsınız? Axı Haykaz kim idi? Soruşuram, kim idi?

— Baksovetdə işləyirdi.

— Onu soruşmuram, hansı millətdəndi?

— Erməni…

— Bax, budu əsas məsələ, Aslan. Erməni idi Haykaz. Erməni idisə, deməli, onun içi, ürəyi, qanı sənə, sənin millətinə qarşı dərin bir qəzəblə dolu idi — o sənə qardaşı qızını vermişdi, qohum olmuşdu, səninlə yeyirdi-içirdi, «can» deyirdi hər sözünə, ancaq bütün bunlar dildə idi, üzdə idi, batində isə onun səni görən gözü yox idi. Onların hamısı məmə yeyəndən, pəpə yeyənə qədər sənə, mənə nifrət bəsləyən anaların döşündən süd əmiblər və yer üzündə onların yalnız bir düşməni var — türk, yəni sən, mən. Bizimkilərin — sənin, sənin kimilərin qanını içməyə hazır olan bu millət bizi əritməyə, qul etməyə, yox eləməyə lazım olan, xidmət edən hər şeyindən, hətta namusundan belə keçməyə hazırdı. Heç görübsən bir erməni başqa ermənidən soruşsun ki, sən haralısan? Yox, görməyibsən, görə də bilməzsən. «Hayes?» — Vəssalam. Bu, onların milli paroludu. Ancaq mənimki bədbəxtlər bu boyda Azərbaycanı vilayətlərə, zonalara, mahallara böldülər, ürəkləri soyumadı, indi də məhəllələrə bölürlər. Daha yer üzündə «Haralısan?» — deyə soruşmağa adam qoymamışıq deyə axırda göydə uçan durnadan da soruşuruq ki, ay durna, sən haralısan? Zəhrimar haralısan, çor haralısan. Əl çəkin, əl çəkin, yalvarıram sizə, ayağınızın altına düşürəm, əl çəkin «haralısan?» soruşmaqdan. Birinizi bir vəzifəyə qoyurlar, çəkib-yığırsınız başınıza qohum-əqrabanızı, qohum-əqraba qurtarandan sonra dost-tanışınızı, o da qurtarandan sonra kəndçilərinizi, rayonlularınızı və s.

BİRİNCİ iş başından gedən kimi, təzə BİRİNCİ köhnə BİRİNCİnin adamlarını, hətta sürücüsünə qədər dəyişir… Və belə-belə. Adını qoyursuz kadr siyasəti, kadr dəyişməsi, nə bilim nə. Axı belə olmaz, qardaş. Axı siz hamınız bir torpağın, bir millətin oğlusuz — əl-ələ verin, işləyin, bu millətə bir gün

ağlayın, yazıqdı bu millət. Bax, sən özün — hələ deməyibsən, ancaq mən bilirəm, səbəbini axtarırsan ki, niyə səni o ucalıqdan dığırladılar üzü aşağı elə deyilmi? Çox adamdan şübhələnirsən, gümanın min yerə gedir. Ancaq yox, sən səhv eləyirsən, heç kəs sənin, özünün dediyin kimi, kəndirini kəsməyib, pıçını burmayıb — əslində, sən həmin o «haralısan» prinsipinin qurbanı olmusan, Aslan. Təzə BİRİNCİ səni köhnə BİRİNCİnin adamı hesab edib atdı bayıra — sənə inanmaq olmazdı — bəhanə isə var idi — sən xalqa yalan danışmışdın, vəssalam. Başqa səbəb axtarma. Özün de, yerlə göy arası qədər fərqi yoxdumu bunların? Var, var, Aslan. Bəli, Haykazın səni ora çıxarmaqda vasitəçi olmağı və sənin ayağının altına nərdivan kimi əvvəl öz namusunu, sonra isə sənin namusunu qoymağı elə belə, boşboşuna deyildi, Aslan. Heç olmasa bu millət, bunu indi başa düşsün. Baxaydın dünənə qədər idarələrə, aparatlara, şəhərə, lap elə yüksək dövlət idarələrinə görərdin ki, hamısında ən həssas, ən yağlı vəzifələrdə oturan onlardı. Özü də bir-bir yox, neçə-neçəsi birdən oturublar. Sənինkilər, sənin kimilər isə, onların əlinin altında oyuncaq idi. O millətin ağlı yoxdu, vallah, yoxdu.

Mən onların arasında çox yaşamışam, yaxşı tanıyıram. — Onlar on il, iyirmi il, otuz il bir işi qurub-qoşurlar, gizlində hazırlaşırlar, dəridən-qabıqdan çıxırlar, məqsədə yaxınlaşanda, başda ağıl olmadığına və tamah dişləri həddən artıq iti qılınc kimi iti olduğuna görə, birdən hövsələsizlik eləyirlər, tələsirlər, atılırlar meydana, damarlarındakı o artıq, o murdar, adam kimi yaşamağa mane olan o qanı çərtdirib çıxarmayınca, başı-gözü əzilməyincə, qulağı kəsilməyincə rahatlıq tapa bilmir və nəticədə uduzurlar. Bu dəfə də uduzurdular. Bu dəfə də tez başladılar. Ağılları olsaydı, beş, on il gözləsəydilər, qoşunsuz, topsuz, tüfəngsiz, heç birinin burnu qanamadan, çal-çağır eləyə-eləyə, acığın gəlməsin, sənin kimi oğullarımızın evinə öz axçilərini gəlin köçürə-köçürə nəinki Qarabağı, lap bütöv Bakını tutacaqdılar, inanmırsan? Niyə, görmürdün, Bakının ən yaxşı yerləri onlardaydı, ən yaxşı vəzifələr onlardaydı? Sənin işlədiy-

in idarədə az idilər? KQB-də az idilər? Prokuraturada, Daxili İşlər Nazirliyində az idilər? Mərkəzi Komitədə neçə axçi işləyirdi? Makinaçı, itiyazan, paltarasan, aşpaz, nə bilim nə… Kim eləmişdi bunları? Haykazlar. Kim var idi? Qasan Qasanıçlar.

Mən hərdən öz millətimə baxıb dəli kimi ağlamaq istəyirəm. Uşaq olmuşam mən, bəlkə sənin yadına gələr, ya da eşitmiş olarsan; mən də eşitmişəm. O vaxt, Mircəfəri mühakimə eləyəndə Markaryanı, Qriqoryanı — yüksək vəzifələr tutub bu torpağın yaxşı oğullarını aparıb məhv eləyən bu cəlladları da mühakimə edirmişlər. Deyirlər, müstəntiqlər, Qriqoryanın anasına yazdığı məktubu tapıblarmış — işin içinə qoyublarmış. Rudenko bir cümləsini oxuyub məhkəmədə: «Ana, rahat ola bilərsən, atamın qanını almışam, yüzlərlə azərbaycanlı güllələmişəm»… Axı bu çox da uzaq keçmişdə olmamışdı, tarixin axarının qabağında bu, elə bil dünənin söhbətidi. Axı mən heyrət eləyirəm — başı daşdan-daşa dəyən bu millət, neçə dəfə sadəlövhlüyünün, təmizürəkliliyinin qurbanı olan, mehribanlığı, insansevərliyi üzündən əli ağzında yanan bu millət nə tez bu cür söhbətləri unudur və dönüb cildini dəyişən düşmənə inanır? Axı belə heysiyyətsizlik olmaz, belə huşsuzluq-yaddaşsızlıq olmaz, başına dönüm?

Aslan yenə hiss eləyirdi ki, Leylanın dərdinin közü qopub, yadına üzü o yandan bəri yığılıb qalmış dərdləri düşüb: «Axı bütün bunların mətləbə nə dəxli var?» — demək istəyirdi, ancaq özünü saxlayırdı, çünki bunların hamısını o özü yaxşı bilirdi: eşitdiyini eşitmişdi, gördüyünü görmüşdü, oxuduğunu da oxumuşdu. Ancaq bütün əsəbiliyinə, gərginliyinə baxmayaraq, xəcil olduğuna baxmayaraq, qarşısında oturmuş bu balaca, çəlimsiz qadının daxilindəki qüvvəyə, qəzəbə və ən ümdəsi isə onun özünə yad olan, ancaq həqiqət olduğunu qəbul etdiyi bu düşüncələri qəribə bir qibtə hissi ilə dinləyir, nə qulaq asmağa hövsələ işlədirdi, nə sözünü kəsməyə cəsarət eləyirdi. Dumanlı şəkildə olsa da, qəlbində etiraf edirdi ki, o, bu qızın qabağında, bütün əzəmətinə, sərvətinə, ad-sanına baxmayaraq çox cılızdı, zəifdi, bəlkə də bir

heçdi. Qadın olasan, belə qeyrətli olasan, qadın olasan, belə dərin düşünəsən, qadın olasan belə yana biləsən.

Ancaq indi Aslan elə ağır bir zərbə almışdı ki, yaralı pələng kimi içəridən inildəyirdi, qanı qəlbinə axırdı, ağlamaq, qışqırmaq, dəli bir fəryad qoparıb hönkürmək, lap özünü öldürmək istəyirdi, lakin buna da aciz idi — eşitdikləri, öyrəndikləri sarsıdıcı, məhvedici olsa da, sonra eşidə biləcəklərinə olan marağı daha qüvvətli idi və olub keçənlərə qiymət verib təhlil etmək, bir kişi qərarına gəlməkdən çox, onu: «görəsən daha nələr eləyib Leyla? — sualı düşündürürdü; çünki bütün hər şeyi yerli-yataqlı bilməmiş, inandırıcı, rədd edə bilməyəcəyi dəlil-sübut tapmamış, cırt-qozluq eləyib elə gecə gözü, lap bax elə indicə, şəhərə gedib uzun illər inanaraq yaşadığı arvadını məhşər ayağına çəkmək ağılsızlıq olardı — yox, daha Aslan heç bir ağılsız hərəkət etməməlidi, heç kəsə inanmamalıdı, heç kəsə bel bağlamamalıdı, çünki bu dünya əclaflar dünyasıymış, satqınlar dünyasıymış. Yox, Aslanın buna haqqı yoxdu, yoxdu. «Leyla — Siranuş ölməlidi. Onu mən özüm öldürəcəyəm. Onun qanı halaldı, lap halaldan da halaldı. Ancaq qoy… hələ bir-iki gün yaşasın, qoy hər şeyi öyrənim, sonra… Görəsən sonra… bu alçaq qızı mənim namusumu daha kimin yanında hərraca qoyub?»

Leyla xanım sinəsini stoldan ayırıb qışqıraraq:

— Bu səni çox maraqlandırır? — deyə soruşdu. Aslan yenə çaşdı:

— Nə? Nə məni çox maraqlandırır? Sonra tez səhvini anlayıb iri alnına bir şapalaq çəkdi. — Yadımdan çıxır tez-tez. Hə, çox maraqlandırır, Leyla xanım. Madam ki, bundan başlamışıq… axıracan de, qurban olum,. Qoy mən onu yaxşı-yaxşı tanıyım…

Susub siqaret yandıraraq, nəsə yadına düşmüş kimi tələsik xəbər aldı:

— Axı sən niyə bu alçaqdan başladın, Leyla? Yəqin bu da boş-boşuna olmaz, elə deyil?

— Düzdü, Aslan.

— Nəyə görə?

— Ona görə ki, o, indi daha tək səni satmır, indi o, sənqarışıq, mənqarışıq, bütün millətimizi satır, Aslan.

— Nə danışırsan?

— Sənin Siranuşun indi işləyir.

— Necə yəni işləyir? Heç yerdə işləmir. Çoxdan işləmir.

— Elə yox. Bakıdan ermənilər sağ-salamat (beş-on nəfər ölənləri çıxsaq) çıxarılandan sonra, sənin Siranuşun çox fəallaşıb, Aslan. İndiyə qədər o, sənin Naxçıvandan, Lənkərandan çapıb-talayıb gətirdiyin və qədrini belə bilmədiyin pulların bir qismini üzvü olduğu «Qrunq» təşkilatının hesabına gizli surətdə göndərirdi. O, təşkilatın ən hörmətli (əlbəttə ermənilərin yanında), ən fəal üzvü sayılır. Bilirsən niyə? Ona görə ki, beş nəfər ən çox pul göndərənin biri, bəlkə də birincisi odu, sənin Siranuşundu.

— Elə şey olmaz, Leyla.

— Odur, Aslan! Sən yenə mənim sözlərimə inanmırsan?

— İnanıram ey… Ancaq…

— Yox inanmırsan, Aslan. Əgər belədisə, evə gedəndə, onun otağında, kitab şkafının üçüncü gözündə, kitabların arxasında saxlanan sarı qovluğa baxarsan. O qovluğun içində çoxlu qəbzlər görəcəksən ki, sənin arvadının aybaay, ilbəil o təşkilata göndərdiyi pulların qəbzləridir.

— Poçtnan göndərib?

— Yox. Onlar sənin kimi, mənim kimi, bizimkilər kimi, elə də avam deyillər, Aslan. O təşkilatın xüsusi nümayəndələri var, onlar təkcə bizim məmləkəti yox, bəlkə bütün dünyanı şəhərbəşəhər, kəndbəkənd, evbəev gəzib pul yığırlar. İllərdi yığırlar, indi də yığırlar. Həmin adamların verdiyi qəbzlərdi, saxlayır — bir gün gələr, gərəyi olar ümidi ilə.

— Vay səni. Deməli, buna görə…

— Tək buna görə yox. Sənin evdə videomaqnitafonun var, elə deyilmi?

— Hə, var.

— Hər gün Bakı televiziyasından verilən verilişləri (əlbəttə, sən evdə olmayanda) rahatca yazır, gəlib aparırlar.

— Hm… məgər videosu olan tək mənəm?

— Yəni demək istəyirsən, Bakıda sənin kimi «qeyrətli» kişilərin saxladıqları erməni arvadlarının hamısının videosu var, hə?

— Hə də.

— Hər ehtimala qarşı yazır və ona, öz mərkəzində daha çox inanırlar — çünki o, öz sədaqətini çoxdan, hələ Mərkəzi Komitədən ən gizli, ən məhrəm sənədlərin (əlbəttə, onlara lazım olanlarının) surəti sənin Siranuşunun vasitəsilə ermənilərə çatdırılırdı, Aslan. O, öz millətinə sədaqətlə qulluq eləyib həmişə. Sənin çörəyini yeyib, paltarını geyib, amma ermənіyə — öz millətinə xidmət eləyib. Çünki ermənilik və Ermənistan — onlar üçün hər şeydən üstün olub. Həmişə satqın olublar, xəyanətkar olublar, namussuz olublar, qul olublar — yalnız ermənilikləri xatirinə, yalnız Ermənistan xatirinə. Sən bu həqiqəti başa düşürsən?

— Düşdüm… Yəni deyirsən… indi də…

— Hə, lap indi də, sənin Siranuşun əməlli-başlı öz milləti naminə çalışır. Və indi bu saat sənin bu gözəl Bakında iyirmi mindən çox erməni qadın və erməni döşündən süd əmənlər yaşayır — halbuki sən Ermənistanda nümunə üçün öldürüb muzeyə qoymağa bir nəfər də olsa azərbaycanlı tapa bilməzsən, Aslan, inan, tapa bilməzsən. Bax fərqə. Bu sən, o da erməni. Utanmalıdı, ağlamalıdı, vallah.

— Mən onun ciyərini çıxardacağam.

— Çıxarda bilməyəcəksən.

— Yəni deyirsən buna da qeyrətim çatmayacaq?

— Nə bilim, bəlkə də çatdı. Ancaq bu işi sən yox, başqaları edəcəklər, sən burda da gecikəcəksən.

— Necə yəni?

— Sadəcə, bu işi səndən qabaq görən oğullar tapılacaq…

— Kim? Mehman?

— Yox. Nə danışırsan? Mehman onu çox istəyir, Aslan. Sən heç təsəvvür eləməzsən ki, necə çox istəyir.

— Axı… axı Mehman onun oğlu yerindədi?

— Yenə başladın? Sən özün bilirsən ki…

— Hə, hə. Başa düşdüm, Leyla… Yaxşı, bu küçük, bu mənim çörəyimi yeyən bu qoduq necə oldu ki, belə bir işə qol qoydu?

— Onun, sənə deyim, heç bir günahı yoxdur, Aslan. Sənin arvadın, yəqin özün bilməmiş deyilsən ki, necə surətpərəst, şəhvətpərəst bir qadındı — Açığını deyim ki, o, sənin arvad variantındı. Yəni sən indi daha açıq danışdığıma görə məni qınama — necə arvadpərəstsən, bəlkə səndən on qat artıq o, kişipərəst qadındı.

— İcazə ver, burada sənin lə razılaşmayım, Leyla xanım. Mənim bildiyim, müşahidə elədiklərim, mənə deyir ki, o, çox soyuqqanlıdı — düzdü cavanlığında, biz təzə evlənəndə… çox şəhvətliydi, temperamentli idi, ancaq bir az sonra… soyumuşdu, yorğan-döşək əhvalatına biganələşmişdi.

Yaxın düşməsən, heç yadına da düşməzdi. Özü də insafən, neçə dəfə deyib ki, əh, bu nədir ey, bu olmasa olmaz? Balıq kimi soyuqqanlı…

— Burada da səni aldadıb, Aslan!

— Necə yəni?

— Çox sadə. Bəs sən ağlına gətirməyibsən ki, təzə evlənən vaxtlarında elə həvəsli, şövqlü olan sənin arvadın niyə bir az sonra elə dəyişdi? Düşünməyibsən heç bu barədə?

— Səbəbi aydın olan şey barədə nə düşünməliydim ki? İllər keçdikcə… yaşlaşdıqca… istər kişi olsun, istər qadın — ehtirası sönür, azalır, öləziyir…

— Elə tez?

— …

— Yox, Aslan! O sadəcə ilk vaxtlar səndən başqa kişi görməmişdi, sonra ki, əldən ələ düşdü, gördüklərini gördü, on-

da onun bir qadın kimi, sənə olan marağı azaldı, sən adiləşdin… Və sən şübhələnməyəsən deyə o sözləri də sənə söylədi ki, arın-arxayın yaşayasan, ürəyinə heç nə gətirməyəsən…

— O mənim «levi» işlərimi bilirdi?

— Səncə bilmirdi?

— Yox. Bilsəydi, bir dəfə də olsa üzümə vurardı, davadalaş salardı, qadınlar belə şeylərə dözmürlər…

— Düzdü, dözmürlər, ancaq cavabsız da qoymurlar — bir eləyirsən, beş cavabını verirlər, Aslan. Sən qadınlarla çox oturub durubsan, onların psixologiyasını gərək yaxşı biləsən…

— Bilirəm.

— Məncə o qədər də yox. Nə isə, bu barədə sənlə mübahisə eləmək istəmirəm. Ancaq sənin Siranuşun sənin əməllərinin çoxunu bilirdi…

— Bə niyə susurdu?

— Ona görə ki, səni sevmirdi — Sən onun üçün bir ər kimi lazım idin, ər kimi də vardın. O, sənin ancaq özü üçün yaşayan bir adam olduğunu, öz qadın ağlı ilə çox tez başa düşdü, Aslan. O da başladı özü üçün yaşamağa…

— Sənin dediyindən elə çıxır ki, onun Qasan Qasanıçın məşuqəsinə çevrilməsində mən günahkaram?

— Yox, mən elə demirəm. Sən onda təmiz idin. Səni ilkin o aldatdı, o dəyişdi. Sonralar isə… biləndən sonra isə… Özünü çox rahat hiss elədi…

— Hm… Çox adam olub həyatında?

— Qanını daha da qaralda biləcək qədər çox. Ancaq… onlar keçici olublar. Qonaq kimi gəliblər, gediblər. Siranuş əsməyib onların üstündə… Ən çox istədiyi…

Leyla susdu, bir az fikirləşdi. Ancaq Aslan dözmədi.

— Kim olub?

— Ən çox istədiyi əvvəl Həsən olub, indi də…

— Mehmandı, hə?

— …

— Mehmandı?

— Hə, Mehmanı çox istəyir. «Sən mənim həyatımsan, — deyir — Sən mənim iki gözümsən!» — deyir ona. Qəribə bir istəklə bağlanıb bu uşağa. Gah «oğlumsan!» — deyir, gah «sevgilimsən!» — deyir.

Sənsiz mən necə yaşaya biləcəyimi heç cür təsəvvür eləyə bilmirəm, Mehman, əzizim.

Aslan duruxdu, gözləri ilə stolun üstə nə isə axtardı, heç nəzərdə tutmadığı halda, qeyri-iradi yenə konyak süzüb başına çəkdi, ağzına heç nə atmadı:

— Qancıq!.. — söylədi — Vaxtilə o sözləri mənə deyirdi. İndi o küçüyə deyir. Acığına gəlməsin, görürsən qadınlar necə əclaf olur?

— Elə kişilər də. Ancaq qadınların hamısı elə deyil, Aslan. Kişilərin də hamısı elə deyil. Qadınlar içində… Siranuş kimi alçaqlar olduğu kimi, kişilər içində də…

— Mənim kimi alçaqları var, hə?..

— Özün məndən yaxşı bilirsən, Aslan!

— Dünya çirkab içindəymiş.

— Elə demə. Dünya gözəl dünyadı — onu yaradan gözəl yaradıb — ancaq, onu əclaflar çirkaba batırıblar, Aslan.

— Off… Düzdü. Yaxşı… bunlar… çoxdan…

— Çoxdan başlayıblar demək istəyirsən?

— Hə də.

— İki ildi.

— Ay Allah! Öl, yerə gir, Aslan. İki ildi… Sənin gözünün qabağında… Sənin arvadın…

— Hə, demək olar ki, lap gözünün qabağında…

— Axı… bu necə oldu başladı?

Leyla durub otaqda bir az gəzişdi, eyvana çıxıb dənizə tamaşa elədi, sonra qayıdıb içəri girəndə Aslanı necə qoyub getmişdisə, eləcə, yerində donub oturmuş gördü; başa düşdü ki, sualının cavabını gözləyir. Özünə də, ona da bir stəkan çay töküb əyləşdi və Aslanın qan çanağına dönmüş gözlərinə ani nəzər salıb sözünə başladı:

— Bəli, iki il bundan qabaq… Mitinqlər başlanmışdı, yaman başlanmışdı. Camaat küçələrdəydi. Sən onda Mərkəzi Komitədəydin — səhər gedirdin, gecə yarı qayıdırdın. Bəzən orada yatıb qalmalı olurdun — çünki çıxmaq imkanınız olmurdu.

— Hə, elədi…

— Ancaq sən arvadının mitinqlərə getməsini qadağan eləmişdin. Niyə?

— Yaxşı çıxmazdı axı… Qara camaata qoşulub… Həm də onlar bizim hakimiyyətdən getməyimizi tələb eləyirdi. Sən deyirsən mənim arvadım da onlara qoşulub qışqırmalıydı ki, rədd olun, satqınlar, xainlər? Səhər yedirib-içirib işə yola saldığı kişisinin, günortadan sonra getməsini tələb edəydi? Gülünc çıxmazdı? Tanışa-bilişə rast gəlsəydi, yaxşı düşməzdi axı…

— Hə, orası elədi. Ancaq sənin arvadın çox istəyirdi getsin mitinqlərə, öz gözləri ilə görsün qışqıranları, çıxış edib imperiyanı, öz satqın rəhbərlərimizi necə söydüklərini öz qulaqları ilə eşitsin, ən mühümü isə Qarabağ haqda nə dediklərini öyrənsin, bilsin. Təşnə idi Siranuş — səndən xəlvət bir neçə dəfə də getmişdi. Lakin sonralar, ermənilər əleyhinə dalğalar güclənəndə, o, qorxdu və daha oraya getməkdən çəkindi. Bax, onda Mehman yadına düşdü. Mehman əvvəldən xoşuna gəlmişdi. Cavan oğlandı, boylu-buxunludu. Sənə və ailənə canı-dildən qulluq etməyi xoşlayır…

Mehman bir gün onu dəlləyə aparanda dedi:

— Sən mitinqlərə gedirsən?

— Yox, Leyla xanım. Mənim orda nə işim var? Başda kim oturur-otursun, bunun mənə bir dəxli yoxdu. Şofer babayam. Ölənəcən də maşın sürəcəyəm.

— Bəs sən nə təhər azərbaycanlısan? Bütün millət ayağa qalxıb.

Və sonra Mehmana tapşırdı ki, getsin, nə olub, necə olub, gəlib ona danışsın. Danışırdı, amma Siranuşun ürəyi soyumurdu — diktafon verirdi; yaz, bittə-bittə yaz, gətir, qulaq asım — ürəyim soyusun. Belə şey olmaz, vətən əldən gedir. Mən As-

lançikə demişəm, əgər Qarabağı ermənilər alsalar, elə mən özüm səni boğacağam. Və bu söhbətlər onunla nəticələnirdi ki, Siranuş Mehmana əvvəl yemək verirdi, sonra pul verirdi... sonra da...

— Alçaq!.. Yaxşı, bunlar elə bizim evdə görüşürdülər?

— Çox vaxt evdə. Sizdə. Sən Bakıda olmayanda bağa da gəlirdilər. Elə vaxt olurdu gecə də qalırdılar.

— Yeyib içirdilər, hə?

— Təbii ki, hə!

— Yəqin axşamkı siqareti də Siranuş onunçün gizlədibmiş burda, hə? — deyə Aslan qabağındakı siqaret qutusuna işarə elədi.

— Bəli. Onunçün. Yoxsa sən elə bilirsən sənin üçün?

— Yox…

Aslan büzüşdü, balacalaşdı.

— İndi mən neyləyim deyirsən?

— Sən? Sən heç nə… Birisi gün… şəhərə gedəndə… Qızıllarını-zadı hara qoyur?

— Qamota. Mücrinin içinə.

— Hm. Gedərsən, başa salarsan ki, şəhər örtülü qazan kimi qaynayır, oğru-əyri çoxalıb. Kimin harda əlinə girəvə keçir, ağına-bozuna baxmadan çalıb-çapıb aparır. De ki, hamısını yığışdır, ver mənə. Aparıb bağda gizlədəcəyəm.

Aslanın hövsələsi lap daraldı:

— Əşi, cəhənnəm olsun qızıl-mızıl. Mən nə haydayam, sən… Onun özüylə neyləyim — soruşuram!

Leyla qaşlarını çatıb fikrə getdi, bir anlığa gözlərini yumdu. Aslan o, gözlərini hər dəfə yumanda qorxurdu — ona elə gəlirdi ki, o qəşəng, o kədərli gözlər yumulanda daha çox və daha uzağı-keçmişi də, sabahı da — yaxşı görür və hər dəfə də ondan yeni bir şey eşidəndə təəccübü qat-qat çoxalırdı. İndi, o bir anlıq sükutdan sonra Leyla gözünü açanda nədənsə qımışaraq: — Özüylə heç nə, Aslan. Axı neyləmək istəyirsən? — soruşdu.

— Nə bilim, başımı itirmişəm. Heç özüm də bilmirəm neyləyim.

— Sən heç nə, Aslan. Onsuz da onun ömrünə az qalıb.

— Necə? Az qalıb? — Aslanın öləzimiş gözləri parıldadı: — Yoxsa demək istəyirsən ki, o da Mehmanın qaynanası kimi qolunu-qıçını uzadıb birdən öləcək? Kəl kimi sağlamdı itin qızı.

— Yox, özü ölməyəcək, Aslan, onu öldürəcəklər!

— Öldürəcəklər! — Bu xəbər özlüyündə dəhşətli xəbər idi və onu eşidən adam mütləq sarsılmalı və qorxmalı idi. Ancaq — Leyla fikir verdi — Aslanın gözlərində qəribə bir nur parladı və sevinclə: «Nə yaxşı oldu, mənim əlim o murdarın murdar qanına batmaz!» — mənası vermək olardı və yəqin ki, bu, belə də idi. Lakin sevinc tez sovuşub yox oldu və Aslan bərəlmiş gözlərini lap-lap döyərək: — Öldürəcəklər? — deyə bir də soruşdu və tələsik sual da verdi: — Kim öldürəcək onu?

— …

— Mehman?

— Yox.

— Bəs kim?

Leyla susdu. Hiss olunurdu ki, tərəddüd içindədi.

— Kim öldürəcək axı?.. Mehmandan başqa…

— Yox, Mehmanı fikrindən çıxart, Mehmanın onu öldürməyə əli gəlməz — qıymaz. Çünki ona çox bağlanıb Mehman.

— Bəs onda kim?

Leyla gözünün qabağında haldan-hala düşən Aslanı təpədən dırnağa süzüb:

— Ağciyərlik eləməzsən ki? — dedi. — Gedib arvadını xəbərdar eləməzsən ki… Birdən rəhmin gələr, deyərsən.

— Mənim ona rəhmim gələr? Ona ha? Mənim heysiyyətimi, namusumu hərraca qoyan adama rəhmim gələr deyirsən? Sən onda hələ məni yaxşı tanımırsan, Leyla. Mən…

Leyla gülümsündü:

— Mən səni sənin özündən yaxşı tanıyıram, Aslan. Nə isə, indi sənin şəxsi — mənəvi keyfiyyətlərini, xasiyyətini müzakirə eləmək vaxtı deyil. Mən sadəcə ehtiyat edirəm ki, sən ya onun özünə, ya orqanlara — filana xəbər verərsən, sənin Siranuşun aradan çıxar…

— Yox, yox, heç kəsə, heç kəsə bir kəlmə də olsa…

— And içirsən?

— And içirəm. Nəyə desən and içərəm.

Leyla güldü.

— Niyə gülürsən?

— Sən ömrün boyu o qədər yalandan and içmisən ki, sənin andlarının bir zərrə qədər olsa kəsəri-təsiri qalmayıb.

Aslan əsəbi-əsəbi gəzindi. Sanki yeni and yeri tapmış kimi sevindi:

— Sənin əziz canına and içirəm, Leyla.

Bu, Leylanın xoşuna gəldi və üzü təbəssümdən işıqlandı.

— Hə, bu təzə andındı. Birinci dəfədir ki, belə and içirsən. Ancaq mən bu dəqiqə ayrı şey fikirləşirəm.

— Nə?

— Onu fikirləşirəm ki, sən həm də necə də qəddar adamsan, Aslan, hər necə olsa, o, Siranuş sənin arvadındı, uzun illər yaşamısız bir damın altında. Can bir qəlbdə olmusunuz. İndi isə… Onun ölüm məsələsi gələndə…

— Mən ona nifrət eləyirəm, Leyla. Bu, sənə aydın olmalıdır. Ancaq de görüm — bəsdir ürəyimi çəkdin — onu kim, niyə və necə öldürəcək?

Leyla Aslanın çox aydın verdiyi bu suala birdən birə cavab vermədi, susdu, nəyisə götür-qoy elədi və nəhayət, dilləndi:

— Onu bir nəfər öldürməyəcək ki, adını sənə deyim. Niyə öldürəcəklərinin səbəbi aydındır. Necə öldürüləcəyinin də məncə, elə bir əhəmiyyəti yoxdur.

— Axı kimdi bunlar?

— Bunlar Azərbaycanın bir dəstə qeyrətli oğlanlarıdır, Aslan. Çox gözlədilər, gördülər bu işə siz — dövlət səviyyə-

sində bir əncam çəkmirsiz. Şəhərdə ermənilər hələ də yaşayır — xüsusilə qadınlar. Bir çox «qeyrətlilər»imiz də onlara havadar çıxır, adlarını, pasportlarını pul alıb dəyişir, dünənki Anuş beş dəqiqənin içində dönüb olur Anaxanım, nə bilim nə. Onlar da burda qalıb sabah nə pəstahlar çıxardacaqlar, bir allah bilir. Bax, həmin o dediyim qeyrətli oğlanlar «Qartal» adlı bir dəstə yaradıblar, küçəbəküçə, evbəev dolaşıb (əlbəttə, gizli surətdə) öyrənirlər, ermənilərin siyahısını tuturlar, sonra da bir-bir aradan götürürlər. Hərəsini bir yolla! Erməni…

Aslan tələsik onun sözünü kəsdi:

— Axı mənim arvadımın erməni olduğunu heç kəs bilmir, Leyla.

— Heç kəs bilməsə də, onlar bilir, Aslan. Onların siyahısında onun da adı var.

— Paho!… Onda…

— Onda sənin işin fırıxdı.

Aslanın elə bil təpəsinə ağır bir zərbə endirdilər. Gözləri qaraldı, qığılcımlar yanıb söndü, oturdu. Bir anda xəyalı min yerə uçdu.

BEŞİNCİ FƏSİL

Kimsənin tribunadan onun adını çəkərək qışqırdığını da sanki eşidən kimi oldu. «Daha mən burda qala bilmərəm elə olsa!» — fikri ildırım sürətilə beynində yanıb-söndü, qurulu evi, bu cəh-cəlallı bağı gözlərinin qabağında dəhşətli bir zəlzələdən uçub dağılan xaniman kimi toz dumanı içində itib batdı və sanki elə o anda uçurulmuş, viranə qalmış evlərin sahibləri gözləri önünə gəlib yox oldu. Yazıq-yazıq Leylaya baxıb:

— Yaxşı, bu hadisə haçan gözlənilir, Leyla? — deyə xəbər alanda o, sakitcə:

— Elə də çox qalmayıb, Aslan. Tələsmirlər. Asta eləyirlər, usta eləyirlər.

— Hm. — Aslan fikrində nəyisə ölçüb-biçdi: — Elə girib evdə öldürəcəklər?

— Yəni bunun sənin üçün bir fərqi var?

Aslan dinmədi, ancaq ürəyindən keçirtdi: «Xalı-xalça, parket qana bulaşacaq». Elə bu anda Leylanın rişxəndlə ona baxıb qımışdığını görərək özünü itirdi.

— Canlı insan ölür, amma gör sən nəyin fikrini çəkirsən!

Aslan qəlbində, beynində dolaşdırdıqlarını Leylanın oxuduğunu başa düşüb utanan kimi oldusa da, hikkə ilə:

— Mən heç istəmirəm o murdarın qanı da mənim evimə tökülsün, — dedi. — Canlı insan! Məgər o, insandır? O, insan libasında şeytan imiş ki, mənim ürcahıma çıxıb. Mən onun qanını da ovuc-ovuc içərəm, yenə ürəyim soyumaz. Sən düz deyirsən; mən çox qəddar adamam. Mən, mənə xəyanət eləyən heç kəsi, ağlım kəsəndən üzü bəri, bağışlamamışam, hamısının xəcalətindən çıxmışam və bir kimsəyə borclu qalmamışam.

— Sənə də borclu qalmayıblar, Aslan. Sən niyə elə fikirləşirsən ki, bu qüdrətə təkcə sən maliksən?

Oğullar da var ki, sənin qanını ovuclayıb içə bilərlər. Əgər bilsələr, səni tanısalar!.. Elə deyil?..

— …

— Susursan! Çünki yaxşı bilirsən ki, mən düz deyirəm. — Leyla baxışlarını qaldıranda Aslanın gözlərinin yaşardığını gördü. Baxmaq istəməyib üzünü yana çevirdi. Aslan sinə dolusu «ah» çəkib köks ötürəndə Leyla xanım dözməyib:

— Yaxşı, yaxşı, özünü ələ al. Yadına sal ki, başına belə iş gələn yeganə kişi sən deyilsən: bələləri səndən qabaq da olublar, indi də var, sabah da olacaqlar. Dünya bineyi-qədimdən belə qurulub. Aldadarsan, aldadarlar, xəyanət eləyərsən, sənə də xəyanət eləyərlər. Dünyada heç bir bəd əməl cəzasız, heç bir yaxşı iş də mükafatsız qalmır — söylədi.

ALTINCI FƏSİL

Araya dərin bir sükut çökdü. Aslan tez-tez dəbərişən və ağlı başından çıxmış adamın gözlərinə bənzəyən gözlərini Leylanın üzünə zilləyib xeyli, kirpik çalmadan baxdı, baxdı: bu qırpımsız baxışları oxumaq, məna vermək çətin idi. Ancaq Leyla onun içində, ürəyində qopmuş tufanı görürdü, başa düşürdü və nə qədər yazığı gəlsə də, rəhm bilmirdi. «Sənə bu da azdır. Azdır!» — deyə qəlbindən gələn sözü dilinə gətirmək, bu qəddar adama təzədən eşitdirmək və onu təzədən «öldürmək» istəyini güclə boğurdu. «Belə adamlardı bu gözəl, bu şirin dünyanı zəhərləyən, cəhənnəmə döndərən; günahsız, təmiz insanların taleyini çubuq kimi sındıran, ayaqları altına atıb tapdalayan və dünyanı ah-nalə ilə, göz yaşları ilə dolduran belələridir. İmkanım olsaydı, yer üzünü dolaşar, bax, belələrinin, hamısını, bir yerə yığar və heç birinə rəhm eləmədən dənizə töküb məhv eləyərdim, inan ki, eləyərdim…

Ancaq görünür, qurban olduğum, o gözə görünməz özü bu dünyanı belə yaradıb, belə qurub: Yəqin dünya başdan-ayağa yaxşı, halal, pak adamlarla dolu olsaydı, yalnız göz-könül oxşayan gözəlliklərə qərq olsaydı, bəlkə də bunca şirin ola bilməzdi. Yəqin dünya şirini-acısıyla, gözəli-çirkiniylə, yaxşısıpisiylə birlikdə gözəldi…»

Leyla gözlərini yummuşdu, öz aləmindəydi, yaşadığı, min-bir əzab gördüyü bu cahanı saf-çürük eləyirdi, mühakimə edir, bəraət qazandırırdı.

Axırını bir yerə çıxarmadığı düşüncələrindən ayrılanda Aslanı otaqda görmədi. Bu ara mətbəxdə səs eşidildi — soyuducunun qapısı açılıb-örtüldü. «Yemək tədarükü görür» — deyə fikrindən keçirdi və gülümsündü. Yorulmuşdu, elə divanın üstündə, başını söykənəcəyə dirəyib əllərini sinəsində çarpazlayaraq yenə gözlərini yumdu, yatmaq istədi. Amma Aslanın dünən oxumağa başladığı romanı onun üçün o qədər maraqlı və cazibəli idi ki, unuda bilmirdi. Siranuş — bu məkrli qadın, Mehman — o arvad-uşağı ola-ola bu çərhəyanın nazıyla oturub-duran, yaxşılığı da unudan, çörəyi də unudan o iradəsiz oğlan

bütün ömrünü ancaq özü üçün yaşamış, közü həmişə öz qabağına eşmiş, qəlbinin istəyincə yaşamış, çox qızı-gəlini düz yolundan çıxarıb murdar əskiyə döndərib atmış və haradasa bu əməlləri ilə öyünən Aslan gözlərinin önündən çəkilib getmirdi. Bura qədər dedikləri Aslanın ömür kitabının yalnız bir fəsli idi, o kitabın qatı açılmamış səhifələri hələ qabaqda idi və bütün bunları Aslanın dünyasına — Aslanın özünün bildikləri və bilmədikləri şeylər Leylaya ən incə detallarına qədər aydın idi. Leylaya təkcə bunları Aslanın üzünə deyərkən keçirəcəyi halları görmək maraqlı idi.

YEDDİNCİ FƏSİL

Xüsusilə, Tanrıgül dastanı, xüsusilə, mövcud olduğunu belə bilmədiyi oğlunun dastanı… Maraqlı bir nağıla oxşayırdı bütün bunlar.

Amma beyin də canlıdı — onun ayıq, işləyən vaxtı olduğu kimi, sən istəməsən belə, yatan, susan və dincələn zamanı da olur — Leylanın beyni yorulmuşdu, Aslanın ömür kitabının bu qədər maraqlı olmasına baxmayaraq, Leylanı mürgü qanadları üstünə alıb insanı bu dünyadan ayırmağa qadir yuxu aləminə apardı və bu yuxu, az qala hər şeyi görən, bilən o dərdli, nisgilli, yatmış qızı bir gözələ döndərdi.

Aslan isə mətbəxdəydi. Leyla səhv eləmişdi. Aslan orada yemək-filan tədarükü görmürdü və bu, heç onun yadına da düşmürdü. Çünki o, o ki, var «yemişdi». Azca əvvəl olan o dəhşətli söhbətdən sonra içini, beynini, ürəyini elə bil qarışdırmışdılar. Heç nə düşünə bilmirdi. İflic olmuşdu sanki. Ağlına təkcə bu gəlmişdi ki, soyuducudakı üç konyakdan birini götürüb qabağına qoymuşdu və keçən həftədən qalmış, üzü əprimiş kəsik yemişi dilimləyib dalbadal içirdi. Leylanın yanında bu qədər içə bilməyəcəyini düşünmüşdü — yəqin icazə verməyəcəkdi və o da Leylanın sözündən çıxa bilməyəcəkdi. Buna görə, indiki halında qəbul elədiyi ən ağıllı və düzgün qərar bəlkə elə bu idi. İçirdi, içirdi, ürəyində kəsik-kəsik öz-özünə danışırdı.

«Bədbəxt adam! Sən dünyanın ən bədbəxt adamı imişsən, Aslan! Necə də avam olmusan sən! İndiyə qədər elə bilirdin sən çox ağıllı adamsan, xoşbəxt adamsan. Amma sən demə, özün-özünü aldadırmışsan. Vəzifən vardı, pulun vardı — elə bilirdin hər şeyin var. Elə bilirdin bunlar xoşbəxtlik üçün kifayətdir. Sən eyş-işrət məclisləri qururdun — gözün tutan, xoşuna gələn qızlarla, qadınlarla keflər çəkirdin — elə bilirdin dünyanın bəxtəvəri sənsən. Aman Allah, necə də səhv eləyirmişsən, Aslan! Axı mən səni qazdan ayıq bilirdim, kişi! Nə? Kişi? Sən niyə kişi olursan, ay bədbəxt? Kişi bilirsən kimdi? Əsl kişi odu ki, papağı başında salamatdı, yəni bir köpəkoğlu onun anasının, bacısının, arvadının, sevdiyinin namusuna əl uzatmayıb. Anası, bacısı, arvadı, sevdiyi hardasa, haçansa, kimin yanındasa papağını yerə soxmayıb. Bax, əsl kişi odu, Aslan! Sən niyə kişi deyirsən özünə? Yox, daha sənin özünə kişi deməyə haqqın yoxdu, Aslan! Siranuş sənin papağını bir gədənin ayaqları altına atıb tapdamadı? Bir gədənin? Bəs… o birilər?.. Uzun-uzun illər… mən… Gör hələ o zaman Qasan Qasanıç — gorun çatlasın, o biri köpəkoğlu — sənin də gorunu… — mənə necə baxırmışlar, haqqımda nələr düşünürmüşlər, aman Allah! «Mən sənin arvadınla…» Tfu sənin cəmdəyinə! Alçaq, murdar qadın».

Dəli kimi danışırdı öz-özünə. Yanırdı, yaxılırdı. Tüstüsü təpəsindən çıxırdı. Süzür, içirdi. İçdikcə də gözləri qızarır, başı fırlanırdı. Tərləmək adəti yox idi, amma indi bədəni su içindəydi. Yemiş qurtarmışdı. Konyakı elə-belə, su kimi içirdi. Tənbəllikmi eləyirdi, ağlınamı gəlmirdi — qalxıb soyuducudan mer-meyvə, pomidor-xiyar da götürmürdü. Şüşənin dibindəkini stəkana boşaldıb qızarmış gözlərini yumdu, konyakı başına çəkdi. Çeçəyib stəkanı yerə qoydu. İri, tüklü əllərini mizin üstünə qoyub gözlərini yumdu və başı yavaş-yavaş aşağı endi. Heç bircə dəqiqə keçməmiş xornası eşidildi

***

Azmı yatmışdı, çoxmu yatmışdı — bilmirdi. Leyla gözlərini açanda özünü yumşaq divanın üstündə görüb əvvəlcə təəccübləndi, harada olduğunu xatırlaya bilmədi; bir-iki dəfə də kiprik çalıb otağa göz gəzdirəndən sonra bu gün başına gələn macəra yaddaşında canlananda gülümsündü. Divara vurulmuş qədimi saat üçü göstərirdi. Aslan yox idi — o, tənbəl-tənbəl, yarı yuxulu halda ayağa qalxıb yan otağın açıq qapısından içəri boylandı. Orda da kimsə yox idi. Çölə çıxdı. Ulduzlu göylərə, ayın qabağından cənuba tərəf axıb keçən bulud tayalarına baxdı; eyvanın o başına getdi; dənizin uzaq, mübhəm hənirtisi eşidilirdi. Xeyli dayanıb dinlədi. Dəniz səmtdən axıb gələn sərin meh vücudunun kəsalətini, beyninin dumanını silib apardı sanki bircə anda. Bütün yorğunluğu, gərginliyi yox olub getdi. Aslanla olan söhbətlərini yada salıb bu gün tamam yeni bir aləmə düşüb yeni bir dünyada yaşadığından dərin bir məmnunluq duydu və sinədolusu nəfəs alıb mətbəxə — xorna səsi eşitdiyi yerə gəldi. Aslan elə mizin arxasındaca başını əlləri üstünə qoyub şirin-şirin yatmışdı.

Birinci hissənin sonu

Bakı, 1990-1997

YANDIRILMIŞ ADAM

«Ey atəş, yandır, nə qədər bacarırsan yandır, ancaq onu da bil ki, yandırmaq istədiklərini və yandırdıqlarını yandırıb külə döndərəndən sonra sən özün də şölə çəkən vücudunu yerə-göyə çırpa-çırpa alovlu başını yandırdıqlarının külü üstünə qoyaraq yavaş-yavaş öləziyib sönəcək, nəhayət, məhv olacaqsan, çünki atəşin öz ömrü də yandırdıqlarının həyatı sona çatan kimi sönüb qurtarır».

Yandırılmış bir məktubdan.

BİRİNCİ FƏSİL

Qəfil gəlib ömrün qapısını döyən ölüm qorxulu deyil. Gözlənilməzdi, amma dəhşətli də deyil. Doğrudu, sözün-vəsiyyətin ürəyində qalır; bənnasansa tikdiyin bina yarımçıq, rəssamsansa yaratdığın portret natamam, şair, yazıçı, alimsənsə yazdığın əsər bitməmiş qalır; cavansansa sevdiyinə demək istədiyin ən şirin söz dilinin ucunda donur, qocasansa hələ yaşamaq istədiyin günləri, ayları, illəri itirirsən, yaxşı adamsansa eləyə biləcəyin yaxşılıqlar ölür, pis və alçaq tinətli adamsansa kimlərdənsə almaq həvəsiylə yaşadığın intiqamlar ürəyinlə bir yerdə partlayıb öz qanına qəltan olur. Yox, belə qəfil ölüm dəhşətli deyil, ailən üçün, qohum-əqraban, dostların üçün dəhşətlidi, amma sənin özün üçün yox.

Dünyada insan ağlının təsəvvür eləməyə qadir olduğu dəhşətlərin ən dəhşətlisi budu ki, ölümə məhkum olduğunu, onun buz kimi soyuq və rəhmsiz əllərinin sənə tərəf yavaş-yavaş uzandığını biləsən, görəsən və o qorxu içində, yediyin-içdiyin haram ola-ola, ümidlərindən, arzularından əl çəkərək yaşayasan. Bax, bu, dəhşətdi. Ancaq onun da «gözəlliyi» var və bu, ondan ibarətdi ki, sən taleyin hökmüylə barışıb işlərini sahmana salırsan, sözünü deyib vəsiyyətini eləyirsən, borcların varsa qaytarmağa, alacaqların varsa almağa çalışırsan, yazı-pozu adamısansa arxivində səliqə-sahman yaradırsan; ən ümdəsi isə

budu ki, xəstəxanadamı, evdəmi, tək-tənha qalan çağlarında şüurlu ömrünün yaşanmış illərindən bir film yaradıb xəyalının ağappaq ekranında kənar bir tamaşaçı kimi baxırsan, gah sevinirsən, gah kədərlənirsən, gah gülümsünürsən, gah da ağlayırsan. Sənin özünün yaratdığın, aktyoru da, rejissoru da (ssenarisi həyatındı, o heç) özün olduğun o yeganə filminin axırına haçan «Filmin sonu» sözlərinin yazılacağını qorxa-qorxa gözləyirsən. Bəli, bu, böyük dəhşətdi, aman allah. Bu, gündə bir az ölümdü, zərrə-zərrə ölümdü, an-an ölümdü. Azacıq insafı, mürüvvəti olan adam, ən qəddar düşməninə belə bu cür ölüm arzulaya bilmir.

… Ürəyinə dammışdı ki, öləcək. Ürəyinə dammışdı ki, on beş gün qabaq, gözləmədiyi halda yuxarıda, o nüfuzlu adamın dilindən çıxan bircə kəlmə: «SNƏTĞ» sözündən sonra üstünə axıb tökülən o qüdrətli və öldürücü zərbələrə, onların ağırlıqlarına və ağrılarına dözə bilməyəcək. Yox, o zərbələrə dözmək mümkün deyildi. Bir kəlmə sözün qüdrətinə bax ki, elə o günün səhəri dünənəcən çox yaxın hesab elədiyi, iclaslarda, plenumlarda mehriban-mehriban görüşüb hal-əhval tutduğu adamlar elə o iclasda üz-gözlərini bozardaraq (Elə bil, onu heç tanımırmışlar.) otuz il ürəyinin başında arxası kimi, dayağı kimi gəzdirdiyi partbiletini otuz dəqiqənin içində elə ustalıqla əlindən almışdılar ki, özü də məəttəl qalmışdı. Elə həmin gün işdən çıxarılmaq əmri də verilmişdi. Axşam, saat səkkizdə, arxa şüşəsinə ağ pərdə çəkilmiş «AQA» nişanlı qara maşın onu gətirib hökümət evinin arxasındakı cəlallı binanın — yaşadığı evin qənşərində qoyub gedəndə on il onu gəzdirən, sədaqətlə qulluq eləyən, bazar-dükanına gedən, qızı Turac xanımı işlədiyi «Dəri-Zöhrəvi xəstəlikləri klinikası»na aparıb gətirən sürücüsü Qəşəmə allahın quruca «Sağ ol»unu da deməmişdi. Sonra, addım atmağa belə taqəti olmadığından, elə səkinin üstündə dayanıb sağ əlini ağacın gövdəsinə söykəyərək, hələ baş vermiş hadisələrin mahiyyətindən baş açа bilməyən adam kimi, gözlərini döyə-döyə uzaqlaşmaqda olan maşının qıpqırmızı nara oxşayan arxa işıqlarına həsrətlə baxmışdı və bu qatmaqarışıq hisslər

aləmində bircə bunu dərk eləmişdi ki, o qara maşın onun ağ günlərini apardı və sabah, səhər tezdən də qaytarıb gətirməyəcək. Və elə oradaca bir də bunu başa düşmüşdü ki, divin canı şüşədə olan kimi, onun da canı o kabinetdəymiş, o qara maşındaymış. İyirmi il — nə az, nə çox — düz iyirmi il o meşin qapılı, qoşa telefonlu kabinetin dadını, gücünü yaxşıca görmüşdü, dadmışdı. Bütün o illər ərzində bir dediyi iki olmamışdı, sözünün üstünə söz çevirən olmamışdı. Doğrudu, bir neçəsi var idi belə, ancaq o, onların vaxtında dərsini vermişdi, susdurmuşdu, yerdə qalanlar isə «gözü çıxmış qardaşdan öyrənib» ağızlarına su almışdılar. Dünən, orada, yuxarıda o nüfuzlu adamın sözünün necə pendiri bıçaq kəsdiyi kimi kəsərli olduğunu görüb təəccüblənmişdisə, indi ağacın dibində dayanıb artıq çoxdan gözdən itmiş maşın səmtinə baxa-baxa yadına salıb təsəlli tapmışdı ki, elə o da, onun kimi olmasa da, bir az kiçik miqyasda eynən onun təki hökmlü, zabitəli olmuşdu: onun da sözü qanun kimi səslənmiş, qanun kimi qəbul olunmuşdu. İyirmi il beləcə hökmlə, hikkə ilə, özünü az qala allah hesab edərək yaşayan bir adamı birdən-birə sən deyən (hələ ona elə gəlirdi) tutarlı, əsaslı bir dəlil-günah olmadan o uca zirvədən başı aşağı dığırlamaq? Bu, ona bənzəyirdi ki, balığı sudan çıxartdın, atdın sahilə, qumların üstünə. Yaşaya bilərmi? Yox, çırpınıb-çırpınıb ölməlidi o balıq. Yaşaya bilməz. Hələ o qara maşın… O qara maşında (Doğrudu, bu, onun iyirmi ildə dəyişdirdiyi üçüncü maşın, ikinci sürücü idi) gəzəndə necə də yerə-göyə sığmayan bir fərəh duymuşdu həmişə. Arxa oturacaqda, sağ tərəfdə əyləşərdi və iri şüşəli eynəklərinin altından küçədə gedənlərə, avtobusda, trolleybusda bir-birinə söykənərək dayananlara baxanda özünü onlardan bir baş yuxarı saymağın sevincini ancaq o adamların özləri duyub danışa bilərlər — başqa kimsə onu dilə gətirib bəyan eləyə bilməz.

İndi… bütün bunları onun əlindən almışdılar. Və daha o hökmün, o qüdrətin, o fərəhin geri qayıdacağına ümid yox idi. Acı bir təəssüf hissi də içini yandırıb yaxdı ki, daha qocalıb, cavanlıq çoxdan köç eləyib gedər-gəlməzə uçub: gərək elə ke-

çən il, yetmişi tamam olanda, təntənə ilə yubileyi qeyd olunandan sonra ləyaqətlə ərizə verib təqaüdə çıxmaq istədiyini bildirəydi və şərəflə gedəydi. Qızı da demişdi, özünün də ağlına batmışdı, ancaq o söhbət evdə, ata-bala arasında olan günün səhəri, «İnsan» institutuna gəlib kabinetinə girərək öz yumşaq kreslosunda əyləşib hökümət telefonunun cingiltisinə ayağa qalxaraq cavab verəndən sonra, fikrindən dönmüşdü: «Yox. Mən getsəm… bu idarə batar. Mən getsəm…» O, bu institutu özü olmadan, özünü də bu kabinetdən, bu telefondan ayrı təsəvvür eləyə bilməmişdi. Yox, sən getsən, elə hər şeyi kənara qoyuram, dağ boyda o kişi sənə zəng eləyər? Heç yadına da düşməzsən, vallah. Bir az da keçsə, adını da yadından çıxardar, unudar ki, bir zaman belə bir adam da olub. Yox, Paşa, sən elə burada, bu kabinetdə ölməlisən, sənin meyidin buradan çıxmalıdı. Sonra da bu institut sənin adına olmalıdı: «Paşa Camalzadə adına «İnsan» institutu». Və xəyalın qanadlarında uçaraq öz ölümündən sonrakı günlərə getmişdi, təzədən qayıdıb dəniz qırağında yerləşən institutun iri darvazasının qabağına gəlmiş, Azərbaycan və rus dillərində qapının sağ-sol tərəflərinə vurulmuş qara lövhəni oxuyub uşaq kimi sevinmişdi. Qəribəydi, ölüb bu dünyadan köçdüyünə göynəmişdi, amma adının instituta verildiyinə fərəhlənib gülümsünmüşdü. Beləliklə, stol, hakimiyyət güclü çıxmışdı, daha doğrusu, özü onlardan qopub ayrılmağa özündə güc-qüvvət tapa bilməmişdi. Əslində bu, zahirdə beləydi. İçəridə, qəlbində iyirmi ildən çox bir müddətdə adət eləyib alışdığı bu aləmdən ayrılmaq — onun üçün ölümə bərabər idi və bunu o özü yaxşı dərk eləyirdi. «Qoy qalsın belə. İşləyək görək taleyimiz nə göstərəcək». Budu, həmin tale gəlmişdi və hökmünü də özüylə gətirmişdi. İndi, Paşa Camalzadə, həmin taleyin quluydu. Hələ elə bil yuxudaydı, ayılmamışdı; key kimi dayanıb durmuşdu.

Beləcə çoxmu dayanmışdı, azmı dayanmışdı, bilməmişdi. Qıçlarının titrədiyini hiss eləyib, bir az da burda dayansa yıxılacağını duyub, qəlbini sıxan, beynini dağıdan o qatmaqarışıq fikirləri zorla özündən uzaqlaşdırmağa çalışmış, buz üstə yeri-

yən adam tək addımlarını ehtiyatla, qorxa-qorxa ata-ata özünü bloka, oradan da liftə salmış, dördüncü mərtəbədə düşərək əlləri titrəyə-titrəyə mənzilinin dəmir qapısını açmış, işığı belə yandırmadan, pallı-paltarlı divana uzanmışdı. Bayılmışdımı, yatmışdımı, bunu da bilməmişdi. O yatan bir də səhəri gün, axşam çağı ayılmışdı. İlk əvvəl paltarlı yatdığına təəccüblənmişdi. Müharibədən sonra keçən bu qırx il ərzində birinci dəfəydi ki, paltarlı yatmışdı. Kostyumu əzik-əzik olmuşdu, qalstuku qatlanıb «sınmışdı». Qalxıb oturmuşdu, iri, səliqə ilə bəzənib-düzənmiş otağa göz gəzdirmiş, billur qab-qacaqla, vazlarla, qədəhlərlə dolu servanta tamaşa eləmişdi və sanki o naxışlı, sanki özündən işıq saçan şüşələrdən otağa dəhşətli bir soyuq axıb dolmuş, onu üşütmüşdü. Divanda büzüşərək üşüyən baxışlarını o soyuq püskürən şüşələrdən çəkmiş, qarşı divara vurulmuş məşhur Təbriz xalçası (Bu xalça Bakıda yeganə xalçaydı, deyilənə görə, Şah Abbasın vaxtında toxunmuşdu: adı da «Çahar fəsl» idi — sənətkar bir xalça üzərində təbiətin dörd fəslini — baharı, payızı, qışı və yayı elə məharətlə və göz-könül oxşayan rənglərlə toxumuşdu ki, elə canlı ovqat yaradırdı ki, qışa gözün sataşanda üşüyürdün, yaya tamaşa eləyəndə canın qızırdı, bahara baxanda burnuna az qala gül-çiçək ətri gəlirdi, bülbül nəğməsi eşidirdin, payızı görəndə istər-istəməz qəlbinə bir payız həzinliyi, bir xəzan ovqatı axıb dolurdu. Sənət möcüzəsiydi və Paşa, evinə gələn qonaq-qaraya həmişə yerə-göyə sığışmayan bir iftixar hissiylə danışırdı ki, bu xalçadan dünyada iki dənədi: biri Londonun xalça muzeyindədi, biri də mənim evimdədi. Müharibə qurtaran ili, o vaxtın puluynan beş yüz manata almışam. İndi bizim İçəri şəhərdəki xalça muzeyimiz yüz iyirmi beş min manat verir, vermirəm.) üzərində, ortada, yuxarı başda qızılı çərçivəyə alınmış şəklə — mərhum arvadı Qaratelin şəklinin üstündə saxlamışdı. Şəkildən ona məhzun baxışlı, xurmayı saçının birini qalın hörüb sol döşünün üstünə atmış cavan, yaraşıqlı bir gəlin baxırdı. Paşa yaxşı xatırlayırdı: bu, Qaratelin gəlin gələndən sonra çəkdirdiyi şəkliydi, özünün çox xoşuna gəlirdi bütün şəkilləri arasında və Paşadan xahiş eləmişdi

ki, məhz bu əksini böyütdürüb çərçivəyə saldırsın. Paşa da Qaratelin bu arzusunu yerinə yetirmişdi.

Qaratel Paşanın əmisi qızıydı. Müharibədən əvvəl Şuşada yaşayırdılar. Atası öləndən sonra anası başqa ərə getdiyindən və qız, arada, qonum-qonşu ümidinə qaldığından əmisi — hələ otuzuncu illərdə Bakıya köçüb yurd salmış Sultan kişi onu götürüb evə gətirmiş, öz uşaqlarına qatıb böyütmüşdü: «Elə bilərəm dörd yox, beş uşağım var. Qardaşımın yadigarını çölə atmayacağam ha» — demişdi. Ancaq Sultanın arvadı bu yetim qıza göz vermişdi, işıq verməmişdi, oxumağa qoymamışdı, evdə qulluqçu kimi saxlamışdı. Sultanın bütün cidd-cəhdlərinə baxmayaraq, hirsli-hirsli Gülabatın arvad dediyini yeritmiş, qıza bir dəfə də təzə paltar almağa imkan verməmiş, üç qızının köhnə-küləsini geyindirmişdi. Artıq böyüyüb yekə qız olan Qaratel, qara taleyinin hökmüylə barışıb lal, müti bir qulluqçu kimi yaşamışdı o evdə. Ancaq müharibənin qızğın vaxtı, qırx üçüncü ildə Sultanın ailəsinə bədbəxtlik üz vermiş, kişi işdə, Qaratel bazarda olanda evdə qaz partlamış, Gülabatın da, qızları da həlak olmuşdular. Sultanın sonralar güc-bəla ilə təmir elətdirdiyi o tək otaqda ikisi qalmışdı. Paşa əsgərlikdən sağ-salamat qayıdandan sonra, evlənmək məsələsi ortalığa çıxanda, Sultan gözünün qabağında böyümüş, gözəl, tərbiyəli, işli-güclü Qaratelin adını çəkmişdi və insafən, Paşa da heç nə deməyib razı olmuşdu. Onlar yaxşı yaşamışdılar, dedi-qodusuz, dava-dalaşsız bir həyat sürmüşdülər. Qaratel ev qadını olmuşdu, işi-peşəsi ailəsinə, tək balası Turaca qulluq eləməkdən ibarət idi. Az danışardı, artıq heç nə tələb eləməzdi — əri nə alardı, ona da qane olardı, geyim-keçim xəstəsi, «filankəsin filan şeyi var, mənim niyə olmasın?» — deyən deyildi. Ərinin işinə də heç vaxt qarışmazdı, çox vaxt heç bilməzdi ki, Paşa harada, hansı idarədə və nə vəzifədə çalışır. Çünki onun xasiyyətinə az-çox bələd idi: bir yerdə qərar tutana oxşamırdı; yadındaydı ki, o, bir vaxt aktyor olmaq arzusu ilə yaşayırdı, hətta Bakı Teatr texnikumuna da girmişdi və gəlib evdə fəxrlə danışırdı ki, bilirsən, Qaratel, o məşhur şairimiz var ey, Hüseyn Cavid, hə, bax o, mənə dərs

deyir, məndən yaman xoşu gəlir. Deyir səndən yaxşı səhnə ustası çıxacaq, əgər öz üzərində çalışsan. Sonra nə oldusa, otuz səkkizdə o, Tetar texnikumunun daşını atdı. Bu dəfə şair olmaq həvəsinə düşmüşdü. Lakin bu da uzun sürməmişdi. Qəribə xasiyyəti var idi Paşanın cavanlıqda: yaxşı tar çalan görürdü, tar çalmağa meyl eləyirdi, kamança çalana qulaq asandan sonra tar yadından çıxırdı, kamançaçı olmaq eşqi qəlbində baş qaldırırdı. Beləliklə, demək olar ki, harda yaxşı bir sənətkar — şöhrətli, camaatın çox sevdiyi, alqışlarla qarşıladığı, gül-çiçəyə qərq elədiyi bir sənət adamı görürdüsə, məhz ona bənzər olmaq istəyirdi, bütün başqa işini-peşəsini atıb o sahəyə girişirdi. Ancaq üçdörd gün keçməmiş, «Mənim girdiyim kol deyil» — deyib başqa bir həvəsinin dalınca qoşurdu. Paşanın bu xüsusiyyətini yaxşı bildiyindən Qaratel daha maraqlanmazdı. Evə, ailənin dolanışığı üçün pul gətirir, bəsdi.

Paşa özü də qapalı sandıq idi, içini, ürəyini arvadına açan deyildi, Qaratel hətta bunu da başa düşmüşdü ki, o, dostları üçün də müəmmadı, heç kəsə sirr vermir, dərdini, azarını demir. Paşanın evinə gəlib gedənlərdən, oturub durduğu adamlardan ancaq Qulubəy adlı biri vardı ki, hərdən onunla xısınlaşırdı və əvvəllər Qaratel, böyüyüb ağlı kəsəndən sonra isə qızı Turac da baş açа bilmirdi ki, Paşa ilə Qulubəyi bir-birinə bağlayan nədi? Çünki onlar zahirən başqa-başqa adamlar idilər və xasiyyətləri də açıq-aşkar tutmurdu.

Paşa Qarateli sevməmişdi. Necə deyərlər, elə belə, evlənmək xatirinə, ailə sahibi olmaq xatirinə evlənmişdi, ona arvaddan çox, bir əmi qızı kimi baxmışdı və hardasa öz taleyinə də minnətdarlıq eləmişdi, atasına isə rəhmət oxumuşdu ki, Qarateli ona qismət eləyib. Ayrı arvad Paşanın nə xasiyyətinə, nə qapalılığına, nə özbaşınalığına dözmədi, dözə bilməzdi. Qaratel isə dözmüşdü və Paşa da onun bu dözümündən allahsızcasına gen-bol istifadə eləmiş, hara istəsə getmiş, harda istəsə qalmışdı və buna görə tanışlarının, yoldaşlarının arasında «arvaddan qorxan»lara həmişə rişxənd eləyib gülmüşdü. Qaratel bir yerdə yaşadıqları iyirmi bir il üç ay müddətində bircə dəfə də səsini

ucaldıb ərinin xətrinə dəyməmişdi, onun iradəsinin xilafına bir addım da atmamışdı və buna görə, Qaratel ağ qan xərçənginə tutulanda Paşa onu xilas eləmək üçün nə lazım idisə eləmişdi, lakin təəssüf ki, bir xeyri olmamışdı. Qəşəng, ətli-canlı Qaratel arıqlayıb, incəlib bir sümük, bir dəri qalanda Paşanın ona çox yazığı gəlmişdi və sərt təbiətli bir adam olan o, bəlkə də ömründə ilk dəfə arvadının gözü qabağında kövrəlib doluxsunmuşdu. Bir qadın kimi ömrü boyu ərindən bir əzizləyici, qəlbinin məhəbbətini bildirən bir söz eşitmək həsrətilə yaşayan və o cür nəvazişli sözləri daha heç vaxt eşitməyəcəyinə inanan Qaratel, onun kövrəlməyini görəndə az qala öz ağır mərəzini unudaraq uşaq kimi sevinmişdi və o biçarəyə elə gəlmişdi ki, Paşa bu iyirmi üç ildə demədiyi, demək istəmədiyi, yaxud deyə bilmədiyi bütün sözləri o qara gözlərinin bulaqlarında gilələnmiş göz yaşları ilə demişdi. Damcılar — gözdə gilələnmiş o ağ damcılar sözə çevrilə bilərmiş, ilahi, danışa bilərmiş, ilahi və dünyadan köçməyə məhkum olunmuş bir qadın ürəyinin odunu-atəşini soyudub söndürə bilərmiş. Və qəribə idi ki, Paşanın xəstə Qaratelin yastığı yanında doluxsunduğu o anlardan dördbeş saat sonra keçinən əzabkeş qadının sifətində niskil yox, ağrı yox, xoşbəxtlik işığı saçan bir təbəssüm həkk olunmuşdu və dərsdən qayıdıb anasının vəfat etdiyini eşidən Turac, vay-şivən qopara-qopara meyidin üzünə çəkilmiş qara örtüyü qaldırıb baxanda o təbəssümü görərək elə bilmişdi ki, Qaratel şirin bir yuxuya gedib. Ancaq onu o şirin yuxudan oyatmaq ümidiylə aşağı əyilib çiynindən tutaraq silkələyəndə və: «Ana, ana, oyan» — deyən-də də o təbəssümün pozulmadığını görüb inanmışdı o ölümə.

Paşa Qaratelin «Çahar fəsl» xalçası üstündən asılmış şəklinə baxanda o son təbəssümə oxşar bir təbəssüm görüb heyrətlənmişdi. Necə olmuşdu ki, bunu indiyəcən görməmişdi, duymamışdı? Qaratel ordan — divardan Paşaya tamaşa eləyirdi və sanki baxışlarıyla soruşurdu: «Paltarlı niyə yatıbsan, əmioğlu? Səndən çıxmayan iş. Nə olub ki? Dur, soyun, pijamanı gey. Qoy ütünü qızdırım, indi ütüləyərəm». Qəribəydi, Qaratel belə de-

yirdi, ancaq yerindən tərpənmirdi. Paşa onun sözünə əməl edirmiş kimi, qalxıb işığı yandırmışdı, paltarını çıxarıb stulun başından asmışdı və mil-mil özbək xalatını əyninə almışdı. Başı ağırlaşmışdı, elə bil bədəninə ağırlıq eləyirdi, ağzına sanki zəhər sıxmışdılar. Xatırlamışdı ki, dünən səhər yediyinin üstündədi. Ancaq aclıq hiss eləmişdi. Ağzının acısı az qala dilini yandırırdı. Çay içmək pis olmazdı: mətbəxə keçib qazı yandırdı, çaydanı üstünə qoydu, on dəqiqə sonra boyat rəngli bir çay süzüb içmişdisə, ağzındakı acı çəkilib getməmişdi. Telefona baxmışdı — susurdu; görünür, dünəndən heç zəng eləyən olmamışdı. «Bəlkə də eləyiblər, eşitməmişəm. Turac üç gündü yoxdu. Gəlmir. Yəqin işi çoxdu. Eh, hər kəs sağ olsun özü üçün. İndi zamana belədi ki, sağ gözün işığı sol gözə düşmür. Hərə öz hayında, kəsbkarlığında, karyerasındadı. Elə bil mənim yıxılmağımı gözləyirmişlər. O boyda institutdan bir nəfər gəlib demir ki, ay kişi, bu nə işdi, bu nə müsibətdi sənin başına gəldi? Heç olmasa zəng eləyib soruşan da yoxdu. Eybi yoxdu. Qədirbilməzlər dünyasına düşdün, Paşa. Sənin qədrini bilmədilər. Ömrünü qurban ver, saçlarını ağart, gözlərinin nurunu ərit, sovet hökümətinə qulluq eləmək, ona sədaqətini göstərmək üçün onu əz, bunu sıx, o birinin başını kəs, axırda da sənə desin ki, «Tı ne prav, tı ne kommunist, tı xuje faşista, tovariş Djamalzade». Bu da sənin «çox sağ ol»un, bu da sənin qiymətin. İndi döz buna görüm necə dözürsən? Oğulsan, döz, Paşa. Yox, bu ittiham çox ağır ittihamdı, Paşa. Buna sən çətin dözə biləcəksən. Uf, ürəyim partlayır».

Ürəyi sancmışdı, bədəninə soyuq tər gəlmişdi və o, sağ əlini ürəyinin üstünə qoyub təzədən yumşaq divanın yanına gəlib uzanmışdı. Ancaq dünən büroda, uzun və geniş kabinetin yuxarı başında ayaq üstə dayanıb qəzəblə danışan nüfuzlu adamın o sözləri qulaqlarında elə hey səslənirdi:

— «Tı ne prav, tı ne kommunist, tu xuje faşista, tovariş Djamalzade». Bu da yadından heç cür çıxmırdı ki, o, güllələnmə hökmü kimi çox sərt səslənən o sözləri deyəndə, kabinetin lap aşağı tərəfində, qapının ağzında ayaq üstə güclə dayanan,

qıçları əsib az qala yıxılan Paşa, qədimdən tanıdığı, aralarında haqq-salam olan müavinə imdad diləyən bir nəzərlə baxmışdı, sanki yalvara-yalvara demişdi: «Qurban olum, gör neynəyirsən? Öldürür axı məni? Sən ki, məni yaxşı tanıyırsan? Bir kəlmə söz desənə». Ancaq müavin, sifətində donuq bir ifadə, iri şüşəli eynəyinin altından baxan iri ala gözlərini qırpmadan, özünü heç o yerə qoymayaraq, yavaşca, son dərəcə ehtiyatla sol çiynini çəkmişdi və elə bil onun sözsüz fəryadına sözsüz də cavab vermişdi: «Mən neyləyə bilərəm?». Və üzünü nüfuz sahibinə tərəf çevirərək onun dediklərini başı ilə təsdiq etmişdi. Bunu belə görəndə əl-ayağı yerdən üzülmüşdü. İndi o səhnəni göz önünə gətirərkən hansı bir kitabdansa oxuduğu bu sözlər yadına düşmüşdü: «Padşahların sözü, sözlərin padşahıdı».

Divanda o yan-bu yana çevrilmişdi, nüfuz sahibinin o xəncər kimi doğrayan sözləri yenidən, təkrar-təkrar qulaqlarını deşmişdi və kim bilir, neçənci dəfə səslənəndə başa düşmüşdü ki, onun: «… tı xuje faşista» — kəlmələri Paşanın ürəyini hamısından daha çox yandırır. Və bu, ölüm hökmü deyildimi?

İKİNCİ FƏSİL

Paşa üçün bu, son idi. Amma başlanğıc da var idi axı, başlanğıc da olmuşdu axı. Və o başlanğıc uzaq-uzaq illərin arxasında qalsa da, hafizəsi korşalıb yaddaşı kütəlsə də, hər şey xatırında qalmışdı, çünki onu kitablarda oxumamışdı, başqalarından eşitməmişdi, özü yaşamışdı; o, yaxşı-pis ömrünün bir parçası idi.

O dəli-dolu çağlarında aktyorluq, şairlik, çalğıçılıq, rəssamlıq həvəsi beynindən, ürəyindən çıxandan sonra, Sultan kişinin bir dostunun məsləhəti və yaxından köməyi ilə Paşa bir də gözünü onda açıb görmüşdü ki, Darülfünunun biologiya fakültəsinin tələbəsidi və müəllimlərin ona başqa fənnlərlə yanaşı torpağın, bitkilərin, heyvanat aləminin də sirlərini öyrətməklə məşğuldu. Əvvəl heç həvəsi yox idi, bir fürsət və bəhanə axtarırdı

ki, bu sənətin də dalından dəysin. Ancaq Sultan ona necə təpinmişdisə: «Bəsdi, ə, qodu-qodu gəzdirdin. Sənin tayların çoxdan sənət, ev-eşik sahibi olub, sən isə hələ də bir yerdə qərar tutub bir işin qulpundan yapışmamısan. Onu bil ki, gəzən şələ bağlamaz» — demişdisə, Paşa o fikri başından atmış, dərslərə girişmişdi. «Elə hesab elə ki, sən həkimlik oxuyursan. Yarımhəkim kimi bir sənətdi bu» — demişdi bir dostu da və bu da Paşanı oradan da qaçmaq fikrindən daşındırmışdı. Dördüncü kursu qurtaranda müharibə başlamışdı və sinif yoldaşları kimi onu da əsgər aparmışdılar. Qırx beşinci ildə cəbhədən qayıdan kimi beşinci kursda dərslərinə davam edib bir il sonra ali təhsilini bitirmiş və əvvəlcə Pedaqoji institutda, sonra isə Tibb institutunda biologiya-fiziologiya kafedralarında laborant, assisent və nəhayət, müəllim işləmişdi. Böyür-başında bir çox cavan yoldaşlarının elmi iş, dissertasiya yazdığını görən Paşa, əslində daxili ehtiyac üzündən yox, sadəcə, dəstədən geri qalmamaq üçün fiziologiya sahəsinə meyl salıb mövzu götürmüş, o zaman məşhur fizioloq kimi məşhur olan professor Qaraxanovun rəhbərliyi altında, demək olar ki, zorla, kişini hövsələdən çıxarda-çıxarda namizədlik dissertasiyasını əllinci ildə müdafiə eləmişdi. Balacaboy, çevik, son dərəcə təvazökar və vicdanlı bir alim olan Qaraxanov, Paşanın elmi qabiliyyətindən çox təşkilatçılıq qabiliyyətinə inanıb onun alim olmasına qol qoymuşdu: çünki həqiqətən Paşa əvəzedilməz dərəcədə zirək idi, quru çaya su gətirməyə göndərsəydin, əliboş qayıtmazdı, kafedranın bütün tədbirləri, professorun məmləkət şəhərlərindən, xaricdən gələn qonaqlarını qarşılamaq, yedirib-içirtmək, mehmanxanalarda yerləşdirmək kimi vaxt, hövsələ, bir az da sırtıqlıq tələb eləyən işlərinin hamısını Paşa bir göz qırpımında həll edərdi və hamını razı yola salardı, nəticə etibarilə institutun, kafedranın və ən ümdəsi isə professor Qaraxanovun başını uca, üzünü ağ eləyərdi.

Paşanın bu bacarığını görən professor Moskvaya, Leninqrada, sonralar isə hətta xaricə gedəndə də onu özüylə götürərdi, həm köməkçi kimi, həm də qulaq yoldaşı kimi. Paşa onu yol boyu cürbəcür şirin və məzəli söhbətlərlə əyləndirərdi, yemə-

yini-içməyini, istirahətini yüksək səviyyədə təşkil eləyərdi. Beləliklə, o məşhur alimlə Paşanın arası yaxın dost, yoldaş kimi açılmışdı və bunu görən yoldaşlar Paşaya ehtiyatla, hardasa bir az da qorxu hissilə yanaşırdılar və bu, Paşaya xüsusi ləzzət eləyirdi. Artıq o aləmin sirrlərini, həssas nöqtələrini ustalıqla mənimsəmiş Paşanın iştahı artmışdı, elmlər doktoru olmaq qərarına gəlmişdi və onun fikrincə Paşanın daha bu yolda qabağını kəsə bilən nə bir maneə, nə də bir adam ola bilərdi. Qaraxanovun adı, təkcə adı Paşanın bəsi idi. Bütün fizioloqlar aləmində «Qaraxanovun şagirdi» kimi tanınmışdı. Yalnız professor Qaraxanov onda bir şagirdlik görmürdü, görə bilmirdi. Hərdən Elmi Şura iclaslarında Paşanın növbəti əsərinin daşını daş üstə qoymurdu, bərk tənqid eləyirdi. Lakin kafedranın alimləri bunu professorun ərki hesab edir, durub Paşanı müdafiə eləyirdilər, çünki onların çoxuna elə gəlirdi ki, professor Paşanı tənqid eləməklə öz düşmənlərini tanımaq, aydınlaşdırmaq istəyir: onların fikrincə, Paşanın yazdıqları elə professorun fikridi və Paşaya qarşı çıxmaq professora qarşı çıxmaq kimi bir şeydi. Əslində isə professorun heç ağlına da gəlmirdi belə şeylər. Qaraxanov qocalmışdı, gözləri nurdan düşürdü yavaş-yavaş. Onun allah eləməmiş ölə biləcəyi, təqaüdə çıxacağı qorxusu Paşanı yamanca narahat edirdi və gecəni gündüzə qataraq çalışır, iki saat əsəri üzərində işləyirdisə, on saat onun mümkün qədər tez müdafiəsini təşkil eləmək yolları barədə düşünürdü. Nəhayət, o, əlli səkkizinci ildə müvəffəqiyyətlə doktorluq dissertasiyası da müdafiə eləyib ağyanıya çıxdı. Və bundan sonra papağını yan qoyub arın-arxayın yaşamağa başladı. Bir il sonra professor Qaraxanov allahın rəhmətinə gedəndən sonra onun «şagirdi» institutun yeganə elmlər doktoru kimi kafedra müdiri seçildi və… yavaş-yavaş yerini möhkəmlədib eninə, uzununa, dərininə kök atmağa başladı.

Ancaq qədirblməzlik eləmədi Paşa. Qaraxanovun zəhmətlərini, xidmətlərini unutmadı, oturdu, durdu, xeyirdə, şərdə, elmi iclaslarda, konfranslarda o böyük və unudulmaz müəllimini, gözəl alimi və uşaq kimi təmiz və saf insanı yad elədi, adı

dilindən düşmədi, camaat içində də, təkbətək özüylə qalanda da: «Mən o kişinin çörəyini yeyirəm, o mənim ustadım olub. Ustada hörmət eləmək isə hər layiqli şagirdin borcudu. Nədən ki, atalarımız da deyib: «Ustadına kəm baxanın gözlərinə qan damar, bala» — söylərdi öz şagirdlərinə və bununla da bir güllə ilə iki dovşan vurardı: həm özünü qədirbilən təki qələmə verərdi, həm də o «uşaqlara» öz təmənnasını bildirərdi: «Siz də mənim qədrimi bilin».

İnstitut rəhbərliyi ilə, Maarif Nazirliyi ilə danışıb kafedraya Qaraxanovun adını verdirmişdi və bununla da onun xatirəsini əbədiləşdirmişdi. Açığı ki, professor Camalzadənin bu hərəkəti onun öz həmkarları arasında, tələbələr içində, hətta Qaraxanovu yaxşı bir alim kimi tanıyan İttifaq və dünya alimləri yanında da hörmətini xeyli qaldırmışdı. Çoxları bunu Paşa Camalzadənin alicənablığı kimi qiymətləndirdi, ancaq o özü yaxşı bilirdi ki, belə eləməklə o, Qaraxanovdan çox özünə, öz şöhrətinə xidmət eləyir. Ayıq və çevik həyat fəlsəfəsi olan Paşa başa düşürdü ki, ölüb dünyadan getmiş bir adamın şöhrət nəyinə gərəkdi? Şöhrət insana sağlığında lazımdı ki, fərəhlənsin, çox yaşasın, dünyanın gözəlliklərindən, naz-nemətlərindən zövq və ləzzət alsın. «Mən öləndən sonra istəyirsən mənə lap qızıldan heykəl qoy. Nəyimə lazımdı? Məgər onun mənə bir isti-soyuğu olacaq? Yox». Doğrudu, o, əvvəllər, Qaraxanov vəfat eləyəndən bir neçə il keçənədək bu cür fikirləşirdi. Ancaq illər sovuşub Paşanın gəncliyinə xəzan yelləri əsdirməyə başlayanda, qocalığın yaxınlaşdığını hiss eləyəndə Paşanın bu düşüncəsi də dəyişməyə başlamışdı: indi o şöhrətin öləndən sonra da insana lazım olduğu qənaətinə gəlmişdi: «Şöhrət, ad-san adamı öləndən sonra yaşadır, yaddan çıxmağa qoymur. İnsanlar sənin haqqında danışır, düşünür. Məgər bu azdı? Yox, lazımdı şöhrət, çox lazımdı, Paşa. Yoxsa ölən kimi unudularsan».

Paşa hərdən, hərdən yox — müşahidə eləmişdi — dəfələrlə özündən ayrılıb içindən, qılafından çıxmış, kənara çəkilib yad adam gözüylə özünə, ömrünə, yoluna, xasiyyətinə, əxlaqına, elminə və şöhrətinə uzaqdan tamaşa eləmişdi: saf-çürük

elədiklərindən bəyəndiyi də olmuşdu, bəyənmədiyi də. Qəribəydi ki, srağa günəcən, yəni o tufan qopanacan Paşa içində bir adam görmüşdü və o adam nə eləmişdisə, bu Paşa onu haqlı, doğru saymış, bəraət qazandırmışdı. Əksər hallarda. Ancaq srağa gündən elə bil onu parçalamışdılar, iki yerə bölmüşdülər, iki adam eləmişdilər. Biri srağagündən o yana qalmış Paşaydı — onu hamı tanıyırdı, adını-sanını, şöhrətini görmüşdü, lakin ürəyində, xatirələrində doğulmuş ikinci adam təzəydi, maraqlı mühakimələri vardı və bu mühakimələr Paşanın — köhnə Paşanın özünə də qəribə, ziddiyyətli, bəzən anlaşılmaz görünürdü. Bəlkə bu ona görə beləydi ki, bu təzə Paşa o Paşaya zirvədən düşəndən sonra tamaşa eləyirdi? Hə, yəqin beləydi.

Divanın üstündə uzanmışdı, ancaq ona elə gəlirdi ki, o köhnə Paşa — o cavan, dolu-tökmə bədənli, yanaqlarından qan daman (Elə bil ki, dağlardan indicə enmişdi, sapsağlam idi, adam heç cür ağlına gətirə bilməzdi ki, o, xəstələnə bilər, qocala bilər.), qaynar baxışlı, od parçası kimi bir yerdə qərar tutub dayana bilməyən, gəncliyinin ən yaxşı çağlarını yaşayan, içindən çıxıb qabağındakı stolun arxasında oturub, par-par parıldayan qara ayaqqabılı ayağını-ayağının üstünə aşırıb onun ağ saçlarına, qırışmış sifətinə, əzab və peşimançılıq, qorxu və həyəcan ifadə eləyən qara gözlərinə təəccüblə baxır, özüylə onu fikrən müqayisə eləyir və təəssüflə başını tərpədib kədərli bir səslə:

— Bu, doğrudan sənsən, ay Paşa? — deyə xəbər alırdı. — Gör nə qədər dəyişmisən, aman allah! Heç tanımalın qalmayıb sənin, ay yazıq.

— Hə, düz deyirsən, cavan oğlan. Vaxtilə mən də sənin kimiydim: gözəl idim, güclü idim, yorulmaq nə olduğunu bilmirdim. — Paşa da xəyalında, ürəyində astaca qarşısındakı Paşaya — öz gəncliyinə hüznlə cavab verirdi.

— Daha «sənin kimi» niyə? Mən elə sənəm də, adaş. Mən sənin cavanlığınam, gəlmişəm.

— Hə? Tamam gəlmisən? Daha getməyəcəksən?

— Gedəcəyəm, adaş. Hayıf ki, qala bilmərəm.

— Niyə? Qal da. Qal yanımda, bir möcüzə göstər, bax, qarşında uzanmış bu qocanı büsbütün dəyişdir, qaldır ayağa, səhər çıxaq şəhərə, qoy görsünlər məni, gözləri heyrətdən çıxsın kəllələrinə məni istəməyənlərin.

— Yox, Paşa. Sən mənim qədrimi bilmədin, qardaş. Xərclədin sağa-sola, gecə-gündüz bilmədin, rahatlıq vermədin, köhlən at kimi aman vermədən çapdın. Məni sən talan elədin, Paşa. Mən hələ çox yaşamalıydım, dünyadan çox ləzzət almalıydım.

— Çox yaşamağı demirəm, ancaq ləzzət barədə… insafsızlıq eləyirsən, adaş. Mən sənə o barədə korluq verməmişəm, pul, var-dövlət əsirgəmişəm. Gözün nə görübsə, ürəyin nə istəyibsə, təşkil eləmişəm sənin üçün: heç bir arzunu gözündə, heç bir murazını ürəyində qoymamışam. Səni dünyanın az qala hər yerinə aparmışam, dadmadığın nemət qoymamışam, zərrəcə xoşuna gələn bir qızı, bir qadını nəyin bahasına olursa-olsun sənin ağuşuna atmışam. Sən nahaq belə giley eləyirsən, adaş.

— Düz deyirsən. Sən «təşkil eləmək» ustasıydın. O barədə sənə oxşayan ikinci bir adam tapmaq bəlkə də heç mümkün deyil. Ancaq hər şeyin bir ölçüsü, bir əndazəsi olmalıdı. Hansı müdriksə yaxşı deyib: «Ölçünü gözlə, ölçü yaxşı şeydi: həm dosta layiqdi, həm də düşmənə». Sən isə bütün ömrün boyu heç nədə ölçü-əndazə gözləmədin. Bax, ona görə də indi səni bu hala salıb divana uzadıblar.

— Bundan sənin də xəbərin var? Hardan bilirsən, adaş? Yəqin bütün aləmə, şəhərə yayılıb, hə? Hamı bilir ki, məni işdən də, partiyadan da çıxarıblar, hə? Niyə gülürsən, adaş?

— Ona gülürəm ki, sən doğrudan da qocalıbsan, fikrin-xəyalın çaşıb. Axı… bayaq mən sənə dedim ki… mən sənin özünəm, cavanlığınam.

— Hə, hə. Yadıma düşdü. Eh, məni qınama. Mənə dəyənlər sənə dəysəydi, yəqin adını da yadından çıxartmışdın indi. Yaxşı, yaxşı, sən belə xırda şeylərə fikir verib hirslənmə. Əsas məsələlərdən danış mənə. Mən həqiqətən qocalmışam,

başım işləmir, baş açа bilmirəm başıma gələnlərdən, inan. Elə bil canımda ta can-təpər qalmayıb. Başım, ürəyim şişib.

— Hə, sənin müsibətin böyükdü, kişi. Mən sənin halına acıyıram.

— Acımamışdan əvvəl məni bir başa sal görüm bu necə oldu axı? Niyə mənim çərxim birdən-birə döndü? Nüfuzlu adam mənə həmişə yaxşı münasibət bəslərdi, hörmət eləyərdi, plenumlarda, fəallar yığıncaqlarında adımı hörmətlə çəkərdi. Nə oldu birdən-birə ona ki, eləcə döndü və aləmi başıma dar elədi? Kim onun fikrini dəyişdirdi? Onun mənə o qədər adamın içində dediyi o sözləri eşitsəydin…

— Eşidirdim, kişi.

— Hə, hə. Gördün də, o sözlərin birini bir batman balla yemək olmazdı. Mən dedim infarkt vuracaq məni elə oradaca, biabır olacağam.

— Yaxşı dözdün. Amma sən müavinə nahaq elə imdad diləyən nəzərlərlə baxdın: orda səhv elədin. Sən gərək bilmiş olaydın ki, ondan sənə heç bir kömək ola bilməz. Sən təcrübəli kişisən, dünyanın isti-soyuğunu az görməmisən: gərək bilmiş olasan ki, indi bizim camaatımızı təqribən iki yerə bölmək olar: birinci dəstəyə o adamlar daxildi ki, vəzifəsi var, stolu var — onu itirməyin qorxusundan onlar sənin kimi dostun, tanışın, eloğlunun yox a, lap doğma atasının, evladının başını kəssələr də, səsini çıxartmazlar. O biri qism adamlar isə balaca adamlardı, ixtiyarı, stolu yoxdu, danışdı-danışmadı, onsuz da onların sözünü eşidən, sayan olmayacaq. Yoxdur da. Onlar bax, buna görə danışmağı yersiz bilib susurlar. O gün müavinin nəyinə lazım idi ki, sənin xeyrinə dodaq tərpədib bir kəlmə xoş söz desin və kişinin qəzəbinə düçar olsun? Hə, soruşuram səndən, nəyin lazım idi? Onun yerinə sən də olsaydın, susardın, kişi. Kim olsaydı, dillənməzdi. Soruşursan niyə? Ona görə ki, sizi, sizin hamınızı belə tərbiyə ediblər. Sən bunun nəyinə təəccüb eləyirsən? Dünənəcən məgər sən özün də elə deyildin? Ya sənin çox istədiyin, sənə çörək vermiş Qaraxanovun belə deyildi? Yadından çıxıb ki, o, nə qədər həlim, mehriban və sadə adam

olsaydı da, kafedrada yalnız və yalnız onun dediyi olmalıydı və olurdu da? Ona ən yaxını sən idin o vaxt, amma xatırla görüm haçan onun sözünün üstündən söz demişdin? Heç vaxt. Həmişə quyruq bulamışdın qabağında. Kim onun — qəzəblənən vaxtı — qılıncından qorxmamışdı? Heç kim. Ya sən özün, dünənəcən adı, şöhrəti dünyanın az qala o başından gələn «İnsan» institutunda azmı baş kəsmisən və barmağını qatlayıb deyə bilərsənmi ki, Elmi Şuranın iyirmi yeddi üzvündən hansı kişi əlini tutub deyib ki, yoldaş Camalzadə, belə olmaz, bu düz deyil? Siz ancaq o zaman haqsızlığa, zülmə qarşı səsinizi çıxarıb qaldırırsız ki, bıçağı sənin öz boğazına dirəyirlər. Yalnız o zaman əl-qol atıb, fəryad qopardıb deyirsiz: ay yoldaşlar, ay qardaşlar, qoymayın, məni məhv eləyirlər, ciyərimi çıxardırlar. Ancaq səsinə səs verən olmur. Niyə? Ona görə ki, o birinin başını kəsib ciyərini çıxardanda sən də susmuşdun.

— Hə, düz deyirsən, adaş. Axx, ürəyim ağrıyır.

— Mənim də.

— Yenə mənim üçün müəmma olaraq qaldı ki, niyə o, kişi belə elədi? O zirvədən…

— Sən onu başa düşmək üçün gərək biləsən ki, o zirvəyə sən necə qalxmışdın? Elminin gücünə? Kəşflərinin hesabına?

— Yox.

— Bəs nəyin hesabına qalxmışdın?

— Zirəkliyimin, adaş. Sən ki, məni yaxşı tanıyırsan.

— Xeyr. Səhv eləyirsən, kişi. O qədər səndən də zirək oğlanlar var idi ki, sən heç onların dırnağı da ola bilməzdin, səni susuz aparıb-susuz gətirməyə qadir oğlanlar…

— Bəs?

— Yaxşılıq itirmək yaxşı sifət deyil, kişi. Bu, namərdlərin işidi. Unutmusansa, qoy yadına salım: səni o zirvəyə qaldırmışdılar, sən öz gücünə o zirvəyə qalxmamışdın.

— Kim qaldırmışdı? Sən?

— Mənim də xidmətlərim az olmamışdı, düzünü bilmək istəsən. Ancaq tək mənim zoruma sən o məqama ucala bilməzdin.

— Ürəyimi çəkmə, sən allah. De görüm kimdi?

— Səni… o mərtəbəyə bir qadın qaldırıb, Paşa.

— Qadın? Hansı qadın?

— Oo, nə tez unutdun? Yox, amma elə də tez deyil. O vaxtdan iyirmi doqquz il keçir…

— Hansı qadındı axı o?

— Yadındadımı, o zaman sənin kafedrana bir gözəl qadın — ona heç qadın da demək günah idi — bir mələk gəlmişdi. O qədər gözəl idi ki, küçədə yeriyəndə qoca da, cavan da, hətta qadınlar özləri belə istər-istəməz ayaq saxlayıb ona heyrətlə və həsrətlə tamaşa eləyirdilər.

— Hə, indi yadıma düşdü. Xatırladım. Sən Xallını deyirsən…

— Bəli, Xallını deyirəm. O gələn kimi sən dəyişdin. Kafedradakı, bütün institutdakı qadınlar, su sonası kimi qızlar adiləşdi sənin gözündə. Sən onun gəlişini az qala bayram eləmək istəyirdin. Onun üçün çox gözəl şərait yaratdın, mövzu verdin, rəhbərliyini boynuna götürdün. Səndən olsaydı, onu bir ilə elmlər namizədi eləyərdin. Amma bu mümkün deyildi: çünki o Xallı elə də istedad sahibi deyildi. Allahı ona gözəllik vermişdi, istedad yox. Sən özün də öz gücünü yaxşı bilirsən, sən də — burda ayrı adam yoxdu, etiraf eləmək olar — elm aləmində piyada idin, yoxsa, əgər gücün və qabiliyyətin çatsaydı, o Xallının əsərini özün yazardın. Gizli-gizli yanıb yaxılırdın ki, niyə allah o qabiliyyəti səndən alıb. Amma o da Xallı idi ha. Öz qiymətini yaxşı bilirdi. Ağıllı idi, hər yetənə əyilən deyildi. Niyə də əyilməliydi? Bir adamın ki, qabağında bütün kişilər tilsimə düşmüş kimi, əlləri sinələrində, qul kimi əmrə müntəzir dayanırdı, onunla kəlmə kəsməyindən özünü dünyanın ən xoşbəxti sayırdı, üzünə bir balaca təbəssümlə baxdığı, salam verib kefini soruşduğu kişinin az qala sevincdən ürəyi partlayırdı, o, elə gözəl niyə də hər kişinin minnətini götürməliydi, ona yaxşı olmalıydı? Bütün qapılar onun üzünə açıq idi: sən təsəvvür eləmirdin o vaxt, amma bu bir həqiqət idi ki, onu bu milyon nəfəsli şə-

hərdə bütün böyük idarələrdə, nazirliklərdə, hətta lap yuxarılarda böyük vəzifəli adamlar tanıyırdılar, hörmət edirdilər, yanlarına gedəndə ayağa durub stollarının dalından çıxaraq qapının ağzınacan qarşısına qaçırdılar. Danışırdılar ki, hətta Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Mərkəzi Komitənin binasına o, buraxılış vərəqəsiz, vəsiqəsiz girirdi. Çünki qapıda dayanan milis onun qeyri-adi gözəlliyini görüb sarsılırdı, gördüyünün yuxu ya həqiqət olduğunu ayırd eləyənəcən o, şəstlə, atasının imarətinə girirmiş kimi, arxayın keçib gedirdi. Bəli, sənin Xallın belə Xallı idi və o gələndən sonra sən yazıq Qarateli tamam-kamal unutdun, o dilsiz-ağızsız qadın da qısqanclıq odunda yana-yana, dərdini dilinə belə gətirmədən o dörd divar arasında qovruldu, ürəyini yedi. Səndən olsaydı, Xallını gecələr də kafedrada saxlardın, özünə bir alimanə görkəm verib ona konsultasiya keçmək istərdin. Ancaq o, buna imkan vermirdi. O, səndən, sənin imkan və vəzifəndən istifadə etmək, alimlik diplomu almaq istəyirdi, sən isə başqa fikirdə idin.

— Onun əri yox idi o vaxt?

— Niyə yox idi? Var idi. Fizik idi, allahın məğmun bir bir bəndəsi idi və elm fanatiki idi. Səhərlər girirdi laboratoriyaya, bir də axşamlar çıxırdı, bəzən heç gecələr də evə gəlmirdi, elə orada qalırdı.

— Hə, yadıma düşür. Qara, arıq bir adam idi. Xallının heç əlinə su tökməyə də layiq deyildi. Mən elə hey fikirləşirdim ki, ay bədbəxt, özün belə çirkin, qarazırttıq bir şey ola-ola niyə gedib o cür gözəl bir qız almısan? «Armudun yaxşısını meşədə ayı yeyər» — deyib həmişə yanıb yaxılırdım, inan. Amma Xallı deyirdi ki, mən onu çox sevirəm. Soruşurdum ki, sən necə, sevirsənmi? Deyirdi ki, o məni istəyəndən mən çox istəyirəm onu. Amma inanmırdım. Nədənsə mənə elə gəlirdi ki, Xallı məni ondan daha artıq sevirdi.

— Yox. Sənə əvvəl hörmət eləyirdi Xallı. Sən böyük fədakarlıqla onun qulluğunda durduğunu hiss eləyəndə — yadındadımı, sən bunu çox ehtiyatla, xeyirxahlıq pərdəsinə bürüyərək eləyirdin, ürəyindəkini, əsil mətləbini gizləyirdin və elə

bilirdin ki, o, bunu başa düşmür — sənə rəğbət bəsləməyə başladı. Yəqin bu da yadından çıxmamış olar ki, bir gün kabinetində, ikiniz tək qalan vaxtı, sən özünü cilovlayıb saxlaya bilməyərək onun ipək kimi yumşaq xurmayı saçlarında əl gəzdirib üzündən öpmək istəyəndə bozarıb: «Siz səhv eləyirsiz, professor, mən elə qadın deyiləm» — söylədi və sənin üzr istəməkdən başqa çarən qalmadı. Və üç gün səni dindirmədi, sən isə onun bu sərtliyinə dözməyib axırda ayağına getdin. Onun sənin-lə danışmağını da, üzünə gülümsəməyini də sən qənimət hesab eləyirdin o vaxt.

— Hə, zalımın qızına bərk vurulmuşdum. Həyat idi mənim üçün, yaşamaq idi mənim üçün. Əsərini yazıb qurtarandan sonra… Niyə gülürsən?

— Sən elə bilirsən ki, o namizədlik dissertasiyasını o özü yazmışdı?

— Bəs… kim?

— …

— Doğrusu, mən də o vaxt şübhələnirdim. O mövzu çətin idi, mürəkkəb idi. Açığı ki, bayaq dediyin kimi, o, heç mənim özümün də xörəyim deyildi. Amma əsər yaxşı idi, səviyyəsi yüksək idi. Ürəyimə gəldi ki, bunu onun üçün kimsə yazıb. Bir dəfə özündən də zarafata salıb soruşdum. İncidi. «Xətrimə dəyirsiz, professor» — söylədi və acıq eləyib kabinetimdən çıxmaq istəyəndə qabağını kəsib yalvar-yaxar oturtdum, könlünü aldım.

— Necə yaltaqlanırdın ona, aman allah. Adamın lap əti tökülürdü.

— Hə. Ancaq neyniyim, özümnən bacara bilmirdim.

— O əsəri o yazmamışdı, Paşa.

— Bəs kim yazmışdı? Bizim kafedrada elə kişi yox idi ki, onun üçün oturub əsər yazsın. Qadınlar da yazmazdı. Bəs kim imiş o adam?

— Mən də dəqiq bilmirəm. Amma onu dəqiq bilirəm ki, varıydı elə bir adamı o Xallının. Ya pula yazmışdı, ya da…

— Amma axırı ki, arzuma çatdım. Ondan büsbütün gözümü çəkib əlimi üzəndən sonra, müdafiədən üç gün keçmiş, özü gəldi yanıma. «Mən bilirəm, Paşa bəy, sən məni çox istəyirsən. Bunu da sən bilirsən ki, mən səni çox incitmişəm, demək olar ki, sənə bu üç ildə zülm eləmişəm. İndi özüm gəlmişəm. Ancaq şərtim var» — dedi. İnanırsan, əlim-ayağım əsdi, məni titrətmə tutdu, dilim topuq çala-çala: «Nə şərt? Sənin özünə də qurban olum, şərtinə də. Nə qədər ağır şərt olsa da, canla-başla yerinə yetirməyə söz verirəm» — söylədim.

«Səni mən ağzıbütöv kişi hesab eləyirəm. Ümid eləyirəm ki, sən o kişilərdən deyilsən ki, elədiyin, orda-burda dilinə gətirib lovğalanasan. Elə deyilmi? «Min faiz, lap milyon faiz. İnan mənə». «Aramızda qalacaq. Bu bir. İkincisi, yalnız bir gecə sənin qonağın olacağam, yalnız bir gecə. Bağa gələcəyəm, gecə qalacağam, səhər də qayıdacağam. Vəssalam. Sənin görüb-götürəcəyin ancaq bu olacaq». «Mənim gözüm üstə». «Bu sözümü də yadında saxla: bir kəsdən, bir yerdən bu məsələni eşitsəm, onda özündən küs. Mənim intiqamımdan yaxanı, canını qurtara bilməzsən. On il də sonra, iyirmi il də sonra, hətta ölmüş olsan belə mən səndən intiqamımı alacağam, Paşa bəy. Yadında saxla ha».

— Sözünün üstündə durdu. Gəldi də, qaldı da.

— Hə.

— O gecə aləm gecəydi. Lap nağıla, əfsanəyə oxşarı vardı. Mən hələ onacan və ondan sonra da o cür gözəl və şairanə gecə yaşamamışam. Sən o gecə elə hey deyirdin ki, ömrüm boyu unutmaram. Ancaq görünür, unutmusan.

— Yox, yox. Nə danışırsan? Onu unutmaqmı olar? Sadəcə çox pis vəziyyətdəyəm, əlhəmdimi çaşdırmışam. Ona görə. Yoxsa…

— Hm. Günü indiki kimi yadımdadı. Yanvarın otuzuydu, Soyuq, ancaq qup-quru, yağışsız, qarsız, küləksiz bir gecəydi. Gəldi və bağım cənnətə döndü. Yaxşı hazırlaşmışdım: bilirsən, mən yaxşı xörək bişirə bilirəm. Piti asmışdım yağlı qoyun ətindən. Maştağadan ətçimdən almışdım. Mer-meyvə də öz qayda-

sında. Konyakım da var idi. Qazı ertədən yandırıb otağı isitmişdim. Çöldə qış idi, otağımda isə yazdı. Yox, yaz ürəyimdəydi. Zarafat deyildi, dünyanın ən gözəl qadını o gecə mənim qonağım olacaqdı.

— Qarateli də aldatmışdın.

— Hə, demişdim ki, iki günlüyə Gəncəyə gedirəm, xaricdən qonaqlarım gəlib, Nizaminin qəbrini ziyarət eləmək istəyirlər.

— Amma öz aramızdı, sənin bu yalanına heç ehtiyac yox idi. Yazıq Qaratel onsuz da sənin dalınca gəzib hər addımını güdən və səni hər kəsə qısqanan arvad deyildi. Sənin dalınca bağa da gələn deyildi o yazıq.

— Hə, düz deyirsən.Qaratel elə arvad deyildi. Onu, sonralar, o ölüb gedəndən sonra başa düşdüm ki, çox incitmişəm, lap açığını söyləyim ki, zülm eləmişəm. Bilmirəm allah keçəcək günahımdan ya yox.

— Keçər, allah sənin kimi qansız və insafsız deyil.

— Amma o rəhmətlik də məni çox incitmişdi. Bilirsənmi, çox…

— Neynəmişdi ki?

— Başa düşmədi ömrü boyu məni. Məncə bu, zülmlərin ən böyüyüdü, Paşa. İyirmi beş il bir adamla bir damın altında yaşayasan, o, bilməyə ki, sən kimsən, nəçisən, nə yuvanın quşusan, nəynən yaşayırsan, nəynən nəfəs alırsan, dəhşətdi. Bütün o illər ərzində biz bircə dəfə də olsa, ağıllı-başlı, insan kimi oturub dərdləşə bilmədik. Başa düşmürdü məni çünki. Səviyyəsi yox idi. Onu da qınamıram — oxumamışdı. Oxumayan isə bilirsən, həyatda və cəmiyyətdə kor kimi olur. Buna baxmayaraq, mən o ən ağır zülmə, işgəncəyə dözərək Qarateli saxladım, boşamadım. Bilirsən niyə?

— Hə, bilirəm. Ona görə boşamadın ki, əvvələn dost-doğma əmin qızıydı.

— Biri və birincisi odu, doğru deyirsən. Amma ondan da əfzəl bir səbəbi vardı, Paşa. O da bu idi ki, Qaratel çox namus-

lu, qeyrətli bir arvad idi. Çox təmiz idi. Mən özümü o xoşbəxt kişilərdən hesab eləyə bilərəm ki, arvadının əlinə bir naməhrəm əli toxunmayıb: bir köpəkoğlu dodağını tərpədib deyə bilməz ki, mən ... İndiki zamanda, bu «papaq aldı qaç» dünyasında bu, kişi üçün çox böyük xoşbəxtlikdi, qardaş. Nə isə, qəbri nurnan dolsun Qaratelin. Hər günahını, əzabını bağışlayıram.

— O səni çox istəyirdi. Nadir qadın idi, hayıf, qədrini bilmədin.

— Hə. Qəribə idi ki, o gözəl gecə, bağda, o göylərdən enmiş gözəllik və məhəbbət ilahəsi olan Xallı da ondan danışdı, onu tərifləndi, hətta məni danladı da ki, mən onun qədrini bilmirəm. Qəribə ağıllı, insaflı və həssas idi Xallı. Deyirdi: «Əvvəllərini bilmirəm, amma bunu sənə yəqin deyə bilərəm ki, mən sənin yanında peyda olandan sonra, sən məni görüb ağlını itirəndən sonra, sən o cür gözəl və sədaqətli, səni çox sevən bir qadının varlığını — yoxluğunu unutmusan, kişi. Bu isə günahdı. Mən gəldi-gedərəm, o isə sənin cəfakeşindi. Nə isə, mən səninlə birlikdə çox qadınlarla oturub-durmuşam, vaxt keçirmişəm, ancaq Xallı kimisini görməmişəm — çox insaflıydı. Elə deyil?

— Elədi. Vicdanlıydı. Yadındadı? Şərt qoymuşdu ki, cəmi bircə gecə qonağın olacağam. Amma sənin onu hədsiz dərəcədə çox istədiyini, sonsuz dərəcədə əzizləyib xoşbəxt elədiyini görüb yanına sonra da üç dəfə gəldi və sənin ömrünə sevinclər bəxş elədi. Və sonra sənə elə bir yaxşılıq da elədi ki, indiyəcən, yəni əslində sən o gün o tufana düşənəcən onun sayəsində gur-gur gurladın. O görürdü ki, sən vəzifə üçün sinov gedirsən, hakimiyyət istəyirsən, xoşlayırsan ki, əlinin altında adamlar işləsin, qabağında əlləri sinələrində dayananlar olsun.

— Hə, elə bir mərəzim var idi. O mərəz içimdə ilan kimi qıvrılıb yatmışdı: arada bir başını qaldırıb haça dilini çıxararaq öz varlığını göstərirdi. Onda isə mən balaca bir kafedranın müdiriydim — beş-on adama rəhbərlik eləyirdim vur-tut. Bu isə mənim üçün çox az idi. Mən o zaman özümdə bir kafedra nədi, bir böyük şəhərin, hətta bir respublikanın böyüyü-ağası

olmaq arzusu, iştahı duyurdum. Amma kim idi mənə yiyə duran, qolumdan tutub qabağa çəkən? Yox idi elə bir adam.

— Sənin o böyük, boyundan və tamahından böyük iştahını o Xallı da duymuşdu. Yadındadı, bir gün diplomunu alıb Universitetə müəllim keçən gün, yanında, kafedrada oturub, ayağını da ayağının üstünə aşıraraq gülümsündü və dedi: «Görürəm, mənim buradan, sənin kafedrandan getməyimə çox pərtsən. Amma nahaq. Su bir yerdə qalanda iylənir, dadını, tamını itirir. Həyat — bir yerdə dayanıb qərar tutmağı sevmir: gərək irəli gedəsən, yüksəklərə pərvaz edəsən. Sən mənə uçmaq üçün qanad verdin, sağ ol. Əslində bu, qanad deyil, sənəddi. Kağız, sənəd isə bizim zəmanədə hər şeydən, hətta insanın özündən və sözündən qiymətlidi: indi sənin özünə yox, kağızına, diplomuna qiymət verirlər. Mən sənə borclu qalmadım elə bilirəm. Gərək sən məndən narazı olmayasan. Amma istəyirəm gedə-getdə sənə bir dənə də yaxşılıq eləyəm. Qəlbinin ən böyük arzusunu de mənə. Yerinə yetirməyə razıyam. Ancaq yaxşı-yaxşı fikirləş. Birdən çaşıb deyərsən ki, səni bir də bağıma dəvət eləyib xoş bir gün keçirmək istəyirəm. Yox. Bu, indi sənin ən böyük arzun deyil: bu, sənin üçün keçilmiş mərhələdi və sən indi durub elə desən, biləcəyəm ki, yalan deyirsən və onda sən gözümdən düşəcəksən, özün də çox şey itirəcəksən. Bilirsən ki, mən mərd adamları sevirəm, artistlik eləyən adamlara dərin nifrət bəsləyirəm. Hə, gözləyirəm».

— Onda yaman çaşdım. İlahi, bu kim idi? Nə qüdrət sahibiydi ki, mənə belə deyirdi? Mənim ən böyük arzumu yerinə yetirməyə mənə elə gəlirdi ki, heç allahın da gücü çatmaz. İndi bu Xallı xanım gəlib deyir ki, belə. Özü də elə şərt qoyur ki, səhv eləmək olmaz. O zaman mənim beynimdə qəribə bir ideya var idi: «İnsan» institutu yaratmaq. Kainatın və təbiətin ən şah əsəri olan insanın kompleks halında öyrənən bir institut. Yerin altını, üstünü, insanı və kosmosu bir küll halında tədqiq edən bir institut olmalıydı bu. Doğrudu, bu, təzə ideya deyildi, hələ əsrin əvvəllərində o fikri rus alimləri ortaya atmışdılar, ancaq elə kağız üzərində qalıb çoxdan unudulmuşdu. Geolog-

iya, mineralogiya, fiziologiya, təbabət, nəbatat, əsrin möcüzələrini yaratmağa qadir kimya, fizika elmləri, kosmosun və qalaktikanın sirrlərini açmağa çalışan elmi istiqamətlər və bütün bunların insan problemi ilə geniş, gizli-aşkar əlaqələri. Sən təsəvvür edirsənmi, nə böyük bir kompleksdi bu? Bütün bu sahələri bir mərkəzdə birləşdirmək və ona rəhbərlik etmək. Sən o institutda, bu institutda, o idarədə, bu idarədə adda-budda səpələnmiş və çoxu da bir-birini təkrar eləyən laboratoriyaları, elmi-tədqiqat institutlarını, kiçik-kiçik mərkəzləri bir damın altına yığmağın eyni zamanda dövlət üçün də nə qədər xeyri olduğunu təsəvvür eləyirsənmi? Bu, İttifaqımızda yox, bəlkə də dünyada yeganə institut ola bilərdi və mənə dünya şöhrəti gətirərdi. Ancaq bu fikri kimə izah edəydin, kimi başa salaydın? Qalmışdı ürəyimdə illərlə. Hətta fikrimdə ayrı-ayrı istiqamətləri tədqiq edən şöbələr də yaratmışdım: məsələn, «İnsan və kosmos», «İnsanın yaranması və təkamülü», «Geologiya», «Fiziologiya» və sair və ilaxır. Şöbə müdirlərini də tapmışdım hətta.

— Öz aramızdı, əlbəttə ki, onu yalan deyirsən ki, burada dövlətin də xeyrini güdürdün. Mən səni yaxşı tanıyıram: sən hər şeydə əvvəl öz xeyrini güdən olmusan. Mən özgəsi deyiləm ki, mənim yanımda açıq danışa bilərsən. Sən elə partiyaya da partiyanı çox sevdiyin üçün deyil, özünə bir gün ağlamaq, bir məqam, vəzifə sahibi olmaq xatirinə keçmişdin.

— Sən də başlama görək. Köhnə palan içi tökmə, sən allah. Sözümü kəsdin, heç bilmədim nədən danışırdım. Hə, yadıma düşdü. «İnsan» institutu təşkil eləmək fikrimi Xallı xanıma dedim nəhayət. Və onu da soruşdum ki, axı sən bunu eləyə bilməzsən. Bu, qeyri-mümkün işdi bizim zəmanədə. Xətrinə dəydi Xallının. «Sən mənim qüdrətimə təəssüf ki, hələ də bələd olmamısan. Sən bunu yadında saxla, kişi: mənim bu kirpiklərim var ha. Bir onlara yaxşı-yaxşı bax. Ay yazıq, neçə ildi məni tanıyırsan, hələ də mənim bu uzun, qatlama kirpiklərimi görə bilməmisən, baxıb yadında saxlamamısan». «Düzü, sənin gözəlliyin gözlərimi elə qamaşdırıb ki, heç kirpiklərinə fikir

verməmişəm». «Hə, indi fikir ver və yadında saxla ki, onlar, o cansız tüklər çox böyük qüdrət sahibidi, hətta sənin allah dediyin o gözəgörünməzdən də qüdrətli və qadirdi». «Axı necə?» «Çox sadə. Çünki onlar mənim — bax qabağında dayanmış bu Xallının kirpikləridi. Onlar kimi istəsə yuxarı, lap göylərə qaldırar, kimi istəsə yerlə-yeksan eləyib mələdər». «Axı necə?» «Bax, belə. Əgər sənin xatirinə bu kirpiklərimi bircə dəfə yuxarı qaldırsam, elə hesab elə ki, sən göylərdəsən». «Allah-allah, sən özün saxla». «Xoşum gəldi səndən. Yalan danışmadın mənə, demədin ki, mənim ən böyük arzum sənsən. Sənin ən böyük arzun — böyük vəzifə sahibi olmaqdı. Onu — sənin bu arzunu yerinə yetirəcəyəm, Paşa bəy. Qoy məndən sənə yadigar olsun». «Axı necə?» «Eh, sən də nə yapışmısan bu «Axı necə»lərin ətəyindən? Mən sənə dedim axı. Bircə dəfə kirpiklərimi qaldırmaqla, Paşa bəy. Bildin?» «Hə, hə, başa düşdüm». «Di sağ ol. Xudahafiz. Otur, mənim zəngimi gözlə».

— Sən onda lap havalanmışdın. Bir yandan çox istədiyin Xallının sənin yanından tamam çıxıb getməsindən pərt idin, yerə-göyə sığışmırdın. Nə dərs deyə bilmirdin, nə kafedrada otura bilirdin, nə də evdə qərar tuturdun; o biri tərəfdən də Xallının o cür möcüzəli sözlərini həzm eləyib axırını bir yana çıxarda bilirdin. Bir sözlə, çaşıb qalmışdın odla su arasında.

— Düz bir həftə keçmiş zəng elədi, hal-əhval tutdu və axırda dedi: «Paşa bəy, sənin işin düzəldi. Səni təbrik eləyirəm. Bu günlərdə heç yana getmə. Səni o özü qəbul edəcək. Yəqin indi yenə soruşacaqsan ki: «Axı necə?» Sən soruşmamış özüm deyirəm; sənin xətrinə bircə dəfə kirpiklərimi qaldırdım, vəssalam. Özü də bu barədə heç kəsə heç nə demirsən. Başa düşdün?» «Başa düşdüm».

— Özünü elə itirdin ki, sənin üçün o boyda iş görən adama «Sağ ol» deməyi də unutdun.

— Hə, düz deyirsən.

— İndi başa düşdünmü və xatırladınmı ki, səni o zirvəyə kim qaldırmışdı?

— Bəli, bunu unutmaq olar?

— Amma illər keçdikcə sən o boyda yaxşılığı unutmuşdun. Sənə elə gəlirdi ki, sən özün öz gücünə o zirvəyə qalxmısan, gözün ayağının altını görmürdü; sən şöhrət və xudpəsəndlik azarına tutulmuşdun, Paşa. Sən elə bilirdin ki, yeri-göyü sən yaratmısan, elə bilirdin ki, sən allahsan, padşahsan — bu şəhərin padşahısan və sənin əlinin altında işləyən, səndən də qat-qat ləyaqətli, ağıllı, savadlı adamlar sənin qulundu, nökərindi. Sən çox tez bir zamanda əsil despota çevrilmişdin: sən hansı müəssisəndə, şöbəndə bir ağıllı, istedadlı, parlaq gələcəyi olan bir adam görürdünsə, rahatlığın pozulur, yuxun ərşə çəkilir, o adam sənin gözündə əsil düşmənə çevrilirdi və sən onu, nəyin bahasına olursa-olsun, məhv eləməyə, ləkələməyə, aradan götürməyə çalışırdın. İnsanda nə qədər məkr və hiylə olarmış, ilahi? İnsan nə qədər kinli və qəzəbli olarmış, ilahi? Özü də bütün bu alçaqlıqları, əclaflıqları sən təmiz və müqəddəs kommunist adını özünə bayraq edərək, sovet qanunlarını əlində kəsərli bir qılınc kimi tutaraq eləyirdin, Paşa. Və hərdən özün də özünə heyrət eləyirdin, kənar bir adamın gözüylə özünün əməllərini saf-çürük eləyəndə utanırdın da. Amma geri dönə bilmirdin, çünki sən çayı keçəndən sonra körpünü partladırdın, çünki sən təslim olmaq istəmirdin, sən yaşamaq istəyirdin: ona görə də əllərini daha çox günahsız qanlara batıra-batıra, daha böyük cinayətlər törədə-törədə irəli gedirdin. Dayanmaq sənin özün üçün təhlükəli idi, bunu sən yaxşı başa düşürdün. Səni o zirvəyə qaldıran, o məqama çatdıran o qılıncdan iti kirpiklər də hələ qüdrətliydi, o kirpikləri uca tutub qiymətləndirən o da sənin xoşbəxtliyindən hələ öz yerində möhkəm-möhkəm oturmuşdu.

— Bunların hamısını mən özüm də bilirəm, adaş, çox yaxşı bilirəm. Sən mənə de görüm, axı birdən-birə nə oldu ki, mən belə zavala gəldim? Səbəb nə oldu, səbəbkar kim oldu, adaş? Bax, budur çaşıb qalmışam, heç nə başa düşəmmirəm?

— Düzü-doğrusu, onu mən də deyə bilməyəcəyəm sənə. Çünki mən səndən gör neçə ildi ayrılmışam, Paşa bəy. On ildən çoxdu.

— Vay allah, ürəyim partlayır, inan. Yox, mən bu dərdə dözə bilməyəcəyəm, dirigözlü çartlayıb öləcəyəm. Dünənəcən, srağagünəcən hər şey yaxşı idi: başımın üstündə heç bir bulud, təhlükə dolaşmırdı, adaş. Arın-arxayın oturub işləyirdim, gözün üstə qaşın var deyən yox idi.

— Mən səni yaxşı tanıyıram, Paşa bəy. Mənə elə gəlir ki, günahı hər kəsdən çox özündə axtarsan, daha yaxşı olar. Çünki sən oturduğu budağı kəsən nadana daha çox oxşayırsan. Məncə, iş elə sənin özündən keçmiş olacaq. Papağını qoy qabağına, yaxşı-yaxşı fikirləş, hər halda nə isə bir qələt qarışdırmısan. Yoxsa bu, elə-belə olan şeyə oxşamır. O qızı yenə görüb eləyirsən?

— Hansı qızı?

— Xallını deyirəm. Görüb eləyirsən?

— İldə, ayda bir dəfə görəm ya görməyəm.

— Qocalıb? Dəyişib? Hardadı, nə işnən məşğuldu, Paşa bəy?

— Qocalmaq nədi, ay kişi. O, bizim qonağımız olanda sən demə lap cavan uşaq imiş. İndi isə əsil gözəllik və qadınlıq taxtındadı. Daha da qəşəngləşib — yenə bizim bu şəhərin bir nömrəli gözəlidi Xallı. İndi akademikdi. Böyük bir institutun direktorudu.

— Səni görəndə neyləyir?

— Neyləyəcək? Salam verir, təbəssümlə halımı soruşur və çıxıb gedir.

— Keçmiş xatirələr-filan…

— Yox, yox. Nə danışırsan? Elə bilirsən ki, mən, onun tanıdığı minlərlə adi adamlardan biriyəm. Baxanın, görənin heç ağlına da gəlməz ki, biz bir vaxtlar… o cür yaxın olmuşuq. Düzü, o yaxınlıq, o mehribanlıq onu elə görəndən sonra mənim özümə də yuxu kimi gəlir: elə bilirəm ki, mən onu haçansa yuxuda görmüşəm.

— Kirpikləri yenə elədi — uzun, qatlama?

— Hə, elədi. Düzü, mən hər dəfə onu görəndə hər şeyi unuduram, elə o möcüzəli kirpiklərə tamaşa eləyirəm, daha heç nə görə bilmirəm.

— Yenə o qılınc kirpikləri qaldırıb endirirmi?

— Vallah, nə bilim. Bəlkə də…

— O kirpiklər dəhşətlidi, Paşa bəy. Mənim bildiyim və yadda saxladığım budu ki, o kirpiklər təkcə səni o cür uca məqama qaldırmayıb, səndən başqa da çoxları var ki, o kirpiklərin sayəsində ada-sana, vəzifəyə çatıb. Ancaq mən bunun o biri tərəfini də düşünürəm, Paşa bəy. Sən bu barədə heç fikirləşməmisən?

— Yox. Necə bəyəm?

— Sənin o vaxt da — Xallı səni yuxularında gördüyün bu məqama çatdıranda da, indi də sən heç bu barədə düşünməmisənmi ki, o qılınc kimi kəsərli kirpiklər yuxarı qalxanda kimisə xoşbəxt eləyir, uca-uca məqamlara çatdırır, aşağı enəndə də onlar kiminsə başını kəsib qanını tökür, bədbəxt eləyir? Fikirləşməmisən?

— Yox.

— Bir düşün, Paşa bəy. Düşün.

— Hə? Doğrudan ha.

Paşa silkələnib divandan qalxdı və otaqda özünü tək görüb çaşdı.

ÜÇÜNCÜ FƏSİL

Həyəcanlıydı. Başa düşə bilmirdi ki, gördükləri, eşitdikləri yuxuda olmuşdu və ya… həqiqətən, bax, gözünün qabağındakı o yumşaq stulda cavan, yaraşıqlı, səliqəli geyinib-keçinmiş o adam əyləşib bayaqdan onu danışdırıb dağa-arana, keçmişə — ömrün ötən çağlarına aparıb təzədən bu günlərinə qaytarmış, köhnə, unudulmuş xatirələrini oyadıb bir möcüzəkar kimi yox olub getmişdi? Yuxuydumu bu? Yox. Axı Paşa yatmamışdı.

Xəyalıydımı? Bəlkə də. Amma belə də xəyal olmaz axı? Bu suallar əlində çabalayan Paşa, qeyri-iradi irəli gəlib əlini stulun oturacağına sürtdü: yox, oturacaq soyuq idi, bumbuz idi; adam oturmuş olsaydı, isti olardı. Əl atıb bir-bir otaqların işıqlarını yandırdı, künc-bucağa kimdənsə ehtiyat edirmiş kimi xəlvəti göz gəzdirdi, mətbəxə keçdi, oranı da bomboş görüb küçəyə baxan pəncərənin qənşərindəki mizin arxasında əyləşərək alnını soyuq tərini sildi. «Hə, belə-belə işlər, Paşa bəy. Deməli, sən öz-özünə danışırmışsan, dəli kimi. Heç bir adaşın, filanın, gəncliyin-zadın gəlməmişmiş yanına. Sən sadəcə, dəli olursan, vəssalam. İki gündü giribsən evə, çay içməmisən, ağzına bir loxma yemək almamısan, üzü üstə düşüb yatmısan, sayaqlamısan və bu iki gündə heç kəs sənin öldündən-qaldından xəbər tutmayıb. Kim tutmalıydı, kimin vardı? Bircə qızındı, o da burda yoxdu. Olsaydı da, gəlməzdi. O da mənim kimi, dəlinin biridi: küsdü, incidi, qurtardı. Gör neçə ildi məni danışdırmır? Düzdü, gəlir-gedir, mənim pal-paltarımı yuyur, xörəyimi bişirir. Ancaq bütün bunları mən evdə olmayanda eləyir. Və bu, elə bir dərddi ki, heç kəsin yanında açıb bükə bilmirəm. Bəs dostların, tələbələrin? Onlar hanı bəs? Bəlkə onlar mənim başıma gələn bu müsibətdən xəbərsizdilər? Yox, canım. Nə danışırsan? Yəqin indi bütün şəhər bu barədə danışır. Bəlkə də bir çoxları var ki, indi bayram eləyir, deyib-gülür, sevinir. Ey gidi dünya. Deməli, mən tək imişəm, yalqız imişəm. Dayan, dayan, bəs bu mənim qapıbir qonşum, həmişə böyür-başımda sülənən, «Sən mənim arxamsan, dayağımsan, mən sənin çörəyini yeyirəm, ölüncə qabağında qul kimi borcluyam, Paşa müəllim» — deyən Qulubəy hardadı? O da bilmir? Yox, o bilməlidi — kim də bilməsə, o bilməlidi, çünki o, nəinki bu şəhərin, hətta respublikanın, İttifaqın və bəlkə də bütün dünyanın qeyri-rəsmi, necə deyərlər, könüllü informasiya mərkəzi və informatorudu: kim hara getdi, kim kimin adamıdı, kimi hardan çıxardıb hara qoyacaqlar, kim kimi saxlayır, kimin oğlu kimin qızını alır və niyə alır — bütün bunları südəzbər bilən və ömründə hər şeyindən çox yalnız bu-

nunla öyünən Qulubəy heç ola bilməz ki, bu boyda hadisəni eşitməsin və Paşanın yanına qaçmasın?»

Paşa qalxıb qazı yandırdı, çaydanı pilitənin üstünə qoyub dəhlizə tərəf addımladı. O, üç-dörd addımlıq yolu çətinliklə getdi: elə bil, qıçları onun deyildi. Özündən narazı halda başını buladı, dəhlizdəki iri, girdə, qıraqları naxışlı güzgünün qarşısına çatanda gözü özünə sataşdı və ayaq saxladı: sifətinin rəngi boğulub qaralmışdı, iri gözlərinin altı tuluqlanmışdı, üzünü saqqal basmışdı. Yox, bu vəziyyətdə o, Qulubəyin qapısını döyməyə gedə bilməzdi. Həm də yadına düşdü ki, Qulubəyin arvadı Nigar xanım onu heç sevmir, qapı ağzında, pilləkən başında rast gələndə xalaxətrin qalmasın, demək olar ki, zorla salam verir, gözlərindən qəribə, qorxulu, aşıb-daşan bir nifrət oxuyur Paşa. Neçə ildi qonşudular, Nigar bircə dəfə də olsa, Paşagilin qapısını açıb içəri girməyib, Paşa isə bu neçə ildə barmaqla sayıla biləcək qədər Qulubəyin evində olub — o da ayaq üstü. Bu açılıb ağardılmayan, qapağı örtülü qazanda pıqqır-pıqqır qaynayan o dolaşıq, çalpaşıq və gizlində qövr eləyən o qəzəbin, nifrətin səbəbinin Paşa da, Qulubəy də, Nigar xanım özü də yaxşı bilirdi, ancaq hələ Nigar susurdu. Və Paşanı hər şeydən çox bu sükut qorxudurdu. Adətən Qulubəy Paşagilə tez-tez gələrdi, oturub saatlarla danışardılar, dərdləşərdilər. Qulubəy Paşanın yetirmələrindən və ən yaxın dostlarından idi. Çoxdan, iyirmi beş il bundan qabaq tale onları rastlaşdırmışdı və Paşa onun zirəkliyini, çevikliyini görüb hardasa bir az onun özünə də oxşadığını yəqin edib qanadının altına almışdı, şərait yaratmışdı, kömək eləmişdi. Qulubəy Paşaya o qədər sədaqət göstərib o qədər sidqi-dilnən qulluq eləmişdi ki, ürəyi bağlı sandıq olan, nə evdə açılan, nə ona dost deyənlərə sirr gələn Paşa, nəhayət, ona az-çox inanmışdı və ürəyinin hamısını yox, ancaq bir parçasını etibar eləmişdi. Əgər bütün qəlbini Qulubəyə versəydi, açsaydı, onda Paşa Paşalıqdan çıxardı, Paşa yox, tamam özgə bir adam olardı. Qulubəyi Paşa axırıncı dəfə on il bundan irəli, onu «İnsan» institutunun «Dəri-Zöhrəvi xəstəlikləri klinikası»na baş həkim təyin eləyəndə tamam-kamal özünə qul elə-

mişdi və Paşanın fikrincə, dünyada insana bundan da böyük yaxşılıq eləmək mümkün deyildi. İnsaf naminə demək lazımdı ki, bunu Qulubəy özü də bütün dərinliyi və ciddiyyəti ilə başa düşmüşdü. O vaxtdan illər keçmişdi, Paşa ilə Qulubəyi bir-birinə bağlayan çoxlu hadisələr olmuşdu və üstəlik iş elə də gətirmişdi ki, gəlib qapıbir qonşu düşmüşdülər. Qulubəyin Paşaya qonşu gəlməsi onu lap çox sevindirərdi, təkcə bu Nigar olmasaydı…

Paşa daha Nigar barədə heç nə düşünmək (çünki bu, artıq onu yormuşdu, onu görəndə də, hətta adını xatırlayanda da əhvali-ruhiyyəsi tamam dəyişirdi, ömrünün ötən illərindən bir xatirəmi, mübarizəmi, mərdlikmi, namərdlikmi deyilən şeylər yadına düşürdü və hardasa Paşanın qanını qaraldırdı: çünki Nigarı görmək, adını eşitmək bəs idi ki, Paşa Turxanı xatırlasın. Turxanı xatırlamaq isə Paşa üçün ağır idi, əzablı idi. İstəməyərək gəldiyi ağır və qorxaq addımlarla geri — iş otağına gəldi, uzun, üstündə yazı makinası, kitablar olan mizin sağ küncünə qoyulmuş qırmızı telefonun dəstəyini qaldırdı, nömrələri yığmamış keçib kreslosunda əyləşəndən sonra Qulubəyin evinə zəng çaldı. Dəstəyi Nigar özü götürdü və Paşa onun səsindəki kədəri duyub dəstəyi lal-dinməz yerinə qoydu. Mətbəxdən çaydanın haray-həşirini eşidib tənbəl-tənbəl ora getdi, çay dəmlədi, oturub dəm almağını gözlədi. Bir stəkan pürrəngi çay içib azca özünə gəldi və çay xoşuna gəldiyi üçün, adətini pozaraq, ikinci stəkanı da doldurub yazı masasının arxasına — telefon olan otağa adladı. Armudu stəkandakı xoruzquyruğu çay buğlanırdı və Paşa ona baxa-baxa, bayaq, yarım saat bundan qabaq, divanda o anlaşılmaz möcüzəli «adamla» — özünü Paşanın gəncliyi, ömrünün bir parçası adlandıran o ağıllı və cavan «Paşa» ilə söhbəti barədə düşünürdü.

Və o Paşanınmı, ürəyininmi dediyi: «… sən heç bu barədə düşünmüsənmi ki, o qılınc kimi kəsərli kirpiklər yuxarı qalxanda kimisə xoşbəxt eləyir, uca-uca məqamlara çatdırır, aşağı enəndə isə… kiminsə başını kəsib qanını tökür, bədbəxt eləyir?» — sözləri təzədən eşidən kimi olub yumşaq kreslosunda qurcuxdu, çə-

nəsini qoşa ovcunun içinə alaraq fikrə getdi, o, sözləri saf-çürük eləməyə çalışdı. Və birdən zəif, süst bədənindən soyuq bir gizilti keçib vücudunu titrətdi: «Bəlkə mənim kəndirimi kəsən elə o möcüzəli kirpiklərdi, hə? Bəlkə o Xallının mənə qəzəbi tutub. Olmazmı? «Yox, yox. Bu, ola bilməz. Xallı elə eləməz dünyasında. Axı mən ona neyləmişəm ki? Pislik eləməmişəm. Dalıyca danışmamışam. Yox, bu deyil, deyil».

Paşa bu qorxunc fikri beynindən çıxarıb uzaqlaşdırmağa çalışdı və onu unutmaq üçün titrəyən əlini stəkana atıb çaydan tələsə-tələsə içdi. Başını qatmaq üçün, heç özü də bilmədən, əli telefon dəstəyinə sarı uzandı və xəttin o başında, qapıbir mənzilin böyük otağından Qulubəyin gur, ilişikli səsini eşidib sevinən kimi oldu:

— Ay Qulu, mənəm. Bir bizə zəhmət çək. — dedi. Haləhval tutmamış və ondan «Bu saat» — cavabını alan kimi dəstəyi yerinə qoyub ayağa qalxdı, qapıya gedib ingilis kilidini burdu, qayıdıb güzgünün qənşərində dayanaraq ağ gümüşü saçlarını arıq, uzun barmaqları ilə daradı, qalın dodaqlarını aralayıb xırda, ağ, düzəltmə dişlərinə nəzər saldı, bu iki günün içində xeyli arıqladığını hiss eləyib yüngülcə köks ötürdü: «Yox, Paşa, bu xına o xınadan deyil. Səni yaman xəcil elədilər axırda. Kaş biləydim bunu kim, hansı mərdimazar elədi, kaş biləydim. Yoxsa bu dərd məni öldürəcək».

Bu zaman dəmir qapının zəngi çalındı. Paşa geri qanrılıb yavaşdan:

— Açıqdı, gəl, — söylədi və Qulubəyin qabağına yeridi. Qulubəy kök və tosqun bədənini güclə, yırğalaya-yırğalaya dəhlizə salıb Paşanı qənşərində görən kimi duruxdu, nədənsə özünü itirən kimi oldu; elə bil heç gözləmirdi ki, Paşa ayaq üstə olar. Ancaq ev sahibi bu çaşqınlığı tutacaq halda deyildi və bunu Qulubəyin özü də hiss eləyib bir az toxtadı:

— Salammələyküm — dedi. — Əşi, məni qorxuzmuşdun lap. Dedim görəsən nə olub kişiyə? — Sonra əl verdi Paşaya və Paşanı həmişəki qırımında görməyib: — İki-üç gündü başım yaman qarışıqdı, canın üçün. Burdan bura gəlib sənə də dəyə

bilmirəm, — dedi. — Elə indicə gəlmişəm, deyirdim ki, bir az çörəkdən-xörəkdən yeyim, gəlim sənə bir baş çəkim. Elə bunu ürəyimdən keçirmişdim ki, sən zəng çaldın. Paltarımı dəyişib qaçmışam. Nə isə səsin, danışığın xoşuma gəlmədi, Paşa. Sənə nə olub?

Paşa onu dinləyə-dinləyə kabinetinə gəldi, Qulubəy də arxasınca. Kişi divanda oturub qabağında ayaq üstə dayanan Qulubəyi sınayıcı baxışlarla nəzərdən keçirə-keçirə, xəstə və yorğun bir səslə:

— Heç nə. — söylədi. Qulubəy yemək söhbəti salanda Paşa udqundu, az qaldı desin ki, mən üç gündü acam, get arvad nə bişiribsə, yığ qaba, gətir, burda ikimiz yeyək, ancaq özünü zorla saxladı, nəfsini boğdu. Çünki əgər üç gün ac qaldığını söyləsəydi, Qulubəy, şübhəsiz, səbəbini soruşacaqdı. Paşa isə bunu birbaşa özü demək istəmirdi, fikri Qulubəyin bu həngaməni eşidib-eşitməməsini bilmək idi: əgər eşidib gəlməmişdisə, o, bunu Qulubəyə ömründə bağışlaya bilməzdi. Yox, eşitməyibsə, onda başqa məsələ. Ancaq Paşa buna da inanmaq istəmirdi ki, onun işdən çıxarılması şəhərdə yayılmasın və o da bundan xəbər tutmasın. Odur ki, Qulubəyin geniş açılmış gözlərindəki təəccüb ifadəsini görüb izah elədi: — Nəsə, canından iraq, bir təhərəm. İştahım qətiyyən yoxdu. Ayaq üstə niyə durmusan, otur.

Qulubəy iki saat əvvəl o şıq geyinmiş, qaraqaş, cavan, eynən özünün cavanlığına oxşayan möcüzəli adamın əyləşdiyi kresloda rahatlanıb Paşanın sağ biləyini əlinə alaraq nəbzini yoxlayandan sonra:

— Səsini eşidən kimi bildim ki, nasazlamısan. — dedi. — Qorxulu bir şey yoxdu. Soyuqlamısan bir az. Keçib gedər. — Sonra zarafat elədi: — Deyirəm gəl səni evləndirim, qol qoymursan. Onu bil ki, adama arvad qocalanda lazımdı. Cavanlıqda arvadsız da keçinmək olur. Hansı xanımın yanına qədəm bassan cavanlıqda, yedirdir də, içirdir də, cavansan çünki. Amma qocalıb əldən düşəndə adamın üzünə ancaq öz halal arvadından baş-

qa bir köpək qızı baxmır. Sözümə qulaq asmadın. İndi budey, qalmısan tək-tənha. Bircə qızın var, o da heylə…

— Ta keçmiş ola, Qulu. Ələyim ələnib, xəlbirim də göydə fırlanır.

— Yox, əşi. Maşallah, sən məndən cavan qalmısan. Məndən on üç yaş böyüksən, amma heç deməzsən… Ürəyin də cavan oğlan ürəyidi, maşallah. Adın-sanın düzü-dünyanı tutub, pulunu da balta kəsməz, maşallah. Hansı cavan qızın qolundan tutsan, göydə razı olar. İndi də dəbdi: cavan qızlar yaşdı kişilərə canbaşnan ərə gedirlər.

— Hə, evinə, puluna sahib olmaq üçün. Bilirəm bunları, Qulu, bilirəm. Məni o qədər də avam hesab eləmə. Sən duza gedəndə, mən duzdan qayıdırdım, Qulu. — Paşanın gözü Qulubəydəydi: çox təmkinliydi, deyirdi, danışırdı, hətta zarafat eləmək həvəsi də var idi. Xasiyyətinə bələd idi: söz saxlayan deyildi o qədər də. Əgər istəsəydin ki, o, sənin bir sirrini ürəyində saxlasın, kimsəyə açıb deməsin, gərək üç-dörd dəfə ən çox sevdiyi anasının goruna and içdirəydin, bəlkə onda Qulubəy sənin o məhrəm sirrini heç kəsə ağzından qaçırtmazdı. Yoxsa ordan eşitdiyini burda sənin ovcuna qoymalı idi və bundan xüsusi bir ləzzət alırdı. Əgər indi içəri girən kimi Qulubəy, nazik qaşlarını çatıb sarsıldığını bildirən bir ifadə ilə Paşanın qəzavü qədərini dilinə gətirmirdisə, deməli, heç nə eşitməmişdi. Ancaq daxili bir hiss Paşanı buna inanmaqdan çəkindirirdi: buna görə də o, sınayıcı baxışlarını onun xırda gözlərindən çəkməyərək:

— İki gündü evdən çıxmamışam. Şəhərdə, dünyada nə var, nə yox? — deyə xəbər alanda Qulubəy bircə an, cəmisi bircə an duruxub:

— Sağlığın. Şəhərdi də. Hər kəs öz hayında, kəsbkarlığında. Nə olasıydı ki? — söylədi.

— Öləndən, itəndən, çıxarılandan, tutulandan?

— Heç nə eşitməmişəm. Səhər girirəm klinikaya, bir də axşam çıxıram. Turac gedəndən işim xeyli çoxalıb.

— Çoxmu qalır Turacın gəlməyinə, Qulu? Mənnən danışıb-dindirməsə də, yenə xeyli dayaq imiş, balam.

— Bə nə bilmişdin? Qoy təkmilləşdirməsini qurtarıb gəlsin, gərək sizi – ata-balanı barışdıram. Belə şey olmaz. Biabırçılıqdı. Harda görünüb ki, ata qızı dindirməsin, qız atanı danışdırmasın. O, uşaqdı, cavandı, başa düşmür, bəs sənə nə olub? Yekə kişisən, dünyanın hər üzünü görübsən. Məgər sənə yaraşar ki, bir qarış qız uşağıynan prinsip aparırsan? Özü də kimnən? Öz doğma balannan.

— Elə də deyil, ay Qulu, — deyə Paşa divanda qurcuxdu. — Sən onu tanımırsan məgər? Neçə ildi əlinin altında işləyir, görmürsən necə tərs qızı tərsdi? Mən barışmaq istəyirəm ey, başa düş, o istəmir. Nə illah eləyirəm, daşı ətəyindən töküb bircə dəfə üzümə gülmür. Düzdü, mən evdə olmayanda gəlir, xörəyimi-yeməyimi bişirib-düşürür, palımı-paltarımı yuyub gedir. Nə olsun? Bunu mən başqasına da elətdirərəm. Mənə onun ürəyi, məhəbbəti lazımdı, övlad ürəyi, övlad məhəbbəti.

— Özü yıxılan ağlamaz. Özün günahkarsan.

— …

Paşa dillənmədi.

Qəribə, üstüörtülü oyun gedirdi iki dostun arasında. Paşa onu bu sözləri eşitmək üçün çağırmamışdı. Qulubəy keçən həftənin beş axşamını burada, Paşanın yanında keçirmişdi və o görüşlərinin heç birində buna bənzər söz-söhbət olmamışdı. Məgər indi dediklərini Qulubəy onda bilmirdi? Bilirdi, çoxdan bilirdi. Lap əvvəllər, dörd-beş il bundan qabaq bu və buna bənzər sözlər demişdi Paşaya. Ancaq bir nəticəsi olmadığını görüb daha bu məsələlərin üstünə qayıtmamışdı. İndi… birdən-birə… Paşa sərraf fəhmiylə qəlbinin dərinliklərində buna xüsusi məna verirdi, lakin səbəbini, Qulubəyin niyə bu boyda məsələni eşitdiyi halda, üstünü vurmamasını, açıb-ağartmamasını heç cür yozub bir yana çıxarda bilmirdi. Bəlkə utandırmaq istəmirdi? Bəlkə yadına salıb qanını qaraldacağından qorxurdu? Bəs onun Paşanın cavanlığı, ürəyi barədə söylədiyi sözləri necə başa düşməliydi Paşa? Axı Qulubəy bir həkim kimi çoxdan bilirdi ki,

Paşanın ürəyi pisdi, qulaqcıqları kirəcləşib, aritmiyası var? Neçə dəfə elə institutda, öz kabinetində yıxıldığından da, üstünə «Təcili yardım» gəldiyindən də xəbərdar idi Qulubəy? Bir sözlə, niyə o, bu gün, öz əziz dostunun, «çörək verəni»nin bu ağır və müsibətli günündə hətərən-pətərən danışır, ancaq bir kəlmə də olsa, o boyda bədbəxtliyi haqqında söz demir? Bəs bayaq Paşa ondan soruşanda ki, «Şəhərdə, dünyada nə var, nə yox?» — o, niyə bircə anlığa duruxub sonra cavab verdi? Bu, nə demək idi? Bəs Paşanın «Nasazam» — deməsinə niyə elə yüngül, ötəri bir şey kimi baxdı? Axı Qulubəy qabaqlar Paşanın yanından yel keçəndə, dərhal əl-ayağa düşərdi, qan təzyiqini yoxlardı, finandeskopla ürəyinə, ciyərlərinə qulaq asardı, dava-dərman yazardı, saatlarla yanından çəkilib getməzdi, hətta işdən də zəng eləyib «əhvali-şərifini» soruşardı? İndi isə Qulubəy yalnız nəbzini yoxlamaqla kifayətləndi, vəssalam. Qulubəyi, əslində, çağırmışdı ki, dərdini danışsın, birlikdə papaqlarını qabaqlarına qoyub ona dəyən o ağır daşın hardan, kim tərəfindən atıldığını, yaxud atıla biləcəyini müəyyənləşdirsin. İki baş bir başdan daha yaxşı nəticəyə gələ bilər. Bayaqdan Qulubəy allah bilir kimdən, nədən, hansı xəstəsindən danışırdı, ancaq Paşa bu sualların əlində çırpınıb çapalayırdı, az qala ürəyi partlamaq dərəcəsinə gəlirdi, qabağındakının sözlərini eşitsə də, heç nə başa düşmürdü. Bu axmaq fikir hardan onun beyninə axıb dolmuşdu axı? Bayaq bu barədə heç nə düşünmürdü? Bilir? Bilmir? Sən allah, heç gör bu da sözdü? «Əşi, görünür, yazıq, bilmir də. Bilsəydi, eşitsəydi, niyə, nəyin xatirinə gizləməliydi axı? Neçə ilin dostuyuq, qonşusuyuq, həmkarıyıq? Yox, Paşa, sənin başın xarab olur. Buna sənin heç şübhən olmasın».

Amma insan ürəyi qəribədi: gözü hardasa aldada bilərsən, ağlı da aldatmaq mümkündü. Lakin ürəyi yox. Yazıq Paşanın yazıq ürəyi daş dəyən yerini düzgün duymuşdu, ona görə bayaqdan beləcə çırpınırdı və Paşanı da dağa-daşa salıb sürüyürdü. Ürək neyləsin, dili yox, səsi yoxdu — ancaq görən və eyni zamanda görünməz gözü var ürəyin. Dili olsaydı, Paşanın içindən bağıra-bağıra, səsini bütün aləmə yaya-yaya qışqırardı ki, bax,

budu, bax, sənin qabağında əyləşən, sənə dağdan-arandan danışan bu namərddi düşmənin, evini yıxan, səni o zirvədən bir göz qırpımında çəkib ayaqlar altına atan, Paşa. Bayaqdan gör artist kimi necə oynayır qabağında? Gör necə dillər tökür? Sən də içində çırpına-çırpına ona qulaq asırsan. Hayıf, ürək deyə bilmir. Sən də içini gəmirən o şübhəni qovmağa, özündən uzaqlaşdırmağa çalışırsan. Qov, qov, bəlkə belə yaxşıdı. İndi hər şeyi bilsən, yəqin elə buradaca, divanının üstündəcə bağrın çatlar, ölərsən. İnsana bəzən dostu, sevgilisi, qadını, övladı elə xəyanətlər eləyir ki, onu ömrü boyu, hətta ölənəcən bilmir və arın-arxayın yaşayır: bunda onun günahı yoxdu. Günah — xəyanətkarın boynundadı.

Bəli, evin adamı, illərin həmdəmi, çörəyini yediyi, kölgəsinə sığınan Qulubəy indi bu şübhə və gümanlar içində yanıb qıvrılan, yaşamaq ümidini az qala itirmiş Paşaya xəyanət eləmişdi və çox təəssüf ki, Paşa heç vaxt, ölənəcən də bunu bilməyəcəkdi — kürəyinə saplanan bıçağın ağrısını ürəyində hiss eləyəcəkdi, əzabdan dırnaqları ilə torpağı eşəcəkdi, qanrılıb kürəyində titrəyən iti bıçağın qanlı dəstəyinə baxacaqdı, lakin o bıçağı, namərdcəsinə kim tərəfindən vurulduğunu bilməyəcəkdi və eləcə də nigaran-nigaran yanına gəlib gedənlərin üzünə baxa-baxa dünyadan köçüb gedəcəkdi. Halbuki qatil indi gözünün qabağındaydı və elə o anda da elədiyindən qorxub peşiman olmuşdu. Lakin gec idi, geriyə yol yox idi. Deyirlər, söz — quş kimidi. Amma yox. Quş uçduğu yuvasına qayıda bilir. Söz isə yox: söz qayıda bilmir. Qulubəy də o sözü demişdi, ancaq geri qaytarmağa macal tapmamışdı. Məsələ burasındaydı ki, o xəyanətin təməli keçən il, Paşa Camalzadənin yetmiş illiyi təntənə ilə qeyd olunanda qoyulmuşdu: hardansa – o özü də bunu anlaya bilmirdi — ürəyində Paşanın vəzifəsini tutmaq, onun kabinetində oturmaq hissi baş qaldırmışdı: «Bəsdi, kişi. İyirmi ildi orada oturmusan, bütün arzularına çatmısan, nə istəmisən, onu da eləmisən. Su bir yerdə çox qalanda iylənir: sən də daha iylənmisən, üfunəti aləmi basıb. Nə qədər ki, kürüyüb atmayıblar, öz xoşunla ərizə ver, çıx get, həvəsdi, bəsdi. Bu vəzifə

ömrün boyu sənin boyuna biçilməyib ki? Yaşın da o yaş deyil, ta qocalmısan, gözün yaxşı görmür, ayaqların, əllərin sözünə baxmır. Üzü sulu dur get. İndi də qoy bir az biz oturaq o kresloda, biz də özümüzü bir kişi hesab eləyək. O qara maşında qoy bir az da biz gəzək. Haçanacan baş həkim olacacam? Pulum da var. Düzü elə mən də sənin kimi bir yerdə oturmaqdan iylənmişəm. Mən ora getsəm, sənin qızın Turac xanım üçün də yer açılar — o da olar baş həkim. Vallah, səndən də yaxşı apararam o institutun işini. Sən ki, məni yaxşı tanıyırsan — bilirsən ki, ölü bit deyiləm, dəyirmanın boğazından ölü atsan, o başdan diri çıxan bir oğulam.

Şeytanınmı, hansı bədcins insanınmı — bunu da xatırlayammırdı Qulubəy — ürəyində, beynində oyatdığı o dəli fikir onu alıb aparmışdı, fikrən, xəyalən o kabineti də tutmuşdu, o qara maşında da gəzmişdi və bu iki şey gecə-gündüz Qulubəyə rahatlıq verməmişdi, iştahını əlindən alıb boğazını tıxamışdı, yuxusunu gözündən alıb dəli-divanə eləmişdi. Az-çox, ağlı, ürəyi, vicdanı olan bir adam kimi hərdən bu fikrindən utanıb xəcalət də çəkdiyi anlar, günlər olmuşdu, o arzudan danışmaq lazım olduğu barədə özlüyündə qəti qərar da çıxartmışdı, unutmağa çalışmışdı. Lakin bu, çox çəkməmişdi, yenidən içindəki o vəzifə, məqam ehtirası əfi bir ilan kimi baş qadırmış, onu silahsız, köməksiz bir zəif kimi qabağına qataraq irəli aparmışdı. Bir ildən çox idi ki, ürəyində iki duyğu, iki qüvvə üzbəüz, qabaq-qənşər oturub elə hey vuruşmuşdu, gah bu onu basmışdı, gah o bunu. Biri demişdi: «Ayıbdı, Qulubəy. Sən neyləyirsən? O kişi sənə çörək verib, adam eləyib, ortalığa çıxardıb, vəzifə sahibi eləyib. İndi sən onun zəlil gününü istəyirsən? Sən yaxşı bilirsən ki, divin canı şüşədə olan kimi, Paşanın da canı o kabinetdədi — onu əlindən alan kimi o ölər, yaşamaz. Eşidən-bilən nə deyər sənə? Namərd kimi, qədirbilməz kimi baxmazlarmı sənə? Ağlını yığ başına, otur yerində, Qulu».

O biri hiss — şeytanxislət, iblissifət duyğu isə Qulubəyin qulağına pıçıldamışdı ki: «Ay evini allah tiksin, niyə oturmusan? Bir tərpən, haçanacan bu dava-dərman iyi verən bu xaraba

klinikada oturacaqsan, papağını günə yandıracaqsan, hə? Ora əsil sənin yerindi, kişi. Sən ondan da zirəksən, dilli-ağızlısan. Hakimiyyət, kişi, ancaq hakimiyyət, vəzifə. Əgər vəzifən, hakimiyyətin varsa indi, səni sayırlar, adam hesab eləyirlər, sənlə hesablaşırlar. Yoxsa, get, özünü as. Heç yaşamağına dəyməz. Nə ustad, ustad salmısan? Bəsdi «ustadına kəm baxanın gözlərinə qan damar» — fəlsəfəsinin əsiri oldun. O dünənin, avam adamların fəlsəfəsi olub, qardaş. İndi əyyam tamam başqadı: indi gərək ustadını yox ey, doğma atanı, qardaşını yerindən durquzub stolunda əyləşəsən. Ta gözləməyəsən ki, onlar öz xoşuyla sənə öz yerlərini verəcəklər. Yox, bunu gözləmə. Bu, xam xəyaldı indi, Qulubəy. Tərpən. O vəzifə lap sənin boynuna biçilib elə bil. Sonra gec olacaq, özün əlləşib vuruşmasan, heç kəsin yadına düşən deyilsən».

Yenə təslim olmamışdı Qulubəy. Amma işin tərsliyindən, o, bu fikrin daşını tamam çıxarıb beynindən atandan, unudandan iki ay sonra gözlənilmədən bu iş həll olunmuşdu: əvvəllər Qulubəy tez-tez, ikinci, xəyanətkar fikir üstələyəndə və o da bir az yumşalanda öz-özünə sual vermişdi ki, axı necə? Nə yolla? Və ağlına heç nə gəlməmişdi: çünki o ötən iyirmi il ərzində Paşa Camalzadə o qədər dərin və əzəmətli bir nüfuz qazanmışdı, o qədər dərininə və eninə kök salıb qol-budaq atmışdı ki, onu yerindən tərpədə biləcək bir qüvvə təsəvvür eləyə bilmirdi Qulubəy. O, elə bir zirvəyə qalxıb ucalmışdı ki, Qulubəy altdan yuxarı başını qaldırıb o qərar tutan zirvəyə baxmaq istəyəndə, az qala papağı başından düşürdü. Paşanı kim tanımırdı? Paşanı görəndə kim yaxın gəlib təzim eləmirdi və qayıdıb üstündən də bununla fəxr eləyib yerə-göyə sığışmayan bir sevinclə qürrələnmirdi? Bütün şəhərin vəzifəli adamları, görkəmli alimlər, akademiklər, katiblər, ziyalılar — hamısı onu yaxşı tanıyırdı. Yox, təkcə tanımırdılar. Onların bir çoxu ilə, necə deyərlər, lap «tuz»ları ilə o qədər qaynayıb-qarışıb, dostlaşmışdı ki, daha dilnən deməyə gəlmir və bunu Qulubəy yaxşı bilirdi, görürdü. Onu o kabinetdən, o qara maşından heç kəs çıxardıb düşürə bilməzdi. Yalnız ölümdən başqa. Bəli, yalnız əli, ayağı buz kimi

soyuq, nə padşah, nə silah tanımayan, hamının — vəzifəsindən, dərəcsindən asılı olmayaraq eyni cəsarətlə qapısını döyməyə qadir olan qorxmaz ölüm Paşa Camalzadəni yerindən tərpədə bilərdi. Başqa heç kim və heç nə yox.

Paşanın əzəməti, cah-cəlalı Qulubəyin gözlərini o əndazədə qorxuzub qapamışdı ki, bir nöqtəni qətiyyən ağlına belə gətirməmişdi: bu, onu — Paşa Camalzadəni o zirvəyə qaldıran qüvvə idi.

Bu gözlənilməz və hələ dumanlara bürünmüş kimi görünən fikir onun ağlına gecə, klinikada növbətçiləri yoxlamağa gedəndə gəlmişdi və elə bilmişdi ki, çox qiymətli bir xəzinə tapıb Qulubəy. Sevinci yerə-göyə sığmamışdı, uşaq kimi üzgözündən nur yağa-yağa saat birdə evə qayıtmış, kim bilir neçənci yuxu bişirən Nigarı yatağından qaldırıb yemək-içmək gətirməsini xahiş eləmişdi. Nigar isə həmişə olduğu kimi, bu dəfə də ərinin sözünü eşitməməzliyə vurmuş, yerinin içində o tərəf-bu tərəfə gərnəşərək qalxmamışdı. Onda Qulubəy dodağının altında nəsə söyüb söylənə-söylənə mətbəxə keçmiş, soyuducudan kolbasa, kürü, göy-göyərti, çörək və konyak götürmüşdü, elə mətbəxdəcə xudmani bir stol açıb təkbaşına yeyib-içmişdi. İçdikcə də fikri durulmuşdu, dumanlara bürünmüş o qara və məşum fikir özünün duman paltarını soyunub təmizlənmiş, çılpaqlanmışdı. Dördüncü qədəhi, qəribəydi ki, cəmi bir neçə addım ondan o yana, dəmir qapı arxasındakı mənzilində yatmışmı, yazı masası arxasında işləyənmi Paşanın şərəfinə qaldırmışdı. Və bu, nə qədər içmiş olsa da, Qulunun özünə də çox möcüzəli görünmüşdü və qədəhi yerə qoyub ağzına bir tikə pendir atandan sonra, tək olduğunu bilə-bilə bərkdən demişdi: «İnsan anlaşılmaz məxluqdu, Qulu bəy. Sən bir yox ey, yüz «İnsan» institutu aç, yenə bu insan əclafı öyrənib qurtarammazsan. Vallah, öyrənib qurtarammazsan. Çünki insan Yer üzünün ən böyük möcüzəsidi, Qulu bəy. Uzağa niyə gedirsən? Bax, elə biri mən özüm. Bax, süfrəmə baxırsanmı? Bu naz-neməti görürsənmi? Bunların hamısını sən mənə vermisən. Elə deyilmi? Yox, mən yaxşılıq itirən oğlan deyiləm. Düzü belədi. Amma mən indi,

gecənin bu vaxtında burada, elə sənin özünün institut hesabına verdirdiyin bu mənzilimdə tək-tənha, özümçün əyləşib səni məhv eləmək üçün yollar axtarıram, Paşa bəy. Özü də sənin sağlığına indicə badə qaldırmışam. İnanırsan? Yox? Hə. Düz deyirsən. Kimə söyləsəm, inanmaz. Çünki bu, heç kəsin ağlına gəlməz. Amma öz aramızdı, sən də əclafsan. Bəlkə sən məndən də əclafsan, alçaqsan, Paşa bəy. Elə bilirsən mən səni yaxşı tanımıram? Elə bilirsən sənin əməllərindən heç kəsin xəbəri yoxdu? Bilmirlər ki, sən necə cəllad, qaniçən, insafsız və mürüvvətsiz bir adamsan? Sənin zahiri parıltın bu adamların gözünü qamaşdırır, için isə boşdu, üfunətlə doludu. Sənin boynunda neçə-neçə günahsız adamın qanı var və bunları kim də bilməsə, mən yaxşı bilirəm. Elə çoxları da bilir. Amma susurlar nədənsə. Çünki sənin qalıncının indi dalı da kəsir, qabağı da. Heç kəs başını sənin o iti bıçağının qan daman ağzına sürtmək istəmir: çünki adamlar yaşamaq istəyir, bilirsən? Müharibə deyil ki, döşlərini qızıl güllə qabağına versinlər. Amma gözləyirlər, məqam gözləyirlər. Vaxtı çatan kimi, sənin tükünü didəcəklər: onda bilərsən dadı nədi tükü didilməyin, yurdu-yuvası dağılmağın, Paşa bəy. Bəli. Bəlkə də kim bilir, sən yaxşı adam olsaydın, mən bu alçaq və murdar fikrə düşiəzdim? Hə, çox güman ki, düşməzdim, Paşa bəy. Ancaq sən əclafsan, lap əclafın dal ayağısan. Ona görə sənə rəhm eləmək düz deyil. Sənə rəhm eləmək hardasa bir təmiz adama, bir vicdanlı insana haqsızlıq eləmək deməkdi, Paşa».

Danışmışdı, danışmışdı, içmişdi və bu da qəribə idi ki, ayrı vaxtlar heç yadına salmadığı, əhəmiyyət vermədiyi, üstündə düşünmədiyi bir çox irili-xırdalı şeyləri xatırlamışdı və o qatmaqarışıq fikir axının içində əsil nöqtəni unutmasın deyə bir də ürəyində, beynində xüsusi olaraq təkrar eləmişdi: «Paşanın qənimi — Allahdan başqa, ancaq onu zirvəyə qaldıran adamlar olacaq. Bax budu əsas məsələ». Və sonra xatırlamışdı ki, o zaman, hələ iyirmi il öncə, Paşa «İnsan» institutunun direktoru təyin olunanda, çox böyük fəxr və sevinc ilə gəlib ona danışmışdı ki, şəxsən o, özü qəbul eləyib Paşanı. Və o, Paşanı guya

çoxdan, lap əyyami-cavanlıqdan yaxşı tanıyırmış, hətta bir zamanlar, Moskvada olarkən yoldaşlıq da eləmişlər. Və o, canlara dəyən adamdı: guya Paşanı bir ictimai və elmi xadim kimi çox yüksək qiymətləndirib və s. Bütün bunlar o gecə, iyirmi ilin o tərəfində qalmış və üstünü toz və zaman unutqanlığı örtmüş, olmuşların, keçmişlərin içindən silkinib çıxır və Paşanın o vaxtkı həyatının üzərinə bir tutqun işıq salırdı və Qulubəyin beynində indi divarın o tayında yatmış qonşusunun deyil, o nüfuz sahibinin surəti canlanmağa başlayırdı. Bu zaman Qulubəy məsələnin qəlizləşdiyini, dərinləşdiyini dərk edib təzədən ümidsizləşirdi. Çünki o vaxtdan, yəni Paşa o sözləri Qulubəyə bağda danışandan sonra keçən bu illər ərzində o, öz yerində möhkəm oturmuşdu və deməli ki, Paşa gülləbatmaz idi. Bir də onun adı gələndə, başqalarını bilmirdi, Qulubəy nədənsə əsim-əsim əsirdi. Qorxusu yaman çökmüşdü canına. Hərdən ona elə gəlirdi ki, o, onu şəxsən görməməyinə, söhbət eləməməyinə (bir dəfə də olsa) baxmayaraq, yaxşı tanıyır, ordan, o uca binadan Qulubəyə səbrlə-təmkinlə tamaşa eləyir, əməllərini bir-bir hansısa bir dəftərin qırağına yazır və günlərin birində, gecəmi, gündüzmü, işdənmi, evdənmi adam yollatdırıb apartdıracaq və elə birinci kəlməsi bu olacaq: «Bəsdi daha. Çox gözlədim ki, bəlkə insafa gəlib adam olasan. Ancaq gördüm yox, tamahına tət deyənə oxşamırsan». Və Qulubəy o gedən gedəcək. Amma sonra özünün bu sadəlövh fikrinə gülürdü: «Sən də lap ağciyər imişsən. Elə onun yadına sən düşürsən. Ta başqa işi-gücü yoxdu onun?"

Sərxoş-sərxoş bu xəttin üstündən qələm çəkmişdi. Qulubəy ona yaxınlaşa bilərdimi? O dəqiqə ürəyi gedərdi. Həm də gedib ona ən yaxın bir adamı haqqında deyəsən ki, o belədi, heylədi. «Adamın atasını yandırar, nə danışırsan, ə? Yox, yox, mənciyəzdə o ürək yoxdu».

Elə bu zaman axırıncı badəni də içəndən sonra, birdən Xallı gəlib yadına düşmüşdü. O Xallı ki, hələ o zaman, fiziologiya kafedrasında Qulubəy aspirant olanda, Paşa onun üçün «yaşıl işıq» yandırmışdı və o boyda kişi, ağzının suyunu axıda-

axıda o qəşəng, dünya gözəli olan Xallının böyür-başında hərlənirdi, az qalırdı: «Ayaqlarını yerə qoyma, ayaqların inciyər, gəl çıx gözlərimin üstündə yeri» — desin və cavanların ona yaxın düşməsinə qətiyyən imkan vermirdi. Bu da yadındaydı ki, Xallını Əli adlı bir aspiranta bərk qısqandığı üçün o yazığı kafedradan tamam-kamal uzaqlaşdırmışdı: indi o hadisənin təfərrüatı yadında deyildi, amma dəqiq xatırlayırdı ki, belə bir şey olub. Açığı ki, elə Qulubəyin özünün də Xallıda gözü var idi və əgər qız, razılıq versəydi, Qulubəy onunla evlənərdi. Lakin hörmətli kafedra müdirinin ona — o yerin-göyün yaraşığı olan o qıza olan hüsn-rəğbətini hamı kimi, o da görüb hiss elədiyindən, ən aşağısı, Əlinin gününə düşməmək, başını bıçağa sürtməmək üçün, o arzusunu qəlbinin dərinliklərində boğub öldürmüşdü. Sonralar o Xallı oradan çıxıb getmişdi və keçən uzun müddət ərzində nə qədər yaxın olsalar da, Paşa ona sirr verməmişdi. Hətta bir dəfə Qulubəy keflərinin yuxarı vaxtında zarafata salıb Xallıdan «bir şey qopara bildinmi o vaxt?» — deyə soruşmuşdusa da, Paşa dərindən fikrə gedib onunla — o gözəl məxluqla keçirdiyi o unudulmaz anları xəyalən təzədən yaşayaraq və eyni zamanda onun söylədiyi o hədələyici sözləri xatırlayaraq qətiyyətlə: «Yox. Sən nə danışırsan, a Qulu. Elə şeymi olardı? O hara, mən hara? — demişdi. İnansın deyə üstəlik əlavə də eləmişdi: «Mən Xallının əlinə su tökməyə də layiq bilmirdim özümü». Paşanı tanımayan, onunla az oturub-duran kənar bir adam bəlkə də bu sözlərin doğruluğuna, səmimiyyətinə inanardı. Lakin Qulubəy öz dostunun nəylə nəfəs aldığını çox gözəl bilirdi və buna görə də, kişini çox çək-çevirə salmamışdı, sadəcə mənalı bir təbəssümlə kifayətlənmişdi.

Qulubəyin fikrincə, həyatda elə şeylər var ki, onları öz gözünlə görməyə heç də həmişə ehtiyac olmur. Təsəvvür də eləmək mümkündür və bir həkim kimi bu təsəvvür deyilən şeyin bəzən eynən həyatın gerçək şəklini necə varsa, necə olubsa, eləcə də insanın gözləri önündə cilvələndirməyə qadir olduğunu anlayırdı. Məsələn, o zaman, Xallını, özünün təklikdə adlandırdığı kimi, «bu qoca heyvərə»yə qısqandığı vaxt Qulubəy

belə bir şey uydurmuşdu öz aləmində: Xallı Paşanın bağında onunla görüşür. Vəssalam. Və bu fikir də elə o vaxtdan beyninə həkk olunub qalmışdı. Və indi, Paşa and içib aman eləyəndə də Qulubəy ona görə bic-bic gülümsünmüşdü ki, onun sözlərinə inanmamışdı. «Ay sən öləsən, qoca həpənd. Hamıya dızz, mənə də dızz?».

Və Qulubəy o sərxoş başla hardansa gecənin bu aləmində gəlib yadına düşən o Xallının necə deyərlər, ətəyindən tuta-tuta keçmişlərə baş vura-vura irəliləmiş və belə bir məqamı da xatırlamışdı ki, adamlar danışırdılar: Xallı, o nüfuzlu şəxsin ən yaxın adamıdı və o, bu Xallı adlanan nazənini həddindən artıq çox uca tutur. Paşa Camalzadə də yalnız onun vasitəsiylə qəbula düşüb və o boyda vəzifəni ələ keçirə bilib: çünki axı Paşanın elm aləmində nəyi var idi ki, başqa böyük alimlər, elm təşkilatçıları, adı-sanı dünyanı gəzib dolaşan alimlər qala-qala, onu irəli çəksinlər? Bu heç kəsin, xüsusən Paşanı yaxşı tanıyanların ağlına batmamışdı o zaman. Arada çox söz-söhbət gəzib dolaşırdı. El ağzı, çuval ağzı — deyiblər. Bəllidi ki, deyilənlərin biri düz çıxmasa da, o birisi düz çıxırdı və camaat o düz çıxmayana da təzədən qayıdıb inanırdı. Və bunlar Qulubəyin yaddaşının köhnə, saralmış səhifələrindən bir-bir pırtlayıb üzə çıxırdı, ilişəcək üçün yer axtaran «dost»un gözlərinin qabağında əvvəli, axırı olan maraqlı, cəzbedici bir mənzərə canlanırdı. Bir az da bəzəyib-düzəsəydin, bu, əməlli-başlı bir hekayət idi ki, adam içinə çıxardıb danışmaq olardı. Qulubəyə də elə bu lazım idi. Şüşədəki konyakın axırıncı qətrələrini də qədəhinə süzərək, yenə üzünü qonşusunun — Paşanın divarına sarı tutdu, məclisdə sağlıq deyirmiş kimi, yavaş-yavaş söylədi: «Hm. Belə, əzizim Paşa bəy. İcazə ver bu son qədəhi də sənin şərəfinə qaldırım. Sən indiyəcən qızıl balıq kimi bu geniş okeanda istədiyin təki yaşamısan, arzuladığın tərəfə üzmüsən və elə bilmisən ki, dünya həmişə sənin istəyincə dolanacaq. Sən elə bilmisən ki, bu ucsuz-bucaqsız dənizin, okeanın sahibi ancaq sənsən və sənin qabağına çıxan bir oğul ola bilməz. Yox, sən səhv eləyirsən, qonşu. Səni mən — heç kəsdə bu cəsarəti görmürəm —

ancaq mən o suların qoynundan elə bir tora salım-çıxardım atım qumların üstünə ki, özün də afərin deyəsən, qonşu. Nə isə, hələlik sağ ol».

Sonra mətbəxdəki stolun üstünü eləcə, tör-töküntülü qoyaraq, aşa-aşa gedib çarpayısında yox, böyük otaqdakı divanın üstündə yıxılıb yatmışdı. Səhər günortaya az qalmış yuxudan oyananda əvvəlcə axşam harada, kiminlə içdiyini xatırlaya bilməmişdi: nə isə Paşa fikrində dolanmışdı, amma Paşagilə getdiyi, ya onun bura gəldiyi yenə yadına düşməmişdi. Hannanhana, beyninin dumanı ayazıyandan sonra başa düşmüşdü ki, evdə içib. Paşayla da yox, tək içib. Bu qədər. Od kimi yandırıb yaxan o dadlı-tamlı konyakdan vura-vura qurub qoşduğu o gözəl hekayət də yaddaşından silinib getmişdi. Sonra iş, qayğılar, xəstələr, arvadı Nigarın qaş-qabağının gecə-gündüz açılmaması başını elə qatmışdı ki, az qala öz adı da, Paşa da unudulmuşdu. Günlər, həftələr, aylar keçmişdi, içindəki o «qurd» ölüb çürümüşdü. Lakin sən demə, o gizli fikirlər, o şirin arzular hardasa qəlbinin dərinliyinə çəkilmişmiş, bir himə bənd imiş ki, təzədən baş qaldırıb dirilsin, Qulubəyin qolundan tutub bu bədnam yola sürükləsin. Bu «him» isə Xallının özüymüş, sən demə.

Gözəl may günlərinin birində az qala tamam unutmuş olduğu gözəl Xallıya «Kitab evi»nin salonlarının birində rast gələndə əvvəlcə gözlərinə inanmamışdı. «Odu?», «Yox, o deyil» — sualları arasında çırpına-çırpına son dərəcə gözəl və yaraşıqlı bir libas geyinmiş, qara və yumşaq saçlarını dağınıq halda çiyinlərinə atmış, ikinci mərtəbədə fırlanan kitab həvəskarlarının hər şeyi unudaraq acgözlüklə, həsədlə və qibtəylə oğrun-oğrun tamaşa elədikləri qadına diqqətlə baxanda Qulubəy heyrətlə içini çəkmişdi və bunu elə eləmişdi ki, onun hıçqırığını o özü də eşidib ona sarı çevrilmişdi; onda Qulubəy gülə-gülə:

— Xallı? — deyə səslənmişdi və qadın, qarşısında dayanıb üz-gözünü işıqlı bir təbəssüm bəzəmiş kişiyə baxanda, xoşbəxtlikdən, Qulunu dərhal tanımışdı:

— Aa, Quluşka, sənsən? — deyərək nazik, iri şüşəli eynəyini gözlərinin üstündən götürmüşdü.

— Ay səni xoş gördük, xoş gördük. — deyə dodaqları qulağının dibinə qədər uzandı. — Səni görməyimə çox şadam, əzizim.

— Elə mən də. Gör neçə ildi səni görmürəm.

Onlar əhatələrindəki adamların arasından çıxmış, böyük, lay pəncərənin qabağına gəlmiş, bir-birinin işindən-gücündən, dolanışığından soruşub xəbər tutmuş, keçən günləri yad etmiş, deyib gülmüşdülər. Xallı qədimi iş yoldaşlarını bir-bir soruşmuş, kimin harda olduğunu xəbər almışdı, Qulubəy də bildiklərini demişdi. Bayaq, Xallını görən kimi, Qulubəyin o qəribə gecə konyak içə-içə qurub qoşduğu tələ — tor yadına düşmüşdü, daxili bir sevinc hissilə: «Əsl məqamdı» — deyə düşünmüşdü. Ancaq bu ona çox qəribə gəlmişdi ki, hamını xəbər alan Xallı təkcə Paşanın — ona olmazın yaxşılıqlar eləmiş, demək olar ki, həyat vəsiqəsi vermiş, yolunda ölməyə belə hazır olan, könlü xoş olsun deyə nəinki qayda-qanunları, hətta Əli kimi canlı insanları belə traktor, tank kimi ayaqlayıb keçən öz ustadının adını dilinə gətirməmişdi: halbuki, Qulubəyin fikrincə, gərək birinci onu soruşaydı. Professor səhv eləyirdi amma. Xallı elə də sadəlövh deyildi. Qulubəy bunu unudurdu ki, Xallı yüz onun kimisin çay, bulaq üstünə susuz aparıb, susuz da geri qaytarardı. Düzdü, Qulubəyin də özünə güvənməyə haqqı var idi: o da admlarla dolaşıq, anlaşılmaz taktiki üsullarla şahmat oynamağı xoşlayırdı, gözlənilməz, ağlasığmaz gedişlər getməyi bacarırdı və kimsə onun bir an sonra, piyadanımı, atımı, şahımı qabağa verəcəyini başa düşməyə qadir deyildi. Və o, bu yollarla rəqibinin arxasını yerə qoyub sinəsi üstünə çıxanda sonsuz bir ləzzət alırdı. Ancaq indi üstbaşından bütün mərtəbəyə xoş ətir yayılan, tək gözəlliyi ilə deyil, o gül əndamına, boyun-boğazına vurduğu ətirlə də dörd bir yanda fır-fır fırlanan adamların diqqət mərkəzində olan Xallının Paşa barəsində heç nə xəbər almaması Qulubəyi yamanca çaşdırmışdı, fikrində bu halı təhlil eləyirdi və ona görə də Xallıya bir az çaşqın görünürdü və qadın bunu, Qulubəyin o zaman ona bəslədiyi məhrəmanə hisslərin təzədən oyanıb tüğyan eləməsi kimi başa düşürdü, ürəyində özünə görə olmayan, ayağını heç

vaxt yorğanına görə uzatmayan bu iştahı darı dələn adama gülürdü. Qulubəy isə Xallının bu gedişini ustalığı ilə bağlayırdı: «Hə, aydındı. Ay xətakar, yəqin qəsdən öz köhnə dostunu xəbər almırsan ki, mən şübhələnə bilərəm. Bəyənilsin, Xallı, yaxşı xoddu».

Elə bu zaman Qulubəyin ürəyindəkiləri oxuyurmuş kimi, Xallı qəfil soruşmuşdu:

— Kişi neynəyir, Quluşka?

— Hansı kişi, Xallı? — deyə Qulubəy əvvəlcə unamamışdı və gözlərini döyə-döyə Xallıya baxmışdı.

— Ay səni, Quluşka. Ədə, Paşa müəllimi deyirəm də. Məgər o vaxt ondan başqa o kafedrada ayrı bir kişi də var idi ki, hələ bir soruşursan da.

— Hə, hə, Paşa, Paşa, hə, düz buyurursan, Xallı xanım. — deyə onun o sözləri ürəyini dağ-dağ eləsə də, özünü və üzünü təbəssümə burub-büküb dişlərini ağartmışdı.

— Doğrudan da ondan başqa kişi yox idi orda. Paşadı da, hələ işləyir. Yerində möhkəm oturub, tərpənmək istəmir. Amma ta düşüb. Deyirəm ay kişi, ta qocalmısan, ərizə ver çıx pensiyaya. Yorulmusan, bir az da özün üçün yaşa. Deyir çıxardım ey, amma instituta heyfim gəlir. Mən gedən kimi bu institut dağılacaq. Yerimə bir ləyaqətli adam tapsaydım, arxayınca çıxıb gedərdim. Ancaq neynəyirsən ki, eləsi yoxdu. Bu cəhətdən bizim millət bədbəxtdi. Bilirsən ki, biz qonşuyuq. Demək olar ki, hər gün, hər gün olmasa da, günaşırı görüşürük. — Qulubəy qabağındakı şahmat taxtasını fikrində ölçüb-biçib «rəqibini» sakitcə, aram-aram danışdıra-danışdıra qurulmuş tələnin qırağına gətirmişdi və onu gözləmədiyi halda nagahan, adi bir şey kimi soruşmuşdu: — Bə Paşa özü deməyib sənə?

— Yoox.

— Ta görüşmürsüz ki? — Xallı bu sözün altındakı mənanı həzm eləməyə imkan tapmamış Qulubəy ikinci zərbəsini vurmuşdu: — Ta bağına getmirsən?

Xallının ətrəngi pamada çəkilmiş nazik dodaqlarının rəngi çəkilib xəfifcə titrəmişdi, nazik, alınmış qaşları qaranquş qanadları kimi gərilib yuxarı dartılmış, ağ, əsmər üzünə qızartı çökmüş, iri, onsuz da işıqlı olan gözlərində qəribə bir parıltı ani olaraq yanmışdı da, öləziyib sönmüşdü də. Özünü incə psixoloji dəyişiklikləri öyrənib tədqiq eləməkdə əvəzsiz usta sayan Qulubəy Xallının sevər yerindən vurduğunu başa düşüb təntənə ilə gülümsünmüşdü. Qulubəyin sevər yerindən vurduğunu başa düşüb təntənə ilə gülümsünmüşdü. Qulubəyin sualı doğrudan da Xallı üçün gözlənilməz olmuşdu və bunun nə demək olduğunu o dəqiqə fikrində götür-qoy eləyə-eləyə:

— Bağına? — deyərək vaxt qazanmaq istəmişdi.

— Hə də. Bağına.

— Kim? Məən? — Xallı ikimi, üçmü (Qulubəy saymağa imkan tapmamışdı) barmağında daşı-qaşı par-par parıldayıb göz qamaşdıran üzüklər olan sağ əlini iri ağ dənəli mirvari boyunbağı bəzəyən açıq sinəsinin üstünə qoymuşdu.

— Hə də. Sən… Deyirəm yəni ta Paşa müəllimin bağına getmirsən?

Elə bil Xallının bayaqdan tuti kimi ötən, sancan, sataşan dili kilidlənmişdi; beynində aləm bir-birinə qarışmışdı, o uzaq yanvar gecəsi, ötəri və az ömürlü olsa da unudulmayan, hərdən, təklik üz verəndə o əlçatmaz illərin arxasından qopub gələrək könlünü isidən xatirələr, Paşanın məharətlə qəlb oxşaması, danışıqları, şərtləri, hər şey, hər şey bircə anın (Bu bircə ana nələr sığırmış, ilahi? Lap bir ömür də sığa bilərmiş o bircə ana) içində Xallının gözlərinin önündən bir ildırım sürətiylə gəlib keçmişdi və yadına düşəndə hardasa zövq aldığı o xatirələr indi onun qəlbini məngənə kimi rəhmsizcəsinə sıxmışdı: «Deməli, xəyanət. Deməli, alçaq sözünün üstündə duran kişi deyilmiş, namərdmiş. Neynək, sən sən ol, mən də mən. Mənə də Xallı deyərlər, Paşa» — demişdi ürəyində və boğulub qap-qara qaralmış gözlərini Qulubəyin sırtıqlıq ifadə eləyən həyasız baxışlarından anicə yayındırıb zalda gəzişən adamlara baxmış, sonra da ona sarı şax baxaraq (Ancaq bu, alınmamışdı) başını ağır-ağır

tərpətmiş və sanki güclə (Yalan danışdığını bilən və qarşısındakının da onun yalan danışdığını başa düşdüyünü hiss eləyən adam belə qətiyyətsiz danışa bilər) söyləmişdi:

— Yooxx.

Ax, Xallı bu an necə də burdan uzaqlaşmaq, çıxıb getmək istəmişdi. Ancaq necə, nə bəhanə ilə? Ayrı vaxt, ən çıxılmaz vəziyyətlərdən çıxış yolu tapan, necə deyərlər, lap iki daşın arasından, yanar odun içindən sıpçınıb çıxan Xallının elə bil basaratı bağlanmışdı, ağlına heç nə gəlməmişdi; hardansa ürəyinə ötəri belə bir hiss axıb dolmuşdu ki, bəlkə bu əclaf hələ də o vaxtkı fikrindən dönməyib, məni ələ gətirmək istəyir? «Əgər elə bir istəyi varsa, bəs niyə demir, ağzına su alıb arsız adam kimi irişir? Yox. O yaxşı bilir ki, məndən ona yar olmaz. Elə o vaxt mən onun cavabını yaxşı vermişəm. Yadından çıxmaz».

Qulubəy isə Xallının qətiyyətsizliklə dediyi o bircə kəlməni - «Yox» sözünü öz beyninin, ürəyinin süzgəcindən keçirmişdi: «Aydındı. Düz tutmuşam. Demək, o vaxt bu gözəlçə həqiqətən Paşanın bağına gedirmiş. Onda gedirmiş. İndi ta getmir. İndi əlbəttə, Paşa onun nəyinə lazımdı? Hə. Bu, mənim bəsimdi».

Sonra Xallı nə demişdi, Qulubəy nə söyləmişdi — heç birinin düz-əməlli yadında qalmamışdı: Xallı xanım — bütün şəhər gözəllərinin gözü, açılmaz qapıları təpiyi ilə açan, çox «mənəm», «mənəm» deyən oğlanların arxasını yerə qoymağa qadir, çox kişilərin ürəyinin gizli arzusu olan, özünü qurub qoşmaqda mahir hesab eləyən Xallı — bu səssiz-küysüz döyüşdə uduzduğuna görə; Qulubəy də — belə kiçilməz, əvəzsiz üstünlüklərə malik bir mələyi hərləyib-fırlayıb ustalıqla tora saldığına görə. O, bunu misilsiz bir qələbəsi hesab eləmişdi və o günkü əməliyyatından — taleyin təsadüfən qarşısına çıxardığı və iştirakçısı elədiyi o qəribə oyundan hədsiz məmnun qalmışdı. Onların ikisi də hələ özünə gəlməmiş, ucaboylu, səliqəli, yanında da on-on iki yaşlı bir qız uşağı olan bir qadın ürcah olmuş, Xallını uzaqdan görüb tanımış, yaxın gəlib səmimi, mehriban görüşmüş və Xallı azca əvvəl arzuladığı fürsəti tapmış adam kimi sevinclə ona sarı addımlayıb Qulubəylə demək olar

ki, xudahafizləşmədən ayrılmışdı. Hələ də qazandığı «qələbədən» məst olan Qulubəy tanımadığı arvadın qoluna girərək zalın qapısına tərəf gedən Xallının arxasınca baxmış, onun düz, dolu, yaraşıqlı ayaqlarından, tanrının xoş məqamında yaratdığı, hər əzası yerində olan mütənasib bədənindən gözlərini çəkməmişdi və yalnız qoşa laylı, hündür qapının o üzündə görünməz olanda: «Allah səni öldürsün, Xallı. Sən niyə mənə qismət olmadın? Yandırıb yaxdın məni ömrüm boyu. Eh, taleyin işini nə bilmək olur? Bir də gördün özü gəldi» — deyə düşünüb dərindən ah çəkmişdi.

Və hələ onda heç Qulubəy özü də bilməmişdi ki, Paşanın başını kəsmişdi. Onun — Paşanın kəsilmiş başının qanı hələ sonra axacaqdı. Bunu da yəqin duymuşdu ki, o qanın axıdılması üçün çox gözləmək lazım olmayacaq.

Məhz ona görə idi ki, neçə gündü Qulubəyin qulağı səsdəydi, nə isə maraqlı bir xəbər eşitmək həvəsi ilə vurnuxurdu. Gecələr evə gələndə də Paşanın qapısını açıb içəri girməyə, hal-əhval tutmağa qorxurdu. Onun fikrincə, Paşa lap bu tezliklə, yuxarıların hökmüylə işdən getməliydi — buna heç şəkkişübhəsi yox idi. Buna hardasa adi şey kimi baxmaq olardı. Ancaq onu qorxuzan və kürkünə birə salan başqa bir cəhət də var idi ki, bu da Paşanın ürəyiydi: kişinin ürəyi doğrudan da xəstə idi və bir həkim kimi, Qulubəy yaxşı bilirdi ki, o xəstə ürək belə ağır və rəhmsiz zərbəyə çətin dözə biləcək. Bax, bu barədə düşünəndə Qulubəyin tükləri biz-biz olurdu və özünə dərin bir nifrət bəsləyirdi. Ancaq ox atılmışdı, işıq sürətiylə hədəfə — Paşaya tərəf uçurdu və Qulubəy indi istəsəydi də o zəhərli, öldürücü oxu geri qaytarmağa qadir ola bilməzdi. Olan olmuş, keçən keçmişdi. Hərdən tanrısına yalvarırdı ki, onun – o nüfuzlu şəxsin Xallı ilə bağlılığı və Paşanın onun vasitəsiylə bu məqama çatdırılması məsələsi elə ara söz-söhbəti olaydı və Xallının əli heç yerə çatmayaydı. Sadəcə gəlib Paşanın abrını ətəyinə bükəydi; «Sən kişi deyilmişsən, sən əclaf imişsən» — deyəydi və üzünə tüpürüb çıxıb gedəydi, həmişəlik gedəydi. Yox, yox. Əgər onlar üz-üzə gəlsələr, aralarında açıq söhbət olsa,

«Bunu sənə hansı vicdansız deyib? Bir onun yaxasını ver mənim əlimə, sənin gözünün qabağında mən onun çəkib cəhəngini cırım, sən də baxıb «Afərin» de. Kimdi o? De, kimdi?» — deyib israr eləsə, Xallı da mənim adımı çəksə, onda gərək mən gedib özümü asım. Yox. Bu da yaramaz. Daha geriyə yol yoxdu, Qulu. Başından böyük qələt qarışdırmısan, indi də otur, nəticəsini gözlə. Qumardı bu. Ya apararsan, ya da uduzarsan. Hələ sən axmağın əlində elə bir qarantiya da yoxdu ki, onu götürsələr, səni ora direktor qoyacaqlar. Yoxdu, qardaş, yoxdu.

Neçə gündü ki, bax bu cür içində öz-özüylə çarpışırdı, gah bəraət qazandırırdı, gah nifrət eləyirdi özü-özünə. Paşanın çıxarıldığını da elə həmin gün axşam bilmişdi. Mərkəzi Komitədə işləyən bir dostu saat on birdə zəng eləyib bu xəbəri çatdırmışdı Qulubəyə və Paşa ilə Qulubəyin çox yaxın, canbir qəlbdə olduğunu bilən o dostun qabağında o bu işə dərindən təəssüf elədiyini bildirmişdi, ancaq dəstəyi asandan sonra Nigara da heç nə deməyib həmin axşam yenə ağlı başından çıxanacan içmişdi. Bütün gecəni qulağı qapıda, gözü telefonda olmuşdu. Bəlkə dərd güc gələn, canını qoymağa yer tapmayan Paşa ya gəldi, ya zəng elədi. Lakin qonşudan səs-səmir çıxmamışdı. Balkondan uzanıb qonşu mənzilin işıqlarının da yanmadığını görəndə düşünmüşdü ki, yəqin hövlündən baş götürüb bağa gedib. İkinci gün də beləcə səksəkəylə ötüb keçmişdi. Bayaq isə Paşa ona zəng eləyəndə... Qulubəy özünü yamanca itirmişdi. İndi budur, işdən çıxarılmış, partbileti əlindən alınmış Paşa onun qabağındaydı və onun gözlədiyinin əksinə olaraq, sakit idi, təmkinli idi: elə bil heç nə olmamışdı, sadəcə iştahasının olmamasından şikayət eləyirdi və bir də şəhərdə, dünyada olan hadisələrlə, ölənlə, itənlə maraqlanırdı. Bağrı çatlamalı adamdı bu? Qulubəyi çaşdıran bu idi.

… Paşa iri, kündə ovcunu üzünə çəkib qənşərində oturmuş Qulubəyə sual dolu nəzərlə baxdı:

— Deyirsən şəhərdə də, dünyada da sakitlikdi, hə?

— Eyzən sakitlikdi, ustad. Sən yaxşı bilirsən ki, mən, sənin əziz dostun və qonşun bütün mejdunarodnı hadisələrin sentrin-

dəyəm. Ne ujeli, sən elə düşünə bilərsən ki, mən bir xoruz səsi eşitməmiş təzə xəbər eşidəm və sənə çatdırmayam. Ni za çto.

— Hə. İnanıram, Qulu. — Divanda təzədən qurcuxub qollarını qoynunda çarpazlamışdı Paşa. — Onda icazə ver, mən sənin barəndə şübhələnim. Denən niyə? Ona görə ki, bu böyük və əzəmətli şəhərin yarısı, yox, yarısı yox, bəlkə yarısından çoxu uçub, sənin xəbərin yoxdu və sən bu dünyaya avam gəlib, avam da gedəcəksən. Yox, sözümü kəsmə. Qulas as, Qulu. Yeri gəlmişkən bunu da deyim: mən səni neçə ildi tanıyıram?

— Çoxdan…

— İyirmi beş il olar?

— Bir az çox olar, ustad.

— Atan oldu rəhmətlik. Bu iyirmi beş ildən də çox müddətdə mən sənə heç Qulubəy demişəm? Yox. Denən niyə?

— Niyə, ustad?

— Mən sənin ustadın-zadın deyiləm, bilirsən? Mən səndən bərk incimişəm, Qulu. Hə, onu deyirdim axı, sənə heç vaxt Qulubəy deməmişəm, həmişə Qulu demişəm. Mən bilmirəm sənin rəhmətlik atan-anan sənə Qulubəy adı verəndə nə fikirləşib? Bəlkə sənin bəy, ya heç olmasa, bədxislət olacağına haradasa bir ümid bəsləyib? Amma səhv eləyiblər. Sən bəy deyilsən, sən hətta Qulu da deyilsən. Sən qulsan, Qulu.

Qulubəyin rəngi ağardı. «Vay dədə, vay. Evim yıxıldı. Bilib.» — deyə ürəyindən keçirdi, qorxusundan ağzını açıb bir söz belə deyə bilmədi, Paşanın qaralmış sifətinə və irilib hədəqəsindən çıxmış gözlərinə lal-dinməz baxaraq daha nə söyləyəcəyini gözlədi, özünü müdafiə üçün yollar-çarələr axtarmağa başladı. Paşa isə davam etdi:

— Ə, ay sənin allah evini tiksin, söz-sözə gələndə ağzına çullu dovşan sığışmır ki, mən səni belə istəyirəm. Bə hanı? İki gündü burda ölürəm, heç demirsən ki, bu kişi hardadı, harda ölüb itib? Belə də dostluq, qonşuluq olar? — Paşa bu sözləri yana-yana deyirdi və Qulu da onun özünün yandırdığı ocaqda Paşanın necə cızdağı çıxa-çıxa yandığını görür, hərdən ləzzət

alırdı, hərdən də yazığı gəlirdi. «Demək sən də oynayırmışsan bayaqdan, kişi. Sən də məni demə çəkirmişsən. Artist. Elə bilirsən artistliyi tək sən bacarırsan? Kişiydin, qəlbin, zatın pak idi, elə bayaq mən gələn kimi deyəydin də mənim başıma bu oyun gəlib. Niyə demirdin bəs? Yoxlamaq istəyirdin məni ki, görəsən mən sənin işdən çıxarılmağına sevinirəm ya kədərlənirəm? Avamsan, Paşa. Sən bilmirsən ki, bu həyat hər kəsi öz qabiliyyətinə görə artist eləyib?»

— Vallah, Paşa bəy, mən elə bilmişəm bağdasan. Yoxsa… Yerin məlum, srağa gün Salyandan yaxşı ağ balıq gətirmişdilər, kababını çəkmişdim — yerin məlum. Bir-iki dəfə də zəngini basdım, telefon elədim, balkondan baxdım, gördüm işığın yanmır… — Bu at üstü uydurduğu yalandan özünün də xoşu gəldi, çünki Salyandan ona balıq-zad gətirən olmamışdı və bunu da yaxşı bilirdi ki, Paşa Nigarla danışmır, ona görə də onun yalanını tuta bilməyəcək Paşa. Balıq sevən idi, balıq sözünü eşidən kimi, az qala üç günün acı olan o, udqundu, ağzı sulandı, ancaq yenə özünü o yerə qoymadı, tüpürcəyini udub:

— Elə o gün, sən burda ağ balıq kababı yeyəndə, qardaşının da — o, özünü nəzərdə tuturdu. — ətini balıq əti kimi şişə çəkirdilər, Qulu. — Bu sözləri o, ucadan söylədi. — Hə, hə, toçnı, elə eləcə. Şişə çəkirdilər.

— Ay aman, sən nə danışırsan, kişi? — deyə Qulubəy Paşanın yavaş-yavaş mətləb üstünə gəldiyini bilsə də, özünü tox tutub təəccüb ifadə eləyən baxışlarını ona zillədi. — Kim çəkirdi? Harda çəkirdi? Yəni varmı elə bir qüdrətli əl ki, səni — bütün dünyada məşhur olan bir adamı…

— Mən də elə bilirdim yoxdu, Qulu. Amma… sən demə, varmış.

— Vallah, bilməmişəm. Yoxsa sən mənim ürəyimi bilirsən, Paşa bəy.

— İnanıram, Qulu. Sən mənim bu yer üzündə inandığım, yox, inandığım düz çıxmır, ən çox inandığım adamsan.Bilirsən də ki, mənim səndən gizlin bir sirrim yoxdu. — O, bu sözləri

deyəndə ürəyindən keçirtdi: «Yalançının atasına lənət. Əgər mənə inansaydın, Xallı ilə olan macəranı, onu bağa apardığını danışardın. Amma gizlədin, məni dağa-daşa saldın. — İndi qulaq as, gör sən burda balıq kababı yeyəndə, sənin əzizinin ətini necə kabab eləyib dişlərinə çəkirdilər o əclaflar.

— Hansı əclaflar axı?

Yalnız Qulubəyin bu sualından sonra Paşa srağagün başına gələn qəzavü-qədəri Qulubəyə yerli-yataqlı danışdı. Nüfuzlu adamın nə dediyini, özünün o sözləri eşidəndə nə hala düşdüyünü, müavinə necə imdad diləyilə baxdığını, onun necə çiyinlərini çəkib üzünü yana çevirdiyini, bir sözlə, hər şeyi, hər şeyi söylədi və bütün bunları danışarkən sözün həqiqi mənasında gözləri yaşardı. Bunu görən Qulubəy əlini cibinə atıb təmiz bir dəsmal çıxardaraq gözlərinin üstünə basdı və ağlar səslə söylədi:

— Əclaflar. Gəl indi bundan sonra bu torpağa xidmət elə, bu millətə can yandır. Qədirbilməzlər dövrünə düşdük, kişi. Vicdansızlar əyyamına tuş olduq, Paşa. Yox, mənim bu gecə bağrım çatlar, inan. Bütün ömrünü qoymusan bu yolda. Budu sənin qiymətin? İndiyəcən sənə demirdim, amma o tək oğlumun ölmüşünə, bütün dostların yanında deyirdim ki, sənə indi ən azı Sosialist Əməyi Qəhrəmanı adı verməlidilər. Mən hələ ən azı deyirəm ha. Ancaq gör bunlar neylədilər? Pay, sənin…

Çox danışdılar. Deyirlər: «Mal bir yerə gedər, güman min yerə». Paşaya vurulan bu zərbənin hardan, kim tərəfindən vurulduğunu ikisi də o ki, var, axtardılar, lakin axırını bir yerə çıxarda bilmədilər. Qulubəy yanındaydı, Paşa düz istiqamət tutunca, böyük bir məharətlə ağzından vurub o yana, tamam başqa bir səmtə yönəldirdi və Paşa da ona inanıb o göstərən tərəfə gedirdi və beləliklə, izi itirirdi. Paşa çırpınırdı, yanıb-yaxılırdı, az qala ağlayırdı. Qulubəy isə bu ürək yaxan mənzərəni görüb bilmirdi sevinsin, ya kədərlənsin.

— Orda çay dəmləmişəm, Qulu. Adama bir stəkan tök gətir. Dodaqlarım lap quruyub. — deyə Paşa əli ilə mətbəxə tərəf işarə elədi və Qulubəy o dəqiqə qalxıb yolunu-rizini yaxşı tanıdığı mətbəxə sarı getdi. Bir az keçməmiş əlində iki armudu

stəkan çay geri qayıtdı, jurnal stolunu kresloların arasından çəkib Paşanın qabağına — eynən aspirant vaxtlarında olduğu kimi qoyaraq həqiqətən qul kimi əllərini ovuşdurdu və birdən nə fikirləşdisə, qamətini düzəldib professorun yazı stolunun arxasındakı — bayaqdan oturduğu stulda əyləşdi. Ac idi, aclığa qətiyyən davamı yox idi, ürəyindən keçirirdi ki, gedib evdən yemək-içmək gətirsin, Paşa ilə yeyib-içsin. Ancaq Nigarı gözünün qabağına gətirib bu fikirdən vaz keçdi. Çay soyumuşdu. Hər ikisi fikir içindəydi. Qulubəy özünü dağıdırdı. «Ax», «Uf» eləməkdən Paşa yazıq özü az qala bezmişdi. Qulubəy sir-sifətinə çox kədərli bir görkəm verərək bir az qabaq Paşanın o nüfuzlu adam barədə danışarkən: «Axı mən ona neynəmişəm?» — deyə həm özündən, həm də Qulubəydən soruşduğu suala cavab verirmiş kimi, təmkinlə söylədi:

— Bu çox ağır müsibətdi. Buna heç şübhən olmasın. Ancaq mən fikirləşirəm ki, o, niyə belə eləsin? Bax, əsas məsələ bundadı, Paşa bəy. Sən bayaqdan danışırsan, mən də qulaq asıram, beynimdə götür-qoy eləyirəm ki, o, niyə belə eləsin axı? Sən özün də dedin, mən özüm də yaxşı bilirəm ki, bu, elə belə olan iş deyil. Sən son dərəcə nüfuzlu adamsan, hamıya hörmət və yaxşılıq eləyənsən. Ona görə mən inanmıram ki, kimsə sənin gedib çuğulluğunu eləsin o kişiyə. Bu atpadayet. Mənim ürəyimə ayrı şey gəlir, ustad.

— Nə, Qulu? — deyə bir ilişəcək axtaran və ondan son intiqamını almaq eşqi ilə yaşayan Paşa tələsik xəbər aldı.

— Məncə, məsələnin kökü ayrı yerdədi, ustad.

— Hə? Hardadı?

— Məncə… elə sənin özündədi.

— Ba? Sən nə danışırsan, Qulu? Yəni deyirsən mən elə axmaq adamam ki, baltanı özüm öz əlimlə öz ayağıma çırpım?

— Yox. Əstəğfürullah. Mən elə demirəm. Mən demək istəyirəm ki, zaval sənin özündən gəlib, kişi.

— Necə yəni?

— Sən bir yaxşı-yaxşı fikirləş, gör harda neyləmisən?

— Ba? Bütün ömrüm boyu? Sən nə danışırsan, Qulu?

— Yox ey. Burda söhbət kimdən gedir? O kişidən getmir?

— Hə.

— Hə, bax gör, ona neyləmisən?

— Ba? Ə, sən nə danışırsan? Ə, ay Qulu, mən o — o boyda adama neyləyə bilərəm axı?

— Mən demirəm ha, hökmən özünə bir şey eləməlisən? Ola bilər qohumu olsun, əqrəbası olsun.

— Əstəğfürullah. Sən bilirsən ki, mən suyu üfürə-üfürə içən adamam. Sən niyə belə danışırsan?

— Ay Paşa kişi, mən səni beş barmağım kimi tanıyıram ey. Söhbət məndən getmir. Söhbət ondan gedir ki, sən o kişiyə neyləmisən?

— Ba? Mən? Heç nə.

— Bəlkə…?

— Bəlkə nə?

— Bəlkə… Nə bilim ey, vallah. Mal bir yerə gedir, iman min yerə.

Qulubəy ləzzət alırdı Paşanın danışığından. Çünki şübhə, kölgə onun öz üstündən sovuşub keçmişdi və Paşa elə-belə danışırdı: bu söhbətin altında Qulubəyin adının olmadığını və Paşanın, baş həkimin, bu məşhur zöhrəvi xəstəliklər mütəxəssisinin bunu anlayıb tuta bilmədiyinin böyük sevinci var idi.

Birdən Paşa dedi:

— Mən acam. Gör evdə Nigar nə bişirib? Bir qismət çörək yemək istəyirəm, Qulu. Əgər qalıbsa, bir qırıq da balıq gətir.

— …

DÖRDÜNCÜ FƏSİL

Qulubəy Paşanı — üç gün dilinə sudan, çaydan başqa bir şey dəyməmiş, ürəyi sıyrılan, öz ağır və çəkilməz dərdi ilə dörd divar arasında tək-tənha çırpınan «əziz və mehriban» qonşusu-

nu şirin dilə tutaraq, təsəlli verə-verə yedirib-içirib, üstündən də ürək dərmanı verib yatağına salaraq mənzilinə qayıdanda artıq gecə yarıdan keçmişdi. Çöl, dəmir qapını özü bayaq, yemək-içmək aparanda açıq qoymuşdu; bunu Nigarı yuxudan oyatmamaq üçün belə eləmişdi. Ancaq içəri girəndə onun yatmadığını görüb təəccübləndi. Adətən saat on birdən o yana qalmayan Nigar indi, yumşaq kresloda əyləşib qollarını da sinəsində çarpazlayıb televizora tamaşa eləyirdi. Kino idimi, tamaşaydımı — bilmədi, amma Nigar ekranın qabağında bitib qalmışdı və deyəsən heç ərinin gəlməsindən də xəbəri yox idi. Qabqaşığı aparıb mətbəxə qoydu, bir siqaret yandırdı, balaca mətbəx stulunu çəkib oturdu və iki-üç saatdan bəri Paşanın evində gördüklərini, eşitdiklərini təzədən beynində canlandırıb safçürük eləməyə başladı. Paşa sınmışdı, Paşa demək olar ki, məhv edilmişdi — buna Qulubəyin şəkk-şübhəsi yox idi artıq. Və ona hər şeydən artıq bu təsir eləmişdi ki, Paşa uzun müddət — ən azı iki saat Qulubəyin qabağında özünü şax tutmağa çalışmışdı, sındırmaq istəməmişdi. Lakin Qulubəyin mehribanlığını, qayğıkeşliyini, ürəyiyananlığını görüb (Yazıq.) nəhayət açılmışdı, dərdini dilinə gətirmişdi, hətta Qulubəy onun gözlərinin yaşardığını da görmüşdü. Sən demə onu, bu balacaboy, arıq adamı, əzəmətli,böyük, zəhmli, qorxulu eləyən vəzifəsi imiş. Vəzifə, möhür, maşın, kabinet adamı əlçatmaz eləyirmiş, sən demə. Yoxsa Paşa nəydi ki? Arıq, cılız, sənin, mənim tayın olan adicə bir adam idi Paşa.

Qulubəyin ürəyi doluydu, gördüklərini, eşitdiklərini kiməsə danışmaq, kiminləsə bölüşmək istəyirdi, ancaq elə bir adamı yox idi, hətta ürək qızdırdığı elə bir dostu da yox idi ki, gec olmağına baxmayaraq, gecə yarıdan keçdiyinin fərqinə varmayaraq, zəng eləyəydi, çağıraydı, ya özü yanına gedəydi, bu sensasiyaya bənzəyən xəbəri ona danışaydı, fikir və mülahizələrini deyəydi, ondan bir söz eşidəydi. Yox idi belə bir adamı və hərdən bu barədə düşünəndə özünü dünyanın ən bədbəxt adamı sayıb yanıb-yaxılırdı. Belə hallarda hərləyib-fırlayıb günahı öz üstünə gətirirdi, ancaq o dəqiqə də bunun üçün səbəb

axtarıb tapırdı: «Yox, məndə deyil günah, qardaş; günah zəmanədədi. Çünki indi elə bir zamandı ki, heç kəsə, hətta dost-doğma qardaşına da inana bilmirsən. İnanırsan, ürəyini, sirrini açırsan, bir də görürsən səhər bütün şəhər sənin sirrindən söhbət açıb lağ-lağı eləyə-eləyə bir-birinə danışır. Elə biri mən özüm. Budu yazıq Paşa dərdini açdı mənə, indi mən də adam axtarıram ona danışam. Amma gərək bu, belə olmasın axı». Siqaret tüstüsünü udduqca fikri bir az da dərinlərə gedirdi: «Sən, Qulubəy Qulubəyov, çox pis iş tutdun. O sənə neynəmişdi? Əgər bir pislik eləsəydi, deyərdim hə, haqlısan. Amma axı Paşa səni həmişə qoruyub, irəli çəkib, çörək verib. Axı gərək sən bütün ömrün boyu o kişinin qulu olaydın və yadındamı, bir dəfə də yox, neçə dəfə buna kişi kimi and içmişdin yanında da, ürəyində də? Nə tez unutdun və ən başlıcası niyə unutdun, Qulu?» İçindən gəlib onu bu balaca mətbəxdə ittiham eləyən o səsə tutarlı bir cavab tapa bilməyib təslim olurdu: «Düz deyirsən. Elə mən də sənə bunu deyirdim. Mən qəti inanmışam ki, insanın özü kimi alçaq və şərəfsiz bir varlıq yoxdu yer üzündə. Elə Paşa da alçaq və şərəfsizdi, mən də. Sənin müdafiə elədiyin, qahmar çıxmaq istədiyin Paşa elə bilirsən çox təmiz adamdı? Neçə adamın qanı var onun boynunda. Görünür, yer üzündəmi, göylərdəmi, bilmirəm, hardadı, elə bir qüvvə-qüdrət var ki, hər şeyi tənzimləyir, nizama salır və heç nəyi cavabsız buraxmır: yaxşı əməli mükafatsız qoymur, pis əməli də cəzasız. Elə bil o hansı qüdrətdisə, çox ağılnan-idraknan tərpənib Paşanın cəzasını mənim əlimlə verdirir. Yəqin mənim də cəzamı bir başqası verəcək. Buna mənim heç şübhəm yoxdu».

Yox, Qulubəyin ürəyi doluydu, o, mütləq danışmaq istəyirdi. Bəlkə Nigar? Nigarla onun arasındakı körpü çoxdan uçmuşdu: bu körpünü, insaf naminə demək lazımdı ki, Nigar özü uçurmuşdu və o, çayın bu tayında qalmışdı, Qulubəy o biri tayında. Bir damın altında yaşayıb bunca da bir-birinə yad və biganə olmaq özü çox böyük, açılıb-ağardılması mümkün olmayan dərd deyildimi? Qulubəy bu ağrı-acısını ancaq hərdən-birdən Paşaya danışırdı, vəssalam. Çünki Paşa Nigarla Qulu-

bəyin macərasından xəbərdar idi, daha doğrusu, bu faciənin əsas iştirakçılarından biri, bəlkə də əsil səbəbkarı idi. Qulubəy yaxşı bilirdi ki, Nigar bunu çox yaxşı bilir, açıb-ağartmasa da, dilinə heç vaxt gətirməsə də, qəlbində Paşaya dərin bir nifrəti var. Bunu sözsüz də Paşa özü də, Qulubəy də başa düşürdü. Və əri bunu da sövqi-təbiisi ilə duymuşdu ki, əgər haçansa, bir gün Nigar Paşanın zəlilliyi xəbərini, yaxud ölüm sorağını eşitsə, çox sevinər, həmişə qəmli-tutqun olan üzü gülər və illər boyu ürəyində gəzdirdiyi, ancaq qorxusundanmı, zəifliyindənmi (Qadın idi, neyləyə bilərdi?) üzə çıxara bilmədiyi o nifrət-nifrin buzu əriyib gedər. İndi budu, o gün gəlib: Paşa zəlildi, vəzifədən çıxarıblar, partiya biletini əlindən alıblar, özü də bu gün-sabah dözməyib çartlayacaq. Bu, Nigar üçün bəs deyil? Bayram eləyə bilər hətta Nigar. Qulubəy Nigarı çox istəyirdi, demək olar ki, dəlicəsinə sevirdi və buna görə də onun hər şıltağına-nazına dözürdü, susurdu. Çünki Nigar ruhən və qəlbən gözəllik aşiqi olan Qulubəyin ürəyini öz ürəyəyatan zərifliyi ilə, sözlə ifadə oluna bilməyən gözəlliyi ilə əsir eləmişdi. Nigar öz sir-sifəti, baxışları, oturuşu-duruşu ilə hardasa Xallıya çox oxşayırdı və hərdən Quluya elə gəlirdi ki, onlar bir ata-ananın övladlarıdı, nə olubsa, necə olubsa, bunlar ayrı düşüblər. Hər cəhətdən oxşardılar, təkcə xasiyyətcə, əxlaqca aralarında yerlə göy qədər təfavüt var idi. Xallı nə qədər açıq-saçıq, deyən-gülən, «Dünyada beş gün qonağam, bir də nə atam məni əkəndi, nə də anam məni doğandı. Ona görə ürəyim necə istəyir, elə də yaşayacağam, heç kəsə dəxli yoxdu» — deyə düşünən bir qadın idisə, Nigar tamam-kamal onun əksi idi. Ağır-səngin, öz ləyaqətini və qiymətini bilən, oturuşuna-duruşuna fikir verən, şit danışanlardan zəndeyi-zəhləsi gedən, evlərinə gələn kişi qonaq-qarasının yanında, xüsusən Qulubəyin tez-tez təşkil etməyi xoşladığı içki məclislərində ismət pərdəsinə bürünüb əl çatmazlıq zirvəsində dayanan bir qadın idi Nigar. Qulubəy də bunu yaxşı bilirdi və ona olan məhəbbəti bu səbəbdən də xeyli artırdı. Qulubəyin ən gizli (Bunu hətta Paşaya da deyə bilmirdi, eləcə içində yana-yana qovrulub qalırdı) dərdi buydu ki, Nigar

— o gözəl, o sevimli məxluq onu sevmirdi, sevə bilmirdi, ər deyib qəbul elədiyi adamı öz ilıq, incə qoxulu qadın məhəbbətiylə, nəvazişiylə əzizləyib oxşaya bilmirdi. Qulubəyin pulu da onun idi, ürəyi də. Korluq nə olduğunu bilməmişdi Nigar bu evə gələndən sonra. Ehtiyacın boz və sərt üzünü çox görmüş gəlin indi nə paltar, nə bər-bəzək, qızıl-mirvari, nə də yemək-içmək sarıdan heç bir korluq çəkməmişdi. Qazanan idi, gətirən idi və Nigar heç maraqlanmırdı da ki, hardan, necə qazanır Qulubəy. Heç işi-gücüylə də maraqlanmırdı. Qulubəy onun üçün yaşayırdı, o isə… Qulubəy üçün yaşamırdı, yaşaya bilmirdi: ürəyiylə bacara bilmirdi Nigar. Gözəl bədəni, zərif gözəlliyi ərinin ixtiyarında idi: o, bu zəriflikdən, bu gözəllikdən istədiyi vaxt, arzuladığı vaxt ləzzət almaq imkanına malik idi, Nigar buna etiraz eləmirdi. Ancaq o təmasın, o mənəvi qaynayıb-qarışmanın o biri tərəfi də — qılıq, xoş söz demək, əzizləmək, naz eləmək, ərklə incidib-incidib sonra könül almaq, bağrına basıb öpüb-oxşamaq tərəfi də var idi ki, Qulubəy bunlardan məhrum idi. Nigar özü də yaxşı başa düşürdü ki, ər-arvadlıq belə olmur, heç olmasa belə olmamalıdı. Bilirdi. Lakin heç nə eləyə bilmirdi özüylə. Hərdən yazığı da gəlirdi ona bir kişi kimi. Bu, cəza idi, özü də böyük cəza idi. Və Nigara elə gəlirdi ki, Qulubəyin dünyada qismətinə yazılmış, haçansa, hardasa öz əməllərinə görə qabağına çıxacaq cəzalarının ən böyüyü elə budu ki, çəkir. Nigar hissiyyatlı, həssas qadın olduğu üçün bunu da başa düşürdü ki, bu, onun özü üçün də mənəvi-ruhi bir cəzadı və o, qəribə bir soyuqqanlılıqla ərini də, özünü də bu dillə deyiləsi mümkün olmayan cəzaya layiq bilirdi. Quluya başqasının səadətinə, sevincinə, yatağına namərdcəsinə göz dikdiyinə və onu demək olar ki, yarı sırtıqlıq, yarı zor, yarı pul — vardövlət gücünə ələ gətirdiyinə görə, özünə isə… çox sevdiyinə və bu böyük məhəbbət üzündən qısqandığına, namərd sözünə inanıb o çılğın sevgiylə yaşayan, Nigarı allah sanan, gecə-gündüz büt kimi qarşısında dizlərini yerə qoyaraq ona dua və pərəstiş etməyi belə özünə səadət bilən bir ürəyin qədrini bilmədiyinə görə… layiq bilirdi. Qadınıydı, anlayırdı ki, özünün

də ömrü, gözəlliyi, hissləri, ürəyi heç olub gedir və buna baxmayaraq, o, necə deyərlər, bu ağır cəzanı könüllü surətdə özünə verməyə razı idi, hətta bundan hardasa xoşhal da olurdu bəzən ki, Turxanın özününmü, ruhununmu qarşısında (çünki Turxanın öldüsündən, qaldısından xəbərsiz idi) heç olmasa günahlarının bir qismini yuyur. Əlbəttə, Turxan ölmüş olsaydı, heç sağ olsaydı belə, bundan xəbər tutmayacaqdı, çünki o, allah deyildi ki, bu açılıb-bükülməyən cəzanı deyilməmiş, eşitməmiş biləydi, göydənmi, pəncərədənmi baxıb görəydi. Bu barədə nə Qulubəy (İşdi, möcüzə olsaydı və Turxana rast gəlsəydi.) bir söz deyən idi, nə də Nigar özü.

Nigar bu axmaq səhvi üzündən qızıl qəfəsə salınmış quş kimi yaşayırdı. Bu qəfəs həqiqətən qızıldan idi, ona vaxtlı-vaxtında dən-su verən intizarla o qəfəsin qabağında dayanıb bu qədər qayğının, canıyananlığın müqabilində rəhmə gələrək heç olmasa bir dəfə, tək bircə dəfə könül açan bir nəğmə eşidəcəyini gözləyən adam var idi. Lakin o gözəl, tavus kimi yaraşıqlı quş ağzına su alıb susurdu və deyəsən heç vaxt da oxumayacaqdı. Qulubəy illər idi gözləyirdi, Nigar isə illər idi inadla öz mahnısını-nəğməsini ürəyinin dərinliklərində dustaq eləyib dinmirdi.

Nigar çox da böyük, qollu-budaqlı, şax-şəvəli olmayan təmiz, yaxşı, məhəllə adamlarının hamısının dərin hörmət bəslədiyi, ölənlərinin adı çəkiləndə: «Allah rəhmət eləsin, gözəl insan idi», qalanlarının sözü ortalığa gələndə: «Allah dadına çatsın, ömrünü uzun eləsin» — deyilən bir nəslin, çox təəssüf ki, axırıncı nümayəndəsi idi və bu barədə düşünəndə qəlbi sıxılır, dəli olmaq dərəcəsinə gəlirdi. Amma neyləyə bilərdi? Taleyin yazdığını göz yaşıyla silmək mümkünmü idi? Ona görə Nigar alın yazısı deyilən o dəhşətli hökmlə barışıb oturmuşdu. Çünki ayrı çarəsi yox idi Nigarın. Nəslin yaşaması, ölməməsi üçün övlad — gələcəyə, yüz illərə, min illərə uzanıb gedən bir yoldu. Özünün övladı yox idi, olmamışdı, təbiblərin dediyinə görə, olmayacaqdı da. Deməli, Qasımxanlılar nəslinin son nümayəndəsi olan Nigar, qızlıq familini dəyişməsə də, quruyub

məhv olmağa məhkum olmuş bir ağacın son yarpağıydı və beş günmü, on günmü sonra zamanın rüzgarı onu qoparıb torpaq üstə salacaqdı və bununla da hər şey bitəcəkdi. Yaddaşlara, xatirələrə isə o qədər də ümidi, inamı yox idi.

Qasım kişinin ikicə övladı olmuşdu: biri oğlan idi, o biri qız. Oğlanın adı Səlim idi, qızın adı Nigar. Əminə ilə Qasım ələlə verərək bu iki uşağı böyütmüşdü. Səlim ucaboy, qəşəng, başı aşağı, tərbiyəli bir oğlan idi. Əlli üç nömrəli məktəbin uşaqları da, müəllimləri də onu çox istəyirdilər, məhəllədə başına and içirdilər, Qasım da, Əminə də Səlimin adı ilə, oxuması və əxlaqı ilə fəxr edirdilər bir valideyn kimi. Ondan üç yaş kiçik olan Nigar da öz «qaqaşı» ilə öyünürdü. Onuncu sinifdə oxuyanda qızların bir neçəsi Səlimə vurulmuşdu, çünki Səlim həqiqətən lap qız kimi qəşəng idi və bunu onlardan bir neçəsi Səlimin bacısı Nigara açıq-açığına demişdi. «Sən də çox qəşəngsən, Nigar. Sən qızsan, bu o qədər də təəccüblü deyil. Ancaq oğlan belə qəşəng olsun — bu, nadir şeydi».

Vaxt dolanmışdı, Səlim on illiyi bitirmişdi, atası dənizdən qayıdanda (neftçi idi Qasım kişi, dəniz neft kəşfiyyat idarəsində kəşfiyyat briqadasında işləyirdi, ayın on beş gününü dənizdə qalırdı, on beş gününü evdə olardı) ailəliklə yığışıb çay süfrəsi arxasında otururaq belə qərara gəlmişdilər ki, Səlim həkim olsun. İnsafən elə Səlimin də lap əvvəldən meyli həkimliyə idi, bunu atası da, anası da, hətta Nigar da çoxdan bilirdi. Buna baxmayaraq Qasım kişi öz səliqəsinə, adətinə uyğun olaraq bu məsələni ailə yığıncağında əsaslı şəkildə dağ eləmişdi. Ağıllı və tədbirli bir kişi olan Qasım çox yaxşı bilirdi ki, onun belə eləməsi Səlimin məsuliyyətini qat-qat artırar. Digər tərəfdən də, Qasım kişi ailədə gözünü açıb belə görmüşdü, rəhmətlik atasının: «Məsləhətli don gen olar» — sözlərini sırğa eləyib qulaqlarından asmışdı və istəyirdi ki, övladları da bu yolnan getsin. Qasım özü də, müəllimləri də, elə Səlim də qəti əmin idilər ki, o, qəbul imtahanlarını uğurla verəcək və sentyabrda birinci kurs tələbəsi kimi gedib auditoriyada əyləşəcək. Qasımın maaşı pis deyildi, ayda üç yüz əlli manat nəqd pul gətirirdi

evə. Əminə işləmirdi, evdar qadın idi, uşaqların yeməyini, içməyini, ev işlərini ancaq çatdırırdı. Bazar-dükan onun boynunaydı, adi, ucuzlu, kasıbyana bazarlıq eləyərdi, ailənin gündəlik yemək-içməyini qaydasınca, öz ürəyincə hazırlayıb səliqəli süfrə açmağı vardı Əminə arvadın və bir qadın kimi bunda böyük bir sevinc tapırdı. Qasımın hərdən qonağı-qarası gələndə süfrəsində hər şey olardı və bu, Qasıma xüsusi ləzzət eləyərdi. Əyin-başları da həmişə təzə olmasa da, həmişə təmiz və səliqəliydi. Köhnə, qədim həyətdə balaca-balaca dörd otağı vardı Qasım kişinin və o otaqlardan birini Səlimə vermişdi, birini Nigara və ikisində özləri yaşayırdı. Oğlan onuncunu bitirmək ərəfəsində olanda Qasım ölçüb-biçib görmüşdü ki, əgər Səlim instituta girsə, o, gərək yaxşı geyinsin, üstü-başı təzələnsin və tələbə yoldaşlarının yanında sınıb xəcalət çəkməsin: bunun üçün isə pul lazım idi və pullarının hamısı yeməyə, ailənin gündəlik ehtiyaclarına xərcləndiyindən, kişinin yamangünlük bir qəpiyi də yox idi. Elə bu zaman, Qasım kişi «neynim, necə eləyim» — deyə-deyə çırpındığı vaxt, həyətinin qapısı döyülmüşdü və ağ, qısaqol köynək geymiş orta boylu, sağlam, gözlərində kənd uşaqlarına məxsus bir məhcubluq olan bir oğlan çox da böyük olmayan, divarın dibindəki su kranının böyründə basdırılmış yeganə meynənin qol-budaq ataraq gen yarpaqları ilə örtüb kölgələndirdiyi həyətə girmişdi və küncdə qoyulmuş stolun arxasında əyləşib armudu stəkanda çay içən, yanındakı xurmayı saçlı qızla nə isə danışıb-gülən kişiyə salam verib duruxmuşdu.

Qasım kişi oğlanın nabələd olduğunu və nə təmənna ilə bu qapıya üz tutduğunu başa düşərək özünəməxsus ədəb-ərkanla:

— Əleyküməssalam. — demişdi. — Buyur, ay oğul. Kimi istiyirsən?

— Bilirsiz, dayı. — deyə oğlan əllərini ovuşdura-ovuşdura, çəkinərək dillənmişdi: — Mən tələbəyəm. Dedim bəlkə kirayə otağınız oldu.

Qasım kişi oğlana cavab verməmiş çönüb böyründəki xurmayı saçlı qıza baxmışdı və qız bircə anda kölgə kimi harasa çəkilib yox olmuşdu və bu, elə sürətlə baş vermişdi ki, oğlan nə onun gözünün rəngini, nə sifətini yadında saxlaya bilmişdi. Bircə yadında qızın xurmayı saçları qalmışdı. Qasım kişi oğlanın geyim-keçiminə, köhnəlib burnunu kol-kos aparmış ayaqqabısına, əzik-üzük, çoxdan ütü görməmiş və dizləri torbalanmış şalvarına baxmış və üzündə göz saxlamışdı. Oğlanın gözləri qap-qaraydı, elə bil dünyanın kədərini yığıb doldurmuşdun o gözlərə və Qasım kişi o dəqiqə başa düşmüşdü ki, bu oğlan yetimdi, çünki ancaq yetimlərin gözündə elə kədər ola bilərdi.

— Harda oxuyursan, a bala? — deyə xəbər almışdı və cavab gözləmədən onu öz yanına, boş kətilə dəvət eləmişdi:

— Əvvəl gəl otur, bir stəkan çay iç, sonra suallarıma cavab verərsən.

— Sağ olun, dayı.

— Gəl, gəl. Sağam də. Biz hər şeydən əvvəl azərbaycanlıyıq, oğul. Bizim adətimiz var. Utanma, gəl otur. — Sonra üzünü yan-yana açılan qapılardan hansınasa tutaraq:

— Ay qız, Nigar, bura bir stəkan çay gətir — demişdi və oğlan çəkinə-çəkinə gəlib kətilin üstə oturan vaxtı o xurmayı saçlı qız da boz çəkələklərini sürüyə-sürüyə çay gətirib oğlanın qabağına qoymuş və yenə kölgə kimi çəkilib getmişdi.

— Hə, deyirsən tələbəsən, hə?

— Bəli, dayı.

— Harda oxuyursan?

— Keçən il girmişəm Universitetə. Birinci kursu qurtarmışam, indi ikidəyəm.

— Bərəkallah, bərəkallah. Hansı fakültədəsən?

— Biologiyadayam.

— Hm. Yaxşı sənət seçmisən, oğul. Mən də vaxtilə Sənaye institutunu bitirmişəm. Geoloqam. Bioloq, geoloq. Hardasa gözəl səsləşir və biz bir-birimizi başa düşərik. Bəs indiyəcən

harda qalırdın, oğul? Bağışla, biz heç tanış olmadıq. Mənim adım Qasımdı. Bəs sənin adın?

— Turxandı adım, dayı.

— Ha. Turxan. Yaxçı addı. Görünür atan-anan oxumuş adam olublar.

— Düz deyirsiz, Qasım dayı. Atam da, anam da müəllim olublar. Muğanda müəllim işləyiblər.

— İndi işləmirlər?

— Yox, Allahın rəhmətinə gediblər, Qasım dayı.

— Allah rəhmət eləsin.

— Ölənlərin behiştlik olsun.

Bu söz yaman xoşuna gəlmişdi Qasım kişinin və təzəcə tanış olduğu Turxanın qabiliyyəti, şəhərdə çox qocaların bilmədiyi, işlətmədiyi sözləri dilinə gətirməsi onu valeh eləmişdi, çayı Turxanın qənşərinə itələyərək:

— İç, a bala. Soyutma. — söyləmişdi. — Bəs indi kim oxudur səni, ay oğul?

— Özüm, Qasım dayı. Əlaçılıq stependiyası alıram. Lenin stependiyası.

— Bərəkallah, bərəkallah. Bəs keçən il harda qalırdın? Yataqxanada?

— Yox, Qasım dayı. Yataqxanada yer vermədilər. Kirayə qalırdım. Xozyaykam oğlunu evləndirdi, mən çıxmağa məcbur oldum.

— Hm. Görürəm yaxşı oğlansan. Mən indiyəcən kirayənişin saxlamamışam. Amma bu il mənim də oğlum instituta girir. İstiyirəm… — Xırdalamaq istəməyib sözünü yarımçıq kəsmişdi: — Mən sənə «hə», «yox»unu sabah deyərəm. Nədən ki, məsləhətləşməliyəm, bala. Arvad-uşaqnan məsləhətləşməliyəm. Sabah elə bu vədə gələrsən. Yaxşı?

— Yaxşı, Qasım dayı. Hökmən gələrəm.

— Elə kitab-dəftərini də götürərsən. Çünki bilirəm mənim arvad-uşağım mənim bir sözümü yerə salan deyil. Elə hesab elə ki, sənin işin düzəlib, bala. Bax, bu qıraq otağı sənə ve-

rəcəyəm. İstəyirsən bax da. Pis otaq deyil. Qızın otağıydı. O, bizim otaqda qalar.

— Çox sağ olun, Qasım dayı. Allah ömrünü uzun eləsin. Nəyinə baxıram. Tələbə babaya nə lazımdı? Bir yatacaq yeri oldu, bir stolu, bir stulu oldu, bəsimdi. Mən sabah gələrəm.

Turxan ayağa qalxmışdı. Qasım kişi onun çaya əl vurmadığını görüb:

— Bə çayını içmədin, a bala? Sən mənim xətrimə dəyirsən. — demişdi. Və Turxan bu sözdən keçə bilməyib artıq soyumuş çayı içmiş və:

— Çox sağ olun, Qasım dayı. — deyərək çıxıb getmişdi. Səhəri gün, vədələşdiyi vaxt, Turxan zolaq-zolaq çamadanını da götürüb Qasım kişinin həyətinə gəlmiş və otaq kirayəsinin qiymətini — filanını danışmadan cəmisi bircə qoşa laylı pəncərəsi olan qıraq otaqda məskunlaşmışdı.

Sonra Turxan o ailə ilə qaynayıb-qarışmış, Səlimlə dost olmuş, imtahanlara şıdırığı hazırlaşan oğlana kimyadan, biologiyadan kömək eləmiş, avqust ayında ona qoşulub instituta getmiş və imtahandan çıxanacan orada Səlimi gözləmişdi. Birinci imtahandan — kimyadan beş almışdı Səlim.O gün sevinəsevinə gələn uşaqları Əminə bacı bağrına basıb üz-gözlərindən öpmüşdü. Ana Turxanı da öz oğlundan ayırmamışdı və Turxana elə gəlmişdi ki, öz doğma anasıdı onu öpən. Qasım kişinin isə sevincdən əli-ayağı yerə dəyməmişdi. Nigar da yamanca sevinmişdi. Ancaq bu sevincin ömrü uzun sürməmişdi: ikinci imtahanda Səlimi biologiyadan kəsmişdilər. Və… Səlim öz dəstəsindən üzülüb geri qalmışdı. Hamısı pərt idi: elə bilirdin ki, evdə kimsə ölüb. Uzun müddət heç kəsin, o cümlədən Səlimin də üzü gülməmişdi. Oktyabrda isə Səlimi əsgər aparmışdılar və həyət də, ev də sanki boşalmışdı. Qasım kişi oğlu gedəndən sonra qaradinməz olmuşdu, Əminə xala elə bil qocalmışdı, Nigar isə dərsdən gələndən sonra öz otağına qapılıb bayır-bacağa çıxmamışdı. Turxan sanki Səlimin kəsilməsində, əsgər getməsində günahkar imiş kimi çox sıxılıb fikir eləmişdi. Səlimdən düz bir ay məktub gəlməmişdi və ikinci ayın əvvəlində Qazaxı-

standan yazdığı kağızda yerinin rahat olduğundan, evdən, ata-anasından, bacısından yana bərk darıxdığını qeyd eləyib Turxana da xüsusi salam göndərmişdi. Yalnız o məktubdan sonra o balaca ailənin azca qırışığı açılmışdı.

Səlimin çağırış vərəqəsi aldığı o çiskinli payız günü ayrı bir şeyin də dərdini çəkib dərindən-dərinə fikrə getmişdi: bu da oğlu evdən nə az, nə çox, iki il müddətinə gedəcəyi təqdirdə Turxanın onların həyətində kirayənişin kimi qalması məsələsi idi. Qasım özü demək olar ki, ayın yarısını evdə olmurdu, arvadı, artıq böyüyüb qızlar bulağından su içmiş qızı bu kişisiz evdə, yad oğlunun yanında necə qalmalıydı və qonum-qonşu buna necə baxardı? Ancaq bütün o iki ayı — Turxanın onlara pənah gətirdiyi günləri gözünün qabağına gətirmişdi, o yad oğluna hər tərəfdən öyürüb-çöyürüb baxmışdı və insafən, onda elə bir nöqsan tapa bilməmişdi. Bu iki ay ərzində Turxan onlarla elə qaynayıb-qarışmışdı, yaxınlaşıb doğmalaşmışdı ki, kənardan baxan olsaydı, elə bilərdi ki, Turxan da bu ailənin bir üzvüdü. Çox başıaşağıydı, qız kimi utancaq idi, dindirsən dinərdi, dindirməsən yox. Səlim gedəndən sonra Əminə arvada da, Qasımın özünə də çox mehriban olmuşdu Turxan. Nigara da dərslərində, xüsusən kimyadan, biologiyadan, riyaziyyatdan elə anasının yanındaca kömək eləyirdi, qızın sinifdə qiymətləri yaxşılaşmışdı.

Çox götür-qoydan, ölçüb-biçməkdən sonra, axırı Qasım bu qərara gəlmişdi ki, Turxanın xətrinə dəyməsin, ilin bu vədəsində, şəhərdəki boş evlərin bəlkə də hamısı tutulan vaxtı uşağı isinişib-oturuşduğu yerdən didərgin salmasın: onun fikrincə Turxan pis uşaq deyildi, Səlimlə də o az müddətdə qaynayıb-qarışıb dostlaşmışdı, namərd, müxənnət adama da oxşamırdı. O biri tərəfdən də Qasım özü dənizdə olanda hər necə olsa, başı papaqlıydı evdə, həyətdə. Əminə də bu fikirlə razılaşmışdı:

— Ağıllı uşaqdı, kişi. Dəymə, qoy qalsın. Yetimdi, allaha-tanrıya xoş getməz, Qasım. Elə bilərik öz övladımızdı.

Günlər, həftələr, aylar keçdikcə Qasımla Turxan arasında çox munis bir münasibət yaranmağa başlamışdı. Kişi dənizdən dönən kimi arvaddan, qızdan hali olub Səlimdən məktub gəlib-

gəlmədiyini soruşandan sonra, mütləq Turxanı da xəbər alardı və oğlan, dərsdən qayıdanda isə mehriban-mehriban görüşüb bir yerdə ata-oğul kimi çay içib, o yandan, bu yandan söhbət eləyər, arada boş vaxtları olanda nərd də atardılar. Onlar nərd taxtasının dalında oturanda, oyunları saatlarla davam eləyərdi və Qasım Turxanı udub təslim eləməyincə əl çəkməzdi. Turxan isə Qasım dayının uduzanda yamanca pərt olmasından, cırnamasından ləzzət alardı. Onlar oynadıqları müddətdə isə ya Əminə özü, vaxtı olanda isə Nigar onlara çay verərdi. Hər üçü başa düşmüşdü ki, Turxan burada yaşamasaydı, dəhşətli dərəcədə darıxacaqdılar.

Turxanı da sevindirən bu idi ki, bu görüb-götürmüş, Tümendən beləsinə gəzib gəlmiş neftçi kişi sadəcə əli qabarlı, üzü-gözü mazutlu fəhlə deyildi və Turxanın özünü də artıq uşaq hesab eləmirdi. Onlar həyatın, cəmiyyətin mürəkkəb, ziddiyyətli, çalpaşıq məsələlərini saf-çürük eləyir, Qasım onun — «Bu əl boyda uşağın» yaşından böyük işlərdən baş çıxarmasından bir ağsaqqal kimi fərəhlənir, «Maşallah, indi ta yaxşı, samballı cavanlarımız əmələ gəlir. Amma hayıf azdı bunlar, çox azdı. Ağıllı, istedadlı gəncliyi olmayan bir millətin gələcəyi parlaq ola bilməz. Bizi özümüzünkülər müti böyüdüblər, beyinlərimizi, düşüncələrimizi bir qəlib salıb standartlaşdırıblar, az qala hamı eyni cür düşünməyə adət eləyib. Bu isə ölümə məhkumluq deməkdi. Demək, şəxsiyyət yox olur belə olanda, insan cılızlaşır, xırdalanır və olur insan yox, adamcıq» — deyə düşünürdü: Turxan isə Qasımın ürəyinə, fikirlərinə bələd olduqca fikirləşirdi ki, nə yaxşı belə ziyalılarımız var, qorxmaz, əqidəli, inamlı, torpağı, vətəni sevən böyüklərimiz var. «Mən hələ beləsini görməmişəm. Yoxdu yəni belələri? Şübhəsiz, var. Ancaq indi adamlar bir-birinə inanmır: aradakı inam hissini öldürüblər. Hər kəs öz ürəyində fikirləşir yəqin, düşündüyünü kimsəyə açıb deməyə qorxur. Onları da qınamalı deyil. İlan vuran ala çatıdan qorxar».

Qasım kişi əvvəllər Turxanın dilindən açıq-saçıq narazılıq notları eşidəndə bir xeyli fikrə getmişdi, hardansa ürəyinə axıb

dolmuş şübhə hissi uzun müddət ona rahatlıq verməmişdi: «Yoxsa bu tifili öyrədib, qurub-qoşub mənim dalımca salıblar, ay kişi? Sən də ağzını allah yoluna qoyub ürəyində nə var, dilinə gətirib deyirsən. Birdən olmadı elə, oldu belə: yazdı, apardı qoydu ovuclarına. Onsuz da mənim əskim tüstülüdü. Sonra eşşək gətir, mərək yüklə». Neçə müddət Turxanla ancaq nərd oynamışdı, söhbətə-filana imkan verməmişdi. Ancaq bir gün…

Qarlı, boz bir dekabr günüydü. Qasım dənizdən təzə gəlmişdi. Görmüşdü ki, Səlimdən də məktub alıb uşaqlar. Əminə də, Nigar da sevinc içindəydi. Turxan da həyətin yupyumşaq, ağappaq qarını təmizləyib, kürüyüb həyətdə bir qar adamı düzəltmişdi. Bu qar adam əsgər libasında idi, başındakı papaqda beşulduz şəkli çəkmişdi Turxan və sinəsinə də «Qızıl əsgər Səlim Qasımxanov» — sözlərini yazmışdı. Qasım kişi bunu görüb uşaq kimi gülümsünmüşdü: «Bu Turxanın işi olar» — deyə ürəyindən keçirmişdi və Əmindən soruşanda arvad da gülə-gülə: «— Hə, onun əməlidi. Elə sənin qızın da az kömək eləməyib. Ancaq ürəyimə bir təhər gəlir ey, Qasım. Elə bilirəm uşaq doğrudan da o cür qar içindədi, soyuqdan tir-tir əsir və mənim də canım dünəndən qızmır. Yerimə girəndə də mənə elə gəlir ki, yorğan-döşəyimin içinə qar doldurublar». «Eh, sən də… İndi yəqin onun əyin-başın qalın eləyiblər. Heç o soyuq — qar vecinə də deyil sənin Səliminin».

Axşam, həyət-bacadan, küçədən əl-ayaq çəkiləndən sonra Qasım Turxanın otağına gəlib kefi kök, damağı çağ halda:

— Hə, professor, istəyirəm axı bu uzun qış gecəsi sənin qoltuğuna bir xoruz verim ki, səhər tezdən banlayıb bizi qış yuxusundan ayıltsın, hə? Necə bilirsən? — deyə əlini-əlinə sürtüb gülümsünmüşdü.

— Əla olar, Qasım dayı. Haçandı xoruzsuz qalmışıq, səhər vaxtında oyana bilmirik. Nigar da dərsə gecikir, mən də. — deyərək Turxan qabağındakı kitab-dəftəri qatlayıb kənara itələmişdi və pəncərənin böyründə, divara söykədiyi nərdtaxtanı gətirib ortalığa qoymuş, öz köhnə, cırıldayan stulunu hörmət əlaməti olaraq Qasım kişinin altına qoymuş, özü isə kətili çəkib

əyləşmişdi. Şıdırğı oyun başlamışdı və Qasım kişinin kefini duru görüb qanına soğan doğramamaq üçün iki tas dalbadal uduzmuşdu. Qasım doğrudan da uşaq kimi sevinib gülmüşdü. Turxan pərt deyildisə də Qasım dayı hardan ağlına gəldisə də, uduzduğuna görə onun könlünü almaq məqsədilə:

— Qanını qaraltma, a bala. — demişdi. — Bu nərd də həyat kimidi. Kimi udur, kimi də uduzur. İki güləşənin biri yıxılmalıdı.

— Elədi, Qasım dayı. Bir də mən pərt deyiləm. Onsuz da siz məni çox vaxt udursuz. Deməli, səhər dərsə gecikməyəcəyik.

— Dərslərin nə təhər gedir, a bala? — deyə birdən Qasım kişi söhbətin səmtini dəyişmişdi.

— Pis deyil, Qasım dayı. Oxuyuram də. Müəllimlər nə verir, onu da eləyirəm, oxuyuram, öyrənirəm.

— Yaxşı eləyirsən, bala. Ancaq təkcə kitab oxumaq, hələ oxumaq deyil. Sən bunu başa düşürsən?

— Nə təhər yəni, Qasım dayı? — Turxan başa düşmüşdü ki, Qasım kişi sözlü adama oxşayır. Ona görə əlini üzünə dayayıb diqqətlə qulaq asmağa başlayanda o, boğazını arıdıb:

— Gərək təkcə müəllimlərin dedikləri, kitabların yazdıqları ilə kifayətlənməyəsən, oğul. Əgər istəyirsən ki, kamil insan, kamil ziyalı olasan, onda gərək həyatın özünü də oxumağı bacarasan, bala. Çünki ən böyük kitab — həyatın özüdü: onu oxuya bilmədinsə, uzağa gedə bilməzsən. Belə də, olarsan adi bir adam, adi bir müəllim, adi bir alim uzaq başı. Amma həyatın özünü oxuyan, mənim aləmimdə, yetkin, kamil bir şəxsiyyət ola bilər. Mən istəyirəm sən məhz o yolnan gedəsən, Turxan.

— Çox sağ olun, Qasım dayı.

— Bilirsən mən bunu sənə niyə görə deyirəm? Ona görə deyirəm ki, sən çox ağıllı oğlansan. Sənin gələcəyinə mən tamam ayrı cür baxıram, oğul. Ayrısı olsaydı, mən bu sözləri heç dilimə gətirib deməzdim də. Amma sən…

— Çox sağ olun, Qasım dayı. Elə mən də sizin dediyiniz yolla getmək istəyirəm. Ancaq… hiss eləyirəm çətindi. Həya-

tın özünü oxumaq lazımdı deyirsiz. Düzü, mən belə görürəm, qoymurlar həyatın özünü oxuyasan.

— Kim qoymur?

— Kim? — Turxan baxışlarını qaldırıb sınayıcı nəzərlərlə müsahibinin gözünün içinə baxmışdı. — Elə özümüz. Sən, mən, o. Biz, hamımız.

— O, çox dərin dedin, oğul. — Qasımın xırda, qonur gözləri parıldamışdı. — Xırdalasaydın, pis olmazdı, bala.

— Siz dünya görmüş kişisiz, Qasım dayı. Bu şeyləri siz məndən də yaxşı bilirsiz, başa düşürsüuz. Düzü, mən görürəm, sizin ürəyiniz doludu, ancaq açılmırsız, oxu atıb yayını gizləyirsiz, ya məni uşaq hesab eləyirsiz, ya da…

— Ya da nə, Turxan?

— Ya da o ki, siz mənə inanmırsız, Qasım dayı.

— Hmm. — Qasım kişi burda bir «Avrora» yandırmışdı və qalxıb otağın küçəyə açılan yeganə pəncərəsinin nəfəsliyini açıb təzədən qayıdaraq yerində oturmuşdu. — Sən lap gözündən vurdun, oğul. Düz deyirsən, indi adamlar bir-birinə inanmır, oğul. Bunun da səbəbi odur ki, indi düşündüyünü demək, dilə gətirmək çox qorxuludur. Gedib satırlar, yazırlar. Bir də görürsən sənin illərlə çörək kəsdiyin, oturub-durduğun bir dostun, yoldaşın səni yaxşıca satırmış. O qədər oğullarımızı aparıblar o yolnan ki, adını heç dilinə də gətirə bilməzsən. Kim eləyib bunu? Amerikadan gəlib eləyiblər? Yox, mənimki, sənin özü eləyib. Elə bil heç o özü bu torpağın oğlu deyil, elə bil o heç sənin danışdığın dildə danışmır, elə bil heç o, bir Azərbaycan qadınının döşündən süd əmməyib. Adamların gözü qorxub, bala. Odu ki, məni qınama. Sən düz tutubsan və mən sənin bu həssaslığını yüksək qiymətləndirirəm. Sənə də məsləhətim budu ki, hər yetənin qabağında ürəyini süfrə kimi açma. Bizim xalqımızın başına tarix boyu nə gəlibsə, nə gətiriblərsə, öz qəlbiaçıqlığımızdan, qonaqpərvərliyimizdən gətiriblər. Özü də ağacı qurd içindən yeyən kimi, bizi də öz qurdumuz yeyib içimizdən.

— Elədi, Qasım dayı.

— Adamların ürəyində elə bir biganəlik toxumu əkiblər ki, heç kəsin heç nə vecinə deyil. Hərə ancaq özünü düşünür. Bilirsən niyə belədi?

— Niyə?

— Ona görə ki, kitabda, qanunda hər şey bizimdi, amma həqiqətdə heç nə bizim deyil. Məsələn, kolxoz hamınındı, ancaq eyni zamanda heç kəsindi: ona görə kimin əlinə harda nə keçdi, aparır, qardaş. Zavod bizimdi, amma eyni zamanda bizim deyil. Torpaq bizimdi, ancaq eyni zamanda bizim deyil. Mən neftçiyəm. Nefti mən çıxardıram, amma neft mənim deyil.

— Neft dediz, yadıma düşdü, Qasım dayı. Bu nefti nə qədər çıxardacaqsınız? Yəni bunun bir qurtaran vaxtı olacaq ya bunun, necə deyərlər, dibi quyudadı? Baxıram, elə hey qazırsız, hey qazırsız. Əvvəl təkcə Bakını qazırdız. İndi o dəmir buruqlar ayaq tutub Azərbaycanın az qala hər guşəsinə qədəm basıb. Dənizin içinə doğru addımlayır o dəmir ayaqlar. Dayandım demirsiz. Bəs axı gün gələcək, qurtaracaq, tükənəcək. Heç ola bilməz ki, qurtarmasın, tükənməsin. Bəs iyirmi il, otuz il, əlli il, nə bilim yüz il sonra bu torpağın övladları neynəyəcək? Yenə otuz-qırx il qabaqkı kimi çıraq işığına oturacaq sizin gələcək nəvələriniz, nəticələriniz, kötücələriniz? Yəni doğrudanmı bizimkilərdən heç kəs bu barədə fikirləşmir görəsən?

Qasım kişi bədəninə iynə batırılmış kimi dik qalxıb, niyə durduğunu başa düşməyərək təzədən oturmuşdu: elə bil, görünməz, güclü bir əl onun təkləri cod, dəniz havasında, şaxtada, küləkdə yanıb tunclaşmış sifətinə taraz bir şillə çəkmişdi və o, bir neçə saniyə dinib-danışmağa söz tapmamışdı. Araya uzun bir sükut çökmüşdü və məhz bu zaman, Qasım kişi ürəyinə axıb dolan qorxu hissindən qar altında qalmış adam kimi üşümüşdü: «Göndəriblər bu oğlanı yanıma. Gör nələr danışır bu? Yox, qarantiyası olmasa əlində qələt eləyər belə şeyləri dilinə gətirər. Bəlkə də cavandı, heç o qorxunu duymur, qanmır, elə sadəcə düşündüyünü deyir? Allah, indi nə biləsən bunun qarnındakını?» — deyə bir neçə an tərəddüd içində Turxanın qəzəbdənmi,

çarəsizlikdənmi yanıb par-par parıldayan gözlərinin içinə baxmışdı və birdən o gözlərdə daxili bir yanğı görüb rahatlanmışdı: «Yox, o satqın ola bilməz. Yazığın ürəyindəki dilindədi. Bir də daha ara açılıb — onsuz da sözümü demişəm» — deyərək Turxanın sualına cavab vermişdi:

— Niyə yoxdu, ay oğul? Var. Amma nə olsun ki? Heç nə eləmək mümkün deyil.

Sonra Qasım kişi illər boyu — elə Turxan yaşda olandan ta bu günə qədər bax indicə danışdıqları bu məsələlər barədə düşündüyündən danışmışdı. Sadəcə danışmamışdı, az qala kişi ağlayırdı danışanda. Sən demə, belə düşündüyünün də ağrısını-acısını az çəkməmişdi. İnstitutu qurtarandan az sonra irəli çəkiblərmiş — ağıllı, qabiliyyətli mütəxəssis olduğuna görə, torpağın üzünə baxan kimi, hər cür aparatdan da dəqiq harada neft ola biləcəyini gözüyumulu təyin eləmək qabiliyyətinə görə. Balaca bir briqadası varmış: kəşfiyyat işlərini aparırmış. Bir gün elə həmin briqada üzvləri arasında ürəyini ağrıdan və indi Turxanla danışdıqları bu məsələdən söz salır və deyir ki, Amerika indi bizdən — Sovet İttifaqından neft alır. Siz elə bilirsiz Amerikanın nöyütü yoxdu? Var, istədiyin qədər var. Amma özününkünü saxlayır hələ. Kəşfiyyat aparırlar neft yataqları olan yerlərdə, onların ehtiyatlarını müəyyən eləyib xəritələrində nişanlayırlar və saxlayırlar. Gələcək üçün saxlayırlar. Lap elə bu bizim bəyənmədiyimiz İranda. Orda da belə eləyirlər: yataqlarının hamısını istismar eləmirlər, qardaş. Biz isə neynəyirik? Hamısını tapan kimi başlayırıq torpağın qanını sormağa, planlarımızı artıqlamasıyla doldurmağa, əvəzində isə mükafat alırıq: pul mükafatı, qırmızı bayraq. Bakı nöyütü dünyanın ən keyfiyyətli nöyütüdü. Biz isə onu su qiymətinə veririk, gedir. Bəs sabah neyləyəcək bizim xalq?

Gələcək nəsillər üzümüzə tüpürüb gorumuzu söyəcək: onları soyuq ocaq başında, çıraq işığında qoyduğumuz üçün. Əgər istəmiriksə bu torpağın sabahkı övladları bizi lənətlə yad etsinlər, biz indidən bir tədbir görməliyik, qardaşlar. Hər iki yataqdan biri ehtiyat saxlanmalıdı. Əgər qeyrətimiz varsa, anc-

aq bu yolla getməliyik. Belə demişmiş Qasım kişi o vaxt. Demişmiş, ancaq heç nə eləməmişmiş. Düz bir həftə sonra… onu işdən çıxardıblar. Yerinə «Azneft»in bir işçisini qoyublar. — Leonid Kursantov adlı bir nəfəri. Briqada əvvəl — Qasım kişinin vaxtında yalnız özümüzünkülərdən ibarət imiş. Dağıdıblar və onu internasional bir kəşfiyyat dəstəsinə çeviriblər. Sonra da qəzetlərdə bu internasional briqadanı o ki, var tərifləyiblər.

— Deməli, kimsə, sənin elə öz dəstəndən gedib xəbər verib. Elə deyil?

— Əlbəttə. Ancaq bilmədim kim idi, hansı əclaf idi.

— Nə fərqi vardı? Hər halda özümüzünkü idi və o da özünü yəqin bu torpağın oğlu hesab eləyirmiş.

— Hə, bala. Elə məni yandıran da bu olub həmişə. Öz çayımızın quşunu öz çayımızın daşı ilə vurublar həmişə. — Bu sözləri deyəndə Qasım kişinin gözləri dolmuşdu.

— Bəs sonra… neylədin?

— Məni tutacaqdılar. Partiyadan çıxartmışdılar, onun dalıyca da tutmalıydılar. Ancaq o zaman «Azneft»də bir yaxşı kişi işləyirdi. Babazadə. Ramanalıydı. İndi ölüb. Allah ona rəhmət eləsin. O məni başa saldı ki, aradan çıxım. Qaçdım Türkmənistana. «Türkmənneft»də üç il fəhlə işlədim. Sonra Tümenə getdim. Beş il də orada Sibir soyuğuna dözə-dözə yaşamalı oldum. Onda Tümen neftinin izinə təzə düşmüşdülər. Sonra torpaq çəkdi, qayıdıb gəldim Vətənə. Gəldim gördüm atam-anam dünyadan köçüb. Bax, ata mülküm olan bu həyət-baca sahibsiz, it günündədi. Qonşumuzda bir Həsən dayı var idi. Tək kişiydi. Evlənməmişdi, oğul-uşağı yox idi. Qırçı işləyirdi. Məni yanına köməkçi götürdü. Sonra bu Əminə xalanla evləndim. Gec evləndim. Ona görə mənim övladlarım belə körpədilər yaşıma görə.

— Bəs təzədən dənizə, neft işinə necə qayıtdın, Qasım dayı?

— Elə belə. Qara fəhlə kimi. Diplomumu-filanımı üzə çıxartmadan.

— Başın müsibətlər çəkibmiş ki, sənin, Qasım dayı?

— Hə, oğul. Belə-belə işlər. Sənin Qasım dayının həyatı belə keçib. İndi qocalmışam daha. Təqaüdə çıxmağıma az qalıb. Amma hərdən fikirləşirəm, görürəm ömrüm hədər gedib və bu, məni yaman çox sıxıb əzir. Sən hələ cavansan, həyatını elə qur ki, axırda mənim kimi peşimançılıq ocağında yanıb-yaxılmayasan. Çox böyük, mən deyərdim ki, yerə-göyə sığmayan arzularım var idi. Heç birinə çata bilmədim, bala. İndi… saçımın-saqqalımın bu çal vədəsində tək bircə arzuyla yaşayıram.

— Nədi o arzu, Qasım dayı? — Turxan başına gələnləri dinləyəndən sonra yazığı gəldiyi Qasım kişidən soruşmuşdu. — Nədi o arzu?

— Uşaqlarımı oxutdurub yerbəyer eləmək, vəssalam. Başqa heç nəyin fikrini eləmirəm, oğul.

O qarlı dekabr gecəsi, Səlimin həyətdəki «buz heykəl»i şaxtadan donub şüşələnən, özü isə nazik yorğan altında büzüşüb yata bilmədiyi o soyuq gecə, təklikdən, arxasızlıqdan, yetimlikdən yana taleyindən küskün olan Turxan, Qasım dayıya rast gəldiyinə görə və onunla belə qaynayıb-qarışıb dostlaşdığına görə çox sevinmişdi və ona elə gəlmişdi ki, eyni vaxtda iki Universitetdə oxuyur: gündüzlər birində, axşamlar digərində. Bir Universitetdə — elm öyrənir, o birində isə həyatın özünü. Ancaq sən demə, bunu da çox görəcəkmiş Turxana. Tezliklə Qasım dayını Əminə xala kimi, Səlim və Nigar kimi, çox sevdiyi o mavi gözlü dəniz kimi, Turxan da itirəcəkmiş tezliklə.

Dekabrın otuzunda, günortadan sonra Qasım dayının meyidini gətirmişdilər həyətə. Sabah gələsiydi, yeni ili arvad-uşağının yanında, isti ocağının başında keçirmək üçün. Söz vermişdi ki, mütləq gələcək. Amma gələ bilməmişdi, verdiyi vədədən də bir gün qabaq gətirmişdilər. Dənizdə bərk fırtına qopub, külək güclənib və ağarıb köpüklənmiş dalğa estakadanın üstündə dayanmış Qasım dayını vurub dənizin dəli qoynuna atıb. Bəlkə də xilas eləmək olarmış, ancaq bədbəxtlikdən başı armatura dəyib parçalanıb. On beş dəqiqə keçməmiş dalğaların qoynundan çəkib çıxaranda artıq kişi keçinmişmiş. — Bunu Qasım

kişinin meyidini gətirən fəhlə yoldaşları danışmışdı. Yazıq yoldaşları yamanca pərt olmuşdular. Başlarını qaldırıb Qasım dayının arvad-uşağının üzünə baxa bilməmişdilər. Gələnlər Turxanı mərhumun oğlu sanıb onu bir kənara çəkmiş, başsağlığı vermiş, oğlanın cibinə də beş yüz manat pul qoymuşdular: «Trestin Həmkarlar Komitəsi yardım kimi ayırıb mərhumun ailəsinə». Dəfnin yəqin ki, sabah olacağını öyrənib çıxıb getmişdilər. Əsil müsibət bundan sonra başlanmışdı. Əminə xala da, Nigar da sanki sonradan başa düşmüşdülər ki, üstüörtülü bu tabut nə deməkdi və vay-şivən təzədən başlamışdı, özü də necə başlamışdı, aman allah. Turxan da dözə bilməyib onlara qoşulmuşdu, arada gah Əminə xalaya, gah da özünü az qala öldürən Nigara təsəlli verməyi də unutmamışdı. Adamsız olmağın dəhşətini Turxan yaxşı bilsə də, bu dərəcədə təsəvvür eləməmişdi. Yenə sağ olsun qonşular. Yığışıb gəlmişdilər, böyük otaqda, mizin üstünə qoyulmuş tabutun ətrafında oturub sabahkı dəfnin tədbirini tökmüşdülər. Arvadlar o biri otağa yığışmışdılar — deyə Əminə arvada heç kəsin əli çatmamışdı. Onsuz da onun söz soruşmalı, məsləhət verməli bir halı qalmamışdı. Buna görə də elə qonşular da, evin oğlu kimi, hər şeyi Turxana demişdilər. Turxan da necə məsləhət olmuşdu, o cür də hərəkət eləmişdi. Birinci növbədə Sovet küçəsindəki poçtxanaya qaçaraq Qazaxıstana, Səlimin hərbi hissəsinə təcili bir tel vurmuşdu: «Atan ağır xəstədir, təcili gəl». Öldüyünü yazmağa əli gəlməmişdi. Gecə yarı olanda qonum-qonşu dağılışıb ev-eşiyinə gedəndə, yaşı səksəni haqlamış Mürsəl baba Turxana demişdi:

— Gecə gərək bir nəfər meyidin yanında qalsın, bala. Əminəni qoyma, arvad xeylağıdı, qorxar.

— Yox, yox. Qoymaram, Mürsəl baba. Özüm qalaram.

— Allah köməyin olsun, oğul. Sabah tezdən gərək məscidə aparılsın, yuyulsun, kəfənlənsin. Sonra da qəbir qazdırmaq üçün adam göndərmək lazımdı. Saat üçdə-dörddə dəfn olunar. Onacan da Səlim hayanda olsa özünü yetirər.

— Eləyərik, Mürsəl baba. Çax sağ olun, ömrünüz uzun olsun. — deyə ölü sahibi kimi dil-ağız eləmişdi Turxan Mürsəl

babaya. Gecə yarıdan keçənəcən Əminə, Nigar və Turxan meyid olan otaqda oturub ağlayıb- sıtqamışdılar. Əminə lap əldəndildən düşmüşdü. Gözləri ağlamaqdan şişib qızarmışdı. Sağ üzünü dırnaqları ilə necə cırmışdısa, qanı hələ də qurumamışdı. Nigar aşağı tərəfdə, köhnə divanın üstündə əyləşmişdi, göz yaşlarını saxlaya bilmirdi. Belini əyib dirsəklərini dizlərinə dayamışdı. Turxan isə daha təsəlli verməyə söz tapmırdı. Eləcə kənarda dayanıb key kimi tamaşa eləyirdi. Saat birdə Turxan görmüşdü ki, Nigar oturduğu yerdə yatır.

— Sən dur, get yat, Nigar. Gecə yarıdan keçib. — demişdi Turxan asta, hüznlü bir səslə. Öz dərdlərinə, müsibətinə qapılıb gözlərini üstünə qara örtük çəkilmiş tabutdan çəkə bilməyən, yanıb vaysına-vaysına başını tərpədən Əminə Turxanın sözlərini eşidib qızına baxmışdı və uşağın qızarmış gözlərinin yumulduğunu görərək:

— Dur get yat, ay qız. — söyləmişdi. — Get gir öz yerinə, yat.

— Mən qorxuram…

— Nədən, ağəz?

— Bilmirəm. Qorxuram…

— Əminə xala, siz də gedin yatın. Mən burdayam. Sabah onsuz da iş çox olacaq. Yatmasaz, ayaq üstə dura bilməzsiz. Uşağı da götürün, gedin yatın.

Nigar o dəqiqə ayağa qalxmışdı və nə üçünsə Turxana tərs-tərs baxıb qapıya sarı getmişdi. Turxan bu baxışın mənasını başa düşə bilməmişdi. Ancaq nə qədər qəribə olsa da, elə o an — bu gərgin və müsibətli anda Nigarın qəlbində anlaşılmaz bir duyğu baş qaldırmışdı — elə bil o ana qədər Nigar Turxanı görmürmüş, onda birinci dəfə rast gəldiyi bir adam kimi ani olaraq baxmışdı və nədənsə o pəncərənin qarşısında əzizi ölmüş kimi qollarını qucaqlayıb dərin kədərinin kölgələndirdiyi baxışlarını ona zilləyib o sözləri deyən Turxan birdən-birə ona çox doğma görünmüşdü. Bütün vücudunu saran, gözlənilməz tufan kimi gəlib qəlbini bu vaxta qədər duyub hiss eləmədiyi bir titrəyişlə tərpədən o anlaşılmaz duyğunun dalınca eşitdiyi «Uşaq»

sözü qızı özündən asılı olmayaraq qəzəbləndirmişdi. Sən demə, Nigarı yerindən qaldırıb qapıya sarı çəkən də elə o qəzəb hissi imiş. Turxan Nigara uşaq demişdi

Ay aman, bu nə dəhşətli dünyadı, necə başaçılmaz aləmdi, ilahi. Nigarın dünyada hamıdan çox istədiyi bir adam — doğma atası vəfat eləyib, meyidi necə deyərlər, hələ soyumayıb, yara hələ istidi, gözlərini yaş hələ göynədir Nigarın, — bu dəmdə o nə hiss idi axıb doldu birdən-birə ürəyinə? Məhəbbət idi bu? Məhəbbət yəni belə olur? Məhəbbət yəni belə naqolay anlarda gəlir və ya gələ bilər? Bax o hiss qızın cavan ürəyində doğulan o anlarda Turxanın kədərli gözləri necə də gözəl idi, aman allah. Bəs niyə bu neçə ayda Nigar onları görməmişdi? Niyə? Elə bu iki daşın arasına qalmışdı yəni bu? Yox. Heç nə anlamırdı indi Nigar. Elə Turxan özü də heç nə başa düşmürdü — niyə bu qız birdən-birə ona elə tərs-tərs baxmışdı? O sehirli an bir sözsüz mahnı idi sanki. Oxunmuşdu, dinlənilmişdi, ancaq sözə çevrilə bilməmişdi. Çünki çox namünasib bir məqamda doğulmuşdu. Bunu hələ sonralar, o qəmli və müsibətli gecədən neçə il sonra açıb-ağardacaqdılar və dilə gətirəcəkdilər. İndi isə…

Əminə Nigarın dalınca duranda, Turxan bayaq kambinzonlu, saqqallı fəhlənin cibinə dürtdüyü pulu çıxarıb irəli uzatmışdı.

— Bu nədi, ay oğul? — Təəccüblə soruşmuşdu Əminə arvad.

— Puldu, Əminə xala. Qasım dayının yoldaşları verdilər bayaq. Həmkarlar Komitəsinin yardımıdı — dedilər. Beş yüz manatdı.

Əminə arvadın gözləri təzədən bahar buludu kimi sıxılıb qan-yaş tökməyə başladı:

— Ay Qasım, ay evimin dirəyi, gör səni əlimdən alıb əvəzində nə verirlər? Yandım, ay allah, yandım. — Əlindəki pula baxmış və təzədən Turxana qaytarmışdı:

— Qoy qalsın səndə, oğul. Səndən başqa burda mənim bir başıpapaqlım yoxdu. Sabah onsuz da pül gərək olacaq. — Turxan almaq istəməmişdi, Əminə zorla cibinə dürtmüşdü. Bunu Nigar da görmüşdü və o da doluxsunmuş halda üzünü yana çevirmişdi. Bu dəfə Turxana baxmamışdı da. Qabaqca qız çıxmışdı, dalınca Əminə. Turxan otaqda tək qalmışdı. Ancaq heç bir dəqiqə də keçməmiş, həyətdə bir vay-şivən qopmuşdu ki, Turxanın tükləri biz-biz olmuşdu və hövlnak özünü çölə atmışdı. Gördüyü və eşitdikləri dəhşətli idi: Əminə arvad oğlunun buz heykəlini qucaqlayıb ağı deyirdi:

— Ay oğul, ay arxam-köməyim, niyə burda heykəl kimi donub qalıbsan? Görmürsən başımıza nə müsibət gəlib, evimiz yıxılıb? Ta atan yoxdu, bala. Yetimsən ta. Sən də, bacın da. Elə mən də.

Səlimin buz heykəli təbii ki, susub dinməmişdi, Nigar anasının qolundan tutub içəri çəkmişdi, Turxan isə kövrəlib Səlimə buzdan heykəl düzəltdiyinə yamanca peşiman olmuşdu: hətta o heykəli uçurub sındırmaq da istəmişdi. Ancaq bunun mümkün olmadığını tez başa düşmüşdü — çünki qar şaxtadan donub dəmirdən möhkəm olmuşdu.O gecə Turxan meyidin baş tərəfində oturub çimir də eləməmişdi. Və o gecə ömründə ilk dəfə bu ölüm deyilən yolun hələ açılmamış sirrləri barədə dərindən-dərinə düşünmüşdü, qəlbində doğan min bir suala cavab tapa bilməyib insanın həyatın bu son körpüsünü keçmək istəməməsi, lakin istəməyə-istəməyə də keçməli olduğunu dərk edib ümidsizliyə qapılmışdı.

Qasım kişini az oturub-dursa da, yaxşı tanımışdı Turxan və sevmişdi. Başı min bir fəlakət çəkmiş o sadə adamın ömürgün yolu bir roman idi — o romanın çox az bir qismini Turxan oxumuşdu. Lakin elə bu da kifayət idi ki, Qasım kişini öz doğma bir adamı kimi sevsin. Qasım adi, əli, paltarı mazutlu bir fəhlə deyildi, onun tanıdığı bir çox boynu qalstuklu, başı şlyapalı alimdən, ziyalıdan daha çox bu torpağa bağlı, o dənizi sevən, bu xalqın sabahını da düşünən bir insan idi. Turxanın nəzərində Qasım kişi bir parça vətən torpağı idi ki, ayaq üstə gə-

zirdi, düşünürdü, dərd çəkirdi: bir sözlə, elə bir torpaq parçası idi ki, onu ürəyinə, düşüncəsinə, qeyrətinə, çəkdiyi (özününkülərin çəkdirdiyi) müsibətlərə görə sevməmək mümkün deyildi.

İndi budur, həmin sevimli insan üstü qara örtüklü tabutun içindədi. Heç nə görmür, heç nə eşitmir və kimsəyə də cavab verəsi halda deyil, sabah isə torpağa tapşırılacaq və bununla da hər şey bitəcək. Daha heç kəs Qasım kişini nə çox sevdiyi o mavi dənizin qoynunda, nə bu balaca həyətdə görəcək. Birdənbirə yaranmış bu yoxluqdan dəniz də dəli ola bilər, bu həyətin adamları da. Amma Turxan sonralar başa düşəcəkdi ki, bu yoxluq dənizin heç vecinə də olmayacaq: əgər dənizin ürəyi və vicdanı olsaydı, onu o cür dərin bir məhəbbətlə sevən adama qıymazdı, əsib-coşmazdı, elə tufan qoparmazdı, onun atlas köynəyinin üstünə bir kibrit çöpü belə atmağa qıymayan, qırçın dalğalarının arasında bir damcı neft görəndə dəli olan Qasım kişini öz rəhmsiz qolları ilə boğub öldürməzdi. Məgər səni özündən də çox sevəni incitmək, ona zülm eləmək insafdandı? O gecə Turxanın fikri çox haçalanmışdı, çox uzaqlara uçmuşdu və hətta ürəyinə belə bir şübhə də axıb dolmuşdu ki, Qasımı kimsə öz yoldaşlarından biri itələyib salmasınmı o quduz suların qoynuna? Olmazdı? Axı Qasım kişinin ürəyi o «internasional» deyilən briqadanın üzvlərinin bir neçəsinə məlum idi. Nə bilmək olar: ölüm insanı elə susdurur ki, heç nə deyə bilmir.

Nə isə, o gecə, o gecə, Turxanın Qasım kişinin meyidi yanında keçirdiyi o şaxtalı, ayazlı gecə dünyanın ən uzun gecəsi olmuşdu və Turxan beynini, ürəyini deşib dağıdan çox suallarına cavab tapa bilməmişdi. Səhərisi isə başqa bir sual da doğmuşdu ki, Turxan bunu heç cür anlaya bilməmişdi və üstündən uzun-uzun illər keçəndən sonra da ona düz-əməlli bir cavab tapa bilməyib heyrətlə gözlərini döyə-döyə qalmışdı.

Sən demə, adicə ölməklə iş bitmirmiş bu şəhər deyilən dünyada. Ölü idarəsi varmış, sən demə. O idarənin müdirinin imzalayıb möhürlədiyi ölüm arayışı (hələ ondan qabaq bir həkim-ekspert arayışı da lazım olmuşdu) olmadan şəhər qəbiristanlığında yer almaq mümkün deyilmiş, sən demə, Turxan bu-

na da dözmüşdü. Lakin mərhumu dəfn eləmək üçün ayrılan yerin də ayrıca haqqı varmış və bunu hər hansı bir işbaza, heç nədən pul qazanmaq istəyən dələduza yox, dövlətin kassasına vermək lazım imiş. Və bu pul da az-azacıq deyilmiş, düz yüz qırx üç manat imiş. Bəli, qəribə-qəribə işlər varmış bu dünyada və Turxanın bunlardan xəbəri yoxmuş. Bəli, anadan ol bu torpağın qoynunda, o, səni böyütsün, yedirtsin, ağlın söz kəsəndən, əlin iş tutandan xidmət elə bu torpağa, ürəyini, gücünüqüvvətini əsirgəmə ondan, sev, əzizlə, fəxr elə, başının üstünü qara bulud alanda get canını ver qızıl güllənin qabağına, yolunda ölümə belə hazır ol, ancaq bir gün əcəlin çatıb bu dünyadan köçəndə çox sevdiyin bu torpağın bircə qarışını da sənə qıymasınlar: pulunu almasalar səni dəfn eləməyə arvad-uşağının ixtiyarı olmasın. Bax, bu dəhşət idi və Turxan bunu heç bir ağla — məntiqə sığışdıra bilməmişdi. Evdən ölü idarəsinə, oradan təzədən evə, təzədən o idarəyə, sonra kassaya, kassadan təzədən ölü idarəsinə və nəhayət, oradan da qəbiristanlığa qaçaqaça gedən və soyuqdan əli-ayağı donmuş Turxan qəbiristanlıqda — qəbir qazanları tapıb necə deyərlər, qanı qiymətinə (Qəbirqazanlar deyirdilər ki, hava çox soyuqdu, üstəlik yer də dondu, onu gərək külünglə qazaq və buna görə qiyməti baha olmalıdı və bu da elə məqamdı ki, çənə-boğaz eləmək olmaz, nə istədilər gərək verəsən, çünki qış gününün ömrü uzun deyil, qaranlığa düşmək olmaz, həm də meyidi saxlamaq da günahdı) qəbir qazdıranacan bir dünyalıq şey görüb-götürüb öyrənmişdi və qəbiristanlıqdan evə gələnəcən fikirləşmişdi və sanki Qasım dayı da onunla yanaşı addımlamışdı: Turxan ona ürəyindəcə demişdi: «Belə-belə işlər, Qasım dayı. Ömrünü qurban verdiyin bu torpağın bir qarışını da axırda sənə satdılar. Yaşamağın çətin olduğunu bilirdim, amma ölməyin daha çətin olacağını heç təsəvvürə də gətirməmişdim, Qasım dayı. Sən öldün, canını-başını götürüb getdin. Bəs qalanlar? Mən indi səndən çox, qalanların halına ağlayıram, Qasım dayı». Turxan öz-özünə danışa-danışa evə gəlmişdi və görmüşdü ki, Səlim hələ də gəlib çıxmayıb. Meyidi isə məsciddə yuyub gətiriblər.

Xeyli gözləmişdilər, Səlim gəlməmişdi və ağsaqqalların məsləhəti ilə, Əminə arvadın etirazına baxmayaraq, Qasım dayını aparıb dəfn eləmişdilər. Üç gündən sonra məlum olmuşdu ki, Turxan teleqramı vuranda çaşıb hərbi hissənin nömrəsində bir rəqəmi səhv yazıb. Bunu o özü «kəşf» eləmişdi və xəcalətindən az qala ölüb yerə girmişdi. Bu, çox böyük günah idi, bağışlanmaz səhv idi və Turxan bunu ömrü boyu özünə bağışlaya bilməyəcəkdi. Utana-utana, qorxa-qorxa əhvalatı Əminə xalaya deyəndə Turxan gözləmişdi ki, arvad yarasına toxunulmuş qaplan kimi onun üstünə atılacaq və üç gün əvvəl, ərinin meyidi gətiriləndə elədiyi kimi, iti caynaqları ilə Turxanın üzgözünü cırıb al qanına qəltan eləyəcək. Ancaq belə olmamışdı: Əminə arvad günahkar baxışlarını yerə zilləyərək çəkinə-çəkinə, asta səslə, sonsuz bir kədər içində o sözləri deyən Turxanı dinləyəndən və işin nə yerdə olduğunu keyləşib kütəlmiş ağlı ilə dərk eləyəndən sonra, ala gözləri dolmuşdu və mehriban ana nəvazişi ilə:

— Bəlkə elə belə yaxşıdı, ay oğul. — demişdi. — Qoy balam hələ elə bilsin ki, atası sağdı. Səlim onu çox istəyirdi, indi istəməsin, bəlkə də dözməzdi, uşağımın ürəyi partlardı.

— Yox, mən bu səhvimi bağışlaya bilmərəm heç vaxt özümə, Əminə xala. Axı o — Səlim bir də heç vaxt atasının üzünü görməyəcək, görə bilməyəcək, Əminə xala. — demişdi və uşaq kimi ağlamışdı. Pəncərənin qabağında dayanıb anası ilə Turxanın bu söhbətini eşidən Nigar əvvəlcə əsil mətləbi başa düşməmişdi: ancaq Turxanın ağladığını görəndə elə bil yuxudan ayılmışdı və onun da gözləri dolmuşdu. Nigar bu ötən sarsıntılı üç günün içində ikinci dəfə Turxana qarşı ürəyində qəribə bir doğmalıq duymuşdu və bilməmişdi ki, buna sevinsin ya kədərlənsin: anlamamışdı ki, Turxana nifrət eləsin — çünki onun səhvi ucundan əziz qardaşı — qərib yerdə olan Səlim atasının üzünü heç olmasa son dəfə görmək səadətindən məhrum olmuşdu, ya da minnətdar olsun — çünki Səlim gəlib atasının öldüyünü görəndə bəlkə də anası demiş, dözməyib tələf olacaqdı. Nigar bu dolaşıq duyğular içində gözləri yaşarmış və sifə-

tinə dərin bir peşimançılıq həkk olunmuş Turxana baxa-baxa onun halına acımışdı.

Qasım dayının yeddisi çıxandan sonra havalar isinmişdi, günəş qarı əritmişdi və Səlimin buz heykəli də yavaş-yavaş əriyib balacalaşmış və nəhayət, yox olmuşdu. Zaman da qış qarı kimi hiss olunmadan əriyib günləri, həftələri, ayları udub «gedər-gəlməz»ə yolladıqca bu balaca ailənin dərdi də sönən ocaq kimi öləziyib azalmış, həyat hər şeyi öz yerinə qoymuşdu. O ağır itkini hər gün xatırlamışdılar bu evdə — səssiz-səmirsiz, hər kəs ürəyindəcə ağlamışdı — ana da, qız da, Turxan da. Bu dərd ancaq o zaman çılpaqlanıb ürəklərinin qaysaqlanmış yarasını təzədən qanatmışdı ki, Səlimdən — Qazaxıstandan məktub gəlmişdi. Səlim məktublarını həmişə Nigarın üstünə yazardı və o, məktublarda anasını, atasını, onun öz işlərini — dərslərini soruşardı, Turxanın vəziyyəti ilə maraqlanardı və ona salam deməyi xahiş eləyərdi. Nigar da hər şeyi yerli-yataqlı yazmağı xoşlardı və ailənin dolanışığından, məhəllə yeniliklərindən ətraflı yazandan sonra Turxandan söz açardı. Ancaq o bədbəxt hadisə baş verəndən sonra Nigar çaşmışdı, dili tutulmuş, qələmi korşalmışdı elə bil. Məktubları qısalmışdı, qurulaşmışdı, duzunu-dadını itirmişdi. Əlbəttə, Əminə arvad da, Turxan da ona bərk-bərk tapşırmışdılar ki, kişinin tələf olması barədə uşağa bir kəlmə də yazmasın və Nigar da yazmamışdı. Ancaq indi hər dəfə Səlimdən kağız gələndə də Səlim: «Atam necədi?» — deyə soruşanda onlar özlərini saxlayammırdılar. Hətta son məktublarında — atası öləndən sonra yazdığı məktublarda oğlan tez-tez xəbər alırdı ki, atamı demək olar ki, hər gecə yuxumda görürəm, xəstə-zad deyil ki? Nigar bu sözləri ucadan oxuyanda ana da, Turxan da, elə o özü də kövrəlib ağlayırdı. Həmişə də Səlimdən məktub alanda və o sarsıntıları keçirəndə əlavə bir dərd də onları yamanca titrəmişdi ki, ilahi, uşaq qayıdıb gələndə ona necə və kim deyəcək ki, sənin atan daha yoxdu, bala, özünü ələ al. Və o, anasını, bacısını, xüsusən Turxanı son görüşdən, daha doğrusu, son vidalaşmadan onu məhrum etdikləri üçün bağışlayacaqdımı, bağışlaya biləcəkdimi? Onlar bu dərdin

önündə yarpaq kimi titrəyərkən tamam gözlənilməz və adamı sarsıdan başqa bir hadisə də baş vermişdi: Qazaxıstandan, Səlimin qulluq elədiyi hərbi hissədən polk komandirindən teleqram gəlmişdi: «Nemedlenno priyezjayti. Sın v bolnitse».

Teleqram iyunun axırıncı günü gəlmişdi. Əminənin, Nigarın nə hala düşdüyünü Turxan görüb lap qorxmuşdu. Ana-bala başını itirmişdi, çaşıb qalmışdılar. Əminə xala tək gedə bilməzdi — ömründə Bakıdan çıxmamışdı və üstəlik dil də bilmirdi. Digər tərəfdən Nigarı da tək qoyub getmək mümkün deyildi. Turxan imtahanlarını təzəcə bitirmişdi və Darülfununun komsomol komitəsinə gedib xahiş eləmişdi ki, onu yay aylarında pioner düşərgələrindən birinə göndərsinlər, işləsin, bir az pul qazansın və tamam tökülmüş əynini-başını bəlkə təzələyə bildi. Xahişini və vəziyyətini nəzərə alaraq onu Bilgəhdəki «Qağayı» pioner düşərgəsinə düzəltmişdilər və iki gündən sonra ora getməliydi Turxan. Ancaq o ocağının bir küncünə sığındığı bu başıbəlalı ailəni bu çıxılmaz vəziyyətdə qoyub pul qazanmağa getməyi öz mənliyinə sığışdırmamışdı:

— Siz narahat olmayın, Əminə xala. Yəqin xəstələnib yüngülcə. Mən gedib dəyərəm.

Birinci hissənin sonu

Bakı, 1988

KİTABIN İÇİNDƏKİLƏR

ROMANLAR

Xoş gəlmisən, Nərgizim 10

Ölüm yoxdur..... 109

Möcüzə 223

Yandırılmış adam 390

ƏLİBALA QÜDRƏT OĞLU HACIZADƏ

Ə S Ə R L Ə R İ
X CİLDDƏ

VII CİLD

Bakı – 2005

Nəşriyyatın direktoru: **Hafiz Abıyev**
Nəşriyyat redaktoru: **Qabil Xeyrullaoğlu**
Korrektor: **Nurlanə Qasımlı**
Operator: **İradə Həsənli**
Çapçı: **Mircəlal Kazımov**
Cildçi: **İlyas Cəlilov**

Çapa imzalanmışdır: 02.09.2005. Sifariş № 36. Formatı 84x108$^{1/32}$.
Həcmi 29,8 ç.v. Tirajı 1500 nüsxə.

Azərbaycan MEA Geologiya İnstitutu «Nafta-Press» nəşriyyatının mətbəəsi,
Bakı şəh. H.Cavid pr. 29 A. Tel.: 4393972